*Redaкtoru:* **Mahmud Mahmudov**

**Ə.Hacızadə. Əsərləri, X cilddə, II cild**, Bakı, «Nafta-Press», 2004, 504 səh.

---

Yazıçı Əlibala Hacızadənin bütün əsərlərini əhatə edən X cildliyinin II cildinə müəllifin bir neçə povesti və «Təyyarə kölgəsi» romanı daxil edilmişdir.

**H** $\frac{4702060000-2}{071(2004)}$ **Qrifli nəşr.**

**© «Nafta-Press» nəşriyyatı, 2004**

*Kitab **«Gülağa Qənbərov Xeyriyyə Fondu»**nun maliyyə dəstəyi ilə nəşr olunmuşdur və Azərbaycan oxucularına təmənnasız paylanılır.*

# POVESTLƏR

# İNAM

*«Dünyada heç kəsin inamını öldürüb, əl-qolunu yanına salma. İnam öldürmək insan öldürməyə bərabərdir, oğul!»*

***(Atamın məktublarından)***

## I

Yaz yağışı yağdı da, kəsdi də. Seyrək bulud topaları, dağılaraq cənuba sarı axıb getdi. Gün çıxdı, göyün üzü açıldı. Hava elə saflaşdı, elə yüngülləşdi ki...

Burula-burula şəhərə doğru uzanan asfalt yol indi qara ayna kimi parıldayırdı; üstündə yerisəydin şəklin düşərdi. O yanda, gün-doğanda, üfüqlərin ətəyinə toxunan mavi dənizdə isə uzun bir zolaq əmələ gəlmişdi; elə bil qızıl pullu nəhəng bir balıq kürəyini sudan çıxardıb özünü günə verir, şirin-şirin xumarlanırdı. Qumlu sahildən azca aralı, suyun içində, dirəklər üzərində düzəldilmiş taxta mərələrə sığınıb yağışın keçməsini gözləyən həvəskar balıq ovçuları qalxıb gərnəşir, gəzişib qırışıqlarını açır, ancaq nəzərlərini sudan, tilovdan çəkmirdilər.

Motor uğultusu eşidildi. Dağın döşündəki daş karxanasından nərildəyə-nərildəyə bir maşın qalxırdı; yükü ağır, yolu yoxuş və sürüşkən olduğundan güclə irəliləyirdi. Kənardan baxana elə gəlirdi ki, radiatorun üzərində ayağını yerə bərk dirəyərək, boynunu irəli uzatmış vəziyyətdə təsvir olunmuş iribuynuzlu öküz də maşını bu sürüşkən yoxuşdan çıxarmaq üçün belə zor eləyir.

Çətin yol qurtardı. Maşın asfalta çıxıb şəhərə sarı döndüyündən adi qaydada işləməyə başlayan motorun səsi yaş asfalt üzərində qəribə qıjıltı ilə hərlənən təkərlərin səsinə qarışıb su şırıltısına bənzər qulaq oxşayan bir ahəng əmələ gətirdi. Tək motor yox, sükan arxasında otur-

muş enlikürək oğlan da nəfəsini dərib rahatlandı. Sonra başını pəncərədən bayıra çıxartdı, qapının böyründə dəmir çubuğun ucuna bənd edilib azacıq yana əyilmiş balaca, girdə aynada arxaya figir verdi. Daldan maşın gəlmirdi. Nəzərlərini dolandırıb güzgüdə gözucu özünə baxdı. Külək qara, cod saçlarını oynadır, uzun kirpiklərini titrədir, qolsuz, mil-mil köynəyinin açıq yaxasından içəri dolub bədənini sərinlədirdi. Sol əlini qaldırıb adəti üzrə bığını sığallamaq istədi. Ancaq bığ yerinin tərtəmiz olduğunu görüb, əlini aşağı saldı, sükan çarxının üstünə qoydu.

«Bığımı yaxşı elədim vurdum, məni yaşlı adama oxşadırdı. Xatirə düz deyir, cavana bığ o qədər də yaraşmır. Amma Toğrul ay güldü ha!..».

Toğrul Bəhruzla Xatirənin ilki idi. İki yaşı üç həftə bundan irəli tamam olmuşdu. Şirincə danışırdı. Xatirə demişkən, lap yeməli vaxtı idi. Bəhruz hər gün axşamçağı işdən gələndə Toğrul atasının qabağına qaçıb qucağına atılır, o da aşağı əyilib uşağı yerdən üzür, bağrına basaraq üz-gözündən öpürdü. Bu vaxt onun «gürcü bığı» Toğrulun sifətini dalayır, uşaq özünü kənara çəkib üz-gözünü qırışdırırdı:

– Uuf, titan!..

O, bu sözü elə şirin deyirdi ki, Bəhruz da, Xatirə də istər-istəməz gülürdülər. Dünən Toğrul yenə bu sözü dilinə gətirəndə Xatirə onu atasının qucağından alıb:

– Ay Bəhruz, sən allah, bu bığını vurdur getsin. Uşağın-böyüyün üzünə tikan kimi batır, – dedi. – Nəyə lazımdır ey!

– Həə? Böyüklərin də şikayəti var imiş ki, mənim bığımdan. Yaxşı, onda vurduraram.

Bu gün səhər Toğrul yuxudan ayılanda atasını bığsız görüb təəccüblənmişdi. Anası bunu sezib:

– Toğrul, atanın bığı hanı? – dbyə soruşmuşdu. Toğrul əllərini yana açaraq:

– Hanı?– demişdi.

Xatirə də eyni hərəkətlə onu yamsılamışdı:

– Hanı?

– Qokqı

– Bəs necə oldu?

– Piş-piş apaldı.

Hər ikisini gülmək tutmuşdu.

İndi bu söhbət yadına düşəndə Bəhruzun dodağı qaçdı. Başını çöldən çəkib düz oturdu. Şüşəsi sınıb tökülmüş ampermetrin yerinə saldığı balaca şəklə – oğlunun şəklinə baxdı. Bunu o, Toğrulun ad günündə fotoaparatla özü çəkmişdi. Uşaq gülürdü. Xırda dişləri mirvari kimi ağarırdı. İri, qəşəng, qatlama kirpikli gözləri qıyılmışdı. Hiss eləmək olurdu ki, o, nəyəsə ürəkdən gülür. Həssas bir adam bu şəklə diqqət yetirsəydi, uşağın ürəkdən qopub gələn, sifətinə işıqlılıq, məsumluq bəxş edən o şaqraq gülüşünü açıq-aydın eşidə bilərdi – Bəhruz eşidən kimi..

Ata oğlunun şəklinə baxa-baxa qəlbində astaca bu sözləri pıçıldadı: «Gül, bala, gül. Qoy bu qayğısız gülüşlər ömrünün yaraşığı olsun. Dərd, qəm bilməyəsən. Bax, beləcə böyüyəsən, gülə-gülə böyüyəsən. Mənim gördüyüm o sıxıntılı günləri sən görməyəsən, oğul!»

Bəhruzun uşaqlığı ağır müharibə illərinə düşmüşdü. Neft mədənlərində fəhlə işləyən atası Rüstəm elə dava başlanan günü cəbhəyə getmiş, Umleyla öz körpəsi ilə İçəri şəhərdə, Xan sarayının yanındakı yarımzirzəmi evdə tək qalmışdı. Bəhruzun onda beş yaşı ancaq olardı. Çox çəkmədi ki, başsız qalan bu kiçik ailənin güzəranı ağırlaşdı. Umleyla qonum-qonşunun məsləhəti ilə maşınqayırma zavodunda işə girdi. O vaxt zavod cəbhə üçün hərbi sursat hazırlayırdı. Umleyla da kinini, qəzəbini, həsrət və intizar dolu göz yaşlarını qırmızı dillərini çıxardıb, gur-gur guruldayan marten sobalarında əridilib düzəldilən silahlara, mərmilərə qatıb cəbhələrə göndərdi. Bu iş Umleylaya o ağır illərdə nə qədər də böyük təsəlli verdi. Ancaq bununla belə Umleylanın çatma qaşlarının düyümünün açıldığını, ağ, əsmər üzünün güldüyünü görən olmadı. O, səhər tezdən gedir, axşam şər qarışandan sonra

ancaq qayıda bilirdi. Bəhruz evdə tək qalırdı. Dörd divar və o. Oynamaq istəyirdi. Oyuncaq istəyirdi. Təzə paltar istəyirdi. Ürəyi çox şey istəyirdi. Ancaq o, bunların heç birini görmədi. Sanki quruca nəvazişi də ona qıymamışdılar. Bəs nəvaziş necə olmuşdu? O da əsgər getmişdi. Bəli, döyüş illərində tək adamlar yox, hisslər, duyğular da səfərbərliyə alınmışdı.

Məhəbbət də, nəvaziş də, qəzəb də, kin də müharibəyə getmişdi, düşmənlə vuruşa getmişdi.

İllər tarixdə, ürəklərdə silinməz izlər buraxaraq karvanını çəkib ağır-ağır getdi. Müharibə qurtardı, odun-alovun içindən çıxa bilənlər qayıtdı. Rüstəm də gəlib çıxdı. Sağ-salamat. Ailənin əl-ayağı bir yerə yığıldı, vəziyyət tezliklə yaxşılaşdı. Sevinc içində şad-xürrəm yaşamağa başladılar. Bəhruz nə istədisə, alındı. Təzə paltar, ayaqqabı... Ancaq onlar Bəhruz üçün tək bircə şey ala bilmədilər, tək bircə şey... Oyuncaq! Çünki o artıq uşaq deyildi, oyuncaq oynadan vaxtı keçmişdi...

Bəhruz özü indi ata idi. Ata nəvazişinin, ana qayğısının dadını, nəşəsini görmüşdü. Onda qəribə bir adət əmələ gəlmişdi; hər gün işdən qayıdanda hökmən yolunun üstündəki mağazalardan birinə dönər, Toğrula heç olmazsa kiçik bir oyuncaq alardı. Bəhruz vaxtı ilə məhrum olduğu öz oyuncaq payını oğluna gətirmək, onu sevindirmək, qayğısız gülüşlərindən zövq almaq, onun sevincində öz fərəhsiz uşaqlıq illərinin sevincini görmək istəyirdi.

Xatirə evdə oyuncaq yığışdırmaqdan bezmişdi:

– Ay Bəhruz, – deyirdi, – bu qədər oyuncağı neynirsən axı, bilmirəm. Ta oyuncaq əlindən tərpənmək olmur!..

Bəhruz başını mənalı-mənalı tərpədir:

– Yox, Xatirə, bunlar sadəcə oyuncaq deyil, əzizim, – deyirdi. – Bax. bunları görürsən? Bunların hərəsi bir dünya sevincdir. Xatirə, yerə-göyə sığışmayan sevincdir. Mən məhrum olmuşam, sən məhrum olmusan, bizim nəsil məhrum olub, barı qoy bunlar olmasın, Xatirə!..

– Düz deyirsən, Bəhruz! – deyə bu zaman Xatirə fərəhindən göyün yeddi qatına qalxır, belə həssas bir adamla ömür-gün yoldaşı olduğuna şadlanırdı.

...Onlar neçə il əvvəl, yaz vaxtı kitabxanada tanış olmuşdular. Xatirə o zaman kitabxanaçılıq texnikumunu yenicə bitirmiş, mərkəzi şəhər kitabxanasında işə girmişdi. Qabağına qalın-qalın kitablar töküb oxuyan, icmal tutan tələbələr, oxucular buraya – abonement şöbəsinə bəstəboylu, uzunhörüklü, qaşlarının qövsü azca yuxarı dartılmış ağ - paltarlı bir qızın gəldiyini görəndə maraqla, diqqətlə baxmağa başlamışdılar. Neçə gün şöbənin qabağında oxucu əlindən tərpənmək mümkün olmamışdı. Xatirə də, onunla işləyən qızlar da kitab daşımaqdan əldən düşmüşdülər. Xatirə bütün bu həngamələrin çoxusunun ancaq ona görə edildiyini duyurdu. O, bundan yamanca xəcalət çəkirdi. Hətta, bir dəfə onunla işləyən Səlimə adlı qız lap bərkdən demişdi:

– Xatirə gələndən oxucularımızın sayı, maşallah, xeyli artıb. Planı iki yüz faiz yerinə yetiririk. O qədər kitab dalınca gedib-gəlməli oluruq ki, gecə yatanda da ayaqlarımız gizildəyir. Mağıl sakitcə oturmuşduq yerimizdə.

O zaman Xatirə bu sözləri eşitməməzliyə vurmuşdu.

Günlər keçdikcə Xatirə də özündən əvvəlki qızlar kimi oxucuların gözündə adiləşmiş və bir qədər rahat olmuşdu. Daha gah həris, gah vurğun baxışları az görür, az hiss edirdi. Ancaq o, bu baxışlar arasında bir cavanın – göy satin pencək geyib qolunu çırmamış, gur saçlı, gülümsər sifətli Bəhruzun məftun baxışlarının sehrindən yaxa qurtara bilmədi. Onda Bəhruz orta məktəbi təzəcə bitirmişdi. Sənədlərini instituta verib, imtahanlara ciddi hazırlaşan Bəhruz soyuqdəymədən qəfil xəstələnib xəstəxanaya düşmüş və buna görə ali məktəbə girə bilməmişdi. Gələn il üçün o, indidən hazırlıq görür, saatlarla başını kitab-dəftər üstündən qaldırmırdı. Gözləri acışana, beyni yorulana qədər oxuyurdu.

Xatirəni görəndən sonra Bəhruzun bütün fikirləri dağıldı. Aldığı kitabların sayı çox olsa da, oxuduqlarının sayı azaldı. Kitabı vərəqləyir, bir az ordan-burdan oxuyur, sonra aparıb Xatirəyə qaytarır, yenə ayrı kitab istəyirdi. Bir dəfə Xatirə zarafata salıb demişdi:

– Maşallah, yamanca sürətlə oxuyursunuz.

– Hə, – deyə Bəhruz ayrı söz tapa deyə bilməmiş və qızarmışdı.

Kitabxanada ən çox oturan Bəhruz idi. Axşamlar saat onda, kitabxana bağlananda oxu zalından axırıncı çıxan da o olurdu.

Xatirə Bəhruzu başa düşürdü. Dadlı, şirin bir duyğu, sehrkar bir hiss kitabxanada da, evə gedəndə də, gecələr yatanda da onun ürəyinə nəsə pıçıldayır, sinəsi atlana-atlana ciddi, özünü tox tutmağı bacaran, ancaq nəsə ürəyinin öhdəsindən gələ bilməyən, qəlbinin dediklərinə tabe olan Bəhruz haqqında düşünür və özü də hiss etmədən xəyala dalırdı. Ona elə gəlirdi ki, Bəhruzu çox yaxşı tanıyır, onun görünüşü, baxışı, hətta, yerişi belə Xatirəyə nəsə xoş bir təsir bağışlayırdı. Xatirə Bəhruzun evinin ünvanını da bilirdi. Özü də Xatirədən iki yaş böyük idi. Oxucu vərəqəsindən öyrənmişdi.

Bəhruz utancaq oğlan deyildi. Onun utanan adamlardan da bir o qədər xoşu gəlmirdi. Ancaq indi təəccüb və heyrət içində çaşıb qalmışdı. Nə üçün Xatirəni görəndə elə uçunurdu? Nə üçün dili söz tutmur, ən adi kəlməni deyəndə belə çaşırdı? Burada nə hikmət, nə sirr vardı? Bax, dünən o, özünə möhkəm söz vermişdi ki, axşam qız evə gedəndə ona yanaşacaq, ürəyini açacaq, sinəsini boşaldacaq. Getdi, qız qabaqda, o dalda. Ancaq yaxınlaşa bilmədi. Yol qısaldı, deyə bilmədi, qız darvazalarından içəri keçdi, yenə dili söz tutmadı. O, Xatirəni səssiz-səmirsiz ötürdü. Tək bir dəfə yox, nə qədər belə axşamlar oldu.

Bir gün gecə evə gələndə anasını bikef gördü. Keçib yanında əyləşdi. Səbəbini soruşdu. Arvad siyirtmənin gözündən göy bir kağız parçası gətirib:

– Pavısqa gəlib sənə, – dedi və ah çəkdi.

Ana bir dəfə əsgər yola salmışdı – neçə illər bundan qabaq. O zaman çəkdiyi ayrılıq əzablarının ağrısı-acısı hələ də unudulmamışdı. Unudulmazdı da.

İndi o, yaxşı bilirdi ki, bu əsgərlik o əsgərlikdən deyil. Amma necə də olsa ayrılıq-ayrılıqdır. Ana-bala ayrılığı. Həm də Bəhruzun hələ bir sənəti yox idi. Ana ən çox bunun nigarançılığını çəkirdi. Bəhruz isə...

Axı, o hələ ürəyini sevdiyi qıza açmamışdı. Bu onun halını pərişan elədi. Gedəcək, üç il Xatirəni görə bilməyəcək. Gələcək. Bəlkə onda... onda gec olmayacaqmı? Yox, getməmiş danışmaq, hər şeyi utanmadan, çəkinmədən demək lazım idi.

Ayın iyirmi beşində o yola düşür. Cəmi ikicə gün qalıb.

...Kitabxana bağlandı. Qızlar çıxdılar. Qapının ağzında ayrılıb hərəsi bir səmtə üz tutdu. Xatirə tələsmirdi. Aylı bir gecə idi. Yüngül meh əsirdi. O, arxayın addımlarla irəliləyirdi. Bəhruz ona həsrətlə baxırdı. Ürəyi elə şiddətlə döyünürdü ki, səsini aydın eşidirdi.

– «Bax, bu tini keçsin, çatacağam, sözümü deyəcəyəm. Yox, arxadan adam gəlir, yaxşı düşməz. Bu küçə həmişə tünlük olur».

Gedirlər. Xatirə xəbərsiz, o, həyəcanlı. «Bax, indicə...» Onunla qızın arasında üç addım yol var. Azaldı. İki addım yarım, iki addım. Ayaq səslərini yəqin ki, Xatirə də eşidir. «Bir qayıt bax geriyə Xatirə, gör kim gəlir dalınca» – deyə Bəhruz ürəyində söylənirdi. – «Yox, nəyinə gərək. Şəhərdə hər dalınca gələnin üzünə dönüb baxmayacaq ki».

Qız evlərinə çatdı. Xatirəgil iki küçənin kəsişdiyi yerdə – ikimərtəbəli binada yaşayırdı.

Bəhruz irəli yeridi. Özünü zorla ələ alıb qızı lap küçə qapısının ağzında haqladı.

– Xatirə.

Qəribə idi. Xatirə onun səsindən səksənmədi. Elə bil Bəhruzu görürmüş, dalınca gəldiyini bilirmiş.

Buyurun... – deyə o, azca gülümsündü.

Bəhruz, qızın belə arxayın və sakit halda «buyurun» deməsindən özünü itirdi, irəlicədən hazırladığı, əzbərlədiyi, ürəyində min dəfə təkrar etdiyi sözlərin hamısını unutdu.

– Mən əsgər gedirəm... – deyə elə bir namünasib yerdən başladı ki, qız heyrətlə oğlanın üzünə baxdı. Elə bu an evin küçəyə çıxan eyvanından bir qadın Xatirəni səslədi:

– Xatirə, orada neyləyirsən?

Qız dabanı üstə fırlanıb yuxarı baxdı:

– Gəlirəm, ana.. – sonra isə Bəhruza sarı dönüb,– sənə yaxşı yol, Bəhruz! – dedi və bir anda qaçıb həyətə girdi.

Bəhruz ürəyində qəribə çırpıntı duydu. O, qızın «yaxşı yol, Bəhruz!» sözlərində elə doğma, elə yaxın, elə sevimli bir adamın səmimiyyətini hiss elədi ki, sanki tərəddüdlə, qorxaqlıqla qalxmaq istədiyi dağın dibində Bəhruza yeni bir ürək bağışladılar. Ona elə gəldi ki, bu sözlər «Get, Bəhruz, darıxma, səni gözləyəcəyəm!» demək idi.

Bəhruz getdi.

Xatirə onu kitabxanada daha görə bilmədi.

Günlər keçdi...

Bir günortaçağı kitabxanaya, Xatirənin adına məktub gəldi. Bəhruz yazmışdı. Xatirə özünü nə qədər tox tutmağa çalışsa da, məktubu açanda əllərinin əsdiyini gördü. Məktub çox qısa idi. Bəhruz yazmışdı ki, Xatirə, xahiş edirəm məni kitabxananızın oxucuları siyahısından çıxarmayın. Mən ömrümün sonuna qədər sizin kitabxananın oxucusu olacağam, çünki axtardığımı orda tapmışam. Əgər mümkünsə... bir istəyimi də yerinə yetirin: mənə azərbaycanca bir kitab göndərin.

...Təkərlər yaş asfalt üzərində qıjıldayırdı. Dağın ətəyindən üzüaşağı sallanan yolla bir maşın sürətlə ötüb keçdi.

«– Hə, bax, bu şoferlik olmadı. Nə olub, nə haydı? Yanğın maşını-zadı sürmürsən ki!» deyə Bəhruz sürücünün qarasınca söyləndi.

O özü də bir vaxt dəli maşın sürən idi. Onun maşınının necə deyərlər, əl-ayağı yerə dəyməzdi. Ancaq əsgərlikdən qayıdıb gələndən və arzusuna çatıb sevdiyi Xatirə ilə nişanlanandan sonra bir az «aşağı» düşdü, evlənəndən sonra isə lap «quzuya» döndü. «Maşının hər addımında bir fəlakət ola bilər. Ölüm də, həbs də... Mənim yolumu gözləyən var, qardaş!» deyə o, dəlisovluğun daşını atdı. O vaxtdan tək bircə dəfə – üç ay bundan irəli şəhərin təzə prospektində təzə ev alanda Xatirəni, Toğrulu yanında oturdub yeni mənzilə baxmağa gətirəndə verdiyi sözü, hətta, qanun-qaydanı da bir kənara qoyub maşını çox bərk sürmüşdü. Sevincindən belə eləmişdi. Dar, nəm, yarıqaranlıq otaqdan canları qurtarmışdı. İkigözlü, mətbəxli, hamamlı ev, küçəyə baxan eyvan... Bəhruzun uçmağa qanadı yox idi. Keçidlərdə, döngələrdə o, sürəti azaltmır, çox səbirsizlik göstərirdi. Xatirə narahat olmağa başladı və əlini yavaşca onun dizinə toxundurub:

– Bir az yavaş, Bəhruz. Nə xəbərdir? – dedi.

– Heç nə olmaz.

– Yox, Bəhruz, qorxuram.

– Qorxursan? Ba, oğlum, gör anan nə deyir? Heç mən onu belə qorxaq bilməzdim. Hm, sən necə, sən də qorxursan?

– Qolxulam, – deyə anasının qucağında oturub irəli baxan Toğrul da təkrar elədi.

Bəhruz güldü. Maşın yavaşıdı.

O gündən sonra belə hadisə təkrar olunmamışdı. Hərdən tələsik iş düşəndə şofer sövqi-təbiisilə maşının sürətini artırsa da, Toğrulun şəklinə gözləri sataşan kimi onun «qorxuram» sözünü yada salar, ayağını qazdan çəkərdi.

...Yol ayrıcındakı balaca budkanın böyründə, istiqamət göstərən dirəyin dibində dayanmış yanı beşikli motosiklet uzaqdan Bəhruzun nəzərini cəlb etdi. Kök, gödəkboylu, qalife şalvar geymiş kişi motosikletdən aralanıb asfaltın ortasına gələndə Bəhruzun dalağı sancdı. Tosqun kişi amiranə bir əda ilə əlini havada yelləyərək maşına

dayanmaq işarəsi verdi. Bəhruz ayağını qazdan çəkdi. Maşın sürətini azaldıb motosikletin yanında dayandı.

«Ziyadxandı ki, bu!» – Bəhruz bu adamı uzaqdan tanıyırdı, haqqında az-çox eşitmişdi, ancaq hələ onunla qarşılaşmamışdı. Deyirdilər ki, guya o, çox üzlü, sırtıq bir avtomüfəttişdir. Elə sürücü tapmaq çətin idi ki, Ziyadxan onun yolunu kəsib ikidən-üçdən almasın. Bəzilərini qorxuzmaqla, bəzilərindən də zarafatla.

«İndi də növbə mənimdir?» deyə fikrindən keçirən Bəhruz ağır addımlarla ona sarı gələn Ziyadxanın şişman qarnına, sallanıb köynəyinin yuxarı düyməsinin üstünü tamam örtmüş ətli buxağına, qırmızı sifətinə fikir verir, onun hardan başlayacağını, nə deyəcəyini maraqla gözləyirdi

Ziyadxan dabanlarını qaldırıb kuzova boylandı, xırda gözlərini dolandırıb Bəhruza zillədi:

– Hara aparırsan bunu?

– Tikintiyə.

– Kağızını görüm.

Bəhruz qəsdən ləng tərpəndi:

– Yoxumdur.

– Hm, belə de də. – O qımışdı. Yanaqlarının əti azca qabarıb şişdi, gözləri bir az da xırdalaşdı.

– Canım üçün, uzaqdan görən kimi bildim ki, xalturadır.

Bəhruzu gülmək tutdu:

– Elə şey olmaz, canım. Nədən bildin?

Ziyadxan qürrələndi:

– Əşi, gələk bunu da bilməyək? Başımızın tükünü bu yollarda tökməmişik?!

«Tək başınızın tükünü yox, üzünüzün suyunu da» – deyə Bəhruz ürəyindən keçirtdi.

– Yaxşı, görürəm mərifətli uşağa oxşayırsan, əlin cibində olsun, tələsirəm.

Bəhruz qulaqlarına inanmadı. Doğrudanmı bu sözləri o dedi? Özü də belə asan? Utanmadan, qızarmadan. Elə bil borcunu istəyirdi. «Yox, borcu da belə istəmək olmur. Mənə biri borclu olanda onunla tez-tez üz-üzə gəlməkdən də çəkinirəm. Deyirəm ürəyinə gətirər ki...»

Bəhruz Ziyadxanın ağayana geyiminə baxıb, onu başdan-ayağa süzdü və istədi ki, səsi gəldikcə çığırıb ona «dilənçi» desin, özünü güclə saxladı. Ancaq:

– Heç yaraşmır! – dedi.

Sürücünün geyim-keçiminə baxdığını görən Ziyadxan da üstdən aşağı özünə fikir verdi.

– Deyirsən bu paltar yaraşmır mənə?

Bəhruz dişlərini bir-birinə sıxıb qıcırdaraq:

– Hə, heç yaraşmır, – dedi. – Heç yaraşmır!

Ziyadxan əlini irəli çıxardıb aşağı sallanmış qarnının üstünə qoyub:

– Düz deyirsən, çox kökəlmişəm. Hazırlaşıram, putyovkadan-zaddan tapıb gedəcəyəm o tərəflərə, arıxlamağa. Görək də, yığışıb dayınızı necə yola salacaqsınız, – dedi.

Bəhruz gülə-gülə köynəyinin döş cibinin düyməsini açırdı. Ziyadxanın gözləri onun əlinə zillənmişdi. Bəhruz isə cibindən pul yox, yol vərəqəsini çıxartdı.

– Bay, mənim yol vərəqəm burda imiş ki!

– Ə, özünü məzəliliyə qoyma, cəld ol.

– Canım üçün yol vərəqəmdir, inanmırsan bax. – Bəhruz bunu deyib, barmaqlarının ucunda tutduğu göy rəngli yol vərəqəsini Ziyadxanın gözlərinin qabağına tutdu. Ziyadxan elə bil yuxudan ayıldı. Döyükmüş halda ona baxıb bir an nə edəcəyini kəsdirə bilmədi. «Heç yaraşmır» sözlərinin mənasını da sanki indi başa düşdü. O, quyruğu tapdalanmış ilan kimi fısıldaya-fısıldaya:

– Bəs belə! Hm... Yaxşı!.. – dedi.

Bu ara bir daş maşını yanlarından vıyıltı ilə ötdü. Bəhruz maşının arxasınca baxdı: onunla bir briqadada işləyən Qulamın maşını idi.

Bəhruz Ziyadxana əlavə nəsə demək istədi. Ancaq fikrini dəyişib dinmədi. Ziyadxan yenə fıs-fıs fısıldadı:

– Get, səninlə bu yollarda çox görüşəcəyik, get!

## II

Birdən Bəhruzun bütün bədəni gizildədi, tükləri ürpəşdi. Çaşmış halda sükanı gah sağa, gah sola burdu. Gözlərini geniş açaraq irəli boylandı. Yeddi-səkkiz addım qabaqda daş dirəyin yanında bir adam çırpınırdı.

– Qulam, Qulam, – deyə o, azca bundan qabaq onu ötüb keçən maşının ardınca qışqırdı, öz sürücü yoldaşını köməyə çağırdı. Ancaq Bəhruzun səsi eşidilə bilməzdi, maşın xeyli aralanmışdı. Bəhruz maşını nə vaxt yolun qırağına verdi, nə vaxt əyləyib yerə atıldı – özü də bilmədi. Bircə dəqiqə keçməmiş artıq o, yerdə çırpınan adamın başının üstündə idi.

Torpaqda çapalayan adam otuz-otuz beş yaşlarında bir kişi idi. Bozarıb qara rəngini itirmiş papağı yerə düşmüş, seyrək saçları qana bulaşmışdı. Əynində qəhvəyi rəngli şalvar və dama-dama köynək vardı. Geyimindən bilinirdi ki, fəhlədir. Kişi sancılanmış adam kimi qıvrılır, yığılıb açılır, arıq, uzun barmaqları ilə qumlu torpağı cırmaqlayır, ayaqlarını tez-tez uzadıb yığır, uzunboğaz çəkmələrinin dabanı yolun qırağına səpələnmiş qum dənələrinə dəyib xırçıldayırdı. İki addım aralıda uzun qarğılı qarmaq və qulaqlarına kəndir keçirilmiş dörd balıq gözə dəyirdi. Toz-torpağa bulaşmış balıqların biri hələ də diri idi; atılıb düşür, qulaqları aramla qalxıb enirdi. Görünür lap təzəcə sudan çıxarıbmış. Yağış kəsən kimi qarmağını, ovunu götürüb yola düzəlib. Məsələ aydındı, kişini maşın vurmuşdu.

«Vicdansız! Vurub, özünü də qoyub qaçıb. Bəlkə Qulam vurdu? Yox, o vura bilməz. Mənim qabağımca gedirdi. Bax, burada yol döngədir, oradan – o, dönüb geri baxdı – bura əl içi kimi görünür. Əgər, Qulam vursaydı, mən görərdim. Yox, ondan qabaq vurulub. Yaxşı, bəs Qulam bunu görmədi? Necə ola bilər ki, görməsin?! Yolunun üstüdur. Özü də deyəsən o, bu yerə çatanda sürəti bir az da artırdı» - deyə Bəhruz öz-özünə düşünürdü; bütün bunlar onun həyəcanını daha da çoxaltdı. O, sürücü işlədiyi bu neçə ildə belə hadisəyə birinci dəfə idi ki, rast gəlirdi. Çaşmışdı. Bir anlığa ona elə gəldi ki, yaralanan, əzilən özüdür. Hətta, bədənində küt ağrı da duydu. Çırpınan yaralıya elə yazığı gəldi ki,.. Bəhruz dizlərini cəld yerə qoyub ona sarı əyildi.

– Qardaş, qardaş!..

Yaralı zarıdı, cavab gəlmədi.

– Qardaş!..

O, yenə zarıdı. Qan örtməmiş sağ gözünü zorla aralayıb Bəhruza baxdı. Bu elə qəribə və dəhşətli baxış idi ki, cəmi bircə saniyə davam etməsə də ömürlük Bəhruzun yadında qaldı. O baxışda nələr yox idi?! Sönməkdə olan bir ömrün son ümid qığılcımları, həyatın şirinliyi, təəssüf, intizar və yalvarış.

– Tez, tez xəstəxanaya, tez! – deyə Bəhruz kənar bir adamın üstünə qışqırırmış kimi səsləndi. – Tez, tez!

Bəhruz qollarını irəli uzadıb kişini qucağına götürdü və kabinəyə, öz yanına qoydu. Onu oturacağın üstə uzatdı. Qıçlarını büküb qapının böyrünə söykədi. Balıqlarını da unutmadı. Kabinəyə – ayaq altına tulladı.

Maşın indi uçurdu. Yetmiş, həştad. Sürət göstərən əqrəb titrəyə-titrəyə doxsana yaxınlaşırdı. Keçdi. Doxsan beş... Pəncərənin şüşələri, qapıları əsim-əsim əsirdi.

«Tez-tez... Qan axır... Oturacaq qana bulaşıb».

Bəhruzun köynəyinin ətəyinin, şalvarının sağ cibinin qana bulaşdığından hələ xəbəri yoxdu. Kabinədən isti qan iyi gəlirdi.

«Vurmusan, bir cinayət eləmisən. Qoyub qaçırsan, bu da bir cinayət. Qanundan qorxub qaçırsan. Bəs özündən necə qaçacaqsan, öz vicdanından necə qaçacaqsan? Bəs sonra necə rahat yaşayacaqsan?» Əqrəb titrəyə-titrəyə qalxıb yüzə yaxınlaşırdı.

Bəhruzun nəzərləri ani olaraq oğlunun şəklinə sataşdı. Uğultu içindən Toğrulun səsini aydın eşitdi.

– Qolxulam, ata!

Bəhruz ürəyində cavab, verdi:

–Qorxma, oğul, qorxma!

Bəhruzun bütün diqqəti irəlidə, yolda idi.

«Yol kəsilməsin, qabağa maşın çıxmasın. Tez-tez...»

Kişi zarıyır, ayağının yanında diri balıq çırpınırdı. – Qorxma, qardaş, qorxma!

Balıq çırpınır, kişi zarıyırdı.

Balıq süstəldi, çırpınmadı.

– Qardaş...

Balığın qulaqları yumuldu...

«Balıq öldü. Tez-tez. Gecikmək olmaz. O da... ölə.. bilər...»

Maşın qoşa qala qapıdan keçdi. Şəhər. Əlində ağac küçənin ortasında dayanıb yol tənzimləyən milisioner döyükmüş halda fit çaldı. Bəhruz heç məhəl qoymadı da. Adamlar qeyri-adi sürətlə uçan maşına baxıb çiyinlərini çəkdilər. Kimsə əlini silkələyə-silkələyə qaldırıb nəsə dedi. Ancaq o, fikir vermədi. İndi onun gördüyü yeganə şey düz, hamar yol idi, zarıyan yaralı idi...

«Xəstəxana. Budur, xəstəxana» – Kişiyə baxdı. – «Yox, hələ sağdır».

Ucadan, demək olar ki, lap qışqıra-qışqıra:

– Çatdıq, qardaş, – dedi. Elə bil, bu sözlərlə onun ürəyində ümid məşəli yandırmaq, burada, kabinənin içində quzğun kimi hərlənən ölümü ona yaxın buraxmamaq, yaralının ömrünü uzatmaq istəyirdi.

Maşın silkələnib dayandı. Bəhruz qapını açıb özünü yerə atdı, xəstəxanaya sarı qaçdı. Girəcəkdəki balaca otağın qənşərində kətilin üstündə əyləşmiş eynəkli qarı onun qabağını kəsdi:

– Olmaz, bala, xələtsiz olmaz.

– Xəstə var, xala, ağır yaralıdır. Kimsə maşınla vurub, qoyub qaçıb.

Qarının qırışmış üzü bir az da qırışdı, kirpikləri tökülüb seyrəlmiş xırda gözləri geniş-geniş açıldı:

– Ağır yaralı? Hanı, oğul?

– Orda, maşında. Tez, əldən gedir.

Arvad çox qoca idi. Kənardan baxana elə gələrdi ki, onun burdan durub orda oturmağa canında taqəti olmaz. Amma Bəhruzdan bu həyəcanlı sözləri eşidəndə arvad bir uşaq cəldliyi ilə tərpəndi. Çəkələklərini sürüyə-sürüyə qayıdıb budkaya qaçmaq istədi. Nə düşündüsə fikrini dəyişib, sağ tərəfdəki balaca pəncərəyə işarə ilə çığırdı:

– Balaxanım, ay Balaxanım! – Səs gəlmədi. Qarı uzünü Bəhruza tutub dedi: – Qəbul məntəqəsi oradır, oğul, sən irəli dur, gör ordadımı bu canıyanmış? Mən bu saat zəng eləyim həkimə... Bəlkə elə Balaxanım da onun yanındadır. – O, bunu deyib özünü budkaya saldı.

Bəhruz irəli gəlib yarıaçıq pəncərənin şüşəsini bərk taqqıldatdı. Pəncərə tamam açılıb yan divara dəydi. Miz arxasında oturub kitab oxuyan ağ xələtli, xurmayı saçlı, dolu bədənli qadın səksənmiş halda başını qaldırıb:

– Yavaş, a yoldaş. Mədəniyyətin olsun, – dedi.

– Yaralı var, bacım... – Bəhruz bu sözləri nə qədər təlaşla dedisə, Balaxanım bir o qədər soyuqqanlılıqla dinlədi. Qadının sifətində demək olar ki, kiçicik bir dəyişiklik belə duyulmadı. O, Bəhruzu heyrətə gətirə biləcək bir arxayınlıqla soruşdu:

– Nə olub ki?

– Maşın vurub, bacı.

– Hansı maşın? – Bəhruz Balaxanımın üzündəki donuqluğa bir təhər dözə bilərdi, ancaq səsindəki laqeydlik onu hövsələdən çıxartdı. O, əsəbi səslə qışqırıb:

– Bilmirəm! – dedi. – Yolda düşüb qalmışdı, qan aparırdı. Gətirdim...

Balaxanım onun qışqırığına başını qaldırıb:

– Sakit, vətəndaş! – dedi. – Bura sənin üçün küçə deyil, bazar deyil...

– O ölür, siz də başlayıbsınız...

– Ölməz, qorxma, – deyə Balaxanım yenə eyni soyuqqanlılıqla cavab verdi. – Aformit eləmək lazımdır, ya yox?

Bəhruz başını pəncərədən çəkdi. «Lənətə gələsən səni, kor şeytan ha».

– Ay yoldaş!..

Bəhruz cavab vermədi. Əllərində xərək olan iki qadının pillələrlə aşağı düşdüyünü görəndə sevindi. «Sağ ol, ay qarı! – deyə bayaqkı qoca arvada sarı boylandı; qarı da pillələrlə enənlərə baxırdı. Deyəsən yerişləri ona çox ləng göründü, odur ki, bir sümük, bir dəri olan uzun əlini irəli uzadıb harayladı:

– Tez olun, ayağınızın altında qarışqa qalmayıb ki....

Bəhruz onların qabağına qaçıb xərəyi əllərindən aldı:

– Cəld, bacı, cəld, – deyə çölə çıxdı.

Qadınlar onun dalınca tələsik maşının yanına gəldilər. Bir-iki dəqiqənin içində beş-altı adam yığışdı. Balaxanım özünü irəli verdi və sanki hökmünü Bəhruza bildirmək istəyirmiş kimi:

– Götürün! – deyə amiranə bir səslə dilləndi.

Bəhruz heç kəsə imkan vermədi, çevik bir hərəkətlə yaralını qucağına alıb xərəyin üstünə qoydu. Kişinin sifəti ağappaq ağarmışdı,

sinəsi çox asta-asta qalxıb-enirdi. O, ağrının şiddətindən dişlərini xırçıldadırdı.

– Ay Narıngül xala, bir az o yana dur, nə olub, yaralı-zad görməmisən? – deyə Balaxanım qapıçı arvadın qolundan tutub ehmalca kənara itələdi. Narıngül xala onun sözlərinə əhəmiyyət verməyib:

– Can, can, gör yazıq nə pis əzilib ey, – dedi.

Bəhruz Balaxanıma baxırdı. Bu baxış elə soyuq idi ki... O, çox kök idi, nədənsə Bəhruza elə gəldi ki, onun bütün bədəni ancaq ətdir, onda ürək adlı şey yoxdur. Bir dəqiqə sonra bu fikri ürəyindən çıxarmaq istəyirdi ki, Balaxanım sürməli gözlərini dolandırıb üst-başı qana bulaşmış Bəhruzun üzərində saxladı və sonra xadimə qadınlara üz tutub yavaşca dedi:

– Bunun belə əl-ayağa düşməyindən görürəm ki, özü vurub!

Arvadlar Bəhruza baxıb dinmədilər. Narıngül xala Balaxanımı tərs-tərs süzüb dodaqaltı nəsə mızıldadı.

Xərəyi apardılar. Balaxanım da yayxana-yayxana onların dalınca getdi. İlk söhbətdən xoşuna gəlməyən bu qadına cavab verməк istəməyən Bəhruz yerində donub qalmışdı. Elə bil başına çəkiclə vurmuşdular. Taqətsiz halda yanını maşının ayaq yerinə qoyub oturdu. Papiros yandırıb sümürdü.

Narıngül qarı oğlanın Balaxanımın sözlərindən bulud kimi tutulduğunu görüb yaxın gəldi. O dillənməmiş Bəhruz soruşdu:

– Bu arvad nəçidir ana, burda?

– Doxturun köməkçisidir o, oğul.

– Yəni həkimdi də?!

– Hə, oğul, həkim olmayan yerdə deyir, mən də həkiməm. İynədən-zaddan vura bilir. Diliacının biridir. İlan çalsa sağalarsan, bu çalsa... çətin...

– ...

– Sənə dediyini eşitdim. Fikir vermə, oğul. Yaxşı eləyibsən, gətiribsən. Yoxsa çöldə qalıb ölənin biri idi. Adı nədir kişinin?

– Bilmirəm, ana... heç tanımıram. Birinci dəfədir, görürəm. Bir də nə fərqi var, insandır, vəssalam!..

– Sağ ol, oğul, ömrün uzun olsun, – deyə qarı ah çəkdi.

### III

Kişinin huşu özündə deyildi. Nə gözlərini açır, nə də bir söz deyə bilirdi. Qanı dayanmırdı. Şəfqət bacıları onun qanlı paltarlarını dəyişdirib ağ tuman-köynək geydirmiş, cərrahiyyə otağındakı divana uzatmışdılar. Baş həkim Rasim Sultanzadə yaralını müayinə edirdi. Sol əlini dizinin üstünə qoyub xəstənin nəbzini yoxlayan həkimin çal qaşları altından baxan iri, ala gözləri yaralının qabarlı əllərinə dikilib qalmışdı. Ürəyi zəif vururdu. Çoxlu qan itirmişdi. Sultanzadə kişinin başını da diqqətlə yoxladı. Arxa tərəfdən, sıx qara tükün içindən qan sızırdı.

– Balaxanım!.. – deyə o, təkərli xərəyin sağ tərəfində dayanmış qadına müraciət etdi.

– Bəli, doktor...

– Ayaqlarından yapış, ehmallıca qoyaq cərrahiyyə çarpayısının üstünə.

Balaxanım iki qolunu irəli uzadıb yaralının ayaqlarından tutdu, Sultanzadə isə boynunun ardından və kürəyindən yapışdı... İkicə saniyə sonra yaralı əməliyyat çarpayısının üstündə uzanmışdı. Burnuna kəskin dərman qoxusu dəysə də, o, harada olduğunu kəsdirə bilmir, kəsik-kəsik nəfəs alır, zarıyırdı...

Həkim onun ağ köynəyini boğazına qədər qaldırdı, Sağ böyrü qan içində idi. Rasim Sultanzadə uzun barmaqlarını onun qabırğaları üzərində gəzdirib arabir tıqqıldatdı. Qaraqançır olan yerdə səs küyüldəyəndə həkim yanında dayanmış Balaxanıma dedi:

– Bu qabırğa zədələnib...

– Doktor, başından da çox qan axır. Balışa fikir verin, qıpqırmızı olub.

Həkim qüvvətli əllərilə yaralını yanakı çevirdi, başının arxasına baxdı. Sıx qara tükün arasından qan sızırdı.

– Qayçını mənə.

Balaxanım üzərinə cərrahiyyə alətləri yığılmış şüşə örtüklü stolun üstündən ağ, əyriağız qayçını gətirdi. Rasim üsulluca yaranın yan-yörəsindəki tükləri vurdu. Balaxanımın ucuna pambıq doladığı pinsetlə yaranın qanını təmizlədi, yod sürtdü. Sonra yaranı xırçıltı ilə tikdi və sarıdı.

– Laboratoriya açıqdır?

– Bəli, doktor.

– Qanını müayinə etmək, sonra qan vurmaq lazımdır. Çoxlu qan itirib.

Balaxanım getdi, çox keçməmiş qayıtdı. Bir azdan yaralıya qan vuruldü.

Sultanzadə kişinin əzələli qoluna, enli sinəsinə və sağlam sifətinə baxıb Balaxanıma:

– Canı sağlamdır, qüvvətlidir, yoxsa indiyə... – dedi.

Balaxanım gözləri yol çəkə-çəkə həkimin dediyini təsdiq elədi, ürəyindən isə belə keçirtdi: «Kişi belə olmalıdır. Yoxsa mənim rəhmətlik ərim təki? İsklet!».

Həkim qan vurulandan sonra yaralının nəbzini bir də yoxlayıb:

– Balaxanım, bunu onuncu palataya – üç adamlıqa aparın, – dedi. – Gözün də üstündə olsun. Görün yanında sənəddən-zaddan nəyi var. Ünvanını-filanını öyrənin, adamlarına xəbər verin. Bildin?!

– Bildim, doktor...

## IV

Bəhruzun gözü pillələrdə idi. Bəlkə bir xəbər gətirən oldu. Gələn yoxdu. Səbirsiz halda durub gəzinməyə başladı.

Narıngül xala Bəhruzu görüb:

– Hələ burdasan, oğul? – dedi.

– Hə. Dedim gözləyim görüm yazığın vəziyyəti necədir. Bayaqdan gözləyirəm. Bunlardan da, bir cavab yoxdur. Yaman nigaranam.

– Buranın baş doxturu ki, var ey, Sultanzadədir famili, bilirsən nə doxturdur? Doxtur döyül ey, loğmandı, loğman. Neçə dəfə öz gözümnən görmüşəm, yanına ölü gətiriblər, diri aparıblar. Belə doxturdu bizim İrasim.

Qarının sözləri Bəhruzun ürəyini xeyli toxdatdısa da, nigarançılıq onu rahat buraxmadı.

– Mənə bir xələt ver, ana!

– Neynirsən, yuxarı çıxırsan?

– Hə.

Qarı kirpiksiz gözlərini Bəhruzun üzünə dikib bir an fəhmlə baxdı. Bəhruza elə gəldi ki, Narıngül qarının gözləri bayaqkına nisbətən işıqlıdır, nurludur. Arvad gülümsündü, dodağının altında nəsə pıçıldaya-pıçıldaya gedərək içəridən xələt gətirib Bəhruza verdi.

– Sağ ol, ana.

Bəhruz xələti çiyninə atıb pillələrlə üzüyuxarı qalxmağa başladı.

Qarı Bəhruzun ağır, ləngərli yerişinə, iri gövdəsinə, boy-buxununa arxadan fikir verib:

– Xata-baladan uzaq olasan, oğul, – dedi.

Onlar bu gün, cəmisi yarım saat bundan qabaq ilk dəfə üz-üzə gəlmişdilər. Ancaq Narıngülə elə gəlirdi ki, bu sürücü oğlanı çoxdan, lap çoxdan tanıyır, onun xasiyyətini də, ürəyini də beş barmağı kimi bilir.

«Əcəb yaxşı adamdı! Gör necə canıyananlıq eləyir?! Elə bil, qardaşıdı, qohumudu, ya nəyidi? Bu oğlan lap mənim bədbəxt balama oxşayır. Bu da onun kimi özünü özgələr üçün oda-közə vurandı. O yazıq qəməndirini qorumaq üçün döşünü qızıl güllə qabağına vermə-

dimi? Eh, hərdən fikirləşirəm ki, ömürə etibar yoxdu, dünyanı tutub qiyamətə gedən deyiləm; səksən, doxsan, bir gün yoxsan. Bir gün mən də... Fikirləşirəm ki, onda məni yerdən götürən olacaqmı? Yox, – deyə qarı arabir ürəyində baş qaldırıb ruh düşkünlüyü əmələ gətirən bu kövrək hissə qətiyyətlə etiraz elədi. – Yox, mən səhv eləyirəm. Dünya gözəl, xeyirxah adamlarnan doludur. Dünya niyə, axı? Elə dörd-bir yanımızı niyə demirsən? Bax, tanımadığı, adını bilmədiyi bir insanın dərdilə əsim-əsim əsən o üst-başı qanlı oğlan kimi adamlar azdımı?».

Qarı belə düşünə-düşünə gümrah addımlarla gəlib qapının ağzında, kətilin üstündə əyləşdi. Xəstə yanına gələnlərə gülərüzlə xələt verdi, gülərüzlə qarşıladı, gülərüzlə yola saldı...

...Dəhlizdə gəzinən çəlikli, pijamalı, başı sarıqlı xəstələr Bəhruza diqqətlə baxırdılar. O, bunu aydınca hiss eləyir, ancaq fərqinə varmırdı. Nəhayət, kolyaskada oturmuş, iki qıçı da gipsə salınmış ahıl kişi gözlərini onun paltarından çəkməyəndə o, hər şeyi başa düşdü: sən demə, adamlar onun qanlı paltarına baxırmışlar.

Xələtin ətəklərini tutub yaxşıca bürünmüşdü ki, kimsə onu səslədi:

– Ay yoldaş!

Bəhruz geri dönüb baxdı. Çağıran Balaxanım idi.

– Mənimləsiniz?

– Hə, səninləyəm. Hələ də buradasan? Mən dedim yəqin çıxıb getdin.

– Yox, hələ getməmişəm. – Bəhruz ağızucu cavab verdi.

Balaxanım onu pəncərənin qənşərinə çəkdi, xələtinin cibindən qələm və dörd bükülmüş kağız çıxartdı.

– Bayaq söhbətimiz yarımçıq qaldı axı.

– Hm...

– Adınız?

– Bəhruz, – deyə o, Balaxanımın suallarını gözləməyərək birbaşa familiyasını, atasının adını, hansı idarədə işlədiyini, ev ünvanını söylədi.

– Maşınınızın nömrəsi AF-13–13-dür, eləmi?

– Bəli, düz götürübsünüz!

– Kinayə ilə danışırsan?

– Yox.

– Vəzifəmizdir, yoldaş!

Bəhruz qadının ağ sifətinə, seyrək, yanları alınmış qaşlarına diqqətlə fikir verirdi. Onun bayaq dediyi söz köz olur, Bəhruzu yandırıb-yaxırdı. «Özü vurub!» Ona cavab vermək, belə düşünməkdə tamam haqsız olduğunu söyləmək, başa salmaq lazım idi. Sonra: «heç bununla ağız-ağıza verib danışmağa da dəyməz!»– deyə fikrindən vaz keçib uzaqlaşdı. Qabağına çıxan başı sarıqlı oğlandan soruşdu:

– Eloğlu, Sultanzadənin kabineti hardadır?

– Odur, lap o ucda, sağdakı otaqdır – deyə oğlan geri çevrilib dəhlizin o başını göstərdi. Sonra özü də ona qoşulub həkimin otağının yanına gəldi:

– Bax, odur Sultanzadə!

– Sağ ol, – deyə Bəhruz təşəkkür etdi.

Həkim Sultanzadə xəstəxananın geniş, hasarlı həyətindəki yaşıl bağa açılan pəncərənin qabağında durmuşdu, əllərini sinəsində çarpazlayıb bayıra baxırdı. Küknar ağaclarının yarpaqlarına qonmuş toztorpağı yağış yuyub təmizləmişdi; onlar sanki bir az da yaşıllaşmışdılar; göz baxdıqca dincəlirdi.

Radioda konsert idi. Elə həzin, elə gözəl bir nəğmə oxunurdu ki... Xanəndə qız şairin də, bəstəkarın da ürək çırpıntılarını qəlbinin dərinliklərindən qopub gələn yanıqlı səslə təbiətin, insanların qulağına pıçıldayır, pıçıldayırdı:

«Sevə-sevə, duya-duya yaşayaq...»

Həkimin arxası qapıya sarı olsa da, duruşundan hiss olunurdu ki, fikirlidir, nəsə düşünür. «Xəyaldan ayırmaq insafsızlıq olar».

Qıymadı, onu fikrindən ayırmağa qıymadı. Bir dəqiqəmi, üç dəqiqəmi keçdi. Mahnı uzaqlaşan bir xəyal kimi əriyib susdu; xanəndə qızın məlahətli səsi sap kimi incəlib, nəhayət, qırıldı. Yalnız bundan sonra Bəhruz ayağını içəri qoydu.

– Doktor...

Sultanzadə geri çevrildi. Bəhruz üz-gözündən nuranilik yağan, boy-buxunlu, gur saçları çallaşmış gümrah bir adamla üz-üzə dayandı. İri, qonur gözləri sakit-sakit baxırdı. Bir anlığa nə üçünsə Bəhruza elə gəldi ki, bu adamı dünyada heç nə, ən dəhşətli hadisə belə sarsıda bilməz, onun sakit baxışları heç zaman indiki halətini itirib heyrət və təəccüb ifadə edən bir görkəm ala bilməz. O, mehriban bir əda ilə gülümsündü və:

–Siz... mənim yanıma gəlmisiniz? – deyə həlim bir səslə soruşdu.

– Bəli, doktor...

– Buyurun, əyləşin, – deyə Sultanzadə sol əlini uzadıb divanı Bəhruza göstərdi. – Xahiş edirəm, əyləşin.

– Sağ olun, doktor, oturmayacağam...

– Bəs mənə nə qulluğunuz? – deyə doktor maraq dolu gözlərini Bəhruzdan çəkmədən çox astaca, səssiz-səmirsiz keçib stulunda oturdu. – Eşidirəm sizi!..

Bəhruz şkafın yanında ayaq üstə dayandı. – Doktor... mən... bilmək istəyirdim... indi gətirilən yaralı...

– Maşın vuranı deyirsiniz? –Bəli, doktor... mən...

– Siz onun nəyisiniz?

– Mən? Mən heç nəyi, doktor, – deyə Bəhruz onun üçün çox gərgin keçən bu saat, saat yarım ərzində birinci dəfə gülümsündü. – Onu bura mən gətirmişəm.

– O şofer... sizsiniz?

– Bəli, doktor.

– Bəs, belə de!.. – Sultanzadə səsini uzada-uzada həmin sözləri bir də təkrar etdi. – Bəs-s belə-ə d-e-e!.. – Sonra qarşısında dayanan adamı başdan-ayağa diqqətlə süzdü.

Həkim adını soruşdu. Tanış oldular. Bəhruz narahatlığını gizlədə bilmirdi.

– Necədir, doktor? Ümid varmı?

Doktor xəfifcə gülümsədi:

–Qorxma, oğul.

– Ölməz ki?

– Yox, canım?! Ancaq çoxlu qan itirib. Başı iki yerdən zədələnib. Qabırğasının da biri çatlayıb. Əgər bir az da gec gətirilsəydi, ölə bilərdi. Çox sağ olun, Bəhruz. Onu siz xilas elədiniz.

– Nə danışırsınız, doktor? Bu adicə bir işdir, insanlıq borcumuzdur, doktor, – deyə Bəhruz hərarətlə cavab verdi.

– İnsanlıq borcu. Yaxşı sözlərdir, Bəhruz. Qızıl suyu ilə yazılası sözlərdir, – deyə Sultanzadə təmkinlə dilləndi. – Ancaq bunu hamı başa düşürmü? Hamı öz insanlıq borcunu ödəyirmi?! Elə adamlar var ki, gözünün qabağında başqasının cibinə girirlər, kürəyinə bıçaq saplayırlar, üzünü o yana çevirir, özünü görməməzliyə vurur. Bunlar öz dərisini qoruyan, başını cəncələ salmaqdan qorxan, ancaq özünü düşünən adamlardır. Beləlləri var, lakin xoşbəxtlikdən az var, çox az!

– Düz deyirsiniz, doktor – Bəhruz nə üçünsə Qulamı xatırladı, ağzını doldurub onun bu yaralını yolun ortasında qoyub qaçmasından danışmaq istədi, ancaq susdu, çünki səbəbini, əslini bilmədiyi bir söz-söhbəti dilinə gətirmək Bəhruzun adəti deyildi.

– Yaxşı, doktor, mən arxayın gedə bilərəm? – deyə Bəhruz təzədən sözü yaralının üstünə gətirdi, – lap arxayın?!

– Əlbəttə! Lap arxayın!

– Sağ olun, doktor. Yazıqdır, deyirəm. İndi yəqin arvadı, uşağı....

– Elədir. Yox, siz lap arxayın gedə bilərsiniz. Mən bizim Balaxanıma tapşırmışam...

– Balaxanıma?.. O kök, ağ qadına?

– Bəli. Necə məgər?

– Siz ona xəstə uspurd olursunuz?

– Bəli.. – deyə doktor Bəhruzun sözlü adama oxşadığını, nəsə demək ietədiyini duyub sual dolu nəzərlərlə ona baxdı. – Necə ki?

Bəhruz doktorun sualına cavab verməyib yenə soruşdu:

– Siz onu, Balaxanımı yaxşı tanıyırsınız, doktor?

Doktor güldü. Üzündə mehriban, təqdiredici bir ifadə yarandı və qəribə nikbinliklə:

– Yox – dedi, – o qədər də yaxşı tanımıram...

## V

Rasim Sultanzadə hələ də öz daxili aləminə qapanıb düşünürdü. Bəhruz getmişdi, amma doktora nədənsə elə gəlirdi ki, o getməyib, elə burada, qabağında dayanıb, birinci dəfə üz-üzə gəldiklərinə baxmayaraq onunla çəkinmədən, kişi kimi açıq söhbət edir.

«Belə adamlar heç şeydən qorxmazlar, həqiqəti deməkdən çəkinməzlər. Başqalarına yalan danışmaz, hiylə gəlməzlər» deyə doktor Bəhruz barədə ürəyində götür-qoy edirdi. Balaxanım çəkələklərini döşəmədə səsləndirə-səsləndirə doktorun kabinetinə daxil olanda o, xəyaldan ayrıldı.

Doktor başını qaldırıb:

– Necədir yaralı? – deyə soruşdu.

Balaxanım divanın üstə əyləşdi, arxayın-arxayın:

– Elə elədir, doktor! – dedi, – zarıyır.

– Cibindən sənədi-filanı çıxdımı?

– Arayış tapıldı. Sement zavodunda fəhlə işləyir. Arayışı uşaq bağçasına təqdim etmək üçün alıb...

– Deməli, ailəsi, uşaqları... – deyə, həkim mənalı-mənalı başını tərpətdi. Ani sükutdan sonra o soruşdu:

– Adı nədir yaralının?

– Qədir Fərəc oğlu.

Sultanzadənin gözləri yol çəkdi. Bir azdan sonra o, nəzərlərini ağır-ağır qaldırıb:

– Ailəsini tapmaq lazımdır – deyə qayğılı-qayğılı dilləndi. Balaxanım:

– İndi aşağı düşüb telefonla öyrənəcəyəm! – dedi və sonra ciddi bir əda ilə soruşdu:

– Bu şoferdən sizin ağlınız nə kəsir, doktor?

– Nə barədə, Balaxanım?

– Belə!.. Bir cür adama oxşayır, doktor. İndi palataya gəlmişdi, kişinin çarpayısının yanında durub baxdı, baxdı, sonra çıxıb getdi. Mənə də bir söz demədi. Özünü bir təhər aparır, düzü, mən ondan şübhələnmişəm...

– Nəyindən?

– Siz onunla söhbət elədiniz?

– Bəli, necə ki?

– Dedimi ki, bəs bunu ayrı maşın vurub, mən də gətirmişəm, hə?

– Bəli.

Balaxanım güldü, qızıl dişlərinin şöləsi nazik, yaraşıqlı dodaqlarına düşüb əks elədi.

– O dedi, siz də inandınız? Siz necə də hər şeyə tez inanırsınız, doktor! Sizi balaca uşaq da aldada bilər...

Doktor heyrətlə gözlərini qırpdı.

– Nə demək istəyirsən, Balaxanım?

– Doktor...siz ona, o şoferə yaxşı-yaxşı fikir verdiniz, ya yox?

– Verdim.

– Bir şey hiss eləmədiniz? Görmədiniz o, necə hə yəcanlıdır? Ağzında sözünü danışa bilmirdi, uçunurdu.

– Sən bununla nə demək istəyirsən ki?

Balaxanım nazik qaşlarını yuxarı dartıb gözlərini süzdürdü, böyük bir şey kəşf eləmiş alim ədasıyla astadan dedi:

– Mənə elə gəlir ki, kişini o özü vurub, doktor. Yoxsa belə əl-ayağa düşməzdi. Qohumu deyil, qardaşı deyil, atası atasını tanımır, babası babasını. Ona nə düşüb ki, belə canıyananlıq eləyir? Qorxur ki, tutub basalar dama...

Bu sözləri eşidəndə Sultanzadə dəhşətli bir şey görürmüş kimi gözlərini geniş açdı, qalın, çatma qaşları geniş alnının ortasına qalxdı. O, məzəmmətedici nəzərlərlə Balaxanıma baxıb:

– ...

– İnsana inanmaq lazımdır, Balaxanım, –dedi. – Hər cür kağıza, yoxlamaya, imza və möhürə inandığından daha çox insanın özünə, onun dediyi ilk sözə inanmaq gərəkdir.

– Əgər insan yalan desə, onda necə? Ona da inanmaq lazımdır?

– Xeyr, mən inanıram ki, insan zatən həmişə düz söz deyir. Adam o zaman yalana, hiyləyə əl atır ki onun düz sözünə, sidq dildən dediyi, bəzən and içib aman elədiyi bir şeyə heç kəs inanmaq, yaxud əhəmiyyət vermək istəmir, bir parça kağız canlı bir adamın dediyindən çox-çox etibarlı sayılır. Bax, ancaq bu zaman insan yalana, hiyləyə əl atır. Çünki o, məcbur olur. Elə deyilmi, Balaxanım? İnsana inanmamaq onun mənliyini, ləyaqətini təhqir eləmək deməkdir, onu alçaltmaq deməkdir, onu yalançılığa öyrətmək deməkdir...

Həkim bu sözləri elə bir tərzdə dedi ki, Balaxanım bunun üstündən heç nə danışa bilmədi.

Sultanzadə dərindən ah çəkdi. Balaxanımın soyuq, ürəksiz sözləri Sultanzadəni yaman sarsıtmışdı. Elə bil onun təsəvvüründə, xəyalında gözəl, nəcib duyğulardan, insani hisslərdən yoğrulmuş işıqlı bir dünya uçulub dağılmışdı. Beş-on dəqiqə əvvəl doktorun ürəyi necə də fərəhli, insanı yaşayıb-yaratmağa çağıran dadlı duyğularla çırpınırdı.

Amma indi... Budur, Balaxanım gəldi, hər şeyi soyuqqanlılıqla, rəhmsizcəsinə vurub dağıtdı, qarışdırdı...

«Baxırsan gözəldir. Ağ gərdəni, dolu, mütənasib bədəni, yumşaq, xurmayı saçları... Ancaq görünür, gözəllik hələ həssaslıq demək deyil, insanlıq demək deyil.» Baş həkim bunları ürəyindən keçirə-keçirə əl atıb stolun üstündəki qutudan siqaret götürdü, yandırıb bir qullab vurdu: elə bu an bayaq Bəhruzun şax-şax: «Siz onu yaxşımı tanıyırsınız, doktor?» sözlərini, özünün ona cavab verməkdə çətinlik çəkdiyini xatırladı və «Deyəsən yavaş-yavaş tanımağa başlayıram» deyə düşündü.

Həkim papirosu sümürüb yenə sinə dolusu ah çəkdi.

Nazik tüstü təbəqəsi burula-burula havaya qalxdı, yayılıb seyrəldi və Balaxanım ilə onun arasında tül pərdə kimi asılıb qaldı.

## VI

Balaxanım həkimin yanından qanıqara çıxdı. Qəbul otağına gəldi. Məlumat kitabından Qədirin iş yerinin telefon nömrəsini axtarmağa başladı. Tapdı. Nömrəni yığdı.

– Allo, sement zavodudur?

Uzaqdan xırıltılı qadın səsi cavab verdi:

– Bəli, bəli.

– Bilirsiniz... bizim xəstəxanaya bir yaralı gətiriblər... maşın vurub... Sizin işçidir.

Sement zavodundan danışan qadın aşkar hiss olunan həyəcanla:

– Kimdir? Adı nədir? – deyə soruşdu.

– Adı?.. – Balaxanım arayışı gözünə yaxın tutüb oxudu. – Qədir, Qədir Fərəc oğlu.

– Oy, oy!.. – deyə, qadın əlini ülgüc kəsmiş adam kimi ufuldadı. – Deyirsiniz maşın vurub? Vəziyyəti necədir?

– Vəziyyəti ağırdır...

– Heyif, heyif. Heç bilirsiniz o necə gözəl insandır, necə gözəl insandır!

Balaxanım üz-gözünü qırışdırdı:

– Bizə onun necə insan olmağı lazım deyil, xanım, – dedi. – Ünvanı, telefonu lazımdır.

Cavab ağır gəldi. Əgər dəstək müqabil tərəfdəkini göstərə bilsəydi, o zaman Balaxanım sement zavodundan danışan arvadın necə də narazılıqla başını buladığını aydın görər, baxışlarından: «Nə əti acı arvaddır?» sözlərini aşkar oxuyardı.

İncik səs sement zavodundan cavab verdi:

– Bir dəqiqə... gözləyin...

Dəstək yerə qoyuldu. İki dəqiqə keçməmiş qadın Qədir Fərəc oğlunun telefonunun nömrəsini dedi və soruşdu:

– Hansı xəstəxanada yatır?

Balaxanım xəstəxananı qadına nişan verdi. O Balaxanıma təşəkkür elədi.

Balaxanım dəstəyi yerə qoymadan Qədirin evinin telefon nömrəsini yığdı:

– Kimdir danışan?

– Sevil, – deyə beş-altı yaşlı qız uşağı cavab verdi.

– Sən Qədirin qızısan?

– Hə. Bəs sən kimin qızısan?

Balaxanımı Sevilin bu sualı əsəbiləşdirdi.

– Qız, bura bax, uzunçuluq eləmə.

Qız mızıldadı, görünür, arvadın əsəbiliyi onu çaşdırdı, sonra sıxıla-sıxıla:

– Sən soruşdun, mən də soruşdum da, – dedi.

– Lənətə gələsən, kor şeytan ha. İşə düşmədik. Ay qız, evdə səndən başqa kim var?

– Qardaşım!

– Onu çağır gəlsin telefona. Səninlə söz güləşdirməyə vaxtım yoxdur.

Sevil şən-şən güldü:

– Axı, qardaşım balacadı, nə yeriyə bilir, nə danışa bilir!

– Əstəğfürullah! Qız, anan hanı?

– Bazara gedib.

– Gələndə denən ki, atanı maşın vurub, bir nömrəli xəstəxanadadır, gəlsin. Yaxşı?

Daha Sevildən cavab gəlmədi...

Balaxanım milis idarəsini də məsələdən agah elədi, əhvalatı danışıb maşının nömrəsini, sürücünün iş yerini, adını, familiyasını xəbər verdi.

## VII

Tikinti meydançasında qızğın iş gedirdi. Qaldırıcı kran sağa-sola hərəkət edir, uzun boğazını irəli uzadıb, ikinci mərtəbəsi qurtarmaqda olan binanın o tərəf-bu tərəfinə daş verirdi.

Qulamın maşını daş qalağının yanında dayanmışdı. O, kapotu qaldırıb motorun nəyinisə qurdalayırdı. Bəhruz maşını dal-dalı verərək onun tuşunda saxladı. Kabinadan başını uzadıb:

– Qulam, – dedi. – orda neyləyirsən?

– Heç. Motoru təmizləyirəm.

Bəhruz:

«Motoru təmizləmək asandır, ancaq...» – deyə düşündü.

– Ziyadxan səni deyəsən yaman yaxalamışdı.

– Hə...

– Bura bax, ə? – deyə Qulam Bəhruzun ağır dindnyini və pərt olduğunu görüb dikəldi. – Niyə qanın qaradır? Yoxsa Ziyadxan ikidən-üçdən qopardıb, ona görə?!

– Yox, əşi... Sən də...

– Bəs yaxşı, nə olub?

Bəhruz Qulamın düz gözlərinin içinə baxdı:

– Bayaq döngədə düşüb qalmış kişini görmədin, Qulam? – deyə boz-boz soruşdu.

Qulam Bəhruzun gözləmədiyi bir arxayınlıqla və dərhal cavab verdi:

– Gördüm!

Bəhruz qulaqlarına inanmırmış kimi gözlərini döydü və o sözü, o bircə kəlməni bir də eşitmək istədi, uzada-uzada soruşdu:

– Gördün??!

Qulam heç şey olmamış kimi gülümsünərək:

– Gördüm! – dedi, – Necə bəyəm?

– Bəs niyə... niyə qoyub qaçdın? – Bəhruzun səsi titrədi.

– Tövbəliyəm, qardaş, – deyə Qulam yenə laqeydliklə cavab verdi. – İlan vuran ala çatıdan qorxar, Bəhruz!

Ani olaraq susdular. Yad adamlar kimi bir-birinə baxdılar.

– Mən başa düşmədim. Səndə söz var deyəsən, Qulam.

– Eh, ay Bəhruz. İndi durub sənə danışacağam, oxuduğun kitablardakı bütün yaxşı cümlələri döşəyəcəksən qabırğama. O ki var, deyəcəksən. Çünki sən kitab adamısan. Kitablarda oxuduqlarınla yaşayırsan. Sənin həyatdan az xəbərin var, Bəhruz, çox az acığına gəlməsin a. Demə ki, Qulam mənə cip-cip öyrədir.

– Yaxşı, uzatma, agah elə görüm, bu nə məsələdir, Qulam? Danış, danış, – deyə Bəhruz az qala yalvardı.

Qulam əlini əski parçası ilə silə-silə dedi: – Üç il bundan qabağın söhbətidir, Bəhruz. Yolnan gedirəm. Saqlığına, kefim kök, damağım çağ. Papağı yan qoymuşam, özümçün oxuyuram. Saatda da altmış-yetmiş sürürəm. Birdən elə bil zalım oğlu yerdən peyda oldu, ya göydən düşdü, bilmədim. Görürəm bir cavan oğlan qabağımdan yolu keçmək istəyir. Adə, ay aman. Tez ayağımı basdım əyləcə. Dedim, zalım oğlu məni də bədbəxt elədi, özünü də maşın sürüdü. İnsa-

fən, oğlan özü də cəld tərpəndi, maşının qabağından qaçdı. Ancaq qaçanda ayağı şalvarının gen balağına ilişdi, üzü üstə yıxıldı. Maşının yeli də bu yandan vurdu, bir az süründü. Günah özündə idi zalım oğlunun. Özü mənim yoluma keçmişdi. Mən saxlamayıb gedə bilərdim. Ancaq yazığım gəldi. Tezcənə düşdüm, qaldırdım. Burnu asfalta dəyib qanamışdı, dizinin gözü də deyəsən əzilmişdi. Yeriyə bilmirdi. Götürüb qoydum kabinaya. Kənd uşağı idi. Şamxordandı. Qəribə bir adı vardı. Tiflis. İmtahana gəlmişmiş. Səhər imtahan verəcəkmiş. Düşdüyü yeri filanı soruşdum. Dedi, məni qardaşımın yanına apar. Qardaşının adı İdrisdi. Politexniki institutda – budey, bu görükən binada oxuyurdu. Dedim, hə, neynək, apardım.

Qardaşım sənsən, bu İdris qırsaqqız olub yapışmadı yaxamdan?! Əvvəl üstümə bir xoruzlandı. Dedi ki, qardaşımı vurubsan; o, imtahana gedəcəkdi. Qəbul olunacaqdı, oxuyacaqdı, nə bilim diplom alacaqdı... Bilirsən də, o Molla Nəsrəddinin əhvalatı kimi... Dedi ki, səni tutduracağam. Dedim ədə, allaha bax, tarıya bax. Dedi yox ki, yox. Qırxdı, biri əskik döyül. Dedim, ə, Tiflis, səni mən vurmuşam? Allahın varsa, de! Tiflisin üstə İdris necə göz ağartmışdısa o da durdu üzümə. Qərəz milisə düşdüm. Məni çox çək-çevirə saldılar. Çox orabura apardılar. Düzü ki, incidim!.. – Qulam söhbətini qurtarıb bir papiros yandırdı. – İndi bildin niyə tövbə eləmişəm? Bax, elə buna görə! O vaxtdan söz vermişəm ki, nəinki başqaları vuranı, nəinki öz günahı ucundan maşının yelilə yıxılıb zədələnəni, hətta, özüm vurub xurd-xəşil elədiyimi belə götürməyəcəyəm! Qoy nömrəmi yazsınlar, qoy tutub damlasınlar, razıyam. Ancaq götürməyəcəyəm. İstəyir, mən ölüm, lap yüzü böyür-böyürə tirrənsin. Heç belə gözümün ucuynan da baxmayacağam.

Bəhruz fikrə getmişdi. Bu söhbət onu elə tutmuşdu ki, Qulamı tamam yaddan çıxartmışdı, İdris – tanımadığı, görmədiyi İdris bütün varlığı ilə gəlib onun gözləri qarşısında dayanmışdı.

– Yaramaz! – deyə o, birdən səsləndi. Qulam ciyərlərnnə çəkdiyi tüstünü havaya üfürüb qaşlarını dartmış halda:

– Kiminləsən, ə? – deyə soruşdu. – Mənə deyirsən yaramaz?

Bəhruz cavab vermədi. İti addımlarla uzaqlaşıb maşının yanına gəldi. Fikirli-fikirli kabinaya qalxdı.

«İdris adam öldürməyib, oğurluq eləməyib. Onu tutmaq da olmaz. Amma o, qatildir. O, insanlıq öldürüb, xeyirxahlıq öldürüb, inam öldürüb!» Bu yerdə nə üçünsə Bəhruz bu qış vəfat eləmiş qonşuları Əsgər kişini xatırladı. O, neçə müddət idi xəstə yatırdı. Həkimlər böyük oğluna, arvadına xəlvət başa salmışdılar ki, kişi xərçəng xəstəliyinə tutulub. Sağalıb bir də yorğan-döşəkdən durmağına ümid yoxdu. Gündən-günə zəifləyir, üzülürdü. Gözləri çuxura düşmüşdü. Ancaq kişi elə nikbin idi ki, ölüm fikrini ürəyinə belə gətirmirdi. Balalarını başına yığıb ümidlə:

– Qışın çıxmağına az qalır, – deyirdi. – Bu gün-sabah yaz, yay gəlir. Onacan mən də yaxşılaşaram, ayağa duraram. Köçərik bağımıza. Dənizə gedərik, çimərik. Mən də uzanaram kəhraba kimi qumun üstündə, gün vurar, bütün azar-bezarım canımdan çıxar...

Günlər, həftələr beləcə keçirdi. Kişi bu ümidlə yaşayırdı. Quruca nəfəsi qalmışdı, ancaq inam onu yaşadırdı.

Bir gün... Əsgər kişinin yeddi yaşlı oğlu, həkimdən eşitdiyi o məşum sözü atasının yanında dilinə gətirdi.

– Ata, xərçəng nədi? O gün doktor əmi anama deyirdi ki, sən xərçəng olmusan. Düz deyir?

Kişinin çuxura düşmüş gözləri tərpəşdi, heyrət və qorxu ilə böyüdü, parladı və sonra... sanki birdən-birə öz olan-qalan işığını da itirdi. Heç nə demədi. Susdu, dərindən köksünü ötürdü. Sanki onun canı da, ümidi də, inamı da bu ahla onu tərk elədi. Oğlu, öz doğmaca oğlu onun inamını öldürmüşdü. Səhəri kişi özü öldü...

Bəhruzun nəzərində Qulam da öldürülmüşdü. Əsgər kişi kimi. Onu oğlu öldürmüşdü, Qulamı İdris. Düzdür, Qulam gəzirdi, maşın

sürürdü, işləyir, adamlar arasında yaşayırdı. Ancaq o, əslində diri ölü idi, diri ölü...

İş icraçısı Tağının acıqlı səsi Bəhruzu xəyaldan ayırdı:

– Adə, Bəhruz?

– Nədi, Tağı?

– Adə, yatıbsan, nədi, maşında?

– Yox.

Tağı yaşı əllini haqlamış, ucaboy, çalsaç, göygöz bir kişi idi. O, kabinanın qapısı ağzına gəldi. Gözlərinə inanmırmış kimi diqqətlə Bəhruza fikir verdi:

– Adə, içib eləməmisən ki?

– Yox, Tağı.

– Adə, bəs hardasan? Hay? Bu neçənci reysindi, adə?

– Üçüncüdür, yoldaş Əsgərov, – deyə Bəhruz yorğun-yorğun cavab verdi.

Tağı əlini havada yellətdi:

– Bəh, bəh! Adə, bunnan kommunist əməyi qabaqcılı olmaq istəyirsən? İclasda danışanda ağzuva çullu dovşan sığışmır. Odey, bax, Qulam onuncu reysi gətirdi. Sən isə...

– Bir iş düşmüşdü, Tağı.

– Nə iş, adə? Yoxsa xalturaya-zada getmişdin?

– Yox, Tağı.

– Bəs nə işdi o?

Bəhruz Tağının xasiyyətinə bələddi. Onunki iş idi. Yaxşı işlə, atasına söy, sənnən haqq-hesabı olmazdı.

Bəhruz güman eləyirdi ki, nə üçün gecikdiyinin səbəbini açıb deyəndə Tağı onu danlamaz. Lakin Bəhruzun gözlədiyi kimi olmadı. Tağı əhvalatı eşidən kimi dilxor oldu və özündən çıxdı.

–Adə, sən «iskori pomoşsan», nəsən bəgəm? Səni yaralı-zad daşımağa göndərmişik, ya daş daşımağa? Sən ölmüyəsən, üç gündən sonra iclasdı, işi «sarvat» elədiyinə görə sənə bir yağlı töhmət...

– Hadisədir, Tağı, rast gəldi. Vicdanım...

Tağı onun sözünü kəsdi:

– Adə, qoy oturmuşuq, mən ölüm. Vicdan nədi, zad nədi? Məndən, səndən iş istəyirlər bu saat, vicdan yox. Hökumətin bu boyda maşınını ora-bura sürmək olmaz, Bəhruz. Hələ gör neçə gün də avara olacaqsan.

– Niyə, Tağı?

– Adə, sən elə danışırsan, elə bil bu saat göydən düşübsən. Bilmirsən ki, belə hadisəyə rast gələndə milis-filan gəlməmnş onu yerindən tərpətmək olmaz. Gərək onun şəklini çəksinlər, nə təhər vurub, nə təhər yıxılıb, nə bilim day nə. Bilmirsən qayda-qanunu?

– Bilirəm, Tağı. Ancaq milis gəlincə o kişi ölə bilərdi!

– Əh, ölə bilərdi, ölə bilərdi. Sənə nə ölə bilərdi! Bir də bura xəstəxana döyül; sən də «iskori-pomoş» sürmürsən. Bizə bu saat daş lazımdır. Binanı ayın axırına qədər tikib qurtarmalıyıq, təhvil verməliyik. Yoxsa briqadamız filan qədər premya itirəcək.

İş vaxtı qurtarırdı. Fəhlələr önlüklərini, əlcəklərini, kombinezonlarını çıxarır, iri çənin yanına gəlib zarafatlaşa-zarafatlaşa yuyunurdular. Qaldırıcı kranda, o «hacıleylək yuvasında» işləyən oğlan «Bülbül» mahnısını zümzümə edə-edə aşağı düşürdü.

Tağı daha nəsə deyirdi, Bəhruz ona baxırdı, ancaq sözlərini əməlli başa düşə bilmirdi, çünki fikri ayrı yerdə – tikinti idarəsinin geniş dəhlizindəki yaraşıqlı «şərəf lövhəsi»ndə idi. İdarənin bütün briqadalarında çalışan ən yaxşı işçilərin– əmək qabaqcıllarının iri şəkilləri o lövhədən asılmışdı. Tağının şəkli birinci cərgədə idi.

«– İşinə görə layiqdir, – deyə Bəhruz dalbadal üyüdüb tökən Tağıya baxa-baxa düşünürdü. – Ancaq gərək tək işinə görə adamı «şərəf lövhəsi»nə vurmayalar, irəli çəkməyələr. Onun vicdanına da, ürəyinə də, insanlığına da baxalar, sonra!»

## VIII

Bəhruz evin qabağında taksidən düşüb tez özünü bloka saldı. Cəld addımlarla beşinci mərtəbəyə qalxdı. Qapının zənginn basdı.

– Atam gəldi! – deyə Toğrul sevincək anasının yanına, mətbəxə qaçdı. Xatirə mətbəxdə xörək hazırlayırdı.

Qızarmış soğanın xoş iyi uzaqdan adamı vururdu. Xatirə əlində qaşıq gəlib qapını açdı. Bəhruz evə keçdi. Toğrul həmişə olduğu kimi, bu gün də atasına sarı qaçıb dizlərini qucaqladı, dabanlarını qalxızıb yuxarı dartındı. Birdən qorxub kənara sıçradı və içini çəkib:

– Ata ufu olub – dedi. O, şəhadət barmağını irəli uzadıb atasının şalvarındakı, köynəyindəki qanı anasına göstərdi.

Xatirə səksəndi, ərinin üst-başına, yorğun üzünə, kədərli gözlərinə baxıb həyəcanla:

– Bu nədir, Bəhruz, səni kim bu hala salıb? –dedi.

– Heç kəs, heç kəs, vurmaq nədir, Xatirə?–Bəhruz onun uçunduğunu görüb: – Qorxma, Xatirə, Toğrul canı, qorxulu bir şey yoxdur, – dedi.

– Necə qorxulu bir şey yoxdur, Bəhruz. Tey qan içindəsən, nə danışırsan? – deyə Xatirə ağlamsındı. Toğrul birinci dəfə idi ki, atasını belə görürdü: buna görə də kənarda dayanıb mat-mat baxır, heç nə demirdi.

Bəhruz yataq otağına keçdi, dəyişək istədi. Xatirə qəsdən dala qalıb onun yerişinə fikir verdi; görsün axsayıb eləmir ki? Yox, axsamırdı, yaralı adama da oxşamırdı. O, paltarını dəyişəndə də Xatirə Bəhruzun ayaqlarına, möhkəm əzələli baldırlarına fikir verdi.

Bəhruz yuyundu, qurulandı. Yemək otağına keçib divanın üstə uzandı və bundan sonra əhvalatı necə olmuşdusa aramla Xatirəyə söylədi. Baş vermiş bədbəxt hadisə Xatirəni kövrəltdi:

– Yazıq. Görəsən ölər ya qalar, Bəhruz?

– Həkimlə danışdım, deyir, qorxma. Həkimlər, özün bilirsən ki, dərmandan da çox, təsəlliynən sağaldırlar adamı.

– Yox, Bəhruz, gəl məndən gizləmə, bilirəm, kişinin maşın altına düşüb yaralanmağına dilxor olubsan. Ancaq gözlərindən oxuyuram ki, nəyəsə də bərk acığın tutub.

«Sənin həssaslığın mənim ürəyimdən xəbər verir, Xatirə! O saat başa düşdün ki, qanımı qaraldanlar olub. O əti acı Balaxanım, o köntöy Tağı, bu qorxaq Qulam kefimə soğan doğradılar. Ancaq bunları sənə də deyib qanını qaraltmağına dəyərmi?» – deyə fikirləşən Bəhruz arvadına belə cavab verdi:

– Yorğunam, Xatirə.

...Süfrə salındı. Onlar xörəklərini yedilər. Sonra təzədəm çay içdilər. Xatirə dedi:

– Hə, dur hamamı yandır, uşağı çimizdirim.

– Baş üstə.

Bəhruz hamamı yandırdı. Toğrul «çimmiyəm» – deyə ağladı, ancaq anası onun qara-qışqırığına fikir verməyib soyundurdu və hamam otağına apardı.

Bəhruz yenə qayıdıb divanın üstə uzandı. Gözü qarşı divarda üzərində susuz səhrada dəvə karvanı təsvir olunmuş xalçadan yuxarı vurulmuş dəniz mənzərəsinə sataşdı. Rəssam fırçayla möcüzə yaratmışdı; böyük, təlatümlü dəryanı sanki eynilə götürüb kətanın üstünə qoymuşdu. Diqqətlə baxsaydın, dalğaların şırıltısını da, qağayıların qanadlarının xışıltısını da eşidə bilərdin, suların ağavuş-göyümtül rəngini də görə bilərdin.

Bəhruz şəklə baxırdı. Bəhruz xəyalən orada – dənizdə idi.

Bu dəniz mənzərəsində üççə şey çatmırdı: buruq, Bəhruzun atası Rüstəm və sal buzlar... Bəli, bunlar o şəkildə yox idi. Lakin Bəhruzun xəyalı buruğu da, öz doğma atasını da, sal buzları da oraya əlavə eləmişdi. Onun təsəvvüründə bunlarsız dəniz yox idi. Atasını

xatırlayanda qeyri-iradi olaraq dəniz yada düşürdü, dənizi görəndə... buruq, atası, sal buzlar...

...Əlli dördüncü ilin Novruz bayramı axşamı idi. Umleyla axşama xüsusi tədarük görmüş, şəkərbura, paxlava bişirmiş, rəngbərəng şamlar almışdı. Qış, deyəsən ömrünün son günü olduğunu hiss edib bərk hiddətlənmişdi, alaçalpov qar yağmışdı, şəhər ağ dona bürünmüşdü; ancaq hava çox sakitdi. Külək əsmirdi.

Günorta Rüstəm gözlərini qışın naxışladığı pəncərədən çəkib Umleylaya, Bəhruza sarı döndü.

– Sizin bahar bayramınızı təbrik edirəm, əzizlərim!

Umleyla Rüstəmin nə dediyini başa düşmürmüş kimi:

– Bu nə deməkdir? Yoxsa bizi təbrik eləməyə tələsirsən? Hələ il axşam təhvil olacaq, Rüstəm!–dedi. Rüstəm sakit bir səslə:

– Mən axşam sizin yanınızda olmayacağam, Umu!– dedi və papirosunu yandırıb sümürdü.

Umleyla içərisinə ağ alülə düyüsü tökülmüş sininin üzərindən başını qaldırıb ərinə baxdı:

– Nə üçün, Rüstəm?

– Dənizə getməliyəm, Umu...

– Nə danışırsan, Rüstəm? Belə əziz axşamda...

– Axşam əzizdir, ancaq iş daha vacibdir, Umu. Soltan buruqda məni gözləyəcək. Onun da ailəsi var, uşaqları var, yolunu gözləyəcəklər.

Rustəmin səsi qəti və aydındı. Umleyla ərinin bu sözlərinə etiraz eləmədi, bilirdi ki, faydasızdı. Ancaq o, pəncərədən bomboz bozarmış havaya, sonra stolun üstə yığılmış bayram süfrəsinə fikir verdi və qəmli-qəmli:

– Belə axşamda, Rüstəm? – dedi.

Rüstəm mehriban, oxşayıcı nəzərlərlə Umleylanın kədərlə baxan qonur gözlərini mehribanlıqla süzdü, bu baxışla o, sanki arvadının könlünü almaq istəyirdi.

– Heç nə olmaz, Umu, bayramınızı elərsiniz. Mənim də ürəyim elə burda, sizin yanınızda olacaq...

– Rəhmətlik anam deyərdi ki, – Umleyla ah çəkdi, – bir bayram axşamı evdə olmayan adam, yeddi il öz evində bayram keçirə bilməz.

– Elə şeylərə inanma, Umu.

– Nə bilim, uşaq vaxtı eşitmişəm. beynimə batıb. Qorxuram, Rüstəm!

Rüstəm gülümsündü.

Həmin gün gündüz saat ikidə Rüstəm qalın geyinib-kecindi. Umleyla ilə, oğlu ilə görüşüb evdən çıxdı. Rüstəm tini burulub gözdən itincə Umleyla onun arxasınca baxdı. O qorxurdu. Anasının iyirmi-iyirmi beş il bundan qabaq dediyi sözlər hardan gəlib yadına düşdü? Nigaran qaldı. Belə əziz gündə ailə üzvlərindən biri evdə, süfrə başında olmayanda yediyin-içdiyin canına sınmır, tikən ürəyini deşir.

Atası gedəndən sonra Bəhruz da hiss elədi ki, evdə nəsə çatmır. Oxumaq həvəsi qaçdı, kitabı büküb kənara qoydu. Anasına fikir verdi: gözünə kefsiz dəydi.

– Niyə qoydun gedə atamı, ana?

– Xasiyyətini bilmirsən? İş onun canı-ciyəridir. Qalmazdı, bala. Növbəsinin vaxtı idi, qalmazdı.

Ancaq onların nigarançılığı uzun çəkmədi. Üç saatdan sonra qar adama oxşayan Rüstəm qapı ağzında görünəndə Umleyla da, Bəhruz da sevindi. Rüstəm üstünün, ayağının qarını çırpa-çırpa:

– Dənizdə bərk fırtına var, – dedi. – Gedə bilmədik. Xəbər verdilər ki, Mahaçqala səmtdən iri sal buzlar axıb gəlir.

Onun bu sözlərinə Umleyla da, Bəhruz da o qədər fikir vermədilər. Onlar yalnız bunu düşünürdülər ki, Rüstəm bayram axşamı evdə, öz ailəsinin yanında, isti ocağının başında idi.

O axşam kiçik ailə qışın son gecəsini birgə yola saldı, baharın ilk gününü bahəm qarşıladı. Yedilər, gülüb şənləndilər, gecə saat iki-

yəcən oturdular. Səhər tezdən Rüstəm getdi. Axşam isə... Axşam isə, meyidini gətirdilər...

O, qüvvətli dalğanın vurub suya saldığı iş yoldaşını xilas etmək üçün dənizə atılmış, estakadanın lap dibində küləyin sürətlə qovub gətirdiyi iri bir buz parçası başına dəymişdi...

Bu, ailə üçün, demək olar ki, gözlənilməz, son dərəcə gözlənilməz zərbə idi.

Umleyla Rüstəmin cənazəsi üstündə saç-birçəyini yolaraq göz yaşları axıda-axıda ürəyində, indi bəlkə sümükləri də çürümüş, sürmə olmuş anasına üz tutub deyirdi: «Bəs hanı, ana?.. Demək yalanmış... o ki, bayramı evdə qarşıladı, ana?.. Yox, ana, bayramı evində keçirən adam da bəzən...»

O, sözünü tamamlamaqdan çəkindi, bu fikri özündən uzaqlaşdırmağa çalışdı. Lakin bütün ciddi-cəhdinə baxmayaraq anasının uşaq çağından ər evinə köçürənə qədər ona təlqin etdiyi etiqadlar çürük bir divar kimi uçulub töküldü.

## IX

...Saat ikiyə işləyirdi. Ayın sarımtıl işığı iri pəncərədən içəri düşürdü. Toğrul ağ nikel çarpayısında şirin-şirin yatmışdı. Bəhruzun böyründə uzanmış Xatirə sağ əlini başının altına, sol əlini sinəsinin üstünə qoymuşdu; barmağındakı üzüyün brilyant qaşı parıldayırdı.

Sakitlikdi. Toğrulun mışıltısından, bufetin aynası qarşısındakı girdə saatın yeknəsəq çıqqıltısından başqa heç nə eşidilmirdi.

Ancaq Bəhruz yata bilmirdi, yuxusu ərşə çəkilmişdi. Çırpınan, çapalayan balıq gözünün önündən getmir və hər dəqiqə kişinin qana bulaşmış solğun sifətini nəzərində canlandırırdı. Bəhruz ah çəkdi, çevrildi, çarpayı cırıldadı. Xatirə gözlərini açdı.

– Bəhruz, niyə yatmırsan?

– Heç, elə-belə. Bəs sən niyə yatmırsan?

– Heç, elə-belə...

İkisi də «heç, elə-belə» dedi. Xatirə yaxşı bilirdi ki, Bəhruzun gözünə niyə yuxu getmir. Bəhruz da bilirdi ki, Xatirə niyə yatmır. – Kişidən nigaranam, Xatirə.

– Bax, telefon belə yerdə gərək olur. Adam zəng eləyib bilərdi.

– Bilmirəm niyə bu telefondan hər təzə evə birini qoymurlar? İndi hamıya telefon lazımdır. Ev alandan sonra hamı çalışır ki, telefon çəkdirsin. Həm filan qədər vaxt gedir, həm də... Evə hər şey qoyurlar; su, qaz, hamam... Telefon da qoysalar...

– Onu da qoyacaqlar, Bəhruz.

Sükut oldu, çox keçməmiş ay pəncərənin ağzından çəkilib getdi, otaq qaranlıqlaşdı.

– Yat, Bəhruz...

– Sən də yat, Xatirə...

***

...Saat ikinin yarısı idi. Otaqda sakitlik hökm sürürdü. Uşaqlar – Sevil və balaca İslam şirin şirin yatmışdı. Sevilin yorğanının ucunda boz pişik başını pəncəsinin üstünə qoyub yuxulamışdı...

Dilaram çarpayıda dizlərini qucaqlayıb oturmuşdu. Saçları dağılmışdı. Dodaqları əsir, sol yanağındakı xal titrəyirdi. Ağlayırdı. Səs-səmirsiz ağlayırdı. Bədbəxt hadisə onu sarsıtmışdı. Cəmi beş-altı saat bundan qabağa qədər o, özünü dünyanın ən xoşbəxt qadını hesab edirdi. Əri, uşaqları, evi-eşiyi, özünə görə səadəti... Başa düşən, gözü-könlü tox qadına bundan artıq nə lazımdı ki? Ancaq görünür tale bunu ona çox gördü. Qədirin başına bu hadisə gəldi və Dilaramı qəmə qərq elədi.

Axşamüstü, Balaxanım zəng eləyəndən yarım saat sonra, o dəhşətli xəbərin ağırlığı altında əzilə-əzilə gəlib xəstəxanaya çıxmışdı.

Qədiri başı sarıqlı, halsız-huşsuz görüb lap çaşmış, nə edəcəyini bilməmişdi. «Can, yaralı bədənüvə qurban olum, Qədir» deyə fəğan etmişdi.

Sultanzadə, həkimlərə xas olan səbir və təmkinlə onu sakitləşdirmiş, ürək-dirək vermişdi. Doktor hadisənin necə olduğunu ona yerli-yataqlı danışmışdı.

Dilaram ürəyi, gözləri ilə bacara bilməmiş, hönkürtü vurub ağlaya-ağlaya həkimdən xahiş etmişdi ki, gecə Qədirin yanında qalmağa icazə versin. Lakin doktor buna qətiyyən razı olmamışdı:

– Get, bacı, sənlik burda bir iş yoxdur, qalsan, özün də narahat olacaqsan, o da.

– Qoy heç olmasa səsini eşidim, doktor, bir kəlmə dindirim, – deyə Dilaram göz yaşları içində boğula-boğula yalvarmışdı.

– İcazə yoxdur, bacı, – deyə Sultanzadə sərt bir hərəkətlə ona etiraz eləmişdi. – Olmaz! Naəlac qalan Dilaram:

– Başına dönüm, doktor, çarə sənə qalıb, bizi başsız qoyma, amanın bir günüdür, balalarıma yazığın gəlsin, doktor, – deyə ağlayıb sıtqamışdı.

– Arxayın ol, bacı, biz çalışacağıq ki, əriniz sağalıb ayağa dursun, – deyə doktor təsəlli vermişdi. – Elə qorxulu bir şey yoxdur, bacı.

«Qorxulu bir şey yoxdur» – deyə Dilaram həkimin sözünü yenidən xatırladı. – «Necə qorxulu bir şey yoxdur ki, heç Qədir bilmədi mən yanına gəlmişəm. Onun dünyadan xəbəri yox idi. Üz-gözünü qırışdırmışdı. Yəqin canı ağrıyırdı. Ağrıların mənə gəlsin, Qədir!»

Dilaram belə düşündükcə, öz-özünə danışdıqca daha da hövl eləyir, ev-eşiyə sığışmırdı; yuxusu ərşə çəkilmişdi.

Neçə il birgə yaşamışdılar, Dilaram Qədirin nə xəstələndiyini görmüşdü, nə bir yerindən şikayətləndiyini eşitmişdi. Ona görə də, bu evdə ölüm-haqqında əsla düşünən olmamışdı. Dilaramın heç ağlına da gəlməmişdi ki, bir gün ölüm-itim ola bilər, ayrıla bilərlər. Onlar tez-

tez xəyala dalaraq gül parçası kimi balalarını böyütmək, hərəsini evli-eşikli görmək barədə düşünmüşdülər.

İndi budur... Ölümün buz kimi soyuq nəfəsi necə də yaxındır. O, necə də gözlənilməz gəldi. Bu qəbir nədir? O qara torpaq nədir elə? Bunlar nə üçün Dilaramın yaşlı gözləri önündən çəkilib getmir?!

Dilaram bu qorxunc və dəhşətli fikirləri özündən kənar etməyə çalışır, ancaq bacarmırdı. Ana ağlayırdı. Elə bu zaman balaca İslam yuxuda gülürdü.

«Dünyadan xəbərsiz balam. Atanın başına nə gəldiyini bilsən gülməzsən belə... Gülməzsən, bala».

* * *

...Gecə saat üç idi. Xəstələr yatmışdılar. Qonşu palatada kimsə bərkdən zarıyırdı.

Qədir səsi eşidirdi, ancaq haradan gəldiyini ayırd eləyə bilmirdi. Beynində köhnə, lap köhnə motor uğultusuna bənzər bir səs-küy vardı.

Bura hara idi? Təsəvvür eləyə bilmirdi. Gözlərini açıb baxmaq istədi, bacarmadı; çığırmaq; adamları harayına çağırmaq istədi, dodaqları tərpənmədi, səs ürəyindən qopdu, boğazına gəlib çatmamış haradasa ilişib qaldı.

Soyuq tər bütün bədənini bürüdü. Müdhiş bir fikir ildırım kimi onun düşüncəsini dondurdu:

«Mən ölmüşəm ki!..» Bu üç kəlmə ağır çəkic kimi düz yarasının üstünə üç dəfə dalbadal endi.

Elə bu vaxt o, qolunda kiminsə əlinin təmasını duydu. Həkim Sultanzadə idi. Qədirin nəbzinn yoxlayırdı... Ürək yenə zəif-zəif döyünürdü. O, ehmalca Qədirin qoluna iynə vururdu. Sonra tumboçkanın üstündəki qalın stəkana pambıq salıb onun qurumuş dodaqlarını islatdı.

Qədirin ürəyinə bir sərinlik çökdü...

Sonra həkim ağır xəstələrə baş çəkə-çəkə palataları gəzdi. O, uzun illərdi ki, buna adət eləmişdi. Hər gecə bu hal təkrar olunurdu. Xəstələr dəyişirdi, xəstəxanalar dəyişirdi, ancaq bu adət dəyişmirdi.

Dəhlizdən keçdi. Kabinetə girdi. Şirmanın yuxarısından boylanıb o üzə baxdı. Balaxanım divanın üstündə uzanıb yatmışdı.

Həkim baxdı, baxdı...

«Ağır yaralını buna tapşırmışam. Gör necə də rahat yatıb?! Görəsən gözünə necə yuxu gedir?!»

* * *

...Bu gecə gözlərinə yuxu getməyən bir adam da var idi. Mən onun nə adını bilirəm, nə üzünü görmüşəm. Bəlkə də görmüşəm, bəlkə lap maşınına da minmişəm. Lakin tanımıram. Yerini-yurdunu bilmirəm. Ancaq bircə şeyi bilirəm. Bilirəm ki, o, bu gecə səhərəcən yatmayacaq. Həm də tək bu gecəmi?

## X

Bəhruz axşam nə qədər pis yatsa da, tezdən durdu. Çay-çörəyini iştahsız yedi. Xatirə soruşdu:

– Bu gün xəstəxanaya gedəcəksən?

– Hökmən, Xatirə. Yaman nigaranam.

– Hə, get, Bəhruz, bazardan da bir şey alıb apararsan. Sabahdazadda mən də gedib dəyərəm. Yazıqdı. Bəlkə heç yanına gəlib-gedən yoxdu.

Bəhruz yataq otağına keçib mışıl-mışıl yatan Toğrulun üzündən öpdü, Xatirə ilə xudahafizləşib qaraja getdi.

Maşını işə salıb yola düşdü. Bir reys daş gətirdi. Boşaldıb qayıdanda yolunu xəstəxananın yanından saldı. Maşını bağın böyründə

saxlayıb aşağı duşdü. Darvazaya sarı addımladı. Narıngül qarı əvvəlki yerində oturmuşdu. Qarı onu görən kimi gülümsədi.

– Salam, ana! Necəsən?

– Yaxşıyam, bala! – Onun yanları qırışmış gözləri təbəssümdən qıyıldı. – Ömrün uzun olsun.

– Bizim xəstənin halı necədir, ana? Adamından-zaddan gəlib çıxan oldumu barı? Dünən heç özümdə olmamışam ki, evinin adresini öyrənəm, gedəm xəbər verəm.

– Balaxanım xəbər vermişdi, – o, qəbul məntəqəsi səmtə işarə elədi. – Arvadı, qızı, qohumları gəlmişdilər.

– Hə?

Bəhruz xələt alıb yuxarı qalxdı. Geniş, uzun dəhlizə çatıb sola buruldu. İki-üç addım getmişdi ki, qabaqdan çiyninə xələt salmış və oxlov udmuş adam təki dimdik yeriyərək ona sarı gələn Tağını görüb təəccübləndi.

«O burda nə gəzir? Yəqin mənim sözümə inanmayıb. Gəlib yoxlamağa. Nə olar, gəl yoxla. Eh, Tağı, Tağı...» deyə Bəhruz ani olaraq ürəyindən keçirtdi.

Tağı uzaqdan onu görən kimi şit-şit hırıldadı, qollarını geniş açaraq yaxınlaşdı. Bəhruzun heyrətinə, təəccübünə fikir vermədən qucaqlayıb o üzündən-bu üzündən marça-marçla öpdü.

– Ay sənin başına-dönüm, Bəhruz.

– Ay kişi, dayan görüm, nə olub?

– Adə, sən nə yaxşı adam imişsən, Bəhruz. Heç mən indiyəcən bilməmişəm. Pay sənin saqqalın ağarsın. Adə, adam özün tanıtdırar da. Pay sənin!..

Hələ də bir şey anlamayan Bəhruz döyükmüş halda ona baxır və Tağı irəli gəldikcə addım-addım dala çəkilirdi.

– Nə olub, Tağı?

– Adə, tay nə olacaq? Bundan böyük şey istəyirsən olsun? Adə, dünən balniskəyə gətirdiyin adam heç bilirsən kimdi?

– Yox, Tağı!

– Adə, mənim bacımın yoldaşıdı da, Qədirdi də. Pay sənin!..

– Hm. Belə de...

Bəhruz Tağının nəyə görə belə dəridən-qabıqdan çıxdığının, əl-ayağa düşdüyünün səbəbini anladı və elə o an onun dünənki sözlərini xatırladı. İndi dedikləri dünənkinin tam əksi idi. Lakin buna baxmayaraq, onları tamamladı, qabartdı və Tağının bütün ürəyini, iç üzünü açdı. Tağı indi patefon valı idi. Bəhruz – onun bir üzünə dünən qulaq asmışdı. O biri üzünü isə bu gün dinləyirdi. Tağı yenə dil-dil ötürdü:

– Adə, sənin dünən eləmədiyin reysləri də yazacağam, sən öləsən. Buna mənim polnı ixtiyarım var, prorab kimi. Sonra idarənin ümumi yığıncağında sənin bu hərəkətini danışacağam, insanpərvərlik hərəkəti kimi.

– Mənə heç nə lazım deyil, Tağı.

– Pay sənin! Necə heç nə lazım deyil, adə? Sən heç bilirsən mənə nə yaxşılıq eləmisən?

– Mən sənə heç bir yaxşılıq eləməmişəm.

– Pay sənin! Necə eləməmişəm, adə? Götürməsəydin a, qalıb öləcəkdi? Öləcəkdi. Bacım, uşaqları qalacaqdılar başsız? Qalacaqdılar. Bəs onlara kim baxacaqdı, yeməyin-içməyin kim verəcəkdi? Mən. İndi başa düşdün?! Pay sənin. Xi-xi...

«Dəhşət. Üçüncü üzü də varmış bunun. Yaxşısı budur bundan uzaqlaşım. Yoxsa danışdıqca çox şeylər çıxacaq ortalığa»– deyə Bəhruz bir addım geri çəkildi, çimçəşirmiş təki üz-gözünü qırışdırdı və:

– Yaxşı oldu səni tanıdım, – dedi.

– Pay sənin. Adə, bəgəm məni tanımırdın indəyəcən?

– Yox.

– Adə, neçə ildi səninlə bir yerdə işləyirəm, məni tanımırsan?

– İndi tanıdım, Tağı. Lap yaxşı tanıdım!..

– Pay sənin!

Bəhruz onun yanından adladı, keçib palataya girmək istədi.

– Adə, dayan, səni aparım Dilaramnan tanış eləyim.

– Lazım deyil.

Bəhruz iri addımlarla ondan uzaqlaşdı. Ancaq Tağı əl çəkmədi, dabanbasma dalınca gəldi.

Qədirin sifəti elə ağarmışdı ki, üstünə örtülmüş mələfədən seçilmirdi. Bəhruz dünən onu çarpayıda necə görmüşdüsə, eləcə uzanmışdı. Yəqin ki, o dünəndən heç tərpənməmişdi də. Ancaq burun pərələrinin tərpənməsindən bilmək olurdu ki, o sağdır, nəfəs alır.

Bəhruzun tanımadığı bir qadın iki çarpayı arasındakı boz kətilin üstündə oturmuşdu. Gözləri qızarmışdı; ağladığı, yuxusuz qaldığı o dəqiqə nəzərə çarpırdı.

Bəhruz çarpayının başına yenicə çatmışdı ki, Tağı özünü qabağa atıb palatadakı səssizliyi pozdu:

–Dilaram, Qədiri gətirən oğlan budur ey, – dedi. – Mənim işçimdir, Bəhruzdu adı. Bəhruz qanrılıb tərs-tərs ona baxdı:

– Mən sənin işçin yox, idarənin işçisiyəm, Tağı!

Tağı güldü:

– Pay sənin! İdarə kimindir adə, o da bizimdir də.

Bəhruz onunla ağız-ağıza verməyin mənasız, həm də yersiz olduğunu figirləşib hirsini uddu və üzünə xoş bir ifadə verməyə çalışaraq toxtadı.

Dilaram qucağında çırpınan görpəni sakitləşdirib ayağa qalxdı, irəli yeridi, O, elə həyəcanlı idi ki!.. Budur, o adam. O xilaskar qarşısındadır. Ona necə təşəkkür etməli?!

Bəhruz irəli yeridi. Dilaram əlini qabağa uzadıb Bəhruzun iri əlini sıxdı və qəhərli-qəhərli:

– Sağ ol, qardaş! – deyə bildi. – Sağ ol! – Özünü saxlamağa çalışdısa da, bacarmadı, göz yaşları onu boğdu.

–Daha ağlamaq niyə, bacı? – deyə Bəhruz çaşqın halda Dilarama baxdı. – Ağlama, bacı, ağlama.

Dilaram yaylıqla gözlərinin yaşını sildi.

Qadın xəstəni narahat edəcəyindən ehtiyatlanaraq astaca:

– Əyləş, qardaş!–deyə tumboçkanın böyründəki kətili ona göstərdi.

– Yox, oturmayacağam. Elə ayaqüstü gəldim görüm halı necədir – deyə Bəhruz da eyni pıçıltı ilə cavab verdi.

– Ömrün uzun olsun. Zəhmət çəkibsən. İş-güc vaxtı. Doktor hər şeyi mənə danışıb. Çox sağ olun, qardaş.

– Sizə kim xəbər verdi?

– Dünən xəbər verdilər. Elə burdan zəng eləmişdilər.

Bəhruz üzr istəyirmiş kimi:

– Həyatımda birinci dəfədi belə hadisəyə rast gəlirəm. Odur ki, özümü elə itirmişəm ki, heç nə sizi axtarıb tapmaq yadıma düşüb, nə də gedib milis idarəsinə xəbər vermək. İndi bura gələndə fikirləşmişəm ki, gərək elə dünən... – dedi.

– Milisdən dünən gəlmişdilər. Bir də görürəm bir kişi gəlib oturub Qədirin böyründə, əlində də kağız-qələm. Başlayıb sual-cavaba. Dedim ay qardaş, sizə nə lazımdır? Dedi: dannılar. Dedim axı, yazıq heç özündə deyil. Olmaz ki, bir ayrı vaxt gələsən? Bir də, dedim ki, iş olmasın, olandan sonra siz nə eləyəcəksiniz? Burda bir arvad işləyir, o gəlib çıxdı, özünü irəli verib dedi ki, bəs bütün dannılar məndədi...

– Hə, dünən məndən soruşub hamısını, – deyə Bəhruz fikirli-fikirli cavab verdi və dönüb soruşdu: – Yaxşı, vəziyyəti necədir indi?

– Dünəndən gözlərini açmayıb, çağırıram, dinmir. Heç deyəsən... – O yenə doluxsundu. – Ancaq doktor deyir, qorxma...

– Yox, qorxmayın. Sağalacaq inşallah.

Bəhruzla anasının çox səmimi danışdığını görən Sevil ona baxıb gülümsündü. Bəhruz əlinin işarəsi ilə qızı yaxına çağırdı. O gəldi, Bəhruza sığındı. Bəhruz onun qıvrım saçlarını oxşayıb öpdü.

– Sənin adın nədi? – Sevil dinmədi.

– Niyə dinmirsən, dilin yoxdu?

– Var, budaha, – deyə Sevil dilini çıxartdı. Bəhruz da güldü, Dilaram da.

– Qız, ayıbdır. Adam əmiyə dilini göstərməz, – deyə anası Sevilə acıqlandı.

– Hə, yaxşı, indi ki, dilin var, de görək adın nədi?

–Mənim adım Sevildir, əmi.

– Ay bərəkallah, nə yaxşı adın var?!

– Hə, hələ mənim tiatrım da var, əmi. Bəhruz güldü.

– Hansı teatr, Sevil?

–Tiatrım da. Mənim tiatırım. Gəlir deyir ha, qol çək. O da deyir mən də çəkmirəm, hə, o tiatrım. Görübsən? – Bəhruz yenə güldü...

– Hə, görmüşəm, Sevil, Bəs heç demədin sən kimin qızısan?

– Atamın...

– Ay bərəkallah. Bəs atanın adı nədir?

– Atamın adı Qədirdi.

Bəhruz təzədən Sevilin saçlarından öpdü. Sonra ayağa durdu; bayaqdan əlində saxladığı, kağıza bükülmüş limonları tumboçkanın üstünə qoydu.

– Mən işə getməliyəm, mənə...

– Nə əziyyətdir, bu qardaş. Çox sağ olun!..

– ...

– Doğrusu heç bilmirəm sizə necə təşəkkür eləyim. Söz tapa bilmirəm, qardaş!

– Lazım deyil, bacı. Heç nə lazım deyil, – Bəhruz uşaqlara əl edə-edə palatadan çıxdı...

**XI**

Dünya gözündə gülürdü. Güllər, çiçəklər içində nərgizdən xoşu gəlirdi. «Kaş, burda bir dəstə nərgiz olaydı!» Musiqi ölüsüydü. «Kaş

«Karvan» çalınaydı»... Qəribə idi. Haradansa burnuna nərgiz ətri gəldi, qulaqlarında karvan zınqırovları səsləndi...

Maşın xəstəxananın qabağından tərpəndi. Bəhruz kepkasını çıxarıb böyründəki «Qızıma məktublar» kitabının üstünə atdı. Fit çala-çala irəli baxır, ehtiyatı əldən vermirdi. Dənizdən sərin meh əsirdi. Enli asfalt küçə ilə maşınlar, trolleybuslar, dizellər şütüyüb gedir, şəhər öz həmişəki adi, qaynar həyatını yaşayırdı.

Yanındakı köhnə, yastıyapalaq evlərin mühasirəsindən qurtarmış və sanki bir qədər də göylərə ucalmış Qız qalasının tuşuna çatanda yanı beşikli və qırmızı haşiyəli bir motosiklet vıyıltı ilə Bəhruzun maşınını keçib beş-on addım qabaqda dövrə vuraraq dayandı. Üstündəki kök adam yolu kəsirmiş kimi əlini yuxarı qaldırıb aşağı endirdi:

– Dayan!

Bəhruz onu dərhal tanıdı: Ziyadxandı. Bircə anda nərgizin ətri yox oldu, uzaq, qumlu səhrada ağır-ağır irəliləyən karvanı kimsə dayandırdı, zınqırovların səsi eşidilmədi. Nə üçünsə Bəhruzun ürəyi tez-tez döyünməyə başladı. O, maşınını yolun kənarına verib saxladı və başını pəncərədən çıxarıb Ziyadxana sarı baxdı. Ziyadxan yolun bu səmtinə keçdi, ağır, ləngərli addımlarla irəli yeridi. Bəhruz fikir verirdi; o dəfəki kimi üzügülər deyildi, qaş-qabaqlı idi. Elə bil ikisini Bəhruz yemişdi, birini o...

Bəhruz salam verdi, ancaq Ziyadxan düz onun gözlərinin içinə baxsa da, salamını almadı, özünü elə tutdu ki, guya heç nə eşitmədi. Qısaca:

– Dalımca sür! – deyə əmr elədi.

– Hara?

– QAİ-yə.

– QAİ-yə nə üçün, Ziyadxan? – deyə Bəhruz içəridə sürətlə çırpınan ürəyini sakitləşdirməyə, aramla danışmağa; çalışdı. – Mən iş adamıyam, Ziyadxan. Fəhlələr gözləyir.

– İş-miş bilmirəm, fəhlə-məhlə tanımıram. Dalımca gəl dedim, vəssalam! – deyə Ziyadxan hirslə səsini qaldırdı.

Bəhruz böyük səhv elədiyini indi anladı. Gərək, elə dünən milis idarəsinə gedəydi, əhvalatı olduğu kimi orada danışaydı. Bu qaydanı ki, o bilirdi. Necə olub ki, unudub? Bəs o Balaxanımın yazdıqları? Əslinə baxsan, onu elə bu çaşdırmışdı. Balaxanımın yazması, milis idarəsinin bilməsi demək deyildimi? Yox, gərək özü gedəydi, özü danışaydı...

– İşdən sonra gələrəm, Ziyadxan. Dünən də normamı daşıya bilməmişəm, bu gün də getsəm. Axı, sən başa düş, nə qədər fəhlə...

– Mən heç nə bilmirəm. Uzunçuluq eləmə. Gəl dalımca.

Bəhruz dişlərini bir-birinə sıxıb dinmədi.

– Qorxursan?

– Nədən?

– Qorxursan tutub basalar dama?

– Mən nə eləmişəm ki, dama da basalar? Vurub qaçmışdılar...

– Sənin deməyinə kimdi baxan?! hər deyilən sözə inana bilmərik. Hələ onu biz müəyyən edəcəyik, vurub qaçıblar, ya sən vurmusan! Amma indiyəcən topladığımız mə'lumat göstərir ki, elə sən özün vurubsan!

Bəhruzun rəngi ağardı. Ziyadxan bundan ani olaraq sevinən kimi oldu. Ləzzət alırmış kimi arxayın və amiranə bir səslə davam etdi:

– Əgər soğan yeməyibsən için niyə göynəyir? Kişini xəstəxanaya gətirməyin, orada elə canfəşanlıq eləməyin, indi burda QAİ-yə getmək istəməməyin, belə ağappaq ağarmağın – bütün bunlar...

– Bəsdir, Ziyadxan! – deyə Bəhruz, demək olar ki, qışqırdı. – Gedək, hara deyirsən gedək. Ancaq sən danışma.

– Hə??! Belə?!

– Hə. Belə!.. Mən bu cür sözlər eşitmək istəmirəm, istəmirəm...

Ziyadxan razı halda gülümsündü və:

– Dalımcan gəl, uzun danışmaq lazım deyil, – deyib motosikletinə sarı yönəldi.

Ziyadxan qabaqda, Bəhruz isə arxada gedirdi.

Bayaqkı – cəmi beş-altı dəqiqə bundan qabaqkı sevincdən, nəşədən əsər-əlamət belə qalmamışdı.

## XII

İdarənin geniş həyətində iki əzik-üzük olmuş «Moskviç», bir köhnə «Pobeda» vardı. Bəhruz maşını dolandırıb onların yanında saxladı. Aşağı düşüb Ziyadxanın yanına gəldi. Ziyadxan onun heç üzünə də baxmadı. Əlinin işarəsilə başa saldı ki, dalınca gəlsin. İkimərtəbəli binaya daxil olub sağa buruldular, sonra qədim, köhnə pillələrlə yuxarı qalxdılar. Ensiz, ancaq işıqlı dəhliz boyunca addımladılar.

Ziyadxan qapını yavaşca açıb, başını içəri uzatdı.

– Yoldaş polkovnik, olar?

– Buyurun, deyə içəridən mülayim bir səs eşidildi.

Onlar otağa girdilər.

– Yoldaş polkovnik, o adamı ki, siz tapşırmışdınız, tapıb gətirmişəm. Dünənki...

– Hə, hə. Çox yaxşı, çox yaxşı. Sən gedə bilərsən, – deyə polkovnik Ziyadxana işarə elədi. O, dabanı üstə fırlanıb çıxdı.

Polkovnik ortaboylu, arğaz bir kişi idi. Başının tükü ortadan tökülmüşdü, gicgahları ağarmışdı. Sol yanağında iri bir xalı vardı.

– Əvvəlcə tanış olaq, – deyə polkovnik ayağa qalxıb Bəhruzun üzünə gülümsədi və ona əl verdi, – Mehdi Əlixanlı.

Polkovnikin təbəssümünə bənd imiş kimi, Bəhruzun bütün acığı, hirsi yox olub getdi. İstər-istəməz qımışdı, tamamilə arxayın halda:

– Bəhruz Əlizadə, – deyə özünü təqdim etdi.

– Çox gözəl. Xahiş edirəm, əyləşin, – o, stul göstərdi. Bəhruz oturdu.

– Papiros çəkənsinizsə, buyurun.

– Xeyr, çəkən deyiləm.

Polkovnik təsvibedici nəzərlərlə ona baxıb başını tərpətdi. Gözlərini bir az da qıydı:

– Mən əhvalatı bilirəm, oğul. Sənin bu hərəkətin çox xoşuma gəldi. Mərdlik eləmisən. Öz adımdan sənə təşəkkür...

Bəhruz onun sözünü kəsib:

– Adicə işdir, – dedi.

O, Bəhruzun sözünü təkrar etdi. – Adicə işdir. Amma görək bunu hamı eləyirmi? Yox. Belə şeylərdən çox adam yan keçir, oğul. Dəvə məsələsini bilirsənmi?

Bəhruz güldü. Qulamı xatırladı:

– Elələrindən birini də mən tanıyıram, – dedi və əhvalatı polkovnikə danışdı. Mehdi Əlixanlı papirosunu tüstülədə-tüstülədə onun söhbətini dinlədi. Durub gəzindi.

– Deməli var, görürsənmi? İdris kimilərini, Qulam kimilərini qovmaq lazımdır, cəmiyyətdən qovmaq lazımdır.

– Onlar da əslində cinayətkardılar.

– Əlbəttə, düz deyirsən.

– Ancaq siz belələrini tuta bilmirsiniz. Çünki əlinizdə «əşyayi-dəlil» olmur. Kaş, əsəblər üzərində ciyəbazlıq edənləri, insan ürəyində gözəl, işıqlı duyğuları öldürənləri, onun inamını məhv edənləri dəlilsiz-əşyasız da tutmaq, cəzalandırmaq mümkün olaydı!..

Bəhruz özünü tamamilə sərbəst aparırdı. Polkovnikin gülərüzlü-yü, mehribanlığı aradakı hər cür rəsmiyyəti götürmüşdü. O danışdıqca Mehdi Əlixanlı razılıqla gülümsünürdü.

– O cür adamlardan biri də heyif ki, sizin idarədə var, yoldaş polkovnik.

– Bizim idarədə?

– Bəli.

– Kimdir o elə?

– İndi məni bura gətirən adam, Ziyadxan.

– Ziyadxan?!

– Bəli. Dünən yolumu kəsib - məndən pul istəyib. Demişəm sənin boy-buxununa, sumbatına heç yaraşmır. Acığı gəlib. Bilmirəm niyə adamlara həqiqəti deyəndə dönüb səninlə düşmən olurlar. İndi bu gün əlinə fürsət duşüb, məndən intiqam almaq istəyir. Məni elə əsəbiləşdirdi ki,.. Deyir sən özün vurubsan, nə bilim filan-bəsməkan...

– Hm... belə... de, – Polkovnik əsəbi bir hərəkətlə gəzinməyə başladı. – Ziyadxan... hm. Yaxşı, mən onunla danışaram. Danışaram. Görüm bu nə məsələdir.

Araya ağır bir sükut çökdü. Polkovnik pərt olmuşdu. Bayaqdan Bəhruzun söhbətinə qulaq asıb razılıqla təsdiq eləyən Mehdi Əlixanlı indi söhbətin tez qurtarmasını istəyirdi. Sanki Ziyadxanın əvəzinə Bəhruzdan o utanırdı. «Lənətə gələsən, Ziyadxan!»

Sonra Mehdi Əlixanlı sözü dolandırıb əsil mətləb üstünə gətirdi:

– Sən, sözsüz ki, bizim qayda-qanunu bilirsən, Bəhruz.

– Əlbəttə bilirəm!!.

– Xahiş edirəm incimə, pravanı da, maşını da qoy burda qalsın. Ekspert üçün. Qanun belədir ki... biz gərək yoxlayaq... həqiqəti meydana çıxarmaq üçün..! Narahat olma. Onun özünün ifadəsi də... Fikrə getdiniz deyəsən?

– Fikrə getməyim budur ki, yoldaş polkovnik, üç-dörd gün işim tökülüb qalacaq.

– Yox, yox, söz verirəm, sənin maşınını tez, mümkün qədər tez ekspertdən keçirərik.

Yenə sükut oldu. Elə bil polkovnik daha bir söz tapıb deyə bilmədiyinə görə susdu. Bəhruz etiraz eləmək istədisə də, polkovnikin mülayim rəftarı onu razılaşmağa vadar elədi. Köynəyinin döş cibindən sənədi çıxarıb masanın üstünə qoydu.

– Bu prava, bu da açar. – Onun səsində nəsə bir qırıqlıq hiss olundu, ancaq gülümsəməsi bunun üstünü örtüb basdırdı.

Polkovnik ona əl verdi, qapıyacan ötürdü.

– Darıxma ha, Bəhruz! – dedi.

Bəhruz dinmədi. Mənalı-mənalı gülümsünməklə kifayətləndi.

Həyətə çıxdı. Sövq-təbiisi onu kənarda saxladığı maşına sarı sürüklədi. Əlini cibinə salanda yadına düşdü ki, iki dəqiqə bundan qabaq açarı da, sənədi də polkovnikə verib. Ürəyi qəribə bir titrəyişlə çırpındı. Geri boylandı. Qapıda dayanmış növbətçi milisionerdən başqa kimsə yoxdu.

Maşına baxdı. «Demək, səni burada qoyub gedirəm». O, könülsüz addımlarla uzaqlaşdı.

Üç-dörd addım getmişdi ki, oğlunun şəklini xatırladı. Elə bil, qulağına səs gəldi: «Ata, məni də apar!»

Bəhruz geri qayıtdı. Ayaq yerinə çıxıb oturacağın üstünə atdığı kitabı və Toğrulun şəklini götürdü. Şəkli «Qızıma məktublar»ın arasına qoyub yola düzəldi.

## XIII

Bəhruz başını qaldıranda özünü kitabxananın qabağında gördü. Xatirə burada işləyirdi. Bu kitabxana Bəhruz üçün nə qədər də əziz və unudulmazdı. Burada onun gənclik xatiratı yaşayırdı. hər dəfə bura gələndə o, Xatirənin eşqinə düşdüyü ilk günlərdə olduğu kimi, həyəcanlanır, o vaxt keçirdiyi halları yada salıb xoşbəxtliklə gülümsünürdü. Bəhruzu Xatirə ilə bir yerdə işləyən qızlar da yaxşı tanıyırdı; o bura gələndə qızlar başına yığışır, deyib-gülür: «Ey, bizim Xatirəii az incit ha, evdə. Yoxsa səni kitabxanamızın üzvlüyündən çıxardarıq», – deyə zarafat edirdilər.

Ancaq bu gün Bəhruz həmişəki kimi şən və üzügülər deyildi. Qayğılı, fikirli olduğu o dəqiqə nəzərə çarpırdı. Oxu zalının qabağında qarşısına çıxan Xatirə onu belə pərişanhal görüb tez soruşdu:

– Sənə nə olub?

– Heç nə.

– Yoxsa... kişi... ölüb? – Xatirənin səsi titrədi.

– Yox, yox.

– Bəs niyə beləsən? İş vaxtı... Səndən nə əcəb? – Bunu deyib Xatirə pəncərəyə yaxın gəldi, həyətə sarı boylandı: – Bəs maşın hanı?

Bəhruz astaca cavab verdi:

– Maşını?! Aldılar...

– Maşını aldılar??!–Xatirə bu sözləri qeyri-iradi olaraq elə ucadan təkrar etdi ki, oxu zalında oturub qabaqlarına qəzet, jurnal, kitab töküb mütaliəyə məşğul olan adamların çoxu başını qaldırıb onlara baxdı.

Xatirə sustaldı, əlləri yanına düşdü. Doluxsundu, bədbəxt bir hadisə üz vermiş kimi hüznlə dilləndi:

– Daha denən özüm adam basmışam da, Bəhruz! Niyə dünəndən sözün düzünü demirsən? Sən ki, indiyəcən məndən heç nə gizlətməmişdin?! Görürsən, heç mənim ağlıma da gəlmir ki, sən də adam vura bilərsən...

Bəhruz gözlərini rəflərdə səliqə ilə yan-yana düzülmüş kitablardan çəkmədən cavab verdi:

– Yox, Xatirə, mən adam vurmamışam...

– Bəs onda nə üçün sənin maşınını əlindən alsınlar, Bəhruz. Sən ki, pis iş görməmisən. Çölün düzündə qalmış bir yaralını xilas eləmisən! Bunun üstündə sənin maşınını nə üçün tutub alsınlar?!

– Qanun belədir, Xatirə. Gərək yoxlasınlar, bilsinlər…

– Bu, mənim ağlıma heç batmır, Bəhruz!

– Batdı, batmadı. Belədir, yoxlayacaqlar, kişi özünə gələndən sonra da ondan soruşacaqlar ki, səni hansı maşın vurub.

– Əgər birdən, dilim-ağzım qurusun, kişi ölsə.., onda necə?..

Xatirənin bu sualı Bəhruzu silkələdi. «Doğrudan, əgər?! Polkovnik də dedi ki, onun özünün ifadəsi»... hardansa naməlum, müdhiş bir qorxu axıb ürəyinə doldu. O, narahatlıqla Xatirəyə baxıb dedi:

– Bu kitabı apararsan evə. Mən getdim xəstəxanaya.

– Bəs hələ getməyibsən?

– Getmişdim. Hələ özünə gəlməmişdi. Arvadı, qızı yanında idi, – deyə Bəhruz Diləramı, Sevili yadına salıb gülümsündü. – Elə yaxşı ailəsi var ki. Nə isə, sonra gəlib danışaram. Mən getdim.

Bəhruz bir addım atıb dayandı. O, hiss eləyirdi ki, Xatirənin əli-ayağı yerdən üzülüb. Qorxur. «Maşının alındığını nahaq dedim». Ona təsəlli vermək üçün:

– Darıxma, Xatirə. Toğrul canı, heç nə yoxdur. Ürəyini buz kimi saxla, yaxşı?! Söz verirsən?! – dedi.

– Yaxşı... – Xatirə naümid halda dilləndi.

Bəhruz çıxdı. İyirmi dəqiqə sonra o, artıq xəstəxanada idi. Onun Narıngül qarıdan xələt alıb yuxarı qalxdığını görən Balaxanım qəbul məntəqəsindən çıxıb qapıçı arvadın yanına gəldi; əlini belinə vurub sinəsini qabartdı.

– Ay Narıngül xala ey, sənə bir söz deyim.

– Hə, de.

– Deyəsən bu oğlan ağıldan bir az kəmdir axı.

– Niyə, ay Balaxanım?!

– Əşi, deyək ki, yaxşılıq eləyibsən, kişini götürüb gətiribsən. Yaxşı, atan rəhmət. Bu gün də gəlib dəyibsən, halından xəbər tutubsan. Bir də atan rəhmət. Bəs indi niyə gəlibsən? Yox, adamdan soruşarlar ey, indi niyə gəlibsən?

– Nə olar, ay qız? Bu ağlın kəmliyindən döyül ha... Bu, onun ürəyinin yumşaqlığındandı, saflığındandı. Adam adama gərək həyan olsun. Beş günlük dünyadı, hamımız karvanımızı çəkib gedəcəyik. Amma bircə insanlıq qalacaq, yaxşılıq qalacaq, Balaxanım.

– Eh, deyirsən də, ay arvad. İndi adam öz qohum-əqrəbasına, yaxınına yaxşılıq eləyə bilmir. Onda qala...

– Eləyən eləyir. Adam olan eləyir, Balaxanım, adamlıqdan payı olan eləyir.

...Bəhruz palataya çatanda yerindəcə donub qaldı. Birdən... Gözlərinə inanmaq istəmədi. İki-üç dəfə kirpik çaldı. Yox, səhv eləmirdi. Qədirin çarpayısı idi. Pəncərənin ağzındakı çarpayı... Bəs bu adamlar kimdir? Onun dodaqlarında bir söz çırpındı: «Ölüb!» Bütün bədəni buza döndü. Üzünün cod tükləri qabardı. Qurumuş dodaqları bir də o sözü pıçıldadı: «Ölüb!»

Bəhruza nə oldu? Taqəti yoxdu, ya qorxurdu? Niyə irəli yeriyə bilmirdi? İlk anlar səbəbini ayırd eləyə bilmədi. Polkovnikin sözlərini xatırladı. «Onun özünün ifadəsi...» «Yox, yoldaş polkovnik, o, artıq sizə heç nə deyə bilməyəcək» – deyə ürəyində ona cavab verdi. Çırpınan balıq gözləri önünə gəldi. Yenə çırpındı, çırpındı... Sonra susdu... «Demək, o da, Qədir də...»

«Dilaram tək qaldı, Sevil atasız...»

Qəribə idi. Elə bil Sevil adını eşitdi. Qız çarpayıların arası ilə ona sarı qaçdı:

– Əmi!

Bu səs Bəhruzu ayıltdı. O, Sevilin sarışın saçlarına, «mırıq» dişlərinə, qayğısız simasına baxıb fikirləşdi: «Can bala, sən hələ ölümün nə demək olduğunu başa düşmürsən». Qəhərləndi, əyilib qızı qucağına aldı. Ağzını doldurub: «Sevil, atan necədir?!» demək istədi, ancaq ürəyi gəlmədi. Pis cavab eşidəcəyindən qorxub sözlərini uddu.

İrəli yeridi. Qapıdan Qədirin çarpayısına qədər cəmi yeddi-səkkiz addımlıq yol olardı. Ancaq o məsafə necə də uzun göründü.

Çarpayının o üz-bu üzündə oturmuş, ayaq üstə dayanmış adamları Bəhruz tanımadı.

Dilaram onu görən kimi ayağa qalxdı. Sifətində təbəssüm oynadı. Bəhruzun qabağına gəlib sevinə-sevinə astadan pıçıldadı:

– Bu gün, şükür, özünə gəlib.

– Özünə gəlib? – deyə Bəhruz ucadan soruşdu. Qəlbini sıxan, taqətini əlindən alan o dəhşətli fikir bircə anın içində ondan uzaqlaşdı, rahat nəfəs aldı. Dilaram başa saldı ki, bunlar onun iş yoldaşlarıdır,

dəyməyə gəliblər. Yoldaşlarına da dedi ki, Bəhruz Qədiri xilas eləyən adamdır. Hamısı ona minnətdarlıq elədi.

Bəhruz çarpayıya lap yaxın gəldi. Qədirin iri alnında tər damcıları vardı: ağır-ağır nəfəs alır, ağrıdan arabir üz-gözünü qırışdırırdı. Dilaram ehmalca Qədirin qoluna toxundu:

– Qədir, ay Qədir...

– Hm...

– Gözlərini aç, gör bir kim gəlib ey?! Bəhruz yolda, qan içində ikən zorla açılıb ona baxan o tək ala gözü xatırladı. «Tanıyarmı? Yox, tanımaz!» Qədirin şişi tamam çəkilməmiş göz qapaqları astaca tərpənəndə Bəhruzun ürəyi qəribə bir təlaşla əsdi.

Yaralının çəkdiyi ağrıları, əzabları ayna kimi əks eləyən gözlər açıldı; o, oturanların üzünə baxdı, baxışları dolanıb sevinclə gülümsünən və nə edəcəyini bilmədən çaşıb qalmış Bəhruzun sifətində dayandı. Baxdı, baxdı, qansız, solğun dodaqlarında güclə sezilə biləcək bir təbəssüm gəzdi. Bu, onun ağarmış bənizini tamam işıqlandırdı. Qədirin taqəti olsaydı, yerindən sıçrayıb qalxar, özünü onun üstünə atıb iri, qüvvətli qolları ilə bağrına basar, «mənim xilaskarım, mənim balalarımın, ailəmin xilaskarı» – deyərdi, üz-gözündən öpər, öpərdi. Ancaq... o, taqətsiz halda, bu sözləri pıçıldaya bildi:

– Sağ ol, qardaşım!

Bu söz Bəhruzun fikrini çəkib uzaqlara, ilk kənclik illərinə apardı.

Bəhruzun nə bacısı vardı, nə qardaşı... O vaxt Bəhruzun ən böyük arzusu bu idi ki, bir qardaşı, ya da heç olmasa bir bacısı olaydı... Bəhruz tək olmaq istəmirdi.

«Mənə qardaş deyən bir adam olsaydı, dərdim olmazdı. Qardaş! Bu kəlmədə nə hikmət varsa, var. Elə bil adam arxasını dağa söykəyir...» – deyə düşünürdü. Ancaq tale onu tək yaratmışdı. Tək də qaldı.

İndi isə budur, bu gün Dilaram da, Qədir də ona «qardaş» deyir. İndi onun bacısı da var, qardaşı da.

Bəhruzun ürəyi fərəhdən böyüdü. O, çarpayıda uzanmış Qədirə, mehriban Dilarama, yaralıya dəyməyə gəlmiş fəhlə yoldaşlarına baxıb öz-özünə dedi: «Elə insanlar bir-birinə qardaşdılar, bacıdılar».

Qədir dili ilə qurumuş dodağını islatmağa çalışdı; Dilaram tez limondan bir dilim kəsib onun dodaqlarına sürtdü. Susuzluğu keçdi... Ancaq yenə taqətsiz halda gözlərini yumdu.

Bəhruz Dilarama sarı əyilib yavaşcadan soruşdu:

– Bir şey deməyib ki?..

– Biz heç soruşmadıq. Ancaq dünənki müstəntiq bayaq da gəlmişdi. O dindirdi. Deyir, bir qara «Volqa» vurub. Elə yola təzəcə çıxmışmış ki, vurub...

– Nömrəsini götürə bilib?

– Yox. Təkcə rəngini görə bilib.

– Elə bu da bəsdi. Tapacaqlar. Göyə də uçsa, tapacaqlar.

–Eh, Bəhruz qardaş!.. Tapmağın nə faydası. Bizə olan oldu. Keçəni geri qaytarmaq mümkün deyil ki...

– Orası elədir... Amma hər halda, o da cəzasını çəkməlidir. Xüsusən qoyub qaçdığına görə...

– Elədir! – deyə balacaboy fəhlə təsdiq elədi.

Araya sükut çökdü. Bir azdan balacaboy fəhlə yoldaşlarına sarı dönüb:

– Yaxşı, gedəkmi? – deyə soruşdu və onlardan, «hə» cavabını alınca üzünü Dilarama tutdu: – Dilaram bacı, icazə versəydiniz, biz yavaş-yavaş tərpənərdik, – dedi.

– Buyurun, buyurun, – deyə Dilaram razılıqla dilləndi. – Əziyyət çəkibsiniz, çox sağ olun!..

– Borcumuzdur, bacı!..

Onlar durdular. Balacaboy fəhlə Bəhruzun əlini sıxıb:

– Sən də çox sağ ol, eloğlu. Sağ ol ki, bizim yoldaşımızın həyatını xilas eləmisən... – dedi.

Bəhruz da eynən o fəhlə kimi cavab verdi: – Borcumuzdur, qardaş!..

Bir-bir görüşdülər.

– Hə, Dilaram bacı, sabah maaş günüdür, mən Qədirin pulunu alıb gətirərəm, – deyə balacaboy fəhlə gedəndə söylədi.

– Sizə əziyyət olar.

– Yox, canım, nə əziyyət...

Onlar çıxıb getdilər, Bəhruz, Sevil və balaca İslam Qədirin çarpayısı yanında qaldı. Dnlaramla Bəhruz xeyli söhbət elədi.

– Bəhruz qardaş, siz şəhərin hansı səmtində olursunuz?

– Nərimanov prospektində. Şüşə bazarın yanında.

– Biz də orada-oluruq ki!

– Doğrudan?

– Hə, Cəfər Cabbarlı kinoteatrının o böyründə yaşayırıq.

– Lap yaxşı, lap yaxşı...

– Bəhruz qardaş, təvəqqe edirəm, evinizin ünvanını deyin, sağlıq olsa, Qədir xəstəxanadan çıxandan sonra biz sizə gələk, siz bizə gəlin.

Bəhruz ünvanını söylədi.

– Gəlin, nə vaxt gəlsəniz qapımız üzünüzə açıqdır. Yoldaşım, balaca oğlum çox şad olarlar. Gəlin... Bax bu Sevil xanımı da, o balaca partizanı da gətirin...

Çox şeydən danışdılar, ancaq Bəhruz maşınının, sənədinin alındığını söyləmədi. Yenicə özünə gəlməyə başlayan Dilaramı da, hələ ağrıdan gözlərini əməlli-başlı aça bilməyən Qədiri də kədərləndirmək istəmədi.

Bəhruz ayağa durdu:

– Mən gedim, Dilaram bacı.

– Gedirsiniz? Gedin, qardaş. Sizdən yerdən-göyə qədər razıyıq...

Qədir də gözlərini açıb Bəhruza baxdı:

– Gedirsən? – deyə o, taqətsiz halda soruşdu.

– Yenə gələcəyəm...

– Yox, yox, bir də əziyyət çəkməyin, – Qədirin zəif səsi eşidildi. – Görüşərik, qardaş...

Xudahafizləşdilər. Bəhruz çıxanda Dilarama bir də tapşırdı:

– Ondan muğayat ol, Dilaram bacı. Darıxmağa qoyma.

– Yox, yox...

Sevil irəli gəlib Bəhruzun əlindən yapışdı:

– Getmə, əmi.

– Əmi işə gecikər, qızım, – deyə Dilaram Sevili ondan kənar eləməyə çalışdı.

– Qoy gedim, Sevil, yenə gələrəm, yaxşı? Sevilin «mırıq» dişləri göründü.

– Yaxşı, ancaq gəl ha!

## XIV

Bəhruz dəhlizdə həkim Sultanzadə ilə qarşılaşdı. Balaxanım da yanında idi.

– Salam, salam, Bəhruz, necəsən?! – deyə baş həkim gümrahlıqla Bəhruza əl verdi.

– Yaxşıyam, doktor.

– Xəstənə dəyməyə gəlmişdin?

– Bəli, doktor, dedim görüm halı necədir?

– Yaxşıdır. Bu gün özünə gəlib. Getdikcə yönü bəri olacaq.

– Təki, elə olsun, doktor.

– Qədiri bir qara «Volqa» vurub. Bayaq özü söylədi. – Doktor nədənsə Balaxanıma baxdı.

– Qara «Volqa»? – Balaxanım eşitdiklərinə inanmırmış kimi təəccüblə gözlərini əvvəl doktora, sonra Bəhruza zillədi. Elə bil onu birinci dəfə idi ki, görürdü. Ancaq Bəhruza çox baxa bilmədi, utandı-

ğından üzünü yana çevirdi və dodaqaltı nəsə mızıldayıb başını aşağı saldı.

Bəhruz gülümsündü:

– Hə, mən də indicə eşitdim, – deyə ağır-ağır cavab verdi. – Arvadı danışdı. Daha mən gedib maşınımı, pravamı ala bilərəm.

– Maşınını, pravanı alıblar məgər? – deyə həkim heyrətlə soruşdu.

– Bəli, bu gün səhər aldılar.

Həkim əsəbi bir hərəkətlə barmaqlarını şaqqıldatdı.

– Kim aldı?

– Polkovnik Əlixanlı.

– Əlixanlı?

– Bəli, doktor. Siz onu tanıyırsınız?

– Mənim ən yaxın dostumdur. Ay sənin saqqalın ağarsın, Əlixanlı. Gedək, gedək, mən ona bu dəqiqə zəng eləyim, sənin maşınını versin.

– Yox, yox, lazım deyil, doktor... İndi ora gedirəm, özü verəcək. Bir də... xoşum gəlmir ki, mənim işim üçün...

– Başqası ağız açsın, hə? – deyə doktor, onun sözünü tamamladı.

– Düzü belədi, doktor...

– Sən çox qəribə oğlansan... Bəhruz gülümsədi.

– Doktor, icazə verin mən gedim... Tələsirəm. Fəhlələr, iş...

– Di sağ ol, – deyə həkim Sultanzadə ona səmimi əl verdi. – Ancaq bizi yaddan çıxartma. Hərdən, vaxtın olanda söhbətə gəl. Mənim evim də buradadır, eşiyim də... yaxşı?

– Yaxşı, doktor.

– ...

O getdi. Həkim əvvəlcə onun arxasınca, sonra Balaxanıma baxıb mənalı-mənalı başını tərpətdi.

– Maşınını alıb Əlixanlı. Demək ona, onun sözünə inanmayıb...
– Görürsən Balaxanım, hissiz, duyğusuz, buz kimi soyuq, hər şeyə laqeyd və biganə adamlar bax, belə əmələ gəlir... Bax, belə!!!

*1963, Bakı*

## HƏSRƏT

Dağların başına qar yağmışdı, ətəklərində isə hələ də göy meşə uzaqdan qara tala kimi görünürdü. Şaxta adamın üz-gözünü iti ülgüc kimi siyirib aparırdı. Soyuq, sanki dağların başında üşüdüyündən qala bilməyib üzüaşağı, şəhərə sarı axışır, isinmək üçün insan nəfəsi dəyən yerlərə –evlərə, daxmalara, isti otaqlara təpilməyə can atırdı. Odunu-ocağı olan evlər soyuğun üzünə qapını açmır, astanadan, pəncərədən içəri buraxmırdı. Amma yoxsulların qapısı soyuq üçün həmişə açıq idi. Qonağın, yoldan keçənin, dərdin-bəlanın üzünə açıq olan kimi…

Şəhər adi, gündəlik həyatını yaşayırdı. Bəzəkli reklamlar vurulmuş müxtəlif dükanlarda bardaş qurub oturmuş tacirlər təsbeh çevirə-çevirə müştəri gözləyir… asfalt küçələrdə bəzəkli yük maşınları, içərisində yaxşı geyinmiş ağalar, xanımlar oturmuş yüngül maşınlar belədən-belə şütüyüb keçir. Həmin asfalt yolların qırağında alma, nar, armud, narınc yüklənmiş uzunqulaqlar qulaqlarını qısıb başını aşağı salaraq küçə aşağı, küçə yuxarı gedirlər.

Bütün bunlar mənim gündə gördüyüm adi şeylərdir. İndi mən gördüklərim haqqında deyil, o qəribə adam haqqında düşünürdüm. Düşünürdüm ki, ayaqlarına cırıq-cırıq olmuş çəkmə, əyninə kirli bir köynək geymiş o kişi bu günkü soyuqda evdən çölə çıxa bilməz və deməli, mən onun ürək parçalayan məhzun görkəmini, solğun və tüklü üzünü, çuxura düşmüş, lakin nəsə daxili, dəruni bir parıltı ilə yanan nüfuzlu baxışlarını bu gün görməyəcəyəm. Görməyəcəyəm və evə rahat gedəcəyəm. Yoxsa bu qəribə məxluq düz iyirmi gündü ki, mənə necə deyərlər göz verir, işıq vermir. İşdən çıxandan sonra Yaşıl bazara gedirəm. Ət, göy-göyərti, mer-meyvə alıb bazardan çıxanda o qəribə kişi, məni güdürmüş kimi, qabağıma çıxır. Özü də hər gün eyni vaxtda, eyni yerdə. Qəribə deyilmi?

Məni görən kimi ayaq saxlayır, gözlərini mənə zilləyir. Yanından keçəndən sonra da gözucu baxıram, görürəm ki, dalımca dayanıb tamaşa eləyir. Əvvəllər tamaşa eləyirdi, sonralar ardımca gəlməyə başladı. Bu qərib şəhərdə bu qəribə adam kim idi və mənə niyə elə baxır, məndən nə istəyirdi? Görkəmi ürək parçalayandı. Mən əvvəllər elə bilirdim ki, o, dilənçidir. Bir dəfə sədəqə də vermək istədim. Ona sarı uzatdığım pula gözucu da baxmadı. Baxışlarını məndən çəkmədən başını «yox» mənasında tərpətdi. Mən özüm xəcalət çəkib qızardım və pulu tez cibimdə gizləməyə çalışdım, bacardıqca iri və iti addımlarla uzaqlaşdım.

Daxili bir nigaranlıq məni üzür, rahatlığımı əlimdən alırdı. Günlər keçdikcə bu adam öz qəribə hərəkətləri və davamlı, mənalı baxışları ilə mənim həyatıma daxil olur, gündəlik düşüncələrimdə o da qəmli və məhzun görkəmi ilə iştirak eləyir, məni düşündürürdü.

Bəlkə o, məni kiməsə oxşadır? Bəlkə bir dərdi var? Ya bəlkə məni izləyir? Kim bilir, adamın ürəyinə hər şey gəlir. Yox, deyəsən o məni güdür!

Bəli, bu gün o, öz yerində mənə rast gəlmədi. Ürəyimdə yüngül bir sevinc duydumsa da, gözlərimlə onu axtardım. Dadaşzadənin mağazasının yanından burulanda əllərini qoltuğunda gizlədiyi halda cırıq ayaqqabılarını sürüyərək gəldiyini gördüm. O dəqiqə elə bil ayaqlarım bir-birinə dolaşdı. O da adəti üzrə dayandı. Mən onun soyuqdan göyərmiş gömgöy sifətinə, üzündə iynə kimi biz-biz durmuş tüklərinə ötəri baxdım. «Ay yazıq – dedim ürəyimdə – bu soyuqda nəyə çıxmısan, axı? Bir işin yox, gücün yox. Nə var?!» Sonra fikirləşdim ki, o, ancaq və ancaq məni görmək üçün çıxıb. Axı, mən onun nəyinə lazımam? Bir sözü varsa, desin? Yoxsa, daha kölgə kimi məni niyə dabanbasma izləyir?! Yox, bu gün də gəlsə dalımca, deyəcəm, deyəcəm ki, bəradər, nə istəyirsən?!

Yanından keçdim… Baxmasam da hiss elədim ki, o, yenə ardımca baxır. Bir azdan sonra onun addım səsləri qulağımda səslənirdi… Gəlir…

Salman tacirin xalça dükanının qabağından adladıqdan sonra küçədə heç kəsin olmadığını görüb üç-dörd addım məndən aralı gələn kişiyə sarı qanrılıb fars dilində xəbər aldım:

- Nə istəyirsən məndən? – Etiraf edirəm ki, səsim bərk çıxdı və bu qədər ucadan danışa bildiyimi indicə anlayıb sıxıldım.

Kişi görünür, gözləmirmiş. Səksəndi. Dayandı. Eynən lal adam kimi üzümə baxmağa başladı. Aralığa ağır və cansıxıcı bir sükut çökdükdə mən bu dəfə asta səslə yenə:

- Axı nə istəyirsən, qardaş, məndən? – deyə xəbər aldım.

O, yenə dillənmədi. Elə bil indiyə qədər nəyəsə ümid eləyirmiş. İndi ümidləri puç oldu – üzündə ümidləri puç olmuş bir adamın dərdi, məlalı oxundu. Bəlkə mənə elə gəlirdi. Bəlkə o, indi tamam ayrı bir şey haqqında düşünürdü…

Cavab vermədiyini görüb ürəyimdə söylənə-söylənə yoluma düzəldim. O, yerində qaldı. Hərəkətsiz…

Axşam qalın qar düşdü. Şəhərin evləri, küçələr qar altında qaldı. «Cip» qarı eşə-eşə gəlib məni işə apardı. Küçələrdə gəliş-gediş azalmışdı. Tacirlər dükanlarını açmışdılar. Dükanın ortasında manqal yanırdı. Uzunqulaqlı «səyyar» tacirlər gözə az-az dəyirdi.

Keçən gecə də, bu gün idarədə də o qəribə adam haqqında düşünmüşəm. Soyuqda çıxdı. Amma bu gün çıxa bilməz. Çünki corabı yoxdur, ayaqqabısı cırıqdır, əynində çirkdən rəngini itirmiş bez köynəkdən başqa heç nə yoxdur. Təkcə dizlərinin gözünə qalın yamaq salınmış şalvarı az-çox canını qızdıra bilər. Yox, bu gün gəlməz.

Bazarın yanında maşından düşdüm. Maşın getdi. Mən həmişə bazardan evə piyada gedirəm, çünki yaxındır. Qar yağsa da, artıq yoliriz düşüb.

Bazardan çıxanda gözlərimə inanmaq istəmədim. Dedim yəqin gözüm qara düşüb, yox, o idi. Dadaşzadənin dükanının tinində durub mənə baxırdı. Geyimindəki fərq təkcə o idi ki, başına çalma bağlamışdı. Ürəyim gizildədi, hər şeydən əvvəl ayaqlarına baxdım. Ayaqları qarın içində idi. Şalvarı gödək olduğundan mənə elə gəldi ki, o, qarın içində ayaqyalın dayanıb.

Mənim əynimdə boynu xəz dərili palto, ayağımda uzunqunc çəkmə, yun corab vardı. Onun çılpaqlığı müqabilində mən utandım. Elə bil o, soyuq baxışları ilə mənim bədənimdəki bütün isti paltarları çıxartdı. Mən şaxtanın, qarın qabağında çımçıplaq qaldım. «Yox, bu kimdisə, boş-boşuna məni izləmir? Soyuqda, qarda, ayaqyalın, çılpaq…» – deyə ürəyimdən keçirdim və yanından sovuşanda ona baxmamağa çalışaraq öz dilimdə: «Qəribə adamdır» - dedim. İşini-gücünü atıb…

Bu sözləri mən yavaşcadan dedim. Birdən arxamdan əsəbi bir səs eşidildi:

- Dayan, qardaş!

Azəri dilində deyilmiş bu iki kəlmə məni yerə mıxladı, qanrılıb səs gələn tərəfə baxdım. Məni səsləyən o idi. Bizdən başqa Nadiriyyə cadəsində kimsə yoxdu.

«Dayan, qardaş!» - Bu iki kəlmə söz neçə müddətdən bəri məni kölgə kimi izləyən o qəribə kişinin dilindən çıxmışdı. O, gözlərini – iriləşmiş, parlayan gözlərini çəkmədən mənə sarı gəlirdi. Çatdı…

- Sən azərbaycanlısan? – deyə kirpik belə çalmadan titrək səslə xəbər aldı.

- Bəli, – dedim – azərbaycanlıyam.

O, yerində qımıldandı, bir az da irəli gəldi. İllərdən bəri görmədiyi əziz və doğma adamı ilə rastlaşan insan təki özünü itirdiyindən heç bilmədi neyləsin. Ani olaraq üst-başıma nəzər fırlatdı, özünə baxdı.

- Səni bağrıma basıb duz kimi yalayardım – dedi. Ancaq… o, nə isə əlavə etmək istədi, demədi. Mən onu sözsüz də başa düşdüm. Əlcəyimi əlimdən çıxarıb soyuqdan gömgöy göyərib kötüyə dönmüş

əlini sıxdım. Əlimi iki əlilə bərk-bərk sıxıb başını aşağı əydi, əlimdən öpmək istədi. Qoymadım.

- Başına dönüm sənin, eloğlu – dedi. – Mən onun həyəcandanmı, soyuqdanmı titrədiyini ayırd edə bilmədim. Gözlərində yaş giləlіənmişdi. Onu da ayırd eləyə bilmədim ki, bu soyuqdandır, ya sevinc yaşlarıdır o yaşlar? Yox, o üşümürdü, onun sevindiyindən gözləri yaşarmışdı.

Düzü, mən özümün o dəqiqə keçirdiyim hisslərdən baş aça bilmirdim. Sevinirdimmi? Deyəsən mən də sevinirdim. İki il idi ki, bu qərib şəhərdə işləyirdim. Heç ağlıma da gəlməzdi ki, burada məndən başqa azərbaycanlı ola bilər. Qəriblik… Həm də o müəmmalı adamın sirrləri deyəsən yavaş-yavaş açılırdı.

– Görürəm, sən də azərbaycanlısan.

Xeyli vaxt keçəndən sonra tapıb dediyim bu sözlər o qədər də tutarlı olmadı. Bunu o dəqiqə hiss elədim. Mənim sözlərimin müqabilində o, ah çəkdi başı ilə sözümü təsdiqlədi. Sonra əlavə etdi:

- Özü də, başı bəlalı azərbaycanlı…

İndiyə qədər bu qəribə kişi mənim üçün bir müəmmalı kitab idi. Ona uzaqdan baxır, düşüncələrə qərq olaraq içərisində yazılanları xəyalən araşdırmağa, fərziyyələr söyləməyə çalışırdım. Bu gün isə o, maraqlı, oxunmamış kitab mənim əlimdə idi. Onun ilk səhifəsi açılmışdı. «Başı bəlalı azərbaycanlı» – sözləri yazılmış bu səhifə məni maqnit kimi özünə cəlb edirdi. Bu kitabı deyəsən tale yazmışdı. Taleyin yazdığı kitablar isə yazıçıların yazdığı kitablardan çox-çox maraqlı və faciəli olur.

Mən bu kitabı ayaq üstə, elə buradaca ötəri oxuyub qurtarmaq istəmirdim. Mən onu evdə, arxayın, əlimi çənəmə söykəyərək oxumaq, dinləmək istəyirdim. Odur ki, bütün ehtiyatı, çəkinməyi bir kənara qoyaraq ona dedim:

- Gedək bizə! Oturaq, söhbət edək.

- İndi yox – dedi. –Axşam gələrəm.

- Bizim evi tanımırsan ki.

- Tanıyıram – dedi.

Mən təəccüblə:

- Hardan? – deyə xəbər aldım.

- Mən sizi ilk dəfə görən gündən o saat ürəyimə damdı ki, siz azərbaycanlısız. O idi ki, sizə elə diqqətlə baxırdım. Sizi izləyirdim, nə isə həsrətmi, ya bilmirəm qanmı məni sizə sarı çəkirdi. Çox olub ki, hiss eləmişəm siz bundan təəccüblənibsiz. Demişəm daha izləməyəcəyəm, sizi görməyə getməyəcəyəm. Amma ürəyimlə bacara bilməmişəm. Bir də görmüşəm ki, Dadaşzadə dükanının yanındayam. Nə isə. O gün siz məndən farsca soruşanda ki, nə istəyirsiz? Elə bil üstümə dağlar uçdu, altında qaldım. Elə bildim, yanılmışam. Üç gün görünmədim, ancaq buna görə… İndi bildim ki, ürəyim məni aldatmayıb.

- Bəs nə bildin ki, mən harda yaşayıram?

- Bir dəfə dalınca gəldim. Evinizəcən…

- Sən çoxdan burdasan?

Özümü saxlaya bilməyib xəbər aldım.

- Eh, soruşma, qardaş, iyirmi beş ildi.

- Oho… - deyə bildim. Mən iki ildi vətəndən ayrılmışam, darıxıram. Amma bu iyirmi beş ildir ki, burdadır. Yenə təkrar elədim – Oho…

- Bəli… Bir igidin ömrüdü.

Gördüm əsir. Dedim:

- Yaxşı, sənə soyuqdur, get, axşam bizə gəl. Hökmən gəl, gözləyəcəyəm.

- Gələrəm – dedi. –Ancaq adını bilmədim, eloğlu.

- Əlidir adım.

- Mənimki də Xəlildi, bala.

Ayrılanda mən ona əl verdim. O, əfqanlar sayağı:

- Be amane xoda! – dedi. – Be omide didar. Sonra bu sözləri farsca dediyindən utandı deyəsən. Əlavə elədi

- Dilim öyrəşib, bala.

Ayrıldıq.

Axşama az qalırdı. Dağların şaxtası qarı dondura-dondura şəhərə sarı gəlirdi. Mənim otağım isə isti idi. Kömür peçini qalamışdım. Parça bozbaşın xoş iyi otağımı doldurmuşdu. Çay dəmləmişdim. Xəlil kişini yaxşı qarşılamaq istəyirdim. Qərib adamdır – deyirdim. Peçə bir az da daş kömür atdım ki, otaq qoy lap isti olsun. Bəlkə onun canı qıza. Saat yeddiyə az qalmış qapı astaca döyüldü…

- Gəl, - dedim. Gələn Xəlil kişi idi. Xoşgəldin elədim. O, qapının ağzında dayandı. Mən stulu ona yaxın çəkmək üçün geri dönəndə o, dizlərini yerə qoyub qapının ağzında oturdu.

- Xəlil kişi, neyləyirsən, orda niyə oturursan? – dedim.

- Elə bura yaxşıdı.

- Yox, yox, qoymaram. Bu stul sənindi. Otur burda…

- Stulda oturmağı yaddan çıxarmışam, bala. Neçə illərdi nökərçilik elədiyim evlərdə mənim yerim bax elə bu qapı ağzı olub…

- Burda olmaz, Xəlil kişi, qoymaram. Qolundan tutub qaldırdım. Stolun yanına çəkdim, peçə yaxın oturdu. Əllərini bir-birinə sürtdü.

- Evin istidi, maşallah.

- Hə.

Kişi otağıma – səliqəli otağıma baxırdı. Divarın dibində bir çarpayı qoyulmuşdu. Stolun bir küncündə qalın lüğətlər dururdu. «Kəhrəba» markalı qara rəngli saat aramla çıqqıldayırdı. Tranzistr susurdu. Arvadımın və oğlumun şəklini kitabın qırağına söykəmişdim. Gözümdən uzaq olmasın. Onlarsız yaman darıxıram. Xəlil kişinin baxışları şəklə zillənmişdi?

- Arvadındı?

- Bəli.

- Bu da oğlundu?

- Hə.

- Allah saxlasın. Xoşbəxt olsun.

- Sağ ol – dedim.

Armudu stəkanda çay töküb gətirdim.

- Nə zəhmət çəkirsən, bala.

- Heç bir zəhməti yoxdur. Burda heç sıxılıb eləmə. Elə bil öz evindir, Xəlil əmi.

- Ömrün uzun olsun, bala.

Çay içdik, ayağa durdum xörək çəkim.

- Neyniyirsən, a bala, orda? – dedi.

- Bir çörək yeyək, sonra…

- Yox oğul. Gəl otur, gəl bir danış görək o tərəflərdə nə var, nə yox. Mənim üçün fərqi yoxdur sən Azərbaycanın harasındansan. Ancaq danış, Azərbaycandan danış…

- Deyəsən, çox darıxmısan.

- Darıxmısan? Bu nə sözdü, bala? Darıxmısan? Yanmışam mən, kül olmuşam mən. Mənim çəkdiklərimin yanında darıxmaq nəmənədi ki?

Otaq isti olduğuna görə kişinin rəngi açılmışdı, durulmuşdu. Ancaq dərinlikdə dəbərişən gözlərinin bəbəyindən həsrət oxunurdu. Nədənsə düşünürdüm ki, mənim hər sözümü eşitdikcə onun iyirmi beş ildən çox müddətdə alışıb-yanan həsrətinin üstünə su çilənir, ruhu toxtayıb dincəlir, qürbətin ağrısı-acısı yüngülləşib azalırdı.

-Darıxmaq nəmənədi ki, bala – deyə o, artıq söz tapmağa çətinlik çəkirmiş kimi təkrar eləyirdi. Yanmışam mən, kül olmuşam mən. – Sonra ah çəkib başını buladı.

- Siqaretindən birini çəkməyə icazə verərsənmi, bala?

- Buyur, buyur.

Götürüb yandırdı. Tüstünü ciyərlərinə çəkdi.

- Danış bala, danışan dilinə qurban olum. İyirmi beş ildə gördüyüm birinci azərbaycanlısan.

- Dili yadından çıxartmamısan?

- Yox, oğul, yox. Südnən gələn sümükdən çıxmaz. Mən bu illər ərzində özümdən başqa azərbaycanlı görməmişəm. Durmuşam özümü

görmüşəm, oturmuşam dizimi. Əfqanca öyrənmişəm, dilim əfqanca danışıb, ürəyim azərbaycanca. Özümlə, ürəyimlə həmişə ana dilimdə danışmışam. Xəlvətə çəkilib gözlərimin qorasını sıxıb ağlayanda ana dilimdə ağlamışam, özümü tutduğum axmaq işə görə söyəndə ana dilimdə söymüşəm. Arvadım, balalarım gözümün qabağına gələndə, yuxuma girəndə onlarla ana dilimdə danışmışam.

O danışdıqca başına gələn qəzavü-qədəri öyrənmək həvəsim getdikcə çoxalırdı. Həyat tarixçəsini dinləmək mənim üçün dünyanın ən kədərli və ən şirin bir dastanını oxumağa bərabər idi. Odur ki, mən həvəsimə zor gələ bilməyib ona dedim.

- Xəlil əmi, əvvəlcə sən danış. Görək necə olub ki, bu yerlərə gəlib çıxmısan? Nə vadar eləyib səni?

- Yox bala, əvvəlcə sən danışacaqsan. Danışmasan aram ola bilmərəm.

Mən də bir papiros yandırdım.

- Mən müxbirəm, Xəlil əmi. Üç-dörd il qəzetdə, radioda müxbir işləmişəm: Azərbaycanın mərkəzindən tutmuş ən uca dağ kəndlərinə qədər, demək olar ki, qarış-qarış gəzmişəm. Sən denən haralısan, mən ordan danışım sənin üçün.

- Mən bakılıyam, bala.

Bakı sözünü dilinə gətirəndə kişinin gözlərində qığılcım yanıb söndü.

- Harasındansan Bakının?

- Lap mərkəzindənəm, bala. Onda Kommunist küçəsi adlanırdı. İndi bilmirəm nə adlanır…

- İndi də elə adlanır – dedim. – Bu sözlərdən sonra mən Bakıdan danışmağa başladım. Soyuqqanlı danışmırdım; çünki özümün də qəlbimdə həsrət yuva salmışdı. Düz bir il idi ki, ayrılmışdım. Onun geniş, yaraşıqlı küçələrini, artan, böyüyən üfüqlərini, yaşıl bağ-bağatlarını gözümün qabağına gətirib şirin-şirin danışırdım. Kişi elə bil nağıla qulaq asırdı. Xəlil əmi hərdən gözlərini yumub fikrə dalırdı.

Bilirdim ki, xəyalən küçələrdən keçir, kim bilir, bəlkə də evlərinin qapısını açıb içəri girirdi.

- Sən haralısan, bala? – deyə birdən söhbətimi kəsib soruşdu.

- Rayondanam, ancaq on beş ilə yaxındı ki, Bakıda yaşayıram…

Kişi duruxdu, sonra asta səslə:

- Mənim orda arvadım və bir oğlum, bir qızım qalmışdı. Bir Allah bilir ki, onların başına nə gətirdilər – dedi.

- Kim, əmi?

- Kim olacaq, hökumət.

- Niyə ki?

- Mənə görə, bala.

- Sənə görə? Sən neyləmişdin ki?!

Xəlil əmi papirosunu axıracan sümürdü, ani sükutdan sonra dedi:

- Mən indi dəvəsi ölmüş ərəbəm. İndi, bu qədər əzab-əziyyət çəkəndən, ölüb-diriləndən sonra heç kəsdən qorxmuram. Səndən də, sənin hökumətindən də. Mən səninlə açıq danışacağam, oğul. Nə olacaq, qoy olsun.

-Danış, əmi – deyə sakit səslə dilləndim. Heç nədən qorxma. – Çünki onun axırıncı sözləri əsəbiliklə dediyini hiss elədim. Bu sözləri ancan cana doymuş, yaşamaqla ölüm arasında heç bir fərq bilməyən adam deyə bilərdi.

- Hamısını müharibə elədi, bala. Yoxsa oturmuşdum evimdə-eşiyimdə… Camaat kimi gedib vuruşmuşdum, ölmüşdüm. Ölmüşdüm, qalmışdım, ya ki, qayıdıb gəlmişdim. Alnı açıq, üzü ağ… Calayivətən olmazdım.

Kişi bunları elə bil mənə yox, öz-özünə danışırdı.

- Axı necə oldu ki…

Sözümü kəsdi:

- Hə, bala, mən bir az nizamsız danışıram… - dedi.

- Yox, yox, lap yaxşı danışırsan.

O, bir papiros da yandırdı. Dərdinin ağrısını azaltmaq, ürəyinin yanğısını sındırmaq istəyirmiş kimi, acı tüstünü acgözlüklə sümürürdü. Gözlərini yumub ani sükut elədi, sonra asta-asta dilləndi:

- Sən belə başa düşürəm ki, qələm sahibisən, bala. Mənim sözümü-söhbətimi dürüst başa düşərsən.

- Dərdli adamı hamı başa düşər, əmi.

- Yox oğul, sən hələ cavansan. Sənin hələ dünyada gördüklərin çox azdır. Özü də sən həmişə yaxşı şeylər görmüsən dünyada. Amma mən… Qoy elə əvvəldən başlayım.

- Danış, danış…

- Pinəçi idim. Balaca bir dükanım vardı. Koburnat bağının tinində idi. Hər gün səhər gedib dükanımı açırdım, müştərilərimin ayaqqabılarını yamayırdım. Gündəlik yeməyimiz çıxırdı. Bəzən iş vaxtı qurtarandan sonra da, istirahət günləri də işləyirdim. Arvadımı, iki körpə balamı pis dolandırmırdım.

Əsgərliyə çağırış vərəqəsi gələndə evimiz yasa batdı. Arvadım sənətsiz, oxumamış bir qadındı. Ailə mənim əlimə baxırdı. Məni, uzun sözün qısası, çağırıb apardılar. Çox adamı aparırdılar. Mən də getdim… Yaxşı ki, bizi uzağa aparmadılar. Elə Bakının yaxınlığında kazarmalarda əsgərliyimizi eləyirdik. Təlim keçirdik. Bax elə mənim faciəm burda başlandı. Mən rus dilini bilmirdim. Neynəyim, rus məktəbi oxumamışdım, evimizdə rus dilində danışan olmayıb. Nə danışırdılar, başa düşmürdüm. İki nəfər azərbaycanlı idik. Leytenantımız vardı. Adını bilmirəm, familiyası İvanovdu. Əzazilin, əclafın biri idi. Sırada iki azərbaycanlı yanaşı gedirdik. Əmr verəndə, danışanda mən heç nə başa düşmədiyimdən deyirdim, ay Mamed, o nə deyir? O da deyirdi ki, məsələn deyir sağa dön. Dönürdüm. İvanov bunu başa düşdü. Bizi ayırdı. Onu cərgənin lap axırına, məni lap qabağına gətirdi.

Bir dəfə mənə nə isə əmr elədi. Danışdı, danışdı. Mən gözlərimi döyə-döyə ona baxıb qaldım. Gözümlə Mamedi axtardım, yox idi. Kimnən soruşum ki, o nə dedi, bir şey anlatmadılar mənə Qayıtdım.

Bildi ki, heç nə başa düşmədim. Çağırdı, hirsli-hirsli, ağzı köpüklənə-köpüklənə nə isə danışmağa başladı. Onu bildim ki, ana söyüşü söyür. Özümü saxlaya bilmədim, irəli yeridim ki, qulağının dibini qızışdırım. Dedim:

– Ay yoldaş, sən nə istəyirsən məndən?

Qaçdı. Bir saatdan sonra məni təkadamlıq otağa saldılar, qapını bağladılar. O qalmaqnan düz on gün orda bir tikə çörək və bir quruşka su ümidinə qaldım. Nə başını ağrıdım, bir sümük, bir dəri çıxdım ordan. Çıxan kimi yenə mənə sataşdı.

- Yoldaşı, kak dila? – dedi və əlini gicgahına aparıb işarə ilə başa saldı ki, ağlın başına gəldi, ya yox? Dişim bağırsağımı kəsirdi. Ondan böyüyə – polkovnik Starikova şikayət eləmək istəyirdim. Yaxşı kişi idi. Ancaq nə fayda ki, dilini bilmirdim. Desəydim onun atasını yandırardı. Dişim bağırsağımı kəsirdi. Təlimdə atamı yandırırdı. Süründürürdü, səngər qazdırırdı. Hamıdan çox məni işlədirdi. Elə hey yoldaşi deyib məni ələ salırdı. Neçə dəfə ağlıma gəldi ki, beynini qoyum güllənin qabağına, vurum, qatıq kimi dağıdım. Uşaqlarım, ailəm, gəlib dururdu gözümün qabağında. Qalırdım belə.

Qırx birin sentyabrında bizi İrana tərəf tərpətdilər. Bakının yanından, lap bizim küçədən keçib gedirdik. Eloğlumla danışdım ki, bəs mənimlə gedək İvanovun yanına, icazə istəyək, beş dəqiqə girim evə, uşaqları görüm, qaça-qaça gəlib çataram.

Getdik, dedik, şümür oğlu şümür razı olmadı. Nə qədər yalvardım – öz dilimdə yalvarırdım. Əsər eləmədi. Evimizin yanından, küçəmizdən keçib getdik. Yaş məni boğurdu. Amma əlimdən nə gələrdi? A zalım oğlu, sənə neynəmişdim? Niyə mənim həyatımı pozdun, niyə qoymadın axırıncı dəfə balalarımı görəm? Axı insanıq biz, bizim sinəmizdə insan ürəyi olmalıdı, daş yox. Nə isə. İranda – Təbrizdə də bu məndən əl çəkmədi.

Bir gün məktub aldım, qızımın öldüyünü xəbər verirdi arvadım. Bilirsən, qızım hansı gün ölüb? Mən bizim küçədən keçən günün səhəri,

sübh tezdən ölüb, bala. Mən bir də onu görə bilməyəcəyəm. Ölüb mənim balam, anamın adını qoymuşdum, oğlum qədər istəyirdim, təzə-təzə dil açıb ata-ata deyirdi. Leytenantı hər görəndə yaram təzələnirdi, balamın səsi qulağıma gəlirdi. Məni qızımla axırıncı görüşdən məhrum eləyən cəllad gündə qara tikan kimi gözümə batırdı. Bir gün yuxu gördüm. Qızım başını dizimə qoyub altdan-yuxarı mənə baxır, asta-asta deyirdi:

- Sən məni istəmirdin, ata!

Mən onun qumral saçlarını sığallaya-sığallaya cavab verdim:

- Niyə istəmirdim, bala? Sən özün bilirsən ki, atan səni nə qədər çox istəyir.

- Yox, istəmirsən – deyirdi. – Mən naxoş olanda elə hey səni çağırırdım. Ancaq sən gəlmədin. Mən sənsiz öldüm. Ancaq mən səndən vəfalı çıxdım. Öləndən sonra da sənin yanına gəlmişəm. Yoluzadı tanımırdım. Uça-uça gəlmişəm. Hər gecə gələcəyəm, ata. Mən səni çox istəyirəm.

- Mənim təəccübdən gözlərim böyümüşdü. Qızım lap böyük adam kimi danışırdı. O danışdıqca mən ağlayırdım. Yuxudan dəli kimi ayıldım, xeyli fikirləşdim. «Hər gecə gələcəyəm, ata. Mən səni çox istəyirəm». Onun bu sözləri indi də, üstündən neçə il keçməsinə baxmayaraq qulaqlarımda səslənir. Yatmaq istədim, qoy qızım yenə gəlsin, yenə danışsın. Ancaq yata bilmədim. Fikrim yenə öz doğma küçəmizdən, doğma evimizin yanından keçdiyim zamana qayıtdı. Elə o gecə qızım məni çağırırmış, çağırırmış. Ax, səni lənətə gələsən, lənətə gələsən, cəllad, qatil, daş ürəkli. Yox, bu qisası səndə qoymaram. Bəlkə də o gecə o, məni görsəydi, heç ölməyəcəkdi. Bəlkə ömrü uzanacaqdı. Birdən beynim qıjıldadı. Mən belə anlarda heç nə başa düşmürəm, nə elədiyimi bilmirəm. Geyindim, finkamı götürdüm. Yavaşcana onun çadırına girdim. Yatmışdı. Bir əlimlə ağzını tutub, o biri əlimlə bıçağı boğazına çəkdim. Çəkdim və boğuq xırıltı eşidildi. Toyuq kimi iki-üç dəfə çabalayıb süstlədi. Çıxdım. Özümü rahat hesab elədim. Necə rahat? Sonra qaçdım, qaçdım. Ayağım yer tutduqca qaç-

dım. Xanabad kəndinə çatanda hava işıqlaşırdı. Bir kəndlinin evinə girdim. Paltarımı dəyişdim. Asta qaçana göy imam qənim olsun. Qaçdım, qaçdım. Bir ay sonra Əfqanıstan sərhədinə gəlib çıxdım. Xusabda neçə gün qalandan sonra Ənardərəyə gəldim…

O zamandan mənim səfil-sərgərdan həyatım başlandı. Bilirəm, məni qaçandan sonra çox axtarıblar. Tapa bilmədilər. Bilməzdilər də. Ancaq ailəmi, bilirəm, məhv elədilər. Bu, onların əlindən gələrdi. Bu, çox asan işdi onlarçun.

O, susub qırış-qırış alnını bir az da qırışdırdı. Bu dəqiqə o, kimisə mənə xatırlatdı. O kimə oxşayırdı? Yox, xatırlaya bilmirəm. Fikir məni götürdü. Bilib tanıdığım adamlar gözümün qabağına gəlməyə başlayanda o dedi:

- Bizim ailədən indi bircə nəfər sağ adam var.

Mən tələsik xəbər aldım:

- O kimdi?

- O qızımdı, bala.

- Axı… sən dedin ki, o…

- Hə, mən dedim ki, o, ölüb. Ancaq o ölməyib. O, sağdır. Mənim fikrimdə, ürəyimdə o, sağdır. Sözünə əməl eləyir. Hər gecə yanıma gəlir, yuxuma girir. Böyüyüb, qəşəng qız olub. Hər gecə yuxuma girir, dərdləşirik. Ona əlləri çatmayıb. Amma oğlumu, arvadımı…

- Deyirsən öldürüblər?

- Yəqin, bala.

- Axı… - yenə fikrimdə götür-qoy eləyə-eləyə diqqətlə kişiyə baxırdım. Onun üzünün cizgiləri mənə çox tanış gəlirdi. Danışdıqca, dərdlərini deyib yüngülləşdikcə rəngi, üzünün cizgiləri aydınlaşır, mənim çox gördüyüm bir adam qiyafəsinə düşürdü.

- Axı, sənin oğlunun adı nə idi, əmi?

- Qurban olduğumun adı Sultan idi, bala!

- Sultan? Salmanzadə?

Kişi dik atıldı, gözləri böyüyüb hədəqəsindən çıxdı, qaşları yuxarı qalxdı. Qolumdan tutub silkələdi:

- Sultan Salmanzadə. Bəli Sultan… Sən onu tanıyırsan? Sultan Salmanzadə Xəlil oğlu?

- Arvadınızın da adı Həlimədi, eləmi?

- Həlimə, Həlimə – deyə o, az qala qışqıra-qışqıra cavab verdi və təkrar elədi:

- Həlimə, Həlimə.

- Tanıyıram, əmi, tanıyıram.

O süstəldi. Qüvvəsi tükənmiş adam kimi stula oturdu. Stul altında silkələnib cırıldadı.

- Ox, başına dönüm, ay bala. Səni Allah hayandan yetirdi mənim üçün?! – Gözlərindən yaş axa-axa, məzlum-məzlum mənə baxdı.

- Sakit ol, Xəlil əmi, sakit ol. Ailən sağ-salamatdı. Özünə gəl, hər şeyi sənə yerli-yataqlı danışacağam – deyib fikrən ötən günlərə qayıtdım.

Sultan mənim iş yoldaşım idi. Yaxşı savadlı, ağıllı bir oğlandı. Xəlil kişinin başına gələn əhvalatdan sonra Həlimə xalanı Sultanla birgə Sibirə göndərmişdilər. Neçə il o tərəflərdə qalıblar. Həlimə xalanın sağ qulağını soyuq aparıb. İndi – neçə il bundan qabaq onları da buraxıblar.

Mən hər şeyi ətraflı danışdım. Xəlil əmi təpədən dırnağa qulaq kəsilib məni dinləyirdi.

- Ay bala, səni and verirəm o cavan canına, mənə dediklərin düzdü, ya yox?

- Balamın canı üçün. Əmi deyirəm, Sultan mənimlə can bir qəlbdə dostuq. Sizin evinizə gəlib gedirəm. Onlar bizə gəlirlər. İnişil Sultana toy elədik, yaxşı bir qız aldıq ona. Toyunda özüm tamadalıq eləmişəm. Sultanın indi bir qızı olub. Adı da Səmirədir.

- Səmirə?

- Hə.

- Ölən qızımın adını qoyub. Onun da adı Səmirə idi. Həlimənin işidi. Həlimə də onu mənim kimi çox istəyirdi.

Mən durub beş gün bundan qabaq Sultandan aldığım məktubu gətirdim.

- Budur, bax, inanmırsansa bu da onun məktubudur. Bax, oxu, Sultan Salmanzadə…

O, məktubu əlimdən qapıb gözlərinin qabağına gətirdi. Baxdı, baxdı, ürəyinin üstünə qoyub uşaq kimi ağladı… Sonra məktubu öpüb gözlərinin üstünə qoydu.

- Xəttinə qurban olum ay bala. Xəttinə qurban olum ay bala. Bir bunu oxu görüm ay bala, ciyərparam nə yazır.

Mən məktubu alıb Sultanın ailəsi, güzəranı ilə bağlı olan yerləri oxumağa başladım.

- «Əziz qardaşım Əli. Biz lap yaxşıyıq. Kefimiz kök, damağımız çağ. Sənə şad xəbər verirəm: təzə ev aldıq, Nərimanov prospektində. Səmirə yavaş-yavaş danışır. Həlimə xalan deyir ki, lap o biri rəhmətlik Səmirəyə oxşayır. Anam elə hey səni soruşur. Deyir görəsən uşaq qürbətdə neyləyir?! Bu günlərdə xəstələnmişdim. Boğazıma soyuq dəymişdi. İşə çıxa bilmədim...»

Birdən məktubu bir kənara atdım. Saata baxıb radioya sarı cumdum. Hələ vaxta iyirmi dəqiqə vardı.

- Radiodur? – dedi.

- Hə.

- İyirmi ildi arzusundayam ki, bir dənə radio alım. Ala bilmirəm. Bakıya qulaq asmaq üçün. Mənim çəkməçi dükanımda bir dənə çətirə oxşarı vardı. Səhərdən axşamacan qulaq asırdım. Bir dəfə burda – sahibin evində radionu qurub Bakının səsini eşitmək istəyirdim. Ağa girdi içəri, məni qovladı. – Əlini vurma – dedi. Sən nə bilirsən radio nədir. Neçə illərdi bu həsrətlə yaşayıram. Amma…

O danışanda sözünü kəsmirdim. İndi «amma…» deyəndən sonra sözünün dalını demədi. Üzümə baxdı, görünür mənim məktubu yerə atıb radionun üstünə cummağım kişinin diqqətindən qaçmamışdı.

- Bakıya qulaq asmaq istəyirsən?

- İstəyirəm bala, çox istəyirəm. Bu arzum ailəmi görmək kimi qüvvətli olub həmişə.

- Oğlunun necə, səsini eşitmək istəyirsənmi?

- Oğlumun?

- Hə, Sultanın.

O, təəccüblə üzümə baxdı.

- Sən lap sehrkar adamlara oxşayırsan, bala. Allah səni hardan göndərdi mənim üçün?

Düyməni burub Bakını tutdum. Konsert idi. Zeynəb oxuyurdu. Onun səsindəki məlahət adamın ürəyini riqqətə gətirirdi. Zeynəbin səsini vətəndə dinləmək bir ayrı şeydi, qürbətdə dinləmək bir ayrı şey. Vətəndə o səs səni düşündürürsə, ləzzət verirsə, qürbətdə o səs səni ağladır. Zeynəb oxuduqca kişinin gözlərindən yaş axırdı. O, dərdlərinəmi ağlayırdı, ayrılıqmı ağladırdı onu, ya da musiqi ağladırdı? Billə bilmədim.

- Sənin oğlun, mənim dostum Azərbaycan radiosunda diktor işləyir. Yaxşı diktordur.

Kişi möcüzə qarşısında dayanmış kimi idi. Möcüzə baş verəcəkdi.

Konsert qurtardı. Efirdə zərif bir xışıltı eşidildi. Sonra aydın, səlis, qəvi bir səs:

«Danışır Bakı!» - dedi. Bu səsi eşidən kimi dedim:

- Bax, Sultandır əmi, danışan.

Kişi vəhşi bir hərəkətlə üstümə cumub radionu əlimdən qapdı, bağrına basdı.

- Oğul, deyə var səsi ilə qışqırdı. – Oğul, səsinə qurban olum, oğul!

- Son xəbərlərin verilişinə başlayırıq!

- Oğul, məni eşidirsən? Mən atanam, mən atanam. İtkin düşmüş atan.

Oğul səsini alçaldıb eləmədən sözünə davam edirdi.

- Biləsuvar rayonunun zəhmətkeşləri…

- Sultan, bala, mənəm, mən, mənə cavab ver.

Ata qışqırırdı, oğul eşitmirdi. Ata ağlayırdı, oğul danışırdı. Ata oğulu eşidirdi, oğul atanı yox. Bu qəribə səhnə ömrüm boyu yadımdan çıxmaz. Çünki bu səhnə məni ağlatdı… Ağlamaq isə yaddan çıxmır. Göz yaşında nə hikmət varsa unudulmur, bir damcısı da unudulmur.

***

Biz ayrılanda mən radiomu ona bağışladım. Gecə yarıdan keçmişdi. Mənə necə təşəkkür edəcəyini bilmirdi:

- Məni vətənə getməyimdən keçmiş ola, bala. Çox sağ ol ki, məni nigarançılıqdan qurtardın. Mənim ölümümə az qalıb. Məni ailəmlə elə bil təzədən görüşdürdün. Çox sağ ol. Bu hədiyyən isə əvəzsizdir mənim üçün.

- Mən sənin vətənə qayıtmağına kömək eləyərəm. İndi zəmanə sən görən zəmanə deyil. Özü də…

- Axı günah məndə olmadı, bala. Məcbur elədilər məni.

… Bizim evimiz – mənim hücrəm Şahzadə xiyabanının yanındadır. Birinci daxma mənimdir. Elə ətraflı dedi ki…

Mən sabah imkan tapıb ona dəymək fikrində idim. Gedə bilmədim, o biri gün getdim. Soruşdum, bir uşaq qapısını nişan verdi. Qapını döydüm, səs gəlmədi, itələdim açıldı. Bura alçaq, yarıqaranlıq bir daxma idi. Səs-səmir yox idi. Radio balaca taxta çarpayının yanında xırıldayırdı. İrəli yeridim. Xəlil əmi taxtın üstündə uzanmışdı. «Yazıq, radioya qulaq asır!»

- Xəlil əmi.

- …

- Xəlil əmi…

- …

Elə bu zaman radio səsləndi. Sultanın aydın səsi eşidildi.

- Danışır Bakı. Ədəbi verilişimizə başlayırıq.

- Xəlil əmi, dur ayağa, Sultan danışır.

Xəlil əmi tərpənməyəndə canımdan bir gizilti keçdi.

- Xəlil əmi – deyə onu silkələdim – Sultan danışır.

Xəlil əminin əlinə əlim toxunanda hər şey aydın oldu. Kişi keçinmişdi. Sultan isə hansısa şairin bu beytlərini oxuyurdu:

Ömrümün gülləri bükdü boynunu,
Əsdi, yaman əsdi yeli qürbətin.
Başıma dağlartək qar ələndi, qar,
Gəzdi saçlarımda əli qürbətin.

Həsrətdən quzutək mələyir ürək,
Çarə yox, hər dərdə dözəsən gərək.
Yağ-bal yedirsə də, ögey anatək,
Zəhər tuluğudur dili qürbətin.

Radionu söndürdüm.

- Danışma, bəsdi, dostum. İntizarla, ümidlə gözlədiyin, bəzən də nifrətlə yad elədiyin atanı burda tapdım, burda da itirdim – dedim ürəyimdə. Və Xəlil əminin solğun, meyid üzünə baxıb ağladım.

… Onu şəhərdən azca aralı, «Qəriblər» qəbristanlığında dəfn elədim…

*25.11.1966 – 12.01.1967, Kabil*

## MEŞƏDƏ

Qar altında nəfəs alan şam meşəsində sakitlikdi. Ağacların yana əyilmiş budaqlarından asılmış sırsıralar bu yerlərdə çox nadir hallarda görünən qış günəşinin zəif işığı altında qınından sıyrılıb çıxarılmış qılınc kimi bərq verib parıldayırdı. Torpağın üstünə qalın ağ yorğan kimi sərilmiş qarın üst qatı donmuşdu. Arabir budaqdan qopan xəncər – sırsıra şiş uclu ox kimi süzə-süzə başıaşağı yerə gəlir, nazik buz təbəqəsini deşib qarın içinə batırdı və yalnız ağaclardan atılan bu oxlar meşənin qış sükutunu pozurdu. Nazik pambıq şala bükdüyü uşağı qucağına möhkəm-möhkəm sıxmış Valentinanı əvvəl bu oxların uçuşu, şıqqıltısı səksəndirirdi. Topuqdan aşağı qara batan ayağını saxlayıb, dinləyir, tıncıxa-tıncıxa o yan, bu yana boylanır, qucağında qurcuxan uşağın ağzını əlilə tutmağa, səs çıxarmağa qoymamağa çalışır, bir kəs olmadığını görüncə yoluna davam edirdi. Ürəyi içəridə quş kimi çırpınırdı. Ac idi, neçə vaxtdan bəri doyunca qarnına çörək yeməyən Valentinanın sifəti ağarmış – saralmış olsa da, indi şaxta onun yanaqlarını qızartmışdı, soyuq ayaqlarını kötüyə döndərmişdi, çətinliklə yeriyirdi.

Ac olmağına, yorğun olmağına baxmayaraq o, özündə tükənməz bir qüvvə hiss eləyirdi. İnanırdı ki, bu qüvvə onu mənzilə – doğma kəndlərinə çatdıracaq. Dörd il bundan qabaq kənddən çıxmışdı. Anası ilə, atası ilə vidalaşıb on kilometr uzaqda yaşayan Alekseyə ərə getmişdi. Bu, elə bil dünən olmuşdu. Aleksey traktorçu idi. Valentina ilə mehriban, səmimi yaşayırdı. Ancaq bu xoş güzəran uzun çəkmədi. Valentina ayın-günün içində olanda Alekseyi əsgər çağırdılar. Əgər o, iki gün də gec getmiş olsaydı, indi anasının qucağında soyuqdan büzüşən Lyoşkanı - ilk övladını görərdi. Görə bilmədi. Uşaq dünyaya gələndə atası kim bilir harda əsgər paltarında düşmənlə vuruşurdu. Valentina ərinin bu tezliklə məhv olacağı fikrini ürəyinə gətirmirdi. O,

hələ vuruşmalı idi, o, hələ sağ qalmalı idi. O, qayıtmalı, üzünü görmədiyi körpəsini bağrına basıb duz kimi yalamalı idi… Alekseyin qoca ata-anası o, əsgər getdikdən sonra Valentinanın ümidinə qalmışdı. Neçə dəfə onları qoyub öz kəndlərinə – ailəsinin yanına gəlmək istəmişdisə də ürəyi iki kimsəsiz qocanı damın altında tək qoyub gəlməyə icazə verməmişdi.

Almanlar üç gün irəli kəndə basqın elədilər. Evlər yandırıldı, uşaqlar, günahsız adamlar qızıl güllədən keçirildi. Kəndin ortasında qurulmuş dar ağaclarından asılmış adamların qaralmış sifətləri, hədəqəsindən çıxıb partlamış gözləri, qaralıb bir qarış sallanmış dilləri indi də, bu sakit meşədə də onun fikrindən çıxmırdı. Gördüyü vəhşiliklərdən dəli olmaq dərəcəsinə gələn Valentina ancaq üç yaşlı Lyoşkasını götürüb dan yeri qızaranda kənddən çıxmış, özünü meşəyə salmış, doğma kəndlərinə sarı üz tutmuşdu. Onun bu saat ürəyində bircə arzusu vardı. Lyoşkanı sağ-salamat babasına-nənəsinə çatdırsın, özü də bir uşaq kimi onların böyrünə qısılıb ağlasın, ağlasın. Bu az yaşında gördüyü dəhşətlər onun ürəyini daşa döndərmişdisə də, qadın zərifliyini, həlimliyini, həssaslığını əlindən ala bilməmişdi. Onun bundan sonrakı həyatının məqsədi, mənası ancaq Lyoşkaya sərf edilməli idi, onu böyütməyə. Heç olmasa atası gələnəcən saxlamağa yönəldilməli idi. Hər dəfə düşünəndə ki, Aleksey öz oğlunun üzünü görməyib – onu ağlamaq tuturdu.

Sıra ilə düzülmüş ağaclar bir-bir arxada qaldıqca Valentinanın qətiyyəti daha da artırdı. Ona nə üçünsə elə gəlirdi ki, hələ almanlar onların kəndinə gedib çıxmayıblar, hələ evlər, eşiklər viran olmayıb, adamlar öldürülməyib. Və bu ümid onu qüvvətli bir maqnit kimi çəkib irəli aparırdı.

Əyni yuxa idi. Canını qızdıran yeganə pambıq şalı açıb Lyoşkaya bürümüşdü. Ancaq deyəsən uşağın canını bu da isindirmirdi. Valentina qucağındakı uşağın bədəninin necə əsdiyini aydın hiss eləyirdi. Ana nəfəsini uşağın nəfəsinə verirdi. Uşağın göy gözləri məşəl kimi

parıldayırdı, üzünün sarı tükləri biz-biz olmuşdu. Ana hiss eləyirdi ki, içəridə uşağın ürəyi tir-tir əsir və onun arıq, cılız bədənini beləcə titrədir. Valentina uşağı özünə sarı sıxmaqla da titrəməsini dayandıra bilmirdi. Qıçı qar altında qalmış kötüyə ilişdi və ana-bala üzü üstə qarın üstünə sərildilər.

Lyoşka zarıdı:

- Ma.

- Ağlama, bala – dedi. – Və ayağa qalxmağa cəhd eləyərək eşələndi. Uşağın əli qara batmışdı. Güc-bəla ilə qalxdı, uşağı da qaldırdı. Üstünü çırpıb yoluna düzəldi. Lap darıxmışdı. Bezmişdi. Bayaqdan dolmuş gözləri yıxılıb-durandan sonra boşaldı: yanaqları boyunca yaş axmağa başladı. O, səssiz-səmirsiz ağlayırdı. İki dəqiqə keçməmiş üzündə – yanaqlarında donmuş buz giləleri göründü, bir azdan isə buz çubuğu əmələ gəldi. Kənardan baxana elə gələ bilərdi ki, onun gözlərindən iki buz çubuğu çıxıb. Valentina əlini yanaqlarında gəzdirdi, çubuqlar sınıb yerə düşdülər. O, pambıq jaketinin sürtülüb getmiş qolu ilə gözlərinin yaşını sildi və dərin bir qorxu hissi ilə düşündü ki, ağlamaq olmaz, göz yaşları qətrə-qətrə donaraq ürəyinə qədər gedib çıxa bilər. Ürəyini dondura bilər. Yox, bu dəhşətdir. Amma bu qorxulu fikir onu tərk eləmədi. Əgər donsalar… Bəs uşaq? Bəs Aleksey? Ciyərparasını görməmiş kövrək ürəkli ata?

Qışda ölmək də insan üçün bir dərddir – deyə o ürəyindən keçirməyə başladı. Adam bu soyuq torpaq altında necə yata bilər?! Sonra özünün bu düşüncəsinə acı-acı gülümsündü: ey yazıq, kimdi səni basdıran? Bir də öləndən sonra sənin üçün nə fərqi? Ya torpağın altı olsun, ya üstü? Nə fərqi? Elə deyilmi?! – Bu fikirləri özündən kənar eləməyə çalışdı: xəyalən evə ata-anasının yanına gəldi. Budur, atası İvan Petroviç və anası Mariya Nikolayevna onu qapıda gülərüzlə qarşılayırlar. Qucaqlaşıb öpüşürlər. İvan Petroviç körpə vaxtı gördüyü Lyoşkanı anasından alıb öpür, sonra tez rus peçinin üstünə çıxarıb isindirir. Mariya Nikolayevna ağlaya-ağlaya qızını süzür:

- Nə sınıxmısan, ay bala! – deyir. «Mənim qumral saçlı körpəm, necə də dəyişmisən. Sənin üçün orada yəqin çox ağır keçib?»

«- Eybi yoxdur, ana, müharibədir. Neyləmək olar?»

Valentina xəyalən soyunur, o da yuxarı, peçin üstünə çıxır… Canı, ürəyi yavaş-yavaş isinməyə başlayır. Kaş təzədən uşaq olaydım. Qayğısız, dərdsiz… ah çəkir.

Birdən qulağına danışıq səsi dəydi. Qaşlarını yuxarı dartıb səksəkəli halda irəli baxdı. Heç kəs görünmürdü. Ancaq səs irəlidən gəlirdi. Dayanıb dinlədi, söhbət eləyənlər nemescə danışırdı. Bunu hiss eləyən təki boğazı qurudu, udqundu. Ağzını geniş açıb ciyər dolusu nəfəs almaq istəyirdi. Ancaq elə bil bu boyda meşədə hava yox idi. Ədyalın ucunu qaldırıb Lyoşkaya baxdı. O, gözlərini yummuşdu, üzünə işıq düşən kimi gözlərini açdı və namüəyyən bir ifadə ilə anasına baxdı. O, ancaq üşüyürdü. Sir-sifətində qorxu əlaməti yox idi.

Valentinanın beyninə gələn ilk fikir bu oldu ki, kənara çəkilib ağacların içində gizlənsin. Bəlkə xilas ola bildilər. Deməк – o düşündü – hər şey bitdi. Demək onların murdar ayağı bizim də kəndə dəyib. Görəsən bizimkilər necədir; salamatdılarmı barı?! – Valentinanı bu soyuqda, qarda kəndə sarı çəkib gətirən bu ümidin də üstünə su çiləndi. Ona elə gəldi ki, bu dəqiqə onlar – ana-bala bu dünyada tək-tənha qalıblar. Aleksey yox, ata yox, ana yox…

«Qoy elə öldürsünlər məni də!» – deyə birdən qəti qərara gəldi - heç yerə qaçmayacağam. Bu alçaqların qabağından qaçmayacağam». Yerindən tərpənib düz irəli – səs gələn səmtə irəlilədi. «Qaçmayacağam!» – öz-özünə təkrar eləyirdi. Dördüncü addımı atanda ana qucağındakı uşağın səsini eşitdi.

- Ma.

Ana elə bil ayıldı. Bayaqdan Lyoşkanı unutmuşdu. Bəs o?

- Nədi, bala?

- Üşüyürəm, ma.

- Az qalmışıq, döz, Lyoşkacan.

Uşaq kiridi.

«Yox, Lyoşkanı xilas eləməliyəm. Onu atasına… deyərək o, qəti bir hərəkətlə sola buruldu. Orada, səkkiz-doqquz addım aralıda – qalınlıqda gizlənmək olardı. Nemeslər keçib gedəndən sonra yola düzəlmək, bir təhər kəndə çatmaq olardı.

Valentina yenicə özünü kolluğa salmışdı ki, iki nəfər alman ağacların arasından çıxdı. Biri gödək, kök, yumrusifət əsgər idi. O biri ucaboy və arıq bir adamdı. Gödək tüfəngini çiynindən asmışdı, amma uzun avtomatın qayışını boynuna keçirib hər ehtimala qarşı əlini qundağın üstünə qoymuşdu. Ağır-ağır yeriyirdilər. Hərdənbir dayanıb ətrafa baxır, səs-səmiri dinləyir, sonra yollarına davam eləyirdilər. Danışıqları və qarın xırıltısı aydın eşidilirdi. Valentina nəfəs belə almadan yoğun şam ağacının dalına sığınıb baxırdı. Kaş Lyoşka səsini çıxarmayaydı. Əgər o, ağlasa, ya qışqırsa demək hər şey bitdi. Ana hər ehtimala qarşı əlini uşağın ağzına yaxın tutmuşdu.

Nemeslər Valentinagilin tuşuna çatanda dayandılar. Yerə baxmağa başladılar. Valentinanın ürəyi qopdu. Onlar Valentinanın qar üzərində qalmış izini görmüşdülər. Bu, heç onun ağlına da gəlməmişdi. Hər şey məhv oldu, hər şey bitdi. Valentinanın alnında tər damcıları göründü… Gözlərini geniş açaraq nemeslərə baxmaqda davam elədi. Nemes dilini bilmirdi, ancaq onların hərəkətlərindən bir şey anlamaq istəyirdi. Uzun sağ əlini avtomatın tətiyindən çəkmədən sol əlilə Valentinanın izini göstərirdi. Yəni deyirdi ki, bax, bu tərəfdən gəlib. Gödək izi diqqətlə nəzərdən keçirib şəhadət barmağını uzuna sarı uzatdı. Yəni dedi ki, bir nəfərdi. İkisi də üzünü Valentinanın gizləndiyi səmtə döndərdi.

Uzun izə düşüb irəliləyəndə Valentinanın gözləri yumuldu. Ancaq xoşbəxtlikdən gödək nə üçünsə əlini atıb uzunun qolundan tutdu və geri çəkdi. Valentina azca nəfəs aldı. Ancaq bu uzun çəkmədi, uzun gödəyin sözünə baxmadı. İrəli addımladı. Gödək də onun dalınca gəlməyə məcbur oldu. Bütün bunları görən Valentina taqətsiz halda

ağaca söykəndi. Uzun tüfəngi hazır tutmuşdu, gödək onunla daban-basma gəlirdi.

Ağaca beş addım qalmış uzun Valentinanı gördü və qışqırdı:

- Əllər yuxarı.

O, bu sözləri elə dedi ki, təkcə Valya və Lyoşka deyil, ondan iki-üç addım geridə dayanmış gödək də səksəndi.

Valentina dikəldi, geniş açılmış gözlərini uzuna zilləyib ağır-ağır ağacdan aralandı, ancaq əllərini qaldırmadı, çünki uşaq yerə düşə bilərdi. Onun bu saymazyana hərəkəti uzunu acıqlandırdı. O, bir də qışqırdı:

- Əllər yuxarı – uzunun qabaqdan bir dişi düşmüşdü. O, ağzını açanda Valentina bunu gördü.

Valentina indiyəcən düşmənlə bu cür, üz-üzə, göz-gözə dayanmamışdı. Uzunun qışqırığına fikir vermədən o, bu iki nəfəri nəzərdən keçirirdi. Elə bil titrəməsi də dayanmışdı. Elə bil daha üşümürdü də…

Gödək dilləndi…

- Partizan? – Bu sözü o, rusca dedi.

Valentina heç nə demədi.

Uzun üçüncü dəfə əmr eləyəndə o, Lyoşkanı iki əlində yuxarı qaldırdı. Ədyal sürüşüb uşağın çiyninə düşəndə nemeslər təəccüblə bir-birinin üzünə baxdılar və sonra güldülər. Gülüş səsi meşədə beşaçılan gülləsi kimi şaqqıldadı. Bu səs onların özünü də qorxuzdu deyəsən. Daha gülmədilər. Lyoşka ağladı. Ana onu yenə şala büküb qucağına aldı və silkələyərək sakitləşdirməyə çalışdı. Ancaq uşaq qorxmuşdu deyəsən. Sakit olmaq bilmirdi.

Uzun irəli yeridi. Gödək də dalınca. Deyəsən onlar başa düşmüşdülər ki, qadının heç bir silahı yoxdur. Ancaq yenə ehtiyat elədilər. Uzun qabağa yeridi. Avtomatı Valentinaya tuşladı:

- Axtar, Hans! – dedi. – Hans gözlərini qadının üzündən çəkmədən lap yaxın gəldi. Qorxa-qorxa əlini pambıq jaketin ciblərinə

vurdu. Sonra ədyalı açıb uşağa baxdı. Oğlan onu görən kimi səsini kəsdi. Gödək dönüb uzuna dedi:

- Heç nə yoxdur.

Arxayın-arxayın bir-birinin üzünə baxdılar. Gödək təzədən Valentinaya tərəf gəldi. Ət içində itib-batmış qonur gözlərini hərisliklə onun üzündə, bədənində gəzdirdi. Valentinanın üzü qəşəngdi, göy, işıqlı gözləri uzun, qatlama kirpiklər arasında gözəl görünürdü. Qorxu, soyuq üzünün sakit və gözəl ifadəsini çox az dəyişmişdi. Valentina kəndlərində birinci qəşəng qız sayılırdı. Cavanlar, bəzi evlilər-ailəlilər belə onun ürəyəyatımlılığı qarşısında ağzı açıla qalardılar: uzun hörükləri kimi heç kəsin hörüyü yox idi bu kənddə. Hətta, həmyaşıd qızlar belə onun hörüyünə qibtəylə baxardılar. Mütənasib bədəni, düz, ətli ayaqları, dolu, ağ dizləri gecələr çox cavanların yuxusuna girərdi. Ancaq o, öz kəndlərinin cavanlarından heç birinə könül verməmiş, Alekseylə – qədd-qamətli, gümüşü saçlı oğlanla ömür-gün yoldaşı olmağa razılıq vermişdi. Bunun da əsil səbəbi Alekseyin həssas təbiətli – şair ürəkli olması idi. Gözəllik üçün ürəyi gedərdi. Ən çirkin bir şeydə də bir gözəllik axtarardı. Axtarardı və tapardı da. Evləndiklərinin birinci günü, toya yığılmış qohum-əqraba, dost-tanış çəkilib gedəndən sonra iki sevgili tək qalanda Valentinanı alt paltarda görən Aleksey bihuş halda divanın üstündə xeyli oturub qalmışdı. Çünki Valentinanın bu əndazədə qəşəng olduğunu o, ağlına da gətirə bilməzdi. O gecə qəribə, əsrarlı bir gecə idi bu iki cavanın həyatında. O günlər harda qaldı? Nə xoş günlər idi o günlər?!

İndi budur, tumgözlü alman irişə-irişə əlini onun göbəyinin üstünə qoyub silkələyir. Valentinanın beyni uğuldayırdı. Kök əsgər uzuna baxıb deyirdi:

- Yaxşı candı.

Uzun sanki onun bu sözündən sonra ayıldı. Hərisliklə Valentinaya baxıb ac adam kimi udqundu. Bayaqdan elə bil onun qadın olduğu uzunun heç ağlına da gəlmirdi. Amma indi… O da irəli gəldi:

- Hans, deyirsən yaxşıdı?

- Hə, Henri, əsil rus gözəlidi. Bir buna bax – deyə o, yenə əlini dar qoftanın altında aydınlıqla seçilən budunun üstündə gəzdirdi. Elə bu zaman Valentina onun qarnına bir təpik ilişdirdi. Gödək arxası üstə qarın üstünə yıxılanda uzun qorxunu-filanı yaddan çıxarıb yenə güldü, yenə tez gülüşünə ara verdi… Gödək durub üstünü çırpa-çırpa uzuna və Valentinaya baxıb sırtıqcasına güldü. Uzun baş barmağını irəli uzadıb uşağı istədi. Uzun işarə ilə dedi ki, əgər istəyirsən uşağın sağ qalsın, qarın üstünə uzan.

Valentina onun niyyətini dərhal başa düşdü və təzədən titrəməyə başladı. Bu dəfə gödək qarın üstünə uzanmağı ona təklif elədi və işarə ilə ona başa saldı ki, əgər qarın üstünə uzansa, uşaq da, o da salamat qalacaq, yoxsa… - Uzun onun sözünü işarə ilə tamamladı – hər ikinizin başına fişt. Bir güllə!

Görünür, onların qərarı qəti idi. Gödək əlini uzadıb uşağı anasının qucağından qoparmaq istədi. Uşaq Valentinanın boynuna sarmaşıb qopmadı. Uzun avtomatı onun üstünə tuşladı:

- Ver uşağı.

- Vermirəm. İkimizi də bir öldürün.

Kök birdən ayağını Valentinanın baldırının dalına qoyub onu geri itələdi. Ana-bala ikisi də arxası üstə qarın üzərinə yıxıldı. Kök fürsətdən istifadə eləyib uşağı ciyə-ciylə anasından alıb uzunun yanına gətirdi. Bunu elə sürətlə elədi ki, Valentina eşələnib qarın içindən duranacan kök özünü onun üstünə atdı. Valentina qarın içində çabalayırdı. Əsgər o qədər kök və ağır idi ki, Valentina ancaq qıçlarını tərpədə bilirdi. Hər iki əli isə kökün əli altında qarın içinə sıxılmışdı. Uzun gülürdü. Gödək ona qanrılıb dedi:

- Henri, qayışını mənə.

Henri gülə-gülə şinelinin qayışını açıb ona sarı atdı.

- Özün də gəl kömək elə.

O, Lyoşkanı yerə qoydu, uşaq ağlayırdı.

- Mama, mama. – deyirdi.

- Əclaflar, buraxın, buraxın – deyə Valentina səsi gəldikcə qışqıranda uzun əvvəl bir ovuc qar basdı onun ağzına, qadın qarı tüpürdükdə gödək imkan tapıb dəsmalını Valentinanın ağzına tutdu. Uzun tüfəngini çıxarıb yanına qoydu. Artıq Valentinanın əli də bağlı idi, ağzı da. Boğuq inilti eşidilirdi.

Uzun gödəyə dedi:

- Sən get uşağı kirit, əvvəl mən…

Gödək töyşüyə-töyşüyə:

- Yox, Henri – dedi. – Bu ola bilməz. Səhərdən tər tökürəm. Əvvəl…

Gödək ovunun üstünə çökmüş qaraquş təki, ağzı qana dəymiş köpək kimi burdan çəkilmək istəmir:

- Yox, ola bilməz – deyirdi.

Onun qətiyyətlə bu sözlərini eşidən Henri dodaqaltı deyinə-deyinə geri çəkildi, uşağın yanına gedib onu qarın içindən götürdü. Əlilə ağzını tutdu və ona acıqlandı. Oğlan içində hıçqıra-hıçqıra qaldı. Ancaq barmağını anasına sarı uzadıb inildəyirdi.

Valentinanın səsi çıxmırdı. Ağzındakı dəsmal islanmışdı… Gödək Valentinanın yaş axan gözlərinə baxırdı. Qadın gözlərini yummuşdu. Birdən o, ağzındakı dəsmalı «xıx» eləyib havaya üfürdü. Gödəyin gözlədiyinin əksinə olaraq o, qışqırmadı. Bu, gödəyin xoşuna gəldi. Üzündə isti qadın nəfəsi gəzən gödək xoşallanıb onun bəyaz üzündən öpdü. Valentina yenə dinmədi. Gödək gözlərinə inanmırmış kimi döyükdü. Valentina nazik, ağarmış dodaqlarını gödəyin dodaqlarına sarı uzatmışdı. Gödək vəcdən özünü saxlaya bilməyib dodaqlarını qadının dodaqlarına yapışdırdı. Valentina gödəyin dodaqlarını sümürdü, yavaşcalı dişlərini araladı. Gödəyin sümürülmüş dodaqları qadının dilinin dalınca içəri – ağzına getdi. Və elə bu anda gödəkdən qopan vəhşi səs bütün meşədə əks-səda verib dalğalandı. İlan vurmuş adam belə qışqırmazdı. Gödək durdu, sıçradı. Adam səsinə oxşamaz səslə bağırdı. Uzun

uşağı yerə atıb ona sarı qaçdıqda gödəyin ağzı qan içində idi. Bir az da yaxın gəlib diqqət yetirəndə gördü ki, gödəyin nə alt dodağı var, nə üst. Qızıl qan axıb yaxasını, şinelini bulamışdı.

Valentina əlləri bağlı olduğu halda ayaq üstə dayanmışdı. Onun da ağzı qanla dolu idi. Gödək əyilib yerdən avtomatı götürdü. Çaxmağını şaqqıldatdı.

- Neyniyirsən, Hans?

- …

- Vurma… Bəs mən?!

Güllə açıldı. Hans düz onun qanlı ağzını nişan almışdı. Valentina səntirlədi, eşələnmiş qarın içinə düşüb hərəkətsiz qaldı…

Lyoşka dəhşətlə qışqırırdı.

Uzun gödəyin eybəcər sifətinə baxırdı. Gödək uşağı da nişan aldı.

- Neyniyirsən? – deyə Henri xəbər alanda o artıq tətiyi çəkdi. Ancaq möcüzə baş verdi. Avtomat açılmadı… Axırıncı güllələrini gödək Valentinanın ağzına sıxmışdı.

- Tüfəngini mənə.

- Yox. O körpədir, Hans. Onun günahı…

- Sən düşmənə rəhm edirsən? Bu xəyanət…

Onsuz da Hans onu bugünkü ləzzətdən məhrum eləmişdi. Bir də o, belə yaşamağın qeyri-mümkün olduğunu anlayıb tüfəngi öz yoldaşının qarnına boşaltdı. Hans yerə yıxıldı.

Bir müddət Henri hərəkətsiz dayandı. Sonra gözləri böyümüş, sifəti göyərmiş uşağı yerdən götürüb anasının meyidinin yanına qoydu. Şalı üstünə çəkməyi unutmadı.

Neçə addım getdi. Dayandı. Geri baxdı. «Qoy öldürüm, canı qurtarsın» – dedi. Avtomatı üzünə qaldırdı. Ancaq nə fikirləşdisə tüfəngi aşağı saldı, yoluna düzəldi.

Lyoşka ağaclar, qarlar səltənətində tək qaldı. Anasına sığınıb, baş barmağını ağzına salıb sümürməyə başladı. Gözü xumarlandı, yuxusu

gəlirdi. Deyəsən çimir elədi, ancaq soyuq onu yatmağa qoymurdu. Beləcə çoxmu keçdi, azmı keçdi bilinmədi. Lyoşka gözünü başının üstündə eşidilən hənirtiyə açdı. Dişləri qıcımış, boz rəngli, şiş qulaqlı bir heyvanın başı üstündə dayandığını gördü.

- Ay ma.

- …

- Ay ma. İt gəlib.

- …

Ana Lyoşkanın səsini eşitmirdi.

- Ay ma, itdən qorxuram. Onu qov getsin.

… Lyoşka hələ balaca idi: itlə canavarı hələ biri-birindən ayıra bilmirdi.

*20-27.01.1967, Kabil*

## MƏRDLİK

Evdə sakitlik idi; üçotaqlı, gur çilçıraqlı mənzildə işıqlar yansa da, içəridən səs-səmir eşidilmirdi, elə bil onun sakinləri qapı-pəncərəni bərk-bərk bağlayıb harasa getmişdilər. Lakin bu, kənardan baxana belə gələ bilərdi, çünki ailənin üç üzvünün hərəsi bir otağa çəkilmişdi. Balaca, şirindilli Könül onun üçün ayrılmış kiçik otaqda çox sevdiyi oyuncaqlarını qabağına töküb oynayır, gah sarışın saçlı gəlinciyini oxşayıb əzizləyir, gah da rəngbərəng kubiklərdən nəsə quraşdırır, xoşuna gəlməyəndə uçurub təzədən tikirdi. Könülün anası Arzu dənizə baxan pəncərənin qabağındakı iş stolunun arxasında əyləşmişdi; ipək kimi yumşaq, işıq altında kəhrəba rənginə çalan saçlarını boynunun ardına tökmüşdü, əyninə geydiyi güllü xalatının yuxarıda - sinəsinin üstündə iki düyməsi açıq idi. Ağ, yaraşıqlı üzündə xoşbəxtliyin zərif təbəssümü cilvələnirdi, nazik, alınmış qara qaşları altında alışıb yanan qonur gözləri məsum bir uşaq baxışını andırırdı. Dodaqaltı nəsə zümzümə edir, böyük, ağ vərəqin üzərində tuş qələmlə əyrili-düzlü xətlər çəkir, tələsmədən həvəslə işləyirdi. Nəqşənin yaxşı çıxmağına səy göstərir, dəqiqələr, saatlar keçdikcə lay kağızın üstündə yaraşıqlı evlər, xiyabanlar yan-yana düzülür, yaşıl parklar salınır, göz oxşayırdı.

Arzunun başı elə qarışmışdı ki, cırıltılı divanın üstündən qalxıb fikirli-fikirli gələrək arxa tərəfində dayanan iri, qüssəli gözəlrini arvadının qələm tutan incə, yaraşıqlı əlinə zilləyən Adildən xəbəri olmamışdı. O, damağına siqaret qoymuşdu, ancaq hələ yandırmamışdı, kibriti ətli əlində bərk-bərk sıxmışdı.

Adil işdən qayıdandan sonra axır vaxtlar adət etdiyi kimi, laldinməz, yorğun-arğın halda çörəyini yemiş, başının altına balış qoyub divanda uzanmış, gözlərini yumsa da, yata bilməmiş, elə hey düşünmüşdü. Neçə müddətdi ki, o, nə gecələr yatır, nə çap maşınının arxasında

rahat işləyə bilir, nə də evə dönəndə sevinə-sevinə qabağına qaçıb boynuna sarılan yeganə qızını şirin-şirin əzizləyirdi. Arzu ilə ağızucu danışır, yaxasını hər cür söhbətdən kənara çəkir, «yorğunam, sən allah, mənimlə işin olmasın» - deyib yatırdı. Yeganə məşğuliyyəti televizorda az qala hər axşam nümayiş etdirilən futbola, filmlərə tamaşa etmək idi. Adil sözlü-sovlu adama oxşayırdı, ona nə isə olmuşdu.

Arzu ərində əmələ gələn bu dəyişikliyi xeyli vaxtdı hiss etmişdi, neçə dəfə gah ciddi, gah da zarafata salıb onun bu qaradinməzliyinin səbəbini soruşmuş, ancaq Adildən yönlü-başlı bir cavab ala bilməmiş, çarəsiz qalıb susmuş, «yəqin mətbəədə işləri düz gətirmir» - deyə düşünmüşdü.

İndi Adil arvadının başı üzərində xeyli səssiz-səmirsiz dayanandan sonra kibrit tutduğu əlini yavaşca onun çiyninə qoydu. Arzu səksənən kimi oldu, geri qanrıldı, qaşlarını yuxarı qaldırıb işıqlı gözlərini Adilə tərəf çevirib gülümsündü. Adil diqqətli, nüfuzlu baxışlarını arvadına zilləyərək:

- Yenə belə həvəslə işləyirsən? – deyə başı ilə nəqşəyə işarə elədi.

Arzu qələmi yerə qoydu, nəzərlərini nəqşənin üzərində gəzdirərək şən bir əhval-ruhiyyə ilə dedi:

- Şəhərimizin yeni qəsəbəsinin çertyojudu, Adil. Gör necə qəşəngdir?

- Kimindir? – Adil soyuq və quru bir səslə xəbər aldı: və bununla arvadına hiss etdirmək istədi ki, çertyojun haranın olub-olmadığı onu maraqlandırmır, bilmək istəyir ki, müəllifi kimdir?

- Nüsrətindir, Adil. Müsabiqədə birinci mükafat alıb. Özü də otuz iki arxitektorun içində. Elə sevinir ki.

Adilin elə bil içəridə ürəyini sıxdılar. O, siqaretini yandırdı və ciyəri alışıb yanırmış kimi dərin bir qüllab vurub sümürdü, tüstünü havaya buraxıb eyni gur səslə:

- Mən bilmək istəyirəm, Arzu xanım, sizin idarədə səndən başqa çertyoj çəkən yoxdur məgər? – deyə soruşdu.

Arzu bu sualı eşidəndə ərinin üzünə baxmırdı, nəzərlərini işləyə-işləyə valeh olduğu nəqşədən çəkməmişdi, ona görə də Adilin qalın qaşlarının necə çatıldığını, sifətinin ağardığını görmədi, sakit bir tərzdə cavab verdi:

-Niyə, var!

- Bəs niyə onun çertyojlarını həmişə sən çəkirsən?

Arzu altdan yuxarı Adilə baxıb ani sükutdan sonra:

- Nə olar ki, mən çəkəndə?.. – dedi. – Əvvələn, bu, mənim vəzifəmdir. İkincisi də, o özü xahiş edir, deyir, sən səliqəli çəkirsən, yaxşı çəkirsən.

- Daha nə deyir? – deyə onun sualını təkrar etdi – Heç nə! Daha nə deyəcəkdi ki? Guya sən Nüsrəti tanımırsan? Danışdırırsan, danışır, danışdırmırsan, yox.

Ərinin hansı sarı simi tərpətdiyini heç ağlına belə gətirməyən Arzu birdən nə xatırladısa:

- Nüsrət dedim, yadıma düşdü. Bu gün şöbədə maraqlı bir əhvalat danışırdı Nüsrət.

Adil gözlərini qıyıb qəzəblə arvadına baxdı. Arzunun gözləmədiyi bir tərzdə, demək olar ki, qışqıra-qışqıra dedi:

- Yenə Nüsrət? Mən fikir vermişəm, son vaxtlar Nüsrətin adı dilindən düşmür, hər addımbaşı Nüsrət, Nüsrət. Qulağımız lap mazol olub. Nüsrət belə dedi, Nüsrət elə dedi, nə bilim daha nə. Evdə Nüsrət, yol gedəndə Nüsrət, az qalıb baş yastığa qoyanda da ondan danışasan. Belə olmaz axı, Arzu.

Arzu ilan vurmuş kimi qalxdı, heyrətdən böyümüş gözlərini ərinin ağarmış, girdə və ətli sifətinə, bərəlmiş gözlərinə zillədi. Bu, elə gözlənilməz söhbət idi ki, Arzu birdən-birə nə cavab verəcəyini bilmədi, tutulub qaldı.

- Yalan deyirəm? – Adilin qəzəbli səsi bu dəfə də otağı başına götürəndə Arzu özünə gəldi, onu birinci dəfə görürmüş kimi təpədən dırnağa süzüb mat-mat üzünə baxdı, rəngi qar kimi ağardı, elə bil

içində nə isə qırılıb düşdü, bütün vücudunu bir süstlük bürüdü, otaq başına fırlandı, taqətsiz halda təzədən stula əyləşdi, əlini alnına söykəyib fikrə getdi və sanki birdən-birə Adilin son zamanlardakı qəribə hərəkətləri, tutqunluğu, Nüsrət onlara gələndə ona soyuq üz göstərdiyi, söhbət etmək əvəzinə, nərd oynamaq yerinə, televizora baxması, ya qəzet oxuması, bütün bunların hamısının səbəbi ona aydın oldu: beynindən ildırım sürəti ilə bir fikir keçdi: «Qısqanır».

Arzu nəhayət, başını qaldırdı, istehza ilə onun gözlərinin düz içinə baxdı, dərindən köksünü ötürərək dedi:

- Belə. Sən demə, qara qızın dərdi varmış. Mıs-mıs deyincə niyə bir dəfəlik Mustafa demirsən, Adil? Mən də fikirləşirəm görəsən bu kişiyə nə olub, belə qanı qaradı. Sən demə, bunda təzə-təzə xəbərlər var. Heç mənim xəbərim yoxmuş. Xəcalət çəkmirsən, mənə – öz ömür-gün yoldaşına belə sözlər deyirsən? Vallah, sənin yerinə bir köynək ət tökdüm indicə. Deyirsən, mən onun adını çox çəkirəm? Nə olar ki, Adil. Bəyəm düşmən-zaddı? Sən bilirsən ki, o mənim atamın dostu idi, anam onun xətrini bir oğul kimi necə istəyir? Məgər sən özün Nüsrəti tanımırsan? Yad adamdır? Sən lap yaxşı bilirsən ki, o bizim ailəvi dostumuzdur.

Adil siqaretinin kötüyünü nəfəslikdən çölə tullayıb onun sözünü kəsdi:

- Xeyr, o, sənin dostundu, mənim yox. Ondan mənə ömründə dost ola bilməz, başa düşdün?

- Olmaz, olmasın, mən nə deyirəm ki? Amma onu bilirəm ki, o, yaxşı insandır, ağıllıdır, həssasdır, dostcanlıdır, adama hörmət etməyi bacarır. Təkcə atamgil yox, şöbədə, bütün institutda da hamı onun xətrini çox istəyir. Nüsrət özünü sevdirməyi bacarır, Adil.

- Mən belə görürəm ki, o özünü hamıdan çox sənə sevdirib, Arzu – deyə Adil kinayə ilə nə vaxtdan bəri ürəyini qurd kimi gəmirən dəhşətli dərdini nəhayət, dilinə gətirdi.

Arzunun işıqlı gözləri öləzidi, nəmləndi və o, rəhimsizcəsinə ürəyinin başına qəfildən saplanmış bu zəhərli bıçağın ağrısına birtəhər dözərək taqətsiz halda dedi:

- Mən ona sadəcə hörmət bəsləyirəm, Adil. Mən onu biz evlənməmişdən də qabaq tanıyıram. Özü bizim bu evə nə qədər gəlib-gedib, sən onun hərəkətlərində, sözlərində indiyədək pis bir şey görübsənmi? Onun mənə pis gözlə baxdığı olubmu bu vaxta qədər? Olubsa de, utanma. Mən həyatda, cəmiyyətdə özümü elə aparmışam ki, tək onun yox, ümumiyyətlə, heç bir kişinin cürəti olmayıb mənə başqa nəzərlə baxsın. Mən indiyəcən elə bilmişəm ki, yer üzündə bir kişi varsa, o da mənim ərimdi. Sən isə, gör nələr düşünürsənmiş? Daha mənim sənə sözüm yoxdu, Adil. – O, ani susub əlavə etdi: - Yenə deyirəm, Nüsrət çox yaxşı insandır, mələk kimi insandır, Adil. Mənim aləmimdə ona pis deyən özü ən pis və paxıl adamdı.

- Deməli, mən ən pis və paxıl adamam, eləmi?

- Əgər belə düşünürsənsə, hə. Açıq deyirəm, hə, Adil, hə.

- Çox sağ ol.

Adil divanda oturan zaman yan qapı açıldı, başına qırmızı lent bağlamış, yanaqları pörtmüş Könül qaça-qaça ata-anasının yanına gəldi. Arzunun dizlərini qucaqlayıb tələsə-tələsə soruşdu:

- Ana, ay ana.

Arzu aradakı gərginliyi unutmağa çalışaraq özünü ələ aldı, onu qucağına götürüb saçına sığal çəkdi, üzündən öpdü.

- Nədi, qızım?

- Sabah Nüsrət əmi bizə gələcək, hə? – Arzu bu söhbətin araya düşməsindən, Adilin təzədən əsəbiləşəcəyindən ehtiyat edərək könülsüz halda cavab verdi:

- Nə bilim, qızım.

Ancaq Könül dil boğaza qoymadı:

- Axı demişdi üç gündən sonra gələcəyəm, sizi maşınla gəzməyə aparacağam?

Arzu Adilin üzünə baxmadan:

- Yadıma gəlmir, haçan demişdi, qızım? – deyə soruşdu.

- Nə tez yadından çıxdı, ana? Burda oturmuşdu ha, papamnan söhbət eləyirdi ha. Çay içə-içə dedi. Mənim yadımdadı. Ata, sənin də yadında qalmayıb?

Adil üzünü yana çevirib dinmədi. Arzu uşağı öpüb yerə qoydu:

- Nüsrət əmin sözündə düz adamdı, qızım. Əgər deyibsə, arxayın ol, gələr.

- Gəlməsə ondan küsəcəyəm, ana.

Arzu qəmli-qəmli gülümsündü:

- Yox, qızım, adam əmisindən küsməz.

- Axı, mən onu çox istəyirəm, ona görə ondan küsə də bilərəm.

Birdən Arzunun ürəyində Adili sancmaq arzusu oyandı, ancaq bu hissi özündən tez uzaqlaşdırıb yerində lal-dinməz oturub tavana baxan ərinə istehzalı bir təbəssümslə baxıb uşaqdan xəbər aldı:

- Onu nəyə görə çox istəyirsən, qızım?

Könül anasının xalatının açıq düymələrini oynadaraq dedi:

- Ona görə ki, ona görə ki, o da məni çox istəyir, mənə nağıl danışır, şəkil çəkir, sonra. Dondurma alır, maşında gəzdirir.

- Elə buna görə?

- Yox, tək buna görə yox. Bilirsən, o bizə gələndə başa düşmürəm, nədənsə çox sevinirəm, ana, lap çox sevinirəm.

Arzu gülümsünüb, xüsusi vurğu ilə dedi:

- Demək, Nüsrət əmi gələndə sənə sevinc gətirir, yəqin sən buna görə onu çox istəyirsən, qızım.

- Hə, ana.

- İndi get, oyna. Bir azdan yatmaq vaxtıdı.

Könül gedəndən sonra Arzu öz-özünə danışırmış kimi, əslində isə Adilə eşitdirmək məqsədilə astadan dedi:

- Amma təəssüf ki, onu bizim evdə görmək istəməyən də varmış.

Adil elə oturduğu yerdə dikəlib gödək boynunun damarları şişə-şişə, səbirsizliklə dedi:

- Bəli, açığını bilmək istəsən, mən onu görmək istəmirəm. Arzu, başa düşdün? Özüm də bilmirəm bu nə sirdi, onu görəndə bütün ürəyim parçalanır, fikrim dolaşır, əsəblərim gərilir. O bizim evə ayaq açan gündən rahatlığım pozulub, yuxum ərşə çıxıb, bilirsənmi? İndiyə qədər özümü zorla saxlamışam, boğmuşam ürəyimin səsini. Ancaq indi qəlbimlə bacarmıram. Mənə elə gəlir ki, o bizim evə bədbəxtlik gətirir.

- Axı nə bədbəxtlik, Adil?

- Heç nə bilmirəm, heç nə bilmirəm, ancaq bədbəxtlik gətirir.

- Axı, o yazıq neyləyib sənə? Həmişə hörmət eləyib. Oturub-durub hər yerdə – atamgildə də, idarədə də səni tərifləyir. İşdə ailədən söz düşəndə deyir ki, Arzu xoşbəxtdir, xoşbəxtdir ki, Adil kimi sadə əri var. Mən də rəfiqələrimin yanında sevinirəm, yerə-göyə sığışmıram. Nüsrət haçan mənim, ya sənin xahişimizi yerə salıb? Nə vaxt lazım olub Simurğ quşu kimi qulluğumuzda hazır olub, ən vacib işlərini bir kənara atıb bizim işimizin dalınca gedib. Hara demişik, ora da aparıb. Bir dəfə üz-gözünü turşutmayıb. Elə bilirsən tək səninçin belədi o? Yox, Adil, o, hamıya, bütün dostlarına belədi, inan. Sənin özünə az yaxşılıq eləyib? Ev alanda, mebel alanda... hansını deyim? Sənə maşın sürməyi o öyrətməyib? O sənə neçə dəfə deyib ki, Adil, indi daha maşın sürə bilirsən, vəsiqən var, nə vaxt lazımın olsa, sənə etibar edə bilərəm. Səndən xoşu gəlir. Sən isə... İnsan gərək nə qədər nankor olsun ki, bu yaxşılıqları görməsin, qiymətləndirməsin.

- Elə onun yaxşılıqları məni dəli eləyib, bilirsənmi? Axı, o, nəyin xatirinə bizə belə xeyirxahlıq edir? Onun bir təmənnası yoxdursa.

- Gör nə qədər qəlbiqara adam imişsən, Adil. Adam bir-birinə yaxşılıq eləyəndə gərək hökmən təmənna gözləməlidir? Səndən onun nə təmənnası ola bilər axı?

- Məndən heç nə, amma…

- Amma məndən ola bilər, hə?

- Sən niyə adicə həqiqəti başa düşmürsən, Arzu?

- Nədir o həqiqət, Adil?

- O adicə həqiqət odur ki, o, sənə vurulub, bildin?

Arzu ona sarı çevrildi:

- Kim? Nüsrət? Nüsrət mənə vurulub?

- Bəli, vurulub!

- Bu təzə xəbərdi? Bəs mən niyə bilmirəm bunu. Sən nədən bilirsən ki, Nüsrət mənə vurulub?

- Bilirəm. Sən özün də bilirsən, ancaq özünü bilməməzliyə qoyursan.

Arzu susdu, mat-mat ərinin üzünə baxıb xeyli fikrə getdi, Nüsrətin onlara gəldiyi günləri, oturuşunu, duruşunu, sözlərini birər-birər xatırlamağa çalışdı, lakin onun hərəkətlərində, hətta baxışlarında belə qeyri-adi, şübhə doğura biləcək heç nə yadına sala bilmədi. Yox idi, olmamışdı elə şey, ola da bilməzdi. Nüsrət qız kimi həyalı, başıaşağı, tərbiyəli idi. O, idarədəki bütün qızlara, gəlinlərə qardaş gözü ilə baxırdı həmişə. Onlarla deyər, gülər, zarafat eləyər, ancaq heç vaxt ədəb-ərkan dairəsindən kənara çıxmazdı və buna görə də qızlar çox vaxt onu "qız qardaşımız" adlandırardılar: ürəyiaçıq, mehriban xasiyyətli Nüsrət isə bundan qətiyyən inciməzdi, şirin-şirin gülüb susardı. Yaşı otuzu çoxdan haqlasa da, hələ evlənməmişdi, tələsmirdi. Ondan xoşu gələn qızlara məhəl qoymur, uzaq gəzib-dolanırdı. Təmiz, səliqəli geyinir, özünə xüsusi fikir verirdi.

Arzu Nüsrətin ona bəslədiyi hissləri, münasibətləri göz qabağına gətirdi və ha fikirləşdisə də, səmimiyyətdən, mehribançılıqdan başqa heç nə görə bilməyib köks ötürərək dedi:

- Yox, Adil, sən səhv eləyirsən, çox böyük səhv eləyirsən. Nüsrət mənə vurulmayıb, belə şey olsaydı, mən bunu hiss eləyərdim, Adil. Neçə ildi onunla bir idarədə işləyirəm. İndiyə qədər ondan güldən ağır bir söz, ikibaşlı bir eyham eşitməmişəm, inan. O mənə bir bacı gözü

ilə baxıb həmişə. Sənin dediyin şey məncə, onun heç ağlına da gəlməyib, gəlməz də. O, sənin dostundur, bilir ki, bizim ailəmiz, uşağımız var.

- Məhəbbət gələndə dosta, ailəyə, uşağa baxmır.

- Onda sən məni yaxşı tanımırsan, Adil. Görünür, sən özün elə adamsan. Məhəbbət gələndə dosta da, uşağa da baxmazsan, elə çıxır sənin sözündən. Amma onu bil ki, mən ləçək deyiləm başdan-başa bağlanam. Mənim bir ürəyim var, onu yeddi il əvvəl sənə vermişəm. Dünyasında elə şey ola bilməz.

Arzunun bu sözləri Adilin ürəyində bir işıq yandırdı. Qırışığı açılan kimi oldu, alnının şişmiş damarlarının sanki köpü alındı, gözlərinə enmiş qəm-kədər pərdəsi uçub dağıldı. O, diksinib, arvadının gözlərinin içinə şax baxmaq istədi, ancaq bacarmadı, elə bil gözəgörünməz bir əl sığal çəkib onun kirpiklərini aşağı endirdi və Adil hiss elədi ki, Arzu ilə göz-gözə gəlməkdən utanır. Anladı ki, bu söhbəti başlamaqda çox böyük qəbahət eləyib. Ancaq artıq gecdi, deyilən söz yayından çıxmış oxa bənzər, onu bir də geri qaytarmaq mümkün deyil. Adil bunu da başa düşürdü ki, deməyə də bilməzdi, çünki dərd ürəyini söküb dağıdırdı, bütün varlığını qurd kimi gəmirirdi. İndi heç olmasa bir az toxdadı.

Adil heç nə demədən durub ağır-ağır yataq otağına keçdi, soyunub yerinə girdi. Gözlərini yumdu, ancaq qəribə idi: elə bil, kimsə göz qapaqlarını kəsib götürmüşdü və qaranlıq otaqdakı hər şeyi apaydın görürdü. Hətta arvadının da – o biri otaqda otursa da – qəmli-qüssəli, azca əvvəl bu xoşagəlməz söhbətdən solğunlaşmış çöhrəsini qaranlıqda aydınca seçirdi. Adil xəcalətli baxışlarını onun məzəmmət dolu nəzərlərindən yayındırmaq üçün üzünü yana çevirdisə də, mümkün olmadı. Arzu ona baxır, baxırdı.

Bayaqdan ürəyini sıxan peşmançılıq hissinin üstünə bir qorxu da əlavə olundu və bu elə dəhşətli bir hiss idi ki, Adilin bədənini lərzəyə gətirdi, onu üşütdü. O, yorğanının altında büzüşüb balacalaşdı.

«Heç ağlına gəlməyən bir şeyi yadına saldım: özüm Arzu ilə onun arasında gizli bir körpü saldım. Çox axmaq iş gördüm. Arzunun ürəyində belə iş yoxmuş, aman allah. Onu təhqir elədim, ürəyinə dəydim. Məni sevir, evcanlıdır, ailəcanlıdır Arzu. İlahi, bu gic-gic fikirlər mənim ürəyimə hardan gəlib axıb doldu, heç baş aça bilmirəm» - deyə düşünən Adilin bədəni birdən-birə isindi. Ayağa qalxıb Arzunun yanına qaçmaq, boynunu qucaqlamaq, yalvarıb «Məni bağışla» - demək istədi, ancaq xasiyyətini yaxşı bildiyindən dayandı, fikrindən daşındı. Arzu çox həssas idi, haqsız sözdən tez inciyən idi, küsəndə isə hələm-hələm barışmazdı.

Adil yerində qovrula-qovrula qaldı, ah çəkib ürəyində dedi: «Yox, bu iblis bizim ailəmizi dağıdacaq deyəsən. Belə olmaz, onunla hər haqqı-salamı kəsəcəyəm, bura gələndə qovacağam. Qoy çəkilib otursun yerində, bizi rahat buraxsın. İstəmirəm onun yaxşılığını da, pisliyini də. Maşını da başına dəysin, xeyirxahlığı da. Onunla əlaqəni tamam-kamal kəsəcəyəm, kəsəcəyəm».

Adil yenə yerində qovruldu. – «Amma yox, tutaq ki, burdan ayağını kəsdim, bəs idarədə? Onlar axşamacan bir yerdədirlər, bir institutdadılar. İstədikləri vaxt bir-birilə danışa bilərlər, bunu ki onlara qadağan eləyə bilmərəm? Eh, kaş Arzu ayrı yerdə işləyəydi, o iblis onu görməyəydi! Amma indi o arxitektordu. Arzu isə çertyoj çəkən. Nə etmək olar, aman allah, ürəyim hövlündən az qalır partlasın».

Adil bu çalpaşıq, düyünlü fikirlər arasında tora düşmüş balıq kimi çabalayır, çırpınır, bəd xəyalları özündən kənar etmək istəyir, ancaq bacarmırdı.

Elə bu günkü hadisə. Əslində heç bir hadisə olmamışdı, sadəcə olaraq, Adilin, özü də deyən kimi, qurdları tərpənmiş, onu yerindən eləmiş, axırda da sex müdiri tərəfindən danlanmışdı.

Mətbəədə çap maşınlarının aramsız çaqqa-çuq səsindən az qala qulaq tutulurdu: sex uğuldayır, bu hay-küyə adət etmiş işçilər bir-

birilə ucadan danışırdılar. Hündür tavana cərgə ilə bərkidilmiş neon lampalarının işığı içərini gündüzə döndərmişdi.

Adil çap maşınının yanında qalaqlanmış kağız topasının yanında dayanmışdı, yoxlanmış, düzəldilmiş vərəqləri səliqə ilə dəzgahın «ağzına» ötürürdü. Başını qaldıranda qonşu dəzgahın ustası Tanrıverdini göy rəngli xalat geymiş Leyla ilə danışan gördü və birdən yadına düşdü ki, Arzu bu gün işə gedəndə təzə tikdirdiyi krimplen paltarını geyinmişdi, onun da rəngi beləcə göy idi, sonra xatırladı ki, anasının çoxdan hədiyyə gətirdiyi, indiyədək açıb istifadə eləmədiyi fransız ətrini çıxarıb ağ buxağına, birçəklərinə, qulaqlarının dibinə, barmağının ucuna çəkmişdi. Ətrin bihuşedici qoxusu indi, burda Adilin burnunu qıcıqlandırırdı və düşündü ki, axı nə münasibətlə Arzu bu gün bəzənib-düzənib, ətirlənərək işə getdi?

Sonra öz-özünə cavab verdi: «Yox, burda nə isə var. Bəlkə onunla.» - ürəyinə gələn müdhiş fikirdən bədəni titrədi, tez əl atıb dəzgahı saxladı. Oğurluq etməyə hazırlaşan adamlar kimi, o yan- bu yana boylandı. Heç kəsin baxmadığını görüb dəzgahdan nə isə çıxarıb cibinə qoydu.

Göy xalatlı qızla söhbət eləyən Tanrıverdi dəzgahın dayandığını görüb ucadan soruşdu:

- Yenə nə oldu, ay Adil?

- Zəhrimar deyəsən yenə xarab oldu.

- Nəyidi?

Adil ona cavab vermədən dəhlizə çıxdı, mətbəə müdirinin katibəsi oturan otağa sarı addımladı. Saçlarını boynunun dalında topalayıb sancaqlamış katibədən icazə alıb barmaqları titrəyə-titrəyə əzbər bildiyi nömrəni yığdı. Telefon Nüsrətin stolunun üstündə idi, kim zəng eləsəydi, o götürürdü – bunu Adil çox yaxşı bilirdi. Nüsrətin idarədə olub-olmadığını beləcə yoxlayırdı: bəzən gündə iki-üç dəfə zəng çalırdı ancaq səsini çıxarmırdı. Nüsrətin səsini eşidən kimi, dəstəyi asıb rahat nəfəs alırdı. “Demək, burdadırlar, heç yerə getməyiblər”.

İndi Nüsrət cavab vermədi: Adilin dalağı sancdı. Bir də zəng çaldı, bir qız cavab verdi. Adilin rəngi ağardı. Üçüncü dəfə nömrəni yığdı:

- Bəli, kimi istəyirsiniz? – deyə bayaqkı qız xəbər alanda Adil nə deyəcəyini aydınlaşdırmadan tələsik dilləndi:

- Arzunu, zəhmət olmasa.

- Arzu otaqda yoxdur, harasa çıxıb.

Adil dəstəyi asdı. Elə bil otaq başına fırlandı, gözü qaraldı.

"Deməк, ikisi də yoxdur şöbədə. Gediblər. Arzu nahaq bəzənib-düzənmirmiş,ətirlənmirmiş". Adil özünü nə vaxt dəli kimi küçəyə atdığını bilmədi, tində, qəzet köşkünün yanında əl qaldırıb bir taksi saxladı.

Təngnəfəs ünvanı söyləyib sürücüdən xahiş etdi:

- Tələsirəm, sən allah, əgər mümkünsə, bir az tez sür.

Sürücü heç nə demədi, sürəti də artırmadı. Sanki onun dediklərini heç eşitməmişdi. Adilə elə gəldi ki, maşın çox ağır gedir, özü piyada getsəydi, bundan tez çatardı. İndi onun üçün hər an qiymətli idi. "Bəlkə elə indicə düşüblər aşağı. Bəlkə maşına minəndə tutdum? Yolda rast gəlsəm, taksini düz dallarıyca sürdürəcəyəm, hara getsələr, gedəcəyəm, - Adil ürəyində danışırdı, mil-mil pencəyinin cibindəki əli yumruqlanmışdı. Gözü, baxışı yollara zillənmişdi: ötən bir maşını da nəzərdən qaçırmamağa çalışırdı.

Fikrində hava rəngli bir "Jiquli" uçurdu. Nüsrət sükan arxasında oturmuşdu. Arzu arxada. Nüsrət başının üstündəki güzgüdən Arzuya baxırdı. Arzu da gözlərini aynadan çəkmirdi. Fransız ətrinin xoş iyi maşının içini doldurmuşdu. Nüsrət məst idi. Onlar nəsə danışırdılar, ancaq heyf ki, bu sözləri Adil eşidə bilmirdi, eşidə bilmirdi.

Bəli, Adilin fikrində bu dəqiqə hava rəngli bir "Jiquli" quş kimi qanad açıb uçurdu. Adilin Arzusunu harasa aparırdı.

Adil maşından düşüb iti addımlarla dəmir darvazadan institutun həyətinə girdi, cərgə ilə düzülmüş maşınların arasında hava rəngli maşını dörd gözlə axtardı və gözlərinə inanmadı:

Hava rəngli “Jiquli” özünün həmişəki yerində – küknar ağacının altında dayanmışdı. Adil dərindən köks ötürüb toxtadı, sevindi. Eli bil, üstündən dağ götürüldü: tərləmişdi, alnının tərini əlinin arxası ilə sildi. “Burdaymışlar”. Sonra maşına qəribə bir tərzdə diqqət yetirdi: sanki bu baxışla öyrənmək istəyirdi ki, getmişdilərmi? Kaş maşının dili olaydı, danışa biləydi, ondan soruşardı. Adil soruşardı ki, Arzunu bir yerə aparmışdınmı, o yer haradır? Soruşardı, çox şey soruşardı. Ancaq təəssüf ki, maşının dili yox idi, yaddaşı yox idi. Qəribə idi ki, bu zəhərli fikirlər onun ürəyinə dolandan bəri maşın da sanki düşmənləşmişdi, əfiləşmişdi. Adil ona da nifrət eləyirdi. Bəzən elə olurdu ki, hava rəngli maşın görəndə gözü ağrıyırdı Adilin...

Adil ağır, yorğun addımlarla küçəyə çıxdı. Yeriyirdi, amma gözü elə maşınlarda idi. Telefon köşkünün yanından keçəndə yenə özünü saxlaya bilmədi, zəng çaldı: dəstəyi Nüsrət götürdü.

- Alo. Bəli.

- A yoldaş, səsini niyə çıxarmırsan. Səsim xoşuna gəlmir?

Adil dillənmədən dəstəyi asdı və ürəyində Nüsrətə cavab verdi?

- “Səsindən də zəhləm gedir, özündən də”.

O biri otaqda Arzu ilə Könülün səsi gəlirdi, deyəsən, anası uşağı yerinə salıb yatırdırdı. Nəhayət, işıq söndü. Arzu yataq otağına keçdi, gecə lampasını yandırmamış eləcə, yerinə uzandı. Sinə dolusu ah çəkdi. Adil ona sarı çevrilib yavaş, qorxaq səslə:

- Arzu, - deyə dilləndi.

- Arzu.

-

Arzu yenə dillənmədi, üzünü yana çevirdi və Adil hər cür ciddicəhdin mənasız olduğunu anlayıb daha heç nə demədi. Anlar, dəqiqələr

keçir, gecə əriyib gedir, nə Arzunun, nə də Adilin gözünə yuxu gəlirdi. Gəlinin ürəyi, heysiyyəti yaralanmışdı, qüruru yaralanmışdı.

"Deməmk, belə. Demək Adil məni Nüsrətə qısqanır. İnanmazdım, heç yuxuma da girməzdi".

Axşamkı gərginlik aradan getməmişdi. Səhər çay-çörəyini yeyəndə Adil arvadının könlünü almaq, o tərəf-bu tərəfinə keçmək istəmişdisə də, Arzu üzünü bozartmış, ərinin zarafatlarına cavab verməmiş, sorğularına dilucu "hə", "yox" – söyləməklə kifayətlənmişdi. Yemək dəstgahı həmişəkindən fərqli olaraq, səssiz-küysüz keçmiş, Könüldən başqa deyib-danışan olmamışdı. Uşaq atasının ürəyindən keçənlərdən xəbərsiz olduğuna görə və elə bil, onun acığına tezdən geyinib-kecinmiş, Nüsrətin yolunu gözləməyə başlamışdı. Axı, o, bu günə söz vermişdi, gəlməli idi. Onları gəzməyə aparmalı idi. Çünki istirahət günü idi, maşınla şəhərdən kənara çıxmaq,gəzmək, yaxşı dincəlmək olardı. Keçən dəfə Nüsrət gələndə ailəlikcə belə qərara almışdılar. Könül neçə gündü bu günü səbirsizliklə gözləyirdi.

Amma qəribə idi. İndi, bax bu saat nə Adil, nə də Arzu onun gəlməsini arzulamırdı. Adil düşünürdü ki, nə olaydı, maşın sınaydı, bir yeri xarab olaydı, gəlib çıxmayaydı. Nədənsə ona elə gəlirdi ki, Arzu Nüsrətin gəlməsini uşaqdan heç də az arzulamır: ona bax, pal-paltarı zivədən asmaq bəhanəsi ilə gör necə də tez-tez eyvana çıxır, gözucu həyətə baxır? Əlbəttə, əslində bu, belə deyildi. Həqiqətdə Arzu istəyirdi ki, Nüsrət gəlib çıxmasın, qonağı olsun, vacib işi olsun, gəlməsin. Çoxlarından eşitmişdi, kitablarda oxumuşdu ki, qısqanclıq çox xətərli bir mərəzdi, bir adamı tutdumu, onun ürəyindən çətin çıxır; arada olan səmimiyyətin, məhəbbətin üstünə qatı, qalın bir kölgə salır, etibarsızlıq, inamsızlıq yaradır, saçların vaxtsız ağarmasına səbəb olur. Bilirdi ki, dağılan ailələrin, pozulan nigahların bir çoxunun səbəbi elə qısqanclıqdır. Arzu bu söhbəti – Adilin axşam çılğınlıqla açıb söylədiyi dərdini eşidəndən sonra fikrən, xəyalən keçmişə qayıdır, onun axır vaxtlar çək-

diyi əzabları, keçirdiyi həyəcanları nəzərində canlandırır, gah qəzəblənir, gah da ona yazığı gəlirdi.

Arzuya bircə şey aydın idi ki, Adil səhv eləyir, qısqanmaq üçün heç bir əsas yoxdur, ola da bilməz. Təccüb eləyirdi ki, bu axmaq fikir onun beyninə haradan gəlmişdir?

İndi, axşamkı söhbətdən sonra Arzunun gəzməyə getmək, özü də Nüsrətin maşınında şəhərdən kənara çıxmaq həvəsi büsbütün sönmüşdü. Nə olaydı, o gəlməyəydi. Könül atası ilə dəniz qırağına gedərdi, Arzu isə evdə qalar, iş-gücünü görər, sonra çarpayısında uzanıb düşünər, düşünərdi. Ancaq nə edəsən ki, qızcığaz ata-anasının ürəyindən xəbərsizdi, onu bu dəqiqə hər şeydən çox Nüsrət əmisinin niyə belə gecikdiyi maraqlandırırdı, tez-tez eyvana çıxır, aşağı boylanır, sonra məyus halda qayıdıb içəri girir, “gəlmədi” – deyə pıçıldayırdı.

Adil divanda oturmuşdu, bikef idi, ürəyində götür-qoy eləyirdi ki, indi o gəlsə necə rəftar eləsin, getsinmi, getməsinmi? Nəyi bəhanə eləsin?

Adil qəti bir qərara gəlməmiş qapının zəngi çalındı. Musiqili zəng səsi, qəribə idi ki, Arzunun da, Adilin də ürəyini titrətdi. Adil buna təəccüb eləmədi, amma Arzu heyrətləndi, qorxdu. Elə bil Nüsrətin gəlməsi ilə nəsə dəhşətli bir şey olacaqdı, yaxud o, dünən ər-arvad arasında, bu dörd divar içində olmuş söz-söhbəti başa düşəcək və Arzu onun yanında utanacaqdı. “Mənə nə oldu belə uçunuram? - deyə gəlin özünü ələ almağa çalışdı. – Guya Nüsrət birinci dəfədir bizə gəlir?”

Arzu bu sualına cavab tapmamış, bayaqdan gözü yolda qalan Könül sevinə-sevinə qaçıb qapını açdı və elə oradaca qollarını geniş açaraq onun qucağına hoppandı:

- Urra, Nüsrət əmi gəldi-gəldi – deyə hər dəfə gələndə elədiyi kimi, ucadan qışqırdı. Nüsrət adəti üzrə əyilib qızı sinəsinə sıxaraq üzündən öpdü, gətirdiyi gül dəstəsini verib dikəldi. Könül onu dəhlizdə sorğu-suala tutdu.

- Bə nə gec gəldin, Nüsrət əmi?

- Gecdi? Saat birə demişdim, düz birdə də gəlmişəm, şeytan – deyə onu əzizlədi. Könül Nüsrətdən ayrılıb böyük otağın qapısı ağzında çaşqın halda dayanmış anasına tərəf qaçaraq gül dəstəsini ona verdi:

- Ana, bax, gör Nüsrət əmi mənə nə yaxşı güllər gətirib? Urra, Nüsrət əmi mənə gül gətirib, urra.

Könülün sevinci yerə-göyə sığmırdı, elə bil uşağa dünyanı bağışlamışdılar, bayaqdan intizardan solmuş yanaqları qızarmışdı, xırda, anasının gözləri kimi qonur gözləri şadlığından işıqlanmışdı.

Nəhayət, Arzu danışmağa söz tapmış adam kimi sevindi və gülləri Könüldən alaraq:

- Bəs əmiyə heç "sağ ol!" demədin, qızım? – dedi.

- Sağ ol, Nüsrət əmi, - deyə Könül dönüb mehribanlıqla ona baxdı.

Nüsrət içəri keçdi, ayaq üstə, əlində gül dəstəsi dayanmış Arzuya, divanda taqətsiz oturmuş Adilə salam verdi. Arzu ərinin ağır dindiyini görüb dedi: - Salam, xoş gəlmisiniz, necəsiniz?

- Sağ olun, yaxşıyam. Sizdə nə var, nə yox?

- Hələ ki, salamatlıqdır.

Arzu dönüb Adilə baxdı, Adil onun baxışlarının mənasını anladı, nəzakət xatirinə yerindəcə azca əyilib tərpənib başı ilə qonağa "xoş gəldin" elədi. Arzu onu stola dəvət etdi:

- Keçin, əyləşin.

O, həmişə Nüsrətə evinin adamı kimi "sən" deyərdi, indi ona özü də bilmədən "siz" deyə müraciət elədi və bu, Arzuya çox yad, qondarma göründü, buna görə də özü-özündən çimçəşən kimi oldu.

Nüsrət irəli yeridi, Adilə baxdı, qanının qara olduğu nəzərindən qaçmadı, ona görə soruşdu:

- Nə olub, qardaş, gözümə bir təhər dəyirsən? Olmaya xəstələnmisən?

Nüsrət ona əl verdi. Adil yavaş səslə dedi:

- Başım ağrıyır.

- Başın ağrıyır? Dərman-filan içmisən?

- Yox.

- İstəyirsən, dur geyin, səni həkimə aparım. Səndən yaxşı olmasın, bir həkim dostum var, üzdən iraq, yanına ölü aparasan, dirildər – deyə Nüsrət canyananlıqla söylədi. Adil buna əhəmiyyət vermədi, mızıltı ilə dilləndi:

- Lazım deyil.

Nüsrət kreslonu çəkib stolun küncündə oturdu. Arzu gülləri güldana qoyub gətirdi, vazı stolun üstünə qoymamış gülləri burnuna yaxınlaşdırıb bihuşedici ətrini ciyərlərinə çəkərək gülümsündü:

- Nə yaxşı güllərdi. İlin bu vaxtında belə qəşəng qızılgülləri hardan tapmısınız. Əziyyət çəkmisiniz.

- Bazara getmişdim, gördüm satırlar, xoşuma gəldi. Könül üçün aldım.

Adil yerində qurcuxa-qurcuxa ürəyindən keçirdi: "Gözünün içinə qədər yalan deyirsən; onları Arzu üçün gətirmisən. Bilirsən ki, o, gül sevəndir".

Arzu geri çəkilib kənardan ağlı, qırmızılı, sarılı güllərə tamaşa eləyirdi. Güllər doğrudan qəşəng idi, elə gözəl idi ki, adam istəyirdi iki göz də alıb tamaşasına dursun. Onlar təkcə evin görkəmini yox, sanki ab-havasını da dəyişmişdi, Arzunun əhval-ruhiyyəsini də dəyişdirmişdi. O, gül sevən idi doğrudan da. Gül görəndə özü də gültək açılır, uşaq kimi sevinir, nə qədər qəmli olsaydı belə, üzünə bir təbəssüm qonurdu, içərisi, ürəyi ətirlənirdi, saflaşırdı elə bil. Amma heyif ki, gözəlliyi, ömrü tez solub gedirdi: təbiətin ən gözəl çiçəyi olan Arzunun güldanı ilin çox vaxtı gülsüz qalırdı: Adil ona ildə iki dəfə gül alırdı; bir 8 martda, qadınlar bayramında – onda qərənfil gətirərdi, çünki bayramda qızılgül baha olurdu, bir də mayda - onun anadan olduğu gün – onda qızılgül alırdı, çünki gülün bol vaxtı idi may ayı.

Arzu mətbəxə keçdi, armudu stəkanda pürrəngi çay gətirdi. Nüsrətin armudu stəkanda çay içməyi xoşladığını bilirdi, şöbədə də həmişə o, armudu stəkanda çay içərdi. Anasının Moskvadan aldığı konfetlərdən, yayda bağda bişirdiyi üzüm, əncir mürəbbəsindən stolun üstünə düzdü, hər ikisinə aid olsun deyə üzünü ortalığa tutub söylədi:

- Yaxın oturun, çayınızı için. Təzə dəmləmişəm. Sonra özü də stul çəkib bir qıraqda əyləşdi. Nüsrət buğlanan çaya baxıb ev sahibi kimi üzünü Adilə tutdu.

- Gəl, Adil, bu çaydan iç, başının ağrısını aparar. Adil boynunu döndərib çaya baxdı, ah çəkib, divandan durdu, gəlib mizin arxasında oturdu. Arzu hiss edirdi ki, söz-söhbət həmişəki kimi tutmur: arada cansıxıcı bir sükut hökm sürürdü. Qəribə idi ki, özü də danışmağa söz tapmırdı. Birdən yadına düşdü ki, axşam çəkdiyi layihəni Nüsrətə göstərsin, necə çıxdığını, onun xoşuna gəlib-gəlmədiyini öyrənsin. Ancaq Adilin artıq – əskik danışacağından ehtiyat eləyib fikrindən daşındı. Ürəyindən keçirdi ki, gərək Adil onu müsabiqədə mükafat aldığına görə təbrik edəydi, amma o, ağzına su alıb susmuşdu.

Bəli, otaqda ölü bir sükut vardı. İri divar saatının yeknəsəq çıqqıltısından başqa səs-səmir eşidilmirdi. Könül də yox idi ki, sualları, dil-dil ötməsi ilə aradakı sükutu pozaydı. Hər kəs ürəyində danışırdı. Arzu əvvəlcədən özünə söz vermişdi ki, Nüsrətə baxmayacaq, sonra Adil bunu da bir söz eləyər. Amma indi qeyri-iradi olaraq bu vədini unutdu, işıqlı, bir az kədərli gözlərini oğrunca dolandırıb Nüsrətə ötəri baxdı: o, həmişəkitək şən idi, dəniz suyu kimi mavi gözləri təbəssüm saçırdı, üzünü səliqə ilə qırxmışdı, ondan xoş bir ətir iyi gəlirdi, ipək kimi yumşaq, azca sarıya çalan qaşlarını səliqə ilə yana daramışdı. Gözləri… İlahi, gözləri necə də qəşəng imiş, nurlu imiş, dərin imiş. Neçə ildi Arzu onunla bir yerdə işləyirdi, amma onun gözlərinin belə şairanə olduğunu görməmişdi, hiss eləməmişdi.

Arzu bir anlığa özü də bilmədən fikrində əri ilə Nüsrəti müqayisə elədi, ürəyinin gözü ilə hər ikisinə uzaqdan, kənar adam nəzəri ilə

baxdı. Bu, o ana qədər davam etdi ki, tərəzinin Nüsrət qoyulan gözü necə deyərlər, ağırlaşmağa başladı. Adili yuxarı qaldırdı. Arzu bu hissdən üşüdü və ani olaraq bədbəxtləşdi. Amma tez də özünü ələ alaraq ürəyinə yol tapmış bu duyğunu qovlamağa çalışırmış kimi, gözlərini yumub başını silkələdi və bununla da sanki hər şey əvvəlki yerini tutdu. Arzu buna sevindi.

Nüsrət stəkanı yerə qoyub ər-arvadın üzünə diqqətlə baxdı, onların ikisini də çaşqın, fikirli görüb narahat oldu.

- Sizə nə olub bu gün? Gözümə birtəhər dəyirsiniz? Bəlkə bir hadisə-zad olub, hə?

Arzu bu sözlərdən səksənən kimi oldu, tələsik:

- Yox, yox, heç nə olmayıb. – dedi. – Adilin başının ağrımağı.

- O keçib gedəcək, bacım. Onun dərmanı təmiz havadır.

Nüsrət sözünü deyib qurtarmamışdı ki, Könül papağını geyib hazır vəziyyətdə gəlib onun dizlərinin yanında dayandı.

- Mən hazır, Nüsrət əmi. Nüsrət Könülün totuq əlini sığallaya-sığallaya söylədi:

- Afərin. Mən də yaxşı ət almışam, indi gedəcəyik bağa, səninçün əla kabab bişirəcəyəm. Atanın da başağrısı keçib gedəcək, oldu?

- Oldu, - deyə qız gümrahlıqla cavab verdi.

- Hə, hazırlaşın, - deyə Nüsrət ayağa qalxdı. – Könülnən mən hazırıq.

Arzu çıxılmaz vəziyyətdə qalmışdı. Adilin nə deyəcəyini gözləyirdi, o isə susurdu. Gəlin ərinə gözucu baxdı. Nəzərləri sataşdı: Adilin gözlərində dərin bir kədər vardı. Nəhayət, o, ağır-ağır dilləndi:

- Mən getmək istəmirəm. Siz istəyirsinizsə gedin.

- Sənsiz nə ləzzəti, ay Adil? – deyə Nüsrət qətiyyətlə dilləndi.

- Sən getməsən, biz də getmirik, - dedi Arzu.

Adil Nüsrətə və arvadına baxmadan düşündü: “Gör necə artistlik eləyirlər?”

Könül atasının yanına qaçdı:

- Gedək, ata, dur gedək. Başın ağrıyır? Gətir başından maç eləyim, yaxşı olsun.

O, dartınıb atasının alnından öpdü:

- Hə, yaxşı oldu?

Adil çarəsiz qalıb qımışdı, hiss eləyirdi ki, uşaq bayaqdan yamanca qanadlanıb, getmək üçün uçur. Boyun qaçırsa olmayacaq. Ondan sonra axşamacan ağlayıb sıtqayacaq, günlərini göy əsgiyə düyəcək. Həm də fikirləşdi ki, özünü saxlaya bilməyib dünən başladığı o söhbəti getməməklə bir az da dərinləşdirə bilər: indi o, çalışmalıdır ki, Arzunun könlünü alsın, barışsın, hətta yeri düşəndə desin ki, mən səninlə zarafat eləyirdim, sınayırdım səni. Adil belə düşünüb ayağa qalxdı, üzünü arvadına tutub:

- Geyin gedək, hava doğrudan da bağ havasıdır, kabab havasıdır – dedi.

Arzu əvvəlcə qulaqlarına inanmadı, sonra üzündən, gözündən kədər tökülən, daxili bir sarsıntıdan sınmış kimi görünən Adilin geydiyini görəndə ürəyində nədənsə tutqun bir sevinc duydu.

Adil qabaqda Nüsrətin yanında oturmuşdu. Arzu ilə Könül arxada. Şəhərdən çıxana qədər heç biri danışmadı. Buzovna – Mərdəkan yoluna çıxandan sonra Nüsrət maşınının sürətini artırdı, geniş, hamar yolda "Jiquli" qol-qanad açıb uçmağa başladı. Bu, hamıdan çox Könülə ləzzət verirdi, maşınları bir-bir ötüb keçdikcə qız fərəhlənir, dalda qalan avtomobilləri sayır, anasına nəsə deyir, atasının çiyni üstündən boylanıb tez-tez sürətölçənə baxırdı.

Nüsrətin maşın sürməyindən Arzunun xoşu gəlirdi: cəld idi, çevik idi, özünə arxayın idi, maşın onun əlində yüyənli ata oxşayırdı. Bununla belə Arzu bu maşına minəndə həmişə gizli bir qorxu da keçirirdi, lakin heç nə demirdi. İndi isə Arzu həyəcanlanmışdı, sürət bir az da artanda gəlin daxili bir nigarançılıq hissi ilə Nüsrətə söylədi:

- Yavaş sür, ay Nüsrət, sən allah. Hara tələsirik - Nüsrət ayağını qazdan çəkdi, maşın yavaşıdı.

- Hə, düz deyirsən, ocaqda yağımız daşmır ki. Son vaxtlar yaman maşın qəzaları olur.

- Nə qədər yavaş sürsən, o qədər salamatlıq olar.

- Adət eləməmişəm, yavaş süréndə darıxıram.

Bu söhbət Adili pərt elədi, o, dillənmədisə də qanrılıb geri – Arzuya baxdı: gəlin susdu.

Hər şeyi unutmağa çalışırdı, ürəyindəki qara fikirləri özündən uzaqlaşdırmaq istəyirdi, ancaq Arzunun belə deməsi Adili təzədən yerindən elədi. Yadına dünənki əhvalat – arvadının geyinib kecinərək işə getməsi, özünün dəli kimi gedib maşını yoxlaması düşdü, dilxor oldu. “Gör nə canıyananlıq eləyir?” – deyə beynində dolandırdı. Qeyri-iradi olaraq ah çəkdi.

Nüsrət sağ əlini atıb maqnitofonu işə saldı. Müğənni məlahətli səslə oxuyurdu.

- Elə bu dəm Nüsrət maşını yolun kənarına verib saxladı, üzünü Adilə tutdu:

- Gəl, sür, Adil. Sən məndən ehtiyatlı və yavaş sürürsən, - deyib onun cavabını gözləmədən qapını açıb çıxdı. Adil ani tərəddüdən sonra keçib sükan arxasında oturdu. Maşın sürməyi ona Nüsrət öyrətmişdi. İnsafən pis sürmürdü, o, ehtiyatlı idi. O, maşın sürəndə uşaqtək sevinir, hər şeyi unudurdu. Son vaxtlar lap həvəslənmişdi, maşın almaq qərarına gəlmişdi. Hər ay maaşından bir qədər ayırıb kənara qoyurdu.

Maşın yerindən tərpəndi, Adilin kefi duruldu. Fikri uzaqlara uçdu, ona elə gəldi ki, özü də maşın alıb, içində Arzu oturub, Könül oturub. Nüsrət yoxdu yanlarında. Harasa gedirlər. Yolda saxlayıb kabab yeyirlər, yenə gedirlər. Bu vaxt Nüsrət daldan gəlir. Nə qədər qovur, onlara çatmır: çata da bilməz, buna Adil imkan verməz, çünki Nüsrət Arzunu görmək üçün can atır yəqin.

- Maşallah, daha ustalaşıbsan, Adil – deyə Nüsrət dillənəndə o, xəyaldan ayrıldı, gülümsündü.

- Yavaş-yavaş öyrənirəm, - dedi.

- Hər şey vərdişdən asılıdır. Mən beş gün maşın sürməyəndə yadırğayıram.

- İndi qızlar da maşın sürürlər.

- Mən heç görməmişəm.

- Bir dəfə göstərərəm.

Maşın qırmızı darvazanın qabağında dayandı.

Bağda payızın soyuq əli gəzmişdi. Ağaclar, meynələr yarpağını töküb çılpaqlaşmışdı. Həzin, qərib bir sakitlik vardı bağda. Həyət-baca elə bil insan üçün darıxmışdı.

Nüsrətin bağı Buzovna qayalarının yanında idi. Yüksəklikdə tikilmiş iki çeşməli evin eyvanından dəniz əl içi kimi aydın görünürdü. Hava sakit olduğundan dəniz də dalğasızdı. Buraya gələndə Arzu eyvanda sütuna söykənərək qayaların dibində quzu kimi xumarlanan, bəzən isə coşub şahə qalxan dənizə baxıb xəyala dalmağı xoşlayırdı. Onda Arzunun əsəbləri dincələr, yorğunluğu çıxardı canından. Dəniz bu bağın yaraşığı idi, gözəlliyi idi.

Nüsrət qapını açıb içəridə tələsik səliqə-sahman yaratdıqdan sonra onları evə dəvət etdi. Elektrik peçini yandırıb çay qoydu, televizoru yandırdı.

- Hə, siz oturun, dincəlin, mən kabab məsələsinə baxım, - deyə Nüsrət əti ortalığa gətirdi, doğrayıb duzladı. Az sonra manqal eyvanda çatıltı-patıltı ilə yanırdı. Adil əti şişlərə çəkmişdi, Arzu çayı dəmləmişdi, stəkan-nəlbəkini suya çəkib stolun üstünə düzmüşdü. Könül multfilmə baxır, gülürdü.

Nəhayət, kabab hazır oldu, hamısı gəlib süfrə başında əyləşdi.

- Hə, başlayın, Adil, gərək bu kababdan sonra sənin başının ağrısı keçib getsin, elə deyil, şeytan? – deyə Nüsrət Könülə müraciət etdi.

- Ta ağrımır ki, atanın başı?

- Könül kababı mırtıq dişinə çəkə-çəkə dilləndi:

- Ağrıyır, ata?

- Yox, qızım, keçdi getdi.

- Hə, bax, belə – Nüsrət birdən yadına nə düşdüsə, yerindən qalxdı. – Gör ey, şərab tamam yadımdan çıxıb. Deyirəm axı, süfrəmizdə nəsə çatışmır.

- Kimdi içən? – deyə Adil ətli dodağını büzdü. Ancaq Nüsrət cavab verməyərək mətbəxdən şərab balonunu gətirib stolun üstünə qoydu.

- Ağ şanı şərabıdı bu. Özüm çəkmişəm. Kababla ləzzət eləyər.

Adil dedi:

- Maşınla içki tutmur, Nüsrət.

- Hə, düz deyirsən, - deyə o, ah çəkdi. - Zəhrimar bu maşın adamı toyda-qonaqlıqda içməkdən yaman qoyur. Mən içmirəm, sən iç heç olmasa.

- Yox, mən içmirəm.

- Yaxşı, onda mən içim, sən sürərsən, hə?

Adil gülümsünüb çiyinlərini çəkdi. Bayaqdan kəlmə belə kəsməyən Arzu astadan dedi :

- Heç sənin də içməyin məsləhət deyil, Nüsrət.

- Hə? Məsləhət deyilsə, içmərəm. Madam ki, bacım deyir içmə, içmərəm.

Nüsrət balonu kənara sürüşdürdü. Adil arvadına tərs-tərs baxdı, ancaq yenə heç nə demədi. Arzu onun nəzərlərini tutdu, amma özünü o yerə qoymadı. Nədənsə Nüsrətin onun sözü ilə içkidən imtina eləməsi yaman xoşuna gəldi Arzunun. Adil isə ürəyini yeyə-yeyə düşünürdü: «Mən dedim içki lazım deyil, sözümə baxmadı, getdi, gətirdi. Hətta təkcə içmək istəyirdi. O deyən kimi içmə, içmədi. Yox, mən bircə öləcəyim günü bilmirəm. Bunların arasında nə isə var. Ona bax, görürsən tikələrin yaxşılarını seçib onun qabağına qoyur. «Bacı» sözü də gözdən pərdə asmaq üçündür. Biz çörəyi qulağımıza yemirik».

Bundan sonra Adil elə hey gözaltı onların hərəkətlərinə fikir verir, eyhamlı, mənalı bir şey axtarır, di gəl ki, tapa bilmirdi. Nüsrət həmişəki Nüsrətdi: hərəkətləri, danışığı əvvəllər necə idisə, indi də elə idi. Çünki qəlbində başqa niyyəti yox idi, üzdə bir cür, ürəkdə başqa cür düşünmürdü. Ər-arvadın pərtliyini hiss eləyirdi, görürdü ki, onlar həmişəki adam deyillər, ancaq soruşmurdu, daxili işlərinə qarışmaq istəmirdi: bəlkə elə şeydi ki, ona heç deyilməli deyildi. Özünü bu ailəyə nə qədər yaxın bilsə də belə hallarda o, susmağı, hər şeyi açıb ağartmamağı daha üstün tuturdu.

Arzu qabaqlar bu bağa gələndə yaxşıca istirahət eləyərdi, gümrahlaşardı, yüngülləşərdi, on səkkiz yaşında olan qız kimi xoşbəxtləşərdi. Çəkinmədən, sıxılmadan bir yerdə dənizdə çimərdilər, qayaların kölgəsində, kəhrəba qumların üstündə uzanıb dincələrdilər, deyərdilər, gülərdilər. Səmimiyyət, mehribanlıq vardı arada. Onda Adil Nüsrəti evin öz adamı, məhrəmi hesab eləyirdi. İndi Arzu həyətdə gəzə-gəzə düşünürdü ki, o, ərinin bu söz-söhbətindən sonra daha Nüsrətlə bir yerdə dənizdə çimə bilməz. Neçə saat idi bağda idilər, bütün bu vaxt ərzində Adil bircə an da olsa onları tək buraxmamışdı, iki kəlmə kəsməyə belə imkan verməmişdi. Əslində onların buna heç ehtiyacları da yox idi. Arzu sadəcə olaraq, ərini müşahidə eləyirdi, onun inamsızlığına, cılızlığına gah qəzəblənir, gah da gülürdü. Fikirləşirdi ki, qısqanclıq adamı necə də gülünc vəziyyətə qoyur, xırdalaşdırırmış. O, dünənə qədər ərini ləyaqətli, hər cür kiçik hisslərdən uzaq, təmiz qəlbli bir adam kimi tanımışdı. Qabağına Adil kimi insanın çıxdığına taleyindən razı qalmışdı. Ancaq indi… O, ərində bu vaxta qədər görmədiyi yeni bir keyfiyyət görür və çox narahat olurdu. Qarşılıqlı inam, etibar olmayan ailə gec-tez dağılır, məhv olur – düşünürdü Arzu. – Qısqanclıq nə zaman qılıncını siyirib ortalığa düşür? O zaman ki, kişi arvadını qısqandığı adamı özündən yüksək, ləayaqətli, istedadlı hesab edir. Bax, bu zaman qısqanclıq doğulur və o ürəyi tar-mar eləyir. Təbiəti həssas olan Arzu başa düşürdü ki, Adilin bu gün burada yediyi-

içdiyi haram idi. Bu, onun üçün istirahət deyildi, işgəncə idi. Tək bu günmü? Gör neçə ay idi Adil belə narahatdı. Gecələr yata bilmirdi, iştahayla yeyə bilmirdi, ah-ufundan bezmişdi Arzu. Dərdini demirdi də. Dünən və bu gün Arzu ərinin dərdini yaxşıca başa düşmüşdü.

Hadisə elə həmin günün axşamı törədi, gözlənilmədən, birdən birə.. Bəd hadisə Nüsrət üçün gəlmişdi, Adilin əli ilə gəlmişdi. Adilin özü üçün isə bu, bəlkə də xoşbəxtlik oldu, rahatlıq oldu, şirin yuxu oldu. Düzdü, sonralar o bir az vicdan əzabı da çəkdi, ancaq vicdan əzabı çəkmək qısqanclıq əzabı çəkməkdən yüngül imiş, sən demə.

Maşını Adil sürürdü, Nüsrət yanında əyləşmişdi. Könül bütün günü açıq havada olduğundan və yorulduğundan arxa oturacaqda başını anasının dizi üstünə qoyub yatmışdı. Xəyallar, düşüncələr Arzunun da beynini dumanlandırmışdı, o da mürgüləyirdi. Maqnitofonda Ədalət "Yanıq Kərəm"i çalırdı.

Axşam idi. Qəsəbənin içindən keçən dar, nahamar bağ yolunda sakitlik idi, gəl-get azdı. Küçənin sağ əlindəki qəzet köşkünün qabağında xeyli adam vardı. Burdan 3-4 yüz metr aşağıda, yolun sağ tərəfində üstüörtülü bir yük maşını dayanmışdı. Adil onun yanından ötüb yenicə keçmişdi ki, lap səkiyə açılan alçaq taxta qapıdan əlində zənbil olan bir kişi tələsik addımlarla düz maşının qabağından keçib getmək istədi, gözünə naqafil işıq düşən qoca özünü itirib geri bir addım atdı, sonra nə fikirləşdisə, yenə irəli cumdu.

Adil çaşdı və maşını sağa-sola qaçırdaraq ayağını əyləcə basmaq əvəzinə, qaza basdı. Maşın bir göz qırpımında irəli sıçradı, ağır zərbə ilə dəhşətli qışqırtı bir-birinə qarışdı. Kişi iki-üç metr qabağa düşdü, maşın küçəyə sərilmiş adamın üstündən keçəndə içəridə oturmuş Nüsrətin başı kuzanın damına dəydi. Bütün bunlar elə sürətlə oldu ki, sanki yuxuda baş verirdi. Adil kişini vuranda Nüsrət xəyala dalmışdı, fikrində gələcək illərdə bu qəsəbənin də yenidən qurulacağı, bax, bu dar yolun da xeyli genişlənəcəyi barədə götür-qoy eləyirdi: kim bilir, bəlkə elə həmin işi onun özünə tapşırdılar o vaxt. Ancaq…

Nüsrət sövqi-təbii ilə başa düşdü ki, kimsə maşının altında qaldı. Arzu həyəcanla soruşdu.

- Neynədin sən, Adil? – O, cavab vermədi, sürəti artıranda Nüsrət geri qanrılıb baxdı və yolun ortasında kiminsə çabaladığını görüb məsələnin nə yerdə olduğunu anladı və bütün vücudunu soyuq tər basdı.

- Vurdun – deyə əsəbi səslə soruşanda Adil başını tərpətdi.

- Vurdun? – deyə Arzu da həyəcanla xəbər aldı. Adil sürəti daha da artıranda Nüsrət qışqırdı:

- Saxla.

- Heç kəs yoxdur, çıxaq aradan - deyə Adil titrəyə-titrəyə söyləyəndə Nüsrət dəli kimi bağırdı:

- Saxla, saxla deyirəm sənə.

Adil sanki keyləşmişdi, ya da maşını artıq saxlaya bilmirdi: yüksək sürətlə irəliləyirdi maşın. Bu zaman özünə gəlmiş Nüsrət əlini atıb iki oturacağın arasındakı əl əyləcini var gücü ilə yuxarı dartdı və "Jiquli" asfaltda yerindəcə fırlanıb çəpinə dayandı. Bir anın içində qapılar açıldı, Nüsrət də Adil də, Arzu da yerə sıçradılar. Arzu gördü ki, Nüsrət vurulan adama sarı qaçır, Adil isə üzüaşağı, şəhərə tərəf. Ürəyini fəlakətin özündən də soyuq bir üşərti sardı: "Qaçır?". Və o, ərinin dalınca vəhşi bir səslə çağırdı:

- Hara, Adil?

Adil elə bil, yerindəcə mıxlandı, sonra taqətsiz addımlarla geri döndü. Arzu daha onu gözləmədi, Nüsrətin dalınca yüyürdü. O, çatanda Nüsrət dizlərini yerə qoyub vurulmuş kişinin başını yuxarı qaldırmışdı, tez-tez silkələyir, nəsə deyir, soruşurdu, ancaq ondan heç bir səs çıxmırdı. Arzu əyilib baxdı, kişinin sifətini qan örtmüşdü, üzü eybəcərləşmişdi, tanınmaz olmuşdu. Adil kölgə kimi yanlarında dayananda Nüsrət kişinin başını yerə qoyub dikəldi və əzizi dünyadan köçmüş adam sayağı sonsuz bir hüznlə dilləndi:

- Keçindi.

Heç biri dinib-danışmırdı. Təkcə Arzu ağlayırdı və hıçqıra-hıçqıra deyirdi:

- İlahi, bu nə müsibətdi, bizim başımıza gəldi? Bəs indi nə olacaq, Nüsrət?

- Mən deyən olacaq. Maşın mənimdi, cəzasını da özüm çəkməliyəm, maşını mən sürürdüm, mən də vurmuşam. Bildiniz? Daha bu barədə bir kəlmə də söz olmamalıdır.

Adilin elə bil dili tutulmuşdu, ağzına su alıb susurdu. Arzu isə Nüsrətin bu sözlərinin mənasını yaxşı başa düşürdü: o, Adilin günahını öz boynuna götürür, onu xilas eləyirdi. O Adilin ki, kişini vurandan sonra “heç kəs yoxdu, aradan çıxaq” – deyirdi, o Adil ki, maşından düşəndən sonra yaralının yanına gəlmək əvəzinə, üz tutub şəhərə sarı qaçırdı. Arzu toxdayıb ərinin yuxarı qalxmış çiyinlərinə, aşağı əyilmiş başına baxdı, baxdı və özündə ona qarşı kəskin bir nifrət duydu, neçə il bir damın altında yaşadığı Adili sanki indi tanımağa başlayırdı, onun bərk ayaqda belə qorxaqlığını, dar qəlbli olduğunu dərk edib üşüyürdü. Adil onun nəzərində getdikcə kiçilir, büzüşür, əriyib yox olurdu. Maşında indi bir kişi oturmuşdu sanki. Bu, Nüsrət idi. Arzu onun səbrinə, dəyanətinə heyran qalmışdı. Adilə heç acıqlanmadı da, güldən ağır bir söz demədi də. Əgər onun yerinə Adil olsaydı, indi bir həngamə qoparmışdı ki, gəl görəsən. İndi Nüsrətin gözünü deşirdi Adil. Arzu bunu əlinin içi kimi bilirdi.

Bayaq kişi ölən kimi Adilin təşvişlə verdiyi sual, Nüsrətin ona kinayəli bir təbəssümlə nəzər salandan sonra dediyi sözlər Arzunun qulaqlarında səslənirdi:

- İndi məni tutacaqlar?

- Yox, Adil. Qorxma, qoymaram səni tutsunlar. Sənin arvadın, uşağın. Mən öz boynuma götürəcəyəm: Mən vurmuşam kişini.

- Axı. - Arzu nə isə demək istəyəndə Adil ona tərs-tərs baxmışdı, gəlin sözünün dalını udmuşdu.

Arzu bu səhnəni xatırlaya-xatırlaya Nüsrətin kürəyinə tamaşa eləyirdi, düşünürdü: "Bu Nüsrətin mərdliyi, bu da mənim ərimin "kişiliyi". Heç olmasa xalaxətrin qalmasın deyə, yalandan olsa da bir kəlmə söz deyəydi, nə olardı? Yoxdur, ürəyi balacadır, qorxaqdır, "güllə məndən sovuşdu, yoldaşıma dəydi, elə bil, saman çuvalına dəydi" – deyənmiş Adil. Kaş maşının içi işıq olaydı, bax elə bu dəqiqə Nüsrətin gözlərinin içinə baxa biləydim."

Amma içəri qaranlıq idi və Nüsrət də ancaq irəli, yola, Dövlət Avtomobil Müfəttişliyinə məxsus sarı rəngli maşına baxır, kim bilir, nə fikirləşirdi.

Birdən-birə Arzunun ürəyində qollarını geniş açıb Nüsrətin boynunu qucaqlamaq, üz-gözündən öpmək, "Sağ ol, kişiliyin üçün, mərdliyin, ürəyin üçün sağ ol" - demək istəyi baş qaldırdı. Ancaq Adilin öskürməyi onu xəyal aləmindən ayırdı və o, özünü ələ alıb sakitləşdi. İndi onun beynində bircə sual dolaşırdı və bunu dilinə belə gətirməkdən qorxurdu:

"- Yəni səni həbs edəcəklər?"

***

Arzu yataq otağında, çarpayısında uzanıb kitab oxuyurdu. Həvəssiz oxuyurdu, fikri dağınıq idi. Könül yanına gəlib döşəyin qırağında oturdu:

- Ana, bəs heç Nüsrət əmi bizə gəlmir? – Arzu kitabın səhifəsini qatlayıb, kənara qoyaraq ah çəkdi:

- Hələ gəlməyəcək, qızım.

- Niyə, ana? Axı, mən ondan ötrü darıxmışam?

Arzu qızının saçını sığalladı və yenə köks ötürdü.

- Elə mən də darıxmışam, qızım. Amma hələ o bizə gəlməyəcək, gələ bilməyəcək.

- Axı, niyə, ana?

- Uzaqdadı, qızım.

Evdə Nüsrətin həbs olunmağını uşağa deməmişdilər, xiffət eləyərdi.

- Maşına minsin, gəlsin.

- Maşını daha işləmir Nüsrət əminin.

- Yox, düzəltdirsin, gəlsin. Sən onu görəndə denən Könül sənin üçün darıxıb, onda düzəltdirib gələr, ana.

- Yaxşı, görsəm, deyərəm.

Arzu Könülə bunu da deməmişdi ki, məhkəmə olandan sonra axırıncı görüş zamanı Nüsrət maşının və qarajın açarlırını Adilə vermiş, akkumlyatoru açmağını, təkərləri çıxarmağını ondan xahiş eləmişdi.

- Qoy açarlar da səndə qalsın, - demişdi. – Salamat çıxıb gələrəm, yenə sürərik. Çıxmaram da ki, heç. - O belə deyəndə Arzunun gözlərindən yaş sel kimi axmışdı.

Bakıya qalın qar düşmüşdü. Hər yan ağappaq dona bürünmüşdü. Təkcə cığırlar, maşın yolları qaralırdı. Builki Bakı qışının gözəlliyi onda idi ki, küləksiz gəlmişdi, xəbərsiz gəlmişdi, buna görə şaxtası da az idi. Binanın uşaqları həyətdə qartopu oynayır, qar adam düzəldirdilər. Könül də onların arasında idi. Adil onu geyindirib aşağı düşürmüş, özü isə bazara getmişdi. Arzu evdə yır-yığış eləyirdi.

Blokda, qapının ağzında kimsə ayağının qarını çırpdı, sonra zəng çalındı. Arzu gəlib qapını açdı və gözlərinə inanmadı. Gələn Nüsərt idi. Arzu əvvəl özünü itirdi, nə edəcyəini, nə deyəcəyini bilmədi. Handan-hana heyrət və sevinclə:

- Nüsrət? Bu sənsən? - dedi. Nüsərt gülümsündü:

- Hə, mənəm, Arzu.

- Aman allah, gör bizə kim gəlib? Keç içəri, keç içəri, qapı ağzında niyə durubsan?

Nüsrət dəhlizə keçdi, Arzu ilə görüşdü. Gəlin bu gözlənilməz görüşdən titrəyirdi, gözləri yaşarmışdı. İstəyirdi onu bağrına basıb üzündən öpsün, ancaq Nüsrətin sadəcə əl verməklə kifayətləndiyini

görüb dayandı, Nüsrət paltosunu, papağını, ayaqqabısını çıxarıb əlini əlinə sürtə-sürtə yenə gülümsündü, içəri keçdi. Otağa göz gəzdirdi: hər şey əvvəlkitək idi, evdə heç bir dəyişiklik olmamışdı.

Arzu ona diqqətlə, heyranlıqla baxır, bir gözü ilə ağlayırdı, bir gözü ilə gülürdü.

- Otursana.

Nüsrət həmişə bura gələndə oturduğu kresloda əyləşdi.

Yavaş-yavaş özünə gələn Arzu indi "xoş gəldin" eləmədiyini xatırladı:

- Xoş gəlibsən, Nüsrət. Həmişə evində-eşiyində.

- Çox sağ ol, Arzu.

- Necəsən?

- Gördüyün kimi.

- Yox, maşallah, yaxşısan. Ancaq bir azca saçların ağarıb.

- Ağarmayıb, Arzu. Qar yağıb saçlarıma.

- Eybi yoxdur. Ağ saçlar sənə daha yaxşı yaraşır, Nüsrət.

Araya sükut çökdü, Nüsərt başını aşağı salıb stol süfrəsinin saçaqlarını qurdalamağa başladı. Arzu sevincdən alışıb yanan baxışlarını onun saçlarında, sifətində gəzdirib köks ötürdü və sonra soruşdu:

- Haçan gəlmisən?

- Dünən.

- Axı, mənim hesabıma görə vaxtından hələ altı ay qalırdı?

- Hə, altı ay tez buraxdılar.

- Nə yaxşı, nə yaxşı. Bəs niyə bizə xəbər eləməmisən, Nüsrət?

- Nə bilim, dedim elə birdən gələrəm.

- Gərək xəbər verəydin. Səni görəndə doğrusu, gözlərimə inanmadım. Dedim, yəqin yuxu görürəm. Mən hesablamışdım.

- Yəni hesablayırdınız da?

Arzu başını aşağı salaraq:

- Hə, - dedi və bu sözdən bədəninin alışıb yandığını hiss elədi.

Nüsrət ani sükutdan sonra xəbər aldı:

- Bəs mənim qardaşım hanı? Kefi necədir?

- Bazara gedib, indi gələr. Yaxşıdı, yaşayır özü üçün. - Arzu ah çəkdi, əri haqıqnda düşündüklərini Nüsrətə söyləmək istədi, ancaq pis məna verəcəyini fikirləşib sözünü uddu: "Qoy bilməsin, onun da gözündən düşər". Lakin dil-ağız eləməyi borc bildi:

- Gərək bizi bağışlayasan, Nüsrət. Sən bizim üstümüzdə…

Nüsrət onun sözünü kəsdi:

- O barədə gəl heç danışmayaq, Arzu. Dost yolunda boran olar, qar olar. Elə etmək lazımdır ki, Adil sıxılmasın, utanmasın.

- Sənin qəribə ürəyin varmış, Nüsrət. Heç kəsdə belə ürək olmaz, lap elə Adilin özündə.

- Adil yaxşı insandı, Arzu.

Nüsrət susub siqaret yandırdı. Bu, Arzunu nədənsə yamanca kədərləndirdi.

- Sən siqaret çəkirsən?

- Hə, öyrəndim orda. Darıxdım, çəkdim. – Nüsrət sözü dəyişmək üçün: - İşdə nə var, nə yox? – deyə soruşdu. Arzu qəmli-qəmli dedi:

- Salamatlıqdır, Nüsrət. Hər şey sən görən kimidir, elə bir dəyişiklik yoxdur. Sənin yerin yaman görünürdü, Nüsrət. Hamı deyirdi ki, Nüsrət bu idarənin yaraşığı imiş. Hamımız darıxmışıq sənin üçün. Bir az istirahət eləyərsən, sonra işə başlayarsan.

- Hə, mən də elə düşünürəm. İş stolumdan sarı elə darıxmışam ki, deməklə başa gəlməz. Gələn kimi gərək yarımçıq layihələrimi qurtaram. Çoxlu planlarım var, Arzu. Özüm orda olsam da, xəyalən şəhərimizi başdan-ayağa gəzmişəm, köhnə, ucqar küçələrə nəzər salmışam. Ürəyimdə onların yerində yeni, bağ-bağatlı küçələr, meydançalar, işıqlı binalar ucaltmışam. Bu illər ərzində bir an da olsa işimdən, sənətimdən fikrən ayrılmamışam. Nə bilim, bu arzularımı həyata keçirə bilsəm.

- Keçirərsən inşallah, Nüsrət. Qocalmamısan, qarımamısan.

- Bəs Könül hardadı, Arzu? – deyə bayaqdan bəri soruşmaq istədiyi sualı nəhayət, verməyə imkan tapdı. – Yəqin indi böyük qız olub, şeytan, hə?

- Hə, böyüyüb. Dərsə gedir, əmisi. İndi həyətdədi, oynayır, - deyərək Arzu da sanki qızını indicə xatırladı: - Bu saat çağırım, gəlsin.

O, ayağa qalxaraq balkona çıxdı və elə oradan səslədi:

- Könül, ay Könül, evə gəl, qızım.

- Könül əlindəki qartopunu qonşu oğlanın kürəiynə çırpıb yalvardı:

- Qoy bir az oynayım, ana.

- Nüsrət əmin gəlib, Könül. Nüsrətin adını eşidən kimi qız yuxarı yüyürdü, təngnəfəs halda özünü içəri saldı. Əvvəlcə tanımadı, sonra elə pallı-paltarlı ona sarı qaçdı və sevinə-sevinə qışqırdı:

- Urra, Nüsrət əmi gəldi.

Nüsrət onu qucaqlayıb mehribanlıqla öpdü. Arzu onların bu görüşünə baxıb fərəhləndi: qız nə sirr idisə, onu çox istəyirdi, keçən müddət ərzində heç yadından çıxartmamışdı Nüsrəti.

Qapının zəngi səsləndi, Arzu ayağa qalxdı:

- Bu, Adildi yəqin.

Gələn doğrudan da o idi. Arzu elə qapının ağzındaca xəbər verdi:

- Nüsrət gəlib, Adil

- Hə? – Arzu ərinin bu xəbəri necə qarşılayacağını bilmək istəyirmiş kimi, onun gözlərinin içinə baxdı: onun baxışlarında ani bir sevinc yandı da, söndü də. Əlindəki zənbili yerə qoyub içəri adladı, qalxıb ona tərəf gələn Nüsrətlə görüşdü. Nüsrət onu qucaqladı, o da Nüsrəti. Bir-birindən hal-əhval tutdular. Adil onun haçan çıxdığını, səhhətini soruşdu. Nüsrət Arzuya danışdığı kimi, ona da hər şeyi yerli-yataqlı danışdı.

Bir az sonra Arzu süfrə açdı və gülə-gülə dedi:

- Qayınanan səni çox istəyirmiş, Nüsrət. Yaxşı düşbərə bişirmişəm.

Nüsrət güldü:

- Çox sağ ol. Ürəyim yaman istəyirdi. Gör nə vaxtdır düşbərə yeməmişəm? Dovğa, qutab dilimə dəyməyib.

Bu söhbət ortalığa gələndə Adil qorxu içində o yan, bu yana baxındı, araya söz qatmaq istədi, ancaq tərs kimi ağlına heç nə gəlmədi. Oğurluq üstündə tutulmuş adam kimi başını aşağı saldı, ümidi bircə buna qaldı ki, Arzu daha açıb ağartmaya, sözü dəqiqləşdirməyə. Lakin Arzu qulaqlarına inanmırmış kimi, təəccüb içində soruşdu:

-Necə yəni neçə ildi düşbərə, dovğa, qutab yeməmisən? Mən özüm üç-dörd dəfə bişirib Adilnən göndərmişəm.

Nüsrət nəsə xatırlamağa çalışan adam kimi qaşını dartdı, amma yadına sala bilmədi.

- Dovğa, düşbərə, qutab? Yox, Adil iki dəfə yanıma gəlib, onda da kabab və toyuq bozartması gətirib. Elə deyil, Adil?

-

Arzu hər şeyi indi başa düşdü: demək o, Arzunun bişirdiyi xörəkləri Nüsrətin yanına aparmırmış, yolda atırmış, əvəzinə başqa şeylər alırmış. Rəzalətə bax, ürəyə bax bunda. Arzu elə pərt olmuşdu ki, daha deməyə söz tapa bilmirdi, sanki onu da dirigözlü odun içinə atmışdılar. Əlləri qoynunda, mat-mat ərinə baxır, qəzəbindən alt dodağını dişləri arasına alıb sıxırdı.

Adil qızarmışdı. Siqaretini tez-tez sümürür, heç birinin üzünə baxa bilmirdi. Xəyalında qəzəblə, nifrətlə üzünü arvadına tutub deyirdi:

- Hə, Arzu xanım, aparmırdım sənin bişirdiyin xörəkləri ona. İstəmirdim sənin bişirdiyin o dadlı xörəkləri o yesin. Bilirsən, istəmirdim. Ürəyim qoymurdu, qoymurdu, başa düşürsənmi, qoymurdu?

Nüsrət çaşıb qalmışdı, anlaya bilmirdi ki, bu nə sirdi. Anlaya bilmirdi ki, xatirini çox istədiyi, qardaş kimi sevdiyi, ömür-gününü yolunda qurban belə verməyə hazır olduğu Adil niyə belə eləsin, niyə Arzunun onun üçün bişirdiyi dovğanı, düşbərəni, qutabı gətirib verməsin? Bu, suallara cavab axtaran Nüsrət, nəzərlərini dolandırıb çaş-

qın halda dayanmış Arzuya zillədi: gəlinin gözləri dolmuşdu. O, titrək səslə Nüsrətə söylədi:

- Mən sənə danışaram hər şeyi, Nüsrət.

Adil qan sağılmış baxışlarını yuxarı qaldırıb acıqlı qışqırdı:

- Sən ona heç nə danışmayacaqsan, bildin, heç nə danışmayacaqsan?

Nüsrət vəziyyəti belə görüb yerindən qalxdı, otağa göz gəzdirdi, elə bil səssiz-səmirsiz vidalaşırdı bu evlə. Buraya böyük sevinclə gəlmişdi, indi isə ürəyində ağır, anlaşılmaz bir kədər gedirdi.

- Yaxşı, sağ olun, mən gedirəm.

- Gedirsən? – Arzu titrəyən səslə soruşdu və oturub çörək yeməyi təklif etməyi yersiz saydı, çünki bu söz-söhbətdən sonra Nüsrət onsuz da oturmazdı.

- Hə, gedirəm, Arzu xanım. Zəhmət çəkib bişirdiyin, mənim üçün göndərdiyin dovğa, düşbərə, qutab üçün sağ ol, Arzu. – Sən də sağ ol, Adil. Yanıma gətirdiyin dovğa, düşbərə, qutab üçün sağ ol.

Nüsrətin geyinib getməyə hazırlaşdığını görən Könül qaçıb onun qıçlarını qucaqladı və altdan yuxarı başını qaldırıb dedi:

- Nə tez gedirsən, Nüsrət əmi? Heç mən səni doyunca görmədim?

Nüsrət Könülün saçlarını sığalladı, ancaq dillənmədi, kədərlə gülümsündü. Arzuya baxdı.

Arzu ah çəkib dedi:

-İşi var Nüsrət əminin. Sonra gələcək.

Nüsrət astaca başını tərpətməklə: “yox” – işarəsi verdi, əyilib uşağı bağrına basdı, bərk-bərk öpdü, sanki həmişəlik ayrılırdı ondan.

Arzu, bu vidalaşmanı görüb lap kövrəldi, amma özünü ağlamaqdan zorla saxlayıb nəmlənmiş gözlərini Nüsrətə dikib diqqətlə xeyli baxdı, sonra səsi tutula-tutula yenə soruşdu:

- Demək, gedirsən?

- Hə, gedirəm.

Nüsrət hüznlə cavab verdi. Arzu ağzını açıb nəsə demək istədi. Lakin sözlər boğazında ilişib qaldı, həya, ismət qoymadı ürəyinə gələn, dilənə gəlsin. Bu hissi Adildən də gizləmək olardı, lap Nüsrətdən də. Ancaq Arzu bax elə indicə bu qapı ağzında göylərdənmi, Nüsrətin qəmli baxışlarındanmı, hardansa axıb qəlbinə dolmuş bu gözəl, şirin, əsrarəngiz duyğunu özündən gizlədə bilməzdi: ona görə Arzu ürəyində, təkcə özü eşidə biləcəyi bir pıçıltı ilə Nüsrətə baxıb deyirdi:

- "Yox, Nüsrət, sən heç yerə getmirsən, sən mənim ürəyimdə təzəcə dünyaya gəlirsən, əzizim ".

*1987, Bakı*

# ROMAN

# TƏYYARƏ KÖLGƏSİ

*Dünyadan кöçəndən sonra da*
*ürəкlərdə və xatirələrdə yaşamağa*
*qadir olanlara ithaf edirəm*

*Müəllif*

# BİRİNCİ HİSSƏ

## BİRİNCİ FƏSİL

Günorta idi; kölgələr qısalıb düz ayaq altına düşmüşdü. Üçbucaq bağın yanındakı birmərtəbəli evin küçəyə açılan qapısı ağzında boylu-buxunlu, enlikürəkli, hərbi geyimli bir adam ayaq saxladı. Sarıya çalan seyrək qaşları altında parlayan xırda, qonur gözləri qıyılan bu adamın sifəti də uzunsov idi. Üzündəki dəngil-düngül qara çillər altından axan tər damcıları arasında düyüyə qarışmış sılıf dənələri təki görünürdü. Balaca çamadanını sağ ayağının yanında yerə qoyub əlini zəngə sarı uzatdı. Zəng səsi dalğa-dalğa titrəyib eşidiləndə, elə bil, onun da ürəyi içərisində əsim-əsim əsdi.

«Görəsən evdədir?» Yarım saat bundan qabaq təyyarə meydanında avtobusa minəndən ta şəhərə gələnə qədər, yol uzunu dəfələrlə öz-özünə soruşduğu sualı indi sanki qırmızı rəngli qapıdan, ağ düyməli zəngdən xəbər alırdı. Əlini düymədən çəkdi, səs əriyib havada yox oldu; o, bütün varlığı ilə qulaq kəsilərək dinlədi.

— Kimdir?

Qapı ağzında dayanan adamın dodaqları təbəssümdən aralandı, ürək çırpıntısı ilə cavab verdi:

— Mənəm, Gülü, aç!

—Əqdəm?.. Sənsən?!

Qapının zəncirli cəftəsi şaqqıldadı. Cəmi bircə, saniyə keçməmiş əyninə qısaqol xalat geymiş Gülmirə bu gözlənilməz gəlişdən nə

edəcəyini bilməyərək boynunu azca yana əyib, özünü itirmiş halda astanada görünəndə Əqdəmin iki ay çətinliklə dözdüyü əzablı ayrılığın ağrı-acısı ürküdülmüş sığırçın kimi harasa uçub getdi... Ayrılıq təkcə əzab vermirmiş, ayrılıq həm də ürəkdəki məhəbbətdən şölələri ərşə dirənən bir məş'əl yandırırmış. Bu həqiqəti ayrılıq günlərində hiss edən, burda qapının ağzında dərindən dərinə dərk eləyən Əqdəm ömür-gün yoldaşının qumral saçlarına, uşaq gözləri kimi saf və məsum gözlərinə, nazik dodaqları arasından görünən yaraşıqlı dişlərinə, qar kimi xalatından seçilməyən qollarına, dolu mütənasib bədəninə baxa-baxa yerindəcə donaraq, elə bil evə girməyi unutmuşdu

— Gəl içəri, yoxsa yenə qapıdan qayıdıb gedəcəksən? Keçən dəfəki kimi...

Gülmirə kənara çəkilib yol verdi. Nəfəsləri bir-birinə toxunanda ürkək-ürkək baxışdılar. Sonra doluxsunmuş Gülmirə, başını ərinin enli sinəsinə qoyub ona sığındı. Əqdəm Gülmirənin saçlarından öpdü...

...Gülmirəgil o vaxt üzbəüzdəki binada yaşayırdı. Əqdəmin otağından onların evinin içi aydın görünürdü. Onda Əqdəm bu evi təzə kirayələmişdi. Tək olurdu. Özü də az-az gəlib gedirdi. Bir də görürdün üç-dörd ay yoxdu. Gəlirdi, iyirmi gün, bir ay qalırdı. O vaxt universitetin dördüncü kursunda oxuyan Gülmirə tül pərdəli pəncərə qabağında dərslərinə hazırlaşarkən cavan təyyarəçi oğlana gözucu fikir verirdi. Əvvəlcə bu adicə maraqdı, xüsusi geyiminə, sünbül haşiyəli papağına, ulduzlu poqonlarına maraqdı. Günlər, həftələr, aylar keçdikcə qız bu boylu-buxunlu oğlanı öz qanadlı təyyarəsində buludların arasında uçan təsəvvür etməyə başladı. Təsəvvür elədikcə özü də göylərə qalxır, ilk vaxtlar bir sərnişin kimi, sonrlar təyyarə sürən oğlanın ən yaxın adamı təki onun öz kabinəsində, yanında otururdu. Gündüzlər günəşə doğru, axşamlar isə ay və ulduzlar səltənətinə uçur, yerə enmək istəmirdi. Bu zaman oxuduğu kitab ehmalca qatlanır, dizinin üstünə düşür, öyrəndiyi şeylər beynində bir-birinə qarışıb əriyirdi...

Əqdəmi pəncərə qabağında, ya küçədəki skamyada oturan görəndə Gülmirə səbəbini anlamadan sevinir, qeyri-iradi pianonun arxasına geçərək ürəyini, varlığını çulğalayan bu naməlum sevinci barmaqlarından pianonun şirmayı dilləri üzərinə axıdırdı. Oğlan deyəsən, nə o səsi eşidir, nə də piano çalan qızın üzünü görməyə can atırdı. Küçədə rastlaşanda, üzbəsurət gələndə Əqdəmin arxayın, ağayana hərəkətində heç bir dəyişiklik hiss olunmazdı. Gülmirə isə çaşırdı, yerişini itirirdi, bu zəifliyindən qızarırdı. Sonra özünü möhkəmcə danlayırdı. Bir də onu görəndə şax geçəcəyinə, onun varlığını belə hiss eləməyəcəyinə söz verirdi. Ancaq...Bacarmırdı, bacarmırdı.

Yox, bu, uzun müddət belə qalmadı. Gülmirənin yanağındakı qızartıları, dolaşan qıçlarını, yanan barmaqlarını, pianonun od tutan dillərini görməmək, eşitməmək mümkün deyildi. Musiqinin sehrli cazibəsi Əqdəmi yavaş-yavaş pəncərə qabağına gətirdi. Qız çaldıqca sanki o, xəyala dalıb dincəlir, ürəyində baş qaldıran həzin, həlim duyğuların şirinliyindən məst olurdu.

Gülmirənin anası Xatın arvad qızında yaranan dəyişikliyi, qonşu oğlanın pəncərəsinə çox baxdığını, dəftər-kitabdan soyuduğunu çoxdan duymuşdu. Ananın ürəyini nigarançılıq üzməyə başlamışdı. Bir dəfə piano arxasında oturub konsert zalında çalanlar kimi, «qabıqdan çıxan» qızının yanına gəlib, əlini onun çiyninə qoyaraq demişdi.

— O oğlan evə gələndən-gələnə sən yaman çalırsan, a qızım! Ayrı vaxt çalmaq heç yadına da düşmür...

Gülmirə qızarmışdı.

— Çaşıb vurularsan a, bu uçağan oğlana! Sən yaşda qızlar bir az...

Gülmirə «Yox» mənasında başını tərpətmişdi.

— Ağlını yığ başına, qızım. Bil ki, ondan sənə ər olmaz!..

Gülmirə özü də bilmədən soruşdu:

— Niyə ki?

— Ona görə ki, onun bir ayağı göydə, bir ayağı yerdədi, qız! İndiki zəmanədə də kişi olan kəs gərək arvadının, uşağının yanında olsun, yoxsa ayrı cür daha bu nə kişilikdir?!

Gülmirə ayağa durmuşdu, ipək donunu xışıldada xışıldada o biri otağa keçərkən:

— Mən hələ heç kəsə ərə getməyə hazırlaşmıram, ana, — demişdi. — Gedəndə də...— sözünü yarımçıq kəsmişdi, «...özüm bilərəm» sözünü dilinə gətirməsə də, Xatın arvad onun nə demək istədiyini başa düşmüşdü.

Oğlan deyəsən iş yerini dəyişmişdi, çünki hər axşam evə gəlir, oğrun-oğrun qızgilin pəncərəsinə baxırdı. Qız isə oğlanın ürəyinə od saldığını başa düşüb, onu dilləndirmək istəyirmiş kimi, qəsdən görünmürdü. Lakin qızın da səbri tükəndi, axır ki, bir dəfə pəncərənin qabağında dayandı. Oğlana sarı baxanda çoxdan bəri darıxmış Əqdəm əlini havada gəzdirə-gəzdirə barmaqlarını tərpətdi: «Çal!» Qız başa düşdü, gülümsündü, bunu gözləyirmiş kimi, pianonun arxasına keçdi, çaldı. Bu hadisədən sonra onların arasında sözsüz-söhbətsiz bir ünsiyyət yarandı. Hər ikisinə bir şey aydındı: sevirlər, bu onu, o bunu!

Rastlaşanda salamlaşırdılar, qız qızarırdı, oğlan uçunurdu.

Oğlanın oturuşuna, duruşuna göz qoyan Xatın arvad qonşusu Maşa xalaya demişdi:

— Yaxşı oğlandı, ancaq hayıf ki, sənəti bir sənət deyil.

Maşa qarı öz kirayənişini haqqında arvada bildiklərini danışmışdı: «Ucqar bir dağ kəndində anadan olub. Əvvəllər şair olmaq istəyirmiş, sonra təyyarəçilik məktəbinə girib...»

Bir dəfə Əqdəm eşitdi ki, Gülmirəgilə haradansa elçi gəlib, qız, ata-anasının bütün təkidinə baxmayaraq, rədd cavabı verib. Bu xəbər Əqdəmi tələsdirdi. Atasını, anasını ismarlayıb rayondan gətirtdi. Qızı onlara göstərdi, evlənmək istədiyini bildirdi.

Elçilər qız qapısına iki dəfə getdilər. Çox söz-söhbətdən, çək-çevirdən sonra, nəhayət, qızın valideynləri razılıq verdilər.

Gülmirə sonuncu kursda oxuyanda, Səadət sarayında toyları oldu. Ancaq toydan on gün sonra, Xatın arvadın dili ilə desək, müsibət üz verdi: hardansa teleqram gəldi, Əqdəmi təcili çağırdılar. Getməyə bilməzdi. Qulluq əmri idi. Gülmirəni - on günün gəlnini göz yaşları boğdu.

— Öz cəzasıdır, canı çıxsın!— deyə Xatın arvad əsib-coşdu, — Çox da deyirdi gərək verməyəydik. Görmürdük?! Beynimizi yedilər, dedilər, daha heç yerə getməyəcək. Buyur, bu da sənə «heç yerə getməyəcək». Bu arxası yerə gəlməmiş, quş kimi şeydi, ilin on ayını elə göydə olacaq, yazıq balam da elə. Gözünü zilləyəcək göylərə ki, görəsən, ərim haçan gələcək? Əşi,Salman qardaşa demək gərəkdi ki, böyükləriylə danışsın, azad eləsinlər onu, gəlib otursun xarabasında. Dava yox, şava yox, təyyarə sürməsə, dünya dağılar?

Toydan sonra Əqdəmin gedib-gəlməyi qırx gün çəkdi. Gələndə cavan gəlin sevindiyindən ağlamışdı:

— Bu dəfə gedəndə mən də səninlə gedəcəyəm.

— Hara?—Əqdəm yavaşca soruşdu.

— Sən hara, mən də ora!

— Mən daha heç yana getməyəcəyəm!

— İnanmıram!..

— İnan, Gülü, — deyə Əqdəm navazişlə arvadının könlünü almağa çalışmışdı. Gülmirə «inanmıram» deməkdə haqlı idi. Çünki Əqdəm «getməyəcəyəm» desə də, getməyə bilməzdi. Getdi bu səfəri iki ay çəkdi...

...Əqdəm par-par parıldayan qara, uzunqunc ayaqqabının dabanından tutub çıxartdı, pencəyini soyundu, buruq-buruq saçlarını əlləri ilə dala sığallayıb, mətbəxə keçdi, sərin su ilə boyun-boğazını yudu. Böyründə dayanan Gülmirədən tiftikli dəsmalı alıb, qurulana-qurulana gəlib divanın üstünə əyləşdi. Gülmirənin mətbəxdə qalıb qab-qacaq qurdaladığını hiss elədi.

— Orada neynirsən, Gülü? — deyə xəbər aldı. Gülmirə cavab verdi:

— Sənin üçün yeməyə bir şey hazırlayıram.

— Lazım deyil, toxam. Gəl otur yanımda, görüm nə var nə yox?

Gülmirə otağa qayıdaraq Əqdəmin böyrünə qısılıb oturdu. Əqdəm arvadının yumşaq əllərini əlinə alıb, həsrətli baxışlarla onun gözlərinin içinə baxdı:

— Sənin üçün darıxmışam, Gülü!

— Mən də...

— İki ay iki il kimi göründü mənə.

— Yadına tez-tez düşürdüm?

— Yadımdan çıxdığın vaxt olurdumu ki, təzədən yadıma da düşəsən? Sən həmişə mənim yadımdasan, ürəyimdə, hafizəmdə, xəyalımdasan, Gülü. Gecələr səfərə çıxanda elə bilirdim ulduzlar sənin gözlərindi, min yerdən, milyon yerdən mənə baxırsan.

— Bəs gündüzlər? — deyə Gülmirə nazla qımışaraq Əqdəmin saçlarını sığallaya-sığallaya soruşdu.

— Gündüzlər də! — Əqdəm azca düşünüb dedi.— Sanırdım ki, qara buludlar sənin hörüklərindir...

— Sən lap romantik imişsən ki, Əqdəm! Gülmirə güldü. — Belə getsə, təzdən şair olmaq fikrinə düşəcəksən.

## İKİNCİ FƏSİL

Gecə keçirdi...

Əqdəm yatağına uzanmışdı, əllərini başının arxasında daraqlayıb alaqaranlıqda nəsə axtaran, ora-bura çovuyan Gülmirəyə baxırdı. Gəlin şifonerin qənşərində dayandı. Şifonerin qapısı cırıltı ilə açıldı. Əqdəmin burnuna ətir iyi gəldi. Ay işığı güzgü qabağında dayanmış

Gülmirənin çılpaq ağ çiyninə düşüb parıldayırdı. Aynada gəlinin tutqun kölgəsi görünürdü. İpək gecə köynəyinin xışıltısı eşidildi, Gülmirə ayna qabağından aralanıb çarpayıya sarı addımladı. Elə bil Əqdəmin yanına güllü-çiçəkli bahar, gənclik və gözəllik ilahəsi gəlirdi. Bu dəm o sehrli bir yuxu görən kimi oldu. Özünü dünyanın ən xoşbəxt adamı hesab elədi. Arvadının təması onu həmişə uçduğu göylərdən də neçə mərtəbə yuxarı qaldırdı...

Onlar yanaşı uzanmışdılar. Gecə sakitdi. Dənizdə səfərəmi çıxan, səfərdənmi qayıdan gəmi üç dəfə fit verib susdu.

Sanki danışmağa söz tapmırdılar. Əslində, içəridə — öz dünyalarında danışırdılar. Əqdəm düşünürdü ki, sabah tezdən iş yerinə qayıdacağını Gülmirəyə necə desin?! «Çətindi, çox çətindi. İki ay yol gözləyib. Qonaq kimi gəl get... Bir ay deyil, bir il deyil. Kim bilir, nə vaxta qədər belə olacaq... Mənim kimi adam gərək evlənməsin. Burada, şəhərin kənarında işləməyim məni aldatdı. Hökumət adamıyam, əsgərəm. Hara desələr, ora da getməliyəm. Gülmirəni özümlə aparardım, ancaq yapışıb elmi işin qulpundan, elmindən də ağlım bir şey kəsmir. O biri yandan da Xatun arvad... «Getmə gözümdən, gedərəm özümdən»— deyir. Anadır, onu da başa düşürəm.»

Gülmirə isə:—«haçan gedəcəksən?» soruşmaqdan çəkinirdi, daha doğrusu, qorxurdu. Ona görə də getmək, yenə də ayrılmaq məsələsini fikrinə gətirməməyə çalışaraq bu az vaxtı,— neçə gün olsaydı da, fərqi yox idi, yenə az idi — qorxusuz yaşamaq istəyirdi.

Gəlinin arzusu baş tutmurdu. Evləndiklərindən il yarım adlamışdı. Əqdəm hələ onu bir dəfə də gümüş təyyarəsinə mindirib göylərə qaldırmamışdı. Gülmirəyə bu ancaq xəyal aləmində nəsib oldu. Əqdəm deyirdi ki, icazə yoxdur. Gəlin arzulayırdı ki, heç olmasa istirahət günləri, bayramlarda Əqdəmlə şəhəri gəzməyə çıxsın, kinoya, teatra getsin, əylənsin... Bu fürsət də çox az-az ələ düşürdü. O yandan da anası onun gününü göy əskiyə düymüşdü: «Gördün mən deyən oldu, ya yox? Böyük sözünə baxmayan axırda böyürə-böyürə qalar»

— deyir, azca keçməmiş qızını danlayıb-dansadığına görə peşman olur, uşaq təki kövrəlirdi.

Gülmirə də: «Özü yıxılan ağlamaz!» — deyib, giley-güzar eləməz, fikir-qüssəni içəri verib susar, kitab-dəftərlə, elmi işlə başını qarışdırmağa çalışardı.

Sükut çox cansıxıcı idi.

— Gülmirə...

—...Gülü?!

— Nədi, Əqdəm?!

Əqdəm söz tapmırmış kimi, duruxa-duruxa danışdı:

— Deyirəm. Birdən hissəmizdən indi zəng vursalar, məni tələsik çağırsalar, neylərsən? Məni buraxarsan?

Gülmirə yerində qurcalandı, çarpayı cırıldadı.

— Niyə cavab vermirsən?

— İcazə verib-verməməyimin əhəmiyyəti olmaz, elə bilirəm.

— Niyə?

— Mən bu fikrə gəlmişəm ki, ümumiyyətlə, müharibələrdə, döyüşlərdə ən cəsur olan adamlar eyni zamanda ən qorxaq adamlardır.

— Oho.. Sən lap filosofluq eləyirsən, Gülü.

—Əvvəllər etməzdim.

— Amma indi edirsən, hə?

— Bəli, həyat insanı düşündürür.

Əqdəm bayaqdan hiss eləyirdi ki, Gülmirənin ürəyi doludur, söz-sözü çəkəcək, qəlbindəkiləri açıb Əqdəmə deyəcək. Əqdəm isə bunu istəmirdi. Gülmirənin nə deyəcəyini o özü yaxşıca bilir və eyni nigarançılıq hissi ilə yaşayırdı. Gülmirəni düşündürən, ona eyhamlı, atmacalı sözlər dedirdən şeyləri sözsüz duyub anlayırdı. Onları çılpaq şəkildə dilə gətirmək, açıq-saçıq demək nəyə lazımdı ki?

Əqdəm sözü dəyişmək məqsədi ilə söhbəti Gülmirənin iki-üç dəqiqə irəli dediyi qorxaqlıq məsələsinin üstünə gətirdi:

— Nizam-intizama tabe olmaq, qayda-qanunu gözləmək, səncə, qorxaqlıqdır?

— Ona bənzər bir şeydir.

— Yox Gülü, düz demirsən!...

Gülmirə dikəlib sol qolu üstə dirsəkləndi. Bayaqdan süst-yorğun kimi danışan gəlin elə bil cana gəldi, dirçəldi:

— Müharibə vaxtı qəribə bir əhvalat olub. Bunu mənə atam danışıb. Bir əskər hərbi hissədə keşik çəkirmiş. Əlində avtomat, sinəsində durbin. Doğulub böyüdüyü şəhər yaxınmış, anası eşidir ki, oğlu filan yerdədir, getsə görə bilər. Üç ildir ayrılıblarmış. Ana ürəyidir, dözmür, ayından-oyundan bir zənbil hazırlayıb götürür, yola düşür. Soraqlaşa-soraqlaşa gəlib oğlu qulluq eləyən hissəyə çatır. Deyirlər bax, oğlun odur, keşikçi məntəqəsində növbədədir, gözlə, iki saatdan sonra gələr. Üç ilin intizarını çəkmiş anada iki saat gözləməyə səbir hardaydı, dözüm hardaydı? Qollarını açıb: «Mənim əzizim, gözümün işığı!» — deyə-deyə oğlunun keşik çəkdiyi məntəqəyə üz tutur. Oğlan görür ki bir arvad ona sarı gəlir. Baxır, tanıyır ki, anasıdır: «Buraya gəlməyə icazə yoxdur, o bura niyə gəlir?» — deyə oğul yan-yörəsinə baxa-baxa fikirləşir. «İndi komandirimiz görsə, bir şiddötli töhmət yapışdıracaq böyrümə.»

— Ana, gəlmə!

— Mənəm, Seryoja, ananam.

— Gəlmə, gəlmə. İki saata görüşərik.

Ana sözə qulaq asmır, gedir. Lap yaxınlaşır.

— Canım-ciyərim, Seryojam mənim!...

— Ay arvad, qayıt geri. Ana yenə eşitmək istəmir.

— Vuracağam, qayıt geri!— Oğlan avtomatı sinəsinə qaldırır.

— Qırışmal müharibələrdə də zarafatından qalmır ha!— deyə ana bir gözündən ağlayıb, bir gözündən gülə-gülə irəliləyir.Oğlan görür ki, iş ayrı cürdü, arvad heç nəyə baxmadan gəlir, sonra bunun altından çıxa bilməyəcək — şart arvadın başının üstündən, ayağının

altından iki-üç güllə vızıldadır. Arvadın ürəyi bayaq gedir, tir-tap uzanır yerə. Səsə yığışıb gəlirlər. Məsələ məlum olur. Sonra Seryojaya əsgəri sayıqlığına görə bir orden verirlər. Anası isə ondan bərk incimişmiş. Hətta, küsüb geri qayıtmaq istəyirmiş. Əsgərlər — yığışıb qarını birtəhər başa salıblar...

Əhvalatı danışıb qurtarandan sonra Gülmirə Əqdəmdən soruşdu:

— Sən bilən bu qorxaqlıq deyil?

— Yox, hərbi qanun-qaydanı bilsəydin, belə fikirləşməzdin.

— Qanunlar göydən düşmür ki, onları da insanlar yaratmırmı? Qanunlar gərək insan ürəyinin, insan ağlının min bir halını nəzərə alsın!...

Gəlin ürəyini boşaldıb toxdadı: ona elə gəlirdi ki, neçə vaxtdan bəri ürəyini deşən sözlərinin hamısını demişdir. Axı Əqdəm həssas adamdır, o, hər şeyi kiçicik bir eyhamdan, baxışdan başa düşür. Gülmirə ağır yük altından xilas olmuş kimi, nəfəsini dörib ağrıyan dirsəyini yanına uzatdı, başını balışa qoyub, gözlərini tavanın ortasından asılmış üç lampalı çilçırağa zillədi.

Ağ divarda bir baş kölgəsi göründü. Əqdəm dikəldi. Gülmirənin sifətinə baxdı. Ay işığında gözlərinin bulaqlarında titrəşən ağ damcılar mirvari təki parıldayırdı.

Əqdəm Gülmirənin çiynindən yapışıb, ehmal bir hərəkətlə onu özünə sarı çəkdi. Sağ divardakı kölgə aşağı enib çarpayıda görünməz oldu.

Telefon səsləndi. Əqdəm başını döndərib narazılıqla telefon qoyulan küncə baxdı. Gülmirənin o dəqiqə ürəyinə gəldi ki, gecənin bu vaxtı ona zəng eləyən ancaq Orxan ola bilər, səsini eşitmək üçün! Əqdəmin gəlməyindən xəbəri yoxdur, yəqin! Yoxsa zəng eləməzdi. Bu Orxan qəribə oğlandır, çox qəribə. Əqdəm dikəlib telefona cavab vermək istədi. Gülmirə gözlərini açmadan zarıltıya bənzər bir səslə:

— Durma, lazım deyil!— dedi.

— Eh, göylər elə gözəldi, elə təmizdi ki, hər dəfə uçanda şair ola bilmədiyimə təəssüflənirəm, Gülü!..

— Sən göylər şairisən, Əqdəm!.. Ulduzlar, gözlər, hörüklər...

— Onlar mənim sözüm deyil, Gülü. Bir hekayədə oxumuşam.

— Hansı hekayədə?

— Sən ədəbiyyatçısan, belə şeyləri gərək beş barmağın kimi biləsən.

— Gözlərin ulduz, saçların bulud...— Düşündü.— Yox yadıma gəlmir.

—Əgər səhv etmirəmsə, Əbdürrəhimbəyin «Röya» hekayəsindəndir. On il qabaq oxumuşam, amma heç yadımdan çıxmır... dadlı, qəmli bir röya kimi...

Bu ara Əqdəmin gözü küçənin o tayındakı evin pəncərəsini silən Xatın arvada sataşdı:

— Mənim qaynanam necədi, Gülü? Yenə kölgəmi qılınclayır?

Gülmirə boylandı:

— Hə, sənin kölgəni yaman qılınclayır.— Ay mə!..— Gülmirə ərinin gəldiyini anasına xəbər vermək istəyəndə Əqdəm qoymadı.

— Hələ demə, Gülü, qoy işini görsün.

Gülmirə ərinin par-par parıldayıb yanan gözlərinə baxdı. Qalxıb pəncərənin pərdəsini saldı...

## ÜÇÜNCÜ FƏSİL

Gülmirə güzgü qabağında dayanmışdı. Üst-başını səliqə-səhmana salır, saçını darayırdı. Cığasından iki-üç tel ayrılıb alnına düşmüşdü, nə qədər eləyirdisə, geri qatlaya bilmirdi. Güzgüdən ona gözəl bir gəlin tamaşa eləyirdi. Rəngi-rufu açılıb allanmışdı, yanaqları çıraq kimi yanırdı. Qıvrılıb qaşlarının üstünə düşən bu tellər onu daha da gözəlləşdirirdi.

Əqdəm şirin-şirin yatmışdı. Üzündə sakit, yorğun bir ifadə var idi. Gülmirə ayna qabağından ayrılandan sonra ərinin yatışına xeyli tamaşa elədi, ehmalca əyilib onun alnından öpdü.

İstədi sasləyib oyatsın: «dur, dur ayağa, bax, gör bu paltarım mənə necə yaraşır? Təzə tikdirmişəm. Sən gedəndən sonra...» Ancaq sözlərini uddu. «Qoy yatsın». Əl boyda kağız yazdı, stolun üstünə qoydu, zənbili əlinə alıb qapıdan ehtiyatla çıxdı.

Prospektdəki şüşə bazar nəhəng akvariuma oxşayırdı. Fərqi bu idi ki, onda ayrı-ayrı rəngli balıqlar deyil, müxtəlif geyimli, müxtəlif dilli adamlar qaynaşırdı. Alan kim, satan kim, «Ay müştəri!»— deyə boğazına güc verib malını-mətahını tərifləyən kim...

Gülmirə bazarın girəcəyində, sağ əlində tor zənbil, sol əlində bir vərəq kağız olan Gülalını görüb ayaq saxladı. Gülalı əlindəki kağıza baxdı, yenə geri — göy-göyərti piştaxtasına sarı qayıtmaq istəyəndə Gülmirə ona salam verdi. Gülalı pis iş üstündə tutulmuş adam təki kağızı arxasında gizlətməyə çalışaraq qanrılıb Gülmirənin salamını aldı.

— Bazarlıq eləyirsən deyəsən?

— Hə, arvad bazarlıq işini mənim boynuma qoyub...

Yaşı otuzdan keçsə də arıq, caydaq olduğundan çox cavan görünən Gülalı kirpikləri tökülüb seyrəlmiş gözlərini iri, qalın şüşəli eynəyinin dalında qırpa-qırpa qalmışdı. Gülalı ilə eyni şöbədə işləyən Gülmirə bu neçə müddət ərzində elə bir gün xatırlaya bilməzdi ki, onunla üzbəüz dayananda Gülalının çöp kimi nazik biləklərinə, uzun barmaqları sonradan yapışdırılmışa oxşayan yekə əllərinə baxıb təəccüblənməmiş olsun.

Dolu zənbil az qala Gülalının biləyini üzəcəkdi.

— Bəs o əlindəki kağız nədi, ay Gülalı? —deyə Gülmirə maraqla xəbər aldı.

— Bu? Hə...— özünü itirdiyindən bayaq gizləməyə çalışdığı vərəqi Gülmirənin gözləri qabağına tutdu. — Bu, siyahıdı.

Gülmirə təəccübləndi. O, Gülalının qəribə adam olduğunu bilirdi: həmişə heç kəsin eləmədiyi işlər tutmağa çalışırdı.

— Necə yəni siyahı ay Gülalı?

— Əşi, uzun dəsgahdı. Mən hər bazara gələndə bir balaca səhv eləyirdim. Yəni nə cür səhv? Arvad tapşırırdı ki, filan-filan şeyləri al, mən də deyirdim baş üstə. Gəlirdim bir də görürdüm ki, onun dediyi şeylərdən bəziləri yadımdan çıxıb, almamışam. Sklerozam da, neyləyim?! Gedirdim evə, dava-mərəkə... Deyirdim, vallah, yadımdan çıxıb. Deyirdi, yox, xəsisliyindən almayıbsan. Axırı çox götür-qoy elədik, çarə tapdıq: indi siyahı tuturuq, maddə-maddə bu siyahıya yazırıq. Nə isə, uzun dəsgahdı.

Gülmirə az qaldı ki, qəhqəhə çəkib gülsün, ancaq özünü güclə saxlayıb:

— Ay sənin oyunun olsun Gülalı!— dedi.

Gülmirə bazardan çıxandan sonra «Ceyran» qəhvəxanasının arxasındakı böyük həyətə buruldu, üçüncü blokun pillələri ilə yuxarı qalxdı. Beşinci mərtəbədə, qapının ağzında su şırıltısı eşidilirdi: kimsə astananı, pillələri yuyurdu. Gülmirə boylandı; Sədəf idi. Əynində nimdaş xalat vardı, uzun hörüklərini başının dövrəsində çalmalamışdı. Əlindəki əskini tez-tez yanındakı su ilə dolu köhnə vedrəyə basıb çıxarır, şırıltı sala-sala aşağı əyilib döşəməni təmizləyirdi. Bu girdəsifət, qırxa yaxın yaşı olan qadının gicgahlarında ağ tüklər görünürdü: təkcə badamı gözləri onun qarayanız sifətinə yaraşıq verirdi. Gözləri işıqlı idi, gözləri cavandı, elə bil, yaşına görə çox düşmüş Sədəfin öz gözləri deyildi, gənclik ehtirası ilə coşub-daşan bir qızın nurlu gözləri idi. Yarıaçıq qapının üstünə şüşə lövhə vurulmuşdu:

«Prof. Salman Qurbanzadə».

— Yorulmayasan, ay Sədəf bacı!

Sədəf belini düzəltdi:

— Sağ ol. Xoş gəlmisən.

— Özün necəsən, oğlun necədir?

— Ömrünüzə duvaçıyıq.

— Deyəsən, yır-yığış eləyirsən?

— Hə, dedim bu gün bazar günüdü, silim-süpürüm. Fürsətdi, evdə heç kim yoxdu.

— Bəs hara gediblər?

— Bağa. Salman usta tapıb, bağda bir az xım-xırd işləri var, onu gördürəcəkdi. Nadirə də dedi, hava yaxşıdı, mən də gedirəm. Ceyhun bu yandan qalxdı ki, onda məni də aparın. Bazarlıq-zad elədim, ət-mət aldım, mindilər maşına, getdilər. Bir işin-zadın vardı?

— Hə, Salman əmim mənə kitab verəsiydi.

Sədəf Gülmirəni yaxşı tanıyırdı. Salmanın ən yaxın dostunun qızı olduğunu bilirdi. Demək olar ki, bir evli kimi idilər. Gülmirə hələ ərə getməmişdən atası ilə bura tez-tez gələrdi. Salman ona həmişə «qızım» deyərdi. Öz atası da Gülmirəni adı ilə yox, «qızım» deyə çağırardı. Ancaq nə sirr idisə, Gülmirə bunun səbəbini özü də yaxşı başa düşmürdü. Salmanın «qızım» deməyi ona daha çox fərəh verirdi. Bəlkə də, bu ona görə idi di, Salman professor idi, elm aləmində tanınmış, adlı-sanlı adam idi?

Gülmirənin toyundan az sonra Salman Nadirə ilə məsləhətləşib, təzə ailə qurmuş cavanları evinə qonaq çağırmış, böyük bir məclis açmışdı. O zaman Sədəf qonağlığın bütün hazırlığını özü eləmişdi. Lap məclisin sonunda, yeyib-içib keflənmiş qonaqlardan kimsə, görünür bütün yaxşı sağlıqlardan əli çıxdığına görə (yenə də sağ olsun) səhərdən ayaq üstə gəzib yan yerə qoymayan Sədəfin (qonaq onun heç adını da bilmirdi, «bacı» deyirdi) sağlığına badə qaldırmışdı...

Gülmirə öz evlərinə girirmiş kimi, içəri keçdi, böyük çilçıraq asılmış bəzəkli qonaq otağından küncdəki otağa adladı. Bura professorun iş otağı idi.

Divar boyu düzülmüş kitab rəfləri, ayna kimi işıldayan yazı stolu, kreslo, stolun üstündə mərmərdən yonulmuş rəqqasə heykəli,

hər şey ona tanışdı. Bəzən bax, bu stulda Nadirə, onda isə Salman əyləşib saatlarla elmi söhbətlər, mübahisələr eləyərdilər. Gülmirə isə kənarda dayanıb qulaq asar, müdaxilə etməyə, bir fikir söyləməyə cəsarəti çatmazdı. Mübahisə gah Salmanın iş otağında, gah da Nadirənin xudmani kabinetində davam eləyərdi. Bəzən isə onlar bu cür söz-söhbətdən bezib usandıqlarından tamam ayrı şeylərdən, məsələn havanın yaxşı olub-olmamasından, qışın bərk gələcəyindən, Ceyhunun dərslərindən danışardılar. Sədəf belə hallarda burda yoxmuş kimi, səssiz-səmirsiz dolanar, iş-gücünü görər, elə bil, danışanları eşitməzdi.

Gülmirə kitab rəfini nəzərdən keçirə-keçirə düşünür, özünün də gələcəkdə belə bir kitabxana düzəldəcəyini qət edirdi: «Bu işə gərək çoxdan başlamış olaydım, lap tələbəlik illərindən... Keçib. İndi də gec deyil».

— Aha, budur!— ucadan səslənən Gülmirə göy cildli kitabı rəfdən çəkib götürdü: — Sədəf bacı, budu o kitab. Salman əmi gələndə deyərsən, yaxşı?— deyib getməyə hazırlaşdı.

— Yaxşı, deyərəm.

Sədəf Gülmirəni qapının ağzınacan ötürdü.

— Deyəsən, əmimgilin bu qonşuları köçüb?— deyə Gülmirə sağdakı təkotaqlı mənzilə işarə ilə soruşdu.

— Hə, iki həftə olar ki, köçüblər.

— İndi kim yaşayır?

— Vallah kimliyini bilmirəm; bir qoca arvaddı, ikicə dəfə görmüşəm.

Gülmirə pillələri düşəndə təzə qonşu bayıra çıxdı. O, saçı ağarmış, gözü eynəkli bir arvaddı. Gülmirənin dalınca baxıb Sədəfdən soruşdu:

— Bu cuvanəzən kimdi, a qonşu?

— Tanışdı.

— Maşallah, tez-tez gəlib-gedir.

— Nadirəynən, Salmannan bir idarədə işləyir.

— Bu da alimdi?

— Yox, alim deyil, ancaq olacaq.

— Bəxtəvər. İndi alim olmaq yaxşı şeydi. Çox yaxşı şeydi. Görürəm də. Yaxşı dolanırlar, maşallah. Mənimkilərin basaratını Allah bağladı. Elə bil, üzü ağ olmuşların göbəyini kəsib zavoda atmışıq, hamısı gedib orda işləyir. — Arvad bir qədər susub xəbər aldı: — Yaxşı, soruşmaq eyib olmasın, sən axşamlar burda qalmırsan?

— Axşamlar burda niyə qalıram, öz evimizə nə gəlib?

— Deyirəm axı, hər gün səhər tezdən pəncərədən baxıram, görürəm sən gəlirsən. Fikirləşirəm, yaxşı, bizim bu qonşu obaşdan hayannan gəlir? Sən demə, qulluqçusan, hə? Ayı neçəyə danışmısan?..

Sədəf əl saxladı. Əlindəki yaş əskidən su damcılayıb vedrəyə düşür, səslənirdi. Sədəf qızardığını, ürəyinin bütün qanının üzünə vurduğunu hiss elədi.

— Qulluqçu niyə oluram!— deyə çətinliklə dilləndi. — Adam öz bacısına əl tutanda...

— Nadirə sənin bacındı?

Sədəf başıyla «hə» dedi.

— Belə de...

Sədəf izah etməyə bşladı:

— Alimdi. Yazığın başını qaşımağa da vaxtı olmur. İşi-peşəsi elə kitab oxumaqdı, yazmaqdı. Mən də boş-bekar adamam...

— Belə de. Deməli ər də alimdi, arvad da!.. Yaxşı, ayda neçə min alırlar?

Sədəf narazı halda dedi:

— Mənciyəz bilmərəm, bacı, nəyimə lazımdı?

— Çox alarlar. Çox alarlar... Məvacibləri az olsaydı, maşın ala bilməzdilər.

Bu ara yaxşı ki içəridə telefon səsləndi, Sədəf tələsik evə girdi; bağdan qayıdan Nadirə ilə telefonda danışandan sonra daha qapıya çıxmadı: «3əhləm getmişin üzünü görməsəm yaxşıdı».

## DÖRDÜNCÜ FƏSİL

Sədəf Musabəyov qəsəbəsində, hündür, yaraşıqlı evlərlə qabaq-qənşərdə, tramvay yolunun o tərəfində ağ daşdan tikilmiş təkotaqlı Mənzildə yaşayırdı, oğlu Rəhimlə birgə... İki pəncərəli bu otağın qabağında balaca həyətyanı sahə vardı. Ləklərdə göy-göyərti əkilmişdi. Qapıya yaxın yerdə, kərpic hasarın dibində basdırılmış söyüd ağacı böyüyüb qol-budaq atmış, yayın tüğyanında bu kiçik ailənin yeganə kölgəliyi olmuşdu.

Sədəf həyət-bacaya göz gəzdirdi. Üst-üstə yığılmış köhnə çarpayı başını, əyri təkəri və başqa bir iki para gərəksiz şeyləri görəndə təəccüb elədi:

— Bu nə həngamədi, ay başına dönüm?— Sədəf öz-özündən xəbər aldı.

O, fikirli-fikirli qapını itələyib açdı. Gün dal pəncərədən içəri düşür, döşəmə üzərində ensiz zolaq kimi uzanırdı. Rəhim sağ tərəfdəki taxta çarpayıda şirin-şirin yatmışdı. Qalın dodaqları azca aralı idi. Əlinin birini başının altına qoymuşdu.

— Gedə elə pallı-paltarlı yatıb. Bilmirəm belə canına necə sinir?— deyə Sədəf söylənəndə Rəhim gözlərini açıb anasına baxdı, yuxulu-yuxulu gülümsündü:

— Gəlmisən?

— Bəs paltarlı niyə yatmısan, ay bala?

— Yorulmuşam, — deyə Rəhim dikəlib oturdu.— Uzanmışam, huş aparıb.

— O dəmirçixana nədi, açmısan orda? Yoxsa dəmirçilik etmək istəyirsən?

— Yox, ay ana. Müəllimlər tapşırıblar, köhnə dəmir-dümür yığıb məktəbə təhvil verəcəyik.

— Neynir axı məktəb köhnə dəmir-dümürü?

— Verirlər zavoda. Tramvay, trolleybus qayırırlar. O gün birini gətirmişdilər. Elə yaraşıqlı idi ki! Üstündə də yazmışdılar ki, məktəb şagirdlərinin yığdıqları metal qırıntılarından qayrılıb.

Rəhim boynunu uzadıb pəncərədən yığdığı dəmirlərə baxdı, sevinə-sevinə dedi:

— Görək bizim uşaqlardan kim çox yığacaq?

— Çox yığana nə verəcəklər?

— Əlbəttə, mükafat!..

Rəhim geri dönəndə ana qorxulu bir şey görürmüş kimi, içini çəkib irəli yeridi, oğlunun pencəyinin qolundan tutub diqqətlə fikir verdi:

— Pencəyinin burasına nə olub, ədə?

Rəhim günahkar adam kimi başını aşağı saldı, yumşaq səslə dedi:

— Bu? Dəmirə ilişib cırılıb, heç xəbərim olmayıb.

Sədəf Nadirəgildən qanıqara gəlmişdi. Bayaqdan oğlu ilə danışırdısa da, Nadirəgilin qonşusundan eşitdiyi «Qulluqçusan» sözü fikrindən çıxmır, onun ürəyini məngənə kimi sıxırdı. İndi də pencəyin çırılması... Bu, Rəhimin yeganə abırlı pencəyi idi. Altı ay bundan irəli babasının Gəncədən göndərdiyi pula almışdı. Elə bil, Rəhimin pencəyi cırılmamışdı, ananın ürəyi parçalanmışdı.

— Bu da sənin dəmirinin xeyri. Ehtiyatlı ola bilmirdin? İndi mən neyləyəcəyəm?— Müəllimlərin qarasıycan alıb-verməyə başladı:— Təzə çıxıb, məktəb uşağı hara, dəmir-dümür yığmaq hara? — Üzünü oğluna tutdu. — İndi onların sənə verdiyi mükafata pencək ala biləcəksən? Ay aldın ha!.. Dəftərdən-zaddan verəcəklər başınızı qatacaqlar.

Rəhim nə ağ dindi, nə qara. Oğlunun cavab vermədiyini görən ana səsini qaldırdığına, uşağı danladığına o dəqiqə peşman oldu: «İşdi düşüb olub...»

Rəhim daha uşaq deyildi, bu il doqquzuncunu bitirirdi. Böyüdükcə, ətə-qana dolduqca atasına daha çox oxşayırdı. O, qapını açıb evə girəndə Sədəf bəzən diksinirdi, elə bil, rəhmətlik Cahangir gəlirdi. Cahangir evdar, ailəcanlı adam idi. Külfətini yaxşı dolandırmaq üçün gecə-gündüz namusla, vicdanla çalışar, öhdəsinə düşən işi layiqincə yerinə yetirərdi. İdarəyə gəlib, müəyyən səbəblər üzündən ürəyincə işləyə bilməsəydi, maaş alanda elə bilərdi ki, halal zəhməthaqqına haram qatılıb. Elə bilərdi ki, kimsə deyir: «Axı, Cahangir, sən o qədər işləməmisən, o pulu niyə alırsan?..»

Cahangir sağ olsaydı bu ailənin nə dərdi vardı! Cahangir sağ olsaydı, pencəyin dəmirə ilişib cırılmasından sarı Sədəf əziz oğlunu heç belə danlayardımı?!

Cahangir dörd il bundan qabaq vəfat eləmişdi. Ölümündən azca qabaq baş vermiş, ölümündən azca sonra məlum olmuş kiçik bir əhvalat Cahangiri təkcə ədəfin deyil, bütün qohum-əqrəbanın, qonum-qonşunun, dost-tanışın nəzərində daha da ucaltmışdı: kimi buna heyrət eləmiş, kimi də mərhumun qəribə adam olduğunu deyib əlini yellətmişdi. Halbuki o, həyatında qəribə adam olmamışdı.

Cahangir balaca bir qulluq sahibi idi. Əlyazmaları fondunun geniş, işıqlı zalının küncündə çəpəki qoyulmuş stolun arxasında oturmuş arıq uzun bir kişinin illərin, əsirlərin saraltdığı, güclə oxunan qədim əlyazmalarını nəzərdən keçirdiyini çoxları görmüşdü. Fonda nə vaxt gəlsəydin, onu orada öz yerində tapardın, elə bil kişi stula yapışmışdı.

Mizin üstündə kitablardan, lüğətlərdən əlavə, həmişə zərif bir zərrəbin və bir armudu stəkan da olardı. Günorta işçilər yeməyə, istirahətə çıxanda o, qabağındakı əlyazmasını, zərrəbini bir kənara itələyər, şkafın aşağı gözündən qəzetə büküb evdən gətirdiyi kotleti, çörəyi, göy-göyərtini açıb ortalığa düzər, tələsmədən arxayın-arxayın yeyər, üstündən də qırmızı termosdakı çaydan bir stəkan içərdi. Onun fondda gördüyü iş də öz həyatı kimi zahirən adi və təmtəraqsız idi.

Əlyazmalarını oxuyar, adını, müəllifini, yazılma tarixini müəyyənləşdirər, kartoçkalara qeyd edər, kataloqlara düzərdi. O, gördüyü bu çətin işin üstünə adını da yaza bilməzdi. Bu haqq onun ürəyinə də gəlmirdi. Təkcə fondun əməkdaşları bilirdi ki, bu kataloqları Cahangir düzəldib. Uzun illərdi ki, Cahangir, bax beləcə, bu vəziyyətdə çalışırdı. Buraya gəlib müxtəlif məsələlər üzrə elmi-tədqiqat işi aparmaq istəyənlər, köhnə qəzet-jurnalları vərəqləyənlər çətinliyə düşəndə, bir sözü oxuya bilməyəndə başqalarına mane olmasınlar deyə, barmaqlarının ucunda Cahangirin yanına gələr, yavaşcadan: «Mirzə, bu sözü necə oxuyarsan?» — deyə soruşardılar. O da xoş üzlə, incimədən öz işini kənara qoyar, zərrəbini gözünə yaxınlaşdırar, çox keçməz ki, oxuyub mənasını da izah eləyərdi. Fondun işçiləri, buraya daim gəlib-gedənlər zarafatla deyərdilər ki, Cahangir bizim əlyazmaları fondunun canlı lüğəti, ensiklopediyasıdır.

Cahangirin Sədəflə evlənməsinə də elə onun «canlı lüğət» olması səbəb olmuşdu.

İndi adlı-sanlı professor olan Salman o zaman aspiranturada oxuyurdu. Əsərində istifadə etdiyi əlyazmaların tarixinin dürüst oxunuşunu və dəqiq tərcüməsini vermək lazım idi. Buna isə onun nə imkanı var idi, nə də bacarığı. Ərəb əlifbasını höccələyə-höccələyə oxusa da, fars dilini bilmirdi. Bütün gününü fondda keçirən Salman bu iş üçün ən münasib adam Cahangiri bilərək bir dəfə onu evinə «çay içməyə» dəvət elədi. Beləliklə Cahangirin Salmanın ailəsi ilə tanışlığı başladı. O, Sədəflə də burda tanış oldu, görüb bəyəndi. Salmanın baldızı, Nadirənin bacısı Sədəflə... Onda Sədəf Gəncədən bacısına dəyməyə gəlmişdi, yenə Gəncəyə qayıdacaqdı, ancaq iş elə gətirdi ki, qayıda bilmədi, Cahangirə ərə getdi.

Sədəf Nadirədən üç yaş böyük idi, dəmir yolu vağzalında yükdaşıyan Müseyibin ilki idi. Anaları vəfat eləyəndə Sədəfin səkkiz, Nadirənin beş yaşı var imiş. Müseyib ikinci dəfə evlənməmiş, Sədəf birinci sinifdən çıxıb ev-eşiyə «sahib» olmuş, balaca bacısı Nadirəni

saxlayıb oxutdurmuşdu. Sədəf özü körpə ikən Nadirənin həm anası, həm də bacısı olmuşdu.

Qızlarını ərə verəndən sonra Müseyib Gəncədə tək qalmışdı. Onun bir dərdi yox idi, belə hesab edirdi ki, yetimçiliklə böyümüş qızlarının ikisi də xoşbəxtdi...

Əvvəlcə Salman müdafiə elədi, alimlik adı aldı. Üstündən xeyli keçəndən sonra da Nadirə. Ancaq Cahangir elə o küncdə, köhnə əlyazmalarının içində qurdalana-qurdalana illəri yola saldı. Onun fikri bu idi ki, alim gərək, sözün həqiqi mənasında, alim olsun. Yarımçıq alimlikdənsə o adı üstünə götürməmək daha yaxşıdır. Salman son illərdə Cahangirlə görüşəndə təkidlə deyirdi:

— Ay Cahangir gəl təşkil eləyim, sən də müdafiə elə. Hamı bu saat elmə can atır, böyük imkanlar var, yollar açıqdır, tələbat çoxdur. Daşı gəl tök ətəyindən.

Cahangir:

— Yox qardaş,— deyirdi. — Mən öz gücümü hamıdan yaxşı bilirəm. Mən öz dağarcığımı çuvalların yanına sürüyə bilmərəm...

Salman ürəyində onun belə deməyinə gülür: «Bu zəmanənin adamı deyil», — deyirdi. Nadirənin isə Cahangirin sözlərindən çox xoşu gəlirdi. «Namuslu adamdır, — deyə düşünürdü. Öz yerini, ləyaqətini yaxşı bilir. Kaş başqaları da onun kimi fikirləşəydi...»

Cahangir hər dəfə işdən gələndə gözünün ağı-qarası olan Rəhimini bağrına basıb:

— Mənim arxam, mənim ürəyim, mənim köməyim!— deyərdi. Uşaq atasının bu nəvazişindən elə sevinərdi ki!..

Bir dəfə Sədəf Nadirədən eşitdiyi fikri ərinə söyləmişdi:

— Nadirə deyir ki, gərək uşağı çox istədiyini onun özünə bildirməyəsən, xarab olar.

— Yox Sədəf, səhv fikirdi. Övlada məhəbbəti gizlətmək yaxşı deyil. O məhəbbət uşağa çox şey öyrədir: birinci növbədə sevməyi öyrədir, ürəyiaçıqlıq öyrədir. Yoxsa uşaq soyuqqanlı olar, böyüyəndə

də ondan qayğıkeş, ürəyiyanan adam çıxmaz!..— deyə Cahangir bu «fəlsəfəyə» etiraz eləmişdi.

Öz əli ilə neçə il qabaq həyətdə basdırdığı söyüd yaşıl don geyinib altına kölgə salanda Cahangir xəstələndi. Üç gün yatdı, dördüncü gün durub ağır addımlarla həkimə getdi.

— Nə dedi həkim, ay Cahangir?

Cahangir ciddiyyətlə cavab verdi:

— Qorxulu bir şey yoxdur.

— Təki olsun, təki olsun!..

Üstündən xeyli keçəndən sonra Sədəf gördü ki, Cahangir əvvəlki adama oxşamır; nəsə fikirli-qayğılı gəzib dolanır, az danışır, az gülür. Bir də görürdün ki, dayanıb Sədəfə, Rəhimə uzun-uzadı baxır, üzünü o yana çevirib yavaşcadan köks ötürür.

Havalar soyumağa başlayanda bir səhər çay süfrəsi arxasında Sədəf xəbər aldı:

— Nə olub, ay Cahangir, bu uşağa, mənə niyə elə baxırsan?

Cahangir zorla gülümsəməyə başlayaraq:

— Doymaq istəyirəm, Sədəf,— dedi. Arvad təəccübləndi.

— Məgər bir yerə-zada gedəcəksən? Cahangir asta-asta başını tərpətdi:

— Hə, gedəcəyəm Sədəf...

— Hara Cahangir?

—…

— Demirsən bizə?

— Gedəndə...deyəcəyəm.

Təqribən elə o vaxtlar Cahangirin Yusif adlı bir tanışı onlara kəlmnşdi. Yeyib-içəndən sonra Cahangir ona dedi:

— Yaxşı oldu elə sən gəldin, yoxsa səhərdə — biri gündə idarəyə, yanına gələcəkdim.

— Nə olub ki?

— Qardaş, sən ictimai-təminat şöbəsində işləyirsən, belə işləri gərək beş barmağın kimi biləsən.

— Nəyi?

Cahangir azca duruxub, qəmli-qəmli dinləndi:

— Bu Yaxınlarda mənim köhnə dostlarımdan biri rəhmətə gedib.

Stəkan-nəlbəkini yuyub təmizləyə-təmizləyə söhbətə qulaq asan Sədəf soruşdu:

— Kimdi ay Cahangir? — Qadın sevindi ki, nəhayət, kişinin qaradinməzliyinin, dərdinin səbəbini bildi. — Bəs belə... Demək yaxın dostu ölüb!..

— Sən tanımazsan, Sədəf!

— Sənin dostlarının hamsını mən tanıyıram, Cahangir.

— Dedim ki, tanımazsan, o bizə gəlməyib. Sədəf Yusifə baxıb gülə-gülə:

— Onda yaxın dost olmayıbsınız, — dedi.

— Yox, Sədəf,— deyə Cahangir ona sarı baxdı.— Lap canbir qəlbdə olmuşuq.

Sədəf çiyinlərini çəkib dinmədi.

— Hə ölüb... Ailəsinin halı məni yaman düşündürür. Dolanışıqları...

— Arvadı işləmir?— deyə Yusif xəbər aldı.

— Yox.

— Neçə uşaqları var?

— Birdi deyəsən.

— Ayrı yerdən gəlirləri — filanları yoxdu?

— Yox. Ancaq kişinin maaşıynan dolanırdılar.

Sədəf köksünü ötürdü:

— Yazıqlar.

Cahangir özü də kənarda oturub kitab oxuyan Rəhimə, böyründə başsız qalan ailə üçün ah-uf eləyən Sədəfə baxıb qəmgin bir səslə:

— Yazıqlar!—deyə arvadının sözünü təkrar elədi.

— İş stajı nə qədərdir?— Yusif xəbər aldı.

— On səkkiz ildi.

Sədəf özünü saxlaya bilməyib yenə söhbətə qarışdı:

— Ay Cahangir, elə deyəsən, səninlə bir işə başlayıb o yazıq.

— Hə. Qəribədir... bir ildə, bir gündə doğulmuşuq, bir ildə işə getmişik, bir ildə evlənmişik. Rəhim anadan olan ili onun da oğlu olub. — Cahangir nədənsə qorxmuş kimi, tez əlavə elədi: — bircə fərqimiz var; o ölüb, mən hələ sağam...

— Pensiya kəsərlər.

— Təxminən nə qədər, Yusif?

— Vallah, indi hələ bir şey deyə bilmərəm. Gərək onun bütün sənədləri, kağızları əlimizdə ola ki, bilək nə qədər.

Araya ağır bir sükut çökdü.

— Yusif,—deyə nəhayət, Cahangir asta-asta dilləndi, —mən onun sənədlərini hazırlayacağam. Sənin yanına gətirəcəm. İşdi, əgər mən gətirə bilməsəm, Sədəf özü gətirər, ona kömək eləyərsən, onlara təqaüddən-zaddan bir şey düzəldərsən.

— Mən tanımıram ki, Yusif qardaş işləyən yeri.

Cahangir papiros çəkən deyildi, ancaq Sədəfin bu sözündən sonra Yusifin qutusundan bir siqaret götürüb yandıraraq sümürdü və daha heç nə demədi.

İyirmi gün keçdi, Cahangir bir qarlı qış axşamı yatdı, səhər isə durmadı. Deyirlər, hər gecədən sonra bir səhər açılır. O gecə isə Cahanigirin sonuncu gecəsi oldu, çünki o gecənin dalınca onun üçün bir də heç vaxt səhər açılmayacaqdı...

Anasının danlağından hələ də qırışığı açılmayan Rəhim köhnə, ağarmış bufetə sarı getdi, stəkanın içindən pul bükülüsünü gətirib Sədəfin qabağına qoydu:

— Pensiyanı gətiriblər...

Sədəf pula gözünün ucuyla da baxmadı. Onun xəyalında Cahangirin nigarançılıq həkk olunmuş solğun sifəti, qarlı qış günü qəbiristanlığa doğru gedən izdihamlı küçə, kişinin yeddisi çıxandan sonra masasının üstündən tapılan göy rəngli qovluq canlandı. Qulaqları küyüldədi, bacısı Nadirənin təzə qonşusunun «qulluqçu» sözü beynində uğuldadı.

Gözlərində yaş gilələndi. Belə hallarda ürəyinə dolub onu ovundurmağa çalışan hiss indi də ruhunun dərinliklərindən oyanıb təskin etdi. Sədəfə elə gəldi ki, Cahangir ölməyib, harasa uzun müddətli uzaq bir səfərə gedib, maaşının yarısını da ailəsinə göndərir, hər ay göndərir, hər ay...

## BEŞİNCİ FƏSİL

Əqdəmlə Gülmirə dörd yanı gül-çiçəkli, salxım söyüdlü fəvvarənin böyründə oturacaqda əyləşmişdilər. Axşamçağı idi, bulvarda getdikcə bir canlanma əmələ gəlirdi. Dənizdən əsən meh hovuzun ortasından xışıltı ilə göyə millənən fəvvarənin xırdaca damcılarını onların üzünə vururdu. Fəvvarənin dibində yanan göy-yaşıl işıq suların da rəngini yaşıllaşdırmışdı; fəvvarə özü hovuzun qırağındakı, yaşıl budaqlarını aşağı sallamış söyüd ağacına oxşayırdı. Elə bil, hovuzun ortasında da bir söyüd əkilmişdi.

Gülmirə ağ donunu geymişdi; təzə gəlinə bənzəyirdi. Özünü Əqdəmin böyrünə qısaraq başını onun ulduzlu paqonunun üstünə qoymuşdu. Nazik, qara məstdən tikilmiş uzunqunc zabit ayaqqabılarının yanında bir cüt qəşək, tökmə ayaq gözə dəyirdi, qızıl suyuna çəkilmiş dikdaban ayaqqabıda...

Gülmirənin yanaqlarını xoşbəxtlik, sevinc daha da allaşdırmışdı. Onun baxışlarında sonsuz bir məmnunluq və qürur vardı. O, Əqdəmin yanında olanda həmişə özünü belə hiss edirdi. Onların oturacaqlarının yanından gəlib keçən adamların Gülmirənin gözəlliyinə,

gəncliyinə heyrətlə, məftunluqla baxa-baxa keçmələri bu qüruru, bu məftunluğu bir az da artırırdı.

Gülmirə bu dəqiqələrdə elə cazibədar idi ki, baxanlar bir də dönüb baxırdılar. Xüsusilə bəzi kişilərin həris baxışlarını öz üzərində hiss eləyən Gülmirə həyəcanlanmaya bilmir, gah ağ koftasının ətəyini dartışdırır, gah özünü itirib başını aşağı dikir, gah da çarəsizlikdən qımıldanmır, oturduğu kimi dayanıb tərpənmirdi. Əqdəm özünü elə tutmuşdu ki, guya onların heç birini görmür, hiss eləmir. Amma, əslində o, gözucu hər şeyə diqqət yetirirdi. Əqdəmin zahiri laqeydliyi və sakitliyi Gülmirəni içəridən narahat edirdi: «Bəlkə, Əqdəmdə qısqanclıq hissi yoxdur? Əgər elə isə...demək, sevmir?» Gülmirə ağlına gələn bu ani fikirdən üşüyən kimi oldu və Əqdəmi sınamaq üçün dedi:

— Adam elə buna görə şəhərə çıxmaq istəmir də!..

— Nəyə görə, Gülü?—Əqdəm çevrilib Gülmirəyə baxdı.

— Hamısı adama elə baxır ki...— Gülmirə nə üçünsə «kişilərin» sözünü dilinə gətirməkdən ehtiyat elədi.— Elə bil heç qadın görməyiblər...

Əqdəm dinmədi. Gülmirə yenə başını onun çiyninə söykəyib:

— Sən məni o baxışlara qısqanmırsan, Əqdəm? —deyə xəbər alanda Əqdəm çox sakit və arxayın bir səslə:

— Yox, Gülü,—dedi.

Gülmirə, doğrusu, bu cür cavab gözləmirdi. Odur ki, ərköyün bir uşaq kimi özünü yırğaladı:

— Onda, demək, məni istəmirsən, eləmi?

— Sən niyə elə fikirləşirsən, Gülü?

— Deyirlər, qısqanclıq məhəbbətin yol yoldaşıdır, qısqanclıq olmayan yerdə məhəbbət də olmur.

— Düz deyil, əzizim. Qısqanclıq məhəbbətin zəhəridir. Onu həmişə öldürməyə, məhv etməyə çalışır. Bir də qısqanclıq inamsızlıqdan irəli gəlir.

— Sən mənə inanırsan?

— Çox!.. Özüm qədər, Gülü! Mən burdan gedəndə həmişə arxayın gedirəm. Elə bilirəm burda arvad yox, kişi qoyub gedirəm...

Bu sözlər Gülmirənin xoşuna gəldi, onun ürəyində baş verən narahatlığın üstünə su çilədi; o, nazla gülümsünərək başını yenə Əqdəmin çiyninə söykədi.

— Mən nə qədər xoşbəxtəm!.. Sən mənim yanımda olanda həmişə özümü bəxtəvər hesab eləyirəm, Əqdəm!

Bu ara göydə təyyarə uğultusu eşidildi. Əqdəm qımıldanmadı, ancaq Gülmirə o dəqiqə yerindən dikəldi, qıvrılıb səs gələn səmtə baxdı.

— Niyə baxırsan?

— O qədər öyrəşmişəm ki, haçan, harda təyyarə səsi eşitsəm, dayanıb göylərə baxıram. Mənə elə gəlir ki, o səsi gələn sənin təyyarəndir, içindəki də sənsən. Təyyarə lap alçaqdan uçanda neçə dəfə çaşıb əl də yelləmişəm. Bilirəm də ki, sən buradan çox uzaqlarda uçursan, yenə özümü saxlaya bilmirəm.

Əqdəm güldü. Təyyarə irəlidə, dəniz üzərində dövrə vurub asta-asta suya endi.

— Sənin təyyarən neçə motorludur, Əqdəm?

— Dörd motorlu.

Gülmirə köksünü ötürdü:

— Onda qorxusu yoxdur.

— Nə qorxu, Gülü?

— Heç...

Əqdəm onun nə üçün bunu soruşduğunu başa düşdü:

— Qorxma, Gülü, məni göylərin yeddi qatına qaldıran təyyarə dünyanın ən möhkəm, ən gözəl təyyarəsidir. Qolum-qanadım da sənin məhəbbətindir, Gülü. Onsuz mən uça bilmərəm!..

## ALTINCI FƏSİL

Sərin bahar axşamı idi. Ağ abbasılıqlar kimi göylərə səpələnmiş ulduzların arasında parlayan Ay yuxulu, yorğun göz təki yerə baxırdı. Geniş həyətdə, ucaboylu çinarların arasında qoyulmuş yaşıl oturacaqların birində məhəllənin yeniyetmələri əyləşərək deyib-gülür, zarafat edirdilər. Ağ köynək geyib saçını yana daramış oğlan qıçını-qıçının üstünə aşıraraq gitara çalırdı. Sarı, qalın simlərdən qopan, az qala insan kimi sözləri, kəlmələri aydın deyən titrəyişli səslər bu aprel gecəsinin məlahətini daha da artırırdı. Oğlan başını azca yana əyərək, Nadirənin çox sevdiyi «Gilavar» mahnısını oxuyurdu:

Ay gilavar, ay gilavar...

Bu sözləri əvvəl simlər, barmaqlar deyirdi, onların dalınca oğlan təkrar edirdi:

Ay gilavar, ay gilavar...

Nadirə balkonda qızıl söyüd çubuğundan toxunmuş kresloda əyləşib əlini üzünə söykəyərək hərəkətsiz halda buradan aydın görünən oğlanlara tamaşa eləyirdi. Onlar necə də xoşbəxt idilər; bu xoşbəxtlik onların şən, qayğısız gülüşlərindən, şirin zarafatlarından aydın hiss olunurdu. Onlar gah çalıb-oxuyur, gah da səslərini alçaldıb nəsə xısın-xısın söhbət edirdilər. On beş-on altı yaşları ancaq olan bu məhəllə uşaqlarının hərəsi bir ailənin əzizi, ümidi idi. Ceyhun lap qıraqda oturmuşdu. Əllərini sinəsində çarpazlayıb, lal-dinməz dayanmışdı, O, ancaq gülməli bir şey olanda uşaqlara qoşulub gülürdü. Nadirə burdan, yaşıl işıq yanan bu balkondan oraya tamaşa etdikcə oğlu haqqında — Ceyhun haqqında düşünürdü.

Ona elə gəlirdi ki, Ceyhun bu cavanlarla bir yerdə oynasa da, deyib-gülsə də, onlara qarışa bilmir; Ceyhunla onlar arasında nəsə soyuq, qüdrətli təkanla uçurulub dağıdılmalı bir şey var. O nə idi? Bunu Nadirə özü aydınlaşdıra bilmirdi.

Ceyhun — Qurbanzadələr ailəsinin yeganə övladı idi. İkincisini istəməmişdilər. Bütün həyatını, gücünü, bacarığını elmi işə sərf etməyi qarşısına qoymuş Nadirə uşaq saxlamağın, böyüdüb boya-başa çatdırmağın nə qədər çətin iş olduğunu elə Ceyhun dünyaya gələndən sonra başa düşmüşdü. Bax, indi o cavanların yanında kənardan gəlmiş bir adam təki dayanan oğlu, Nadirənin neçə əsərini əlindən almış, yaxud tələsik yazılmasına səbəb olmuşdu. Əlbəttə, Nadirə bu barədə də heç vaxt heç kəsə şikayət etməmişdi. Uşaq məsələsi üstündə Nadirə ilə Salmanın arasında həmişə söz-həkət olmuşdu:

«— Ceyhun təkdir, Nadirə.

— Bilirəm, mənə də onun təkliyi ağır gəlir.

— Elə isə qoy...

— Yox, yox, Salman... Vaxt yoxdur, vaxt yoxdur. Siz kişilər təsəvvür eləmirsiniz uşaq saxlamaq necə ağır işdir... Mənim elmi işim...

— Sən axı, elmi işçiliyindən əvvəl qadınsan! Gərək qadınlığın yadından çıxmasın, Nadirə!

— Çıxmayıb, bəsdir. Ceyhunu ağıllı-başlı boya-başa çatdıra bilsək, böyük məsələdir.»

Salman çarəsiz qalıb susar: «Elm bu arvadı arvadlıqdan çıxarıb kişi eləyib», — deyə düşünərdi. Ancaq Salman az sonra belə fikirləşməkdə yanıldığını başa düşərdi. Çünki Nadirə yaxşı ana idi, gözəl qadın idi. Doğrudur, idarədə, ictimaiyyət arasında ona qadından daha çox bir alim kimi baxırdılar, hərəkətlərində, mühakimələrində kişiyə oxşayırdı, cəsarətli idi.

O, saçlarını qısa vurdurmuşdu. Xına qoymuşdusa da, ağ tüklər öz varlığını hiss etdirirdi. Gözlərində, yanaqlarında hələ də qızlıq

təravəti qalan Nadirənin yalnız arıq, çəlimsiz, damarları görünən əlinin ağ dərisini örtməyə başlayan incə, zərif qırışlar onun yavaş-yavaş qocaldığını göstərirdi. Bunu heç kəs, hətta, Salman da görə bilməzdi, bunu Nadirə təkcə özü hiss eləyir və hərdən bu barədə düşünəndə ürəyini yüngül qüssə bürüyürdü.

Nadirə ayağa qalxıb iş otağına keçdi, yazı masasının orta gözündən qalın dəftəri götürüb qabağına qoydu. Bu, gündəliyi idi. On beş ildən çoxdu ki, bu dəftərə həyatının yadda qalan, ürəyinə təsir eləyən hadisələrini yazırdı.

Nadirə dəftəri vərəqlədi. Müxtəlif tarixlər, müxtəlif qələmlərlə yazılmış bir səhifəlik, yarım səhifəlik, bəzən bircə cümlədən ibarət yazılar, qeydlər... İndi, üstündən illər keçəndən sonra onlar Nadirənin özü üçün də, bir roman kimi, maraqlı idi. Budur, o gündəlikdən bəzi səhifələr...

«5 yanvar 194...-ci il.

Dəlicəsinə sevdiyini bilmək, kiminsə, haradasa onun haqqında fikirləşdiyini düşünmək cavan bir qız üçün dünyanın ən böyük səadətidir. hələ neçə illər qabaq, aylı gecələrdə atamı və bacımı yuxuya verəndən sonra Gəncə çayının şırıltı ilə axan sularının səsinə qulaq asaraq bərkə-boşa düşməmiş ürəyimi isti, mehriban bir nəfəs kimi isindirən bu qəribə əsrarəngiz duyğu barədə saatlarla xəyala dalardım...

İndi budur, o xoşbəxtlik mənə də nəsib olmuşdur. O gödək, qaynar baxışlı, sıx qara saçlı oğlan — Salman iki ilə yaxındır ki, məni rahat buraxmır; necə deyərlər, göz verib, işıq vermir. Kölgəmə dönüb, hara gedirəm — arxamca sürünür. Dərsə gedirəm, kitabxanaya gedirəm, kinoya gedirəm — mütləq dalımca gəlir. Elə bil məni güdür, yaxud hara gedəcəyimi irəlicədən ona xəbər verirlər. Kafedranın aspirantıdır. Hərdən müəllimimiz xəstə olanda onu əvəz edir, bizə dərs deyir. Yaxşı, sərrast danışan olsa da məni görən kimi dili-dodağı

təpiyir, çaşır. Tez-tez qəzetlərdə, jurnallarda məqaləsi çıxır. İnadkarlığı xoşuma gəlir.

«Sən istəyirsənmi ki, mən bədbəxt olum, Nadirə?»-deyə o, səsi titrəyə-titrəyə bu gün məndən xəbər aldı. Dillənə bilmədim. O: «Mənim xoşbəxtliyim səndən asılıdır. Məni ancaq sən xoşbəxt eləyə bilərsən!»— dedi.

Mənim ona yazığım gəlir. Qəlbimin dərinliklərindən bu qarayanız oğlana bir şəfqət hissinin baş qaldırdığını duyuram. Bəlkə, elə sevgi bu nöqtədən başlayır? Bilmirəm. Mən bu dəqiqə üzmək bilmədiyim halda suda boğulanı xilas etmək üçün özünü çaya atmaq istəyən adama oxşayıram».

«15 oktyabr 194...-ci il.

Salmanı bir gün görməyəndə darıxıram. Bilmirəm bu məhəbbətdir ya yox. Hərdən mənə elə gəlir ki, bizim bu sevgimizin axırı xoşbəxtliklə nəticələnməyəcək. Nə bilim, hər halda qorxuram».

«28 noyabr 194...-cu il.

Böyük tənəffüs vaxtı, qrupumuzun qızları uzun partanın dövrəsində yığışıb halay vuranda (kimi kolbasa-çörək yeyirdi, kimi əl sumkasının güzgüsündə özünə baxıb üz-gözünə sığal verir, kimi də axşam gördüyü kinofilmi ağızdolusu tərifləyirdi), oğlanlardan biri qapının ağzında dayanıb məni səslədi:

— Nadirə, ay Nadirə!

Mən dikəldim

— Nə var?

— Bir kişi səni soruşur.

Ürəyimdə min fikir, götür-qoy eləyə-eləyə qapıya sarı yönəldim. Sinif otağı uzun olduğundan bu başından - o başına getmək üçün xeyli vaxt çəkirdi. Bu müddət ərzində mən geyim-keçimimə yaxşıca fikir verə bildim. Üst-başım abırlı idi. Qurban olum atama, məni Bakıda oxuduğum bu üç il ərzində heç «neynim, necə eləyim» deməyə qoymayıb. Sinfimizdə üç yaxşı şıq geyinən varsa, biri mənəm.

Əynimdə son dəbdə tikilmiş şal paltar, yun jaget, dikdaban çəkmə, zərli corab... Bütün bunları atamın Gəncədən göndərdiyi pulla, özümün təqaüdümdən artıq qalan paraya almışam. Təkcə indi yox, həmişə arzum bu olub ki, əlim çörəyə çatsın, o kişini ağır yük altından xilas eləyim. Onun daha çiyin sümüklərini də kəndir kəsdi. Gecəli-gündüzlü vağzalda yük daşıyan, beli bükülü atamı evdə, küçədə, bazarda şax-dik yeriyən görəndə, nə gizlədim ki, təəccüblənməyə bilmirəm. O bu qədər ağır yük altından çıxandan sonra yenə dik yeriyə bilir.

Sinif qapısından çıxanda, pilləkənlərin başında dayanan atamı görəndə az qaldım qanadlanıb uçam. Özümü tələsik kişinin üstünə atıb boynuna sarıldım. Yanımızdan ötüb-keçən tələbə-müəllimə fikir vermədən cod, sərt tüklü üzündən öpdüm.

«Qurban olum lələmə» deyə-deyə halını, dolanışığını, Sədəf bacımın kefini xəbər aldım. Şükür ki, hər şey öz qaydasında idi. Salamatlıq idi.

— Elə birdən beynimə düşdün, bala. Bacına dedim, gedib uşağa baş çəkim, axşama da qayıdaram.

Mən ona ürəyimdə sonsuz minnətdarlıq hissi duyurdum: mənim həm atam idi, həm anam. Mən onun ata-ana ürəyinin nigarançılığının səbəbini duyurdum, yaxşı başa düşürdüm. O məndən yana nigaran idi. Mən indi körpə, saçlarına lent bağlayan qız uşağı deyildim. Məni irəlidə, kim bilir nələr gözləyirdi: həyatda özümə yol seçməli, ömürgün yoldaşı tapmalı, səhv eləməməli idim.

On dəqiqə nə tez gəlib keçdi. Zəng içəri vuruldu. Azəri müəllim — o mehriban və qayğıkeş insan gümüşü saçlarına daraq çəkə-çəkə gəlib yanımızdan keçəndə gözü bizə sataşdı. Ağzımı doldurub ondan icazə istəməyə imkan vermədi:

— Deyəsən, atandır, Nadirə?

— Bəli, müəllim,— dedim,— rayondan gəlib.

— Yaxşı, yaxşı. —O, arada atama da salam verdi. — Bu saat səni azad eləyərəm.

Asta addımlarla sinfə girib qapını arxasınca bağladı. Onu atama ağızdolusu tərifləyib yenicə qurtarmışdım ki, Salmanın böyrümüzdə hərləndiyini gördüm. Gördüm və özümü itirən kimi oldum. Salman qoltuğunda tutduğu kitabı böyrünə bərk-bərk sıxaraq dəhliz boyu o tərəf-bu tərəfə addımlayır, bəri başa gələndə bizim nə barədə danışdığımızı bilmək istəyirmiş kimi, addımlarını yavaşıdırdı.

Ürəyim sıxılmağa başladı. İstədim lələmə deyəm: —Bax, budur o oğlan, mənə gecə-gündüz rahatlıq verməyib yalvarıb yaxaran. Bax, yaxşı bax. Gör xoşuna gəlirmi! Axı sən adam tanıyansan. Axı sən adam sərrafısan. O sənin xətrini çox istədiyin, görmək üçün Gəncədən bura gəldiyin qızını xoşbəxt eləyə biləcəkmi?

Amma heyif ki, mən bunların heç birini ona — öz əziz atama deyə bilmədim. Üzüm gəlmədi, həya məni qoymadı. Birdən mənim elə bil gözlərim açıldı. Salman atamı təpədən-dırnağa diqqətlə nəzərdən keçirirdi. Aman Allah, onun əynindəki paltarlar nə qədər də köhnə idi. Mənimkini demirəm, (bu qadın paltarıdı) Salmanınkılarla heç müqayisəyə gəlməzdi. Salman çox səliqəli və şıq geyinməyi xoşlardı. Dəsmalı ütülü, köynəyi qraxmallı olardı. Sonra özümün bu yersiz və sadəlövh müqayisəmə güldüm. Onları — iki bir-birindən fərqli aləmi mən niyə müqayisə edirdim. O —adicə yükçü babadır,bu — aspirantdır.

Salman orada çox vurnuxandan sonra çıxıb getdi.

Atamla doyunca dərdləşdik. Mənə ağıllı olmağı dönə-dönə tapşırdı, cibimə pul qoydu. Axşam isə onu aparıb yola saldım.

İndi vağzaldan yenicə gəlmişəm. Atam, yəqin ki, Biləcərini çoxdan keçib. Ancaq bir şey məni yaman düşündürür: görəsən, Salman atamın yükçü olduğunu biləndə nə deyəcək? Sabahın ən böyük sualı budur».

«29 noyabr 194...-ci il.

Təəssüf ki, — mənim bütün beynimi, ürəyimi gəmirən, rahatlığımı əlimdən alan bu sual sabah da həll olunmadı. Həqiqətən, bu suala qəti və aydın cavab almaq mənə çox lazım idi. Mənim xüsusiyyətim belədir ki, çoxlarının adi şey sanıb əhəmiyyöt vermədiyi məsələlər mənim aləmimdə bəzən ən böyük problemə dönür. Günlər, aylar, bəlkə də illərlə məni düşündürüb, yuxumu ərşə çəkir. Mən indiki əqidəm və ağlımla, həyatı buz üzərində rəqsə bənzədirəm. Ağ ipək don geyib qu quşu kimi buz üzərində uçmağa — süzməyə başlayan rəqqasə gərək hər addımını yox, kiçicik bir hərəkətini belə ölçüb-biçməlidir. Yoxsa o, tez yıxılıb minlərlə tamaşaçı [bizim ətrafımızdakı adamları da mən cibində daimi bileti olan tamaşaçılara bənzədirəm] önündə xəcil ola bilər. Hələ şikəst olacağını, ömrü boyu əzab çəkəcəyini demirəm. Bax, buna görə də Salmanla mənim aramda yaranıb gündən-günə bizi bir-birimizə yaxınlaşdıran dolaşıq, naməlum duyğuları bir az da kələf kimi qarışdıran bu məsələ—dünən atam yanıma gəlib-gedəndən xüsusən onu dəhlizdə Salman görəndən sonra zehnimi, fikrimi daha dərindən məşğul eləməyə başladı.

Bir hadisə olmasaydı, bəlkə də mən buna o qədər də əhəmiyyət verməzdim. Bizim sinifdə məşhur bir alimin qızı oxuyur. Elə gözəl də deyil, elə ağıllı da deyil, adi qızdır. Amma onu qonşu qrupdan ağıllı-kamallı, gözəl bir oğlan istəyir. Oğlan o qədər gözəldi ki, elə bil şəkildi. Nağıllarda deyilən kimi, yemə, içmə, otur, gül camalına tamaşa elə. Onların ikisini yanaşı görəndə adam istər-istəməz təəccüb eləyir. Bu namünasib məhəbbətdimi, ya həqiqi sevgidir? Deyə bilmərəm. Amma bu yaxınlarda rəfiqəm mənə dedi ki, burada məhəbbətdən çox, haqq-hesab məsələsi var. «Nə haqq-hesab?»— deyə təəccüblə xəbər aldım. «Oğlan qıza yox, atasının adına, şöhrətinə, puluna aşiq olub». Düzü, bu söz ağlıma batmasa da fikrə getdim, az sonra isə öz taleyim barədə də düşünməli oldum.«Əgər salman bilsə mənim atam yükçüdü, görəsən bu işə necə baxar?» Bu sual qarşısıalınmaz bir qüvvəylə mənim varlığıma hakim kəsildi.

Bu gün dərsdən iyirmi dəqiqə qabaq Salman mənə dekanlığın qabağında rast gəldi. Salamlaşdıq. Kefimi soruşdu. Həmişə olduğu kimi, indi də uçunduğu hiss olunurdu; mənimlə söhbət etdiyinə görə özünü xoşbəxt sandığı da gün kimi aydın idi. Həsrətlə üzümə baxıb gözlərini gözümə zilləyərək ani fikrə getdi. Onun baxışları altında mən əzildim və uzaqlaşmaq istədim.

— Nadirə!— deyə məni səslədi. Dabanım üstə geri fırlanıb dayandım.

— Dünənki kişi kim idi?

— Dünənki kişi?

— Hə.

— Atam idi.

— Atan?

— Hə. Duruxdu.

— Doğru sözündü?

— Hə, vallah!..

Bu söhbət əsnasında mən ona çox fikir verdim ki, bəlkə üzündən-gözündən məni narahat eləyən suala cavab tapa bildim. Yox, o, sakit və toxtaq idi.

— Harada işləyir, Nadirə?

Ürəyim içəridə əsdi. Qəribə idi, bayaqdan atamın kim, nəçi olduğunu Salmana açıb demək istəyən mən indi bu fürsət əlimə düşəndə sıxıldım. Üzümü ani olaraq döndərib küncdə, əlini irəli uzatmış tunc heykəlin yanındakı «Filoloq» divar qəzetinə nəzər salıb birdənbirə ona dedim.

— Vağzalda işləyir,— sonra heç özüm də bilmədim necə oldu ki, əlavə elədim:— hambaldı.

Lənətə gələsən şeytan! Bu söz hardan dilimə gəldi? Axı «yükçü» sözü bundan çox-çox abırlı sözdü. O niyə yadımdan çıxdı, niyə? Orda bu sözü dilimə gətirəndən sonra nə hala düşdüyümü deyə bilmərəm, ancaq indi bu söhbət yadıma düşəndə yenidən alnıma tər

damcıları gəldi. Salman bu an mənim xəcalət çəkdiyimi duydu və mülayim bir tərzdə:

— Amma, maşallah, sağlam kişidir, — dedi. — Sonra nəsə əlavə etmək istəyirdi ki, zəng çalındı və mən sinfimizə qalxdım».

«15 oktyabr, 195...-ci il.

Bu gün mənim həyatımda ən əziz gün hesab olunsun gərək. Əvvəllər mənə elə gəlirdi ki, toy günü adam ilhamı aşıb-daşan şair ola bilər. İstəyirəm gündəliyimə bu hisslərimi köçürəm, ancaq bacarmıram, «bu gün mənim toyumdur, bu gün mənim toyumdur!» sözlərindən başqa dilimə heç nə gəlmir».

«10 may 195...-cü il.

Bu gün Ceyhunun — balaca, totuq balamızın bir yaşı tamamdır. Xudmani məclis düzəltmişik. Bax, bu saat mən bu sətirləri gündəliyimə yazan dəqiqə Salman o biri otaqda qonaqlarla yeyib-içir. Nə qədər ömrüm var, sənin üçün ad günü eləyəcəyəm, oğul. Bəxtəvər ol, mənim balam!»

«8 iyul 195...-cü il.

Atam bizə pul göndərib. Mənim zəhmətkeş atam...

Ürəyinə qurban olum, ata! Mən sənin necə pul qazandığını, bizi necə böyütdüyünü heç vaxt olduğu kimi təsəvvür eləyə bilməzdim, əgər bir dəfə səni vağzalda cüssəli, iki sən boyda olan kişinin yükünü taksi dayanacağına aparan görməsəydim... Gördüm, o gündən sonra sənin puluna alınan paltar, yemək mənə sevinc yox, dərd-qəm oldu, ata!.. Sənin yük altında əyilən belin, brezent qayışların qara-qançur elədiyi çiyinlərin, alnından axan tər damcıları, duz bağlamış köhnə əsgər köynəyin gözümün qabağından çəkilmir, ata!.. Bilirəm, sən bizdən nigaran olduğun üçün bu pulu göndərirsən, ata! Bilirsən, əlimiz aşağıdır, borcumuz var. Salman sən göndərdiyin pulu görən kimi sevinəcək...»

«18 aprel 195...-cü il.

Srağagün Salmanla ilk dəfə sözləşdik. Axşam evə şad gəldi. «Nə var?» — xəbər aldım. Sevinə-sevinə: «Dost» yanına çağırmışdı,— dedi. «Dostun» kim olduğunu soruşmadım, çünki bilirdim. Dalağım sancdı. «Neynirdi?»—«Məqalə yazmağı tapşırdı»— «Kimin barəsində?»—«Eloğlunun».

Eloğlu bütün el-obanın sevimlisidir. Ən ucqar kənddə belə onu tanımayan adam tapmazsan.

Mən biləndə ki, Salman, Eloğlunu mətbuatda tənqid etmək, rüsvay etmək tapşırığını alıb, yuxusuz gecələrdə yana-yana qələmə aldığı o böyük tədqiqat əsərini heç-puç eləmək tapşırığını alıb, dəhşətə gəldim. Onu, «dost» deyilən zəhimli adamı ürəyimdə lənətləyib, Salmandan soruşdum: «Bəs sən nə dedin?» Güldü. «Nə deyəcəyəm? Əlimi qoydum gözümün üstünə, dedim baş üstə! Ayrı nə demək olar?»

Məni ağlamaq tutdu. Salman özü də bilmədən uçuruma yuvarlanırdı. Tək özü getmirdi, Eloğlunu da ləkələyir, gözdən salırdı. Kim bilir, o məqalə çıxandan sonra onun halı necə olacaq. «Sən yazmamalısan, Salman! Sən buyruq qulu olmamalısan, Salman!»— deyə bərkdən qışqırdım. Salman qorxu içərisində irəli gəlib əli ilə ağzımı qapamaq, səsimi boğmaq istədi, elə bil, «dost» bu saat qapının dalında dayanıb, bizim söhbətə qulaq asırdı. O, acıqlı-acıqlı dedi: «Nadirə, sənin başın xarab olub!»

Mən o axşama qədər ondan belə söz eşitməmişdim. Sanki üstümə qaynar su töküldü, bu mənim aləmimdə ən ağır təhqir idi. O sözlər nitqimi batırdı. Daha ona heç nə deyə bilmədim. İstəmədim də...

İki gecə yatmadı, yazdı. Mənə oxumadı. Özüm də maraqlanmadım. Qəzetdə çap olundu, Salmanın məqaləsini ancaq onda oxuya bildim. Başımı gizlətməyə yer axtarırdım, adamların üzünə şax baxa bilmirdim, oğurluq, qəbahət eləmiş adamlara oxşayırdım. Məqalə Eloğlunun bütün yaxşı cəhətlərini bir kənara qoyur, nöqsanlarını qabardır, heç ona dəxli olmayan şeylərdə ittiham edirdi. Ərim də olsa,

mən bu sözləri deməkdən özümü saxlaya bilmədim: vicdansız adam!..»

«30 dekabr 195...-cü il.

Yazıq bacım Sədəf balası Rəhimlə tək qaldı. Fağır Cahangir, nigaran Cahangir! Necə gözəl insan idi!...»

«13 noyabr 196..-cı il.

Qələm əhli gərək heç vaxt məsuliyyət hissini itirməsin, vicdanının, qəlbinin əksinə getməsin, yalan yazmasın. İnsan özü qalmır, amma yaratdığı qalır. Yaxşısı da, pisi də... Gərək elə əməl sahibi olasan, elə əsər qoyub gedəsən ki, sağlığında özün, qohum-əqrəban, dostun-tanışın, öləndən srnra isə nəslin xəcalət çəkməsin!...

Mən bu sözləri ona görə yazıram ki, Salmanın acı taleyi gözümün qabağındadır. O məqalə unudulmur. Eloğlunun adı yaşadıqca, əsəri qaldıqca o məqalə də yad olunacaq və Salman pis bir adam kimi həmişə söyüləcək...

Budur, Salmanın məqaləsi çıxandan on iki il keçir... İndi nə Eloğlu sağdır, nə də «dost», amma Salmanın töhməti yaşayır. Bizim bir alim yoldaşımız Eloğlu haqqında doktorluq dissertasiyası yazıb, orda Salmanın məqaləsinin daşını daş üstə qoymayıb. Qəribə burasıdır ki, o əsəri Salman özü də oxudu (ona göndərmişdilər), özünün rəhbər olduğu şöbədən də keçirdi — tər tökə-tökə, xəcalət çəkə-çəkə... İndi o elə vəziyyətdədi ki, qəzetin saralmış həmin nömrəsini bütün kitabxanalardan yığışdırmaq istərdi. Tutaq ki, bu mümkündür. Bəs axı onu insanlar oxuyub, insan isə haqsızlığı heç vaxt unutmur. Bəli, bir nəsil oxuyub o məqaləni. Bir nəsli isə, «yığışdırmaq, məhv etmək olmaz!..»

Nadirə ah çəkib dəftəri qatladı və ayağa qalxdı.

## YEDDİNCİ FƏSİL

— Ceyhun.

— Nədi?

— Yaxın gəl görüm.

Ceyhun anasının nə üçün çağırdığını müəyyən eləməyə çalışırmış kimi, uzun kirpikli ala gözlərini ona dikdi və bu gün bir günah işləyib-işləmədiyini, pis iş tutub-tutmadığını yadına salmağa çalışaraq irəli yeridi. Çünki anası onu belə çağıranda həmişə ciddi bir söhbət başlanırdı; Ceyhun ya danlanır, ya da anası bərk hirslənirdi.

— Bayaq balkondan fikir verirdim. Sən nə üçün orada yad kimi dayanmışdın?

— Bəs neyləyəydim? — deyə qorxulu bir hadisə olmadığını başa düşən Ceyhun gülümsədi.

— Niyə qaynayıb-qarışmırsan onlara?

Ceyhun çiynlərini çəkdi.

— Onların arasında məgər dostun yoxdur?

— Yox.

— Niyə? Dostsuz, yoldaşsız adam olar? O qoca motorçunun oğlu pis oğlandı?

— Onun ancaq gitara çalmağından xoşum gəlir.

— Demək, özündən xoşun gəlmir, hə? Başqa uşaqlardan necə, onlardan da?

Çətin sual verilmişdi. Ceyhun nə deyəcəyini bilmirdi. Salman iş otağından çıxıb gümüşü saçlarına sığal verib dedi:

— Apar maşını qoy yerinə!

Ceyhun anasının sualını cavabsız buraxdı. Bu fürsət əlinə göydən düşmüş kimi açarı atasının əlindən qamarlayıb aldı, qaça-qaça otaqdan çıxdı. Pillələri şappıldada-şappıldada düşdü.

Salman maşın sürməyi oğluna gecən il öyrətmişdi, bağda olanda. Ceyhunda maşına böyük həvəs var idi. Üç-dörd ay bundan qabaq, Salman Moskvaya gedəndə Ceyhun təyyarə meydanından maşını özü qaytarıb gətirmişdi.

Nadirə üzünü Salmana tutub:

— Bu uşaq maşın sürməyə yaman can atır. Deyəsən, şoferdən-zaddan olacaq, — dedi.

Salman qabağına xalça sərilmiş divanda oturdu, qarşısındakı pianonun qara aynasında özünə fikir verib saçını əli ilə geri yatırtdı:

— Şoferə bax, a!.. Bizim oğlumuz şofer?

— Elə söz deyirsən ki,... — Nadirənin dodaqları qaçdı.

— Yox, canın üçün, dırnaqlarına döyə-döyə alim eləyəcəyəm onu!

— Alim?

— Bəs necə?

— Zornan?

— Ağzı nədir olmasın! Yox bir, desinlər, professor Salmanın oğlu şoferdi. Onda gərək mənim bağrım çatlaya.

Nadirə dinmədi.

— Sənin, mənim qabağıma kim düşüb, qolumuzdan kim tutub qaldırıb? Heç kəs! Nə böyük çətinliklərlə gəlib ortalığa çıxmışıq. O niyə çıxmasın? Nə şərait istəyir varıdı. Qabağında da şir kimi atası durub. Niyə olmasın, Nadirə?

— Gərək həvəsi, qabiliyyəti ola!

— Olar, olar.

Nadirə gəlib ərinin yanında əyləşdi: indi qənşərindəki pianonun qara aynasına iki şəkil düşmüşdü. Nadirə Salmana sarı döndü:

— Sən, deyəsən, elə Gülmirəni də «dırnaqlarına döyə-döyə» alim etmək istəyirsən, — deyə çoxdan demək istədiyi, münasib fürsət gözlədiyi sözü Salmanın üzünə vurdu.

— Gülmirəni?

— Hə.

— Niyə, ona nə olub ki?

— O olub ki, savadsızdır, ondan alim çıxmaz!.. Sən şöbə müdirisən, şöbəyə işçi götürəndə birinci növbədə onun elmi qabiliyyətini yoxlamaq borcundur. Yoxsa bir adam illzrla elmi-tədqiqat institutunda işləyib, dövlətin ətək-ətək pulunu alıb xərcləyir, əvəzinə nə verir? Heç nə! Özünü də aldadır, səni də, idarəni də! Bu cinayət deyilmi?!

— Axı Gülmirə...

— Bilirəm, deyəcəksən ki, axı biz onun atası ilə dostuq, ailəvi dostuq.

— Bəli.

— Özün görürsən ki, mən həmişə o ailəyə çox böyük hörmət etmişəm, edəcəyəm də. Ancaq bu tamam ayrı məsələdir.

— Yəni deyirsən,— Salman yavaş-yavaş səsini qaldırmağa başladı, — mən öz dostumun qızını şöbəmə götürməyəydim?

— Gərək götürməyəydin, Salman!— Nadirə qətiyyətlə bildirdi. — O bəlkə də, müəllim olardı, bəlkə bir idarədə katibəlik edərdi. Ancaq alim... Sən elə bilirsən ona yaxşılıq eləyirsən?

— Yaxşılıq eləmək borcumdur. Bəs mən nə günün dostuyam? Nə zaman ona yaxşılığım keçəcək?! Şöbəyə neçə adam götürürəm, biri də olsun o!— Salman sözünə ara verib davam etdi! —Deyirsən, savadsızdır, kişinin qızı beş il universitetdə oxuyub, əlində gül kimi diplomu...

—Əlində diplomu olan hər kəs alim ola bilməz, Salman!

— Çox qəşəng ola bilər. Yoxsa mən, sən anamızın qarnında alim olmuşuq?

— Yox.

— Çalışmışıq öyrənmişik.

— Mən çox ümüdsizəm, Salman!— deyə Nadirə mümkün qədər səsinə yumşaq ahəng verməyə çalışdı.— Çünki o, şöbədə,

mənim gözümün qabağındadır. Sən öz otağında olursan, görmürsən. Ancaq mən görürəm. İşə gəldimi, kitabı, kağız-kuğazını açıb qoyur qabağına. Ancaq oxumur. Çalışmır. Bir az xəyalpərvərdir, deyəsən, gözü elə göylərdədir.

— Neyləsin, cavandır, yazığın yarı canı göydədir axı!..

— Bilirəm Əqdəm göydədir. Ancaq nə olsun, bunun elmə nə dəxli var? Alim olmaq istəyən öz fikir və düşüncələrini bəşəriyyət üçün mənəvi sərvətə çevrilmiş sənətkarı həvəslə, ehtirasla tədqiq etməlidir. Üzdən baxanda çox adi görünən sözdən söz çıxarmağı, ondakı ictimai mənanı, dərin məzmunu şərh etməyi bacarmalıdır. Ancaq sənin Gülmirən bu işin öhdəsindən gələ bilməyəcək, Salman! Onda qabiliyyət olsaydı, bu arzu onu daxilən dəyişərdi. Gülmirə bu böyük, çətin və nəcib işin qarşısında öz acizliyini açıq-aydın görür. Hər kölgədə böyüyəndən, onun-bunun daldasında gizlənəndən tədqiqatçı olmaz! Alimlik həvəsinə düşən Orxan kimi çalışmalı, Cəfər kimi özünə qarşı tələbkar olmalıdır. Onları bir dəqiqə boş gəzən görməzsən. Tənəffüsdə də, çörək yeyəndə də gözləri elə kitabdadır.

Orxanın adını eşidəndə Salman vəcdə gəldi:

— Sən yaxşı bilirsən ki, Orxanı mən yetişdirmişəm, o mənim tələbəm olub. İndi də Gülmirəni öyrədərəm, o da çalışar, fəallaşar.

— Quyuya su tökməklə sulu olmaz.

— Olar, olar. Ondan hərəkət olar, məndən bərəkət. —Professor bir an susub nəsə fikrə getdi, sonra dedi:—Pay atonnan! İllər nə tez gəlib keçir, Orxan, Gülalı mənim gözümün qabağında böyüdü. Orxan çəlimsiz bir oğlan idi. Elə utancaqdı ki, lap qız kimi... Yadındadır, Nadirə, sıxıla-sıxıla bizə gələrdi:

— «Professor, bir balaca məqalə yazmışam, vaxtınız olsa, baxın»,— deyərdi. Cəfər isə Nikolayı taxtda görüb, köhnə qurddur, pusquda duran bir yırtıcıdır. Əlinə fürsət düşsə, aman verməz, adamın boynunu vurar. Onun dabbaqda gönünə bələdəm. Su səhəngi suda sınar. Dilinin bəlasına düşdü, getdi neçə il yatıb gəldi. Amma yenə

dilini dinc qoymur. Fikirləşə ki, bəs Salman məndən bir-iki yaş da balacadı, amma professordu. Bir nəticə çıxarda ki, o hələ indi kiçik elmi işçidi, indi iamizədlik yazmaq istəyir. Prezident olmasaydı, yuxarıdan zəng çalmasaydılar, onu şöbəyə yaxın buraxan kim idi?

— Elə burada səhv eləyirsən, Salman. Cəfər Gülmirədən min dəfə savadlı adamdır. O, elmimizə çox xeyir verə bilər, nəinki sənin dostunun qızı.

— Heyif ki, yetmişində öyrənir, gorunda çalacaq.

—Onu bilmək olmaz. Obyektiv adamdı. Obyektivlik isə amansızlıq deyil.

— Eh Nadirə xanım, icazə verin ev elmi şurasının növbəti iclasını bağlı elan edib, bir az da beynəlxalq aləmlə məşğul olaq, görək dünyada nə var, nə yox,— deyə Salman adəti — üzrə həmişə belə uzun söhbətdən, mübahisədən sonra təkrar etməyi xoşladığı sözlərlə bu ixtilata xitam verdi və:

—Ay Sədəf!..— deyə səsləndi.

Sədəf yan otaqdan çıxıb qapının ağzında dayandı.

— Sərin sudan-zaddan nəyin var gör xaladelnikdə? Bacın o qədər danışdırdı ki, boğazım lap qurudu.

— Badamlı var.

— Gətir.

Mətbəxdə soyducunun qapısı şaqqıltı ilə açılıb örtüldü.

Salman nazik stəkanla su içib, Sədəfə:

— Çox sağ ol, oğlunun toyunda konyak içək, —dedi. Sədəf azca qımışdı, getdi.

Nadirə, Salman, Ceyhun masanın başına yığışdılar. Qəzetlər xışıltı ilə açıldı. Hərəsi birini nəzərdən keçirməyə başladı. Üç-dörd dəqiqə keçmiş Nadirə sevincək dedi:

— Bıy, «Kommunist»də Orxanın məqaləsi çıxıb.

Ürəyi Nadirənin Orxan haqqında bayaq dediyi sözlərdən atlanmış, sinəsi fərəh və qürur hissi ilə qabarıb qalxmış Salman əlindəki qəzeti böyrünə atıb dikəldi:

— Doğrudan? Hanı?.. Baxım... — Boğazını uzadab Orxanın adını iri məqalənin altında oxudu. — Hə, görürsən də mənih yetirmələrim neyləyir?

Salman bu eyhamla arvadına demək istəyirdi ki, Nadirə, darıxma, vaxt gələr indi sənin kölgəsini qılıncladığın Gülmirə də Orxan kimi məşhurlaşar.

Nadirə onun kinayəsini başa düşsə də bənd olmadı.

— Görəsən, nə barədədir?

Nadirə sərlövhəni bərkdən təkrar etdi:

—«Obyektivlik—sənətin canıdır».

— Hm...«Obyektivlik — sənətin canıdır». Sərlövhəyə bax! Ver oxuyum, Nadirə.

— Yox, mən oxuyum, sən qulaq as.

— Oxu.

Nadirə ucadan oxumağa başladı. Oxuduqca Salmanın pırpız qaşları aşağı-yuxarı tərpənir, barmaqları ilə çallaşmış bığını sığallayır, xoşuna gələn yerlərə «əhsən», «lap əla!» — deyə öz münasibətini bildirirdi. Məqalənin necə deyərlər, şirin yerində Nadirənin səsi qırıldı.

— Nə oldu?

Nadirə bir neçə sətri səssizcə nəzərdən keçirdi, qəzetdən gözünü çəkib Salmana baxa-baxa:

— Orxan sənə də, Gülalı demişkən, bir balaca çəkib,— dedi.

Professor inanmaq istəmədi:

— Elə şey olmaz!

— Canım üçün!

Cavab professoru silkələdi, o, əl atıb qəzeti arvadından aldı:

— Hanı, hanı?

Nadirə barmağı ilə üçüncü sütunun əvvəlinə işarə etdi:

— Bax, burdan oxu.

Salman qəzeti tələsik alaraq gözlərinə yenicə yaxınlaşdırmışdı ki, ara qapının ağzında dayanmış Sədəf bacısını çağırdı:

— Daha bir işin yoxsa, mən gedim, Nadirə! Gecə keçir, Rəhim də təkdi.

— Heç bir işim yoxdur, get bacı. Çox sağ ol, — deyə Nadirə Sədəfin zənbilini mıxçadan götürüb ona verdi.

Sədəf zənbili götürəndə hiss elədi ki, ağırdı. O dəqiqə ürəyinə gəldi ki, Nadirə yenə həmişə olduğu kimi, onun üçün nə isə qoyub: ət, kartof, soğan.

Ürəyini üzüntü-sıxıntı bürüdü. Dayandı. Nadirənin mərhəmət və şəfqətlə parlayan gözlərinə sözlü adam kimi baxdı, baxdı. Nadirə bacısının halındakı dəyişikliyi duydu.

— Sənə nə olub, Sədəf — deyə qapı ağzında bacısından xəbər aldı. — Niyə tutulmusan?

— Heç...nə... heç...nə...— deyə Sədəf gözlərini dolandırıb qonşunun qapısına nəzər saldı və pillələri səssiz-səmirsiz, kölgə kimi enməyə başladı.

Nadirə geri qayıtdı, — Salmanın yanına. Salman ayağa durmuşdu, qəzeti əzib döşəməyə atmışdı; gəzinir, papiros çəkirdi. Ceyhun təəccüblə atasına baxdı.

— Haramzada!—Salman açıldı. —Görürsən, bu çörəyi dizinin üstündə olanı. Kül başına, ay Salman, gör nə günə qalmısan ki, dünən yumurtadan çıxan cücə sənə cip-cip öyrədir.

— Sakit ol, Salman!.. Elmdir bu, belə şeylərdən sarı...

— Qələt eləyir, hər kim də eləsə, gərək Orxan eləməyə idi!..

— O yazıq elə bir şey deməyib axı sənin barəndə.

— Necyə deməyib? Sən də qəribə adamsan! Özün oxudun ki! Necə yəni, «Professor Salman Qurbanzadənin bu barədəki bir sıra

fikirləri ilə razılaşmaq mümkün deyil!» Mümkün deyil, ha! Bunun ədasına bax, yazısına bax...

— Sən nahaq yerə bu qədər hövsələsizlik eləyirsən.

— Hövsələdən çıxmayım, neyləyim? Mənim öz aspirantım, öz tələbəmdir axı o! Gözündən gəlsin ona çəkdiyim zəhmətlər, gözündən gəlsin! Başqası desəydi məni yandırmazdı, ancaq bu, adamı çalın-çarpız yandırır, Nadirə!..

Salman içəridə duruş gətirə bilmədi, elə bil, divarlar üstünə yeriyirdi. O, balkona çıxdı, məhəccərə söykənib aşağı baxdı. Yadına bir şərq hekayəsi düşdü...

Qədimlərdə, hansı şəhərdəsə, ağ saçlı, müdrik bir alim yaşayırmış. Alim biliyini, gücünü, ağlını fərasətli tələbəsindən əsirgəmir, onu oxudurmuş. Günlərin birində, necə olursa, məmləkətin padşahının o qocaman alimə qəzəbi tutur, əmr verir ki, onu şəhərin böyük meydanına çəksinlər, daş-qalaq eləsinlər. Əmrə görə bütün şəhər əhli ona bir daş atmalı imiş. Kim atmasaymış, dar ağacından asılacaqmış.

Can şirindir, yetən o qoca alimə bir daş atır. Alim dinmir, haray-həşir qoparmır.

Gözünün biri çıxır, o, məğrurluqla susur. Başı yarılır, cınqırını da çıxarmır. Bu ara onun otuz il dərs dediyi tələbə gəlir. Padşah öz taxtından, müəllim isə daş-kəsək arasından ona baxır. Tələbə odla su arasında qalır.. Vursun, necə vursun, axı onun sevimli müəllimidir. Vurmasın, necə vurmasın, padşah o saat dar ağacından asdıracaqdı. O, çox fikirləşir, axır naəlac qalıb əyilir, yerdən bir qum dənəsi götürüb, yavaşca öz müəlliminə sarı atır. Bu dəm bayaqdan məğrur-məğrur susan o müdrik qoca dəhşətlə elə qışqırır ki, padşah taxtında, adamlar isə meydanda sarsılırlar. Hamı təəccüb eləyir; nə oldu ki, o belə qışqırdı? Padşah əlini qaldırır, meydana sükut çökür.

Padşah yarımcan qocanı yaxına gətirib soruşur ki, ey qoca sənə nə oldu belə qışqırdın? Axı bayaqdan susurdun!..

Qoca əli ilə gözünün üstünü örtən qanı silib deyir:

— Bax, o başını aşağı salıb dayanan adam mənim tələbəmdir. Mən ona otuz il dərs demişəm. Bayaqdan məni tanımayanlar, yaxşılığımı görməyənlər daş atırdılar, dözürdüm. O — mənim sevimli tələbəm isə mənə daş atmadı, qum dənəsi atdı, xırdaca bir qum dənəsi!.. O qum dənəsi mənim ürəyimə dəydi, canımı yandırdı... Məni daş-kəsək öldürməzdi, ancaq, o qum dənəsi öldürəcəkdir!..

Salman indi özünü o qoca alimə oxşadırdı. Orxan — tələbəsi ona «qum dənəsi» atmışdı. Amma qum dənəsi necə də ağrıdırdı!..

Salman hövlnak içəri cumdu:

— Alçaq! Bu saat sənə bir toy tutum ki!..— deyə telefonun üstünə yeridi.

Nadirə həyacanla ayağa qalxıb:

— Salman!— deyə qışqırdı. Onun qolundan tutanda Salman Nadirənin sinəsinə axıb düşdü.

— Salman, Salman, sənə nə oldu? — Cavab gəlmədi.

Nadirə Ceyhunla köməkləşib, onu divana uzatdı. Salman:

—Ürəyim!.. —deyib zarıdı.

— Tez doktor çağır, Ceyhun!

Ceyhun ikinci mərtəbəyə düşdü, birotaqlı mənzildə tək yaşayan həkimə xəbər verdi. Qayıdanda təzə qonşuları — eynəkli arvad qapını aralayıb Ceyhundan soruşdu.

— Nə olub sizdə?

— Heç, atamın ürəyi qısılıb.

O:

— H...ə?! — deyib başını dala çəkdi.

Həkim tez gəldi. Salmanın nəbzini yoxladı, qoluna iynə vurdu, haçandan-haçana kişinin halı yaxşılaşdı.

— Nə üstə əsəbləşib?— deyə həkim soruşdu. Nadirə özünü eşitməzliyə vurdu. Həkim professorun nəbzini əlindən buraxmayaraq:

—Siz gərək bunu əsəbləşdirməyəsiniz!— dedi.

— Biz əsəbləşdirmirik, doktor.— Nadirə fikirli-fikirli dilləndi.

— Bəs kim əsəbləşdirir? Ceyhun astaca cavab verdi:

— Qəzetdə tənqid ediblər...

Həkimi gülmək tutdu. Onun gülüşünə Salman da gözünü açdı. Həkim dedi:

— Qardaş, sən hər şey üstə axı niyə dilxor olursan? Hələ de görüm aşağıdan tənqiddi, ya yuxarıdan?

Qonşu həkimin zarafatçıllığına bələd olan Nadirə gülümsündü; onun ən yaxşı dərmanı lətifələr, məzəli söhbətlər idi. Nadirə dedi:

— Aşağıdandı, öz tələbəsidi.

Həkim əlini yellətdi:

— Eh, onda lap boş şeydi, mənim canım üçün. Lap boşdan da boşdu. Bu aşağıdan tənqid, yuxarıdan tənqid əhvalatını bilirsiniz? Yox! Məzəli əhvalatdır, Salman qardaş, lap səninçün deyiblər, mənim canım üçün. Hə, biri dissertasiya yazırmış. Siz məndən yaxşı bilərsiz, indi moddu axı, az qala hər şeydən dissertasiya yazırlar. O kişinin də mövzusu tənqid və özünütənqid məsələsi imiş... Dissertant tənqidin bütün variantlarını öyrənirmiş... Bir gün arvadı soruşur ki, ay kişi, sən ki, bu tənqidnən məşğulsan, de görüm aşağıdan tənqid nədi, yuxarıdan tənqid nədi? Kişi fikrə gedir, sonra izah eləyir, ancaq çox qəliz çıxır, arvad başa düşmür. Kişi naçar qalıb arvada əyani surətdə anlatmaq istəyir. Deyir, arvad, düş aşağı, həyətdən bir daş götür, mənə sarı at, balkona. Arvad elə də eləyir. Balaca bir daş götürüb atır, daş üçüncü mərtəbədən qayıdıb düşür arvadın öz başına. Əri deyir:

— Bax, bu aşağıdan tənqiddi.

Sonra kişi balkondan kibrit qutusunu arvadına sarı atır. O da gedir düz arvadın başına düşür:

— Bax, bu da yuxarıdan tənqiddi!.. Yəni hər iki halda — kötək aşağıdakının başına dəyir.

Onlar güldülər. Həkimin bu söhbəti professorun da könlünü açdı... Bir az sonra divanda uzanmış ərinə baxan Nadirənin ürəyini müdhiş, üzüntülü bir hiss sıxmağa başladı.

Həkim əlini yellətdi:

— Eh, onda heç hirslənməyə dəyməz, sən sevinməlisən, fəxr etməlisən ki, belə tələbə yetişdirmisən.

## SƏKKİZİNCİ FƏSİL

Orxan bu zaman alimlər evindəki geniş mənzilinin aynəbəndində oturub, sahildən xeyli aralı lövbər salıb dayanmış, işıqları yanan gəmiyə tamaşa edirdi. O, həmişə burada, qaranlıqda əyləşib, düşünməyi xoşlardı. İşləyib yorulanda yazı masasının arxasından durar, aynabəndə çıxıb bir papiros yandırar, tüstülədə-tüstülədə dənizin gecə mənzərəsinə baxıb həyat haqqında, tanıdığı-bildiyi adamlar haqqında, yazdığı əsər haqqında xəyala dalardı. Bu mənzili ona keçən il vermişdilər. Anası, bacıları şəhərdən kənardakı bağlı-bağatlı qəsəbədə, ata-baba mülklərində yaşayırdılar. Yol üç-dörd saat vaxtını alırdı deyə o, evlərinə gedib-gəlmirdi. Buraya köçənə qədər subay dayısından qalma otaqda gün keçirmişdi. Təzə mənzilinə yığışanda kitablarından və bircə dəst təmiz yorğan-döşəkdən savayı gözə dəyən bir şeyi yox idi. Orxanın evinə mübarəkbadlığa gələn iş yoldaşları iri otaqları bom-boş görəndə çiyinlərini çəkib, qaşlarını dartmışdılar.

Qonaqları gülərüzlə qarşılayan anası Şirin arvad irəli çıxıb:

— Bizim Orxanın bu kasıb evinə xoş gəlibsiniz— deyəndə professor Salman Qurbanzadə tələbəsinin zəngin, nəfis kitablarla dolu kitabxanasını göstərib:

— Kasıb niyə olur, ay bacı?—demişdi.— Bəs bunlar var-dövlət deyil?!

— Var-dövlətin ən yaxşısı budur, ana, — deyə Orxan da sözə qarışmışdı.

Bir azdan yemişdilər, içmişdilər, içəndən sonra ehtiyat edib professorun yanında artıq-əskik danışmaqdan qorxanların da dili açılmışdı. Hələ ağız-ağıza verib «Şəbi-hicran»ı da oxumuşdular; -

Orxanın dostu, onun şadlıq günündə hamıdan çox sevinən Cəfər məclisin şirin yerində ayağa qalxıb elə buradaca düzəltdiyi bir lətifəni söyləmişdi:

— Bu lətifəni elə «Alimlər evi»nin astanasına ayaq basanda quraşdırmışam. Bir alimə deyirlər ki, gəl sənə «Alimlər evi»ndə mənzil verək. Deyir, yox, getmərəm. Soruşurlar: niyə axı? Cavab verir ki, bir azdan o alimlər evinin birinci mərtəbəsinin divarları ağ xatirə lövhəsi ilə dolacaq, bizim üçün heç yer də qalmayacaq. Bəs biz öləndə xatirə lövhəmizi hara vuracaqlar?

Gülmüşdülər.

Şadlıq, sevinc dolu o gecənin xoş təəssüratı içərisində təkcə Gülalının qara, uzun sifəti, nəsə daxili bir narahatlıqla, qara muncuq kimi dərinlikdə dəbərən gözləri Orxanın yadında ayrıca qalmışdı.

—«Niyə rəngin elə qaradı, Gülalı?» — deyə Orxan bu sakit aprel axşamında bütün varlığı ilə qarşısında canlanan Gülalı ilə səssiz bir həsbi-hala girişmişdi.

«—Anadan belə doğulmuşam».

«— Yox, inanmıram, mənə elə gəlir ki, ürəyinin qarasıdı, çıxıb üzünə».

«— Sən diliacısan Orxan».

«—Həqiqət deyən dil həmişə acı olur...»

«— Biz axı bir yerliyik, Orxan...»

«— Bəzən səninlə bir yerli olduğum üçün də xəcalət çəkirəm».

«— Niyə, Orxan? Oğruyam, əyriyəm, nəyəm?»

«— Sənin qarnında qurd var, Gülalı...»

Gülalının qaranlıqda gözləri işım-işım işıldadı:

«—Yox, Orxan, sən səhv eləyirsən...»

«— Var, Gülalı. O qurdu doktor görə bilməz. O adi qurd deyil, xəbislik, paxıllıqdır qurdun adı!»

Elə bil Orxanın ürəyində dediyi bu son sözlər Gülalının xəyalını məhv elədi, o harasa çəkilib getdi, cavab verə bilmədiyi üçün getdi. Yenə məclis Orxanın gözlərinin qabağında canlandı.

Professor şən-şən deyirdi:

— İndi Orxanı evləndirmək gərəkdir. Vaxtıdır.

— Hə, hə, dilinə qurban, ay qardaş, — deyə Şirin arvad aşağı başdan dillənmişdi, —mən də intizardan qurtarardım. Yoxsa haçana-can bu qədər yolu gedib-gələcəyəm, bunun pal-paltarını yuyacağam, ev-eşiyini təmizləyəcəyəm?

— Yox, gərək mütləq evlənsin! — deyən professorun səsindəki qətiyyət Orxanı sanki xəyaldan ayırdı. Məqaləsi yadına düşdü. Bu gün qəzetdə çıxan məqaləsi. Bir papiros yandırdı: «Görəsən, professor məqaləni oxudu? Oxuyar. Tənqidim xoşuna gələcəkmi? Mən düzünü demişəm... O boyda adam belə xırda tənqiddən inciyərmi? Yox, inciməz!»

Onlar on ilə yaxın idi ki, tanışdılar. Salman Orxanın universitetdə müəllimi olmuşdu, institutda elmi rəhbəri. Bu illər ərzində aralarında narazılıq baş verməmişdi.Tək bircə dəfə rəy üstə Orxan professorun xətrinə dəymiş, dediyini eləməmişdi: Orxan məqalə yazmışdı, məcmuədə çap olunması üçün rəy lazım idi. Professor özü razılıq vermişdi, məqalənin ora-burasına baxıb demişdi:

— Orxan, mənim indi heç vaxtım yoxdur. Özün otur məqalən haqda balaca bir rəy yaz, gətir, qol çəkim. Onsuz da bilirəm sən yaxşı məqalə yazacaqsan.

Orxan heyrətlə:

— Nə danışırsınız, professor? — deyə dillənmişdi, — mən öz haqqımda rəy yazım?

— Özün haqqında yox, məqalən haqqında.

— Nə fərqi, yenə özüm barədə yazmaq kimi bir şeydi. Bu mənim üçün çətin olar, professor, mən bunu eləyə bilmərəm.

— Niyə? Mənim dilimdən yazcaqsan da.

—Əlim gəlməz, professor.

Orxan o rəyi yazmamışdı, məqalə isə üç ay gecikmişdi.

Hava soyumuşdu. Dənizdən rütubətli yel əsməyə başlamışdı. Orxan qolunun tüklərinin biz-biz durduğunu hiss eləyib ayağa qalxdı, evə keçib işığı yandırdı. Səliqə-səhman, stolun üstündəki güldana qoyulmuş həmişəbahar gülünün dəstəsi Şirin arvadın bu gün buraya gəldiyini xəbər verirdi.

Orxan üç bacının tək qardaşı idi. Qızlarının üçünü də böyüdüb ər evinə köçürən Həsən kişi ilə Şirin arvad bütün ümidlərini Orxana bağlamışdılar.

Oğul toyu görmək qocaların yeganə arzusu idi. Orxan isə, necə deyərlər, çörəyini-suyunu götürüb elmin dalınca düşmüşdü, evlənmək fikrini, deyəsən, yadından çıxarmışdı.

Şirin arvad onu hələ tələbə ikən evləndirmək, halal südəmmiş-lərdən birinə bənd eləyib «uşağın» əl-ayağını bir yerə yığmaq istə-mişdi. Ancaq Orxan ipə-sapa yatmamışdı: «Məktəbi bitirəndən sonra, — deyə fikrini bildirmişdi. — Hələ ələ baxıram, özümü saxlayırsınız bəs deyil, üstəlik arvadımı da sizə yük eləyim?!». Vaxt dolanmış, o, məktəbi də bitirmişdi. Bu vaxt ayrı bəhanə gətirmişdi: «Aspiranturanı qurtarmasam evlənməyəcəyəm!»

— Ay başına dönüm, bu qədər də oxumaq olar? On beş ildi oxuyursan, hələ köçünü bir yerə çıxarmayıbsan. İndi də gərək filan qədər gözüyün qarasını tökəsən?— deyə səbri tükənmiş ana söylən-miş, dözməkdən qeyri bir çarə görməmişdi. İndi Orxan il yarımdan çoxdu müdafiə eləmişdi, maaşı çoxalmışdı, təzə ev almışdı. — Hə, tay indi nə deyirsən, ay ömrüm-günüm? — deyə ana tez-tez xəbər alırdı — yoxsa yenə oxumaq fikrin var?»

Orxan gülə-gülə başını tərpədirdi.

Şirin arvad ayda dörd dəfə— bazar günləri elektrik qatarı ilə qəsəbədən şəhərə, oğlunun yanına gələrdi. Pal-paltarını yuyardı, evi silib-süpürərdi, isti xörək və Həsən kişinin həyətdə əkib-becərdiyi

güllərdən bir dəstə oğlu üçün gətirərdi. İlin o fəsli yox idi ki, onların bağçasında gül olmasın. Bütün şəhərdə Həsən kişinin gülləri məşhur idi. Neçə dəfə bu sakit allı-güllü bağça haqqında, gül vurğunu Həsən kişi haqqında qəzetlərdə yazmışdılar.

Bəli, Şirin arvad hər gələndə oğlu üçün bir dəstə gül gətirərdi. Nə qədər qəribə olsa da, ona elə gəlirdi ki, bir gün bu güllər oğlunun istəklisinə qismət olacaq. O bu hissini heç vaxt Orxana deməmişdi, ancaq ürəyinin dərinliklərində bunun geç-tez doğru olacağına inanmışdı.

Bu gün səhər arvad içəri girəndə oğlunu şad görüb zənnlə, fəhmlə ona baxdı: «Dinmə, deyəsən, uşağımda iş var. Deyəsən, daşı ətəyindən töküb», — deyə düşünən ana, Orxanı bir də təpədən dırnağa süzüb soruşdu:

— Məni bu dəfə sevindirəcəksən, oğlum?

Orxan anasının hansı simə vurduğunu dərhal anlayıb, ciddi görkəm aldı.

— Kimdi, ay bala?

— Nə kimdi, ana?

— Deyirəm, yəni qız kimdi, kimlərdəndi? — deyə ana bu səfər naümid olacağından qorxurmuş kimi, ağır-ağır soruşdu.

— Qız nədi, ana?— Orxan özünü saxlaya bilməyib güldü. — Yuxu görübsən nədi, ay arvad?

— Tay yaxşı da, ürəyimizi üzmə görək, sən allah...

— Vallah, qız söhbəti-filan yoxdu.

— Tay nə oldu bu? — Ana doluxsundu:

— Elə deyirdin namızad olum, sonra... Namızad da oldun. Daha səzün nədi, ay qurban olum?

— Darıxma ana, hər şey düzələcək...

Orxan belə dedi, ancaq ürəyində bu sözləri ümid və intizarla yaşayan anaya təsəlli vermək məqsədilə söylədiyini anlayıb, ruhunda bir ağırlıq hiss elədi və özlüyündə: «Yox, heç nə düzəlməyəcək, ana,

heç vaxt, heç nə düzəlməyəcək»,— dedi. Bu düşüncədən canı sıxıldı. Bir şöbədə işləsələr də, hər gün neçə dəfə üz-üzə, göz-gözə gəlsələr də Orxan öz gözəlliyi ilə onun nitqini lal eləyən, rahatlığını pozan, qayğısız-qüssəsiz həyatına şirin, əzablı bir ahəng verən Gülmirədən nə qədər uzaq olduğunu hər dəqiqə bütün dəhşətləri ilə anlayırdı. Anlayırdı və məyus olurdu. O bu duyğunu ürəyində boğmaq, məhv etmək istəyirdi. Lakin cidd-cəhdləri boşa çıxırdı, daha doğrusu, Orxan üçün yeni bir aləm açan, hər addımda həyatı əfsanəvi əsrarəngiz dona bürünmüş şəkildə ona sevdirən o qəribə hissi heç kəsə bildirmədən öz ürəyində yaşatmaq, onu qoruyub bəsləmək, gizli-gizli bu duyğu ilə fəxr etmək arzusu daha qüvvətli, daha əzəmətli idi. Gülmirə gözəl qadın idi, su zanbağı kimi ağ və zərifdi, onun məhəbbətini cavabsız da olsa, sinəsində gəzdirən hər kəs özünü bəxtiyar hiss etməyə bilməzdi. Lakin Gülmirə Orxan üçün öz təyyarəçi əri ilə buludlardan yuxarı, ulduzların yanında uçan əlçatmaz, ünyetməz bir səadət idi.

Orxan ah çəkib güldandakı güllərə baxdı, dəstəni nəzərləri ilə yoxladı, ən yaxşı, iri ləçəkləri əzilməmiş bir gülü iylədi və: «Bu— Gülmirənin...»—deyə pıçıldadı.

## DOQQUZUNCU FƏSİL

Şöbədə Gülalıdan başqa adam yox idi. Bir az bundan qabaq, otaqda heç kəs olmayanda Nadirə xanımın və Gülmirənin mizinin üstünə. Orxanın qoyduğu güllər eləcə dururdu.

Gülalının boğuq rəngi qar kimi ağarmışdı. Orxan dərhal bildi ki, o əsəbiləşib:

— Nə olub, Gülalı, gözümə birtəhər dəyirsən?— deyə soruşdu.

Gülalı «Ətini yesə də, sümüyünü heç vaxt çölə atmayan» eloğlusunun canyananlıqla onun halını soruşmasından mütəəssir olub, kövrək-kövrək köksünü ötürdü:

— Eh, atalar yaxşı deyib, yaxşılıq eləyən evində ölməz.

— Nə olub axı?

—Əşi bir neçə gün bundan qabaq o yazıçıfasonun haqqında məqalə yazmamışdım?

— Hansının, Gülalı?

— Mürsəl Bəbirzadədi, nəmənədi?

— Hə, hə yadıma düşdü. Gərək ki, məqalənin adı «İstedadlı yazıçı» idi.

— Elə idi. Ancaq bu gün məlum olub ki, onun nə istedadı varmış, nə qabiliyyəti.

— Niyə, Gülalı? — Orxan maraqlanaraq stul çəkib əyləşdi.

Gülalı da qələmi yerə qoydu:

— O Mürsəlin özüynən haqq-salamım var. Mənə son kitabından da bağışlamışdı. Ha gözlədim, gördüm heç kəs bu kitab haqqında bir söz demək istəmir, hamı ağzına su alıb susur. Özün bilirsən də, sükutla qarşılanmaq şair üçün, yazıçı üçün ölümdən də betərdi. Yazığım gəldi götürdüm o məqaləni yazdım. İndi bu Mürsəl neyləsə yaxşıdı?

—Hə, neyləyib ki?

— Götürüb «sağ ol» demək əvəzinə mənə açıq məktub yazıb, qəzetdə dərc elətdirib.

— Açıq məktub yazıb?

— Hə.

—Nə barədə?

— Guya mən əsəri diqqətlə oxumamışam, guya orda olmayan şeylər barədə danışmışam, çox şeyi qarışdırmışam.

— Yəni doğrudan elədi? — deyə Orxan təəssüflə başını tərpədə-tərpədə soruşdu.

— İndi konkret deyə bilmərəm, özün bilirsən mən bir balaca sklerozam. Amma gərək yaxşı-yaxşı yoxlayam. O deyən kimi olmasa, gərək ona bir toy tutam ki, ömrü boyu dadı damağından getməsin.

Mənə qurban olsun o, bir də tərif eşitsə. Onu ədəbiyyat aləmindən elə qaçırdım ki, özü də afərin desin.

— Hm... heç yaxşı hadisə deyil.

Gülalı əlini əlinə vurdu, yanıb yaxıla-yaxıla:

— Pah atonnan! — dedi. — Adə, gözümün qarasını təküb zornan zibilini oxumuşam, zəhmət çəkib məqalə yazmışam, bu da mənim haqq-sayım. Mənim müsibətimə baxırsan? — deyib iri çantasını açdı, ancaq, deyəsən nə üçün açdığını yadından çıxarıb bir xeyli fikirləşdi, haçandan-haçana: — Hə! — deyib ordan dörd bükülmüş bir qəzet çıxartdı: sonuncu səhifəsini açdı:

— Burda bir balaca səhv eləmişəm. Yəni bir balaca da yox a, lap böyük səhv eləmişəm.— Nəzərlərini qəzetin səhifələri üzərində gəzdirib məqalənin sərlövhəsindəki «istedadlı» sözünü elə pozdu ki, mikroskopla da oxumaq olmazdı. — İndi get işinə. Bunlara istedadlı deyə-deyə biz xarab eləyirik. Sonra da hərəsi öz aləmində elə bilir ki, doğrudan da dahidi...

Gülalının yazdığını pozması Orxana çox qəribə gəldi:

— Bu yaxşı sifət deyil, Gülalı. Yüz ölçüb, bir biçmək dərzilərdən çox bizə aiddir, eloğlu. Çünki yazılan qalır.

«Sifət» sözü Gülalını yamanca tutdu. Orxanın sözlərində o, ağır məzəmmət hiss elədi, bayaqdan sakitcə dərdləşdiklərini unudaraq onu sancdı:

— Sənin də bu axırıncı məqalənin pozulası yerləri var, Orxan.

Orxan o dəqiqə anladı ki, dediyi son sözlər onun xətrinə dəyib. İstəyirsən ki, Gülalının sənin haqqında əsil fikrini biləsən, özü demişkən, «bir balaca» sancmaq kifayətdir, açacaq sandığı, tökəcək pambığı... İndi Gülalının onun məqaləsi haqqında fikir demək istəməsi bir müəllif kimi Orxanı çox maraqlandırdı:

— Niyə, Gülalı? — deyə o, soyuqqanlılıqla xəbər aldı.

— Necə niyə? — Gülalı çımxırdı. — Professor haqqında yazdığını deyirəm. Ustadına kəm baxanın gözlərinə qan damar, Orxan! —

Deyəsən, hiss elədi ki, bunlar onun «Köpünü» almadı, odur ki, lap tutarlı zəhərli bir zərbə endirdi:

— Adam tüpürəndə elə tüpürər ki, yalaya da bilsin.

Orxan səssiz-səmirsiz Gülalının gözlərinin içinə baxdı, baxdı: «Nə dili acı, əti acı adamdı bu!» — deyə düşündü və onun sözünü cavabsız qoymaq istəməyərək başı ilə Gülalının əlindəki qəzetə işarə etdi:

— Mən tüpürdüyümü, bax, bu cür, sənin kimi yalayanlardan deyiləm! — dedi və durub öz yerinə getdi.

Gülalı mızıldana-mızıldana qaldı. Sonra Orxan kimi adamla bir otaqda oturmağa da etiraz əlaməti olaraq tələsik addımlarla dəhlizə çıxıb, qapını bərk çırpdı. Orxan gərginləşmiş əsəblərini toxtatmaq üçün papiros yandırdı və tüstü otağın havasını ağırlaşdırmasın deyə pəncərənin qabağına gəldi, bir layını açdı. Tüstünü ciyərlərinə çəkib buraxdıqca sanki ürəyindəki titrəyiş, bədənindəki küt giziltilər canından çıxır, o rahatlanırdı. Beş dəqiqə sonra Orxan toxtamış halda öz yerinə keçmək istəyəndə Gülmirə qapı ağzında göründü. Orxan çevrilib ona sarı baxdı, Gülümsəməyə çalışdı. Ancaq bacarmadı. Gülmirə yuxusuz adama oxşayırdı. Pərişanlığı, pəjmürdəliyi bilinirdi. Orxan qəhərlənmiş səslə:

— Nə olub, niyə belə yorğunsan? — deyə xəbər aldı.

Gülmirə təkcə yuxusuz, əzgin deyildi, ağlamışdı da. Səhər Əqdəmi yola salanda özünü ha tox tutmağa çalışmışdısa da, kövrəlmiş ürəyi və dolmuş gözləri ilə bacara bilməmişdi. İndi ağladığını Orxana bildirməmək üçün burulub mizin arxasına keçdi və kataloq qutusunun böyrünə qoyulmuş gülü görəndə qeyri-iradi dodaqları qaçdı. Götürüb iylədi. Gülü burnundan ayırmadan gözlərini dolandırıb Orxana dikdi: «Sən gətirmisən?» — deyə soruşmadı. Gülmirə buna artıq adət eləmişdi; hər həftənin birinci günü o, işə gələn kimi stolun üstündə gül görərdi. Onun gətirdiyi güllər gözəl olurdu. Əvvəllər bu gülə adicə gül kimi baxan Gülmirə sonralar onun gətirdiyini solub ölüşkəyənə qədər

saxlardı. Son vaxtlar evinə aparar, güldana qoyardı. Orxanın anası Şirin arvadın ürəyinə daman düz çıxmışdı: onun qəsəbədən gətirdiyi gül oğlunun sevdiyinə çatırdı, Bəli, sevdiyinə! Ancaq bu necə sevgili idi ki, ananın xəbəri yox idi? Oğlu ki, belə tutub, deyəsən, heç olmayacaqdı da!

Orxan mahir rəssamın yaratdığı şairanə mənzərə qarşısında dünyanı unutmuş kimi görünən və kirpik çalarsa qabağındakı varlığın yuxu təki, xəyal təki qeybə çəkiləcəyindən qorxan bir adama oxşayırdı.

Orxan hərdənbir Nadirə xanımın da stolunun üstünə gül qoyurdu. Bunu Gülmirə bilirdi. Bu dəfə soruşdu:

— Nadirə xanım üçün də sən gətirmisən?

— Hə... — Orxan kibrit qutusunu qurdalaya-qurdalaya xəbər aldı: — İcazə vermirsən?

Gülmirə Orxanın sözündəki gizli mənanı dərhal başa düşdü, Gülü burnundan çəkib tələsik dedi:

— Yox, yox, niyə ki?..

Gülmirə son vaxtlar Orxanda özünə qarşı xüsusi maraq və diqqət olduğunu hiss etməyə başlamışdı. Onun gözləri sevən adamın gözləri kimi qəmli bir xəyalpərvərliklə dolu olurdu. Bəzən iclasda da belə o, əlini üzünə söykəyib Gülmirəyə baxırdı. Kitabxanalarda da, əyazmaları fondunda da Orxanın gizli bir həsrətlə parlayan baxışları onu təqib edirdi. Üz-üzə gələndə isə Orxan çaşır, özünü ələ almağa çalışırdısa da, müvəffəq olmurdu. O, Gülmirəyə öz hissləri barədə heç nə demirdi. Dərk eləyirdi ki, haqqı yoxdur. Ancaq ha əlləşirdisə, qızın fikrini başından çıxara bilmirdi.

Orxanın belə fikrə düşməsi əvvəllər Gülmirəni acıqlandırırdı, istəyirdi ki, onu məzəmmət eləsin, danlasın. Lakin bunun üçün heç bir əsası olmadığından susmalı olurdu. Bu gizli duyğularda nəsə əsrarəngiz bir sehr vardı. O duyğular yaşayırdı, o duyğular qol-qanad açıb

pöhrələnirdi. Orxana elə gəlirdi ki, həyatın, yaşamağın mənası ancaq və ancaq bu gizli duyğulardadır.

— Axşam... sənə zəng eləmişdim.

— Saat neçədə?

Gec idi, on ikinin yarısı olardı.

Gülmirə anladı ki, axşamki ehtimalı düz imiş. Elə bil keçən gecə Orxan zəng eləməmişdi, özü telefon məftili ilə onların evlərinə gəlib dəstəyin içindən baxıb qayıtmışdı. Gülmirə belə düşünüb qızardı.

— Evdə yox idin?

— Evdəydik...

— Evdəydiniz?..Əqdəm gəlib?..

— Hə, — Gülmirə könülsüz halda cavab verdi. Onun bu sözündən sonra Orxanın danışmağa həvəsi qalmadı. Qarşısındakı kitabı oxumaq istədi. Ancaq hərflər gözündə qaraldı, sətirlər bir-birinə qarışdı. Orxan özünü bədbəxt adam saydı. Bu qısqanclıq idi? Qəribədir, çox qəribədir!..

Gülmirə dikdaban çəkmələrini parket döşəmədə taqqıldada-taqqıldada Orxanın yanına gəldi:

— Orxan...

Orxan kədərli gözlərini Gülmirəyə sarı çevirdi. Gülmirə isə fikrini deməyə çətinlik çəkirmiş kimi susdu.

— Nə deyirdin, Gülmirə?

Gəlin çox çətinliklə:

— Bilirsən bir məqalə yazmışam... — dedi və hiss elədi ki, yanaqları allandı.

— Öz mövzundandır?

— Hə...

—Əcəb eləmisən, gərək bunu çoxdan yazaydın.

— Dedim... istəyirəm... professora verməmişdən əvvəl, əgər vaxtın olsaydı, sən baxardın,— deyə Gülmirə kəsik-kəsik danışa-danışa əlindəki qəzetin qırağını cırıb əzişdirdi.

Orxan sevindi. İkicə dəqiqə əvvəlki qəm-qüssəsi dağılıb getdi. Gülmirənin ona işi düşmüşdü. Bundan böyük səadət istəmirdi. Onun üçün məqalə oxumağa hazırdı, buna iki daşın arasında da vaxt tapardı, öz işini bir kənara qoyub, onunkunu görərdi, istirahətinin, yuxusunun hesabına eləyərdi. Hələ bu nədir ki? Gülmirə öl desəydi, canını da əsirgəməzdi.

— Mənim gözüm üstə! — deyə sevindiyindən uçunan Orxan gözlərindən gülə-gülə razılığını bildirdi.— Canla-başla!..

Gülmirə fikirləşdi ki, indiyəcən nahaq ehtiyat eləyib, yazdığını Orxana verib oxutdurmayıb. Özü yazdığına o qədər də ümid eləmirdi. Üzə çıxarmağa da qorxurdu. Ona nə üçünsə böyük inam bəsləyən professora da göstərməyə çəkinirdi. Axı o yaxşı bilirdi ki, zəiflik adamı hər yerdə, həmişə utandırır. Professor ona nə qədər yaxın olsa da, Gülmirə onun yanında utanmaq, xəcalət çəkmək istəmirdi.

— Hanı məqalə?

Gülmirə qəzetin arasına qoyduğu sancaqlanmış yazını Orxanın qarşısına sürüşdürdü.

— Bax, gör üzə çıxarılmalı bir şeydir, ya ötən məqaləm kimi cırım atım zibil yeşiyinə?

— Hansı məqalə?

Gülmirə hər iki əlini saçlarına çəkib:

— Bundan qabaq birini qaralamışdım, ürək eləyib heç kəsə göstərə bilmədim, —dedi.

— Niyə?

— Nə üçünsə qorxdum, başa düşürəm ki, bu mənim ilk sözümdü, Orxan. Ondan çox şey asılıdır. Ondan mənim nəyə qabil olub-olmadığımı şöbədə, institutda biləcəklər.

— Düzdür. Arxayın ol, Gülü!..

Orxan ona indiyəcən «Gülü» deməmişdi. Qəflətən ağzından çıxan bu kəlmədən Gülmirə hər şeyi başa düşə bilməzdimi? Gülmirə alındısa da, özünü eşitməməzliyə vurdu, yenə dikdabanlarını səsləndirə-səsləndirə geri qayıtdı. O, stulunu çəkib əyləşəndə Nadirə xanım, Cəfər və Gülalı bir-birinin dalınca şöbəyə girdilər. Nadirə Orxanı görən kimi:

— Salam, Orxan, necəsən?— dedi.

— Yaxşıyam, Nadirə xanım. Siz necəsiniz?

— Biz də yaxşıyıq... — Nadirə o günkü hadisəni — ərinin ürəyinin sıxılması əhvalatını xatırlayıb gülümsündü və bir ailə sirri kimi o barədə Orxana heç nə deməməyi lazım bildi.

Gülalı Nadirəyə gözaltı baxırdı. Ərini o cür tənqid eləyəndən sonra Orxanla belə mehriban danışması Gülalıya lap möcüzə kimi görünürdü. Onun fikrincə, burada yalnız bircə şey olmalı idi: Nadirə dağ boyda professor ərini tənqid eləyib hörmətdən salmağa çalışan bu təkəbbürlü oğlanı acılamalı, abrını ətəyinə bükməli və: «Sən nankorsan, sən çörəyi dizinin üstündə olan adamsan!» — deməli idi. Vəssəlam! Ancaq Gülalı inanmaq istəmədiyi sözlər eşidirdi. Nadirə stolunun üstündəki gülü götürüb iyləyəndə Gülalı yerində sakit otura bilmir, qurcalanır, fikirləşirdi: «Görürsən bunun tülkülüyünü? Yaltaq! Ərini aləmdə rüsvay elədi, arvadına gül gətirir. Xalis ingilis siyasətidi, sən öləsən. Nəsə uzun dəsgahdı...»

Nadirə xanım şən bir əda ilə:

— Məqaləni oxudum, təbrik eləyirəm, Orxan,— dedi.

— Çox sağ olun, Nadirə xanım.

— Ciddi elmi məsələlər qoymusan. Dediklərin bizim bugünkü vəziyyətimizi çox aydın və düzgün xarakterizə edir, — deyə Nadirə xanım məqalə haqqında ürəkdolusu danışmağa bışlayanda Gülalı özünü saxlaya bilməyib soruşdu:

— Nadirə xanım, siz, deyəsən, məqaləni axıra qədər oxumamısınız.

— Niyə, lap axıra kimi oxumuşam.

Gülalının gözləri böyüdü:

— Bəs nə təhər olur onda...

Nadirə xanım Orxana baxıb gülə-gülə Gülalıdan xəbər aldı:

— Deyirsən bəs nə təhər olur, Salmanın tənqid olunduğu məqalədən belə razılıq hissi ilə danışıram, hə?

— Hə də, Nadirə xanım, hə də!

— Nə olar, Gülalı. Bu, elmi işdir. Burada qohumluq hissləri ilə yaşamaq olmaz.

Gülalı gözlərini döydü: «Bunlar nə təhər ər-arvaddılar, heç bilmirəm! Sən ölmüyəsən, belə arvadı bircə saat da saxlamaram. Necə yəni? Tutaq ki, məni belə tənqid eləyiblər, arvadım da deyir ki, çox düzgün eləyiblər? Ay-hay, heç ağla batan iş deyil. Yox, nəsə Nadirə xanım burada bir balaca səhv eləyir. Görək professor özü necə baxacaq? Əsl məsələ budur. Əgər o da Nadirə xanım kimi eləsə...tay mənim bunlara heç sözüm yoxdur!»

Pırpız başlı, boynuna alabəzək muncuq salmış katibə qız qapını açıb Orxanı çağırdı. Orxan getdi. Qayıdanda... professorun o yandan gəldiyini görüb həyəcanlandı. Həyəcanlanmazdı, Gülalının bayaq dediyi sözlər yadına düşdü: «Birdən kişi məndən inciyər», — deyə fikirləşdi.

Əlini yelləyə-yelləyə kələn professor başını dik tutmuşdu. Orxan onun tuşuna çatanda ilişikli səslə:

— Salam, professor!— dedi. Ancaq professor düz keçib getdi. Orxan arxasınca baxa-baxa qaldı: «Görmədi... Eşitmədi... Deyəsən, fikirli idi. Yox, inciyib...»

Professorun kinli sir-sifətini, ədalı-davalı yerişini seyr edən Orxan acı-acı gülümsündü...

## ONUNCU FƏSİL

Nadirə bacısı oğlu Rəhimi gülər üzlə qarşılayıb içəri apardı. O bu evə az-az gələrdi. Ceyhunla tay-tuş olsaydı da yaxın deyildilər. Aralarında dava-dalaş olmamışdı, umu-küsü olmamışdı, ancaq soyuq idilər. Uşaq vaxtı bir yerdə oynamış, yoldaşlıq eləmişdilər. Lakin illər keçib, ağılları kəsdikcə sanki bir sehrli əl bu iki bacının uşağını bir-birindən uzaqlaşdırıb ayırmışdı. Bəlkə onların soyumasında bacıların da bir təsiri olmuşdu? Yox, Nadirə Rəhimi, Sədəf də Ceyhunu çox istəyirdi.

İki ilə yaxındı ki, Ceyhun xalasıgilin qapısını açıb içəri girməmişdi. Nadirə Sədəfgilə gedəndə neçə dəfə oğlunu aparmaq istəmişdi. Ancaq Ceyhun hər dəfə bir şeyi bəhanə edib, boyun qaçırmışdı: «Dərsimi öyrənirəm». «Yoldaşlarımla kinoya gedirəm».

Rəhim isə hərdən xalasıgilə gedirdi: anasını çağırmaq üçün, gecəyə düşəndə onu evə aparmaq üçün...

Oğlan otağa daxil olan kimi gözləri ilə evi axtardı. Mətbəxdən su şrıltısı və qab-qacaq səsi eşidilirdi. Düşündü: «Anamdır. Qabları yuyur». — Nadirə əlindəki qalın kitabı stolun üstünə atdı:

— Keç, xala qurban, keç əyləş! — dedi və üzünü o biri otağa tutub oğlunu səslədi: — Ay Ceyhun bura gəl, Rəhim bizə gəlib.

Ceyhun yataq otağından başını uzadıb Rəhimi görən kimi geri çəkildi. Geyinib qayıtdı. Əynində ayağı boğma finka var idi. Tor mayka geyinmişdi. Başını tərpətməklə Rəhimə «Xoş gəldin» elədi. Yanında oturdu.

— Hə, oturun, söhbət edin, biz də sizin üçün bir şey hazırlayaq, — deyə Nadirə mətbəxə keçdi.

Ceyhunla Rəhim susurdular. Ceyhun ayaq barmağının birini döşəməyə salınmış naxışlı xalçanın butaları üzərində gəzdirirdi.

Rəhim hərəkətsiz oturmuşdu. Sükut ağır və dözülməzdi. Birdən Ceyhunun yadına nə düşdüsə, sevinə-sevinə xəbər aldı:

— Rəhim, sizin də məktəbdən uşaqları Krıma istirahətə aparırlar?

— Hə, aparırlar!

— Sən də gedirsən?

— Yox!

— Niyə?

— İstəmirəm...

Ceyhun əlini-əlinə sürtdü:

— Mən gedirəm... Bilirsən necə qiyamət yerlərdi? Heç Krımda olmusan?

Rəhim başını tərpətdi:

— Yox.

— Odur da, təsəvvürün yoxdur. Əgər bir dəfə ayağın o yerlərə dəymiş olsaydı, ömrün boyu yadından çıxmazdı. Elə deyərdin hər il gedim... Mən keçən il mamamnan, papamnan getmişdim. — O, səsini alçaldıb yavaşıtdı: — Day bir də onlarla getməyəcəyəm. Qoymurlar istədiyin kimi gəzəsən. Papam yenə yaxşıdı, heç nə demir. Amma mamam göz açmağa qoymur... İndi uşaqlarnan gedirəm. Kef eləyəcəyik!..

Nadirə Ceyhunun axırıncı sözlərini eşitdi:

— Nə eləyəcəksiniz?

Ceyhun tutuldu, tez Rəhimə baxıb göz vurdu və dönüb başını qaşıya-qaşıya:

— Heç, kosmonavtdan danışırdıq, — dedi. — İki saat göydə fırlanıb yerə düşəndən sonra bütün dünyanı gəzəcək, ömrü boyu kef eləyəcək!..

— Hm...

Rəhimin təəccübdən ağzı açıla qalmışdı: o, belə eləyə bilməzdi. Bir də axı nəyin xatirinə anasını aldatmalı idi, nə üçün?

Məsələ burasında idi ki, Ceyhun bu evdə təkcə anasından — bu zabitəli qadından qorxurdu. Atası isə onun xətrinə qətiyyən dəyməz, ona güldən ağır bir söz də deməzdi. Anasının qəzəbindən xilas olmaq üçün Ceyhun asanlıqla yalan uydura bilirdi. Bunun üçün o, əsla çətinlik çəkməz, duruxub qalmazdı...

Rəhim divardakı göy, asma saata baxdı. Vaxta az qalırdı:

— Ana, — deyə o, üzünü mətbəxin qapısına sarı tutub səslədi.

— Bu saat, bala.

Nadirə qayğanaq gətirdi, iki qabda.

— Hə, yaxın oturun. Ceyhun, dur... Rəhim, gəl.

— Mən yemirəm, sağ ol, xala, — Rəhim qalxdı. Nadirə onun qolundan tutub oturtdu:

— Bucuğazı yeyəcəksən.

— Gecikərik, xala.

— Hara gedirsiniz ki?

— Anamla məktəbə gedəsiyik. Aslan müəllim tapşırıb ki, valideyn iclasına gəlsin...

— Ye, indi gedərsiniz... — Nadirə Ceyhundan soruşdu: —Bəs yaxşı, bizi heç valideyn iclasına çağırmırlar, ay Ceyhun?

Ceyhun adəti üzrə, başını qaşıdı. Rəhim onun bu hərəkətinə fikir verib qımışdı: bilirdi ki, o, başını qaşıyanda mütləq yalan bir şey uydurub deyəcək.

— Neçə dəfə çağırıblar, vaxtınız olmayıb, getməyibsiniz, indi də acıqcan çağırmırlar da...

Ceyhunun indi dediyi uydurmaya oxşasaydı da, sözündə müəyyən həqiqət də vardı. Bu il iki dəfə onları məktəbə çağırmışdılar. Birində Salman Moskvaya getmişdi, Nadirə xəstə idi. Birində də Nadirə istirahət evində idi, professor da vaxt tapmamışdı...

Rəhim qayğanaqdan bir-iki tikə yedikdən sonra üzünü yenə yan otağa sarı tutub, anasını çağırdı:

— Ana,ay ana!

— Gəldim, gəldim...

— Gecikirik ey...

Sədəf önlüyünü aça-aça mətbəxdən gəldi.

— Gedək.

— Ay Rəhim, heç yeməyibsən ki, — deyə Nadirə nimçəni təzədən onun qabağına itələdi.

— Ye, a bala, doyunca ye. — Sədəf də dilləndi.

Rəhim ayağa qalxdı. Ana-bala xudahafizləşib evdən yenicə çıxmışdı ki, qapının zəngi çalındı. Ceyhun durdu, ancaq anası ondan qabaq özünü yetirib qapını açdı.

— Oo!.. Vera Pavlovna!.. Gəlin, gəlin, xoş gəlmisiniz!.. — Vera Pavlovna ayağını astanadakı yaş əskiyə silib içəri keçdi:

— Sağ olun.

Gələn Ceyhunun sinif rəhbəri idi. Müəlliməsini görən kimi onun tikəsi boğazında qaldı, səsi çıxmadı. Təkcə başını tərpətməklə salam verdi. Ceyhun işinin «yaş» olduğunu fikirləşdi, yavaşca aradan çıxdı.

— Necəsiniz, Vera Pavlovna?

— Yaxşıyam, sağ olun.

— Ananızgildən nə xəbər var? Yenə Moskvada yaşayırlar, eləmi?

— Hə, Nadirə xanım. Bu yaxında bura gələsidilər.. Yazmışam, yığışsınlar. Anam qocalıb, kiçik bacım da təkdir. Axı təzə mənzil almışam, üç otaqlı. Gen-boldur. Buranın ab-havası çox yaxşıdır.

— Hə, təbrik, təbrik!.. Ortancıl bacınız neynir, hələ ərə getməyib ki?

— Gedib. İki həftə bundan qabaq toyları oldu. Sizinlə qohum olmuşuq Nadirə xanım.

— Bizimlə? — Nadirə təəccüb elədi.

— Hə, bacım bir azərbaycanlıya ərə gedib... Mühəndisdir.

Nadirə güldü:

— Elə bildim, bizim qohum-əqrəbadandır. Deyirəm elə olsaydı, biz də bilməmiş olmazdıq... Sizdə yaxşı xəbərlər varmış, Vera Pavlovna!..

— Bəli... Sizdə nə var, nə yox?

— Salamatlıqdır.

— Doktorluğunuzu haçan müdafiə edirsiniz?

— Hələ bir az çəkər.

— Professor evdə yoxdur, deyəsən?

— Yox, idarədədir.

Nadirə «bir dəqiqə» deyib mətbəxə keçdi, iki armudu stəkana çay töküb gətirdi. Birini Vera Pavlovnanın, o birinisə öz qabağına qoydu. Bufetdən ağzınadək bahalı konfetlə dolu vazanı çıxartdı:

— Eşitdim bizdən incimisiniz, Vera Pavlovna.

Vera Pavlovna stəkanı boğmasından tutub buraxdı:

— İnciməyinə incimişik, ancaq siz bunu hardan bilirsiniz?

— Ceyhun dedi. Sizdən bir az qabaq soruşdum ki, bizi valideyn iclasına niyə çağırmayıblar? Deyir ki, keçən dəfə getməmisiniz, ona görə də müəllimlər sizdən acıq eləyiblər!

Vera Pavlovna qaşlarını dartdı:

— Düz deyil, Nadirə xanım. Srağagün sizin dalınızca xəbər göndərmişdik. Ha gözlədik, gəlib çıxmadınız. Ceyhun sizə deməyib bəs?

— Yox.

— Maraqlıdır.

—Ədə, Ceyhun? — deyə anası oğlunu səslədi. —Ədə, haradasan? — Cavab verən olmadı. — Haçan getdi bu? İndi buradaydı axı, — deyə Nadirə təəccüblə o yan-bu yana baxdı.

— Yəqin mənim qorxumdan qaçıb, — deyə Vera Pavlovna gülümsündü. — Eybi yoxdur. Mən sözümü deyəcəyəm, sonra siz özünüz fikirləşərsiniz.

Nadirənin ürəyi üzülüb ayağının altına düşdü. O, bir qədər çaşqın halda :

— Buyurun, Vera Pavlovna. Mən sizi eşidirəm, — dedi.

Müəllimə çayından bir qurtum içib arxayın-arxayın sözə başladı:

— Ceyhun pis uşaq deyil, bunu siz məndən də yaxşı bilirsiniz. Ancaq mən elə düşünürəm ki, o, düzgün tərbiyə olunmur, Nadirə xanım.

Nadirənin rəngi ağardı. Vera Pavlovna davam elədi:

— Bilirəm, Nadirə xanım, bu sözləri eşitmək sizin üçün çox ağırdı. Ancaq mən başqa cür edə bilmərəm. Acı da olsa, əsl həqiqəti sizə deməyi öz müəllimlik borcum hesab edirəm. Siz hər ikiniz alimsiniz. Savadlı, mədəni ailə başçısısınız. Gərək sizin övladınız başqalarına bir nümunə olsun. Elə deyilmi?

—…

— Ancaq təəssüf ki, bəzən həyatda belə olmur.

— Bunlar tamamilə düzdür, Vera Pavlovna, — deyə Nadirə səbri tükənmiş halda onun sözünü kəsdi: — Xahiş edirəm, Ceyhundan danışın.

Müəllimə xeyli susub dedi:

— Siz ona çox pul verirsiniz?

— Yox.

— Məncə, hə. Çünki onda həmişə çoxlu pul olur. Halbuki, bu, yaramaz. Uşağın cibində həmişə çoxlu pul oldu o, xərcləməyə yer axtaracaq. Görəcəksən getdi restorana və başqa-başqa yerlərə... Ceyhun pis oxuyur, müəllimlərin sözünə baxmır. Ondan hamı şikayətçidir.

Nadirə qıpqırmızı pörtmüşdü:

— Görünür, bizim başımız qarışıb, uşağı tamam yaddan çıxarmışıq.

— Bəli, mən də elə düşünürəm, Nadirə xanım. Sizin başınız əsər yazmağa qarışır. Siz istəyirsiniz ki, əsəriniz çox olsun, yaxşı olsun, nöqsansız olsun. Axı, mənim əzizim, bu Ceyhun da əsərdir, hər cür qayğıya, diqqətə daha çox möhtacdır... Kitabınızın üstündə adınız var, onun məsuliyyətindən qorxursunuz. Bəs Ceyhun? Məgər o sizin deyil, Nadirə xanım? Siz heç bu barədə düşünürsünüzmü? Bağışlayın, mən bir qədər kəskin danışıram.

— Düz sözə nə demək olar? Uşağı Salman korlayıb, öz atası... O, ərköyün böyüdür. Bizim tək övladımızdır deyə...

Nadirə özünə gəlməmiş Vera Pavlovna ikinci bir sarsıdıcı xəbər də verdi:

— Hələ Ceyhun bir qızla dostluq eləməyə də vaxt tapıb...

— Necə?.. — Nadirənin gözləri böyüdü. Qaşları az qala alnının ortasına qalxdı. Vera Pavlovna əlavə etdi:

— Biz məktəbdə qızlarla oğlanların dostluğu əleyhinə deyilik, ancaq qaydasında.

— Kimdir o qız?

— Bəstəkar Baharlının qızıdır. Doqquzuncuda oxuyur. Onlar qəribə bir üsul da kəşf eləyiblər. — Vera Pavlovna güldü. — Biz böyüklərin heç ağlına gəlməzdi.

— Nə üsuldur o?

— Məsələn, söhbət etmək, görüşmək istəyəndə hər ikisi söz qoyur ki, filan saatda sinifdə şuluqluq eləsinlər. Qız öz sinfində müəllimini hirsləndirir, oğlan da öz sinfində. Hər iki müəllimin səbri tükənir, onları dərsdən çıxarır. Qoçaqlar özlərini verirlər boş bir sinfə, — o, azca susub soruşdu: — Belə oxumaqla siz özünüz deyin, hara gedib çıxmaq olar, Nadirə xanım? Sabah bunun institutu var; hər şeydən ziyadə, onun üstündə sizin adınız var.

Nadirə xanım əl yaylığı ilə üzünün tərini sildi və döyülmüş adam kimi əzgin halda:

— Ayağım yerə yapışdı, Vera Pavlovna, — dedi, — çayınızı için, çayınızı için!..

***

Böyük, işıqlı sinif otağında iclas gedirdi. Müəllimlər bir-bir söz alır, öz siniflərində oxuyan uşaqların dərs davamiyyətindən, davranışından danışırdılar. Ata-analar diqqətlə qulaq asırdılar, kimi sinəsini qürurla qabağa verə-verə, kimi xəcalətdən tər tökə-tökə...

Sədəf lap arxa cərgədə oturmuşdu. Eynəyini əlində tutmuş, seyrək saçlarını yana daramış Aslan müəllim təmkinlə danışır, şagirdlərin yaxşısının, pisinin adını çəkir, gah səsiii qaldırıb qəzəbindən əsir, coşur, gah da həlimliklə ürəyinin sözünü deyirdi. Sədəfə elə gəlirdi ki, müəllim yaxşı uşaqlar barəsində danışanda üzünü heç kəsə yox, ona tutub danışır.

İclasda Rəhimin dərsini oxumasını, ağır oturuşunu, duruşunu, tərbiyəsini ağızdolusu təriflədilər. Sən demə, Rəhim məktəbin gözü, fəxri imiş. Sədəf bunu indiki kimi heç bir vaxt hiss eləməmişdi. Onun sınıq və məhzun könlü bahar sevinci ilə dolmuşdu, üzü gülmüş, çoxdan bəri az qala unutduğu əsl sevinci, şadlığı bu gün təkrarən hiss eləmiş, duymuşdu.

Sədəfin yanında oturan şagird partasına güclə sığışan ətli-əndamlı arvad özünü saxlaya bilmədi, əyilib astaca soruşdu:

— Yaxşı, ay bacı, soruşmaq ayıb olmasın, siz neynirsiniz ki, uşaq belə yaxşı oxuyur, hə?

Sədəf bu suala nə cavab verəcəyini birdən-birə aydınlaşdıra bilmədi, xeyli sükutdan sonra:

— Elə özü oxuyur, bacı, — dedi. — Kök arvad əlini dizinə şappıltı ilə vurub vaysına-vaysına söyləndi:

— A qız, a başına dönüm, bizimki oxumur da!.. Nə illah eləyirik, oxumur da, canı yanmış, heç bilmirəm neyləyim, başıma haranın külünü töküm?

İki saatdan çox davam eləyən iclas qurtarıb, adamlar dağılışanda Aslan müəllim xüsusi bir hörmət və ehtiramla Sədəfə yanaşdı. Pilləkəni birgə enib, bağ-bağatlı məktəb həyətinə çıxdılar.

Sədəf başa düşdü ki, Aslan müəllimin nəsə başqa sözü də var... Doğrudan da, ortasındakı iri daşın üstünə məktəbli heykəli qoyulmuş hovuzun yanında o, Sədəfin qolundan tutub bir ata qayğısı ilə dedi:

— Sədəf, qızım, oğlun, maşallah, ayrı oğuldu. Sənin də, bizim də gələcəkdə başımızın ucalığıdı.

Ana fərəhlə azca qabaqda başını aşağı əyib düşüncəli-düşüncəli addımlayan oğlunun dalınca baxdı.

— Ancaq sizin zəhmətiniz sayəsində, Aslan müəllim! — deyə ana onların xidmətini qiymətləndirməyi unutmadı. — Ömrünüz uzun olsun!..

— Bax, görürsən,— deyə Aslan müəllim sanki Rəhimdə yeni bir keyfiyyət də kəşf etmiş kimi, həvəslə dilləndi, — necə də başını aşağı salıb gedir! Tərif həm yaxşı, həm də pis şeydi; biz bəzən uşaqların üzünə onları tərifləyirik. Deyirik, sən beləsən, filansan. Bu, məncə, o qədər də düzgün deyil. Onun gözü tez dumanlanır, yerişini itirir. «Burada mənəm, Bağdadda kor xəlifə!» — deyib heç kəsi, hətta, öz müəllimini də bəyənmir. Çünki onlar yeniyetmələrdi. Çox vaxt ağı qaradan seçməkdə çətinlik çəkirlər. Ancaq Rəhim ayrı baladır. Onun yerinə bəlkə də bir başqası olsaydı, bu qədər hörmət-ehtiram müqabilində, yerişini çoxdan itirmişdi. Amma o...

— Sevindiyimdən gözlərim yaşardı, müəllim, bağışlayın! — deyə Sədəf ovcunda gizlətdiyi əl yaylığı ilə gözlərini sildi.

Aslan müəllim bir az da mehribanlıqla dilləndi:

— Bilirsiniz, Sədəf, qızım, mən iclasda bir şeyi demədim...

— Nəyi, müəllim? — Sədəf sual dolu nəzərlə ona baxdı.

— Bax, bizim məktəbdə tez-tez cürbəcür gecələr, konsertlər, müzakirələr olur... uşaqlar gəlirlər, deyib-gülürlər, şənlənirlər. Ancaq sənin oğlun bircə gecəmizdə də hələ iştirak eləməyib...

— Mən bilmirəm. Bu barədə mənə heç bir söz deməyib...

— Bəli, hər dəfə bir bəhanə gətirib. Ancaq mən onun gəlməməyinin əsl səbəbini başa düşürəm...

— Nədir o, müəllim?

— Sədəf, qızım, — müəllim ağır-ağır izah elədi,— indi yaxşı zamanədir, hamı yaxşı yaşayır... Fikir ver bu uşaqlara, bax, balacasından tutmuş böyüyünəcən hamısı yaxşı geyinib-keçinib... Rəhim indi balaca deyil, on altı-on yeddi yaşı var. Onun üst-başına fikir vermək lazımdır, tay-tuşu var, sıxılır, utanır...

Sədəfin qaşları çatıldı, baxışları dumanlandı.

Bir az əvvəlki sevinci quş olub harasa, çox-çox uzaqlara uçdu.

— Düz deyirsiniz, müəllim…

— Mən bilirəm, yetim uşaqdı, ancaq yenə də olsun...

— Haqlı sözdür, müəllim...Bizim ki könlümüz sınıqdı, geyimə-keçimə elə də fikir vermirik.

— Yox,— Aslan müəllim etiraz elədi,— nahaq yerə. Yaxşı, sən harda işləyirsən. Sədəf?

— Mən? Heç yerdə. Kişinin pensiyası ilə dolanırıq, Aslan müəllim, Bacım da, atam da hərdən əl tutur...

Aslan müəllim fikrə getdi. Kənarda dayanıb anasını gözləyən Rəhimə baxıb:

— Axı, niyə işləmirsən bir yerdə, Sədəf? — deyə soruşdu.

Sədəf çətinliklə cavab verdi:

— Savadım yoxdur, Aslan müəllim.

— Bütün işlər üçün ki, savad lazım deyil, qızım! Sən bir yüngülvarı iş tapıb işləyə bilərsən. Ayda aldığını da pensiyanın üstə gəlib yaxşı dolanarsan, Sədəf. Uşağın da yaxşı geyinər, özün də atanın, bacının minnətli çörəyini yeməzsən. Məsələn, bax, bizim məktəbə işlək, bacarıqlı bir xadimə lazımdır. Gələrsənmi?

— Xadimə? Yəni neyləyəcəyəm, Aslan müəllim?

— Sil-süpür işi görəcəksən, Sədəf.

Burada Sədəf yenə Nadirəgilin qonşusunun dediyi sözü xatırladı: «Qulluqçusan?» Orda da — bacımgildə də sil-süpür, burda da sil-süpür. İşlərəm, maaş alaram. Yazıq Nadirə daha mənim zənbilimə ət, cibimə pul qoymaqdan yoruldu. Utanıram, özüm də utanıram...». — deyə o, nisgilli-nisgilli ürəyində götür-qoy elədi.

— Hə, necədi, razı olursansa, sabahdan gəl, əmrini verim, işlə.

Sədəf az qala «hə, razıyam» kəlməsini dilindən çıxarmışdı ki, Rəhim gözünə dəydi və fikirləşdi ki, oğlunun oxuduğu məktəbdə qulluqçuluq eləmək Rəhimin ürəyini sıxar. Uşaq yoldaşları yanında utana bilər.

— Yox, Aslan müəllim, çox sağ olun. Mən işləyə bilmərəm.

— Niyə?

— Hər necə olsa, Aslan müəllim... yox... — O, fikrini deməyə sanki çətinlik çəkdiyinə görə susdu.

— Aha, sizi başa düşdüm... Yəqin Rəhimə görə... eləmi?

— Elədir, Aslan müəllim, düz tapdınız. Çətindir. İşləsəm də başqa yerdə işlərəm...

Bu ara zəng çalındı. Aslan müəllim saata baxıb Sədəfdən ayrıldı. Dili dua-səna eləməyə öyrəşmiş Sədəf Aslan müəllimin ardınca baxıb: «Ömrün uzun olsun, müəllim!» — deyə ürəyindən keçirdi...

Axşam Sədəf Nadirəgildən evə qayıdanda Rəhimi masa arxasında oturub dərslərini hazırlayan gördü, qəzetə bükülmüş bağlamanı onun qabağına qoydu. Rəhim kitabı yana itələdi.

— Bu nədi, ana?

— Kostyumdu, bala!

Rəhim əl uzadıb qəzeti aça-aça sevinclə:

— Təzə almısan? — deyə soruşanda ana ağır dilləndi: Rəhim qəzetin arasından kostyumu çıxartdı və... birdən onun gözlərində yanan sevinc qığılcımları öləziyib söndü:

— Ceyhununkudu?

Sədəf başını ağır-ağır tərpətdi:

— Təzədi, cəmi üç-dörd dəfə geyib. Rəhim mil-mil kostyumu geri itələdi:

— Lazım deyil, ana!

Sədəf udqundu:

—Ədə, özgə adamın deyil ki, öz xalan oğlunundu da.

— İstəmirəm. Mən onun paltarını geyəndə özümü pis hiss eləyirəm.

Sədəfin dodaqları səyridi...

## ON BİRİNCİ FƏSİL

Nadirə bərk narahatdı. Oğlundan ötrü həmişə səksəkə içində yaşayan ananın dərdini müəllim bir az da artırmışdı, qorxa-qorxa düşündüklərini Vera Pavlovna onun üzünə demişdi. Dünyada ən böyük nigarançılıq ana nigarançılığıdır. Bir yerdə qərar tutub dura bilməyən Nadirə gah bu, gah da o otağa girir, balkona çıxıb həyət-bacaya boylanır, nəzərləri ilə Ceyhunu axtarırdı.

«Daha böyüyüb. Yekə kişi olub. Bəstəkar Baharlının qızı ilə gəzir... Tez deyilmi? Tezdir, tezdir. O, hələ oxumalıdır, oxumalıdır!..» — deyə düşünən ana hövlündən ev-eşiyə sığışmırdı.

Müdhiş, qorxulu bir hiss onun qulağına, elə bil, bu sözləri pıçıldayırdı: «Sən ondan sevinc gözləyirsən. Amma o sənə həmişə kədər və dərd verəcəkdir!» Nadirənin ana ürəyi içəridə əsim-əsim əsirdi: «O bu iki daşın arasında hara getdi?.. Müəlliməsi gələn təki niyə qaçdı?.. Günahı olmasaydı qaçmazdı. Axı bəs hardadır? Qıza bax!.. Görəsən necə qızdır? Hər halda deyəsən, ağlı başında olan qıza oxşamır. Deyir, Baharlının qızıdır... Olsun da... Atası yaxşı bəstəkardır... Ancaq bunun məsələyə bir dəxli varmı? İş burasındadır ki, axı bunların hələ o vaxtı deyil, uşaqdırlar!...»

Nadirə neçə saat beləcə çalıxıb-çapaladı, düşündü-daşındı. Əgər bu hirsli vaxtda əlinə düşsəydi, bəlkə də ana özünü saxlaya bilməyib

onu yaxşıca silləl追di. Halbuki Ceyhun indi uşaq deyildi. Ağlının kəsən vaxtı idi. İndi onda mənlik, kişilik qüruru yaranır, özünü dərk edir, müstəqilliyə can atırdı...

Ancaq Nadirə üçün Ceyhun hələ çox uşaq idi. Ana öz oğluna böyük gözü ilə baxmağa adət eləyə bilmirdi. Ceyhun boylu-buxunlu oğlan olsa da, az qala atası boyda görünsə də, Nadirə üçün başı sığallanan, bəzən bir şey üçün ağlayaraq ayağını yerə döyən uşaq idi.

Salman axşamçağı evə gələndə Nadirə böyük bədbəxtlikdən mütəəssir olmuş adam təki ağlamsına-ağlamsına bütün əhvalatı ərinə danışdı. Salman bu söhbəti çox sakit və soyuqqanlılıqla dinlədi. Üzündə nə heyrət, nə də təəccüb əlaməti göründü. Daha nə isə gözləyirmiş kimi, səsini uzada-uzada:

— Sonra? — deyə arvadından xəbər aldı.

— Daha nə sonra, Salman? Sənin bu məsələdə belə laqeydliyin məni lap əsəbləşdirir.

— Niyə, Nadirə?

— Axı, uşaq tamam əldən gedir, sən isə...

Salman heç nə başa düşmürmüş kimi:

— Uşaq əldən niyə gedir, axı? — dedi.— Uşaq restorana yoldaşlarıynan çörək yeməyə gedir, məktəbdə bir qıznan yoldaşlıq edir, nə olsun? Burda qorxulu nə var? Bu pedaqoqlar da bilmirlər neyləsinlər, işlədiklərini necə gözə soxsunlar. Uşaq kimdir? Sənin cəmiyyətinin bir üzvüdür! O, gərək yaşamaq üçün lazım olan şeyləri bilsin. O, pul xərcləməyi, adam arasına çıxmağı bacarmalıdır. Müəllimlər, sənin kimi analar uşaqları guya düzgün tərbiyə etməyə çalışırlar, halbuki, məncə, siz onları şikəst eləyirsiniz. Siz müti, kitab oxumaqdan başqa heç nə bilməyən adamlar tərbiyə edirsiniz. Pul xərcləmək bilmir, ev dolandırmaq bilmir, çətinliyə dözmək bilmir! Oyun bilmir, əyləncə bilmir! Kitab oxumaq. Bəh! Bəh!. Kitab oxumaq!.. — Professor qara tüklü əlini havada yellətdi: —Budur tərbiyə?!

Salman sualına cavab gözləmədən otaqda gəzindi. Pəncərənin qabağına gəlib həyətə baxdı, nəsə fikirləşib geri döndü və üzünü Nadirəyə tutmadan dedi:

— Məni də siz deyən kimi böyüdüblər! Mən o cür tərbiyənin nə demək olduğunu, uşağı necə böyük çətinliklər qarşısında qoyduğunu öz həyatımdan bilirəm. «Böyük olan məclisdə kiçik oturmamalıdır!»—«Baş üstə!» —«Böyüyə cavab qaytarmaq olmaz!» —«Baş üstə» Əgər böyük düz danışmırsa, onda necə? «Yolda böyüyü ötüb qabağa keçmə!» — «Əgər böyük yeriyə bilmirsə, yaxud qarışqa yerişi yeriyirsə, onda necə? Bir sözlə, mütilik! Hələ bu nədir? Mən on yeddi-on səkkiz yaşında bilməli olduğum şeyləri otuzda güclə öyrənmişəm. Xəcalət çəkə-çəkə, gülünc vəziyyətdə qala-qala, tər tökə-tökə... Bu cür yaşamaq olmaz, arada-bərədə itib-batarsan. Gərək öz yerini, haqqını, ixtiyarını dərk eləyəsən. Yoxsa ayrı cür...

Mən heç bilirsən qanıma-canıma yeridilmiş o ehkamları uçurub dağıtmaq üçün nə qədər qüvvə, nə qədər vaxt sərf elədim?! Bunu ancaq özüm təsəvvür edə bilərəm. Dilnən deməknən başa gəlməz. — Professor stul çəkib əyləşdi. — Sən heç bilirsənmi ki, mənim bacımın, Səringülün ailəsi niyə dağıldı? Yox, bilmirsən! Ona görə dağıldı ki, qızı atam-anam bədbəxt elədi. Ağlı kəsəndən eşitdiyi sözlər bu oldu: «Səringül, bunu elə, onu elə. Bax, filan şeyi etmə, filan şey yaxşıdır, ya pisdir. Bunu yığışdır...ona dəymə!» Qız ata-anamın başı ilə iş görməyə adət elədi. Öz başı, öz beyni yaddan çıxdı. Özünün düşünməyə, fikirləşməyə ehtiyacı olmadı, Səringül insan olmadı avtomat oldu: Desən — elər, deməsən — eləməz! Ata-ana isə həmişə övladın yanında olmur. Vaxt gəlib çatır ki, övlad pərvazlanmış quş təki uçub ana yuvasından gedir. Səringül də getdi... Ancaq çox yaşamadılar. Əri ağıllı, həssas, təmizliyi sevən adam idi. Gərək indi o, ata-ananın əvəzinə Səringülə göstəriş verəydi: «Onu elə, bunu elə». Onun isə buna nə səbri, nə həvəsi, nə də vaxtı var idi. Ziddiyyət, narazılıq, axırı da elə. Üç uşaqla atdı getdi...

Nadirə bayaqdan ərinin sözlərinə qulaq asır, onun nə demək istədiyini anlamağa çalışırdı. Oğlunun tutduğu hərəkətlərin əsl səbəbini axtarırdı. Tapdı. Bunu indiyəcən hiss eləyirdi, ancaq indi açıq-aydın bildi. Salman bu neçə ildə hələ öz «pedaqoji» fikirlərini indiki kimi açıq şəkildə Nadirəyə söyləməmişdi. Nadirəyə elə gəldi ki, Salman doğma balasını uçurumdan başıaşağı itələyən bir cəllad ataya bənzəyir. O baxdı, baxdı, bədəni əsdi, Salman isə əksinə, sakit və arxayındı. Birdən Nadirə elə sandı ki, bu dünyada Salmanın elədiyi ən böyük haqsızlıqdır. Dözə bilmədi:

— Ox!.. Sən uşağı bədbəxt elədin! — deyə yanıqlı-yanıqlı köks ötürüb başını divanın mütəkkəsinə söykədi. Az sonra dikələndə Nadirənin gözləri yaşarmışdı. — Onu bil ki, uşağı gözümüz baxa-baxa uçuruma yuvarladan sənsən, Salman! Mən ona analıq eləyə bilmədim. Qoymadın. Sən bunun üçün bir zaman cavab verməli olacaqsan, Salman! Onda əlin heç yerə çatmayacaq, gec olacaq. Mən onda deyəcəyəm sənə...

Salman isə yenə arxayın bir əda ilə:

— Sən narahat olma, Nadirə, — dedi,— o, bədbəxt yox, xoşbəxt olacaq. Həyat adamı olacaq, kitab adamı yox!..

Axşam saat səkkizə işləyəndə qapının zəngi çalındı. Gələn Ceyhun idi. Oğlan içəri girməyə macal tapmamış, gözləməkdən səbri tükənmiş Nadirə əsəbiliklə onun üstünə yeridi və əllərini qəzəblə yumruqlayıb:

— Hardasan, ədə? Harada itib-batmısan?!. — dedi. Salman özünü irəli verib səsləndi:

— Oho!.. Yox, elə yox, Nadirə. Toxta. Kəmhövsələlik eləmə. — Üzünü oğluna tutdu: — Gəl bura, Ceyhun! Haçandı səninlə ağıllı-başlı bir söhbət eləməmişəm.

— Söhbət niyə eləyirsən? — deyə Nadirə özünü saxlaya bilməyib Salmanı acıladı: — Oturub əsər yazarsan. Uşaqla məşğul olmağa səndə vaxt haradaydı?!

— Nadirə! — Salman dönüb narazı baxışlarla onu süzdü. — Hələ sən qurtarmayıbsan?

— Qurtarmışam. O sən, o da oğlun!

Ceyhun mütərəddid addımlarla anasının yanından ehtiyatla keçib, atası ilə qabaq-qənşar dayandı.

Salman gəlib divanda oturdu və Ceyhunu yanına çağırdı:

— Gəl, otur burada...

Ceyhunun dil-dodağı təpimişdi. Söhbətin gedişindən, anasının hirslənməyindən, atasının ciddi tərzdə onu yanında oturmağa çağırmasından başa düşürdü ki, müəllimə aranı qarışdırıb, suyu bulandırıb...

Ceyhun oturdu.

— Haradasan bu vaxtacan? — Salman təmkinlə, mühakimə edirmiş kimi, xəbər alanda Nadirə ürəyində düşündü: «Mən bu uşaq bir xoşagəlməz iş görəndə onunla belə sakit danışa bilmirəm. Bütün bədənim əsir, ha eləyirəm, bacarmıram... Amma ona bax, kör necə sakitdir!.. Elə bil, bütün bu işləri eləyən onun doğma oğlu deyil, yad, özgə bir adamdır... Fikirlərimiz yaman haçalanıb, heç düz gəlmir!..»

Ceyhun ağır dindi. Salman səsini qaldırmadan eyni ahənglə yenə sualını təkrar etdi:

— Hardasan?

Ceyhun başını qaldırmadan:

— Şəhərdə idim, — dedi

— Niyə gec gəlirsən evə?

—…

— Sənnənəm!

— Qorxdum.

— Kimdən?

—…

— Kimdən qorxdun, deyirəm?

— Anamdan.

— Niyə?

— Ona görə ki... — Ceyhun udqundu, dayandı. Nadirə dözə bilmədi:

— Sən müəllimən gələn kimi evdən niyə qaçdın?

— Qaçmadım, getdim.

— Yaxşı, getdin, niyə axı?

—…

— Anan sənnəndi, niyə getdin?

— Ondan zəhləm gedir.

— Müəllimədən zəhlən gedir?

— Hə.

— Nə üçün?

— Məni sinifdə gözümçıxdıya salıb. Peşmanam bir söz deyim, bir iş eləyim. Düşür üstümə ki, «Sən professor oğlusan»... Gündə bu sözü eşitməsəm olmur. Xəta eləmişəm professor oğlu olmuşam?!.

— Elə bu?

— Özü bizə sinifdə mərdlikdən, ağzıbütövlükdən ağızdolusu danışır. Ancaq özü dediyinə əməl eləmir. Müəllimə xəbərçilik, sözgəzdirmək yaraşmaz. İndi bilirəm ki, gəlib birinin üstünə beşini də qoyub xəbər verib...

Salman qapının ağzında ayaq üstə quruyub dayanan Nadirəyə mənalı-mənalı baxıb göz vurdu və Ceyhuna dedi:

— Hə, xəbər verib... Ancaq bu xəbərçilik deyil, həm də nə anan, nə də mən inanmırıq ki, sən elə işlər tutarsan. Elə deyil?

Ceyhun yerində büzüşüb yumağa döndü; başını o qədər aşağı saldı ki, boynunun arxası göründü.

— Yaxşı başını qaldır. Söz verirsənmi ki, bir də müəllimləri incitməyəcəksən, yaxşı oxuyacaqsan?

—…

— Sənnənəm, Ceyhun!

Ceyhun astaca başını tərpətməklə kifayətləndi.

Söhbət bununla bitdi. Salman ürəyində oğlunun bu çətin sorğu-sualda özünü məharətlə aparmasından çox məmnun idi.

Ceyhun, sıxılsa da, çəkinmədən düşündüyünü deyirdi. Fikirləri aydın, cəsarətli, cümlələri sərrast idi. Salmanın yadına öz uşaqlıq vaxtı düşdü. Onun da belə «Mühakimə» olunan çağları vardı. Ancaq Salman o zaman atasının sorğularına belə açıq və kəskin cavablar verə bilmirdi. Susub durur, sonra birdən ağlamağa başlayırdı. Onda atası deyirdi: «Qaragözlük eləmə!» Ceyhun isə... «Yox, Ceyhun belə deyil. Bu, yaxşıdır, qoy belə olsun. Oğul gərək cəsarətli, möhkəm olsun!» Onun öz müəlliməsi haqda fikir söyləməsi Salmana ləzzət vermişdi. «Müəllim valideyndən sonra uşağın ikinci allahıdır. Əgər o öz allahı haqqında sərbəst mühakimə yürüdə bilirsə, deməli, bu uşaqdan bir şey çıxacaq!..»

## ON İKİNCİ FƏSİL

İki gün idi ki, Orxanın qırışığı açılmır, fikirli-düşüncəli gəzib-dolanırdı. Professorun onun yanından saymazyana keçməsi, salamını almaması Orxana yaman yer eləmişdi. Elə hey bu barədə götür-qoy edir, Salman Qurbanzadənin xəyalı onun gözünə görünür, Orxanın həmişə sakit və rahat olmuş qəlbini incidirdi. O, indi qiymətli bir şey itirmiş və onu daha tapmayacağına əmin olan adama oxşayırdı.

Orxan səssiz-səmirsiz, ürəyindəcə professorla danışırdı:

«Professor, siz mənim — öz tələbənizin salamını niyə almırsınız? Sizə neyləmişəm? Məqalədə sizin fikrinizə şərik olmadığıma görəmi belə eləyirsiniz, professor? Axı, siz bizə— öz tələbələrinizə ayrı sözlər öyrədirdiniz. Öyrədirdiniz ki, obyektiv olaq, «düz söz zəhər kimi acı da olsa, onu deyəndən inciməyək, sənin nöqsanlarını deyən adam sənin ən yaxın dostun, xeyirxahındır», — deyərdiniz. Deyərdiniz! Bəs hanı? Belə görünür, bunlar boş sözlərmiş... Doğrudanmı mənim hörmətli müəllimim, siz bu qədər kiçik adamsınız? Mən

heç ağlıma da gətirməzdim ki, siz bunun üstündə məndən inciyə bilərsiniz mənim salamımı almaya bilərsiiz, məni görməyə bilərsiniz. Mən çox sadəlövh adamam. Mən insana çox inanıram, mən onun yaxşı cəhətlərini görmək istəyirəm. Bəlkə bunlar mənim gözümü yumur və mən adam tanıya bilmirəm?! Müəllim mənim gözümdə müqəddəsdir, müəllim hiylədən, riyadan uzaq bir varlıqdır... Günəşdə ləkə ola bilər, ancaq müəllimdə gərək zərrəcə ləkə olmasın.

İnciyirsiniz, inciyin... Mən öz ürəyimin, ağlımın səsini dinləmişəm, müəllim!..»

Nəhayət, Orxan dözə bilmədi. Günorta, camaat tənəffüsə çıxan vaxt professorun meşin örtüklü qapısını üsulluca aralayıb içəri girdi. Orxan həyəcanlı idi; bilirdi ki, kabinetdən yaxşı çıxmayacaq, professorla onun arasında yəqin ki, xoşagəlməz söhbətlər olacaq...

Ancaq bu, onu qorxutmurdu. Açıq danışmaq, münasibəti aydın bilmək hər şeydən yaxşı olardı. O zaman daha Orxan: «Professor inciyibmi, inciməyibmi?» — deyə ürəyinin içini yeməz, rahat yaşar, rahat işlərdi.

Lakin Orxan tamam başqa bir vəziyyətlə qarşılaşdı. Nadirə xanım, Cəfər və Gülalı professorun kabinetində idi. Nə barədə isə danışırdılar. Onun gəldiyini görəndə söhbət kəsildi. Orxan təkcə Nadirə xanım tərəfə baxıb başını astaca tərpətməklə salam verdi. Professorun kefi kök idi; qarayanız sifəti gülürdü.

— Hə, gəl görək, qoçaq oğlan! — deyə o, kürəyini yumşaq kreslonun arxasına söykəyib yayxandı. — Bəs sənin salamın hanı, Orxan?

Professor səsi həmişəki kimi sakit və mülayimdi, elə bil, heç nə olmamışdı. Məsələnin belə olacağını gözləməyən Orxan professora salam verməməsindən yamanca pərt oldu. Ancaq professorun bu sualının çətin söhbəti başlamaq üçün çox münasib bir açar olduğunu başa düşüb dedi:

— Siz ki, daha mənim salamımı almırsınız, professor!

Salman bu sözləri ya eşitmədi, ya da əhəmiyyət vermədi. Qapının ağzındakı stulda oturmuş Gülalı indi burada çox maraqlı söz-söhbət olacağını yəqin edib yerini rahatladı və nə Orxanın, nə professorun sifətlərindəki kiçicik bir ifadəni də nəzərdən qaçırmamağa çalışaraq üzünü gah ona, gah da buna sarı çevirirdi. Nadirə xanım isə məqalə çıxan günün axşamı ərinin ürəyinin qısılmasını xatırlayır, mütəəssir halda onun indi Orxanla necə danışacağını gözləyirdi. O bərk həyəcan keçirirdi. Salmanı məqalə çox əsəbləşdirdiyindən qorxurdu ki, burda onunla Orxan arasında xoşagəlməz bir hadisə ola. Bircə an sonra Nadirə xanımın bütün təşvişləri yox oldu.

—Əvvəlcə, səni məqalə münasibəti ilə təbrik edirəm. O gündən səni görməmişəm, — deyə professor əlini Orxana sarı uzadanda Orxan özü də, Nadirə xanım da, Gülalı da gördüklərinə və eşitdiklərinə inanmaq istəmədilər. Lakin Salmanı onun həyat yoldaşından da qabaq və yaxşı tanıyan Cəfər bu zahiri səmimiyyətin bir pərdə olduğunu həmin dəqiqə anladı və professorun aktyor hərəkətlərinə nəzər yetirə-yetirə mənalı-mənalı qımışdı.

Orxan tam anlaşılmazlıq içərisində əlini professorun uzanan əlinə toxundurdu. Orxan gözləyirdi ki, professor onun əlini çox könülsüz sıxacaq. Yox, o yanılmışdı. Professorun nə səsində, nə əl sıxmasında səmimiyyətdən başqa heç nə duymaq mümkün deyildi.

— Gözümə dəymirsən.

— O gün salam verdim, almadınız.

— Haçan?.. — Salman qaşların yuxarı elə dartdı ki, alnında çin-çin qırışlar əmələ gəldi. — Yəqin, görməmişəm. Fikirli olmuşam, ya da...

— Mənim isə ürəyimə gəldi ki, — Orxan üzünü Nadirə xanıma tutdu; — yəqin, professor məqaləyə görə məndən inciyib.

— Yox, canım... Məqaləyə görə niyə inciyirəm səndən?.. Budur, Nadirə xanım Allah şahididir, yanında durub... — Professor

arvadına ötəri bir nəzər fırlatdı. — Gecə yarısınacan səndən, məqalədən danışmışıq...

Nadirə: «Yalandır!» deməkdən özünü güclə saxladı. Necə olsa, yenə əridir, onu bu cavanların yanında pərt etməyə ürəyi gəlmədi. Ancaq o, fikrində öz gündəliyinə bircə kəlmə söz yazdı.

«Dəhşət!»

Gülalı isə:—«Hm. Qəribə adamdır bu professor.

Deyəsən, bir balaca prinsipsizdi! Deyir, təbrik eləyirəm. Əcəb, əcəb!.. Bu nədi, alicənablıqdı, böyüklükdü, ya nədir görəsən? Mən də Mürsəl Bəbirzadəni görəndə belə eləyəcəyəm. Deyəcəyəm, təbrik eləyirəm. Gecə yarısınacan səndən danışmışıq, arvadım Allah şahididir. Hm. Baş açmıram, bunlar hansı məzhəbə qulluq eləyirlər...»

Nadirə xanımla Gülalı və Cəfər durub gedəndən sonra otaqda ikisi — profesor və Orxan üz-üzə qaldı. Əslində isə şöbə müdiri stolunun arxasında iki adam oturmuşdu. İkisinin də adı Salman Qurbanzadə idi. Biri zahirdə idi; onu Orxan görürdü, dinləyirdi, o biri isə... Onu Orxan görə bilmirdi, səsini eşidə bilmirdi. Bu professorun ürəyi idi.

Onların arasında belə qəribə bir söhbət başlandı.

Professorun dili:

— Bəli, məqalə çox yaxşı məqalə idi. Professorun ürəyi:

«— Qara gəlsin o məqalə, çörəyi dizinin üstündə olan adam. Az qala partlamışdım!..» Orxan:

— Çox sağ olun professor... Sizi də, Gülalı demişkən bir balaca... tənqid... Professorun dili:

— Onun eybi yoxdur. Mən elə xırda şeylərə fikir vermərəm..

Professorun ürəyi:

«— Sənin anadan əmdiyini burnundan tökmək mənə borc olsun!..»

Orxan:

— Siz həmişə deyirsiniz, obyektiv fikir mübadiləsi, açıq danışıq olmayan yerdə elm inkişaf edə bilməz. Professorun dili:

— Bəli, həqiqət də belədir. Mən öz həyatımda həmişə belə eləmişəm, bu yolla gedənləri də sevirəm.

Professorun ürəyi:

«— Quyruğun qapı arasından çıxıb. Nə qədər ki, müdafiə eləməmişdin, quzu idin. İndi obyektiv fikir deyən olubsan».

Orxan:

— Yoldaşlar deyirlər ki, məqalənin tonu ağırdır. Professorun dili:

—Yox, canım! Məqalə çox mədəni və savadlı yazılmışdı. Xoşuma gəlir tonu.

Professorun ürəyi:

«— Məqalənin tonu başından ağır idi. Ölüncə bağışlamaram sənə!..»

Gözəgörünməz Salman Qurbanzadənin səsini eşidə bilməyən Orxan professorun dediyi sözləri dinlədikcə onun haqqında çox pis fikrə düşdüyündən xəcalət çəkirdi. «Səhv eləmişəm, — deyirdi. — Bu, mənim üçün bağışlanmaz səhvdir. Qəlbiqaralıq etmək lazım deyilmiş, heç lazım deyilmiş...»

Orxan qarışıq-dolaşıq hisslərlə girdiyi bu otaqda indi özünü çox sərbəst hiss eləyir, məqaləni yazmağa onu vadar eləyən səbəbləri professora danışırdı:

— Bizdə indi iki cür qələm sahibi var. Birincisi ştatlı, ikincisi isə ştatdankənar. Ştatlı qələm sahiblərimiz üzdədir, göz qabağındadır; onları tanıyırıq da, sevirik də, tərifləyirik, qiymət veririk. Amma ştatdankənar qələm sahiblərimizi... hamımız yaddan çıxarırıq. Onlar bir növ ədəbiyyatımızın ögey uşaqları kimidir. Halbuki buna bizim haqqımız yoxdur. Biz hamımız bir ananın — bir ədəbiyyatın övladlarıyıq. Birini qəsdən yandırmaq, birini boş yerə qaldırmaq olmaz, bu,

ancaq bizim işimizə ziyan vura bilər... Buna son qoymaq vaxtı çoxdan çatmışdır...

Bir də, professor, indi yetişməkdə olan cavan tənqidçilərimiz arasında, çox təəssüf... elələri var ki, onlar nəinki bizim ədəbi tənqidimizin qarşısında duran mühüm vəzifələri layiqincə qiymətləndirə bilmirlər, hətta tənqidçi adını belə gözdən salırlar. Soruşa bilərsiniz ki, nəylə? Mən deyərdim ki, qeyri-obyektivliklə, məsuliyyətsizliklə. Tənqidçi gərək obyektivlik nümunəsi olsun — bunu dəfələrlə yazıblar da, siz də demisiniz. Tənqidçi məqaləni kiminsə xoşuna gəlməsi üçün, şəxsi bir təmənna ilə yazırsa, buna tənqid demək olmaz. Məsələn, professor, bizim Hamili götürək. Onu siz də yaxşı tanıyırsınız, tələbəniz olub, mənim də tələbə yoldaşım olub. Az-çox qabiliyyəti də var. Bunu inkar eləmək olmaz. Amma bu adam özü düzgün mövqedə dayanmayıb.

— Nə mənada yəni, Orxan? — Professor soruşdu.

— O mənada ki, bu adam yaltaq adamdır. Siz bilmirəm fikir vermisiniz ya yox. O, ancaq bizim adlı-sanlı yazıçılarımızın haqqında yazır. Özü də diriləri haqqında. Hələ bu harasıdı, Hamil hər diri sənətkar haqqında da yazmır, ancaq vəzifəsi olan haqqında fikir söyləyir. Məsəlçün, Mirzə Yanar yazıçılar ittifaqında məsul vəzifədə işləyəndə Hamil bir ildə onun özü, əsərləri barədə dörd-beş məqalə çap etdirmişdi. Mirzə Yanar inişil vəfat elədi. Hamil onun haqqında indi bir cümlə də yazmaz. Dırnağına döysən də yazmaz. Qabaq, kişi ölməmiş, Hamil onun oğlunun şerləri barədə tez-tez mətbuatda çıxış eləyib sözünü söyləyərdi. Mirzə Yanar rəhmətə gedəndən sonra Hamil həvəslə danışmağı yerə qoyub ağzına su aldı. Yaxud ayrı bir şey. Universitetdə bizimlə oxuyan uşaqların neçəsi indi şer, nəsr sahəsində qələm çalıb gücünü sınayır. Onların arasında, sözün həqiqi mənasında, istedadlı olanları da var və hərəsi üç-dörd kitabın müəllifidir. Hamil onların barəsində də susur. Səninlə tələbə yoldaşı olub, onun kitabını oxu, yaxşı cəhətini, nöqsanlarını aç göstər, əlindən tut. Bu, sənin

yoldaşlıq borcundur. Bunu eləməlisən. Bax, belə-belə məsələlər, düzü ki, bir oxucu kimi, məni çox narahat edir. Bunları görməmək, göz yumub yanından keçmək olmur, adamın ürəyi ağrıyır.

Professorun dili:

— Bunlar çox doğru sözlərdir, Orxan. Sevinirəm ki, bunu mənim tələbəm deyir. Bunu lap uca bir tribunadan da demək lazımdır.

Professorun ürəyi:

«— Sənə meydan vermək lazım deyil. Sən bizi rüsvay eləyərsən. Sənin ağzına pambıq tıxamaq lazımdır».

Orxan:

— Düzdür, siz məni lap qanadlandırdınız, professor – deyə razılıq etdi.

Professorun dili:

— Borcumdur, Orxan. Professorun ürəyi:

«— Sənin qanadlarını qırmaq da mənə borc olsun Orxan!» Orxan:

— Sağ olun, professor! — dedi.

## ON ÜÇÜNCÜ FƏSİL

Hava sərin idi. Yaşıl ağacların yarpaqları xəfif-xəfif pıçıldaşırdı. Böyük şairin hündür pyedestal üzərində qoyulmuş heykəli uzun yol gəlib yorulmuş və daşın üstündə oturub fikrə getmiş bir adama oxşayırdı.

Ağ papaqlı, ağ paltarlı bir dəstə uşaq heykəlin o tərəfində, kölgəlikdə oynayırdı.

Onlar əl-ələ verib «Dərsə gedən bir uşaq» mahnısını oxuyurdular. Elə bil, şair bu gözəl mahnını dinləmək üçün oturmuşdu, uşaqlar oxuyub qurtaran kimi o durub yoluna davam edəcəkdi, əbədiyyətə gedən yoluna...

Oturacaqda oturmuş Orxanın fikri şairin keçirdiyi ağır günlərdə, illərdə dolanır və o, ürəyində deyirdi. «Sən xoşbəxt olsaydın, belə böyük şair olmazdın. Böyük dərdin səni böyük şair elədi!..»

Bu vaxt:

— Salam, Orxan, — deyə zərif səs onu fikirdən ayırdı. Bu, Gülmirə idi. Qırmızı qırçınlı donunu geymiş, belinə bağladığı ilan başlı nazik kəmər vücudunu incəsindən sanki iki yerə bölmüşdü. Qırağı ağ haşiyəli gün eynəyi onun qəşəng gözlərini gizlətmişdisə də, sifətinə çox yaraşırdı.

— Deyəsən, dincəlirsən.

— Hə, tənəffüsə çıxmışdım. Bağ sərindi. Oturdum. Orxan nəzərlərini Gülmirənin eynəyinə zilləyib ciddi bir tövrlə:

— Səndən bir xahiş eləsəm, yerinə yetirərsən? — dedi.

Gülmirə iki qədəm irəli yeridi:

— Buyur, Orxan.

Orxan sözünün pis qarşılanacağından ehtiyat edirmiş kimi, titrək səslə:

— Bu eynəyi çıxart, Gülmirə! — dedi. Onun xahişinin tamamilə ciddi olacağını güman edən Gülmirə gülümsünərək:

— Necə məgər, pisdir? — deyə əlini eynəyinə uzadanda Orxan:

— Yox, pis deyil, sənə də yaxşı yaraşır. — dedi. — Ancaq mənim səbrim çatmır... Sən məni görürsən, amma mən sənin gözlərini görə bilmirəm.

Gülmirə eynəyini çıxarıb ala gözləri ilə Orxana mehriban-mehriban baxdı:

— Demək, səninlə danışanda eynəyi çıxarım deyirsən, hə?

— Əgər mümkünsə...

Gülmirə Orxana daha bir söz demədi, ancaq eynəyi qaytarıb gözünə taxmadı.

Sözləri tükənmiş təki dinmədilər. Orxan nəzərlərini ondan çəkmədən baxır, Gülmirə isə başını aşağı salıb eynəyinin dəstəyini qurdalayırdı. Bu, çox davam etmədi, cəmi iki-üç saniyə çəkdi.

Birdən Orxan oturacaq tamam boş olsa da, Gülmirəyə yer verirmiş təki, azca kənara çəkildi:

— Otur Gülmirə, səninlə söhbətim var.

Gülmirə bayaqdan bu təklifə bənd imiş kimi, özgə yerdə yox, məhz Orxanın göstərdiyi yerdə əyləşdi. Ayağının birini irəli uzadıb, o birini taxta oturacarın altında gizlədi. «Səninlə söhbətim var». Bu sözləri eşidəndə Gülmirə ürəyində gizli bir qorxu duyub özünü itirən kimi oldu: «Birdən Orxan mənə bəslədiyi duyğulardan söhbət açsa... onda necə hərəkət etmək?» Ancaq bu hiss çox tez sovuşub keçdi. Məqalə yadına düşdü və bu, onun bütün fikrinə hakim kəsildi. Peşman olmuşdu, məqaləni Orxana verdiyinə peşman olmuşdu... Qəribə idi, yazısını Orxana verəndən sonra bir daha dərk eləmişdi ki, boş bir şey yazıb. Odur ki, bayaqdan ürək eləyib Orxandan məqaləni soruşmaq belə istəmirdi: «Yox, nahaq üzə çıxartdım, Orxan kimi tələbkar, hələm-hələm bir şeyi bəyənməyən adama məqalə göstərməkdə səhv eləmişəm... Nə olaydı, itirəydi, o barədə heç danışıq belə olmayaydı...» Bu, zəifliyin, acizliyin səsi idi. Gülmirə onun tilsimini qıra bilmir, əl-ayağı bağlanmış təki, çalıxıb-çapalayırdı.

Ancaq başqa səs də vardı. O heç nə ilə hesablaşmaq istəmir, öz qanuni tələbini söyləyirdi. Bu səs professorun səsi idi. O, sakit, arxayın, bir az da amiranə tərzdə bu dəqiqə Gülmirənin qulaqlarında səslənirdi: «Vaxtdır, daha nəyi gözləyirsən? Yaz, qol çəkək, çap elətdirək...»

Orxan qıçını-qıçının üstünə aşırıb sağ əlini ürəyinin üstünə qoydu:

— Məqaləni oxumuşam, Gülmirə!..

— Doğrudan? —Gülmirə özü də hiss elədi ki, bu sualı çox süni və yersiz çıxdı. Qız bundan sıxıldı.

— Hə. Ancaq bilmirəm sənin tənqiddən xoşun gəlir, ya yox?

Gülmirə qızardı, zorla:

— Xoşum gəlməsə də, acığım da gəlməz, Orxan! — dedi. — Buyur eşidirəm.

Orxan nə üçünsə qımışa-qımışa ona baxıb susdu.

O qorxurdu ki, tənqidləri qıza pis təsir edər, ölçüb-biçirdi. Gülmirəyə isə bu qımışmaq toxundu:

«Lağ eləyir, mənə gülür», — deyə ürəyindən keçirdi. Ancaq buna inanmaq istəmədi. Nədənsə indiyə qədər həmişə ona elə gəlmişdi ki, Orxan heç vaxt, dünya dağılsa da, Gülmirənin ürəyinə dəyən söz deməz, xətrinə dəymək istəməz.

Orxan nə qədər götür-qoy elədisə, yenə sözləri sərt səsləndi:

— Açığı budur ki, xoşuma gəlmədi, Gülmirə. Çox qurudur. Soyuq və kasıb bir mühakimə ilə yazılıb. Düzdür, ara-sıra dəyərli dəlillər, faktlar verirsən, ancaq onları lazımınca açmırsan, vəzifəni bununla bitmiş hesab edirsən. Dili pisdir, Gülmirə, elə bil bu məqaləni Azərbaycan dilini sonradan öyrənmiş bir əcnəbi yazıb. Acığına gəlməsin, həqiqət belədir!..

Gülmirə yamanca pörtmüşdü. Qaşları çatılmış, alnı düyünlənmişdi. Onun pərtliyini gözləri hər şeydən əvvəl büruzə verdiyindən tez eynəyi taxdı; gözlərini gizlətmək üçün... Bu, Orxanın nəzərindən yayınmadı:

— Yenə eynək?.. — deyib o, ərklə əlini uzadaraq eynəyi çıxartdı.

Gülmirə Orxana baxmamağa çalışaraq:

— Mən bilirdim elə məqalə üzə çıxarılası deyil.

Professor istədi deyə məcbur oldum... Ayrı çarəm... — deyib udqundu.

Orxan gördü ki, Gülmirənin uşaq üzünə bənzər məsum sifətində həmişəki şadlıqdan, nikbinlikdən əsər belə qalmayıb. Gülmirə indi güclü sel, yaxud başqa dəhşətli fəlakət qarşısında tək dayanmış

gücsüz, zəif bir insana oxşayırdı. İnsan gücsüzlüyünü, acizliyini hiss eləyəndə necə məyus olurmuş!..

Bu halda Orxanın ona yazığı gəldi. Gülmirə ağır yük altına girmişdi. Elmi işçi olmaq, alim adı daşımaq çoxlarının gözünü qamaşdırsa da az-çox elmin nə demək olduğunu bilən adamlar gərək bu yükün altına zorla girməsin; səbrin, savadın, enerjin varsa, gəl, yoxsa, nahaq əziyyət çəkib ömrünü-gününü havayı yelə vermə. Elm sənin gözünün işığını istəyir, verəcəksənsə, gəl! Elm sənin düz qamətini stol arxasında oturmaqdan əyəcək, razısansa, gəl! Ürəyin ağrıyacaq, dözəcəksənsə, gəl! Elm bəlkə səni əlində qələm, elə lap stol başında öldürəcək, qorxmursansa, gəl!

Bax, Gülmirə bu həqiqətləri bilməyə-bilməyə elm aləminə qədəm basıb. Bəs onun əri necə? Odamı bilmir?. Yaxşı, tutaq ki, o, təyyarəçidir, bunu lazımınca dərk eləmir. Bəs Salman Qurbanzadə? Gülmirə gəlib, indi geri qayıtmaq istəmir: «Öldü var, döndü yoxdur». Qəribə deyilmi?!

Orxan Gülmirənin «dərdinin» böyüklüyünü onun özündən çox duyurdu. O, Gülmirəni çox istəyirdi. Onun əlindən tutub özü ilə bərabər irəli apara bilərdi. Ancaq... axı... nə qədər, haçanacan?

İndi Gülmirənin çox sıxıldığını, ümüdsizləşdiyini görən Orxan yanındakı qəzetin arasına qoyduğu məqaləni ona sarı uzatdı. Gülmirə, bu dəqiqə elə pərt idi ki, bükülünü açıb məqaləsinə belə baxmaq istəmirdi. Kağızı lülələməyə başlayanda Orxan yenə qımışa-qımışa:

— Neyniyirsən? — deyə xəbər aldı.

— Nəyə lazımdır? Bunu da atacağam gedəcək, — Deyə Gülmirə məyusluq içində dilləndi.

— Yox, bir aç, bax...

Gülmirə qəzeti qorxa-qorxa açdı. Onun əlyazmasının səhifələri üzərində vurma işarəsi kimi xətt çəkilmişdi. Bir, iki, üç... bütün səhifələr belə...

— Lap utandım, Orxan, — deyə Gülmirə əli ilə üzünü tutdu, — pis yazı, pis əsər pis övlad kimi adamın başını aşağı eləyirmiş.

Vərəqlədi. Qəşəng, səliqə ilə yenidən yazılmış və sancaqlanmış vərəqləri görəndə əvvəlcə heç nə başa düşmədi. Elə bildi ki, Orxanın öz yazısıdır, hətta, istədi geri qaytarsın. Orxana baxanda yenə onun bayaqkı kimi qımışdığını gördü... Xətt Orxanındı. Məqalənin adını oxudu. Sərlövhədən yuxarı iri hərflərlə Gülmirənin adı, familiyası yazılmışdı. İndi o hər şeyi başa düşdü:

— Sən neyləmisən, Orxan? — deyə o birdən-birə ürəyinə axıb donmuş həyəcanı boğa bilməyərək tələsik soruşdu. —Neyləmisən? Təzədən yazmısan?

—…

Gülmirə nəzərlərini səhifə üzərində gəzdirdi: «Aman Allah, bu ki hamısını dəyişib, mən belə başlamamışdım... Bu cümlələrin heç biri mənim deyil...»— deyə düşünür, oxuduqca sevinc qarışıq bir sıxıntı ürəyini əzirdi.

Orxan isə Gülmirənin məqaləsi üzərində işlədiyi xoş dəqiqələri, saatları fikrinə gətirib özündən razı halda başını tərpədirdi. Həvəslə işləmişdi. Cansız kağız üzərində işlədikcə sevinmişdi. Axı, bu səhifələrə Gülmirənin ağ əlləri toxunmuşdu, nəfəsi dəymişdi. Orxan gecə lampası işığında saat üçə qədər işlədiyi zaman bir daha hiss eləmişdi ki, Gülmirə onun üçün nə qədər əziz adamdır!

— Sən nə əziyyət çəkmisən, Orxan?! — deyə Gülmirə minnətdarlıqla parlayan gözlərini ona zillədi.

— Nə əziyyət, Gülmirə? Xoşdur... —Sonra necə oldusa, özü də bilmədən qəflətən dedi: — Mən sənin əziyyətini ömrüm boyu çəkməyə hazıram...

Gülmirə ağzını açıb cavabında nəsə demək istəyirdi ki, birdən təyyarə uğultusu eşidildi. Çox keçmədi ki, başlarının üstündən bir təyyarə uçub keçdi. Gülmirə əlini gözünün üstünə qoyub göyə baxdı. Nə üçünsə ona elə gəldi ki, o, Əqdəmin təyyarəsi idi, özü də ordan —

göydən onu gördü. Evə gələndə Gülmirəyə incik-incik deyəcək: «Bağda kimnən oturmuşdun?» — Gülmirə qeyri-iradi ayağa durdu və başı ilə yuxarı işarə eləyib gülümsünə-gülümsünə:

— Ondan qorxmursan ki, elə söz deyirsən? — dedi. Orxan məftun baxışlarını qızdan çəkmədən başını tərpətdi:

— Yox!

## ON DÖRDÜNCÜ FƏSİL

Havalar tez-tez dəyişir; gah istidən adamın nəfəsi qaralır, gah elə sərin düşürdü ki, istər-istəməz pencəyi geyinməli olurdun. Qızmar yay günəşinin altında bərq vurub gümüş kimi parlayan Xəzərin və bürküdən nəfəsi tıncıxan şəhərin başı üzərinə nəhəng, ucu-bucağı görünməyən bulud çətir tutdu, hər yeri tutqun bir kölgə bürüdü. Elə bil, hava da azca soyudu. Aralıq otaqda, üstündə qara telefon aparatı olan mizin arxasında oturan pırpız saçlı katibə qız kimin üçünsə yazıb hazırladığı ezamiyyə vərəqəsini qeyd dəftərçəsinin arasına qoyub pəncərədən qaralmış göylərə baxdı və qeyri-iradi düşündü: «Günortadan o qədər də çox keçməyib, amma elə bil axşamçağıdı hava...» Telefonun cingiltili səsi onun fikrini qırdı. O, uzun, manikürlü dırnaqları olan əlini könülsüz halda dəstəyə uzadıb cır səslə dilləndi:

— Bəli, institutdu... Akademik Aslanzadə? Bəli, burdadı... «Bilik» cəmiyyətinin iclasına ?.. Haçandı?.. Yaxşı, çatdıraram. Sağ olun.

Elvira dəstəyi yerə qoydu. Stolunun siyirtməsini çəkib kiçik güzgüsünü çıxartdı. Üz-gözünə nəzər yetirib pırpız başını sahmana saldı, ayağa durandan sonra üst-başını gözdən keçirib direktorun otağının qapısını araladı və «Bilik» cəmiyyətindən zəng eləyən qızın xahişini Aslanzadəyə çatdırdı. Uca boylu, enli kürəkli, sıx, ağ gümüşü saçları boynunun ardına tökülmüş, üz-gözündən nuranilik yağan Aslanzadə katibəni dinləyib: «Yaxşı», — dedi. Yaşı əllini çoxdan

adlamış bu adam bütün şüurlu ömrünü elmə— kitaba, oxuyub-yazmağa sərf eləmişdi. Adı, şöhrəti doğma şəhərindən çox-çox uzaqlarda məşhur olan bu alim insanın təsəvvür eləyə bilməyəcəyi dərəcədə sadə və mehriban idi. Səni elə şirin dindirərdi ki, deyərdin, bəs bu qədər də gözəl insan olar? Yaxından tanıyanlar onu psixoloq adlandırırdılar. Həqiqətən, onda psixoloqluq məharəti, psixoloqluq qabiliyyəti var idi. Onun üçün mübahisəli məsələ, dolaşıq iş, çətin, çıxılmaz vəziyyət deyilən şey yox idi. Hər kəsi öz dilində dindirər, uşaqla uşaq kimi, böyüklə böyük təki danışardı. Təkcə institutda yox, bütün Akademiyada o qədər hörməti vardı ki, adı çəkiləndə ürəklərdə rəğbət və ehtiram hissi baş qaldırardı: «Aslanzadə deyib». «Aslanzadənin fikri belədir» sözləri eşidilən elmi iclaslarda, məclislərdə qaytarıb ikinci bir söz deyən olmazdı.

Onuncu sinfi qurtarıb universitetə girə bilməyən Elvira burda Aslanzadə kimi məşhur bir alimin yanında işə düzəldiyinə görə imtahandan kəsiləndə duyduğu məyusluğu unutmuş, sevincindən nə edəcəyini bilməmişdi. Onun kitabını oxumuşdu və sanırdı ki, bu cür kitab yazan adam nəsə adi adamlardan çox fərqlənməlidi; onun danışığı da, yerişi-duruşu da ayrı cür olmalıdı. Amma üz-üzə gələndə onun düşüncələri alt-üst oldu: o, necə adi imiş, necə sadə imiş. Akademik Aslanzadə ona — dünənin uşağına bir qulluq buyuranda: «Xahiş eləyirəm, qızım» — deyir. Bütün bunlar Elviraya yuxu kimi görünürdü. Aslanzadə ona hər dəfə ata kimi həlim və mehriban səslə bir iş tapşıranda qız onu böyük həvəslə yerinə yetirirdi. İndi, o, sözünü deyib qurtarandan sonra, Aslanzadə əlindəki qalın kitabı büküb dedi:

— Qızım, xahiş eləyirəm, gör Salman otağındadı? Orda olsa denən mənə dəysin.

— Bu dəqiqə, — deyə Elvira dabanı üstə fırlanıb otaqdan çıxdı.

Dəhlizin o başında, balaca, xudmani otaqda Salmanın başı oxumağa elə qarışmışdı ki, Elviranın nə zaman içəri girdiyindən xəbəri olmamışdı. O, sinəsini stola söykəyib sol əlini alnına dayayaraq

kiminsə makinada çap olunmuş əsərini oxuyurdu. Səhifələrin qıraqlarına gah sual, gah da nida işarəsi qoyur, gah da bütöv bir cümlənin altından xətt çəkib qızardırdı.

Elvira professorun başı üzərində azca dayanıb öz gəlişini ona bildirmək üçün boğazını arıtdı və:

— Professor...—dedi. Səsə qanrılıb yazıdan ayrılan Salman yanında Elviranı görüb yorğun-yorğun gülümsündü:

— Buyur, Elvira xanım.

Onun səsi yuxusuz adamların səsi kimi ilişikli idi. O, son vaxtlar özündə bir süstlük hiss eləməyə başlamışdı. Beyni də, ürəyi də, bütün bədəni də düşüncələri təki kütləşib ağırlaşırdı. Dərdi-səri çox idi. Özünün dediyinə görə o, öz yazı-pozusunun dərdini çəkməli idimi? Çəkməli idi! Şöbənin işlərinə cavab verməli idimi? Bəli! Bu yandan, — maşallah, — bu cavanlar əsərdi ha, yazıb tökürlər onun üstünə. Oxu, fikrini de. Oxu, rəy yaz. Oxu, oppanent ol. Bunlara dözmək, öhdəsindən gəlmək olardı? Əgər evdə, — özünün dediyinə görə, — işləri düz gətirsəydi... Nadirə ilə onun sözü son vaxtlar tez-tez çəp düşür, evdə vaxt-bivaxt söz-sov olurdu: onu yandıran bu idi ki, bütün bunların hamısı çox xırda və gərəksiz şeylərin üstündə baş verir, qan qaraldırdı: bu məqamlarda kimin haqlı, kimin haqsız olduğunu sübuta yetirmək göydən ulduz endirməyə bənzərdi. O biri yandan da Ceyhun məsələni bir az qəlizləşdirir. Doğrudur, üzdə Salman özünü sındırmır, oğlunun düzgün hərəkət elədiyini, həyat adamı olmağa can atdığını deyirdisə də, özlüyündə bunun gələcəkdə nə kimi nəticələr verə biləcəyini də düşünürdü.

Ancaq bu hiss tez ötüb keçirdi. Daha o, Nadirə kimi içini-ürəyini yemir, gözlərini səqfə dirəyib gecələri yuxusuz keçirmirdi. Salmanı narahat eləyən başqa mühüm bir məsələ də var idi: o, aydın görür və dərk eləyirdi ki, axır illər ədəbi mühitdə canlanma əmələ gəlməyə başlamış, cavan, istedadlı şairlər, nasir, münəqqidlər meydana çıxmış və nə isə onun kimi, onun yaşıdları olan qələm sahibləri

kimi düşünmək, yazmaq istəmirlər: onlarda nəsə bir özünəməxsusluq meyli var. Qoy olsun, buna heç kəs etiraz eləmir. Ancaq onlar bir az, Salmanın dili ilə desək, böyük-kiçik məsələsinə, izzət — ehtiram məsələsinə az fikir verirlər. Hətta, iş o yerə gəlib çatıb ki, tələbə öz müəllliminə, ustadına meydan sulayır, onunla üz-üzə gəlib arxasını yerə qoymaq, onun ağarmış saçlarına, bükülmüş belinə belə ehtiram eləməmək istəyir. «Bizim vaxtımızda, — düşünürdü, — belə deyildi, əsla belə deyildi».

Bütün bu suallar, fikirlər Salmanı axır vaxtlar çox məşğul eləyirdi. Xüsusən Orxanın məqaləsi çap olunandan sonra o, lap xoflu adama oxşayırdı. Nə qədər qəribə olsa da, bu, bir həqiqət idi ki, Salman qəzetdə, jurnalda rast gəldiyi hər elmi-ədəbi, problematik məqaləni gizli bir qorxu hissi ilə oxuyur, sətirlərin arasında öz adını axtarır,üstüörtülü, eyhamla deyilmiş bəzi müddəaların özünə aid olub-olmadığı barədə saatlarla fikirləşirdi. Ona elə gəlirdi ki, indi bir təftiş dövrü başlanıb — vaxtilə yazılanlar, deyilənlər indi məhək daşına çəkilib yoxlanır, safçürük edilir. «Axı niyə də vaxtilə görülən işlər keçəndən sonra qaldırılıb yoxlandığı kimi, bu ədəbiyyat, elm sahəsində belə olmasın, — deyə bəzən öz-özünə zidd çıxıb belə eləyənlərə bəraət qazandırırdı: — Belə olarsa, məsuliyyət hissi qat-qat artar, hər kəs gecə yuxuda gördüyünü səhər kağıza köçürüb qəzetlərin, jurnalların səhifəsini doldurmaz». İki gün, ya iki həftə, bir ay keçəndən sonra beyninin hansı guşəsindəsə baş qaldırmış bu fikirlər unudulub gedir, Salman illər boyu adət elədiyinə xəyanət eləmədən yazıb-pozub «dostluğun, qohumbazlığın, «salaməleykümün» hələ də işə keçdiyi bir aləmdə elə belə də olacaq», — deyib istədiyi alimi, yazıçını göylərə qaldırır, xoşu gəlməyəni haqlı-haqsız sözlə isti aşına soyuq su qatıb keyfini bulandırırdı...

Elvira direktorun onu yanına çağırdığını deyib gedəndən üç dəqiqə sonra Salman Aslanzadənin yanında hazır oldu.

— Ay Salman, hardasan, balam? Görünüb eləmirsən heç. Çağırtdırsam gəlirsən, çağırtdırmasam yox — deyə Aslanzadə yumşaq kreslodan qalxıb iri pəncəli əlini ona sarı uzadıb böyründəki divanda yer göstərdi. Onların görüşü həmişə səmimi olurdu. Salman həm yaşda, həm adda-sanda özündən xeyli böyük olan Aslanzadə ilə necə davranmağı, necə danışmağı hər şeydən yaxşı bilirdi. Aslanzadə də öz adəti üzrə, Salmanla açıq danışar, institutun işi, yüksəlişi ilə əlaqədar olan məsələləri başqa şöbə müdirləri ilə olduğu kimi onunla da diz-dizə oturub məsləhətləşər, irəli sürülən təklifləri səbr və ağılla dinləyib yaxşısına yaxşı, pisinə də pis deyərdi. Salmanın işində, şöbəsində olan nöqsanları isə üzünə, dost kimi söyləməkdən çəkinməzdi. Salmanın ən çox xoşuna gələn cəhət bu idi ki, Aslanzadə onunla bir direktor kimi deyil, yaxın yoldaş kimi, bəzi hallarda onun öz şöbəsinin əməkdaşı kimi danışırdı. Belə şeyləri görəndə Salman fikirləşirdi ki, məsələn, mən bu qədər sadə olsaydım, mənim şöbəmdə əsla nə iş gedərdi, nə bir nizam-intizam olardı. Burada, bu institutda Aslanzadənin özündən çox, onun adı-sanı, hörməti və nüfuzu iş görür... Hər kəs ondan, onun əzəmətinə, sadəliyinə yaraşmayan bir söz eşitmək üçün əlindən gələni eləyir — təki onun könlü xoş olsun, təki o əsəbləşməsin...

Salman içəri girən təki hiss elədi ki, Aslanzadənin keyfi kökdü. Qarayanız üzündə, ağarmış, sıx qaşları altındakı yanları qırışlarla örtülmüş gözlərində sevinc, fərəh duyulurdu. Şad olduğu səsinin ahəngindən də bilinirdi...

— Elə buralardayam, professor, — dedi. — İş başımı qatıb. Bir də özünüz xasiyyətimi bilirsiniz, çağrılan yerə ərinmərəm, çağrılmayan yerdə görünmərəm. Bir işim, vacib bir məsələ olmayanda gəlib sizin vaxtınızı almaq istəmirəm. Onsuz da vaxt zəhrimar heç çatmır.

— Düz deyirsən, Salman. Vaxt çatışmır,— deyə o, əlini gur, gümüşü saçlarında gəzdirib qara pencəyinin sağ çiyninə tökülmüş iki-üç ağ tükü üfürüb yerə saldı. — Neynəyəsən, heç bilmirsən gün, ay, il hardan gəlib gedir. Ömür... hə, ömür dedim, yadıma düşdü. Dünən

prezidentin yanına getmişdim. Oturduq, elə o yandan-bu yandan, institutun işindən-gücündən xeyli söhbət etdik. Açığını deyim ki, Salman, mən o kişiyə bir də heyran oldum. Əşi, özün kimyagər olasan, şerə ədəbiyyata bu qədər bağlı olasan? Bu kişi nə qədər gözəl şer əzbər bilir. Türkcə, farsca, daha ana dilimizdə bildiklərini demirəm. Deyir sizin institut bizim ədəbiyyatımızın əsas istiqamətverici qüvvəsi olmalıdır. O, qayğıkeş, mehriban, övladının hər xoş qədəminə, xoş sədasına sevinən, yolundan azdığını görəndə onu ancaq düz yola çağıran bir ata kimi ədəbiyyatımızın beşiyi başında durmalıdır. Tarix bu nöqteyi-nəzərdən, sizin institutun boynuna böyük və şərəfli vəzifələr qoymuşdur. Yaxşı, ağıllı, savadlı kadrlarımız var, deyir. Onları qoruyun, qeydinə qalın, müdafiə işlərinə kömək edin, ev mənzil şəraiti pis olanı varsa, əlindən tutub evlə təmin eləyin. Bunlar, deyir, yaradıcı adamlardır.

— Tamamilə doğru sözlərdir, — deyən Salman təsdiq elədi.

Aslanzadə ani olaraq duruxub:

— Sözümün canı bu deyildi, — dedi,.— söz ömürdən düşmüşdü deyəsən.

— Bəli.

— Hə. Dünən də elə ömürdən-gündən söhbət gəlib düşdü ortaya. Öz aramızdı, heç görübsənmi ki, iki cavan oturub ömürdən danışsın, bunlar hamısı qocalıq əlamətidi, vallah.

İndi biz oturub-durub deyirik ki, ömür çatmır. Bilirsənmi, Salman, bunun səbəbi nədir? — Salmandan cavab gözləməyib özü davam elədi: — Səbəbi odur ki, həyat gözəldir, dünya gözəldir, yaşayışımız gözəldir elə buna görə də adam dünyadan doymur.

— Elədir, tamamilə doğrudur, — deyə Salman başını tərpətdi. Bu ara onun gözü professorun stolu üzərindəki göy cildli qalın kitaba sataşdı. Salmanın adəti idi: təzə kitab görəndə əlinə alıb vərəqləməsəydi, neçə səhifə, neçə çap vərəqi olduğunu, tirajını öyrənməsəydi

olmazdı. — Bu nə kitabdı, belə? — deyərək dikəldi, əlini uzadıb kitabı götürdü və elə o an şadlıqla:

— Oh, sizi təbrik eləyirəm, professor,— dedi.

Samballadı, vərəqlədi:

— Çox gözəl buraxıblar.

— Kitabın üzərindəki yazını ürəyində dönə-dönə oxudu: «A.M.Aslanzadə, Seçilmiş əsərləri, altı cilddə, üçüncü cild».

Aslanzadə məmnun halda kresloya yayxanıb əlini saçına çəkə-çəkə:

— Çox sağ ol, — dedi. — Gün o gün olsun, sənin cildlərini belə buraxsınlar.

Salman gülümsündü, nəsə demək istədi, ancaq nə üçünsə sözünü udub, kitaba daha diqqətlə baxa-baxa:

— Amma tərtibatı da gözəldi, — dedi. — Mənlik olsa, lap deyərdim əladı!..

Salman danışırdı, Aslanzadənin isə, ona baxsa da, fikri ayrı yerdə idi. O, bu dəqiqə həmin kitab üzərində işlərkən keçirdiyi yuxusuz gecələri, arxivlərdə, köhnə, əyri-üyrü xətli əlyazmaları üzərində qurdalandığı günləri, ayları, illəri yadına gətirib əməyinin itmədiyini görür, üstündə adı yazılmış qalın cildə nəzər saldıqca bütün ağrılar, əzablar, yorğunluq canından çıxırdı. Demək, ömür hədər getməyib, demək, o, bu dünyaya papağını günə yandırmaq üçün gəlməyib, səhər başını ölüm yastığına qoyanda ürəyində, beynində neçə yazılmamış əsəri olsa da, vicdanı rahat olacaq. Övladı yox idi, əzəldən olmamışdı. İndi o, qəlbinin dərin və gizli guşələrində gizlənib hərdənbir baş qaldıran övlad həsrəti müqabilində özünə təsəlli verib deyirdi: «Mənim övladım — bu kitablar. Bunlar mənim ciyərparalarımdır.Mənə heç kəs «sonsuz» deməsin. Mənim övladlarım var. Onlar mənim adımı, səsimi, sözümü gələcək nəsillərə çatdıracaq».

Həmişə bu barədə fikirləşəndə özünə nə qədər ürək-dirək versə də, təsəlli versə də, anasız, kimsəsiz uşaq təki kövrəlirdi; o boyda

canlı, cüssəli adam elə bil kiçilib xırdalaşırdı və ona daxili, gizli əzab verən bu həlim və yumşaq hissləri unutmaq üçün diqqətini başqa bir səmtə yönəldirdi.

İndi də belə oldu. O, xəyal aləmindən ayrılıb Salmana baxdı: Salman kitabı vərəqləyir, hərdənbir nəsə deyirdi:

— Şöbənizdə nə var, nə yox? — deyə salmanın nəzərini kitabdan ayırmağa çalışdı.

Salman professorun kitabını ehmalca mizin üstünə qoydu. — Sağlıq-salamatlıq,— dedi, — işləyirik.

— Dünən prizidentlə sizin şöbə barədə ətraflı danışdıq. Prizident bu şöbəyə xüsusi diqqət verir və məndən də, səndən də bunu tələb elədi. Deyir, bu şöbə gərək öz fəaliyyəti ilə institutun başqa şöbələrinə nümunə olsun. Kadrlarımız, — deyir, — pis deyil, çoxsu hazırlıqlı, savadlı yrldaşlardı. Ancaq bu, azdı. Bu il sizə dörd ştat verəcəyəm, — dedi. Xüsusi ilə qeyd elədi ki, cavan elmi işçilərin yetişməsinə, onların yaxşı, keyfiyyətli elmi əsərlər yazmasına, müdafiə işlərinə hər cür şərait yaratmaq lazımdır. Ezamiyyət üçün pul əsirgəmə, — deyir. — Qoy getsinlər, ölkənin kitabxanalarında işləsinlər, axtarıb tapsınlar, gətirsinlər.

— Biz elə belə də eləyirik! — deyə Salman prezidentin hüzurunda imiş kimi ciddi bir tərzdə cavab verdi.

— Bəli. Gərək ümumən işimizi elə ciddi quraq ki, akademiyanın institutları arasında bizim institut, necə deyərlər, barmaqla göstərilsin. İndi ilin birinci yarısı qurtarmaq üzrədir. Gözünü açıb-yumacaqsan, illik hesabat gəlib yetişəcək. Ona görə o əsərlər ki bu ilin planına görə qurtarmalı və müzakirəyə verilməlidir, gərək indidən ciddi nəzarət altında olsun.

— Düzdür, professor. Biz elə belə də eləyirik.

— Sonra prezident prinsipiallıq məsələsini tam ciddiyyəti ilə qeyd eləyib dedi ki, bunsuz bir addım da irəli ata bilmərik. Prinsipiallıq, yenə də prinsipiallıq! Hər işdə prinsipial olmaq gərəkdir.

— Tamamilə düzdü. Biz elə belə də eləyirik.

— Prezident Orxanın məqaləsini, — «Kommunist» qəzetində çıxanı deyirəm, — oxuyub yaman xoşuna gəlib.

Salman söhbətin qəfil gəlib onun üstünə çıxacağını gözləmədiyi üçün birdən-birə bilmədi ki, nə cavab versin və yüngülcə qızardı. Bu, Aslanzadənin sərraf gözlərindən yayınmasa da, özünü o yerə qoymayıb davam elədi:

— Prezident məqaləni ağız dolusu tərifləyəndən sonra qeyd elədi: bunun özü göstərir ki, Salmanın şöbəsində tam demokratiya, tənqid, özünütənqid prinsipi əsas yer tutur. Bu sevindirici haldı ki, indi tələbə öz müəllimini tənqid eləmək, onun nöqsanlarını söyləmək imkana və cəsarətinə malikdir.

— Biz elə belə də eləyirik, — deyə Salman özü də fərqinə varmadan təkrar elədi. — Bizdə böyük-kiçik yoxdur. Elmdə, mən özüm dönə-dönə iclaslarda da, universitetdə də demişəm ki, böyük-kiçik olmasın gərək...

## ON BEŞİNCİ FƏSİL

Gülmirə Orxandan ayrılandan sonra idarəyə getmədi. «Birdən əlimdə məqaləni görən olar, xətti tanıyar», — deyə düşünüb birbaş evə sarı yollandı. Küçələrdə adam azdı. Hava isti olsa da, o, canında bir yüngüllük və rahatlıq duyurdu...

Məqaləni salıb itirəcəyindən qorxurmuş təki, qəzeti sol döşünə bərk-bərk sıxmışdı. Nədənsə qəflətən ona elə gəldi ki, Orxanın əli burda, qəzetin arasındadır, bir anlığa o əlin hərarətini hiss eləyən kimi oldu. Və səksənərək qəzeti sinəsindən ayırdı...

Həyətdə heç kim yox idi. Maşa xala harasa getmişdi. Qapını şıqqıltı ilə açıb içəri girdi. Tez-tez gəldiyindən tövşüyürdü. Nəfəsini dərdi, paltarını dəyişib üz-gözünə su çırpmamış, sərinləməmiş miz arxasına keçib məqaləni açdı, oxumağa başladı.

Səhifələr bir-bir çevrilirdi. Sərrast, aydın məntiqli cümlələrlə ifadə olunmuş fikirlər Gülmirəyə yeni və mənalı görünürdü. Sinəsi fərəhdən qabarır, gah Orxana minnətdarlıq edir, gah da indiyə qədər ona inamsızlıqla baxan, elmindən «gözləri su içməyən» Əqdəmin, Nadirənin, başqalarının qarasınca deyirdi: «Hə, baxın, oxuyun, görün necədir!..»

Gülmirə məqaləni oxuduqca Orxan onun nəzərində daha da böyüyür, - ona daha yaxın, daha doğma olurdu: «Qələminə qurban olum, ay Orxan, nə yaxşı yazmısan. Bax, bu heç mənim ağlıma gəlməyib, bunları özündən artırmısan... mənim dilim yoxdur, yazım yoxdur...» — deyə köks ötürə-ötürə oxumaqda davam eləyirdi

Qapı astaca döyüldü. Gülmirə oğurluq eləmiş adam təki, qəzetlə məqalənin üstünü tez örtdü və:

— Bəli!— dedi — Buyurun!..

Maşa xala başını içəri uzatdı, salam verib dedi:

— Gülya, Əqdəmçikdən məktub gəlib. — O, məktubu irəli uzatdı.

Gülmirə qapıya sarı yeridi, Maşa xalaya təşəkkür edib geri qayıtdı. Elə ayaq üstə məktubun ünvanına baxdı. Əqdəmin təkcə familiyası yazılmışdı: Həmişəki kimi ünvansızdı...

Ah çəkib oturdu. Məqaləni yenə qabağına qoydu. Bir gözü isə məktubda idi: «Nə yazacaq? Hər dəfə yazdığını...» Bu dəqiqə məqalə onu daha çox cəzb eləyirdi. Məqalə onun həyatında nəsə eləməli idi: ona qarşı olan ümidsizliyi qırmalı, daim qorxu, utancaqlıq hissi ilə gəzib dolanan Gülmirənin ürəyini, müvəqqəti də olsa, toxtatmalı idi. Bəs məktub? Bu ara Gülmirə başını qaldırıb Əqdəmin divardakı iri şəklinə baxdı. Əqdəm də ona baxırdı. Şəkil çəkdirəndə Əqdəmin üzündə bir təbəssüm var idi. Ancaq indi, deyəsən, bu təbəssüm Gülmirənin gözünə dəymirdi, elə bil o ciddiləşmişdi, amma bir söz demir, durub lal — dinməz baxırdı. Gülmirə onun bu ciddi baxışları altında sarsılan kimi oldu, ona elə gəldi ki, Əqdəm stolun üstündəki məqaləni

görür, ona görə belə ciddiyyətlə baxır. Gülmirə məqaləni qatlayıb kənara qoydu.Zərfi cırıb dəftər vərəqinə yazılmış sözləri nəzərdən keçirməyə başladı.

«Mənim şəgərim, qolum, qanadım!»— sözləri ilə başlayan bu kiçik kağızında Əqdəm ondan sarı bərk darıxdığından, yaxın vaxtlarda görüşəcəklərindən söhbət açır, nigarançılığından danışırdı: «Səni yuxuda tez-tez görürəm. Bilmirəm başında nə var? Bu axşam da yuxuma girmişdin. Görürəm bir sıldırım qayanın üstündəsən, aşağı baxanda adamın gözü qaralır. Sən başını açıbsan, külək saçlarını sifətinə dağıdıb oynadır. Acıqlısan, ağlayırsan. Deyirsən ki, sənin acığına özümü bu uçuruma atacağam... Mən sənə yalvarıram ki, atma! Ancaq sən mənim sözümə baxmırsan... qışqırıb ayıldım... Qan-tər içindəydim. Anamın sözü yadıma düşdü: pis yuxunu o, həmişə tərsinə yozardı...»

Əqdəm məktubun başqa yerində Gülmirəyə ayrı bir xəbər yazmışdı: «Mağazada yaxşı şuba vardı. Qarasından birini götürdüm sənə. Axı, sənin qaradan xoşun gəlir. Gələndə gətirəcəyəm». Nə vaxt gələcəyi barədə bir söz yazmamışdı.

Gülmirə məktubu oxuyub qurtardı. «Bilmirəm başında nə var?» «Uçurum», «Şuba» sözləri beynində dolaşırdı. O, kağızı zərfin içinə qoyaraq başını ağır-ağır qaldırıb Əqdəmin şəklinə baxdı və canlı adamla danışırmış kimi:

— Başımda heç nə yoxdur. Şubasız da qışdan çıxaram,— dedi. — Sən özün mənə lazımsan. Əqdəm, şuban yox!:— Qəhər Gülmirəni boğdu. O, elə oturduğu yerdəcə başını mizin üstündəki məktubun, məqalənin üstünə qoyub gözlərini yumdu: «Ürək dolusu sevinmək mənə qismət olmayacaq deyəsən... həmişə belə olub: elə yenicə sevinməyə başlayanda...» Fikrini tamamlaya bilmədi, gözlərinin isti yaşı axıb kağızların üstünə töküldü. «Mən bədbəxtəm!..— deyə səyriyən dodaqları ilə pıçıldadı. — Romantika məni məhv elədi.

Təyyarə, göylər, hərbi geyim... Zahiri pırıltılarmış! Məktubla, şuba ilə arvad saxlamaq olmaz!..»

Başının altındakı kağızdan Əqdəmin səsi gəlirdi:

«— Mənim şəkərim, qolum, qanadım». Başının altındakı qəzetə bükülü məqalədən Orxanın səsi eşidilirdi: «Mən sənin əziyyətini ömrüm boyu çəkməyə hazıram...»

Gülmirə başını qaldırdı.

Stolun üstündəki stəkanda bir gül saralıb—solmuşdu. Bu, o gün Orxanın idarəyə Gülmirə üçün gətirdiyi gül idi.

Gülmirə gözünün yaşını silib ah çəkdi və məqalənin ardını oxumağa başladı.

İyirmi dəqiqə sonra məqaləni oxuyub qurtardı. O qədər xoşuna gəldi ki, sevindiyindən heç bilmədi neyləsin. Əvvəllər öz məqaləsinin pis olduğu onu qorxudurdusa, indi üzərində onun adı yazılmış məqalənin bu qədər dərin və elmi olması Gülmirəni narahat eləməyə başladı: «Yəni inanarlarmı ki, mən bu cür dərin və savadlı bir məqalə yazmışam? Şübhələnərlər! Yox, niyə şübhələnərlər, axı? Mən lap başımı itirmişəm a! Sağ ol, Orxan, sənə heç bilmirəm necə təşəkkür eləyim,— deyə yenə onun haqqında fikirləşdi. — Qəribə oğlandır... Heç indiyəcən bir qıznan, qadınnan oturub-durduğunu görməmişəm. Deyəsən, elə ilk vurulduğu mənəm. Eh, Orxan, Orxan!...»

Gülmirə məqalənin üzünü ağartdı. Bu onun üç-dörd saat vaxtını aldı. Qurtarandan sonra Orxanın yazdığını xəlvət bir yerə qoyub gizlətmək istədi. Ancaq fikrini dəyişdi: «Yox, ələ keçə bilər. Əqdəm mənim yazı-pozumla maraqlanır»,— deyə düşündü. Ürəyi istəməsə də, heyfi gəlsə də, o, məqaləni tikə-tikə eləyib zibil yeşiyinə atdı:— «İzi-tozu da qalmasın...»

Gülmirə telefona yanaşıb dəstəyi götürdü. Ani tərəddüddən sonra Orxangilə zəng elədi, təşəkkürünü bildirmək üçün.

— Alo... Orxan?..

— Sənsən, Gülmirə?!— deyə Orxan dəstəyi götürən kimi onu səsindən tanıyıb çaşqın halda xəbər aldı.

— Nə bildin mənəm, Orxan?

— Telefonda səsini çıxarmasan da, nəfəsindən tanıyıram səni!

Gülmirə Orxanın bu sözləri müqabilində heç nə tapıb deyə bilmədi.

— Səndən nə əcəb, Gülü?

— Orxan, məqaləni oxudum, o qədər xoşuma gəldi ki!.. Necə deyim, heç bilmirəm. Çox sağ ol, Orxan. Sənə ömrüm boyu minnətdar olacağam.

— Bu mənim üçün ən böyük səadətdir, Gülü!

Gülmirə özünü itirdiyindən «sağ ol» deyib dəstəyi yerinə asdı.

Aradan iki həftə keçdisə də, Gülmirə məqaləni üzə çıxartmadı.

Orxan bir dəfə pillələrin başında Gülmirədən soruşdu:

— Bəs məqalə hanı?

— Evdə.

— Niyə ortalığa çıxartmırsan, çap elətdirmirsən? Gülmirə tərəddüdlə dilləndi:

— Düzü, ehtiyat eləyirəm.

— Nədən, Gülmirə?

— Qorxuram, bir adama deyərsən, sonra biabır olaram,— deyə qız neçə gündən bəri onu rahat buraxmayan qorxusunu Orxana açıb dedi.

— Deməli, sən mənə inanmırsan, eləmi?— Orxan incik-incik soruşdu.

— Yox, yox. İnanıram. Ancaq...

— Uşaqlıq eləmə, get yazdır, Gülmirə. Sənə bu saat məqalə su kimi, hava kimi lazımdır,— deyə Orxan qıza bərk-bərk tapşırdı və axırda da həlim səslə:

— Məndən arxayın ol, Gülü, mən sirr saxlamağı bacarıram. — dedi.

## ON ALTINCI FƏSİL

Başı dümağ ağarsa da, gümrahlığını, çevikliyini itirməmiş, gündən-günə artan bir həvəslə elmi işə girişən, kitabxanaların köhnə, toz basmış künclərini, əlyazmalarını araşdıran Cəfər sevincdən dili söz tuta bilmədiyi halda Salmanın otağına girəndə professor uzun illərin sövqi-təbiisi ilə anlamışdı ki, burada nəsə mühüm bir məsələ var. İkicə saniyə sonra zənninin doğru olduğunu görüb özünün indi də məəttəl qaldığı ustalıqla Cəfəri sakitləşdirib onu ətraflı danışmağa qoymamış, əlindəki fotosurəti, əlyazmasını alıb stolun üstünə atmış və demək olar ki, zorla Cəfəri də itələyib bayıra çıxarmış:

— İndi çox təcili işim var, prezident çağırıb,— deyərək qapını qıfıllayıb mərtəbələri aşağı enmişdi. Əslində o özü də sevindiyindən nə edəcəyini bilmədiyi üçün və ələ düşən yağlı tikəni itirməmək məqsədi ilə yollar aramaq üçün belə eləmişdi.

Məsələ bunda idi ki, Cəfər kəşf eləmişdi. Elə bir kəşf ki, axtaran, gecəni gündüzə qatıb kirpiyi ilə od götürən elm adamının çəkdiyi bütün əziyyətləri bircə anda unutdurar, adını-sanını göylərə qaldırıb məşhurlaşdırardı. Cəfər ömrü boyu həsrətini çəkdiyi elm sahəsinə yaşı əllini haqlayanda gəlmişdi; buna görə, təbii ki, onun bu cür yadda qalan, səs-küy sala bilən elmi məsələlər qaldırmağa daha çox ehtiyacı vardı. Kim bilir, bəlkə elə bu ehtiyac idi ki, onu yaşının bu çağında uzun illər çəkdiyi əzab-əziyyətdən sonra, elmi-tədqiqat institutunun qapısına çəkib gətirmişdi? Bəlkə bundan daha qüvvətli, daha əzəmətli bir istək... Kim bilir?

Füzulinin avtoqrafını, indiyə qədər heç kimə məlum olmayan dəst-xəttini tapmaq, ortalığa çıxarmaq heç də balaca, ötəri bir məsələ deyildi. Ürək yandıran, məhzun bir qəlbin qanla yazılmış şikayət iniltiləri olan o ölməz qəzəllər, məhəbbətin özü kimi ölməz, unudulmaz olan «Leyli-Məcnun» bax, bu xətlə yazılıb. «Bunu yazdı mövlana

Məhəmməd Füzuli»,— deyə böyük şair Kərbəlada baş vermiş taunun tarixini köhnə bir əlyazmasının küncünə qeyd etmiş zaman onun öz əli ilə yazdığı çoxlu əlyazmaları itirib-batırsa da, bu bir-iki cümləyə yadigar olsun deyə əl vurmamış, qoruyub saxlamışdı.

Salman Cəfəri itələyib bayıra salandan iki saat sonra yenidən idarəyə qayıtmış, fotosurəti qabağına qoyub tək-tənha oturaraq bu nadir tapıntını dönə-dönə nəzərdən keçirmiş, həqiqət olduğunu təyin eləyəndən sonra yerində qərar tuta bilməyib boş otaqda o baş-bu başa var-gəl eləyə-eləyə yollar, çarələr axtarmağa başlamışdı. Bəli, məhz yollar və çarələr! Necə eləmək ki, bu yağlı tikəni Cəfərin əlindən çıxarmaq, onun ağzını yan salmaq! Axı bu kəşf Cəfərə nə verəcək, onun ki, heç nəyi yoxdur — nə xidməti, nə elmi adı var? «Amma mənim, — deyə o özünün elm aləmindəki sambalını fikrən ölçüb biçə-biçə düşünürdü, — şöhrətimin üstünə şöhrət, xidmətimin üstünə xidmət gətirər! Heyf, necə bunu mən görməmişəm, necə mən görməmişəm!.. — deyərək yanıb-yaxılır, tüstüsü təpəsindən çıxırdı. Fikirləşdikcə hansı qəzetinsə həmin məsələyə həsr olunmuş məqalə çıxan nömrəsi xışıltı ilə gözünün qabağında cilvələnir, məqalənin başında isə gah «filoloji elmlər doktoru, professor Salman Qurbanzadə», gah da, sadəcə, «elmi işçi Cəfər Məsimzadə» sözləri yazılırdı. «Bəlkə danışım, ikimizin adından bir məqalə yazaq» — düşünürdü, — Yox, — deyə içəridən qürur və heysiyyət dilə gəlib onu bu fikirdən daşındırırdı: — O hara, mən hara? Professor Qurbanzadə... və Cəfər... Yox. Ayrı necə eləmək olar bəs, necə eləmək olar?»

Belə hallarda, adəti üzrə, çox da məəttəl qalmayan Salman Qurbanzadə ağlına gələn fikirlərdən özü də səksənən kimi oldu. «Nə mən yeyim bu yağlı tikəni, qoca qurd, nə də sən?»— deyə o keçib telefonun dəstəyini götürdü, yanını mizin üstünə qoyub nömrəni yığdı.

— Allo!.. Gülmirə?.. Salam!.. Necəsən?.. Mənəm, Salmandı.

— Salam, professor! Buyurun, eşidirəm sizi. Sizdən nə əcəb?— Çünki indiyəcən o, bircə dəfə də olsa Gülmirəgilə zəng eləməmişdi.

— Mən səni görmək istəyirəm, Gülmirə,— deyə professor həyəcanlı səslə sözləri dəstəyin ağzına üfürdü. — Əlində nə iş olsa, yarımçıq qoy, mənə dəy.

— Baş üstə. Siz evdəsiniz, elə deyilmi.

— Yox.

— Yox?

— İdarədəyəm.

— İda...rə..də?— deyə Gülmirə təkrar elədi.

— Hə, idarədəyəm.

— Axı indi... idarədə heç kəs yoxdu,— deyə bircə anda onun ürəyinə neçə fikir axıb doldu — Hamı...

— Mən buradayam, özüm də təkəm.

Gülmirə nə cavab verəcəyini bilmədən fikrə getdi: bu zaman Salmanın hökm kimi, əmr kimi səslənən sözləri qulağında cingildədi:

— Gözləyirəm, gəl!..

İyirmi dəqiqə keçməmiş Gülmirə ürəyində bu gözlənilməz və qəribə dəvətin nə demək olduğunu götür-qoy eləyə-eləyə Salman Qurbanzadənin qapısını açıb içəri girəndə professor həyəcan qarışıq bir təbəssümlə gülümsündü və:

— Gəl, gəl, qızım,— dedi,— gəl otur.

Gülmirə pillələri yeyin-yeyin çıxdığından tövşüyürdü, Nəfəsini dərib professora nəzər yetirərək oturdu. Professorun səsinin azca titrəyişi, hərəkətlərindəki çaşqınlıq Gülmirənin gözlərindən qaçmadı: «Yox, nəsə mühüm bir iş var. Axır vaxtlar «məhsul» verməyən elmi işçiləri ixtisara salmaqdan çox danışırlar. Yəqin, yuxarıdan mənim də məsələmi qoyublar. Yoxsa...»—deyə yol uzunu düşünə-düşünə instituta sarı addımlayan Gülmirə indi professorun qənşərində oturaraq bu qənaətə gəldi.

— Sənin işlərin nə təhər gedir, qızım?—deyə Salman, adəti üzrə, uzaqdan başladı. Bu sual Gülmirəyə yersiz göründü; çünki bu gün iş vaxtı, şöbədə o, Gülmirəni iki dəfə görmüş, ancaq onun işlə-

rinin necə getdiyi ilə maraqlanmamışdı. Gülmirə özünü danladı: «Yəqin, o qədər adamın yanında durub mənim işlərimlə xüsusi maraqlansa, deyərlər ki, bəli, professor öz dost-tanışı ilə ayrı cür məşğuldu. O qədər ağzıgöyçək var ki. Elə biri Cəfər. Bir bəhanə axtarır ki, durub iclasda çıxış eləsin, demaqoqcasına».

Fikrini cəmləyib professorun sualına cavab verdi:

— Belə də, professor, birtəhər... işləyirik.

— Birtəhər...— deyə Salman Gülmirənin gözləmədiyi bir tərzdə onun sözlərini təkrar elədi. — Birtəhər, yox, qızım. Gərək,— səsini ciddiləşdirdi,— indi sənin səsin bilirsən haralardan gəlsin? Qəzetlərdən, jurnallardan, nədən ki, cavansan, gücün, enerjin var.

Gülmirə daxili gərginlik içində:

— Bir məqalə yazmışam,— dedi.

— Yazmısan? Gətir oxuyum, qol qoyum, getsin. Daha özün bilirsən ki, sənin üçün yollar açıqdı, qızım. İstifadə elə. Sabah kim bilir nə olacaq. Yaxşı?— O, yenə üz-gözünün qəzəbini ilıq, mehriban bir təbəssümlə əvəz eləyib soruşdu:— Hardadı o məqalə?

— Evdədi, professor.

— Gətirərsən sabah... Ancaq indi mən səni ayrı iş üçün çağırmışam.

— Buyurun, professor. — Gülmirə nigarançılıqla onun haldan-hala düşən sifətinə baxdı.

Salman ani fikrə getdi. Haradan, necə başlamalı? Gülmirəyə etibar eləmək olardımı? Arvadın, deyirlər, hülqumu olmur. Söz saxlaya bilmir. Birdən qəbul etmədi və ya bir yerdə ağzından qaçırdı? Onda necə olar? Onda Salman gərək baş götürüb bu şəhərdən qaçsın, deyilmi?

Bu suallar onu üzsə də, o, paxıllıq adlı zəhərli bir duyğunun təsiri ilə qalan hər şeyi unudur, necə olursa-olsun, Cəfəri «Quru yerdə» qoymaq istəyirdi.

— Sənin vəziyyətin, bilirsən ki, tükdən asılıdır, Gülmirə. Mən bunu sənə bir şöbə müdiri kimi yox, bir dost kimi deyirəm. Sənə ürəyim yanır, deyirəm. Özün də şükür ki, uşaq deyilsən, hər şeyi yaxşıca dərk eləyirsən, görürsən. İndi prezident belə şərt qoyub qarşımızda: kim ki, elmi məhsul vermir, ya qabiliyyəti yoxdur, onun yeri elmi-tədqiqat institutu deyil.

Gülmirənin ürəyi sixılmağa başladı. Aylardan bəri qorxusunu çəkdiyi günlər yaxınlaşırdı. Görünür, bu elə ciddi məsələ idi ki, Salman kimi mötəbər alim də onun imdadına yetə bilmir, məcbur olub özünü söhbətə çəkir, yaranan vəziyyətdən çıxış yolu axtarmaq istəyirdi. Belə düşünən Gülmirə:

— Elədir, professor! — dedi,— Şəxsən mənim yerim elmi-tədqiqat institutu deyil...

— Nə?— Professor heyrətlə səsləndi,— necə dedin? Bura sənin yerin deyil? Yox! Bax, bu mənim xoşuma gəlmədi. Bu olmadı, qızım, olmadı! Yoxsa yarı yolda qoyub qaçmaq fikrindəsən? Mən şəxsən mübarizə aparmağı bacaranları sevirəm! Ancaq belə adamlar həyatda özlərinə yol açırlar və yaşamaq, yaşatmaq haqqı qazanırlar. Ancaq belələri. Bəli! Mən şəxsən Viktor Hüqonun fəlsəfəsinin tərəfdarıyam: «Ot olub yeyilincə...» Bildin?

Gülmirə əlində tutduğu zərli baş yaylığı ilə istidən pörtüb qızarmış, üzünü yelpiklədi. Professor elə dayanmışdı ki, bütün diqqətini cəmləsə də, onun nə demək istədiyini yaxşı dərk eləyə bilmirdi. «Qabiliyyətsizlər», «mübarizə eləməyi bacaranlar».

— Mən çalışaram ki...

— Çalış, çalış, qızım. Mən sənin haqqında həmişə düşünmüşəm: necə eləmək ki, səni bir yana çıxartmaq!

— Sağ olun, professor. Mən bu qayğını həmişə...

— İndi sən mənə de görüm, sirr saxlamağı bacarırsanmı?

Gülmirə dərhal cavab verə bilmədi.

— Necə sirr?

— Sirr də, adicə sirr.

— Nə deyim, vallah...

— Öz xeyrinə susmağı bacarırsanmı?

—…

— Mən inanıram ki, bacararsan! Eləmi, bacararsan? Bu elə bir sirdi ki, gərək bir sən biləsən, bir də mən. Bu işdən gərək heç Nadirənin də xəbəri olmasın. Bir yaxşı məsəl var, deyir: «nə qədər ki sirrini bir kəsə deməmisən, o sənin əsirindi, elə ki dedin, oldun sən onun əsiri». Başa düşürsən nə deyirəm?

Gülmirənin səbri lap tükənmişdi. «Bu nə sirdi, xudaya?— deyə düşündü, — bir mən bilməliyəm, bir o. Hətta Nadirə də xəbərsiz olmalıdı. Desəm, mən onun əsiri olacağam...»

— Professor, açıq deyin görüm...

— Bu söhbət ciddi, elmi bir məsələyə aiddir, qızım!— deyə professor azca qızardığını hiss eləsə də, daha burdan geri qayıtmağın mümkün olmadığını anlayıb əsil mətləb üstünə gəldi!— Mən neçə il bundan əvvəl, fondda çalışdığım zaman bizim Füzulinin avtoqrafını tapmışdım. Başım doktorluq dissertasiyasına qarışdı, sonra şöbənin işləri vaxtımı elə aldı ki, bu mühüm məsələ tamam yadımdan çıxdı. Sən təsəvvür eləyirsənmi Füzulinin avtoqrafını tapmaq nə deməkdi?

— Bəli, böyük işdi, — deyə Gülmirə yenə bunun ona nə dəxli olduğunu anlamadan professorun sözünü təsdiq elədi.

— İndi görürəm ki, bir nəfər ayrı adam da gəlib yanıma ki, bəs mən Füzulinin avtoqrafını kəşf eləmişəm. Kəşf a, özü də! Deyirəm, a bala (əlbəttə, ürəyimdə), sənin indi getdiyin yolları mən çoxdan gedib gəlmişəm.

— Kimdi ki, o adam?

—Əşi, elə bir ağıllı-başlı adam da deyil, elmdə tamamilə təsadüfi adamdı. Yetmişində zurnaçılıq öyrənənlərdəndi.

— A, bildim.

— Kimdi?

— Cəfəri deyirsiniz.

— Hə, düzdür. — O bu sözləri deyə-deyə qəlbinin qanının üzünə vurduğunu duyub bir az da qızardı:— Odur. Mən istəyirəm ki, bu kəşf nə mənim, nə də onun adı ilə bağlı olsun. Qoy bu kəşf sənin olsun, Gülmirə.

Professor son sözləri təntənə ilə dedi. Ancaq Gülmirə məsələnin nə yerdə olduğunu anlamağa başlasa da, özünün əsil vəzifəsini hələ lazımınca dərk etməmişdi.

— Mən neyləməliyəm ki?

— Nə sadəlövh qızsan sən! — O, ayağa durub əlini Gülmirənin çiyninə qoydu, — Arif olmaq lazımdı, qızım, arif olmaq lazımdı. Bu saat mən səni başa salaram neyləməlisən.

Professor saralmış, kirli qovluğu qabağına çəkdi.

—Əvvəl de görüm, sən «Əsrarül-ədvarı» fonddan alıb baxmısanmı?

—«Əsrarül-ədvarı»? Çox, professor.

— Afərin!

— Sən həmin əlyazmasının yüz otuz beşinci səhifəsində bir qeydə rast gəlibsən. Bu, Füzulinin əl xəttidi. Burada şübhəli heç nə yoxdu. Kişi özü ərəbcə deyir ki, «bunu Allahın qulu mövlana Məhəmməd Füzuli yazdı». İndi sənin vəzifən nədi? Balaca bir məqalə qaralayarsan. Təxminən bu məzmunda ki, biz fondda çalışdığımız zaman «Əsrarül-ədvar»ın bir səhifəsində böyük şairimizin əlyazmasına rast gəldik. Mətni verərsən. Mətn də böyük deyil. Bircə beyt şerdi. Kərbəla taununun tarixi və şairin adıdı. Vəssalam. Sonra redaksiyaya apararsan. O saat çap eləyəcəklər. Bu, həm sənin adındı, həm də institutumuzun adıdı. Belə çətin vəziyyətdə sənin üçün çox böyük şey deməkdi bu!

Gülmirə çətin məsələ qarşısında qalmışdı.

Eşitdiklərinə inanmaq istəmirdisə də, professorun sözləri zarafata oxşamırdı və həqiqət idi. Bəlkə professor onu sınamaq istəyir?

Bəlkə Orxan ona məqalə barədə qandırıb? Yox, bu ağlabatan deyil. Orxan belə namərdlik edərmi?! Vəziyyət ayrı cür idi, burada söhbət sirdən gedirdi, kəşfdən gedirdi. Bəs axı, professor həmin məsələni öz adına çox asanlıqla çap etdirə bilər. Niyə elətdirmir?

— Siz özünüz tapmısınız, professor!...

— Bilirəm,— deyə Salman onun sözünü ağzında qoydu,— deyəcəksən ki, mən özüm niyə çap elətdirmirəm.

— Bəli, mən elə demək istəyirdim.

— Bilirsən, qızım, mən vaxtında bu işi eləməmişəm, fürsəti əldən buraxmışam. Fürsət də, özün bilirsən, quş kimi şeydi, uçurtdun, tuta bilməzsən, Mən də uçurtmuşam. İndi bu məsələni mən qaldırsam, Cəfər deyəcək ki, bəs professor məndən götürüb. Mən isə belə şeyi qəbul eləyə bilmərəm.

— Mənə elə gəlir ki, Cəfərin sonra cəngindən qurtarmaq...

—Əgər bu işi sənin adına çap elətdirsək, o heç nə deyə bilməz. Niyə? Mən deyərəm ki, bu məsələni səndən qabaq Gülmirə tapıb, məqaləsi də məndədi. Vəssalam!

— Axı... məqalə yoxdu, professor.

— Yazarsan. Lap indi götür yaz. Böyük məqalə olmayacaq. Cəmi-cümlətanı bircə səhifə, səhifə yarımlıq ancaq olar. — O, əl atıb mizin üstündən bir neçə səhifə ağ kağız götürərək Gülmirəyə verdi:

— Al, mən deyim, sən yaz...

Gülmirə azca fikrə gedib qələmi əlinə aldı: professorun dediyi məqalənin ünvanını yazanda onun alnında tər damcıları parıldayırdı...

## ON YEDDİNCİ FƏSİL

Gülmirə professorun kabinetindən çıxanda artıq axşam düşmüşdü: içəridə, Salman Qurbanzadə ilə üzbəüz oturub onun tələm-tələsik diktə elədiyi sözləri təntiyə-təntiyə yazdığından, bu gözlənilməz

təklifin əsil mahiyyətini anlamadığı üçün xəyalında min yerə at çapdığından qız yamanca həyəcanlanmışdı, deyəsən hələ tərləmişdi də. Yaz axşamının yüngül mehi alnında, yanaqlarında gəzdikcə bədənini sərinlədir, bayaqdan naməlum hisslər əlində çırpınan ürəyini toxtadırdı.

Kommunist küçəsi ilə azca üzüyuxarı qalxmışdı ki, qeyri-iradi dönüb institutun pəncərələrinə nəzər saldı: Salman Qurbanzadənin dördüncü mərtəbədə yerləşən otağından hələ də işıq gəlirdi, azacıq o tərəfdə, içəri şəhərin qala divarlarının iri «daş dişləri» alaqaranlıq içində güclə seçilirdi. Gülmirə küçədə olsa da, o, işıq gələn pəncərənin arxasında, pardaxlanmış mizin dalında oturub işgüzar bir görkəmlə nə isə yazıb-pozan, əlini iri alnına qoyub tez-tez xəyala dalan Salman Qurbanzadəni təsəvvürünün gözləri ilə görür və Gülmirədə— elm aləminə təzə qədəm qoymuş, onun enişləri-yoxuşları, çəkişmələri-bərkişmələri, büdrəmələri, yüksəlişləri barədə tam təsəvvürü olmayan, ancaq hələlik zahiri parıltılarını, şan-şöhrətini, gurultu ilə səslənən «elmlər namizədi», «elmlər doktoru», «professor», «akademik» kimi ibarələrin doğurduğu məstedici həzzi uzaqdan-uzağa duyan Gülmirədə professor Salman Qurbanzadənin qeyri-adiliyi, nadirliyi, qadirliyi barədəki fikirlər getdikcə qüvvətlənir və gözlərini qamaşdırırdı. O, bir uşaq sadəlövhlüyü ilə atasının belə bir dostu olması ilə fəxr edir, küçəyə sığışmırdı. Onun nəzərində institutda işlədiyi bu iki-üç il ərzində Salman doğrudan da özünü çox, lap çox ucaltmağa nail olmuşdu — adicə laborant idi Gülmirə, beş ay keçməmiş kiçik elmi işçi keçirtmişdi, mövzu vermişdi, indi də elmi əsərinin vəziyyəti ilə maraqlanır, hətta vaxtilə özünün kəşf etdiyi Füzuli avtoqrafını da könüllü surətdə onun adına çap elətdirmək istəyirdi. Hələ bu nə idi ki, professor Gülmirənin tənbəlliyini bildiyi üçün bu çox vacib işi təxirə salmamaq, başqalarının, məsələn Cəfərin həmin məsələdə qabağa düşməyinin qarşısını almaq xatirinə, məqalənin mətnini də özü diktə eləmiş, yazdırmışdı, Bu yaxşılıq deyildi, bəs nə idi? Kim kim üçün

belə edərdi? Heç kəs! «Nadirə mənim xatirimi — özünün dediyinə görə — kiçik bacı kimi çox istəyir. Ancaq o belə eləməzdi. Yox, eləməzdi. O, elə tələb eləməyi bilir, bir partkom kimi ancaq tələb eləməyi bilir. İşləmək lazımdır! Vəssalam, onun sənə qayğısı bundan ibarətdir. Amma Salman əmim... Yoxdur ondan, bir dənədir Salman əmimdən»—deyə Gülmirə ailəvi yaxın olduğu bu ər-arvadı fikrən müqayisə edirdi, istər-istəməz və belə müqayisələr zamanı öz «yaxşılığı», «xeyirxahlığı» ilə Salman onu—arvadı Nadirəni həmişə kölgədə qoyurdu. Gülmirə özünü Salmanla güclü hesab edirdi. Son günlər isə o, Orxanın «əyani» köməyini görəndən sonra büsbütün arxayınlaşmış, keçəcəkdə çətin, dolaşıq, basırıq yollarda həmişə onun üçün yaşıl işıq yanacağını düşünüb rahatlanmış, indiyə qədər qəlbini üzən ümidsizlikdən, inamsızlıqdan yaxasını qurtarmışdı. Demək, iki nəhəng — elmin iki böyük nəhəngi onun arxasında dayanmışdı. Orxan ona dəlicəsinə vurulmuşdu, düzdü, ürəyini hələ açmamışdı, güman ki, heç aça da bilməyəcəkdi— ancaq o bu məhəbbəti xatirinə Gülmirənin bir sözünü iki eləməzdi, deməmiş belə onun «əsərlərini» yazardı — özü də tək birini yox, ömrü boyu yazardı, özü üçün yazmasaydı da, Gülmirə üçün yazardı. Orxanın dilsiz baxışları, yana-yana köks ötürməsi, son yazısını aparıb təzədən yazması və o gün də «mən sirr saxlamağı bacaran oğlanam!»— deməsi bu fikri ona möhkəmcə təlqin eləmişdi. Orxan bu münasibətilə, bu məhəbbəti ilə Gülmirə üçün son dərəcə maraqlı, oxunmamış, ləzzəti bihuşedici bir romana bənzəyirdi və cavan gəlini öz şirinliyi ilə hər gün bir az özünə cəlb eləyirdi. Gülmirə təmkinli, ağıllı olsa da, bu şirinlikdən, o həzzdən imtina edə biləcəkdimi?..

O biri dayaq — Salman idi. Füzuli avtoqrafı... Evə gələ-gələ Gülmirə düşünür və düşündükcə də istər-istəməz ayaqlarını yerə möhkəm basır, özündə bir qüdrət və təpər duyurdu. Füzulinin dəsti-xətti. Onu Gülmirə birinci tapıb. Elm aləmində Füzuli ilə neçə yüz ildi nəhənglər məşğul olub — divanlarını, əl yazmalarını dönə-dönə

oxuyublar. Ancaq, bir təsəvvür edin, heç kəs onun öz əlilə yazdığı bir kəlməni belə tapa bilməyib. Amma budur, Gülmirə Əlibəyli və Füzulinin öz dəsti-xətti... Qəzetdə çıxacaq, hamı oxuyacaq və hamı biləcək ki, bunu Gülmirə Əlibəyli tapıb! Nə böyük sevinc. Nə böyük səadət! O biri məqalə də çıxacaq, bu da!!! Hamı onu təbrik eləyəcək. Qulağına təbrik səsləri gəlir, Gülmirə yerə-göyə sığışmayan bir fərəh içində gülümsünür, hərəyə bir cavab verirdi. Bu ara küçədə kimsə— tanışlardan biri ona rast gəldi:

— Salam, Gülmirə!

Xəyalında qurduğu təntənəli təbrik mərasimlərindən ayılmayan Gülmirə yuxu ilə ayıqlıq arasında imiş kimi:

— Çox sağ olun!— dedi. Qadın bu cavabdan bir şey başa düşməsə də, Gülümsünüb keçib getdi: «Yəqin elə başa düşdü ki, mən «necəsən, Gülmirə?»—soruşdum». Ancaq qadın soruşub gedəndən sonra Gülmirə xəyal aləmindən ayıldı, qanrılıb keçənin qonşu qadın olduğunu görərək yanıldığını başa düşdü. Amma gec idi. Qonşu qadın artıq uzaqlaşmışdı və onsuz da ona bu daxili sevinci — fərəhi izah eləyib anlatmaq Gülmirənin imkan xaricində idi.

Üç-dörd addım da gedib darvazalarına çatdı və əməlli-başlı xəyal aləmindən uzaqlaşıb real həyatla üz-üzə dayandı; burada onun isti bir bucağı vardı, bura o, gəlin gəlmişdi, burada Əqdəmlə ilk dəfə bir yastığa baş qoymuşdu. Burada onun xətrini çox istədiyi Maşa xalası vardı — bu evin sahibi. Nə yaxşı ki, bu qoca, mərifətli arvad varmış, yoxsa Gülmirə lap dəli olardı. Əqdəmsiz günlərində o, Maşa xala ilə söhbət edir, dərdləşir, tənhalığını unudurdu. Anasıgilə gedib qayıdandan sonra, qalan boş vaxtlarını arvadla bir yerdə keçirir, darıxmırdı. Əqdəm gələndə isə, Maşa xala gözə az-az dəyirdi, öz guşəsinə çəkilir, cavanlara mane olmurdu, gedəndən sonra isə yenidən «zühur» eləyirdi. Onlar ana-bala kimi bir-birinə isnişmişdilər...

İndi Gülmirə içəri girəndə Maşa xalanı ağlayan görüb təəccübləndi. Nə isə bədbəxt bir hadisə üz verdiyini düşünüb həyəcanla xəbər aldı:

— Nə olub, Maşa xala? Niyə ağlayırsan?

— Heç... qızım?— Arvad eynəyini çıxarıb yaşlı gözlərini silə-silə cavab verdi,— Heç...

— Necə yəni heç?— Gülmirə əl çantasını köhnə, ortası çökmüş kreslonun üstünə atdı. — Bəs niyə ağlamısan, Maşa xala?

Maşa xala uşaq kimi burnunu çəkdi, eynəyini gözünə taxıb əlini stolun üstəki kitaba toxunduraraq altdan yuxarı Gülmirəyə baxıb soruşdu:

— Sən heç dəvə görmüsən, qızım? Gülmirə çaşqın halda:

— Də... və?— deyə çiyinlərini çəkdi — Hə,necə ki?

— Lap canlı dəvəni deyirəm ha?

— Hə, Maşa xala. Axı mən səndən ayrı şey soruşuram, soruşuram niyə ağlamısan. Sən isə dəvədən danışırsan. Dəvənin bura nə dəxli var axı, mən bilmirəm. — Gülmirə divanda əyləşdi. Maşa xalanın kədərli, qırışlarla örtülmüş üzündə solğun, zəif bir təbəssüm gəzib dolaşdı:

— Dəxli var, qızım. Bax, bu kitabı görürsən? Sizin yazıçının kitabıdı. Moskvada buraxıblar. Burda bir hekayə var, o məni ağlatdı, qızım.

Gülmirə boylanıb mavi cildli kitaba baxdı — İsfəndiyar Məlikzadənin kitabı idi. Maşa xala davam etdi:

— Burda «Dəvə» adlı bir hekayə var. Kiçik bir hekayədir.

— Dəvədən danışır?

— Hə, yazır ki, keçmişdə bir kişinin bir dəvəsi varmış. Günlərin birində bu dəvə itir. Sahibi dəvəni çox axtarır. Kəndbəkənd, oba-oba gəzir, nəhayət, dəvəsini bir köçəri obasında tapır və yüz dəvənin içində tanıyır. Oba başçısına ərz eləyir ki, bu dəvə mənimdir, onu mənə qaytar. Obanın ağsaqqalı dəvəni vermək istəmədiyindən deyir

ki, sən nəylə sübut eləyərsən ki, bu dəvə sənindi. Dəvələr hamısı bir-birinə oxşayır, səninkinin də nəmi-nişanı yoxdur. Dəvə sahibi deyir, xeyir ağa, mənim dəvəm elə budu ki, var.

— Axı sən nəyə əsasən deyirsən bunu?

— Bu dəvənin ürəyində iki xalı, iki dağı var, ağa.

Oba başçısı gülüb onu ələ salır:

— Xi, xa. Sən onun ürəyini harda görübsən, kişi? Boş-boş şeylər danışırsan, kişi.

— Xeyir, ağa. Mən sənə deyirəm ki, onun ürəyində iki xalı, iki dağı var. And içirəm, o dəvə mənimdi, dəvəmi ver, gedim.

Varlı-dövlətli olan oba başçısı maraqlı bir əyləncə tapmış adam kimi sevinə-sevinə deyir:

— Səninlə mərc gəlirəm, o dəvəni indi kəsdirəcəyəm, əgər ürəyində iki xalı olsa, sənə bu dəvə sürüsündən ürəyin istəyən bir dəvəni bağışlayacağam. Yox, əgər sən deyən olmasa, onda o dəvənin dərisini dalına şələləyəcəm, deyəcəyəm, apar, ətini də biz özümüz yeyəcəyik. Dəvə sahibi çox yalvarır ki, mən yalan demirəm, dəvəni nahaq yerə kəsdirmə, heyif eləmə. Oba başçısı sözündən dönmür, kişi çarəsiz qalıb razılıq verir. Dəvəni kəsirlər, ürəyini çıxarırlar, yuyub bir teştin içində başçının və dəvə sahibinin hüzuruna gətirirlər, görürlər ki, doğrudan da dəvənin ürəyində iki dənə abbasılıq boyda xalı var. Dəvə sahibi gözlərinin yaşını güclə boğub:

— Gördün, ağa, mən deyən kimi oldu? — deyir.

Oba başçısı asta-asta başını tərpədir və təəccübünü gizləyə bilməyərək soruşur:

— Sənin dediyin düz çıxdı, kişi! Ancaq sən bunun hikmətini mənə başa sal. Başa sal görüm, sən nədən bildin ki, onun ürəyində iki xalı var, kişi? Deməsən, şərtimizi pozacağam!

Kişi ah çəkib söyləyir:

— Ağa, o dəvənin iki balası — köşəyi gözünün qabağında ölüb və sən inanmazsan — çünki mənim də sözümə inanmadın —

inanmazsan ki, o yazıq, o balası ölmüş dəvə insan kimi, oğlu ölmüş ana kimi iri, qara, ağıllı gözlərindən neçə gildir-gildir yaş axıdıb zar-zar ağlayırdı... Dilsiz-ağızsız heyvan olasan, balan üçün belə ağlayasan... Mən onda bildim ki, onun hər balası öləndə ürəyinə bir xal düşdü, ağa. İki bala dağı görmüş maya dəvənin ürəyində iki də xal — dağ olmalıydı, ağa.. Sən, eh, nə deyim, sən mənim sözümə inanmadın, yazıq heyvanı candan elədin...

Obabaşı fikrə gedir. Handan-hana:

— Ə, o dəvələrdən ən yaxşısını seçin verin bu kişiyə, aparsın — deyir. Kişi isə fikirli-fikirli:

— Yox, ağa, mənə sənin dəvən lazım deyil... — deyib yola düzəlir...

Maşa xala sözünü qurtarıb susduqda Gülmirə arvadın niyə ağladığını başa düşdü və təsəlli vermək üçün ağzını açıb nə isə demək istəyirdi ki, qarı köks ötürüb təzədən gözü yaşara-yaşara:

— Bu hekayəni oxudum, balalarım yadıma düşdü, Gülya. Faşistlərin gözümün qabağında güllələdiyi üç balam yadıma düşdü — deyirəm, mənim də ürəyimi kəsib sinəmdən çıxaran olsaydı, orda üç xal, üç dağ — üç bala dağı görərdi Gülya...—dedi.

Gülmirə sarsıldı. Bayaqdan qarının bu hekayəsini maraqla dinləyən, onu ağladan səbəbi fikrində araşdıran gəlinə indi hər şey aydın oldu, sən demə, hekayə Maşa xalanın yaralı yerinə toxunubmuş, illərin qaysaqladığı, göz bağlatdırdığı yarasının gözünü qoparıbmış! Gülmirə arvadın müsibətini çoxdan bilirdi, arvad hər şeyi ona danışmışdı. Əsəbləri pozulmuş, illərlə balaları üçün ağlamış Maşa arvadın son vaxtlar ağladığını görən olmamışdı, nə qonşular, nə Əqdəm, nə Gülmirə... Hamı deyirdi ki, daha arvad dərdini unudub, daha gözlərində yaş da qalmayıb... Sən demə, belə deyilmiş. Sən demə, bala dağı unudulmurmuş, sən demə, ürəkdən su içən gözün yaşı qurumazmış!!!

— Arlama, Maşa xala, sən uşaq deyilsən ki, Maşa xala. Hekayədir də, yazıb... Hər yazıdan ötrü adam ağlamaz, Maşa xala!— deyirdi Gülmirə.

Ancaq sözlərinin sinəsi çalın-çarpaz dağlanmış anaya təsəlli verəcək gücə-qüdrətə malik olmadığını da anlayır, özünə acığı tuturdu ki, niyə bu dərdli anaya layiq, onun könül fəryadlarını unutdura, heç olmasa yüngülləşdirə biləcək sözlər tapıb deyə bilmir, niyə?

— Ağlama! Maşa xala, ağlama — Maşa xalanın gümüşü tellərini əyilib tumarladı, ömründə övlad nəvazişi görməyən qarının sanki dərdi yüngülləşdi və o, yaşlı gözlərini dəsmalı ilə silib:

— Sağ ol, qızım. Kiçik qızım Lena sağ qalsaydı, indi sən boyda olardı, Gülya. Elə bildim odu, bir anlığa hardansa gəlib mənim saçlarıma əl çəkdi...— dedi.

— Mən də sənin qızın, Maşa xala.

— Çox sağ ol, bala. Allah bu kitabı yazana da bala dağı göstərməsin, ürəyimi boşaltdı — son illər taxtaya dönmüşdüm, qurumuşdum. Hisslərim də kütəlmişdi, elə bil ürəyim də ölmüşdü. Elə bilirdim, mən heç cavan olmamışam, elə bilirdim mən heç ana olmamışam, aman Allah. Sağ olsun ki, bu duyğuları, o analıq hissini mənə qaytardı o yazıçı... Sən şəxsən tanıyırsan bu yazıçını?

— Yox, Maşa xala.

— Tanısaydın, mənim təşəkkürümü yetirərdin ona, əvəzimdən «çox sağ ol» deyərdin ona, qızım.

Gülmirə güldü:

— Sənin xatirinə tanış olaram, sözlərini ona yetirərəm, Maşa xala!!!

— Hə, hə, tap, tanış ol, sözlərimi ona çatdır...

Bu sözlərdən sonra Maşa xala sanki toxtadı, həm də deyəsən dolmuş buluda oxşar ürəyi, gözləri boşalmışdı. O, ayağa qalxdı, mətbəxə gedə-gedə üzünü Gülmirəyə tutdu:

— Bir çay dəmləyim, içək! Sən də soyun, rahatlan.

— Hə, yaxşı olar. Bu gün lap yorulmuşam, Maşa xala...

Az sonra Gülmirə ipək xalatında idi, Maşa xala onun üçün armudu stəkanda, özü üçün daş stəkanda çay gətirmişdi. Gülmirə televizoru yandırmışdı, nə isə mənzərə filmi göstərirdilər — deyəsən, Göygölü göstərirdilər — zümrüd meşələr, zümrüd göl bir — birinə qarışmışdı elə bil. Gərginlik içində keçirdikləri günün ağrısını-acısını təbiətin gözəl, əvəzsiz göz oxşayan mənzərələri hər ikisinin canından, ürəyindən çıxarırdı yavaş-yavaş! Gülmirə evə gələrkən bugünkü göydəndüşmə kəşfinin cəmi yarımca saatın içində «doğulmuş» məqaləsinin haqqında Maşa xalaya danışacağını qət eləmişdi, ancaq gəlib gördüyü vəziyyət onu bu fikirdən daşındırmışdı. Lakin dəqiqələr keçdikcə, televizorda bir-birindən gözəl mənzərələr dəyişdikcə aradakı gərginlik azalırdı — çaydan qurtum-qurtum içə-içə Gülmirə bugünkü çalpaşıq, müəmmalı sevincini —«kəşfini» Maşa xalaya danışmaq istəyirdi ki, mənzərə filmi qurtardı, heç bir dəqiqə keçməmiş diktor qız ekranda göründü və aydın, məlih səslə elan elədi:

— Hörmətli tamaşaçılar, indi də «Oğru» bədii filminə tamaşa edə bilərsiniz!!!

Maşa xala deyəsən, filmin adını yaxşı eşitməmişdi.

— Nə dedi? Nə filmi?

Gülmirə o yaxşı eşitsin deyə bir az ucadan:

—«Oğru»— dedi. Dedi və sanki bu sözdən özü də ürkdü. Qeyri-iradi dönüb ətrafına baxdı, Maşa xaladan başqa kimsəni görməyib yerində qurcuxdu. Güzgüsüz də, sanki ürəyinin gözləri ilə sir-sifətinin qızardığını, yanaqlarının yandığını görər kimi oldu və sıxıldı. Elə bu anda, filmin proloqunda kadrlar dəyişir və tramvayda gedən eynəkli, şlyapalı bir kişinin portfelindən səliqəli geyinmiş, boynu qalstuklu, barmağında üzük olan bir cavan nə isə bir qovluq çıxarırdı... Bu zaman çeşməkli bir qadın haray salır, «Oğru, oğru! Oğrunu tutun!»— deyir və tramvaydakı adamlar bir-birinə dəyir —«oğru, oğru!»— deyə qışqırırlar... Bu səs ekrandan süzülür, evə dolur,

divarlarla, pəncərə şüşələrinə dəyib qayıdır. Bu zaman Gülmirəyə elə gəldi ki, bu «oğru» sözünü ona deyirlər. Bütün bədənini bir süstlük bürüdü, divanda balacalaşıb yumağa döndü. Maşa xalaya bayaqdan danışmaq istədiyi əhvalat — Füzuli avtoqrafı məsələsi, professorla olan söhbət, onun Cəfər haqqında dedikləri birər-birər yadına düşdü, xatırında canlandı... Ona elə gəldi ki, o çeşməkli, portfelli kişi Cəfərdi, onun portfelindən qovluğu — qiymətli sənədləri çıxaran adam isə Salmandı, professor o kağızları, qovluqları gətirib ona verir və «bu sənindi!»— deyir...

Filmə baxmaq həvəsi söndü, kədərli-kədərli ah çəkib ayağa qalxdı və:

— Maşa xala, sən bax, mən özümü pis hiss edirəm, getdim yatmağa!— dedi.

— Bıy, Gülya, bu çox yaxşı filmdi, çox maraqlıdı, otur bax!

— Yox, nəsə bərk yorğunam... Yatmaq istəyirəm...— Deyib Gülmirə ekrana baxmağa belə qorxurmuş kimi əsnəyə-əsnəyə öz otağına keçdi, Maşa xala televizorun önündə tək qaldı — onun televizora baxmaqdan savayı, axşamlar başqa məşğuliyyəti olmazdı.

Yan otaqda çarpayı cırıldadı. Gülmirə işığı belə yandırmadan yatağına uzandı... Ancaq yata bilmədi. Yuxu gözlərindən qaçaq düşmüşdü. Otaqda elə bil kimsə vardı və elə hey «oğru» deyə-deyə qışqırırdı... Bu səs onu film qurtaranacan, Maşa xala televizoru keçirib yatanacan rahat buraxmadı. Sonra evə qəbiristanlıq sükutu çökdü. Divar saatının yeknəsəq çıqqıltısından başqa heç nə bu gecə sükutunu xələldar eləmirdi... Filmin ilk kadrlarında gördüyü adamlar da gözünün qabağından çəkilib getmişdi — onların yerində indi təkcə Salman Qurbanzadə peyda olmuşdu. Salman Qurbanzadə məharətlə hardansa çırpışdırdığı qovluğu Gülmirəyə gətirirdi — o isə geri itələyirdi. Və birdən-birə gəlinə elə gəldi ki, oğru — həqiqətən Salman Qurbanzadədir. O, tüklü, çirkli əllərini Gülmirənin təmiz ürəyinə sarı

uzadır, onu qamarlamaq, öz çirkin, murdar əlləri ilə sıxmaq istəyir... Gülmirə «yox!»— deyir, o isə israr edir...

Sonra, hardansa xəyalına qını yaxşı naxışlanmış, sədəf və mirvari ilə bəzədilmiş bir qılınc gəlir — bu qılıncı o harda görüb?— Hə, yadına düşdü, dünən tarix muzeyinə getmişdi,orda belə bir qılınc var idi. Qılıncın qını elə yaraşıqlı, göz oxşayan idi ki, baxdıqca baxmaq istəyirdin, bütün eksponatların gözü idi. Ancaq içində yəqin vaxtilə iki ağzı da ovxarlı olan qılınc da vardı. Şirmayılı dəstəyindən bilmək olurdu. Və dünən Gülmirə istər-istəməz düşünmüşdü ki, bu qılıncla kim bilir neçə-neçə iyidin, mərdin yaxud, müxənnətin, namərdin başı kəsilib ha! Bu qılınc indi, qınında olduğu vaxt gözəl idi, baxmalı idi, bir muzeyin yaraşığı idi. Ancaq qınından çıxanda... üzünü görmə... Dəhşətli, soyuq, dalı da, qabağı da kəsən qorxulu silah idi... Salman hardasa, nədəsə bu qılınca oxşadı Gülmirənin nəzərində. Qında olanda gözəl idi, qayğıkeş idi, şəbənin yaraşığı idi, alim idi, insan idi, əmi idi, qınından çıxanda... qılınc idi, qan tökən idi, namərd idi...

Bəli, Salman Qurbanzadə— kimin üçünsə qınında olan qılınc idi, kimin üçünsə qınından çıxmış qılınc idi!

Gülmirə qaranlıq otaqda ağlına gələn bu fikirdən üşürgəndi, qorxdu...

## ON SƏKKİZİNCİ FƏSİL

Səhəri günü özünü azca nasaz hiss elədiyi üçün Salman işə çıxmadı. Hıqqıldaya-hıqqıldaya, zarıya-zarıya telefona yaxınlaşıb Aslanzadəyə zəng çaldı, icazə alıb yerinə girərək əməlli-başlı uzandı. Ərini kefsiz görən, ümumən evdə xəstə görməkdənsə, özü xəstələnməyi üstün tutan Nadirə əl-ayağa düşüb doktor çağırmaq istəyəndə Salman qoymadı: «Əşi, yüngülvarı şeydi, keçib gedər»,— deyərək onu sakitləşdirdi; buna baxmayaraq Nadirə balaca ev aptekindən aspirin tapıb isti çayla ərinə içirtdikdən sonra nigaran-nigaran idarəyə

getdi. Professor darıxacağını hiss eləyib əl ataraq çarpayısının baş tərəfindəki kitab rəfindən «Şərq ədəbiyyatında realizm» əsərini götürdü və mütaliəyə başladı. Ancaq sətirlər gözünün qabağından qaçdığına görə, cümlələr, fikirlər ona dolaşıq və anlaşılmaz görünürdü, buna görə oxuduğu bir cümləni qayıdıb ikinci dəfə də nəzərdən keçirməli olurdu. Çox keçməmiş belə mütaliənin heç bir fayda verməyəcəyini kəsdirib kitabı yorğanının üstünə atdı. Çünki onun diqqəti burada deyil, dünən müvəffəqiyyətlə keçirdiyi «əməliyyatın» yanında idi. Professorun diqtəsi ilə, Gülmirənin öz əlilə yazılan məqalə onun seyfində, köhnə kağızlar yığılmış qovluğun arasındaydı.

Salman ehtiyatlı tərpənib Gülmirəyə bəzi başqa məsləhətlər də vermişdi. Bütün bunlara baxmayaraq, Salman gecəni səhərəcən yerində qurcuxmuş, ilan vuran yatmışdısa da, o, çimir belə eləyə bilməmişdi. Bir tərəfdən qurduğu, o biri yandan da belə mühüm məsələnin ümumən əldən çıxması onu yamanca dilxor eləmişdi. Burda şəxsən o heç nə qazanmırdı. Arada əzab-əziyyət çəkən Cəfər, «nə yoğurub, nə yapan, hazırca kökə tapan» isə Gülmirə olurdu. Paxıl adamlar, bərk ayaqda, bununla da təsəlli tapmağı bacarırlar; Salmanın da təsəllisi bu idi. Ötən gecə yerində çalıxıb-çapalayan təkcə Salman deyildi, Gülmirə daha böyük və daha anlaşılmaz bir təlatümə düşmüşdü. Elə bir təlatümə ki, o, bu qurğunun əsil mahiyyətini tam aydınlığı və dərinliyi ilə hələ də anlaya bilmirdi. Bu, nə idi? Professor ona köməklik etmək istəyirdi. Belə köməklik olar? Bəlkə bu, Cəfərə qurulmuş bir tələdir. Elə isə bəs Gülmirə nə üçün onun «çörəyinə» mane olmalıdır? Axı onlar yoldaşdılar, eyni şöbədə işləyirlər. Kimə bu dərdi-sirri açmalı, kimdən məsləhət almalı? Orxana? Yox, axı, o heç kəsə sirr açmayacağına söz verib.

Bu cavabsız suallar onu hövülləndirir, ancaq Gülmirə bu işin axırını bir yana çıxara bilmir, düşdüyü vəziyyətlə barışmalı olurdu. Belə anlarda o öz-özünə deyirdi: bəlkə üzümə bağlanan qapılar açılır? Bəlkə bu məqalələr məni bir yana çıxaracaq? Nə üçün mən gərək

şadlığıma şitlik eləyim? Niyə də? Kim belə hazır tikədən qaçar? Sonra ürəyinin dərinliyindən gələn bir ayrı səs hökmlə, qəzəblə onun öz üstünə bağırırdı: «Vicdansız!» Bu zaman o, əlilə üzünü tutub ağlamaq istəyirdi, lakin bacarmırdı. Təkcə Cəfərin ürəyi sakit idi. Əslində o, sevincin qanadlarında uçurdu. Bu gecə professoru, Gülmirəni ayrı hisslər yatmağa qoymamışdı. Cəfəri isə sevinc. Hələ o, uzun illərdən bəri belə sevindiyini xatırlaya bilmirdi. Elə sevinirdi ki, ürəyi bu sevincə tab gətirməyib partlaya da bilərdi.

«Heyf ki, dünən professorun vaxtı olmadı. Yoxsa baxacaqdı. Yəqin, o da sevinəcəkdi»,— deyə düşünən Cəfər səhəri səbirsizliklə gözləmiş, tezdən professorun başının üstünü almaq üçün hamıdan qabaq idarəyə gəlmişdi. Amma professorun kefsiz olduğunu və bu gün işə çıxmayacağını eşidəndə məyus oldu. Şöbəyə gəlib yerində oturdu, ancaq nə oxuya bildi, nə də yaza bildi. İri, lay pəncərədən diş-diş qala divarlarına baxıb, fikrə getdi. Professorun kabinetinin qapısı da bağlı idi. Cəfər dözməyib şöbədən çıxdı. Pillələri tələsik enib, özünü küçəyə saldı. Azərnəşrin binasının qabağında trolleybusa minib, on dəqiqə sonra Nərimanov prospektində, «Ceyran» kafesinin yanında düşdü.

Qapını zol-zol pijama geyinmiş professor özü açdı. Cəfəri görən kimi:

— O... sənsən?! Yaxşı ki, gəldin,—dedi və onu içəri dəvət elədi.

Cəfərin sıxıntısı keçib getdi. Professorun halını-əhvalını soruşdu.

— Azca canım ağrıyır, canına sağlıq,—deyə o, yenə çarpayısına sarı getdi və Cəfərə qənşərindəki kreslonu göstərdi. Cəfər əyləşdi. Professor üzr istəyib yorğan-döşəyə girdi. — Ürəyin düzdü,— deyə hər iki əlini daraqlayıb boynunun dalına qoydu, başını qaldırıb Cəfərə baxdı. — Bu dəqiqə elə sənin haqqında düşünürdüm.

— Çox sağ olun, professor.

— Dünən elə tələsirdim ki, heç yaxşı ayırd eləyə bilmədim də nə dedin. Füzuli haqqında, deyəsən, məqalə yazmışdın, ya nə idi?

— Belədi ki, bir balaca məqalə qaralamışdım. Füzulinin avtoqrafını tapmışam...

— Füzulinin avtoqrafını?

— Bəli. Öz dəst-xəttilə yazdığı... İndiyə qədər...

— Hə, bildim. Sən, yəqin, «Əsrarül-ədvar»dakı məsələni görübsən.

Cəfərin gözlərindəki sevinc qığılcımları öləziməyə başladı.

— Bəli... Sizin xəbəriniz...

— Hə, o barədə məqalə də yazılıb.

Professorun soyuqqanlıqla dediyi bu sözlər Cəfərin bütün sevincini alt-üst elədi. O, ağır zərbə almış adamlar kimi karıxıb gözlərini qırpa-qırpa qaldı.

— Məqalə də yazılıb?

— Bəli.

— Kim yazıb? Mənə rast gəlməyib.

Professor qımışıb daha inandırıcı bir üsul kəşf eləmiş adam kimi fərəhləndi və dikəlib yerində oturdu:

— Sənə bir əziyyət versəm, olar?

— Niyə olmur?— deyə Cəfər fikri dağınıq halda cavab verdi.

— Mənim o şalvarımın cibindən kabinetin və seyfin açarını götür, get idarəyə. Otağı aç, stolun üstündən öz məqaləni, seyfdən də göy papkanı götür, gəl.

Cəfər açarları götürüb çıxanda professor eşitdirdi:

— Sonra qapını və seyfi bağlamağı unutma!

— Yaxşı...

Cəfər yolu quş kimi gedib-gəldi. Özünü saxlaya bilməyib göy qovluğu açıb içindəki kağız-kuğuzu yoxlamaq istədisə də, trolleybusda adam çox olduğundan imkan tapmadı. Yol uzunu düşündü: «Bu nə haqq-hesabdı? Harda çıxıb məqalə ki, mən ona rast gəlməmişəm.

Bəlkə?.. Bəlkə nə? — Öz-özündən soruşdu. — Bəlkə bizim uşaqlardan biri tapıb? Yaxud professor özü?»

Cəfər lap cavanlıq illərindən Salmanın xasiyyətinə: özünü iki inəkli, qonşusunu bir inəkli istəyən adam olduğuna bələd idi. (Cəfər Bakıdan uzaqda yaşadığı illərdə Salmanın dəyişib qonşusunu bir inəkli də görmək istəməyən adama çevrildiyini hələ bilmirdi). Bununla belə ürəyinə ayrı şey gətirmək istəmirdi. «Axı o nə məqalədi?» deyə-deyə qapının zəngini basdı. İki dəqiqə keçmiş onlar - Salman və Cəfər üzbəsurət oturmuşdular. Cəfər eynəyinin altından qəribə parıltı ilə işıldayan gözlərini professora zilləmişdi,

— Hə, belə-belə işlər, yoldaş Cəfər. Sən elə bildin Füzulinin avtoqrafını sən birinci görübsən?

— Mənə elə gəldi ki...

— Hə, belə... Mənə elə gəldi ki..— O, danışa-danışa qovluğu açıb içərisindən, lap altdan bir-birinə sancaqlanmış iki səhifə çıxartdı. Ani nəzərdən keçirib Cəfərə işarə elədi:

— Stulunu yaxın çək. Bax, bu məqaləni görürsən? Adı nədi?

— Adı?— Cəfər irəli əyilib çətinliklə oxudu:— «Füzulinin avtoqrafı...»

— Kim yazıb?

— Gülmirə Əlibəyli.

— İndi bu tarixə bax. Nə vaxt yazılıb məqalə? Cəfər axırıncı səhifənin aşağısına — professorun barmağı ilə göstərdiyi nöqtəyə baxdı.

— Martda yazılıb.

— Demək, üç ay bundan irəli yazılıb, eləmi?

— Bəli.

— İndi bura bax. Bunu da mən yazmışam.

Cəfər dərkənarı da oxudu: «Mühüm bir məsələyə həsr olunmuş bu məqalənin çap olunmasını məsləhət bilirəm. Prof. S.Qurbanzadə». Altında da iki ay bundan qabağın tarixi...

— Bəs indiyəcən Gülmirə bunu niyə çap elətdirməyib?— deyə Cəfər burnunun ucuna enib düşmüş eynəyi barmağı ilə düzəldib xəbər aldı.

— Düzü, günah məndə olub. Vaxtımın azlığı üzündən ona verə bilməmişəm. Yazıq özü iki-üç dəfə də yanıma gəlib, imkanım olmayıb. Bilirsən, gah iclas, gah müşavirə, gah nə bilim nə. Qız, deyəsən, bir balaca məndən inciyib də. Cavanlar axı bir balaca dəymədüşər olurlar. — Bunu deyib Salman məqaləni Cəfərə sarı uzatdı. — Al, bax, tanış ol, bəlkə ayrı-ayrı avtoqrafları tapmısınız?

Cəfər alıb tələsik halda məqaləni nəzərdən keçirdi. Yox, buna heç şübhə ola bilməzdi, mənbə, avtoqraf eyni idi. Cəfər bu günə qədər zəngin bir xəzinəyə açar tapmış adama oxşadırdı özünü. Şad-xürrəm idi. Amma indi... O açarı onun əlindən aldılar, başqasına verdilər, sən demə, o gecikibmiş. Gecikibmiş, həyatda olduğu kimi...

— Bir Şeydi, professor...— deyən Cəfərin ümidsiz səsi eşidildi.

Gülmirə Cəfərin onun stoluna sarı gəldiyini görəndə özünü itirən kimi oldusa da, professorun möhkəm-möhkəm tapşırdığı sözləri yadına salıb özünü ələ aldı. Cəfər salam verib boş stulu Gülmirənin stoluna sarı çəkib əyləşdi.

— Sən, belə məlum olur ki, Füzulinin avtoqrafını tapmışmışsan.

Gülmirənin bu an nələr çəkdiyini dillə demək çətindi. Onun bu dəqiqə keçirdiyi ağrılı-acılı əzab ilk dəfə başqasının təhriki ilə günahsız insan öldürmüş ürəyi yumşaq bir adamın əzablarına çox oxşayırdı. hər şey keçici, ötəri olduğu kimi, belə əzablar da keçib gedən olur. Xüsusilə o zaman ki, tutulmaq, ifşa olunmaq qorxusu adamın bütün varlığına hakim kəsilir; o öz başını, canını xilas etmək barəsində düşünür. Bax, bu zaman sentimental hisslər yox olur, yerini başqa, daha real, daha həyati hisslərə verir. Gülmirə də belə oldu: Cəfərin solğun, yorğun üzünü görəndə əzab içində qovruldu, iki saniyə keçməmiş dəyişib tamam ayrı bir adama çevrildi:

— Hə, necə məgər? Tapmışam.

— Bəs niyə indiyəcən səsə salmırsan?

— Neyniyəcəm? Durub car çəkməyəcəm ki? Yazmışam, vermişəm kişiyə. Haçan verər, verər. Dedim hay-küy salaram, deyərlər ki, Gülmirə lovğalanır.

Cəfər bu sözlərin müqabilində heç nə deməyib başını aşağı saldı və düşündü: «Yaxşı ki, çox adama Füzulinin avtoqrafını tapdığımı deməmişəm. Yoxsa lap biabır olardım.»

## ON DOQQUZUNCU FƏSİL

Neçə gün idi ki, Gülmirə canını qoymağa yer tapmırdı, qiymətli bir şey tapmış adam kimi ora-bura vurnuxur, nə edəcəyini bilmirdi. O qiymətli şey əlini, ürəyini yandırırdı — sahibi məlum idi — Cəfər idi, di gəl ki, onu, o ağsaçlı, nurani alimə, onsuz da, elm aləminə gec qayıtmış (özündən asılı olmayan səbəblərə görə), yaşına görə az yazıb yaratmış Cəfərə qaytarmağa imkanı yox idi, çünki, Salman Qurbanzadə belə tapşırmışdı. Gülmirə hər dəfə kişini görərkən sıxılıb yumağa dönür, şax yerişini itirir, onun gözlərinin içinə dik baxmağa utanırdı. O gün ilk kadrlarını gördüyü, hövlündən gerisinə baxmağa cürət etmədiyi «oğru» filmi Gülmirənin fikirlərini alt-üst eləmişdi, böhranlı hallara salmışdı. Uzun götür-qoydan sonra o, professorun yanına getməyi, hər şeyi açıq-aydın danışmağı, bu çirkin işdən imtina eləməyi qərara almışdı. Lakin üç gün idi ki, Salman Qurbanzadəni münasib şəraitdə tuta bilmirdi; kişi gah iclasda olurdu, gah direktorun kabinetinə girirdi, gah da universitetdə mühazirə oxumağa gedirdi. Vaxt keçdikcə Gülmirə lap təntiyir, az qalırdı dərdini institutun partkomu kimi Nadirə xanıma, yaxud da yaxın bir dost kimi Orxana açıb desin, ancaq Salmanın qəzəblənəcəyindən çəkinirdi, qınından çıxacağından — kəsib biçəcəyindən ehtiyat eləyirdi. Digər tərəfdən

də, Gülmirə Salmangilin evinin adamı kimi, onun arvadı ilə elmi işlərdə çox da yaxşı münasibətdə olmadığını, bir sıra məsələlərdə tamamilə ayrı-ayrı mövqələr tutduğunu, Nadirənin həm alim kimi, həm də bir insan kimi son dərəcə prinsipiallığını, nəinki başqalarına, hətta ərinə, doğma balasına belə güzəştə getməyən adam olduğunu bildiyi üçün bu işi Nadirəyə qətiyyən demək istəmirdi. Düşünürdü ki, əgər Nadirə həmin əhvalatı bilərsə, kollektivin müzakirəsinə çıxartmasa belə, Salmana dişinin dibindən çıxanı deyəcək — kişi arvadının yanında olan-qalan hörmətini, etibarını da itirəcək və bu zaman o, şübhəsiz yenə qınından çıxacaq, «babam mənə kor dedi, hər yetənə vur dedi»— söyləyib qabağına keçəni biçib doğrayacaq. Kim bilir onda Gülmirənin özünün də halı necə olacaq?! Yox, əvvəl özü ilə danışmaq gərəkdi, məsələni isti-isti həll eləmək lazımdı. Bu fikirlə də Gülmirə, nəhayət, münasib fürsət düşən kimi Salmanın otağına girdi. Salman nahar eləyirdi — salafanın içindəki iki kotleti, iki fal çörəyi, göy-göyərtini stolunun üstünə yığıb iştahla yeyirdi. Qapı ağzında Gülmirəni görən təki ağzı dolu olduğundan əlinin işarəsi ilə onu içəri çağırdı, yer göstərdi. Gülmirə əyləşdi. Salman tikəsini udub:

— Hə, nə var, nə yox?—deyə xəbər aldıqdan sonra vəzəri qıçasını narın duza batırıb ağzına qoydu. Gülmirə bir anlığa nədən başlayacağını unudub döyükdü və axır özünü toplayıb söylədi:

— Professor, mən o məsələ ilə əlaqədar sizinlə danışmaq istəyirdim.

— Nə məsələ, qız?

— Füzulinin avtoqrafı...

— Hə, biz gərək ki, o məsələni həll eləmişik, Gülmirə.

— Yox, professor, mən razı deyiləm...

— Nə? Necə yəni razı deyiləm?— yemək Salmanın yadından çıxdı.— Bu nə deməkdir, qızım?..

— O deməkdir ki, mən... mən... başqasının... kəşfini... öz adıma çap elətdirə bilmərəm, Salman əmi... Vicdanım...

Salman ucadan güldü və ayağa qalxıb qapıya sarı gələrək onu kip örtdü — ehtiyat edirdi ki, bu söhbəti kənar adam eşidə bilər və gülüşünə ara verib asta səslə:

— Vicdan... hi, hi, hi... vicdan. Vicdan nədi, qız? — dedi. — Sən hələ uşaqsan, belə şeylər haqda düşünməyin hələ tezdi, bala. Rusların yaxşı bir məsəli var, deyirlər: «Dayut beri, biqot, beqi!» yəni «verirlər al, vururlar, qaç!» Səninlə o dəfə hər şeyi yaxşı-yaxşı müzakirə elədik, ölçdük, biçdik. Özün bilirsən ki, mən səni çox istəyirəm, sən mənim dostumun qızısan. Sənə hörmət eləmək, səni yetişdirib alim eləmək mənim həm dostluq borcumdu, həm də vətəndaşlıq borcumdu, qızım... Bu kəşf dediyimiz şey onsuz da Cəfərə heç nə verməyəcək, çünki onun ələyi ələnib, xəlbiri də göydə fırlanır. Amma sənin gələcəyin, karyerin, şöhrətin hələ qabaqdadır, Gülmirə. Sən hələ həyatda çox şeyi layiqincə başa düşmürsən, qiymətləndirə bilmirsən — bilmirsən ki, bu sənin üçün nə boyda şöhrətdi, bala!

— Mən... mən istəmirəm, Salman əmi, başqasının şöhrətini...

— Bu, başqasının şöhrəti deyil, sənin öz şöhrətindi, qızım. Bunu bir sən, bir mən bilirəm ki...

— Elə mən özüm bildim, bəsdi, Salman əmi. Mən özümü mühakimə eləyə-eləyə, əzab içində yaşamaq istəmirəm. Cəfəri görəndə yer axtarıram ki, başımı soxam... Yox, istəmirəm, Salman əmi, çox xahiş edirəm...

Salman bir anlığına susdu, əlini arxasında daraqlayıb o baş-bu başa var-gəl elədi və çıxılmaz vəziyyətə düşmüş adam görkəmi alıb:

— Eh, sənə nə deyim,— dedi. — Bunu elə onda desəydin, bir ayrı tədbir görərdim...

— Hələ gec deyil, qaytarın o yazını mənə. Cırıb atım, ürəyim sakit olsun...

Salman keçib yerində oturdu.

— Məsələ burasındadı ki, artıq gecdi, qızım. Məqalə artıq çapdadır, mətbəədədir, Gülmirə.

— Siz nə danışırsınız, Salman əmi?

— Bəli, artıq çapdadır, qız. Al, bu da makinada yazılmış mətnin ikinci, üçüncü nüsxəsi...— deyə o, göy qovluğun içindən makinada çıxmış vərəqləri və əl yazmasını ona qaytardı. Gülmirə vərəqlərə ötəri nəzər salıb məqalənin altında öz imzasını görərək sustaldı və başını əllərinin arasına alıb gözlərini yumdu.

— Kim yazıb bunu makinada?

— Mən özüm.

— Bəs redaksiyaya kim aparıb?— Mən zəng elədim bizim Şamilə— axı o mənim tələbəm olub. Adam göndərdi, verdim apardı.

Gülmirə çarəsiz-çarəsiz Salmana baxdı və gözləri yol çəkdi. Bu sükutdan istifadə eləyərək Salman harasa zəng çaldı, kiminləsə danışdı. Gülmirə təkcə bunu eşitdi ki, Salman deyir:

— Bugünkü nömrədə çıxır? Ay sağ ol, bala. Təşəkkür edirəm!— Sonra Salman dəstəyi yerinə qoyub güldü:

— Səni təbrik edirəm, qız. Məqalən çıxır bu gün!..

Gülmirə sevinmədi, əksinə, gözləri dolmuş halda Salmanın kabinetindən çıxmaq üçün ayağa qalxanda o, kotletdən iri bir dişdəm vurub çeynəməyə başladı...

***

... Cəfər kişi əlində bir dəstə qəzet şöbəyə qaranəfəs daxil oldu— o yaşda kişi liftlə də çıxmamışdı, dörd mərtəbənin pillələrini demək olar ki, qaça-qaça çıxmışdı. Tövşüyə-tövşüyə oturanlara göz gəzdirdi, nəzərləri ilə Gülmirəni axtardı.

— Hanı Gülmirə?

—Mən burdayam!

Cəfər ona sarı addımladı:

— Ay səni təbrik eləyirəm, qızım.

Orxan soruşdu:

— Nə olub ki Cəfər müəllim?

— Məqaləsi çıxıb. «Füzulinin avtoqrafı.»

— Hə?— Orxan sevinc içində ayağa qalxdı və ona tərəf gəlib əlini irəli uzadaraq təbrik etdi. — Nə yaxşı, nə yaxşı...

— Əşi, elə bir şey deyil,— deyə Gülmirə qızara-qızara Cəfərin onun qabağına qoyduğu qəzetlərdən birini götürüb nəzərdən keçirməyə başladı. Əslində o, heç nəyə baxa bilmirdi, hərflər bir-birinə qarışıb əriyirdi, qaçırdı. Əslində o, baxışlarını oturan yoldaşlarından, xüsusilə Cəfərdən gizləmək istəyirdi.

— Düz on dənə almışam, qızım hərəmiz üçün bir dənə. Mən öz payımı götürdüm, qalanlarını da özün payla!

— Çox sağ ol, Cəfər müəllim...- o, sıxıla-sıxıla dedi,— Ömrün uzun olsun.

— Dəyməz, qızım. Təki şöbəmizin əməkdaşlarının əsəri çıxsın, yerin deşiyində də olsa tapıb gətirərəm.

Gülalı mızıldana-mızıldana yaxın gəlib Gülmirənin stolunun üstündən bir qəzet götürdü, tələsik axtarıb onun yazısını tapdı və adəti üzrə kişnərtiyəbənzər bir səslə gülərək:

— Hi, hi.., ə kişi, sən burda, yenə bir balaca səhv eləyirsən, bu məqalə deyil ey, kiçik məlumatdı. Bu yaşa gəlmisən, hələ məqalə ilə məlumatı ayırd eləyə bilmirsən,—dedi.

— Fərqi yoxdur, Gülalı. Fakt budu ki, Gülmirə böyük Füzulimizin öz dəst-xəttini tapıb. Bu, çox böyük məsələdi, Gülalı. Bayaqdan əlindəki yazısını qurtarmağa can atan Nadirə nəhayət, fikrini tamamlayıb Gülmirənin yanına gəldi, onun əlini sıxdı:

— Afərin, Gülü. Bax, belə işləmək lazımdır.

Gülmirə qızara-qızara başını aşağı saldı və ürəyi qorxu içində fikirləşdi: «Görəsən Salman əmim buna açıb deməyib ki. Dedi, dedi də. Ondan nə desən gözləmək olar!» Ancaq Nadirənin təbiətinə bələd olduğundan bir az toxtadı. «Desəydi, indicə, bax elə bu qədər adamın

içində sancmışdı, pərt eləmişdi. Deməyib, yox, deməz!» Nadirə Cəfərin Gülalıya dediyi son sözün üstünə qayıtdı:

— Cəfər kişi çox düz buyurur, Gülalı. Gülmirənin bu tapıntısı Füzulinin elm aləminə məlum olan onlarla divanlarının hansının onun öz dəst-xətti ilə yazıldığını müəyyən etməyə imkan verər. Bu xəttin, Füzulidən yadigar qalan bu bir-iki cümlənin kolliqrafik təhlili əsasında biz gələcəkdə də böyük sənətkarın öz avtoqrafı olan əsərlərini, azərbaycanca, farsca, ərəbcə divanlarının əlyazmasını axtarıb tapa bilərik. Və bu, əgər bizə müyəssər olsa, onda şairin əsərlərinin müxtəlif katiblər tərəfindən üzü köçürülərkən buraxdıqları səhvləri, yanlışlıqları, əlavələri islah edə bilərik və Füzuli kəlamını olduğu kimi oxucu kütləsinə, xalqımıza çatdırmağa müvəffəq olarıq. Bəli, Gülalı, Gülmirə xanım, bizə bu tapıntısı ilə böyük bir xəzinənin açarını vermiş olur.

— E... mən bir söz demirəm ki, Nadirə xanım, mən sadəcə bunu Cəfər kişinin hüzuruna ərz eləmək istəyirdim ki, məqalə ilə məlumatın fərqi var. Vəssalam...— Oturanların hərəsi bir nüsxə götürüb yerlərinə çəkilmişdi. Gülmirənin imzası ilə dərc olunan yazını oxuyurdu. Nadirə qəzeti tələsik oxuyub məsələni Salmana, Salman isə Aslanzadəyə çatdırmışdı. Bir sözlə, bütün institut, yəqin ki, başqa institutların əməkdaşları da indi ancaq bu barədə danışır, kimi Gülmirəni tanıdığını söyləyir, kimi isə: «O hansı Gülmirədi ey?» — deyə xatırlamağa çalışırdı.

Gülmirənin başı guruldayırdı, hələ də özünə gəlməmişdi, gözlərinə də inanmaq istəmirdi. Ancaq həqiqət həqiqət idi. Və indiyə qədər qəzetlərin əsil həqiqəti yazdığına, yazmalı olduğuna qəti surətdə inanan Gülmirə acı təəssüf hissilə düşünürdü ki, eh, Salmanlar səni də yalan danışmağa məcbur edə bilərmişlər!!.

## İYİRMİNCİ FƏSİL

Nəfəslik açıq olsa da, Salmanın pəncərəsi dənizə baxan iş otağı papiros tüstüsündən xəfə idi. Gecə yarısına az qalırdı, məhəllədəki evlərin işığı sönmüş, Ceyhun çoxdan yatmışdı. Salman yumşaq kres-loda oturub əl boyda, göy üzlü bir kitabçanı mütaliə edir, ayrı-ayrı sözlərin, sətirlərin altından qırmızı qələmlə xətt çəkirdi. Bu, İlhamın ilk şerlər kitabçası idi. Professor onun bütün məmləkətdə məşhur olan akademik atasını da, özünü də yaxşı tanıyırdı. Keçən il yayda Salman ailəliklə onların Buzovnadakı bağına qonaq gedərkən həmin bax, bu kitabı çıxan İlham onlara yaxşı bir quzu kababı vermişdi.

Yeməkdən-içməkdən əvvəl Salman Qurbanzadə İlhamla qayaların üstündə dayanıb dənizə baxa-baxa xeyli söhbət eləmişdi. İlhamın savadı professoru açıqca heyrətləndirmişdi. Söz-söhbət dolanıb İlhamın şerlərinin üstünə gələndə professor demişdi:

— Sənin şerlərini oxuyuram...

İlham özü də hiss eləmədən professorun sözünü kəsmişdi:

— Ləzzət eləmir, Salman əmi?

— Nə?

— Mən özüm başa düşürəm ki, yüngül yolnan gedirəm.

Professor gözlərini dənizdən çəkib İlhamın küləkdən titrəyən qıvrım saçlarına, mavi gözlərinə baxmış və bu cavanın öz keçdiyi yola qiymət verməyi ona çox qəribə gəlmişdi; odur ki, İlhamın fikrini daha aydın başa düşmək üçün xəbər almışdı:

— Necə yəni yüngül yol?

— Açığı belədir ki, Salman əmi, mən müqavimətsiz çap olunuram. Hara gedirəm, hansı redaksiyanın qapısını açıram, məni, doğrusu, böyük hörmətlə qarşılayırlar. Orda oturma, burda otur. Əgər redaksiyada tanımadığım adam varsa, məmnuniyyətlə məni təqdim edirlər: akademik filankəsin oğludur. Öz adım yoxdur, üstümdə

atamın adı var. Bəzən mənə elə gəlir ki, şerlərimi də atama görə çap edirlər. Mən dəfələrlə eşitmişəm ki, şer yazan cavanlar deyiblər: atasına görə... Mən sıxılıram. Belə şair olmaq istəmirəm. Mən istəyirəm ki, şerimi öz ləyaqətimə görə çap eləsinlər. Mən kölgədə bitən bir ağaca bənzəyirəm. Salman əmi, inanın ki, bəzən baş götürüb qaçmaq, elə bir yerə getmək istəyirəm ki, orda bilməsinlər mən kimin oğluyam. Yaxşı da, pis də, nə iş görsəm, desinlər, bunu İlham eləyib, filan akademikin oğlu yox... Orta məktəbdə oxuyanda atam üstümə kölgə salıb, ali məktəbdə də həmçinin... İndi mən müstəqil olmaq, o kölgə altından çıxmaq üçün can atıram; təəssüf ki, bu, mümkün deyil... Ona görə də şerim çap olunanda, radioda, televizorda oxunanda mənim ürəyimdə zərrə qədər də sevinc olmur, sevinə bilmirəm; elə bil, atamın kölgəsi mənim sevincimi də dondurub... Mən bir cavan şair tanıyıram, heç kəsi yoxdur. Fəhlə oğludur. Onun beş şerindən birini çap edirlər, ancaq bu, yaxşı şer olur, gözəl şer olur...

Oğlan şerini qəzetdə görəndə o qədər sevinir, o qədər sevinir ki, az qalır ağlasın. Mən onu başa düşürəm. O, məhz belə də sevinməlidir!..

Professor, İlhamın dediklərinə qulaq asıb:

— Sən nə qəribə oğlansan?— demişdi. — Demək, sən kölgə əleyhinəsən?

— Özü də necə, professor! Belə kölgələr adamı əsil sevincdən, əsil iftixar hissindən məhrum eləyir. Bu, dəhşətdir.

Bəli, indi İlhamın ilk şerlər kitabçası satışa çıxmışdı. Professor dünən kitab mağazasından aldığı balaca kitabçanı oxuyub qurtaran kimi; akademikə zəng çalıb, xoş-beşdən sonra onu oğlunun kitabı münasibəti ilə təbrik eləmiş, şerlərinin «çox əla!» olduğunu söyləmiş, hələ haqqında xüsusi məqalə yazacağını da vəd vermişdi.

Akademik də, öz növbəsində, ona dil-ağız eləmiş, professorun ədəbi həyatımızı dərindən və diqqətlə izlədiyini, «bir milçək uçuşunu belə o dəqiqə hiss elədiyini» söyləyib, öz minnətdarlığını bildirmişdi.

Bu axşam professor, İlhamın kitabı haqtında məqalə yazırdı. Məqalə çətin yazılırdı. «Ədəbiyyatımıza yeni istedad gəlir» adlanan məqalə yarıdan keçəndə professor qələmi yerə qoyub toxtadı, sağ əlinin barmaqlarını neçə dəfə açıb-yumdu və şaqqıldatdı...

Salman Qurbanzadə stoldan qalxıb bir papiros yandırdı. Var-gəl eləməyə başladı. Nadirənin otağından işıq gəldiyini görüb ayağının ucunda qapı ağzına gəldi. Nadirə işləyirdi. Uzun dirsəkli, qara stolüstü lampa başını aşağı əyib tək, işıqlı gözünü bərəldib sanki Nadirənin yazdığını oxumaq istəyirdi. Salman Nadirənin qələminə fikir verirdi. Qələm elə bil hazır bir mətni kağıza köçürürdü; Nadirə yazdığını sanki nə vaxtsa əzbərləmişdi.

«Yox, axır, su kimi axır». Professor ürəyində nəsə bir sıxıntı duyub geri qayıtdı. Pəncərədən tutqun dənizə baxdı. Yenə stol arxasına keçdi...

Saat birin yarısında o, məqaləni sona yetirib axırına nöqtə qoydu. İlhamı xatırladı: «Sevinə bilmirəm»,— deyir. Şadlığına şitlik eləyir. Mənim məqaləmi oxuyanda sevinərsən, qırışmal, hələ atan haqqında da heç belə məqalə yazan olmayıb!»

Professor papirosuna son qullabı vurub külqabına basdı, söndürdü. Nadirə içəri girəndə o, yazılı vərəqləri səliqəyə salırdı.

— Yorulmadın? — deyə Nadirə pəncərəni açdı. — Az çəksənə bu papirosu, ev tey tüstüdür.

Salman ona sarı çevrildi!

— Yaman işləyirdin, gəldim xeyli baxdım, heç xəbərin olmadı.

— Haçan?

— Bayaq!

— Hə. Mən işləyəndə ətrafımda heç nə görmürəm.

—Nə yazırdın ki?

— İlhamın kitabı haqqında yazmışam,— deyə Nadirə sakitcə cavab verəndə professor heyrətlə səsləndi.

— İlhamın?

— Hə, necə məgər?

— Mən də onun haqqında yazmışam ki.

— Doğrudan?

Professor məqalənin qaralamasını götürüb Nadirəyə göstərdi.

— Buyur.

Nadirə yaxın gəldi. Xeyli fikrə gedəndən sonra dedi:

—Əvvəllər məsləhətləşərdik, nə yazacağıq, necə yazacağıq... Amma indi sən məndən xəbərsiz yazırsan, mən səndən. Nəticədə də...

— Bunu özünə de, Nadirə!

— Yox, günah səndədir. Deyirsən ki, hamı gərək sənin kimi fikirləşsin, sənin kimi düşünsün, sənin kimi yazsın. Əgər belə olsaydı, bircə sən kifayət edərdin. Hər kəsin öz fikri, öz düşüncəsi var, Salman. Fikrimiz düz gəlməyəndən sonra məsləhətləşib boş yerə qan qaraltmaq, vaxt aparmaq nəyə lazımmış ki?

— Axır zamanlar səndə qəribə bir müştəbehlik müşahidə edirəm, Nadirə. Əvvəl belə deyildin. Mənim sözümlə razılaşardın. Ancaq indi nə deyirəm, haqq-nahaq inkar eləməyə, yanlış olduğunu sübuta çalışırsan. İclasda-zadda da sözümün qabağına söz çıxarırsan. Nəzərdən qaçırırsan ki, mən səndən yaşca böyüyəm, bu — bir. Professoram, bu — iki. Sənin ərinəm, bu — üç...

— Qəribə mühakimədir, Salman. Özün özünə zidd gedirsən. Gah sərbəstlikdən, müstəqillikdən danışırsan, gah da hamını müti olmağa məcbur etmək istəyirsən. Bunun hansına inanaq?

— Uşaq tərbiyəsi ayrı şeydir, ərarvadlıq, elmdə böyüklük-kiçiklik bir ayrı şey...

Nadirəyə elə gəlirdi ki, əri nə demək istədiyini özü də qarışdırır, yaxşı anlamır. Təəssüflə ah çəkib söhbəti dəyişmək məqsədilə irəli əyildi və məqaləni stolun üstündən götürüb sərlövhəsinə baxdı. Bayaqkından da təəccüblü bir səslə:

—«Ədəbiyyatımıza yeni istedad gəlir?»— deyə soruşdu. — Məqaləni belə adlandırmısan?

— Bəli!

— Yaxşı, İlham istedad kimi ədəbiyyatımıza gələndə, bəs əsil istedadlarımız hara gedər?

— Səncə, İlham istedad deyil?

— Yox, əsla yox, Salman! Sən belə yazmaqla İlhamı «əsil istedad» eləyə bilməyəcəksən, ancaq özünü rüsvay eləyə bilərsən...

— Nə üçün, Nadirə? Sən elə danışırsan ki...

— Ona görə ki, İlhamın istedadının məhsulu olan bax, bu kitabça, — o, kitabçanı götürüb havada yellədi, — göz qabağındadır. Şerlərinin çoxu orta səviyyəli, bir qismi isə, açığını deyək, çox zəifdir. Bu cür kitab görəndə mən əsəbiləşirəm. Düzü, belə şerlərə soyuqqanlı baxmaq mümkün deyil. Belə zəif kitabların meydana çıxması ancaq və ancaq təəccüb doğura bilər.

— Sənin hər şeyin üstündən çox asanlıqla xətt çəkmək qabiliyyətinə heyranam, Nadirə!

— Mən həqiqəti deyirəm, Salman!

— Sən bir zaman Gülmirə haqqında da bədgümanlıqla danışıb, «həqiqəti» deyirdin.

— Nə oldu? Yalanmı deyirdim? Mən o sözlərimi indi də təkrar eləyə bilərəm.

Salman kinayə ilə güldü:

— Xeyr, indi təkrar eləyə bilməzsən.

— Niyə?

— Çünki o, artıq elmi məhsul verməyə başlayıb. Bu adam,— o gün sənə dedim,— böyük Füzulinin indiyə qədər elm aləminə məlum olmayan avtoqrafını tapıb. Səncə, bu, balaca işdi?! Məncə, bu, böyük kəşfdir! Sonra bu gün ayrı bir məqalə gətirmişdi — dissertasiyasından idi. Heyf burada deyil, idarədədi. Oxudum, ağzım açıla qaldı. Elə gözəl yazıb, elə ağıllı yazıb ki...

Nadirə duruxdu, sonra ağır-ağır dedi:

— Sənin təriflədiyini özüm oxumamış, düzü, dediklərinə inanmaq istəmirəm, Salman!

Bu ağır cavab Salmanın yeddi qatından keçdi. Neçə saniyə söz tapa bilmirmiş kimi, tutqun və yorğun gözlərini arvadının sifətinə zilləyib dayandı. Nadirə onun pərt olduğunu görüb gülümsəməyə çalışdı və şuxluqla əl atıb Salmanın saçlarını qarışdırdı:

— Yaxşı, yaxşı, xətrinə dəyməsin. Söhbətdi eləyirik də. Sən də uşaq kimisən lap...

Salmanın qırışığı azca açıldı:

— Demək, sən İlhamın kitabı haqqında bərk yazmısan, hə?

— Hə, çox bərk! İstər atasının xətrinə dəysin, istər dəyməsin, mən İlhama kömək eləmək istəyirəm. Mən onunla çox söhbət eləmişəm. Əgər o, düzgün istiqamətləndirilsə, doğrudan da, gələcəkdə istedadlı şair ola bilər. Sən onunla bir danış, gör nələr deyir. O özü də bilir ki, yazılarının belə zəif çıxmasının əsas səbəblərindən biri də qəzet-jurnal işçilərinin ona qarşı tələbkarlığının az olmasıdır. Bax, onun kitabını sən də oxumusan, mən də. Gəl, necə deyərlər, əyri oturaq, düz danışaq — ordakı şeylərin çoxu, mən cəsarətlə deyərdim, yarıdan çoxu bizim bugünkü intellektual poeziyamızın səviyyəsindən çox aşağıdır, zəifdir; mən redaktor olsaydım, onları qətiyyən o kitabçaya salmazdım, oxucuların zövqünü korlamazdım.

— Məsələn, hankı şeri? O şerlərdən birini göstərə bilərsənmi?

— Böyük məmnuniyyətlə, Salman. — O, əl atıb Salmanın stolunun üstündəki kitabçanı açıb varəqlədi və bir şerin üstündə barmaq saxladı. — Buyur, elə şerlərdən biri:

> İçimdə bir raket mələdi;
> «Necəsən, dost?»— söylədi.
> Eşitdi yaxın, uzaq—
> Eşitmədim mən ancaq...

— Vəssalam?

— Bəli, vəssalam. İndi buyur, ərz elə görək sən bu dörd misralıq şerdən nə başa düşdün?

Salman yerində qurcuxdu, saçlarını çəngələyib ani fikrə getdikdən sonra:

— Bilirsən, Nadirə xanım, məncə, bu çox dərin, fəlsəfi şerdir. Şair burada demək istəmişdir ki...— o, yenə duruxdu.

— Hə, nə demək istəmişdir?

— Demək istəmişdir ki, indi raketlər əsridir, sürətlə silahlanma əsridir — hər kəsin içində bir raket var və o, mələsə, yəni, atılsa, partlasa, onda, dost, sənin işin necə olar, heç bilirsənmi? O, partlasa «yaxın, uzaq» eşidəcək — yəni bütün dünya eşidəcək.

— Bəs son misranı—«Eşitmədim mən ancaq!»ı necə yozursan?—deyə Nadirə qımışa-qımışa, özünü gülməkdən güclə saxlayaraq xəbər alanda Salman sadəlövhlüklə:

— Bu da o deməkdi ki, raketi birinci atana heç nə olmayacaq, o, salamat qalacaq — yəni, şair demişkən, raketin şaraq-şuruqunu dünya eşitsə də, mən eşitməyəcəyəm, çünki, indi texniki inqilab əsrində ragetlərin sürəti çox böyükdür, mən deyərdim, işığın sürətindən də neçə dəfə çoxdur, mənzili də uzaqdır. Məsələn, Bakıdan atılan raketin Nyu-Yorkda partlamasının zırıltısını sən, mən hardan eşidə bilərik? Görürsən, şairin, dörd misralıq şeri haqqında nə qədər danışmaq olur — hələ istəsən...

— Hələ istəsən iki saat da danışa bilərsən, hə?— deyə Nadirə Gülüşünü içində boğa-boğa sözünü kəsib soruşdu.

—Əlbəttə...

Ancaq artıq Nadirə özünü saxlaya bilmədi, şaqqanaq çəkib güldü. Elə güldü ki, gözləri yaşardı. Salman bu gülüşdən pərt oldu:

— Niyə gülürsən, hıy? Düz demirəm?

— Yox, Salman, əzizim. Sənin dediklərinin bu şerə əsla dəxli yoxdur. Əgər sənin bu dediklərinin azca bir qismi belə burada öz poetik ifadəsini tapsaydı, yenə dərd yarı idi — hələ onu demirəm ki,

sənin dediklərin — daha doğrusu, özündən toqquşdurduqların özü də çox primitiv, poetik yükdən, mənadan məhrum, adi qəzet ifadələridir və şeri bu cür izah eləmək özü də ədəbi savadsızlıqdır — xətrinə dəyməsin, bəli, ədəbi savadsızlıqdır.

— Bəs yaxşı sən necə izah edərsən bu şeri?

— Mən... mən deyərdim ki, bu vəzni, qafiyəsi olan adi söz yığınıdır, oxucunun nə beyninə, nə ürəyinə, hisslərinə heç bir şey vermir, demir. Ərəblər belə (belə də yox, həqiqətən mənası dərində olan) şerlər haqqında yaxşı deyiblər: «Əlməni fibətni şairi»— yəni məna şairin bətnindədir — bacarırsan, axtar, tap...

— Demək, sən İlhamın bu və bu qəbil şerlərində heç bir məna görmürsən, eləmi?

— Yox, Salman. İndi oxucu çox ayıqdır — onu aldatmaq, gözünə kül üfürmək mümkün deyil — sənət meydanına girən və «mən də varam»— deyən oğlan, gərək səviyyəcə ondan heç olmasa bir boy, bir qarış yuxarıda durmalıdır. Yoxsa... yoxsa, gülünc vəziyyətə düşmək olar, qadası! Yaxud bax, bu şerdimi, insafla söylə:

Hayıf, bülbülün dili yoxdu,
Dili olsaydı insalara deyərdi;
Amandı, gülləri məhv etməyin,
Öldürdü məni güllərin dərdi.

Axı bülbül öz ürək yaxan mahnısı ilə bu fikrini, bu təmənnasını, dərdini İlhamdan gözəl deyir — bülbüldən gözəl deyə bilməyəcəksənsə, niyə əlinə qələm alırsan, şair oğlan. Sənət — hər şeydən əvvəl gözəllikdir: həyatdakı gözəlliyin ondan da gözəl və şairanə təcəssümüdür — buna qadirsənsə, buyur yaz — sənət — istər poeziya olsun, istər rəsm olsun, istərsə də musiqi — fərqi yoxdur — həyatdakı gözəllikləri, zərifllikləri olduğundan da qat-qat gözəl göstərməyi bacarmalıdır — məhz bu zaman gözəl, ölməz sənət əsəri yaranır. Nizamidə də belədir, Füzulidə də belədir, sən uşaq deyilsən, sənin

həyat və elmi-təcrübən var, özü də az deyil. Sən bəzən elə primitiv mühakimələr yürüdürsən, istər-istəməz adam, şəxsən mən sənə şübhə ilə baxmağa başlayıram.

Salman pərtliyini gizləmək üçün siqaret yandırdı, tüstüsünü ciyərinə çəkib havaya üfürə-üfürə:

— Nəyimdən şübhələnirsən Nadirə xanım?!— deyə kinayə qarışıq acıqla xəbər aldı.

— Hərdən fikirləşirəm ki,— deyə Nadirə ciddi görkəm aldı — sən «Nəsiminin sənətkarlığı» kitabını necə yazmısan? Düzü, etiraf edirəm ki, o sənin ən gözəl, ən dərin tədqiqat əsərindir — orda böyük bir tədqiqatçı — filoloq zəhməti duyulur — orda elmi mühakimələr gözəldi, dərindi, əsaslıdı. Nəsimi kimi dərya təbiətli, təlatümlü, ziddiyyətli bir şairin yaradıcılığını ondan yaxşı açmaq, təhlil etmək bəlkə də mümkün deyil. Bu da təsadüfi deyil ki, səndən sonra iyirmi il ərzində bu mövzuda yazanların heç biri o səviyyəyə qalxa bilməyib və çətin də qalxa bilsin. Hətta, mən deyərdim ki, sənin «nəsimidən» sonralar yazdığın məqalələr də o səviyyəyə çata bilmir — o kitab bütün nəsimişünasların, tələbələrin, nəsimipərəstlərin stolüstü kitabıdı, Salman. Sən də qu quşu kimi, deyəsən ömründə bircə yaxşı nəğmə oxumusan — o da «Nəsiminin sənətkarlığı»dı. Bəli, sən o kitabla ədəbiyyatşünaslığımızda, xüsusilə nəsimişünaslığımızda elə bir zirvə yaradıbsan ki, indi özün də o zirvəyə altdan yuxarı həsrətlə baxa-baxa qalmısan... Bax, bu barədə düşünəndə məni şübhə caynaqları arasına alır hərdən...

Salman azca əvvəl Nadirənin dilindən «şübhə» sözünü eşidəndə acı istiot udmuş adam kimi içinin istilənib yandığını duymuşdusa da, bunu, bu sözü onun işlətməyini tamamilə təsadüf hesab edib özünü o yerə qoymamışdı.

Ancaq ikinci dəfə arvadı o qorxulu kəlməni ağzından qaçıranda Salmanın içəridə ürəyi titrədi və o, dumanlı, ehtiyatla, sınayıcı nəzərlərlə Nadirəni süzdü və bilmək istədi ki, o bunu nə mənada deyir:

Lakin Nadirə ona baxmırdı, İlhamın kitabçasını vərəqləyirdi — bu, Salmanı toxtatdı, çünki onun xasiyyətini bilirdi — əgər Nadirə «Nəsiminin sənətkarlığı» barədə bir şey bilsəydi, həqiqətən şübhələnmiş olsaydı, heç nədən çəkinmədən, düz gözlərinin içinə söylərdi həqiqəti. «Yox, bilmir!» — deyə Salman özünü təskin edirdi. — «Bilmir! Mən o vaxt nə ağıllı iş görmüşəm, xudaya, sirrimi ona deməmişəm. Afərin sənə, Salman! Bu sənin ən böyük sirrindir — sənin həyatın da, diriliyin də, şöhrətin də bu sirrə bağlıdı, Salman. Bunu bir sən bilirsən, bir də Allah!»— deyə az qala «şübhə» sözündən alt-üst olmuş qəlbini sakitləşdirməyə çalışdı.

Amma yadına düşmüşdü, yadına düşmüşdü ki, iyirmi beş-iyirmi altı il əvvəl, hər gecə özünü Buzovnadakı bağına verib latın əlifbası ilə səliqə ilə yazılmış o sahibsiz əlyazmasını necə hərisliklə, qapı-pəncərəni bağlayaraq ağ vərəqlərə köçürürdü — bu iş təxminən bir ay onun vaxtını aldı, nəhayət, küləkli bir payız axşamı, dənizdən əsən küləyin uğultusunu və dalğaların şaqqıltısını eşidə-eşidə o əl yazmasının kəsilmiş vərəqləri meynə çubuqlarından dilim-dilim alova çevrilib bir neçə an sonra qara külə döndü və külək onları qabağına qatıb harasa, sahibi kimi kola-kosa, daşa-qayaya çırpa-çırpa naməlum səmtə apardı — bu, çoxdan, lap çoxdan olmuşdu, ancaq hər dəfə Salman üstündə öz adı yazılmış o kitabı görəndə, əlinə götürəndə, ya onun haqqında bir söz eşidəndə qeyri-ixtiyari gözlərinin önündə bir tonqal yanırdı və o tonqalın alov dilləri göyə yüksəlirdi, istisi üzünü qarsırdı — üstündən uzun illər keçməsinə baxmayaraq hər dəfə bədəni sehirli —əsrarlı bir odun hərarətindən isinirdisə də ürəyi üşüyürdü.

Nadirə aradakı sükutu pozmasaydı, xəyal Salmanı hələ çox uzaqlara, o əlyazmasının əsil müəllifinin — Mirzə Yanarın yanına, onunla görüşdüyü, həmdəm olduğu günlərə aparacaqdı və onun əzabı bir az da artıq olacaqdı. — Nadirə nəhayət, kitabçanı yerə qoyub özünəməxsus bir təbəssümlə söylədi:

— Bəli, əzizim, o kitaba baxanda sevinirəm, fəxr edirəm, düzü. Amma bəzən elə yazılar yazırsan ki, nə sənin adına, - nə mövqeyinə, nə də şöhrətinə yaraşır, Salman. Bax, mən onda məyus oluram, yaman məyus oluram, Salman...

Salman Mirzə Yanarla bağlı «Xatirələr kitabının» açılmasının qarşısını aldığı, o uzaq illərdən yana-yana gəlib üz-gözünü isindirən o ocağın alovlarını söndürdüyü üçün arvadının bu sözlərindən incisə də, qəlbində bir növ xoşhal oldu, lakin arxasını yerə qoymadı.

— Nə isə, arvad, mən sənin nə elə sevinməyinə, nə belə məyus olmağına o qədər də inanmıram,— dedi.

— İnanmırsan?

— Yox, Nadirə...

Çox soyuq və quru səslənən bu sözlərdən Nadirənin ürəyini qəribə bir kədər hissi çulğadı və neçə illər yastıq, ömür-gün yoldaşı olmuş bu adama təəssüflə baxaraq dərindən köksünü ötürərək söylədi:

— Eh, Salman, Salman. Sən heç vaxt məni başa düşmədin, heç vaxt. Bu məni yaman ağrıdır, Salman!!.

Salman da Nadirəni sancmaqdan özünü saxlaya bilmədi:

— Sən xeyirxah adam deyilsən, Nadirə!

— Xeyirxahlıqla liberallıq,— o, son sözü xüsusi vurğu ilə dedi,— ayrı-ayrı şeylərdir, Salman!..

— Gəl sən daşı tök ətəyindən, Nadirə. O məqaləni qatla qoy yeşiyə; həm atasından ayıbdır, həm də ilk addımını atan bir cavanı öldürmək yaxşı deyil. Niyə Gülürsən, düz demirəm?

— Yox, Salman! Mən onu çap etdirəcəyəm. İlhamın, mən elə bilirəm, acığı gəlməz. Bu cavan öz yazıları haqqında hər cür riyadan, yaltaqlıqdan uzaq söz eşitmək istəyir; acı da olsa, həqiqəti bilmək istəyir. Nə üçün ona düz söz deməyək? Bəlkə doğrudan da o, gələcəkdə yaxşı bir şair olacaq? Mən «bəlkə» deyirəm, çünki sənət sahəsində peyğəmbərlik eləməyi xoşlamıram. Ancaq yaxşı olar ki, sən bu məqalə ilə çıxış etməyəsən, çünki özünü biabır...

— Bəsdir! Sən məni bilmirəm nə hesab edirsən burda? Mən yazmışam, bilirəm də nə yazmışam. Sən öz məqaləni çap elətdir, mən də öz məqaləmi,— deyə səbri tükənmiş Salman səsini qaldırdı.

— Axı, bu yaxşı deyil, Salman!

— Lap yaxşıdır! Qoy hamı bilsin ki, biz bir damın altında ayrı-ayrı hədəflərə atəş açırıq!

— Nə olar, qoy belə olsun!— deyə Nadirə əlini dizinə söykəyib ayağa durdu. — Gecə keçir, yatmaq lazımdır.

...Yanaşı uzanmışdılar. Salman üzünü divara çevirmişdi, Nadirə isə qolunu başının altına qoyub fikrə getmişdi.

## İYİRMİ BİRİNCİ FƏSİL

O, qucağındakı qalın, toz basmış kitabları ömrünü kitabxanada keçirmiş Nigar xanımın yanında ehmallıca yerə qoyub, alnında muncuqlanan tər damcılarını siləndə qadın gödək burnunun az qala lap ucunda güclə bənd alıb qalan eynəyinin üstündən bu nimdaş paltarlı, utancaq oğlana zənlə fikir verdi. Oğlan ona çox tanış gəlirdi; bayaqdan zehnində götür-qoy eləyir, onu harda gördüyünü, yaxud kimə oxşatdığını ayırd eləyə bilmirdi.

Oğlan yarım saatın içində Nigar xanımın yanına iki dəfə kitab — əlyazması gətirdi. Üçüncüsündə arvad burada təzəcə işə başlamış bu oğlanı əyləyib, xırıltılı səslə astadan soruşdu:

— Oğlum, sənin adın nədir?

— Rəhimdir.

Nigar xanım gözlərini qıyıb hafizəsinin, indi çox zəifləmiş yaddaşının səhifələrini vərəqlədi, sonra başını tərpədib təzədən xəbər aldı:

— Kimin oğlusan, a bala? — Nigar xanım astma xəstəliyi olan adamlar təki durduğu yerdəcə tövşüyür, çətin nəfəs alırdı. Başı çoxdan

ağarmış olardı, ancaq, görünür, xına qoyduğuna görə saçları qırmızıya çalırdı.

Rəhim Nigar arvadın xınalı başına baxıb:

— Cahangirin oğluyam,— dedi. Onun səsindəki nisgil Nigar xanımın nəzərindən yayınmadı. O, «hansı Cahangirin?» sualını vermədən:

— Ah, bizim Cahangirin,— dedi. — Səmədzadə Cahangirin!

Rəhim başını aşağı saldı.

— Oy, oy!.. Bayaqdan fikirləşirəm, deyirəm, bu uşaq kimdir? Gözümə elə şirin gəlirdin ki!.. Sən demə, belə... Bizim — Cahangirin. Torpağı sanı yaşayasan, bala. Elə bil, özüsən ki, durubsan. Oğul da ataya bu qədər oxşarmış!..

Nigar xanımın, sevincdənmi, həyəcandanmı, yanları qırışmış gözləri yaşardı. Cahangir Nigar xanımla uzun illər bir yerdə üz-üzə, göz-gözə işləmişdi.

Bir dəfə söz-sözə gəlməmişdilər.

Nigar xanım Cahangirlə işlədiyi illərdə bir şeyə möhkəm inanmışdı: uşaqların hamısı dünyaya mələk kimi saf, günahsız gəlirlər. Amma gedəndə... Cahangir məhz o nadir adamlardan — dünyaya mələk kimi gəlib, mələk təki də gedənlərdən idi.

Bir dəfə,— eh, neçə il bundan qabağın sözüdür,— bir dəfə kiçik, lap kiçik bir hadisə olmuşdu. Nigar xanım isə bu kiçik əhvalatı heç cür unuda bilmirdi.

Fonddan evə kitab verilmir, bunu fondun işçiləri də, oraya gəlib gedənlər də yaxşı bilirlər. İşçilərdən kimsə məzuniyyətə getmişdi, müdiriyyət Cahangiri müvəqqəti o yerə qoymuşdu. Cahangir oxuculara kitab, əlyazması verirdi.

Günlərin birində, oxu zalı bağlananda Cahangir görür ki, bir elmi işçi, — indi o professordu, adı Möhsündür, — əlyazmasından ayrılmaq istəmir, elə hey oxuyur. Rəhmətlik ona yanaşıb deyir ki, vaxtdır, yoldaş, kitabxana bağlanır, iş vaxtı qurtarıb. Möhsün deyir ki,

bilirsiniz, Cahangir, bu kitab mənə elə lazımdı ki, inanın, əgər onu bu gecə oxuyub qurtarmasam, bağrım çatlar. Sizdən çox xahiş edirəm, bunu bir gecəliyə mənə verin. Vaxt nə tez gedir? Mən deyirdim qurtararam.

Cahangir deyir, səhər oxuyarsan. Möhsün cavab verir ki, çox xahiş edirəm, əgər evə vermirsinizsə, qapıları bağlayın, məni qoyun içəridə, səhərəcən oxuyum. Yalvarıram!..

Daha bu Möhsünün sevincinin həddi-hüdudu olar?!

Cahangir naçar qalıb deyir: madam ki bu kitab sənə bu qədər vacibdir, hətta sən gecə də burada qalmağa razısan, apar, nə olacaq, qoy olsun!

Qərəz, kitabı aparır. Səhər tezdən gətirib verəndə tərs kimi fondun müdiri məsələni başa düşür. Bilir ki, Cahangir fondun kitabını evə verib. İndi gəl həngaməyə bax! İclas çağırıldı. Cahangirin məsələsi müzakirə olundu. Müdir bir yandan, işçilər o biri yandan Cahangiri o ki var, danladılar, de ki, deyəsən. Kitab itməmişdi, cırılmamışdı, sadəcə olaraq Cahangir bir elm adamının arzusunu yerinə yetirmişdi...

— Siz atamı tanıyırdız?— deyə Rəhim fikrə getmiş, ötən günlərin xatirələri ilə dumanlanmış gözlərini ona zilləyən Nigar xanımdan xəbər aldı.

— Necə ki tanıyırdın? Necə ki tanıyırdın? Neçə il bir yerdə işləmişik, bala! Bax, o stolu görürsən, o küncdəki stolu deyirəm, zəngli saatın yanındakını.

— Bəli.

— Bax, bu idarəyə girəndən rəhmətə gedənəcən o stol onun olub. Rəhmətlik canlara dəyən adam idi. Artıqtamah, vəzifəpərəst, gözəgirən deyildi.

Nigar xanım danışdıqca Rəhim qəmgin-qəmgin o stola sarı baxırdı. Orada indi iri, sallaq dodaqlı bir kişi oturmuşdu. Rəhim vaxtilə atasının işlədiyi yerdə çalışacağını bilsəydi, bəlkə də razılıq verməzdi. İmtahanları üç gün bundan qabaq qurtarmış, onuncu sinfə

keçmişdi. O, tətil günlərində boş-bekar qalmaq istəmədiyini, işləmək istədiyini anasına söyləmişdi. Sədəf də Nadirədən xahiş eləmişdi ki, Rəhimə iki aylıq babat bir iş düzəltsin. Nadirə elə oradaca üç-dörd tanışa zəng çalmış, axırda əlyazmaları fondunda, «kitabdaşıyan» yeri olduğunu öyrənib Rəhimi ora işə qəbul elətdirmişdi. Sədəf özü Rəhimə qəsdən deməmişdi ki, atan da o idarədə işləyib. Uşağın ürəyini qana döndərməyin nə mənası vardı?!

Nigar xanım Rəhimlə xeyli söhbət elədi, dolanışıqları ilə maraqlandı, anasını xəbər aldı. Demək olar ki, bir saatdan sonra fondun bütün işçiləri təzə kitabdaşıyan oğlanın Cahangir Səmədzadənin oğlu olduğunu bildilər.

Rəhimin zəhmət həyatı belə başlandı.

Lap alt mərtəbədən — on minlərlə kitab, əlyazmaları saxlanan xəzinədən ağır kitabları götürüb pillələrlə yuxarı qalxanda nədənsə Rəhimə elə gəlirdi ki, indi atası haradansa qabağına çıxacaq, oğlunun tərli sifətinə baxıb: «Yoruldun, bala, ver bir az da mən götürüm»,— deyə onun əlindən tutacaq.

İşıqlı, geniş oxu zalına girəndə Rəhim küncdəki stola baxmaya bilmirdi; elə bil, orada ahənrüba vardı, onun baxışlarını, diqqətini ora çəkirdi. Hər dəfə içəri daxil olanda ona elə gəlirdi ki, atasını öz stolunda oturan görəcək. Ancaq atasının əvəzində orada sallaq dodaqlı kişi gözünə dəyəndə ürəyinin dərinliklərindən qopub gələn sızıltılı bir nisgil gözlərini göynədib az qala yaşardırdı. Bu cah-calallı binanın hər qarışında atasını görəcəyi ümidləri boşa çıxdıqca Rəhim təklənir, qüssələnirdi. Cahangir yox idi, Cahangir görünmürdü. Lakin onun köhnə iş yoldaşları Rəhimə həmişə atasını «göstərirdilər»— söhbətlərində, xatirələrində, xeyirxahlıqlarında...

Bir dəfə günortadan sonra Nigar xanım Rəhimə dedi:

— Rəhim, bala, get maaşını al.

— Axı, hələ on altı gündür...

Nigar xanım onun günlərin hesabını apardığına diqqət yetirib gülümsündü, üzü qızardı:

— Hər yarım aydan bir pul alırıq. Bu, avansdır — dedi. — Maaşının yarısını indi alırsan, yarısını da ayın axırında alacaqsan.

Mühasibat otağında ondan əvvəl iki adam dayanmışdı. Onlar siyahıya qol çəkib bir dəstə qırmızı onluq aldılar. Rəhimi tanımayan hesabdar arvad ona işarə ilə:

— Burada niyə durmusan?—deyə xəbər alanda, o, belə sual gözləmədiyindən sıxıldı, çətinliklə:

— Pul...— deyə bildi. Xəzinədar onun adını soruşdu.

— Rəhim Səmədzadə.

— Hə, var, bala.

Rəhim cədvələ qol çəkəndə əli əsirdi. Şax, ətrəngi təkliklər qanovuz paltar kimi işıldayırdı. Rəhim özündən əvvəl pul alanlar təki saymadı, büküb-bürmələyib cibinə qoydu və mühasibat otağından çıxdı.

O bu dəqiqə ancaq anasını düşünürdü: «Evə, birbaş evə! Anamın yanına!...» Cəbrdən imtahan zamanı ən çətin məsələni hamıdan əvvəl həll eləyib qurtaranda da Rəhim eynən belə sevinmişdi. «Sənə qurban olum, ay ana. O gün kostyumu geri qaytaranda sənin xəlvətə çəkilib ağladığını gördüm. Elə bilirsən mən uşağam, heç nə başa düşmürəm? Yox, ana, mən hər şeyi anlayıram: sənin dərdini də, arzularını da başa düşürəm, ana!»— deyə ürəyində danışa-danışa idarədən çıxdı, avtobusa minib evə gəldi.

Ancaq qapını qıfıllı görəndə qanı qaraldı, sevincinin üstünə elə bil su çilədilər: «Yenə onlara gedib...»— deyə məyus halda taxtın üstündə oturdu.

Sədəf axşam saat on birə işləyəndə gəlib çıxdı. Rəhim yatmamışdı. Gözünə yuxumu gedərdi?

— Haradasan, ay ana? Nə gec gəldin?— deyə Rəhim neçə saat intizarla gözlədiyini unudaraq mehriban bir səslə soruşdu.

— Vağzaldan indi gəlib çıxıblar!— deyə Sədəf yaylığını başından açıb taxtın üstünə atdı.

— Vağzaldan?

— Hə, Ceyhunu yola salırdılar. Krıma getdi... Gəliblər, mən qaçmışam, Can bala, yəqin acsan, bu saat...

— Yox, yemişəm, ana!

Sədəf bir az arxayınlaşdı. Ayaqqabısının sol tayını çıxardı, ayağını dizinin üstünə qoyub ovxalamağa başladı:

— Elə bil ayağım şişib.

— Axşamacan ayaq üstəsən, elə olar da.

Ana bir söz demədən ayaqlarını övkələyirdi.

Rəhim idarədən gələndən fikirləşirdi ki, anasını necə sevindirsin, ilk maaşını ona necə versin. Dəqiqələr, saatlar keçdikcə ilk əvvəl ona çox təsirli görünən bu iş adiləşdi, lap adiləşdi. İndi o, sadəcə olaraq, bayaqdan neçə dəfə saydığı pulu anasının qarşısına qoymağı qərara aldı. Elə də elədi:

— Maaş almışam, ama!..

Sədəf o biri ayağını da yerə qoyub qalxdı, addım-addım irəliləyib illərlə bu günün həsrətini çəkmiş adam təki:

— Hanı, — dedi, — Hanı?

— Budur! — Rəhim əl atıb yan cibindən xış-xış xışıldayan manatları anasının ovcuna basdı.

Sədəf pulu görəndə dodaqları əsdi, gözləri alacalanıb doldu. Manatları ovcunda xışmalaya-xışmalaya Rəhimin çiynindən tutub özünə sarı çəkdi, alnından, saçlarından öpdü, öpdü, öpdü...

— Evimə qazanc gətirən balama qurban olum, qurban olum, ay Allah! Kaş, Cahangir sağ olaydı, bu günü gözləri ilə görəydi!..— deyə o özünü saxlaya bilməyib hönkürdü.

Rəhim:

— Daha niyə ağlayırsan, ana,—dedisə də kövrəlməyə bilmədi.

Sədəf Aslan müəllimlə elədiyi söhbətdən sonra ciddi fikirləşmişdi, işləmək məsələsini götür-qoy eləmişdi. İşləmək lazım idi. Bunu Sədəf yaxşı başa düşürdü. Ancaq Nadirə onun, necə deyərlər, qabağını kəsmişdi. Sədəf ki, lap körpəliyindən Nadirənin, «anası» olmuşdu; bacısı indi də onun üçün bir uşaq idi. Alim də olsa, kitab da yazsa, yenə balaca Nadirə idi. Sədəf ha fikirləşdisə Nadirəni o boyda ev-eşikdə tək qoymağa ürəyi gəlmədi. Əgər Nadirə evin biş-düşünü, sil-süpürünü, qonaq-qarasını da öz üzərinə götürsəydi, bəs yazı-pozu necə olardı?! "Bir əldə iki qarpız" məsələsi Sədəfin yadına düşür, bacısının halına yanır, onun işlərinin (Sədəf bilirdi ki, o da böyük müdafiəyə hazırlaşır) bu qızğın vaxtında atıb iş-gücünə əl tutmamaq bacıya, özü də Sədəf kimi bacıya heç yaraşmazdı. Odur ki, bu məsələni hələlik təxirə salıb, yenə həmişə olduğu kimi tezdən Rəhimin çay-çörəyini verəndən sonra, Nadirəgilə gedir, axşam qayıdırdı...

... Həmin gün, işin axırına yaxın, Nigar xanım Rəhimi axtardı. Ancaq Rəhim tapılmadı. «Yəqin, maaşı alıb, sevindiyindən işi-zadı da yadından çıxardıb, evə qaçıb!»— deyə düşünən Nigar xanım qəmli-qəmli gülümsündü və sifariş kağızlarını özü götürüb ağır addımlarla pillələri aşağı endi, kitab gətirməyə getdi.

Səhəri Nigar xanım Rəhimi görəndə:

— Dünən, işin axırında hardaydın, bala?— deyə mehribanlıqla xəbər aldı.

— İşin axırında?— O udqundu. — İşin axırında pulu alıb getdim.

— Yaxşı, bala, bax, bu kitabları apar qoy yerinə, dünən mən özüm gedib gətirmişəm.

Rəhim səhvini indi anlayıb başını aşağı saldı.

## İYİRMİ İKİNCİ FƏSİL

Dağüstü parkda, «Dostluq» restoranının dənizə baxan yay zallarının birinin qabağına xeyli adam toplaşmışdı. Stollar açılmış, naz-nemətlər ortaya düzülmüş, iri güldanlara tər-təzə çiçək dəstələri qoyulmuşdu. Nizaməddin doktorluq müdafiə eləmişdi. İndi o, dostlarını, qələm yoldaşlarını, qohumlarını buraya dəvət edib ziyafət verirdi. Salmanla Nadirə də Nizaməddinin əziz qonaqlarından idi.

Salmanın məclisdə, stol başında sakit, ağzına su alıb oturmaq adəti deyildi. O, mütləq danışmalı, yaxşı bir sağlıq deməli idi. Ancaq bu axşam susurdu.

Nadirə fikir verirdi: Salman az yeyir, çox içirdi. Buna baxmayaraq, kefləndiyi hiss olunmurdu. Nadirə gahdan bir onun dirsəyinə toxunur: «Yaxşı ye, az iç»,— deyə göstərişlər verirdisə də, sanki o heç nə eşitmirdi. Ərini qanıqara görən Nadirə iki-üç dəfə ona sarı əyilib ağzını qulağına tutaraq, astaca soruşdu:

— Sənə nə olub, Salman?

— Heç nə! — deyə, boğuq səslə cavab verdi.

Nadirənin də yediyi-içdiyi canına sinmir, tikə boğazından zorla keçirdi.

Nəhayət, şən, gümrah məclis sona yetdi. Qədəhlər axırıncı dəfə cingildəyib susdu və camaat dağılmağa başladı.

Nadirə Salmanın qoluna girdi. Onlar parkın yaşıl xiyabanlarından keçərək adamlardan lal-dinməz aralandılar. Trolleybus gəldi. Minmədilər.

— Gəzə-gəzə gedək, — deyə Salman ikinci papirosu damağındakının oduna yandırdı.

Gözəl yay gecəsi idi. Göydə tabaq-tabaq ulduz var idi. Sərin dəniz küləyi əsirdi.

— Doğrudan, sənə nə oldu, Salman?— deyə Nadirə indi bu arxayınlıqda Salmanın dərdini ətraflı öyrənmək istədi.

Salman siqarına dərin bir qullab vurdu:

— Atanın üzü ağ olsun, bizi yaxşı tanıtdırır!— deyəndə Nadirə ayaq saxladı. Bir şey başa düşmədiyindən təəccüblə ona baxdı:

— Necə?.. Atam?..

— Hə də, atan!

— Nə olub axı?

Salman qolunu Nadirənin əlindən qoparıb yeridi. Nadirə onun dalınca addımladı.

— Daha bundan böyük nə olsun deyirsən? Bir o qalıb ki, Müseyib mətbuatda elan da verdirsin ki, bəli, professor Salman Qurbanzadə mənim kürəkənimdir. Bir bu qalıb...

— Səndə söz var. Bir əməlli-başlı de görüm nə olub?

Salman papiros kötüyünü hirslə atıb, zəhərli ilan başı əzirmiş kimi ayağı ilə yerə yapışdırdı:

— Bayaq səndən ayrılıb akademikin yanına getmişdim.

— Hə?

— Yanında xeyli adam var idi. Görüşdük, hal-əhval tutduq. O, müzür oğlu Ağəli Şahdağlı da orda idi. Bilirsən ki, mənim də onunla aram yoxdu. İti görüm, qurdu görüm, onu yox. Həmişə də bir-birimizi sancırıq. Sən bilirsən ki, o, zəhər tuluğudur. Naqafil qayıdıb deyəsən ki, ay Salman, mən heç bilmirdim, sənin qayınatan Gəncədə hamballıq eləyirmiş ki! Elə bil, başıma qaynar su tökdülər. Onun bu sözləri məni orda, beş kişinin yanında yerə soxdu. «Onu sən hardan tanıyırsan?» dedim. Başladı da... deyir, vağzalda bir hambal çağırdım, gəldi, yükümü götürdü. Mənə dedi ki, deyəsən, elm adamına oxşayırsan. Dedim, hə. Dedi ki, mənim də kürəkənim professordu. Soruşdum, kimdi? Dedi, Salman Qurbanzadə. Dedim, tanıyıram...— Salman sözünə ara verib:— Bizə Ağəli Şahdağlıynan salam göndərib.

Daha nə gözləyirsən bu kişidən?— deyə kinayə ilə əlavə etdi.

— Mən də deyirəm, görəsən nə olub. Burada nə pis şey var ki, Salman? Səhərdən mən ürəyimi yeyirəm...— Nadirə üstündən dağ

götürülmüş kimi rahat nəfəs aldı. — yediyimizi, içdiyimizi də haram elədin!.. Kişi bir iş eləməyib ki, salam-dua göndərib də...

— Başına dəysin onun salam-duası!— Salman qəzəbini saxlaya bilməyib qışqırdı. Ona elə gəldi ki, Nadirə artıq onu başa düşmür.

— Salman!..— Nadirə də səsini qaldırdı:— Sən mənim atama...

— Podumayeş, böyük adamdır sənin atan, kakoy-nibud nesçastnıy hambal! Hambal adamsan, yükünü daşı, qəpik-quruşunu al, Allahına şükür elə. Yük altında işləyə-işləyə professor kürəkəni olmağı ilə fəxr eləyir. Bah, şey tapıb fəxr eləməyə. Sən mənimlə fəxr eləyirsən, mən isə...

Salman əsəbiləşdiyindən özü hiss eləmədən addımlarını xeyli yeyinlətmiş, arvadından aralanmışdı.

Nadirə onun irəlidə qaralan kölgəsini görüb, səsini eşidir, ancaq nə dediyini başa düşmürdü. Salman getdikcə uzaqlaşır, uzaqlaşırdı...

# İKİNCİ HİSSƏ

## BİRİNCİ FƏSİL

Orxan lap çoxdan — universitet skamyası arxasında oturduğu illərdən Mirzə Cəlilin böyüklüyünə, əzəmətinə, qələminin təkraredilməz şirinliyinə valeh olmuşdu. Onda bu gözəl sənətkara qarşı sönməz bir maraq oyanmışdı. Mirzə Cəlilin əsərləri Orxanın stolüstü kitabı idi. Elə bil, Orxan özü üçün yeni bir aləm, yeni bir qitə kəşf eləmişdi. Gəzdikcə, dərinlərə getdikcə onda yeni-yeni keyfiyyətlər tapır, heyrət və qibtə ilə düşünürdü: «Mirzə Cəlilin yazılarında bir gurultulu cümlə, boğazdan yuxarı deyilmiş bir söz tapa bilməzsən. Yazdıqlarının hamısı sadə, aydın həqiqətlərdi. Amma di gəl, onun kiçicik, lap yarım səhifəlik hekayəsini aç, izah elə... Gör nələr deyib, hansı nəticələrə əl atıb, bu sakitlik və sadəlik altında gör necə sönməz, yaxıcı bir atəş var!..

Bəli, Mirzə Cəlilin hər əsəri haqqında kitab yazmaq olar. Neçə ildir yazırlar, cəmi üç cild əsəri haqqında onlarca kitablar yazılıb. Ancaq o dəryanın bütün inciləri hələ üzə çıxarılmayıb, kəşf edilməyib...»

Orxan belə fikirləşirdi ki, heç vaxt «Mirzə Cəlil öyrənilib qurtardı!» deyilməyəcək, illər ötdükcə o, daha əzəmət və qürurla səslənəcək insanların ürəyinə, əqidəsinə çox şeylər deyəcək.

Mirzə Cəlil otuz ildən artıqdı ki, vəfat eləmişdi. Orxanın müəllimlərindən çoxu onu görmüşdülər, şəxsən tanış olanları da vardı. Lakin nədənsə Orxana elə gəlirdi ki, Mirzə Cəlil çox uzaq illərdə, uzaq əsrlərdə yaşayıb. O nə isə əfsanəvi bir sənətkarı xatırladırdı. Təbiətən az danışan, az gülən o geniş alınlı, nurani sifətli adamın nə böyük ürəyi, nə böyük məramı varmış.

Əlyazmaları fondunun iri, lay pəncərəsinin qabağında oturub, önündəki xırda ərəb əlifbası ilə yazılmış köhnə əlyazmasının sətirləri

üzərində göz gəzdirdikcə Mirzə Cəlilin həyatı Orxanın nəzərində səhnə-səhnə canlanırdı.

O, iki ildən artıqdı ki, Mirzə Cəlil haqqında kitab yazırdı. Bu, o biri elmi yazıları kimi Orxanı yorub usandırmırdı, əksinə, işlədikcə həvəsə gəlir, ləzzət alırdı; sanki özünü yenidən, daha dərindən dərk edirdi.

Son illər Orxan öz elmi işinin sürətini daha da artırmışdı. Keçən həftə məlum olmuşdu ki, bu il Mirzə Cəlilin anadan olmasının yüz illiyini ədəbi ictimaiyyətimiz geniş surətdə bayram edəcək. Bu xoş xəbər Orxanı çox sevindirmişdi. Deməli, bu böyük bayramı Orxan əliboş qarşılamayacaqdı. Düşündükcə gözünün önünə xoş mənzərələr gəlirdi. Budur yubiley günləridir. Camaat məhəbbətlə, ehtiramla təntənəli yığıncağa gəlir. Akademiyanın, yaxud dram teatrının binasında böyük canlanma var.

Foyedə Mirzə Cəlilin iri şəkli, müxtəlif illərdə, müxtəlif dillərdə çıxan kitabları qoyulub. O kitablar arasında Orxanın da əsəri var. Dostlar, tanışlar ondan kitab istəyir, o da sevinc və bəxtiyarlıqla gülümsünə-gülümsünə öz kitabının üstünü yazıb onlara bağışlayır. Alim üçün, qələm sahibi üçün bundan böyük səadət nə ola bilər

Orxan fikrən hesabladı, yubileyə o qədər də çox qalmırdı. Əsərin əl-ayağını yığıb tamamlamaq gərəkdir, makinada yazdırıb müzakirəyə vermək, alim yoldaşların fikirlərini bilmək lazımdır, elə etmək ki, yubileyəcən çıxa bilsin. Professorla gərək bu barədə ayrıca danışasan. Professor eşidəndə ki, Orxan plan işindən kənar əsər yazıb, yəqin, sevinəcək.

Orxan başını qaldırdı. Rəhim küncdəki boş stola baxırdı. Orxan bu qarayanız oğlanı iki il bundan qabaq professorgildə görmüş və öyrənmişdi ki, o, Nadirənin bacısı oğludur. İndi oğlan kənardakı stulda oturub üzünü əlinə söykəyərək işləyənlərə yorğun-yorğun tamaşa edir, nəsə fikirləşirdi.

Qapının ağzında, kataloqların böyründə qoyulmuş iri kəfkirli saat biri vuranda Orxan: «Professorun yanına gedib danışım», — deyə qərara gəldi və Mirzə Cəlilin əlyazmasını ehmal bir hərəkətlə karton qovluğa qoyub bağladı. Ayaqlarının ucunda Nigar xanımın stoluna yanaşıb:

— Nigar xanım, bunu məndən qəbul edin, — dedi. Nigar xanım mehribanlıqla soruşdu:

— Yenə lazım olacaq?

— Bəli.

Orxan fonddan çıxdı.

Bu, nə idi? Küçəni sulamışdılar? Yağış yağmışdı. Orxanın başı əlyazmasına elə qarışmışdı ki, yağış yağdığını da bilməmişdi. Özü də güclü yağış yağıb kəsmişdi. Enli, yaraşıqlı asfalt küçənin hər iki tərəfindən üzüaşağı bulanlıq sular axırdı. Ağacların yarpaqları yuyulub tərtəmiz olmuş, bir az da yaşıllaşmışdı. Küçənin sağındakı ensiz ləklərin, çayır-çəmənin də üstünə mirvari kimi ağ yağış damcıları qonmuşdu, par-par parıldayırdı.

Maşınlar küçə aşağı, küçə yuxarı qıjıltı ilə ötüb gedirdi. Trolleybusun paralel elektrik xəttindən tutan «qoşa dəmir əlləri» üzülüb yana düşmüşdü. Aşağıda, üç yol ayrıcının düz ortasında dayanmış milisioner əlindəki zolaqlı ağacı gah qabağa, gah sağa-sola uzadaraq maşınlara yol göstərirdi. Onun qəti, çevik hərəkətləri gedənlərin diqqətini cəlb etməyə bilmirdi.

Orxan ağır addımlarla yeriyirdi. Ürəyində professora deyəcəyi sözləri götür-qoy eləyirdi.

— Salam, Orxan!

Orxan səksənmiş halda ayaq saxladı, salam verənin Gülmirə olduğunu biləndə sevindi:

— Bağışla, görmədim, — deyə o, günahkar adamlar təki üzr istədi. — Necəsən?

— Yaxşıyam, Orxan, çox sağ ol.

— Bu gün səni görməmişəm. Elə bilirəm...

— Elə bilirsən çoxdandır görmürsən, hə?

Orxan başını asta-asta tərpətdi.

Gülmirə hər dəfə Orxanla rastlaşanda onun halında bir dəyişiklik əmələ gəldiyini xeyli vardır ki, hiss eləmişdi. Qıza elə gəlirdi ki, onunla rastlaşmayanda Orxan daha sakit, daha qayğısız olur. Ona görə də Gülmirə tez-tez görüşüb, Orxana əzab vermək istəmirdi. Ancaq Gülmirə yanılırdı; əksinə, Orxan onu görməyəndə daha çox darıxır, qəmlənirdi. İki gün bundan qabaq Gülmirənin həyatında özünün də gözləmədiyi bir hadisə baş vermişdi: mərkəzi qəzetlərin birində onun Füzulinin avtoqrafı barədə yazdığı məqalə çap edilmiş, elmi işçilər arasında böyük çaxnaşmaya, söhbətə səbəb olmuşdu. Hamı bunu gənc elmi işçinin böyük müvəffəqiyyəti sayır, onu təbrik eləyirdi.

— Balam sən ki, beləymişsən, indiyəcən niyə susurdun?

— İndi zəmanə kəşflər, ixtiralar zəmanəsidi. — Gülmirə bu yolnan getməyi üstün tutur, — deyənlər çox idi.

Həmin gün Salman Qurbanzadə şöbəsinin işçiləri qarşısında onu səmimiyyətlə, hərarətlə təbrik eləmişdi:

—Bax, belə etmək lazımdır. Ancaq belə! İndiyə qədər deyilmiş məlum şeyləri təzədən yoğurub-yapıb oxucuya vermək lazım deyil. İndi təzə söz demək lazımdı. Gülmirənin bugünkü müvəffəqiyyəti bizim hamımızı sevindirdi. Bu bizim müvəffəqiyyətimizdi, institutumuzun müvəffəqiyyətidi.

Gülmirə başını aşağı salıb pörtmüşdü. Qulaqları guruldayır, ürəyinin döyüntüsünü özü eşidirdi. Cəfər arxadan, şəhadət barmağını qaldırıb iki kəlmə demək üçün professordan icazə istəyəndə onun ürəyi üzülüb ayağının altına düşdü. Azca qalmışdı ki, o durub qışqıra-qışqıra bütün həqiqəti açıb desin, özü də ağlaya-ağlaya şöbəni tərk eləsin və bir də buraya ömürlük ayaq basmasın. Az qalmışdı. Amma dözümü çatdı. Cəfərin dediyi sözlər onu toxtatdı, bu fikrindən daşındırdı:

— Mən təkcə bircə cəhəti qeyd etmək istəyirəm; o da bizim qələm yoldaşlarımızın təvazökarlığıdı. O avtoqrafı mən də görmüşdüm, demək olar ki, elə həmin gün özümü saxlaya bilməyib az qala bütün aləmə car çəkmişdim. Amma o bu əl xəttini məndən neçə ay qabaq görüb məqalə də yazdığı halda ağzına su alıb susmuşdu. Elmə belə səbirli və təvazökar adamlar xeyir verə bilər. Yeri gəlmişkən onu da deyim ki, Salman müəllim bu məqaləni öz seyfində çox saxlamaqla düzgün iş görməyib. Belə şeyləri seyfdə aylarla saxlamaq nə dərəcədə bizim elmimizin, mədəniyyətimizin xeyrinədi?! Gələcəkdə belə hallara yol vermək lazım deyil.

Professor ürəyində ona: «Demaqoq! — dedi. — Mən bilirəm kimin başına papaq qoymaq lazımdır. Yaxşı eləmişəm, sənə hələ bu da azdır». Sonra kinayə ilə:

— Sənin bu göstərişini nəzərə alarıq, yoldaş Cəfər, — deyib fısıltı ilə şöbədən çıxdı.

Orxan isə yaxın gəlib Gülmirənin ağ, xırda əlini hərarətlə sıxdı, daxili bir əzabın kölgələri gəzişən gözlərinin içinə baxıb:

— Təbrik edirəm, — dedi, — Gülü!

— Sağ ol, — deyə Gülmirə udquna-udquna cavab verdi.

İndi kənar söz-söhbətə yol verməmək üçün Gülmirə, sıxıla-sıxıla olsa da dilləndi:

— Məqaləni aparıb professora verdim.

— Hə? — deyə Orxan özünü ələ alıb diqqətini cəmləməyə çalışdı, — Oxuyur, ya hələ deyir ki, vaxtım yoxdur?

— Oxuyub. O gün məni çağırdı yanına, bir təriflədi, bir təriflədi ki!.. Deyir, bu məqalə birincidən də çox səs salacaq.

— Doğrudan? — Orxan sevinclə səsləndi.

— Vallah! Yaman xoşuna gəlib. O təriflədikcə, düzü, mən puçur-puçur tər tökürdüm, Orxan.

— Niyə axı?

Gülmirə böyük günah iş tutmuş adamsayağı dedi:

— Nə bilim... — O, azca susub əlavə elədi: — Onun bütün yaxşı sözlərini sənin ayağına yazırdım, Orxan. Orxan başını buladı:

— O dəfə sənə nə dedim? Bir də bu barədə danışma. Danışsan, inciyərəm səndən. Yaxşı?

— Yaxşı... Professorun danışığından belə başa düşdüm ki, bu cür məqalə yazacağımı tək o yox, başqaları da gözləmirmiş. Kişi çox sevinirdi. Deyirdi ki, sənin dissertasiyandan daha tamam-kamal arxayın oldum. O belə dedikcə mən də ürəyimdə...

— Ürəyində heç nə demə, Gülmirə! — deyə Orxan onun sözünü yarımçıq kəsdi. — Dissertasiyanı yazacaqsan da, müdafiə edəcəksən də... Adam gərək özünə inansın, Gülmirə!

— İnana bilmirəm, Orxan.

— İnan, Gülmirə, inan!

Orxanın belə ürək-dirək verməsi Gülmirəni içəridən gəmirən ümidsizlik, inamsızlıq məngənəsinin əzabverici ağrısından, müvəqqəti də olsa, xilas eləyirdi. Günlər, həftələr keçdikcə qız Orxanın ona nə qədər böyük köməklik göstərdiyini anlayır və bu hörmət, yaxşılıq müqabilində özünün həmişə borclu qalacağını düşünüb kədərlənirdi. Bu məqalə indilikdə Gülmirəyə, onun elmi qabilliyyətinə şübhə ilə baxanlara çox tutarlı cavab idi: «Nə yaxşı ki, adamı tək-tənha xəlvət bir otağa salıb, qabağına qələm-kağız qoymur, öz elmi qabiliyyətini göstər!» — demirlər. Deyəsən, hansı əsrdəsə, hansı padşahsa belə elətdirirmiş. Əsl alimi, əsl şairi tanımaq, qiymətləndirmək üçün belə elətdirirmiş. İndi insanlara çox inanırlar».

Gülmirə bundan sevinən kimi oldu: «Qoy Əqdəm gəlsin, ona hər şeyi deyəcəyəm, Salman əmi də, Orxan da mənə çox hörmət eləyiblər. Əlimdən tutub, dar günümün dostu olublar, — deyə Gülmirə sadəliklə düşünür, azca sonra öz-özünə etiraz eləyirdi: — Yox, mən nə danışıram? Mənə inanmayanların ən birincisi elə o özüdür. Mən desəm ki, məsələ belədir, qırğın qopar: «Gərək hökmən alim olasan?!

Nə vacibdir, belə alim olmaq?!» — deyər. Yox, heç kəs bilməməlidir. Heç kəs!..»

## İKİNCİ FƏSİL

Salman Qurbanzadə papirosun kötüyünü külqabıya basıb söndürmüşdü ki, telefon haray-həşir qopardı. Professor ciyərlərinə sümürdüyü tüstünü havaya üfürüb dəstəyi götürdü:

— Bəli, eşidirəm... Mənəm, Salmandı...

— Ya Allah, Salman, necəsən ay kişi? — deyən, yorğun səsi Salman «ay kişi» sözündən o saat tanıdı. Bu, yaradıcılıq təşkilatının katibi Biləndər idi. Tay-tuş idilər, bir zamanlar yoldaşlıq da eləmişdilər.

— Sağ ol, yaxşıyam, ay Biləndər. Sənin kefin, halın, işin, gücün?

— Lap əla, Salman. Uşaqlar-zad necədir?

— Yaxşıdırlar. Səndən nə əcəb, ay Biləndər?

— Bilirsən, Salman, mənə sizin o Orxan lazımdı.

— Orxan? — Professor qeyri-iradi olaraq «Orxan» sözünü elə tələffüz elədi ki, eşidən təəccüblənməyə bilməzdi.

— O, gərək ki, sənin şöbəndədi, eləmi?

— Hə, mənim tələbəmdi, necə məgər?

— Bilirsən, bizim bu yaxınlarda plenumumuz olacaq, yoldaşlarnan belə məsləhət eləmişik ki, dramaturgiya haqqında məruzəni ona tapşıraq. O oğlan mənim çox xoşuma gəlir. Yazılarını izləyirəm. Ağıllı, müstəqil fikirləri məni valeh edir.

— Ona mən etiraz eləmirəm, ancaq daha yaxşı olmazdı ki, bu məruzəni təcrübəli, bişmiş, görüb-götürmüş bir adama tapşıraydınız?..

— Həmişə belə eləmişik, Salman. Bu dəfə istəyirik sözü gənclərə verək. Görək onlar nə deyirlər, onlar necə düşünürlər?

Salman ağlına gəlmiş fikrin parıltısı ilə gümrahlaşdı:

— Bir məsələ var ki, Orxan elmi ezamiyyətə gedir.

— Elmi ezamiyyətə? Sonra gedəndə nə olar, canım?

— Yox, bu elə işdi ki, təxirə salmaq olmaz, Biləndər. Bizim şöbənin işi elədir ki, o bu səfərə getməsə... çətin olar, çox çətin!.. — Salman ağlına gələn bu fikirdən möhkəm yapışıb vəziyyəti elə təsvir edirdi ki, guya şöbənin bütün işi Orxanın bu səfərindən asılıdır. Mən çox təəssüf edirəm ki, pis vaxta düşüb... yoxsa Orxan bu işin öhdəsindən, cavan olmasına baxmayaraq, çox yaxşı gələ bilərdi. Tələbə mənimdir, işçi mənimdir, qabiliyyətinə bələdəm, heyif!..

Biləndər məyus olmuşdu:

— Bəlkə, ay Salman, bir az bu ezamiyyəti təxirə salasan?

— Canım üçün əgər mümkün olsaydı, müzayiqə eləməzdim. Kişi lap yol üstədir.

— Daha neyləyək, onda gərək başqasına tapşıraq.

Biləndər: «Sağ ol!» — deyib xudahafizləşdi. Salman sol əlini irəli uzadıb barmağını telefonun düyməsinə basdı, dəstəyi bir xeyli qulağının dibində saxladıqdan sonra şaqqıltı ilə yerinə çırpdı:

«Ağzından süd iyi gələn uşağa plenumda məruzə tapşırmaq istəyirlər. Bunlar da qəribə olublar. Yekə-yekə alimlər, professorlar, yazıçılar qalıb bir yana, yumurtadan dünən çıxan cücəyə başqalarına cip-cip öyrətməyi tapşırırlar. Zəmanə xarab olur gedir. Cavanlar, hər yerdə cavanlar. Balam, bəs biz gedək özümüzü öldürək ki, cavanlar var?! Hələ onların bilmədikləri, öyrənməli olduqları şey çoxdur, çox-çoxdur!.. — Salman bir müddət beləcə fikirləşdi, yaxşı bir yalan uydurduğuna görə özündən razı halda gülümsədi: — O, plenumda məruzə eləyəndən sonra gəl indi dayan qabağında görüm, necə dayanırsan? Zarafat deyil o plenumda məruzə eləmək. Neçə ildir mən bu ədəbiyyatın yolunda sümük sındırıram, bir kişi olmayıb ki, gəlib desin, ay Salman, gəl sən bizim plenumda filan şey barədə məruzə elə. Deyən olmayıb. Adamı bu ağrıdır. Qarnım üçün deyiləm ey, qədrim üçünəm».

Bir azdan Salmanın beyni aydınlaşdı və o, dediyi yalandan özü də xoflanıb ayağa qalxdı. Otaqda var-gəl eləməyə başladı: «Bəs necə olsun? Gərək Orxan bir yana çıxıb getsin, yoxsa mənim yalanım çıxa bilər. Orxan özü bilsə, onda nə fikirləşər mənim haqqımda? Yox, Orxan getməlidir! Mütləq harasa, ezamiyyətə getməlidir!..»

Professor bir papiros yandırdı: «Bu, asandır. Sabah bir ezamiyyət vərəqəsi, bir əmrdir onun canı. Qoy getsin Moskvaya, Leninqrada... yaxud özü hara istəyir, ora. Bəlkə heç getmək istəmədi? Şöbənin tapşırığıdır, vəssalam! Nə deyib getməz?! Ancaq tez, lap tez həll etmək lazımdır bunu!..»

Kabinetin qapısı aralandı. Qapının ağzında Orxan göründü:

— Gəl içəri, gəl, — deyə professor əlinin işarəsi ilə onu çağırdı. — Otur.

Orxan keçib əyləşdi. Salman Qurbanzadə mehribanlıq göstərdi:

— Hə, de görək işin necədir, Orxan?

— Yaxşıdır, professor.

— Olsun, olsun. Mən həmişə istəmişəm ki, sənin işin yaxşı olsun.

— Çox sağ ol, professor. Mən də çalışmışam və ömrüm boyu da çalışacağam ki, sizin başınızı uca eləyim.

Professorun ürəyi:

«Yalansa çəkdiyim zəhmətlər burnundan gəlsin. Sən mənim başımı uca eləmək yox, yerə salmaq istəyirsən!»

Professorun dili:

— Çox sağ ol, Orxan. Orxan:

— Mən istəyirəm sizi sevindirəm, professor, — deyə bu açıq, səmimi söhbətdən ürəklənib əsl mətləbin üstünə gəldi.

Professor pırpız qaşlarını yuxarı dartdı:

— Nəynən?

— Professor, — deyə Orxan izah elədi, — mən iki ildir ki, Mirzə Cəlil haqqında bir şey yazıram. — Həmişəki adəti üzrə Orxan öz yazdığına yenə «əsər» demədi.

— Mirzə Cəlildən? — Professor fikrə getdi və gözlərini qıyıb Orxanın iri alnına, çatma qaşları altında qaynar bir gənclik atəşi ilə parlayan gözlərinə diqqətlə baxdı: «Od-alovdur bu gədə».

— Bəli, Mirzə Cəlildən, professor. Mən onu çox sevirəm.

Professor bir papiros da yandırdı:

— Ancaq zor işə girişmisən ha!..

— Bilirəm. Amma ləzzət ala-ala yazmışam, professor.

Professor durub gəzindi. Pəncərənin ağzına gəlib İçərişəhərin diş-diş hasarına baxdı. Daşın üstünə bir ağ göyərçin qonub qanadının altını dimdikləyir, özünü günə verirdi. Salmanın gözləri qarşısında acılan mənzərə onun düşüncəsinə bir işıq gətirdi. Elə bil o, bayaq dolaşdırdığı düyünü açmağın çəmini tapdı. Sevincək geri döndü:

— Səni təbrik eləyirəm! Yazmısan, əcəb eləmisən, mübarəkdi! Bizdən qalan ancaq əsər olacaq. Şair yaxşı deyib:

«Dünyada hər zaman yaradan qalır!..»

—Əsəri qurtarmışam. Özü də yerinə düşəcək, professor. Mirzə Cəlilin yubileyi gəlir. Ona bizim institun hədiyyəsi ola bilər.

— Bəli, çox yerinə düşər. — Professor ağır-ağır əlavə etdi: — Kaş, bizim işçilərin hamısı sənin kimi eləyəydi. Gətirib stolun üstünə əsər qoyaydılar, deyəydilər, bax, yazmışıq, buyur, professor, çap elətdir.

Orxan sevinc içində idi. Professor cavan oğlanın fərəhdən alışıb-yanan çöhrəsinə fikir verib onu bir az da şadlandırmaq istədi:

— Sən məni sevindirdin, Orxan. İndi icazə ver, mən də səni muştuluqlayım. Orxan dikəldi.

— Bəli, muştuluqlayım, — deyə Salman təkrar etdi.

— Dünən mənim Tiflisdəki dostlarımdan biri zəng eləmişdi bura. Sən yaxşı bilirsən ki, Mirzə Cəlilin fəaliyyətinin ilk dövrü Tiflis mühiti ilə bağlı olub. Bəli, Gürcüstanın arxivlərində Cəlil Məmmədquluzadənin haqqında çoxlu materiallar var.

— Onları bilirəm.

Professor Orxanın bu sözlərindən alındısa da, arxasını yerə qoymadı:

— Yox, mən deyənlərdən xəbərin yoxdur, Orxan. Bunlar hamısı təzə sənədlərdir, təzə tapılıb. Gürcü dostum mənə deyəndə elə sevinmişəm ki, telefonda demişəm: öpürəm səni, qatso! Fikirləşirdim ki, kimi göndərim gedib o xəzinənin üzünü çıxarıb gətirsin. Bilirsən o sənədlər nə qədər qaranlıq mətləbi aydınlaşdıracaq?!

Tədqiqat işində sənədin nə qədər böyük əhəmiyyətə malik olduğunu yaxşı bilən Orxan professorun bu xəbərindən doğrudan da sevindi:

— Mən gedərəm, professor! — deyib ayağa qalxdı.

—«Mən gedərəm» uzaqdır, sən sabah çıxmalısan, Orxan! Madam ki, Mirzə Cəlildən əsər yazmısan, o sənədlərsiz sənin əsərin o qədər də faydalı olmaz. Get, gətir, deyim, hə! Yoxsa məlum şeyləri çeynəmək, təzədən yazmaq kimə və nəyə lazımdır axı?!

Orxan yenə istədi ki, etiraz eləsin. İstədi desin ki, mənim yazımda təzə məlumatlar çoxdur. Ancaq nədənsə bu fikirdən vaz keçdi. Yalnız bir sözlə kifayətləndi:

— Elədir.

— Bu saat elə vaxt itirmədən ərizə yaz, sənə bir aylıq ezamiyyət verək, get Tiflisə.

— Bir ay çox olar, professor. Yubileyə az qalır, onacan kitabı çap elətdirmək lazımdır. Yoxsa toydan sonra nağara məsələsi kimi... ləzzəti olmaz.

— Sən işində ol. Onun çapı mənim boynuma.

— Sağ ol, professor. Onda mən hazırlaşım?

— Bəli, əlbəttə!..

Orxan kabinetdən çıxanda professor üstündən dağ getürülmüş təki dərindən nəfəs aldı.

## ÜÇÜNCÜ FƏSİL

«15 avqust 196...-cı il»

Kənardan baxanların hamısı məni xoşbəxt sayır. Buna haqları da var. Mənim indi zahirən bir xoşbəxt qadın üçün lazım olan hər şeyim var. Evim, eşiyim, uşağım... Pul dərdi çəkmirəm, yemək, paltar dərdi çəkmirəm. Ancaq mən xoşbəxtəmmi? Son vaxtlara qədər bu suala: «hə, mən xoşbəxtəm!» — deyə ürəkdən cavab verərdim. Bu xoşbəxtlik mənim gülüşümdə də, rəftarımda da hiss olunurdu. Buna mənim özümdən daha çox bacım Sədəf sevinirdi. Axı, o mənim tək bacım yox, həm də anam olub. Mənim üstümdə çox əzab-əziyyət çəkib. Anamızın vəfatından sonra mən olmasaydım, kim bilir, bəlkə Sədəf də oxuyub bir yana çıxmışdı. Ancaq o, təhsilini də, xoşbəxtliyini də mənə qurban verdi. Ovcumun içi kimi bilirəm ki, Sədəf mənim xoşbəxtliyimə ana təki fərəhlənir. Əgər anam sağ olsaydı, yəqin, o da eynən Sədəf bacım kimi sevinərdi.

Lakin indi... indi mənim özümə xoşbəxt deməyə dilim gəlmir. Nəsə o xoşbəxtliyin üstünü qara, xoşagəlməz, ürəksıxan bir kölgə almaqdadır. O kölgə məni qorxudur, yayın bu istisində üşüdür, özümü çox pis hiss eləyirəm.

Mən təhqir olunmuşam. Qonaqlıqdan qayıdanda, gecənin qaranlığında Salmanın rişxəndlə dediyi: «Padumayeş, böyük adamdır sənin atan, kakoy-nibud nesçastnıy hambal!..» sözləri heç yadımdan çıxmır, elə hey qulaqlarımda səslənib ürəyimi məngənə kimi sıxır, sıxır. Bəlkə kefli idi, elə dedi? Bəlkə o mürtəd oğlu Ağəli Şahdağlının adamların yanında: «Sənin qaynatan hambaldır» deməsi Salmanın

şəstinə dəyib?. Axı, burada nə qəbahət var? Hamı alim, müəllim olmaz ki? Necə olur Salman belə adi şeyləri düşünmür? Bəlkə Salman mənim atamı daha özünə, öz ad-sanına yaraşdırmır?

Üç gün onu dindirmədim. Ürəyim elə sınmışdı ki. Heç bir şey olmayıbmış kimi, soruşdu ki, sənə nə olub, niyə qanın qaradır?

— Niyə də olmasın? —dedim, — Hambal atamın dərdini çəkirəm də. Güldü.

— Mən sənin yerinə xəcalət çəkirəm, Salman! — dedim. — Sən isə gülürsən.

Ciddiləşdi:

— Mənim hirslənməyə haqqım var, Nadirə, — dedi. — Axı ona nə vacib düşüb ki, hər itə-qurda: «Professor filankəs mənim qohumumdur» deyir. Öz aramızdır, kişi şöhrətpərəstlik eləyir, deyəsən.

— O yazıq nə bilsin ki, sənin o demaqoqla aran yoxdur. Salam göndərib də...

— Salamı bir barmaq kağızla göndərsəydi, daha yaxşı düşərdi.

— Mən elə bilirəm, burda söhbət qayınatanın hambal olması üstündədir, Salman. Açıq danışaq, bunun üstündədir.

Sükut.

— O, əvvəl də yükçü idi. Onu sən elə o vədə bilirdin. Atamın yükçü olduğunu bildiyin vaxt dediyin sözlər yadından çıxıb? İndi professor olmusan, ad-san qazanmısan.

— Sən hələ məni başa düşməzsən, Nadirə, — deyə o, sakitcə ah çəkdi. — Elə bir gün gələcək ki, sən özün atanın yükçü olduğundan xəcalət çəkəcəksən.

Mən o biri otağa keçdim və üzüstə çarpayıya düşüb hönkür-hönkür ağladım. O isə:

— Ağla, ürəyin boşalsın! — deyib getdi. O ki var, ağladım.

Sədəf gələndə gözlərimi qızarmış görüb təəccübləndi:

— Sənə nə olub, bacı? Niyə ağlamısan?

Əlbəttə, mən ona hər şeyi açıb deyə bilərdim. Ancaq bunu eləmədim. Onun dərdinin üstünə dərd qoymağın nə mənası var?! Sədəf bacım bu məsələni bəlkə heç bir dəfə də olsa ürəyinə gətirməyib? Nə üçün ürəyinə xal salım, axı?

Mən Sədəfin yalvarışlarına, and-aman verməyinə baxmayaraq, əsl mətləbi demədim. Ayrı, işimlə əlaqədar bir şey uydurub onu sakitləşdirdim.

Ay mənim ürəyi təmiz bacım, hər şey sənin düşündüyün kimi sadə deyil. Mən indi səni necə başa salım ki, bir damın altında uyuşmaz, barışmaz iki dünya yaşayır. Necə başa salım, bacım?».

Nadirə qələmi yerə qoydu, özündə bir yüngüllük duydu, ürəyinin yükünü, dərdini gündəliyinin sinəsinə boşaltmışdı.

## DÖRDÜNCÜ FƏSİL

Şirin arvad stolun üstündə şüyüd doğrayırdı. Şüyüdün xoş iyi divanda oturub anasının əllərinə baxan Orxana ləzzət eləyirdi. Orxan qəsəbədə, öz evlərində olanda göy-göyərtisiz süfrə başına gəlməzdi. Bir də görərdin əlinə bir parça çörək götürüb şüyüd, vəzəri ya da keşniş ləkinin qırağında oturar, ürəyi istədiyindən qoparıb şirin-şirin yeyərdi.

Anası kasaya qatıq tökdü, duz atıb qaşıqla qarışdırdı. İki dəqiqə sonra Orxanın ürəyi istədiyi ovduq hazır oldu.

Ana oğlunu səslədi:

— Hə, indi gəl ye.

Orxan qalxıb stola yaxın gəldi, əyləşdi. Şitinə-şoruna baxıb:

— Bəh, bəh!.. — dedi. — canım ovduq, gözüm ovduq. Yayın ən ləziz xörəyi budu da!..

— Fərri şey tapıbsan sən də, —deyə Şirin arvad dilləndi.

— Vallah, yayda səhər də, günorta da, axşam da ovduq verələr, elə ləzzətnən yeyərəm ki!..

— Ürəyini sıyırıb aparar, bala. Qüvvəli şey ye ki, canın-başın salamat olsun.

Orxan iştahla yeyir, hərdənbir anasına da göz qoyur, onun səliqə-səhmanına fikir verirdi. Şirin arvad Orxan üçün yol tədarükü gördü. Ana bayaq ütüləyib çarpayının başına asdığı ağ, kraxmallı iki köynəyi qatlayıb çamadana qoydu. Orxan əl-üz sabununu, dəsmalını, diş fırçasını və üzqırxan maşınını da götürməyi unutmadı.

— Bu işləri mən görməli deyiləm, ay bala, — deyə istidən və əyilib düzəlməkdən üz-gözündən puçur-puçur tər axan Şirin arvad dikəlib əlini belinə vuraraq tövşüdü.

— Düz deyirsən, ana, bu işləri mən özüm görməliyəm. Sən gəlib çıxmasaydın, elə özüm də...

— Yox ey, bala, mən elə demirəm ki, yəni deyirəm, bu işləri gəlinim görməlidi.

Orxan anasının sarı simə vurduğunu bayaqdan başa düşmüşdü, ancaq özünü o yerə qoymaq istəmirdi. Anası açıqca «gəlinim» deyəndə Orxan gülümsündü:

— Məndən çox sən darıxırsan, ay ana. Evlənəcəm də, qocalmamışam, qarımamışam.

— Bəs haçan, ay oğul? Sənin tayların oğul-uşaq sahibidi, sən hələ subay-salıq gəzirsən.

— Eh, ay ana!.. — deyə Orxan köksünü ötürdü və ürəyində: «Sənin oğlunun gözləri çoxdan tutulub, sənin gəlinin ola biləsi adam indi özgənin çırağını yandırır», — dedi. Gülmirə yenə yadına düşdü. Ürəyi qəribə bir sıxıntı ilə çırpındı. Ovduğu axıra qədər yeməyib qaşığı kasaya söykədi. Bu Tiflis məsələsi hayandan çıxdı? Orxan şəhərdən heç ayrılmaq istəmirdi. Gülmirəni düz bir ay görməyəcəkdi. Düz bir ay. Gör neçə gün eləyir?! Buna Orxan dözə biləcəkdimi? Anası yenə gül gətirmişdi. Orxan bu axşam yola düşməsəydi, səhər

həmin gülləri idarəyə aparacaqdı, Gülmirəyə verəcəkdi. Nadirənin də stolunun üstünə bir gül qoyacaqdı. Amma təəssüf, min təəssüf!

Orxan ayağa durub o biri otağa keçdi. Gülmirənin telefon nömrəsini yığdı. Nədənsə ona elə gəldi ki, ürəyi atlanıb sinəsindən çıxacaq. Yaxşı ki, Gülmirə telefona cavab vermədi, yoxsa o, qızla heç danışa bilməyəcəkdi.

Gün əyilənəcən Şirin arvad oğlunun evində hərləndi, yır-yığış elədi. Balkona kölgə düşən vaxt gəlib oğlunun qabağında dayandı:

— Yaxşı, bayaq ötəri dedin, yaxşı yadımda qalmadı, sən Tiflisə gedirsən, hə?

Orxan güldü. Bildi ki, anası yadında lap yaxşı saxlayıb. İndi də evdəkilərə Orxanın hara, nə üçün getdiyini yerli-yataqlı xəbər verməkdən ötrü bunu təkrar soruşur.

— Elədir ki, var, ay ana.

— Yaxşı, deyirsən orda nəmənə tapılıb?

— Xəzinə, ay ana, xəzinə!..

— Hə, hə, bildim. Sizin xəzinəniz kağız-kuğuz olar, başqa bir şey olmaz.

— Dünyada bu kağız-kuğuzdan böyük xəzinə yoxdur, ana. Ona sən inan.

— Nə deyirəm, ay bala, — Şirin arvad çiyinlərini çəkib seyrək qaşlarını dartdı. — Bizim vaxtımızda xəzinə mal-dövlət idi, sizin də vaxtınızda kağız-kuğuz.

— Hə, zamanə belədir, ana.

Şirin arvad oğlunu bağrına basıb öpdü:

— Yaxşı yol, bala. Özündən muğayat ol. Yeməyinə, içməyinə fikir ver. hirslənib eləmə, dərdin ürəyimə. Dünyanın işi dünyada qalandı.

Orxan başını yüngülcə tərpətməklə anasının dediklərinə cavab verirdi. Şirin arvad, nəhayət, zənbilini götürüb çıxdı.

— Atama, bacılarıma salam de, ana.

— Baş üstə.

Pilləkənlərin başında Orxan anasını səslədi:

— Ay ana, heç demədin Tiflisdən sənin üçün nə alım gətirim?

— Heç nə, ay bala. Sağ get, salamat qayıt, elə bu mənim üçün hər şeyə dəyər, oğul. Sağ ol, yaxşı sədanı eşidim, mənim bəsimdi, — deyə-deyə ana pillələri endi.

Qapı örtüldü.

Ana getdi, elə bil, ev tamam boşaldı. Təklik dəhşətli şeymiş. Orxan bunu indiki kimi dərindən dərk etməmişdi. Kimdənsə, nə zamansa eşitdiyi bir cümlə yadına düşdü: «Adam kimi yaşayıb it kimi ölmək istəyirsənsə subay gəz». Subaylıq, doğrudan da, heç adam kimi yaşamaq deyilmiş. Subaylığın özünə görə böyük dərdi-səri varmış. Ən böyüyü isə yalqızlıqdır. Birdən Orxana elə gəldi ki, əgər Gülmirə ilə, heç olmasa, telefonla danışmasa özünü ağlamaqdan çətin saxlaya biləcək.

Gülmirə evdə idi, yatmışdı, telefonun cingiltili səsini eşitmirdi. O, bazardan gəlib çörəyini yemiş, elə geyincəkli halda çarpayıya uzanmışdı. Əllərini sinəsində çarpazlaşdırmışdı, uzun kirpikləri elə bil, gözünün altına yapışmışdı. Nazik dodaqları azca aralanmışdı. Sağ qıçı çarpayıdan aşağı sallanırdı.

O, yuxu görürdü: günəşli gündür. Gülmirə laləli bir çəməndə gəzir. Bu zaman aşağıdan, lap onun başı üstündən bir təyyarə uçur. Bu, Əqdəmin təyyarəsidir. Onun nəhəng kölgəsi Gülmirənin üzünə düşür. Qəribədir, təyyarə, güllə sürəti ilə uçan təyyarə indi o qədər yavaş uçur ki, Gülmirə onunla ayaqlaşır:

—Əqdəm, ay Əqdəm.

—…

— En aşağı, Əqdəm. Sənin üçün lalə dərmişəm, gəl, səni gözləyirəm, gəl!

—…

— Gəlirsən?

—…

Kölgə onun başı üzərində hey uçur, uçur, ancaq Əqdəm onun çağırışlarına, əlində yellətdiyi lalə dəstəsinə fikir vermir...

Kölgə sürətini birdən artırdı, yüksəldi. Az sonra təyyarənin nə kölgəsi göründü, nə səsi eşidildi.

Gülmirə yaşıl çəmənliyin ortasında heykəl kimi donub qaldı, əlindəki lalələr yerə səpələndi, qızın gözləri yaşardı.

Əqdəmin təyyarəsinin səsi beynində uğuldadığına görə Gülmirə telefonun cingiltili fəryadını eşitmirmiş. Elə ki təyyarə uzaqlaşıb gözdən itdi, Gülmirə telefonun səsinə yerindən dik atıldı. Ayaqyalın halda, bir əli yaxasında telfona sarı qaçdı:

— Alo!.. Kimdi?

— Mənəm, Gülmirə!..

— Orxan?

— Hə, özüdü ki var. — Gülmirənin onu səsindən tanıması bayaqdan bəri çəkdiyi əzabları unutdurdu, ürəyində xoş, ilıq bir duyğu gəzib dolaşdı. — Bayaqdan zəng eləyirəm, niyə cavab vermirsən?

— Yatmışdım.

— Gülü!

—…

— Gülmirə!

— Eşidirəm.

— Mən Tiflisə gedirəm.

— Tiflisə?.. Haçan?

— Hə, elə bu gün. Mirzə Cəlil haqqında təzə materiallar tapılıb, gedirəm onlara baxım.

— Hə?.. Onda sənə ancaq yaxşı yol arzulaya bilərəm Orxan.

— Sağ ol. Dedim, bəlkə sözündən-sovundan oldu.

— Yoxdu, sağ ol, Orxan. Nə qədər qalacaqsan?

— Bir ay. Heç bilmirəm bu bir ayı necə dözəcəm orda?

— Dözərsən, bir ay nədi ki, papağını fırlat, bir də görəcəksən gəlib gedib.

— Doğrudanmı, Gülü, bir ay sənə belə az görünür?

—…

— Dinmirsən?.. Eh, taleyin ömürlük ayrılığa məhkum etdiyi adam üçün bir ay nədi ki! Düz deyirsən, bir ay nədi ki!

Qəribə oldu: hər ikisi eyni vaxtda ah çəkdi, eyni vaxtda da dəstəyi yerinə qoydu.

## BEŞİNCİ FƏSİL

Səhər tezdən. Ağstafa — Bakı qatarı vağzalda nəfəsini dərib dayandı, səkidə yol gözləyənlər, adam qarşılamağa gələnlər ora-bura qaçmağa, pəncərədən çıxan başlar, yellənən əllər çəkilməyə, sərnişinlər vaqonlardan tökülməyə başladılar.

Onuncu vaqonda uzunboylu, beli azca donqarlaşmış, gümüşü bağlı bir kişi əlində iki çamadan səkiyə endi. Yaşı çox olsa da, gümrahdı, sağlamdı. Ağır, dolu çamadanları elə götürmüşdü ki, sanki uşaq oyuncağı idi. Əynində haçansa göy olan, indi isə bozarmış şalvar-pencək başında uzun günlüklü kepka vardı.

Kişi çamadanları yerə qoyub, uzun, enli səkinin aşağı-yuxarısına göz gəzdirdi. Adamlar qaynaşırdı, hərənin əlində bir çamadan, bir bağlama vardı.

«Bura Gəncə vağzalından tünlükdü — deyə kişi düşündü, — çox tünlükdü».

Bu, Sədəfin, Nadirənin atası idi.

Ata-babadan qalma mülkləri bu il plana düşmüşdü. Şəhər sovetindən ona təzə tikilən beşmərtəbəli binada mənzil verəcəklərini vəd eləmişdilər. Müseyib kişi çox düşünüb-daşınmış: «Onsuz da qo-

calmışam, ömrüm-günüm keçib, balalarımın yanında olsam məsləhətdi», — deyib Bakıya köçməyi qərara almışdı.

Məhəlləyə ekskavator, buldozer gələndə o, ağır şeylərini satıb ikicə çamadanı götürərək evindən çıxdı. Üç-dörd addım atıb, geri qanrıldı, suyu sovulmuş dəyirmana oxşayan ev öz son günlərini, bəlkə də son saatlarını yaşayırdı. Burada doğulmuş, burada yaşayıb qocalmış Müseyib qəhərləndi. Onun ata-anasının, ömrü boyu insanlığını unutmadığı nakam həyat yoldaşının əziz xatirəsi bu evdə yaşayırdı. İndi bu ev sökülürdü. Müseyib doluxsunub yola düzəldi. Elə axşam qatara minib Bakıya gəldi.

***

...Müseyib cibindən əzik-üzük yaylığını çıxarıb boyun-boğazını silirdi ki, bir az aralıda dayanıb yanına iri yeşik və zənbil qoymuş tösmərək kişi ona baxıb barmağının işarəsi ilə yanına çağırdı. Müseyib ona sarı addımladı.

— Boşsan?

— Hə.

— Bu yeşiyi taksi dayanacağına aparaq. Zənbili özüm götürərəm.

— Aparaq, deyirsən, aparaq da. Nökər nədi, bekar nədi?! — O, hop eləyib göz qırpımında yeşiyi qoltuğuna vurdu. Köklüyünə baxmayaraq pişik kimi cəld olan tösmərək kişi qabağa düşüb iti addımlarla yeriyirdi. Müseyib onunla dabanbasma gedirdi.

Pillələrlə yeraltı keçidə endilər, sağa dönüb yenidən pillələrlə yuxarı qalxaraq küçəyə çıxdılar. Ətrafında ağlı-qırmızılı güllər açılmış fəvvarənin o böyründə, dəmir hasarlı bağın yanında sıra ilə taksi maşınları durmuşdu.

— Hə, elə buna minərəm. Ə, bacı oğlu, boşsan? — deyə gödək kişi taksilərdən birinin böyründə dayanıb xəbər aldı.

— Boşam.

— Gödək kişi yeşiyi sürücünün düşüb açdığı «boqajnikə» qoydurdu. Sonra əlini cibinə atıb qəhvəyi rəngli portmanatını çıxartdı, xeyli qurdalanıb bir əzik təklik götürərək Müseyibə verdi.

— Min bərəkət.

Müseyib kişi adətincə vağzala sarı tələsdi. Camaat dağılıb seyrələnə qədər heç olmasa üç-dörd adamın yükünü aparıb bugünkü normasını doldurmaq istəyirdi. Yükçülərin görüb-görəcəyi elə səhər — qatarlar son dayanacağa çatanda olurdu.

Elə bu ara yağış çisələməyə başladı. Xırda, narın damcılar Müseyibi perrona qalxanda haqladı... Başında dərman üçün belə bircə tük də tapılmayan dazbaş bir kişi əlindəki qəzeti yuxarı qaldırıb, yanındakı cavan adama dedi:

— Hə, balam, Bakı bizi yağışla qarşılayır!

«Bakı» kəlməsi Müseyibin qulağına dəyəndə elə bil ayağını asfalt perrona yapışdırdılar. Kişinin əhədi kəsildi. Otuz ildən çox yükçülük eləmişdi; indiyə qədər başının tükü sanı ağır yük daşımışdı: lap belini bükən, dizini qatlayıb əsdirən yüklər daşımışdı. Ancaq bu qədər halsız-taqətsiz, belə tab-təvansız olduğu yadına gəlmirdi. Yox, gəlmirdi... O, övladlarının yanına gəlmək üçün qəpik-quruş yığmış, qənaət eləmişdi. Nadirənin ehtiyacı olmadığını bilirdi, amma axı, Sədəf də vardı... Yetim nəvəsi Rəhim də vardı… Müseyib şəhərə gələndə əvvəl Sədəfgilə düşərdi. Sədəfin könlü qırıq olduğuna görə belə elərdi...

Müseyibin bədəni soyudu, tərləmiş köynəyi kürəyinə yapışdı. O, «vay sənin!» — deyib bayaq düşdüyü vaqonun yanına qaçdı... Yolda ayağı sürüşdü, az qala yıxılmışdı... Çox vurnuxdu. O yan-bu yana boylandı. Çamadanlar yox idi...

Müseyib kişi utanan kimi oldu. Nömrəsini tullasa da, Gəncədən işdən çıxıb Bakıya gəlsə də, yükçü olduğunu hələ unutmamışdı.

Köhnə adətincə bir yüklü sərnişin görən kimi öz çamadanlarını yadından çıxartmışdı.

Arıq, uzun, qara bir arvad olan bələdçi vaqonun pillələrindən düşəndə Müseyib üzünü yana çevirdi: «Qoy başıma gələn həngaməni bu arvad bilməsin, yoxsa bütün Gəncə eşidib, dalımca ay danışıb gülərlər ha!»

Müseyib kişi ayaqlarını güclə sürüyə-sürüyə, gözü orda-burda perronun pillələrini aşağı endi...

***

— Xoş gəlmisən, ay lələ, başına dönüm ay lələ!— deyə Sədəf çoxdan görmədiyi atasının boynuna uşaq kimi sarıldı.

Müseyib qızının ağarmağa başlayan saçlarından öpüb əlini onun çiyninə qoydu. O da qəhərləndi: «Sən də qocalırsan, qızım. Axı sən hələ körpəsən. Elə bilirəm dünən anadan olubsan. Amma gör nə qədər vaxt keçib... Sənin saçların da ağarmağa başlayıb, can bala!..»— deyə nisgilli-nisgilli düşünən kişi boğuq səslə:

— Ta ağlamaq niyə, qız?— deyə zorla dillənə bildi.

Sədəf atasından aralanıb, taxtın üstündəki, qırağını külək qatlamış köhnə palazı çırpıb təzədən sərdi, gedib içəridən döşəkcə gətirdi:

— Otur, lələ...

Müseyib əyləşdi. Brezent ayaqqabılarının bağını açdı, köynəyini siyirib çıxardı. Pul-pul günəş işığı söyüdün yarpaqları arasından yerə, taxtın, Müseyibin üstünə düşürdü. Meh əsir, budaqlar astaca tərpəndikcə pul-pul işıqlar tərpəşir, tez-tez yerini dəyişirdi.

Yadında qalmış uşaqlıq adətinə görə Sədəf hər söz-söhbətdən əvvəl iri, göy ləyəni və ağzınadək dolu boz vedrəni atasının yalın ayaqlarının yanında yerə qoydu. Uzun illər bundan qabaq, hələ evdə qız olarkən atası hər gün işdən qayıdanda Sədəf su hazırlayıb onun

ayaqlarını yuyardı. Müseyibin şişib qızarmış ayaqlarının zoqqultusu, ağrısı çəkilib gedər, bütün yorğunluğu canından çıxardı.

İndi vedrələyəni görəndə Müseyib keçmiş günləri xatırladı:

— Hələ yadından çıxmayıb, qızım?

— Yox, lələ. Hərdən oturub fikirləşəndə Gəncədəki o günlər üçün, evimiz üçün burnumun ucu göynəyir, lələ.

Müseyib yavaşcadan dedi:

— Evimizi sökdülər, bala.

— Sökdülər?

— Hə, plana düşdü. Yerində təzə beşmərtəbəli ev tikəcəklər. Mənə də ev təklif elədilər, qalmadım. Dedim, gedərəm balalarımın yanına.

— Deməli, sökdülər... Demək, orada bizim heç nəyimiz qalmadı?

— Elədir, qızım.

— Amma Gəncəçayın şırıltısı qulaqlarımdan heç getmir. Ölənəcən getməyəcək... Yaxşı elədin gəldin, lələ. Sən orda tək idin, biz burda. Bir yerə yığışmağımız yaxşıdı, lələ. Təkliyə dözmək olmur.

Sədəf danışdıqca Müseyib onun geyiminə, rəng-rufuna, üzündə, alnında görünən qırışlara fikir verirdi. Sədəf gərək bu qədər düşməyəydi. Müseyibə elə gəlirdi ki, Sədəf yavaş-yavaş qaralıb sönən, üstünü kül örtən közə bənzəyir. Yel əsməsə, kül getdikcə qalınlaşacaq, od keçəcək və nəhayət hələ əslində çox yanmalı, çox isitməli olan bu ocaq soyuyub sönəcək, bir yığın küldən başqa heç nə qalmayacaq.

Müseyib dərindən köksünü ötürdü. Sədəf dizlərini büküb yerə vurdu. Müseyib ayağını ləyənə qoydu. Su sərin idi.

— Özün nə təhərsən bala?

— Gördüyün kimi, lələ.— Sədəfin hələ də saflaşıb durulmamış səsi ilişikli çıxdı.

— Dolanaşığın-zadın necədi, balası?

— Yaxşıdı, lələ. Rəhim işləyəndən lap yaxşıdı.

— Rəhim məgər işləyir?

— Hə, babası. Atasının işlədiyi idarədə işləyir.

— Bəs oxumağı?

— Oxuyacaq da, babası. İki aylıq işləyir.

— Donluğu-zadı babatdımı?

— Pis deyil.

— Qoyma uşaq məktəbdən yayınsın, qız. İndiki əyyamda savad, genə savad, qız!..

— Yaxşı oxuyur, babası. O irəli məktəblərinə çağırmışdılar. Müəllimləri o qədər tərifədi ki..

— Olsun, olsun.

Müseyib hıqqıltı ilə əyilib mələfə ilə ayağını quruladı.

— Bacıngil necədir?

— Yaxşıdılar, lələ. — Sədəf bacısının dolanışığı haqqında atasına ətraflı məlumat verdi. O danışdıqca kişi razılıqla «olsun, olsun» deyirdi.

— Gedə nə təhərdi, Ceyhunu deyirəm ey?.

— O da yaxşıdı babası. İndi Krımdadı.

— Orda neyniyir, qız?

— Dincəlməyə gedib lələ.

— Onunçun bir xeyri yoxdu a, amma genə tafoutdu.

— Hə, babası zəifdi. Elə bil yeyib-içmir. Yazıqlar dünyada o naz-nemət qalmır ki, alıb-tökməsinlər qabağına. Yemir, gözünün ucuynan da baxmır. Bacım hey onun yeməyi üstə hirslənir. İdarəyə gedir, orada da telefonla yalvarır ki, ay Ceyhun, filan şey ye, bəhman şey ye.

— Görəsən, nə dərdi-azarı var da...

Küçə qapısı cırıltı ilə açıldı. Rəhim əlində tor zənbil həyətə girdi: göy-göyərti, badımcan, kələm və iri bir qarpız almışdı. Rəhim taxtın üstündə oturan kişiyə zənlə baxıb birdən tanıdı:

— Baba!..— deyə iri addımlarla ona sarı yeriyib əl verdi:— Xoş gəlmisən, baba! Onlar qucaqlaşdılar.

— Sağ ol, can bala!.. Maşallah, yekə oğlan olubsan!

Rəhim başını aşağı saldı. Kişi nəvəsinin boy-buxununa, kişiyana hərəkətlərinə baxıb heç nə demir, ürəyində sevinirdi: «Yox, bu istiqanlı uşaqdır. Ağıllı, fərasətlidir. O biri gedənin heç yapışığı-zadı da yoxdur. Uşaq vaxtından elə yekəxanalığı vardı»,— deyə baba mehriban nəzərlərlə Rəhimə baxırdı. Rəhimin nəzərləri babasının baxışları ilə rastlaşanda ikisi də gülümsündü. Bu təbəssümdə nəsə isti, ılıq bir hiss gizlənmişdi.

Sədəf süfrə saldı. Çörək doğradı, pendir qoydu. Rəhim ala qarpızı ortalığa gətirdi.

— Sabirabad qarpızıdı, deyəsən, hə, Rəhim?— Sədəf xəbər aldı.

— Elə dedilər,— Rəhim ülgüc təki iti bıçağın ucunu qarpıza toxundurmuşdu ki, qarpız şaqqıltı ilə partladı. — Pah! —deyə Rəhim səsləndi. — Qıpqırmızıdır!..

— Hə, bismillah, lələ.... — Sədəf əlini süfrəyə uzatdı.. Yeməyə başladılar. Onlar üçü də elə bil, yağla bal yeyirdi.

## ALTINCI FƏSİL

Gülmirə gül satan kişinin qabağında ayaq saxladı. İçində su olan bankalara, vedrəyə yığılmış rəngbərəng güllər adamın yadına gül bağçasını, ilk baharı salırdı.

— Əmi, mənim üçün bir yaxşı dəstə bağla!.—deyə Gülmirə saqqallı kişiyə müraciət etdi.

— Mənim gözüm üstə, qızım.

Kişi seçməyə başladı.

— Elə et ki, hamısından olsun, əmi..

— O da mənim gözüm üstə.

Gülmirə bir gül götürüb iyləyə-iyləyə düşündü ki, keçən il bu gün o, bazardan gül almadı. Orxan qəsəbədən, öz həyətlərindən yaxşı bir dəmət bağlatdırıb idarəyə gətirmişdi. Evlərinə yox, idarəyə.

— Neynirəm bu qədər gülü, Orxan?— deyə Gülmirə etiraz eləyəndə Orxan sakitcə:

— Axı, bu gün sənin anadan olan günündü,— demişdi.

Bu, Gülmirəyə təəccüblü görünmüşdü:

— Sən bunu hardan bilirsən, Orxan?

— Bilirəm də...

Orxan Gülmirənin anadan olduğu günü idarədə, təsadüfən arxiv müdirəsinin stolunun üstündə gözünə dəyən şəxsi işindən öyrənmişdi. Ancaq Gülmirəyə bunu demədi.

Gülmirə:

— Çox sağ ol, Orxan. Diqqətinə görə təşəkkür eləyirəm,— demişdi. Evə gələndə Əqdəmin də onun üçün gül aldığını görüb sevinmişdi.

Əqdəm soruşmuşdu:

— Bu güllər hardandı? Nə yaxşı güllərdi. Gülmirə ərinə ilk dəfə yalan danışmalı olmuşdu:

— Bazardan almışam.

İndi Orxan şəhərdə deyildi. Burda olsaydı, yəqin yenə ona bir dəstə gül gətirərdi.

Gülmirə kişinin pulunu verdi. Bazardan ət, göy-göyərti, limon, dükana girib bir «Qaraçanaq» şərabı aldı. Əqdəm bu şərabı çox xoşlayırdı. O, hələ gəlib çıxmamışdı. Amma bu gün hayanda olsa gələcəkdi, çünki bu gün Gülmirənin anadan olduğu gündü. Yəqin, o, böyüklərindən icazə alıb. İndi yolda olar, həmişə günortadan sonra gəlib çıxır.

Gülmirə nə qədər ki, atası evində idi, valideyni onun ad gününü təntənəli şəkildə qeyd edirdi. Sən demə, anası əhd eləyibmiş: «Nə

qədər ki, qızım ərə getməyib, onun ad gününü özüm bayram eləyəcəm. Elə ki ərə getdi, qoy zəhmət çəksin, əri eləsin»

İndi iki ildi ki, Gülmirə Əqdəmlə xudmani bir stol açır, ata-ana gəlib təbrik eləyir, yeyib-içir, çıxıb gedirdi.

Maşa xala kölgədə oturub kitab oxuyurdu. Gülmirə əlində dolu zənbil həyətə girəndə, arvad kitabı örtüb dizinin üstünə qoydu.

—Əqdəm hələ gəlməyib ki, Maşa xala?— deyə Gülmirə səbirsizlik göstərib həyətdəcə soruşdu.

— Yox, Gülya gəlməyib.

— Bu gün gərək gəlsin.

— Hə, çoxdan gedib qızım, gərək gəlsin. Həm də bu gün sənin ad günündü axı...

— Hə, sənin yadından çıxmayıb, Maşa xala?

— Yox, Gülya, sənin Maşa xalan yaxşı günləri heç vaxt yaddan çıxarmır.

Gülmirə zənbili yerə qoydu.

— Əlimi kəsdi lap, — o, qanı qaçmış barmaqlarını açıb yumdu.

— Bazarlıq eləmisən, deyəsən.

— Hə, istəyirəm bir balaca stol açam. Maşa xala eynəyini düzəltdi:

— İndi ikimiz köməkləşib düzəldərik. Əqdəm gələr görər ki, hər şey hazırdı, hər şey...

Gülmirə güldü.

Vaxt keçirdi. Əqdəm isə hələ görünmürdü. Maşa xala ilə Gülmirə ikisi bir yerdə stol açdılar. Güldana da gül qoydular. Xörəyi asdılar

Gün günortadan çoxdan keçmişdi. Saat üç oldu, dörd oldu, ancaq Əqdəmdən bir xəbər çıxmadı. Gülmirənin daha otaqda səbri çatmadı, küçəyə çıxıb yollara baxdı.

İntizarla keçən dəqiqələrdən elə bil daş asılmışdı.

«Gəlib çıxmadı. Bəlkə, başında bir qəza var?—Əqdəmin «məni göylərin yeddi qatına qaldıran təyyarə dünyanın ən möhkəm, ən gözəl təyyarəsidir» sözləri qulaqlarında səsləndi. — Yox, bəlkə icazə verməyiblər. Hayanda olsa gələr»,— deyə fikri yüz yeri dolanan Gülmirə nəhayət, yenə ümidə sığınır, «Gələr» deyərək özünə təsəlli verirdi.

Lakin Əqdəm gəlmədi. Gülmirə az qalırdı ağlasın. Onu təbrik eləməyə gəlmiş ata-anası qızı qanıqara görüb pərt oldu:

— Nə olub, ay qız?— deyə Xatın arvad ha soruşdusa, Gülmirə cavab vermədi. Maşa izah elədi:

—Əqdəm gəlib çıxmayıb, ona görə qanı qaradı.

— Hə, hələ gəlib çıxmayıb?

— Yox.

— Gördün kişi? Saqqalım yox idi, sözüm ötmürdü, — deyə Xatın səsini başına atıb kənarda dayanaraq papiros çəkən ərinin üstünə çımxırdı:— Mən deyən oldu, olmadı? Salaməleyküm, dedim ay kişi, ağlını yığ başına, qızı da başa sal, qoy otursun yerində, qocalmayıb, qarımayıb. Dedin yox, qızın könlü var, vəssalam! Bəlkə qız axmaq idi, ağlı heç nə kəsmirdi? Götürüb gül kimi uşağı verdin uçağanın birinə, o da bədbəxt elədi.

Gülmirənin atası heç nə demir, papirosunu sümürür, düşünürdü.

— İndi mən o qızın göz yaşlarına necə tab gətirim?

Xatın arvad bir haray-həşir saldı ki, ad günü — bu şad günü az qala matəmə döndü.

— Ay arvad! — Nəhayət, atanın səbir kasası daşdı: — Bu qara-qışqırığı saxla bir! Heç fikirləşmirsən ki, bu zalım oğlu iş adamıdı, vəzifə başındadı. Bəlkə elə vacib işi olub, gələ bilməyib. Bura deyil, ora deyil, neçə saat gərək təyyarə ilə yol gedəsən. Siz oturubsunuz burda, elə bilirsiniz dünya dərəbəylikdi, hər kəs nə istəsə eləyə bilər?

— Bir teleqrama sözün nədir? Onu da vura bilməzdi?

Elə bu zaman saya çitdən qolsuz don geymiş sarışın bir rus qızı həyət qapısının ağzında göründü:

— Gülmirə kimdi? — deyə soruşdu.

Gülmirə gözlərinin yaşını silə-silə ayağa durub onun qabağına qaçdı:

— Mənəm.

— Sizə teleqram var..

Gülmirə qızın uzatdığı qələmlə kağıza qol çəkib teleqramı aldı.

— Gördün, arvad, gələ bilməyib, tel vurub?! Yaman hay-küyçü arvadsan ha!.. Bir bu xasiyyətindən zəhləm gedir.

Xatın ərinin sözünə əhəmiyyət verməyib:

— Nə yazır ay qız?— deyə xəbər aldıqda Gülmirə qəribə bir tərzlə:

— Teleqram ondan deyil,— dedi, elə bil hamının üstünə su çiləndi. Xatın ərinin, əri də Maşanın üzünə baxıb yenə məyusluqla çiyinlərini çəkdilər.

— Bəs kimdəndi, ay qız?

— İş yoldaşlarımdan biri vurub,— dedi.

Əlində tutduğu teleqram Tiflisdən — Orxandan gəlmişdi. O, göz yaşlarını axıda-axıda teleqramı ikinci dəfə oxudu: «Səni ürəkdən təbrik edirəm, Gülmirə! Xoşbəxt ol, xoşbəxt ol!..»

Gülmirə stolun üstündəki gülə, düzülü qablara baxdı. Əlindəki teleqramı rəfdəki kitablardan birinin arasına qoyub, solğun üzünü atasına, anasına, Maşa xalaya tutdu:

— Gəlin, gəlin oturaq. İndi çörəyimizi arxayın yeyə bilərik,— dedi.

## YEDDİNCİ FƏSİL

Nadirə atasının tamam-kamal yığışıb gəldiyini eşidəndə həm sevinmişdi, həm də kədərlənmişdi. Ona görə sevinmişdi ki, neçə ildən bəri görmədiyi atasını görəcəkdi, doyunca görəcəkdi: «Yaxşı da eləyib yığışıb gəlib. Orda tək-tənhadı, kimi var? Burda qızları, nəvələri...» Ona görə kədərlənmişdi ki, Salmanın o gecə dediyi sözlər yadına düşmüşdü. Nadirə bilirdi ki, atası onlara gəldikcə Salman daha da dilxor olacaq, onu öz şəninə yaraşdırmayıb deyinəcək, hətta bəlkə utanıb-qızarmadan qoca kişiyə öz qızı evində görünməyi qadağan edəcək. Bununla da neçə vaxtdan bəri ailədə hökm sürən soyuqluğu, anlaşılmazlığı bir az da dərinləşdirəcəkdi.

Nadirə bu xoşagəlməz vəziyyətin bütün ağırlığını irəlicədən görür, dərk edir, ancaq səsini çıxara bilmirdi. Sədəfə heç nə demək lazım deyildi. Atasını isə bu məsələdən agah eləmək lap ağılsızlıq olardı. Axı o, Nadirənin taleyindən, xoşbəxtliyindən çox arxayındı. İndi onun ürəyinə xal salmaq kişini məyus edə bilərdi: «Qoy o heç nə bilməsin, rahat, arxayın yaşasın...»

Nadirə qorxu içərisində idi. Elə o saat geyinib-keçinmişdi. Sədəflə birgə atasının görüşünə gəlmişdi. Ata-bala mehriban-mehriban görüşüb qucaqlaşmış, üzbəsurət oturub olandan-keçəndən danışmış, gah deyib-gülmüş, gah da kədərlə susub bir-birinə baxmışdılar. Nadirə uşaqlıqdan Müseyibin sevimlisi olmuşdu. Kişi qızının fərasətinə, ağlına, kamalına bel bağlayıb onu özünə qız yox, oğul bilmişdi.

Nadirə atasının vəziyyəti ilə tanış olandan sonra ürəyində çal-paşıq fikirlər baş qaldırıb onu daha da darıxdırmışdı: «Yükçülükdən çıxmağı lap yaxşı olub». İnsafən Nadirə özü neçə dəfə ismarlamışdı ki, kişi, bəsdir bu yükün altında əzilə-əzilə işlədin, çıx otur evində-eşiyində, bir adamı dolandırmaq nədir ki!.. Ancaq Müseyib ipə-sapa yatmamış, daşı ətəyindən tökməmişdi: «Müseyib yük altında böyü-

yüb, qocalıb, yük altında da canı çıxsın gərək!»—deyə ömrünün axırına qədər kimsənin qoltuğuna sığınmağı ağlına gətirməmişdi.

İndi Nadirə gözünü atasının üst-başından çəkmirdi. Əl sumkasının ağzını açdı, bir dəstə pul çıxardıb atasının qabağına qoydu:

— Bunları götür, lələ!

— Nəmənədi bunlar, qız?

— Rəhim gəlsin, çıxın şəhərə, özünə bir yaxşı kostyum al.

— Yox ay bala, elə bu paltarım da təzədi. Ay yarım bundan qabaq idarədən almışam. Bir də mənim harama təzə kostyum yaraşır? Hay-hayım gedib, vay-vayım qalıb. Elə siz yaxşı geyinin, mən də sizə baxıb sevinim.

— Götürəcəksən, lələ.— Nadirə pulu kişinin döş cibinə zorla basdı.— Bura Gəncə deyil ey, Bakıdı... Yaxşı-yaxşı geyinərsiz, axşam ikiniz də bizə gələrsiz, yaxşımı? Ceyhun da Krımdan gəlib. Sədəfi indi mən özümnən aparıram.

***

Rəhim işdən qayıdanda babası onu gülər üzlə qarşılayıb:

— Ağzına bir loxma çörək al, gedək şəhərə, məni şəhərinizdə gəzdir, bala,— dedi,— görmək istəyirəm.

— Baş üstə.

Yarım saat sonra onlar şəhərdə idilər. Təzə univermağın yanından keçəndə Müseyib:

— Bir bura dəyək,— dedi.

Univermağın mərtəbələrində tərpənmək mümkün deyildi. Müseyib kişi ilə Rəhim üçüncü mərtəbədə, tikili paltar şöbəsinin qabağında dayandılar.

— Qızım, o kostyumu bəri elə görüm,— deyə Müseyib boz lafsandan paltar geymiş göyçək qıza müraciət elədi.

— Sizin əyninizə kiçik olar.

— Özümə istəmirəm.

Qız gətirdi. Rəhim çaşbaş qalmışdı.

— Gey görək əyninə necə gəlir.

— Baba, mənə lazım deyil, özünçün al.

— Gey ay bala, adam böyüyün sözünə qulaq asar.

— Axı baba...

— Gey, gey deyirəm!

Rəhim istər-istəməz geyindi.

— Bir belə çön görüm. Hə, lap əyninədi, bala, sağlığnan geyəsən.

— Sağ ol, baba!

Rəhim iri bədənnüma güzgüdə özünə baxdı, kostyum elə bil, əyninə biçilib tikilmişdi. Ürəyində tutqun bir sevinc duydu. Dönüb babasına fikir verəndə kişinin gözlərinin qeyri-adi bir şəkildə parladığını gördü.

***

Baba-nəvə Nadirəgilin pillələrini ağır-ağır yuxarı qalxırdılar. Üçüncü mərtəbədən uzun, qıvraq bir kişi qabaqlarına çıxdı; ayaq saxlayıb zənlə Müseyibə fikir verdi və birdən gur səslə:

— Mənim canımçın, bu, Nadirənin atası olacaq! —dedi. — Elədi, elə deyil?

Müseyib salam verib uzun kişinin sözünü təsdiqlədi.

— Elədi.

— Mənim canımçın, görən kimi ürəyimə gəldi. Gör necə oxşayırsınız!

Bu, Salmangilin həkim qonşusu idi. Görüşdü, xudahafizləşib getdi. Müseyiblə Rəhim beşinci mərtəbəyə danışa-danışa qalxırdılar. Səsə Sədəflə Nadirə çıxdı. Elə bu vaxt eynəkli qadın da başını qapının

arasından qırağa uzatdı. İki daşın arasında fürsət tapıb Nadirəyə üz tutdu:

— Qonşu, bu kimdi?

Nadirə onun sözünü eşitmədimi, ya qəsdən cavab vermədimi, dinmədi. Qonşu arvad bu dəfə Sədəfdən soruşdu:

— Bu kişi kimdi, a?

— Atamızdı, — deyə Sədəf dilləndi. — Atamızdı. — Acıqla bir də təkrar elədi.

— Doğrudan?

Sözünə daha əhəmiyyət verən olmadığına görə qonşu arvad qapı arxasına çəkilib yox oldu.

Ceyhun ağ, qolsuz köynək geymişdi. Kənarda dayanıb Müseyibə baxırdı. Baba irəli yeridi:

— Yallah, yallah, kişi oğlu,— deyə nəvəsinin əlindən tutub sıxdı. Ceyhunun xırda, yumşaq əli Müseyibin düyün-düyün olmuş ovcunda görünməz oldu. Kişi əyilib nəvəsinin alnından da öpdü. Nadirə baba ilə nəvənin görüşünə tamaşa eləyirdi. Nədənsə ona elə gəldi ki, Ceyhun çəkinir, qorxur ki, babası üst-başını çirkləndirər. İkicə dəqiqə sonra Nadirə bu təxminində yanılmadığını yəqin elədi; Ceyhun mətbəxə keçdi və əllərini, üzünü yumağa başladı. Nadirə arxasınca gəldi:

— Bəs indicə yuyunmamışdın?

— Yenə yuyunuram. — O, şəhadət barmağını təkləyib başını qaşıdı.

Ceyhun alnına murdar bir şey yapışmış kimi, dırnağı ilə oranı qaşıyırdı. Nadirə onsuz da pərt idi; atası özünə kostyum almamış, elə yükçü paltarında durub bura gəlmişdi, üstəlik Ceyhun da belə... babasından iyrənirdi. Nadirə: «Eqoistlər!» — deyə ürəyində söylənə-söylənə qonaqların yanına keçəndə Salmanın turşumuş sir-sifətlə o biri otaqdan çıxıb, qaynatası ilə könülsüz görüşdüyünü gördü.

Müseyib kişi ayağa qalxdı.

— Əyləş, — deyə zorla dillənən Salman özü də onunla qabaq-qənşər əyləşib, yerə baxdı. Gecdən-gec soruşdu:— Gəncədə nə var, nə yox?

— Sağlıq, Gəncəynən də üzülüşdüm. Salman başını qaldırıb qaynatasının üzünə təəccüblə boylandı.

— Evimiz söküldü, çıxdım gəldim. — Kişi tutqun cavab verdi. — Mənim bir rəhmətlik dostum vardı, deyərdi, harda günün xoş keçdi, ora vətəndi. Deyirəm, bu Bakı vağzalında elə xırda-xırda işlərəm.

Salman qaş-qabağını salladı: «Bu nə danışır?! Bizim tanışların gündə beş-onu Moskvaya, Riqaya, Tiflisə, nə bilim daha haralara gedir. O yanlardan gələnləri də var. Elə hərəsinə bir dəfə desə ki, mən professor Qurbanzadənin qaynatasıyam, işimiz düzəldi də!..»

Müseyib Salmanın gözlərinin içinə baxdı: «Salman dəyişib. Əvvəllər belə deyildi, özünü çəkmirdi. Amma indi...— Müseyib zorla özünü ələ alıb susmağı, hələ gözləməyi məsləhət bildi:— Qızı peşman eləməyim. Bəlkə işdən dilxor qayıdıb, heç mən fikirləşdiyim kimi deyil?»

Müseyib pərtliyini biruzə verməmək üçün ayağa qalxdı. Küsülü kimi oturmuş Rəhimlə Ceyhunun qabağında dayandı.

— Hə, niyə danışmırsız?

— Nə danışaq?— Rəhim soruşdu.

— Olandan-keçəndən. Ceyhun səfərdən gəlib, gəzdiyi yerlərdən danışsın.

— Nə danışım? O yerləri gərək gedib gözünlə görəsən. Yoxsa danışmaqla,— Ceyhun başını yırğaladı, bir şey çıxmaz.

Sədəflə Nadirə yaxşı bir süfrə açmışdılar. Balkonda manqal qızarır, külək körük vurur, şişlərə çəkilmiş təzə qoyun əti cızhacızla bişir, xoş iyi evə və küçəyə yayılırdı.

Sədəf atası üçün bozbaş gətirdi. Müseyib kasaya çörək doğradı, qabın böyrünə qoyulmuş çəngələ, bıçağa əhəmiyyət vermədən əli ilə

yeməyə başlayanda Ceyhun «pıqx» eləyib güldü. Ancaq yaxşı ki, onu çeçəmək tutdu, nəyə güldüyünə fikir verən olmadı.

Salman isə tez duyuq düşüb oğluna baxdı və qəribə bir tərzdə gülümsündü, sonra üz-gözünü elə qırışdırdı ki, guya Müseyibin yeyişi onun iştahasını küsdürdü. Başını tərpədib könülsüz halda əlindəki qabırğanı sümürməyində davam elədi. Bunlar Nadirənin gözündən yayınmadı, qıpqırmızı qızardı. Açıb ağartsınmı? Lələsinə desinmi? Kişi pərt olmazmı?! Salman da, Ceyhun da gülür, lağ edir, hələ sonra nə qədər söz-söhbət olacaq...»

Nadirə özünü toplayıb astadan:

— Lələ, qaşıqnan niyə yemirsən?— dedi.

— Düzü, qızım, canıma sınmır. Mən bozbaşı həmişə əlnən yeyirəm. Elə bilirəm qaşıq onun dadını qaçırır,— deyə Müseyib izah elədi.

Nadirənin baxışları Salmanın baxışları ilə rastlaşdı. Nadirənin ürəyi istehzalı baxışlardan sıxıldı. Salman elə bil, deyirdi: «Yaxşı ki, evdə kənar adam yoxdur, yoxsa lap biabır olmuşduq...»

Üç-dörd dəqiqədən sonra Müseyib kişi xörəyini yeyib qurtarmışdı. Kənardan baxan adama elə gələ bilərdi ki, Müseyib aclıqdan çıxıb. Ona görə belə tez-tez «qovdu-qaçdı ilə» yeyir. Əslində isə bu cür yemək onun adəti idi. Yemək yeyəndə həmişə tələsmişdi, ömrü uzunu... Arxayın süfrə başında oturduğu yadına gəlmirdi. Heç bir işi olmayanda belə, tələsmədən, arxayınlıqla çörək yeyə bilməzdi.

Kişi kasanın qırağından iki əlli yapışdı. Boz-başın noxudlu suyunu xorultu ilə başına çəkib üstündən də bir «pəhh» elədi və kasanı yerə qoydu. Ancaq bu dəfə Ceyhunun gülməyini Müseyib özü də gördü və başa düşdü ki, nəvəsi ona gülür.

«Bu gedə öz-özünə niyə gülür, ə, görəsən?..» — deyə düşünən baba iri, parlaq gözlərini süfrə başında oturanların üzündə gəzdirdi. Əlini süfrədən çəkdi, köksünü ötürdü. O bu evdə çörək yemədi, elə bil zəhrimar yedi.

## SƏKKİZİNCİ FƏSİL

Orxan ezamiyyətdən beş gün də tez qayıtdı; qala bilmədi, çünki bu, əlavə vaxt itirmək deməkdi, həm də bilə-bilə boş yerə vaxt itrmək deməkdi. O, çaş-baş qalmışdı. Bu necə sirr idi? Professor sevinə-sevinə deməmişdimi ki, Mirzə Cəlil haqqında təzə arxiv sənədləri tapılıb? Deməmişdimi? Hətta yerini də demişdi: Dövlət arxivində. Orxan isə təkcə Dövlət arxivini deyil, bütün Tiflis arxivlərini bir-bir gəzmiş, ələk-vələk eləmiş, ancaq təzə heç nəyə rast gəlməmişdi. Rast gəldiyi sənədlərin hamısı keçənilki səfər zamanı gördüyü kağızlar, arxiv materialları idi ki, əslində onlardan gen-bol istifadə eləmişdi. İyirmi beş gün vaxtı getdi. Bu onu elə yandırırdı ki!..

İstirahət günü idi. Orxan qatardan düşüb evə gələndən sonra yuyunmuş, xeyli dincəlmiş, Gülmirəyə zəng eləmişdi:

— Mənəm, Gülmirə! Salam!.. Necəsən?

— Orxan?

— Bəli, mənəm.

— Xoş gəlibsən, necəsən, yaxşısan?

— Hə, bəs sən?

— Mən də yaxşıyam.

— Haçan gəlmisən?

— Bu gün səhər.

— Səfərin necə keçdi, Orxan?

— Belə... Yeni bir şey yox idi, hamısı köhnə materiallar idi.

— Onda demək havayı..

— Hə, Gülmirə, lap havayı, havayıdan da havayı! Həm dövlətin filan qədər pulu getdi, həm də mənim qızıl kimi vaxtım. Yaxşı, işlərin necədir?

— Pis deyil. Sənin teleqramını aldım. Çox sevindim. Sağ ol. Mənə xoşbəxtlik arzulamışdın...

— Hə... Mən...

— Nədənsə sənə elə gəlir ki, mən xoşbəxt deyiləm, Orxan?

—…

— Elədimi?

— Sən necə, məni xoşbəxt sanırsan?

— Xoşbəxtlərin xoşbəxti, Orxan!..

— Yox, səhv eləyirsən, Gülü... Mən brilyant qaşı itmiş bir üzüyə oxşayıram. Mənim həyatımın bəzəyi yoxdur, daha doğrusu var, ancaq məndən çox uzaqdadır.

— Eh, Orxan, Orxan. Sən məni həmişə kədərləndirirsən. Elə danışırsan ki, çox zaman öz dərd-sərimi unudub sənin haqqında düşünməli oluram.

— Sən çox vaxt mənim haqqımda düşünməli olursan, ancaq mən.. mən həmişə sənin haqqında düşünürəm, Gülü!

Bu telefon söhbəti Orxanı yamanca sevindirmişdi. O, az qala ağlayacaqdı da. Elə bil, Gülmirə onun hisslərini tam aydınlığı ilə başa düşür və hətta halına da acıyırdı. Bu onun nigaran, narahat ürəyini xeyli toxtadırdı. Orxana elə gəlirdi ki, bu qəribə sevgidə heç bir təmənnası yoxdur, Gülmirə onun ürək dostu olsun, onu başa düşsün, dəlicəsinə sevdiyini bilsin; bu, Orxanın da, Gülmirənin də həyatını gözəlləşdirər, o zaman hər ikisi özünü xoşbəxt sana bilər.

Axşamüstü hava sərinləyəndə Orxan şəhərə çıxdı. Sahil küçəsi ilə addımlayırdı. Dənizdən meh əsirdi. Hər şey — bu küçə də, o yaşıl ağaclar da, qabağına çıxan tanımadığı adamlar da ona doğma gəlirdi. Bu dəqiqə Orxan sevincin qanadlarında əziz şəhərin tanış küçələrini gəzmək, hər yerə baş vurub ürəkdolusu: «Salam, a doğma yerlər!» demək istəyirdi.

Dənizə tərəf burulmaq istəyirdi ki, yanında bir «Volqa» dayandı. Ayaq saxlayıb baxdı. Professor başını pəncərədən irəli uzadıb onu çağırdı:

— Orxan, ay Orxan!

— Salam, professor!— deyə Orxan maşına yaxınlaşanda Salman əyilib qabaq qapını açdı.

— Min!

— Çox sağ olun, professor.

— Min, min. Bir az hərlənək. Mən də gəzməyə çıxmışam, həm söhbət elə, görək necə getdin, necə gəldin.

Orxan özünü içəri saldı, maşın tərpəndi. Küçədə maşın çoxdu, hərəkət çətindi. Professor seyrəkliyə çıxanacan danışmadı. Orxan isə çaşdırmasın deyə bir şey deyib onun diqqətini yayındırmaq istəmədi.

Salman maşının aynasından Orxana göz qoyur, ürəyində fikirləşirdi: «Hə, ezamiyyətdən gələn oğlanın kefi necədir, görəsən?»

Genişliyə çıxandan sonra Orxan xəbər aldı:

— Uşaqlar necədirlər, professor?

— Yaxşıdırlar. Sən özündən danış görək, necə getdin, necə gəldin?

Orxan necə gedib, necə gəldiyini yerli-yataqlı danışdı, heç bir şey tapmadığını, əliboş qayıtdığını söyləyəndə professor heyrətlə dedi:

— Elə şey olmaz, canım!..

— Elədir ki, var. Heç nə yoxdur. Sizin nişan verdiyiniz adamı da axtardım, o da tapılmadı.

— Görürsən?.. Yəqin harasa çıxıb gedib. O da həmişə elə səfərdə olur.

— Yox, dedilər, heç bizdə belə adam işləmir.

— Elə şey olmaz, canım!..

— Təəssüf ki, belədir.

Professorun danışığı, təəccübləri elə yerində və təbii idi ki, Orxan əliboş gəldiyi üçün onun möhkəm heyfsiləndiyinə inandı.

— Yox, burda nəsə bir anlaşılmazlıq var. Yox, sən, görünür, arxivləri yaxşı-yaxşı axtarmamısan, ya o adam yerini səhv deyib. Ay sənin saqqalın ağarsın, Abduladze, həlbət səni görərəm.

— Arxivləri lap yaxşı axtardım, professor.

— Mənə elə gəlir ki, — deyə professor tutqun-tutqun səsini qaldırdı — yaxşı axtarmamısan. Tək sən yox, ümumiyyətlə, bizim cavan elmi işçilər arxivdə işləməyi sevmirlər. Halbuki, mənim aləmimdə tədqiqatın gözəlliyi elə o arxivdə qurdalanmaq yüz ilin, əlli ilin sənədlərini qaldırıb baxmaqdır. Elmi işçi gərək arxiv tozu udmaqdan qorxmasın.

— Professor...

— Heyf, səd heyf!.. Mən sənə inandım, dedim, əliboş gəlməzsən, yoxsa özüm gedərdim. Çarə yoxdu, gərək özüm gedəm.

— Nahaqdı, professor, mən bu qədər vaxtı itirdim, siz də...

— Yox, mən o qədər vaxt itirmərəm, özü də tapıb gətirərəm.

Orxan professorun üzünə baxırdı. O bu sözləri qətiyyətlə deyirdi. Orxan qorxu hissi ilə düşündü ki, əgər o özü gedib həmin materialları tapıb gətirsə, biabırçılıq olacaq. Deyəcək, getdi, yarıtmadı. Sonra gəl indi bunun cavabını ver. Toyda da deyəcək, yasda da.

— Nə isə, sən məni lap məyus elədin, — deyə Salman ah çəkdi.

— Mən lap dilxor olmuşam, professor. İşimin bu məqamında, hər dəqiqənin mənim üçün qiymətli olduğu bir zamanda iyirmi beş gün vaxt itirdim, yadıma düşəndə təpəmdən tüstü çıxır. Mirzə Cəlilin yubileyi lap yaxınlaşır.

Professorun dili:

— Hə, ordan da geri düşdün.

Professorun ürəyi:

«Sənin üçün hələ bu da azdır, nankor adam. Sənin başına bir oyun açım ki, özün də afərin deyəsən!..».

Asfalt üzərində şütüyən maşının yan pəncərəsindən içəri dolan yel Orxanın üz-gözünü oxşayır, professorun sıx, dən düşmüş saçlarını dalğalandırırdı.

Professor əlini irəli uzadıb maşının radioqəbuledicisini açdı. Konsert varmış, müğənni sonuncu nəğməni oxuyub susdu. Sonra

diktor son xəbərləri oxumağa başladı. Xəbərin birində deyilirdi ki, dünən yaradıcılıq təşkilatının plenumu olmuşdur.

— Plenum olub?— deyə Orxan maraqla soruşdu.

— Bəli, çox maraqlı bir plenum oldu. Tənqid, özünütənqid, işgüzarlıq, səmimi yaradıcılıq söhbəti, — deyə plenumda şəxsən iştirak eləyən Salman öz təəssüratını danışdı...

Dünən saat onda professor iclas salonunun qabaq cərgələrindən birində oturmuşdu. Dramaturgiya haqqında söhbət eləyən natiqə qulaq asdıqca Orxan yadına düşür, fikirləşirdi. Bir dəfə ona elə gəldi ki, natiq tribunadan harasa getdi, yerində Orxan göründü, sərrast, kağıza-kuğuza baxmadan danışmağa başladı. Salman gözlərini iki-üç dəfə açıb-yumandan sonra Orxan harasa yoxa çıxdı. Salman rahat nəfəs aldı...

Professor maşını saxladı.

— Orxan, gedək, qonağımız ol. Yaxşı dovğa bişiriblər. Gedək...

— Yox, sağ olun, professor, işim var, getməliyəm.

Orxan maşından düşdü.

— Səhər görüşərik,— deyə professor əlini havada yellədi.

— İdarədə! — deyə Orxan gülə-gülə ona cavab verdi. Professorun dili:

— Gözləyirəm, bir yanıma gəl, görək əsərini neyləyirik. Vaxt keçir, yubandırmaq olmaz.

Professorun ürəyi:

«Sənin kimisinin başını pambıqla kəsmək lazımdır, yaramaz adam!..»

## DOQQUZUNCU FƏSİL

İlhamın ilk şerlər kitabçası barədə professorun yazdığı məqalə qəzetdə dərc ediləndən sonra xeyli səs-küy qaldırmışdı. O günlər redaksiyalarda, dərnəklərdə hamı ondan danışır, söz-söhbət bəzən saatlarla uzanırdı. İlhamın kimin oğlu olduğunu bilənlər, onun əsərləri və şəxsən özü ilə tanış olanlar, təəccüblə çiyinlərini çəkir, sonra «əşi, məsələ məlum!» deyib məqalənin mədhiyyə olduğunu söyləyir, «o boyda professorun» nəyin xatirinə belə elədiyindən baş aça bilmirdilər.

Kənar adamlar, əsil məsələdən xəbəri olmayanlar isə əksinə, bunu professorun həddən artıq qayğıkeşliyi ilə izah edirdilər: «Elə alimlərimiz var ki, ağzına su alıb durur. Sağ olsun, heç olmasa bu danışır».

Professor çox şad-xürrəm, özündən razı idi. Hamı ilə zarafat eləməyə çalışır, məqaləsini üzünə ağızdolusu tərifləyənlərə gülümsünə-gülümsünə cavab verirdi. Hiss edirdi ki, indi hər yerdə bu məqalədən söhbət gedir: «Belə eləmək lazımdır, ədəbi mühitimizdəki bu durğunluğu ancaq belə silkələmək, parçalamaq olar, ayrı cür yox...»

Təəssüf ki, professor söhbətin o biri başını eşitmirdi və duymaqdan da çox uzaq idi.

Orxan məqaləni oxuyandan sonra uzun müddət özünə gələ bilmədi. Elə bil döymüşdülər, sümükləri də sızıldayırdı.

Süst və yorğun-yorğun qəzeti qatlayıb stolun üstünə atdı, durub dəhlizə çıxdı. Gülalı ilə Cəfər dayanıb nə barədə isə danışırdılar. Orxan Cəfərdən kibrit istəyib papirosunu yandırdı. Bu zaman professor ləngərli yerişlə onlara sarı gəldi. Uzaqdan salam verdi:

— Elm mücahidlərinə eşq olsun!

Gülalının dişləri ağardı:

— Çox sağ olun, profeosor. Məqalənizi də oxuduq, professor, əla məqalədi. Elə bayaqdan onun barəsində danışırdıq, lap əladı. Qayğıdı bu bütün cavanlara!..

Professor gülə-gülə başını tərpətdi.

Ancaq Orxan dinmədi. Papirosunu sümürərək acı tüstüsünü ciyərlərinə doldurub kənara üfürdü. Gözünü Gülalının ağaran dişlərindən, Cəfərin qımışan çöhrəsindən çəkmədi.

Cəfərlə Orxan oğrun-oğrun baxışdılar. Salman onların da nəsə deyəcəklərini gözləyirmiş kimi, ötəri halda nəzərlərini Cəfərə və Orxana zillədi.

Cəfər irəlicədən Orxanla başladığı söhbəti Salmanın yanında davam etdirməyi lazım bilib dedi:

— Düzü, professor, mənim xoşuma gəlmədi. Açığını deyirəm. Özünüz bilirsiniz ki, mən sözün kəsəsini deyənəm.

— Onu bilirəm,— deyə Salman Cəfəri təpədən-dırnağa süzdü. — Sənin nədən xoşun gəlir ki, mənim məqaləmdən də xoşun gəlsin?

— Yaxşı şeyə həmişə yaxşı demişəm, professor.

Salman dözmədi, çərtdi:

— Yaşda məndən böyük olsan da, sənin mənim yazdığımı qiymətləndirməyin hələ tezdi. Sən hələ elm üçün nə eləmisən ki?

Cəfərin ürəyinin yaralı yerinə toxunan sözlər yeddi qatından keçdi. O dodağı əsə-əsə:

— Mərdimazarlar qoymayıb, Salman,— dedi. — Qarnı qurdlular, paxıllar qoymayıb.

Orxan söhbətin elmi sahədən ayrı səmtə baş alıb getdiyini gördükdə sözə qarışdı:

— Tərifi çox idi, professor.

— Hə? Tərifi çox idi?

— Bəli. Tərif də, özünüz bilirsiniz ki, tiryək kimi bir şeydi, öldürür.

Salman ona da kəskin bir nəzər saldı:

— Düz deyirsən, — dedi, — necə ki, bəzilərini öldürüb. — Bu sözlərdəki kinayəni duymamaq mümkün deyildi. Onların arasında son vaxtlar belə söhbətlər tez-tez olduğuna görə buna Salman da adət eləmişdi, Orxan da, Cəfər də. Onlar bir-birini sancırdılar, kimin əlinə harda fürsət düşsəydi, orda. Bəzən elə hallar olurdu ki, bir-birini görməyə gözü olmayan iki nəfər iclasda nəyinsə xatirinə—«obyektiv adamdır, kişiynən düşmən də olsa, yaxşı cəhətini inkar eləmir»,— desinlər deyə, rəqibini ağızdolusu tərifləyirdi. Onların silahları, bıçaqları yox idi, onların yeganə silahı söz idi; tikanlı söz, acı söz, qılıncdan da kəsərli, zəhərdən də zəhərli söz. Burda səbir eləmək lazımdı, məqam gözləmək gərəkdi. Üçlük çıxaranın qabağına beşlik çıxarmaq vacib idi, ancaq vaxtında.

Professor onlarla «ağız-ağıza verməyin» mənasız olduğunu hiss eləyib əlini yelləyərək şöbəyə tərəf addımladı.

Professor gedəndən sonra Orxan Cəfərin üzünə mənalı bir nəzər saldı. Cəfər dünyagörmüş adamdı; hər sözü, işarəni o dəqiqə başa düşür, baxışdan söz anlayırdı. Cəfər ciddi və sınayıcı nəzərlərlə Gülalıya diqqət yetirən Orxanın fikrini onun gözlərindən oxudu. Onlar bir-birini təqdir edərək gülümsündülər. Orxan Gülalıdan soruşdu:

— Gülalı, professorun məqaləsi yaxşıdır? Gülalı gülümsünərək:

— Sən də çox dərinə getmə də!— dedi.— Bunları mən səndən yaxşı tanıyıram. Tərifdən yaman xoşları gəlir. Nə işinə var? Denən, yaxşıdı, qurtarsın getsin, səndən nə gedir?

— Yaxşı olmayan bir şeyə necə dilin var gəlir ki, yaxşı deyirsən?!

Gülalı gözünü yerə dikdi.

***

Axşam, əl-ayaq yenicə yığışanda kimsə professorun evinə zəng çalıb onu təbrik elədi. Salman dəstəyi yerinə qoyandan sonra Nadirəyə üz tutdu:

— Məni üç gündür az qala bütün şəhər təbrik eləyib, sən isə susursan.

Salman məqalə çıxandan gözləmişdi, ancaq Nadirə nə idarədə, nə də evdə ona yanaşıb bir söz deməmişdi, öz ərini təbrik eləməmişdi. Quru təbrikə nə var? Nadirə məqalənin bu qədər «tərifli» olduğunu əvvəllər təsəvvürünə belə gətirə bilmirdi. Ancaq oxuyandan sonra onun əl-ayağı yerə yapışdı və o, dərin fikrə getdi: «Deməli, Salman mənim sözümü saymadı, məqaləni çap elətdirdi. Tənqiddən də nəticə çıxarmadı, Orxanın tənqidindən. İnadkarlıq eləyir, ancaq bu, yersiz, axmaq inadkarlıqdır».

— Belə şey üçün mən səni təbrik etmək istəməzdim, Salman!

— Niyə?

— Ona görə ki, bu məqalə deyil, mədhiyyədir.

— Amma hamı tərifləyir.

— Söyənlər, dodaq büzənlər tərifləyənlərdən çoxdur, Salman!

— Sənə elə gəlir, Nadirə! Burda söyüləsi heç nə yoxdur. Cavan şairdir, qoy həvəslənsin, daha yaxşı şerlər yazsın. Qəlbiqaralıq niyə eləyirsən, mən başa düşmürəm?

— Yox, Salman, yanılırsan.— Nadirə ah çəkdi.

— Bəli, mən axır vaxtlar başa düşmüşəm ki, sən paxıl adamsan. Bəli, paxıl, özü də özgə adamın paxıllığını eləsən, yenə dərd yarıdır, sən öz ömür-gün yoldaşının paxıllığını eləyirsən. Bax, bu qəribədir, çox qəribədir. Kimə desən inanmaz.

— Düz deyirsən,— deyə Nadirə incimiş halda cavab verdi,— buna heç kəs inanmaz.

— Fəxr eləməkdənsə, sevinməkdənsə, dodaq büzürsən. Axı, sən mənim həyat yoldaşımsan, gərək sevinəsən, öyünəsən!— O, səsini qaldırdı.

Nadirə həvəssiz dedi:

—Əgər mən savadsız bir ev qadını olsaydım, bəlkə də fəxr elərdim. Ancaq indi... yox, fəxr eləməli bir şey görmürəm, Salman, əksinə, utanıram. Bu məqalən məni lap utandırdı, Salman.

— Eh, Nadirə, Nadirə!..

Nadirə də köksünü ötürüb eyni ahənglə dedi:

— Eh, Salman, Salman!..

***

Düz bir həftə sonra isə Nadirənin məqaləsi çap olundu. Düzdür, çox çətinliklə dərc elədilər, çünki, indiyə qədər redaktor belə şey körməmişdi. Bir-birini rədd və inkar edən məqalələrə rast gəlmişdi, ancaq beləsinə yox. Onun təəccübünə və heyrətinə səbəb olan cəhət bu idi ki, Nadirə öz ərinin — professorun yazdığını, demək olar ki, alt-üst edir, daşını daş üstə qoymurdu. Redaktor əvvəlcə qorxdu. Professorun əleyhinə, tutduğu mövqeyə qarşı yazılmış bu yazını dərc etməkdən çəkindi. Redaktor iki adamdan ehtiyat edirdi: əvvəla, professordan. Onun bir sözünü hələ iki eləyən olmamışdı. O, redaktordan möhkəm inciyəcəkdi; haqq-salamları vardı, bircə dəfə zəng eləyib: «Ayıb deyilmi?»— desəydi, bəs idi. İkincisi, İlhamın atasından ayıb idi. Redaktor onun da yanında pis olmaq istəmirdi.

— Bəlkə bir az da yumşaldaq, belə çox sərtdir.

— Yox, yox yoldaş redaktor, heç cür olmaz.

— Axı yaxşı deyil, əriniz inciyəcək. Bir evdə...

— Bu, elmi-ədəbi mübahisədir, burada qorxulu heç nə yoxdur.

— Yaxşı, — deyə redaktor böyük bir çətinliklə razılıq verdi. Ertəsi gün məqalə çap olundu.

Politexnik institutunun qabağındakı köşkdən səhər tezdən qəzet alanda Nadirənin ürəyini sevinc qarışıq bir kədər bürüdü. Ona görə sevinc qarışıq kədər ki, bu məqalə ər-arvadın ədəbi mühitdəki mövqelərinin müxtəlifliyini aydın göstərməklə bərabər, evdə də böyük

söz-söhbətə səbəb olacaqdı. Bir də bu sözləri o, ərinə evdə çox demişdi, ancaq Salman eşitmək istəməmiş, qulaqardına vurmuşdu. Qoy indi hamı bilsin, hamı eşitsin. Bu gün sakit dənizdə tufan başlayacaq, qoy başlasın, Nadirə heç nədən qorxmur.

***

«Mən heç nədən qorxmuram, qorxmuram!» Əsəbləri gərilə-gərilə belə deyən Nadirə az keçməmiş bu işin çox da asan başa gəlməyəcəyini düşünüb üşüyən kimi oldu. Məqaləsinin çap olunduğunu görəndə ürəyini çulğayan sevinci iki-üç dəqiqə sonra üzücü bir kədər üstələməyə, onun işıqlı gözlərinə kölgə salmağa, əl-ayağını soyudub ümidsizləşdirməyə başladı. Məqalənin evdə qoparacağı tufanı nədənsə indiyə qədər tam aydınlığı ilə təsəvvürünə gətirə bilməyən Nadirə qəzeti əlinə alıb evə sarı gələndə vahimələndi. Ünvanına deyilmiş kiçicik bir tənqidə dözümü olmayan Salman bu kəskin məqaləyə, onun ağır və sarsıdıcı ittihamlarına dözə biləcəkdimi? Canı-başı da möhkəm deyil, birdən kişiyə bir şey olar, sonra gəl bunun biabırçılığının altından çıx görüm, necə çıxırsan. «Arvad qəsdən kişisinin bağrını çatlatdı!» — deyənlərin tənələrini o, indidən eşitməyə başladıqda qorxusu, peşmançılığı qat-qat artdı. O, bir alim kimi, mühakimələrinin, fikirlərinin düzgünlüyünə, obyektivliyinə əmin idi. Dürüst, sağlam əqidəli alim, — əgər elmin inkişafını hər şeydən, hətta şəxsi ad-sanından da üstün tutursa, — Nadirənin mülahizələrinin həqiqi olduğunu etiraf edib razılaşmalı, onun əlini sıxıb nöqsanlarını göstərdiyi üçün minnətdarlığını bildirməli idi. Amma nə edəsən ki, Salman belə adam deyildi, o, kinli adam olduğu, öz mənliyini və qürurunu hamıya qarşı qoyduğu üçün ondan belə şeyi gözləmək olmazdı. Əgər Salman özgə adam olsaydı, Nadirə bunlara ehtiyac da duymazdı. Acığına gəlib qoy gəlsin. Nadirə ilə danışmayacaq, qoy danışmasın. Onun əsərlərini qurdalayıb tənqid eləyəcək? Buyursun. Bəli,belə olsaydı, dərd yarı idi. İşi çətinləşdirib dolaşdıran bu idi

ki, o yad deyildi, onun öz əri — yarıcanı idi. Bir damın altında yaşayırdılar, əlləri bir süfrəyə uzanırdı, bir yastığa baş qoyurdular.

Bunları fikirləşdikcə Nadirə heysizləşir, ayaqlarını zorla sürüyürdü. Köşkdən evlərinə qədər olan yol uzaq deyildi, ancaq ona uzaq və yorucu görünürdü. Blokun qapısına çatdı.

Bu ara qulağının dibində eşidilən tanış səs onu ağır düşüncədən ayırdı.

— Nadirə xanım, salaməleyküm!

Bu, qonşu həkimin səsi idi.

— Salam, doktor, — Nadirə qanrılıb onun həmişə ən ağır dəmlərdə belə gülümsər görünən üzünə baxdı.

— Sizə nə olub, kefsizsiniz?

— Yox.

— Mənim canımçın, qorxuzdunuz məni.

— Elə bir şey yoxdur.

Nadirə taqətsiz addımlarla pillələri qalxmağa başlayanda həkim onun qoluna girib dayaq durdu.

— Nadirə xanım, sizdən bir şey soruşum.

— Buyurun.

— Bugünkü qəzetdə çıxan məqalə sizindi?

— Məqalə?.. hə, hə, mənimdi.

— Elə şey olmaz, mənim canımçın.

— Olanda olur!— deyə Nadirə köks ötürdü.

— Mənim canımçın, oxudum məqaləni, gözüm çıxdı kəlləmə. Dedim, mənim canımçın, bu bizim Nadirə olmaz. Dedim, mənim canımçın, bu ayrı Nadirədi.

— Yox, mənəm.

— Professor özü bilir?

— Hələ oxumayıb.

— Mənim canımçın, kişi dilxor olacaq.

—…

O yenə zarafatından qalmayıb əlavə etdi:

— Mənim canımçın, bu nə aşağıdan tənqiddi, nə də yuxarıdan, necə deyərlər, bu böyürdən tənqiddi, mənim canımçın.

Nadirə qəmli-qəmli qımışdısa da, həkimin sözlərini cavabsız qoydu. həkim öz qapısının ağzında ondan ayrıldı.

Nadirə özünü zorla evə saldı. Qəzetləri stolun üstünə atıb yataq otağına keçdi. Divanda oturub kitab oxuyan Ceyhun o biri otaqda çarpayının cırıltısını eşitdi. Dikəlib kitabı bir yana ataraq qəzetləri qabağına çəkdi. Mütaliə eləməyə başladı. Dəqiqələr əriyib ötür, Ceyhun idman xəbərlərini, xarici xəbərləri nəzərdən keçirir, qulağına arabir o otaqdan çarpayının cırıltısı gəlirdisə də, əhəmiyyət vermirdi.

Başlığı iri, qara hərflərlə yazılmış məqalənin ortasında təsadüfən «professor Salman Qurbanzadə» sözlərinə rast gələn Ceyhunu maraq götürdü. Elə həmin cümləni bütöv oxumağa başladı: «Professor Salman Qurbanzadə bugünkü Azərbaycan şerinin qarşısında duran tələbləri tamamilə unudaraq, sənət aləmində hələ ilk titrək və qorxaq addımlarını atmaqda olan gənc həvəskar şair İlhamın şerlərini yersiz, heç bir ədəbi-estetik ölçüyə uyğun gəlməyən bir şəkildə tərifləmiş, göylərə qaldırmış, beləliklə də obyektivlik hissini itirərək müasir şerimizin ümumi vəziyyətini təhrif etmiş, ən ümdəsi isə, İlhamın özünə böyük pislik və bədxahlıq etmişdir. Məqalənin müəllifi gənc bir ədəbiyyatşünas olsaydı, biz bəlkə də belə kəskin danışmazdıq, amma təəssüf ki...»

Ceyhunu sanki ildırım vurdu. O, məqalənin kim tərəfindən belə yazıldığına baxmayaraq, qəzeti qapıb yataq otağına qaçdı.

— Ana, atamı yenə qəzetdə tənqid ediblər,— deyə həyəcanla qışqırdı.

Çarpayıya üzüqoylu düşən Nadirə isə heç qımıldanmadı da.

— Özü də böyük məqalədi.

—…

Ceyhun məqalənin altına — müəllifin imzasına baxdı. «Nadirə Qurbanzadə» sözlərini oxuyanda nitqi batdı. Gözlərinə inanmırmış kimi, bir də oxudu. Yox, bu, həqiqət idi, həqiqət idi.

Ceyhun elə qapının ağzında dayanıb məqaləni başdan-ayağa oxumağa başladı. Məqalənin kəsərli, tutarlı sözləri Ceyhunun da ürəyini sıxırdı. Doğrudan da, burada acı, tikanlı sözlər vardı. Bu sözləri yazana onun acığı tutmaya bilmirdi. Amma bunu yazan anası idi, doğma anası!

Nadirə handan-hana çevrilib Ceyhuna baxanda oğlan oxuduğuna, gördüyünə inanmayan sayağı təzədən xəbər aldı:

— Bunu sən yazmısan?

Nadirə başını tərpətdi.

— Niyə?

Sual Nadirənin acığına gəldi və o, əsəbiliklə uşağın üstünə qışqırdı:

— Sən hər yerə başını soxma, yeri get dərslərini hazırla.

Ceyhun təəccüblə anasına diqqət yetirib başını qaşıdı, qapının ağzından çəkildi, sonra yavaşca sivişib həyətə— uşaqların yanına oynamağa getdi.

Salman çiynində qoşalülə, belində patrondaş, əlində «veşmeşok» şad, gülərüzlə içəri girdi. O, ovdan əlidolu gələndə belə şad olurdu. Çoxlu quş vurmuşdu.

— Nadirə! — deyə o, qapının açarını cibinə qoyub dəhlizdə səsləndi.

Nadirə rəngi ağarmış, gözləri dolmuş halda yataq otağının qapısı ağzında göründü. Həmişə deyirdi: «Ovun qanlı olsun». İndi dinmədi. Salman onun vəziyyətindəki çaşqınlığı görüb nigaranlıqla dilləndi:

— Nə olub?

—…

— Ceyhun hanı?

—…

— Uşağın başında nə var?— deyə o Ceyhuna nəsə olduğunu düşünüb süstləşmiş halda soruşdu.

— Heç nə!— dedi.

— Bəs axı nə olub, tez ol de. Ürəyimi partlatmaq istəyirsən?

Nadirə çaşqınlıq içərisində, bu dəqiqə dəhşətli bir hadisənin baş verəcəyini gözləyən adam təki qorxu içində dedi:

— Məqalə çıxıb.

— Nə? Hansı?

— O da... — Bu yarımçıq nida qurtarar-qurtarmaz Nadirəni yaş boğdu. Salmana hər şey məlum oldu. O, elə ov paltarında divana çökdü. Elə bil, dünəndən quşlara, ceyranlara, cüyürlərə atdığı güllələr dönüb onun özünün ürəyinə, bədəninə sancıldı. O, iniltili bir ah çəkdi. Alacalanmış gözlərini Nadirənin yaşarmış gözlərinə dikəndə dünən sinəsinə güllə dəydiyindən yıxılıb can verərkən ağlayan cüyür balasını xatırladı.

## ONUNCU FƏSİL

Salman bu ikicə gündə, demək olar ki, qocalmışdı. O boyda kişi büzüşüb-bükülüb yumağa dönmüş, şən, gülərüz çöhrəsi solub ağarmışdı. Deyib-danışmır, həmişə fikirli-düşüncəli gəzib dolanır, başını qaldırıb adamların gözünün içinə dik baxmağa utanırdı. Nadirənin məqaləsi Salmanın ürəyində sağalmaz bir yara açmışdı. Əgər o, arvadının yazdığını çap olunmamışdan əvvəl, əlyazması şəklində stolun üstündən götürüb oxumasaydı, bəlkə də ürəyi bu qəfil zərbəyə dözməyib partlardı. Onda Salman məqaləni cırıb yandırmaq istəmişdi, ancaq sonra fikrini dəyişib «Lənət sənə kor şeytan!» — demişdi. Həm də özü ondan qabağa düşüb məqaləsini çap etdirdiyinə görə Nadirənin təzədən bu məqaləni dərc etdirəcəyinə, o cavanın da, üstəlik Salmanın özünün də yazdığını heç-puç edəcəyinə o qədər də inanmamışdı.

Lakin Nadirə, görünür, heç vaxt öz elmi prinsipiallığından əl çəkmök fikrində olmayacaqdı.

«Məni öz evimdə öz adamımın əliylə vurdular», — deyə düşünən professor bilirdi ki, başqa heç kəs onu bu şəkildə vurmağa cəsarət edə bilməzdi.

Nadirə niyə, nəyin xatirinə belə eləyirdi? Bəlkə onun bir məqsədi vardı? Olmazdımı? Bəlkə o, daha Salmanı sevmir, ondan bezib? Ya bəlkə o, doğrudan da ərinin ad-sanına, şöhrətinə paxıllıq eləyir? Yox! Nadirə həmişə ərinə mehriban olmuşdu, onun yeməyinə, içməyinə, sağlamlığına, istirahətinə xüsusi diqqət yetirmiş, hətta, bu və ya digər elmi məsələ üstündə mübahisə edib bir-birini acılayanda da Nadirə söhbəti dəyişən kimi özü də dəyişmiş, əvvəlki mehriban, qayğıkeş qadın olmuşdu. Salman buna həmişə heyrət edirdi: çünki o özü bunu bacara bilmirdi. Əgər hirslənibsə, o, Nadirə ilə danışmaq belə istəməzdi. Belə hallarda qadın onun könlünü almağa çalışır, sakit, mehriban bir ədayla:

— Axı, bu mübahisənin bizim ailə həyatımıza heç dəxli yoxdur, — deyirdi. — Sən nə üçün belə eləyirsən? Əgər mənim dediyim bir şey sənin xoşuna gəlmirsə, nə üçün qaşqabağını sallayırsan? Elm elmdir, ailə isə ailədir.

— Bu mübahisələrdən mən yaman qorxuram, Nadirə. Mənə elə gəlir ki, bunlar bizi bir-birimizdən uzaqlaşdırır.

— Mən isə ayrı cür düşünürəm, Salman. Bu mübahisələrin bizim aramızdakı ailə səmimiyyətinə, məhəbbətinə gərək pis təsiri olmasın.

Salman Nadirənin məqaləsini qəzetdə görəndən sonra iki gün üzüqoylu yatdı, nə çörək yedi, nə bir kəlmə danışdı. Ancaq hər üç-dörd saatdan bir Nadirə özü kətilin üstünə qoyduğu külqabını aparıb boşaltmalı olurdu.

— Bacı, Salman, deyəsən, kefsizdi. — deyə Sədəf soruşanda Nadirə fikirli-fikirli cavab verdi:

— Hə, nasazdı... keçib-gedər...

Nadirə üzdə «keçib-gedər» deyirdi, ancaq içəridə ürəyini yeyirdi: «Birdən kişiyə xətər-zad toxunar, hirsindən, hikkəsindən başına bir iş gələr. Dəvə kimi kinlidir», — deyə düşünür, özünü danlayır, peşmançılıq hissi onu rahat buraxmırdı.

— Salman...

—…

— Dur çörəyini ye, Salman!

—…

—Məndən incimisən?

—…

— Sən mənim canım, dur ayağa. Ürəyim sıxılır, dur ayağa.

Ancaq Salman durmur, bu üzü üstdən o üzü üstə çevrilir, ona yanaşıb könlünü almaq istəyən Nadirəyə «xəyanətkar» deyərək təhqir edir, yenə acığı soyumurdu.

İki gün beləcə davam etdi: Nadirənin bütün sualları cavabsız qaldı.

«Gərək yazmayaydım», — deyə yenə o özünü danlayırdı. Hər yerdə hamı Nadirədən danışırdı: «Kişinin qızı o boyda professorun arxasını yerə qoydu!», «Nə qorxmaz arvaddı, ə, bu!», «Canım üçün, bir kişi bu cəsarəti eləməzdi ki, o eləyib», «Hələ bizim mətbuat tarixində belə şey görünməyib, pah atonnan!», «Arvad kəllədi, sən öl!», «Deyəsən, bir-birini sevmir bunlar!»

Bu söz-söhbətləri yaxşı ki, Salman eşitmirdi. Ancaq o həssasdı; o sözləri görməzə-bilməzə də eşidir, duyurdu.

Üçüncü gün Nadirə daha dözə bilmədi. Gəlib çarpayısının yanında oturdu. Əlini onun başına çəkdi:

— Salman, yaxşı da, qalx da. Uşaq kimi küsürsən, yekə kişisən...

—…

— Dur, işə gecikirsən.

Salman dikəldi. Onun üz-gözündə bir heybət, qorxu vardı. Gözləri qızarıb iriləşmişdi.

— İndi mən nə üznən camaatın arasına çıxım, hə? Cavab ver, nə üznən çıxım? — deyə o, gər səslə qışqırdı. — Nə üznən çıxım, nankor arvad?

— Salman, sakit ol, yalvarıram, sakit ol, — deyə Nadirə onun hirsini soyutmağa çalışdı.

— Nə sakit ol? Necə sakit olum? Məni biabır elədin, yerə soxdun məni. İndi mən idarəyə necə gedim? Şöbəyə necə gedim?

Bu suallar Nadirəni də sarsıtdı. O, Salmanın düşdüyü vəziyyətin ağırlığını bütün dəhşətilə yalnız indi — o çığıra-çığıra bu sözləri deyəndə dərk elədi.

Utanırdı, Salman utanırdı. Bəlkə də onu ayrı bir adam tənqid eləsəydi, bu qədər yandırıb təbdən-haldan çıxarmazdı. Salman bunu heç cür sinirə bilməzdi.

— Sən bu ailəni dağıdacaqsan, sən bu evi məhv edəcəksən! Elə, nə bilirsən, elə!..Mən səninçün yad adamam daha, özgəyəm. İki qoçun başı bir qazanda qaynamaz, deyiblər. Düz imiş! Atan o tərəfdən, sən bu tərəfdən, bayraq qaldırın, rüsvay eləyin məni, öldürün məni, axırıma çıxın mənim. Düşmənim ocaq başında imiş. Mənim dərdimə bax, azarıma bax!

Salman boğazının damarları göyərə-göyərə iki gündən bəri yığıb saxladığı kinini tökdükcə Nadirə nəfəsini udub rəngi ağarmış halda qulaq asırdı. Salman çox söz dedi, Nadirə dözə bilmədi, çiyinləri atıla-atıla təzədən ağlamağa başladı. Üç günün təkliyi, evdəki məzar sükutu, qan qaralığı göz yaşlarına çevrilib yanaqları aşağı axanda Salman səsini endirib susdu. Nadirə ağlayıb ürəyini boşaltdı. Salman bircə dəfə də olsa ona «Ağlama!» demədi. Sakitcə durub baxdı, baxdı. O nə qədər daşürəkli adam olsa da, Nadirənin ağlamasına tablaşa bilmirdi. Bununla belə o özünü saxladı. Nadirə gözünün yaşı qurumamış ərinə yaxın gəldi:

— Salman, — dedi, — Məni bağışla... Səni incitmişəm... Neynəyim, təbiətim belədir, özümlə bacara bilmirəm. Salman... o barədə daha danışmayaq. Vaxt gələr, yox, yox, heç bir vaxt-zad lazım deyil...

Salmanın hirsinin-hikkəsinin üstünə Nadirənin göz yaşları su çilədi. «Olan olub, keçən keçib, daha nə etmək olar? İndi dost-düşmən gülüncü olmuşam, üstəlik arvadla umu-küsü saxlasam, məsələ bir az da qəlizləşər. Bax, indi bu ağlayır qabağımda. Arvaddır, arvadın göz yaşı ovcunun içindədir. Ancaq o, aranı sakitləşdirmək üçün belə eləyir. Bildiyini dədəsinə verən deyil. Onu yaxşı tanıyıram. Kişi ol, Salman, özünü ələ al», — deyə düşünən Salman daxili gərginliyini boğmağa çalışaraq papirosunu sümürdü.

— Yaxşı, dur geyin, gedək işə.

Onlar həyətdə maşına mindilər.

Prospektə çıxandan sonra «Volqa» qanad açıb uçmağa başladı. Nadirə Salmanın hərəkətlərində bir qeyri-adilik görüb qorxuya düşdü.

— Yavaş sür, Salman...

— Yox, maşını aşırdacağam, Nadirə, səni də öldürəcəyəm, özümü də.

Maşının sürəti, doğrudan da, artdı!

—Ədə, yavaş!

Salman yanında oturan və həqiqətən də əl-ayağa düşən Nadirəyə baxıb güldü:

— Hə, canını nə çox istəyirsən? — dedi.

— Zarafatı boşla, sən allah.

Salman ayağını qazdan çəkdi:

— İndi də gedib milisə xəbər verərsən ki, bəs Salman məni öldürmək istəyirdi. Çox inandırıcı çıxar, Nadirə. Sən məni tənqid etdiyinə görə mən səni öldürmək istəyirmişəm. Çox ağlabatan şeydir.. Salman rişxəndlə «hi, hi, hi» eləyib güldü... Nadirə başa düşdü ki, əri daha ona o qədər etibar eləmir. «Ondan hər şey gözləmək olar», —

deyə düşünür. Bu, onu çox kədərləndirdi, bu, Nadirənin neçə gündə çəkdiklərinin hamısından ağır və dözülməz idi.

Onlar idarəyə qoşa gələndə hamı təəccüb elədi: «Bunlar necə ər-arvaddırlar?» İşin axırına yaxın professorun şöbəyə gəlib işçilərlə səmimi salamlaşandan sonra Nadirəyə üz tutub həlim səslə:

— İlqar bizə iki bilet götürüb, axşam konsertə gedəkmi, Nadirə? — deməsi bu heyrəti daha da artırdı.

«Elmi hər şeydən uca tuturlar. Belə tənqidə dözmək ancaq və ancaq böyüklük əlamətidir!» —deyə ürəyindən keçirənlər də az deyildi…

## ON BİRİNCİ FƏSİL

Gülmirənin yanaqları pörtmüşdü, ürəyi şiddətlə döyünür, gözləri məst adamın gözlərinə oxşayırdı. Sifətinin qızartısı onu daha da qəşəngləşdirmişdi. O gördüyünə inanmaq istəməyənlər təki, hələ də mətbəə iyi verən boz cildli məcmuənin altmış beşinci səhifəsində iri, qara hərflərlə yazılmış adını, familiyasını təkrar-təkrar oxuyur, səhifələri dönə-dönə vərəqləyir və bundan indiyəcən heç vaxt, heç yerdə hiss eləmədiyi bir nəşə alırdı. Bu onun mətbuatda çap olunan ikinci məqaləsi idi. Birincisini hesaba almırdı; çünki göydəndüşmə bir şey kimi idi: necə yazıldığı, niyə yazıldığı, qəzetdə nə üçün Gülmirənin adına çap olunduğu ona yuxu kimi gəlirdi. Amma bu? Bunda onun az da olsa zəhməti vardı. O, əzab çəkə-çəkə günlər, aylarla həmin mövzu üzərində düşünmüşdü. Düzdür, Orxan onun «libasını» başdan-ayağa dəyişmişdi. Hər halda həmin məcmuədə akademiklərin, professorların, elmlər namizədlərinin adları ilə bir cərgədə onun da adı vardı. Məgər bu balaca işdi, kiçik müvəffəqiyyətdi? İndi ona «qabiliyyətsiz», «istedadsız» deyənlər öz sözlərini geri götürərlər. Biri bax, o Nadirə xanım, biri də elə əri Əqdəm...

İnstitutda, şöbədə yoldaşları onu təbrik edir, əlini sıxırdılar. Gülmirə stolunun üstünə yığdığı müəllif nüsxələrinin üstünü yazır, dostlarına verirdi. Birini professora təqdim etmişdi. Nadirə xanımın payını aparıb stolunun üstünə qoydu və zəif səslə:

— Nadirə xanım, bir balaca məqaləm çıxıb, — dedi. — Sizinçün...

Nadirə nüsxəni götürüb baxdı, vərəqlədi:

— Təbrik eləyirəm! Axırıncısı olmasın. Çalış, daha yaxşılarını yazasan. Bu, Salman əmin tərifləyən məqalə deyilmi?

— Bəli, odu.

— Rəyini kim vermişdi?

— Özü vermişdi, Salman əmim özü.

— Oxuyuram, fikrimi deyərəm sənə.

— Çox sağ olun. — Gülmirə qayıdıb yerində oturdu.

Nadirə işini kənara qoydu. Gülmirənin məqaləsini oxumağa başladı. Elə bu an Gülmirənin ürəyində çağlayan sevinc hissinin üstünü bir qorxu dumanı aldı. Ona elə gəldi ki, indicə Nadirə — adamın ürəyini gözündən oxuyan bu qadın baxan kimi biləcək ki, məqaləni kim yazıb. Dəst-xəttindən, üslubundan tanıyacaq. Ancaq bu, çox ötəri bir hiss oldu. Ona gülməli göründü: «O ki əlyazması deyil. Bunu indi təkcə Nadirə yox, Orxanın özü də sübut eləyə bilməz»

Toxdadı.

Nüsxələrdən birini götürdü. Qələmi əlində xeyli donub qaldı. Orxana nə yazsın? Necə yazsın?

«Hörmətli iş yoldaşım Orxana...» Yox, bu çox soyuq və sönük çıxırdı. Gülmirənin ürəyindəki minnətdarlığın bircə zərrəsini belə bu sözlərlə duyub anlamaq mümkün deyildi.

Düşündü, çox düşündü: «Bəlkə heç verməyim? Bu daha yaxşı deyilmi? Yoxsa kişinin öz yazısını özünə qaytarmaq?! Üstündə də sənin adın! Verməsən də xətrinə dəyə bilər». Axırda hamıya yazdığı kimi ona da yazdı: «Hörmətli iş yoldaşım Orxana, xoş arzularla...» O

birilərin sonuna «müəllifdən» yazmışdı. Burada buna əli gəlmədi. Sadəcə adını yazdı, vəssalam!

Bu gün o, qəribə hisslərlə yaşayırdı. İnstitutda işlədiyi iki il ərzində birinci dəfə belə sevinirdi.

Gülmirənin bugünkü sevinci övladı olmayan, özgə uşağı götürüb saxlayan: «Mənim də övladım var, mən də anayam, sonsuz deyiləm!» — deyən və bununla da özünə, ərinə təsəlli vermək istəyən bir qadının sevincinə bənzəyirdi. Heç kəs bilməsə də, içəridə o özü, o yanda tez-tez nəsə yazan Orxan bilirdi ki, bu «uşaq» kimindir. Bəlkə də kənardan baxanlar özgə uşağı böyüdən ananı xoşbəxt sayırlar. Bu, ola bilər. Ancaq o ananın nə qədər gizli, sirli kədəri olur…

***

…Maşa xala ilə Əqdəm küçədəki oturacaqda yanaşı əyləşmişdilər. Əqdəm qolsuz köynək, pijama geymişdi. Qarı başına yeri ağ, göy haşiyəli yaylıq bağlayıb uclarını çənəsinin altında düymüşdü.

— Getdiyin yerlər necədir, hə? İndi Moskvanın yaxşı vaxtı olar.

— Yox, Moskvada deyildim, Maşa xala, Novosibirskdə idim.

— Oh, Novosibirskdə... — Qarı həyəcanla tərpəndi. —Əqdəmçik, axı, ora mənim vətənimdir, bilirsənmi?

— Doğrudan?

— Bəs necə, orada anadan olmuşam, orada böyümüşəm, gəncliyim o şəhərdə keçib, Əqdəm.

— Mən heç bilmirdim.

— Gedəndə mənə nahaq deməyibsən. Orda bizim qohumlarımız var. Ünvan verərdim, gedərdin, məndən də salam deyərdin.

Qarı elə dirçəlmişdi ki, Əqdəm onun həyəcandan sevincdən bu dəqiqə ağlayacağını gözləyirdi. Ancaq ötən müharibədə iki oğul itirmiş qarının kirpiksiz gözlərinin yaşı, deyəsən çoxdan qurumuşdu.

— Gözəl şəhərdir, çox gözəl şəhərdir! İndi o qədər təzə evlər, küçələr salınıb ki, getsən tanımazsan, Maşa xala, heç tanıya bilməzsən.

Əqdəmin sözləri onda xoş, unudulmaz təəssüratı, gənclik xəyallarını oyatdı: onlar kino lenti kimi Maşa xalanın gözləri önündən gəlib keçir, Əqdəm sanki qarının xəyala daldığını bildiyi üçün araya söz salıb onun fikrini dağıtmaq istəmirdi.

Qarı qalxdı, heç nə demədən ağır addımlarla otağına çəkildi, qapını dalınca çəkib bağladı. Əqdəm qarını başa düşürdü, o özü ilə, öz xatirələri, xəyalları ilə tək qalmaq istəyirdi.

Əqdəm yerindən tərpənmədi; qanrılıb Gülmirənin yoluna baxdı. Gəlmirdi. O, dünən günortaüstü gəlib çıxmışdı. Ancaq həmişəki kimi Gülmirə onu sevinclə, gülərüzlə qarşılamamışdı.

— Xoş gördük, Gülü!

—…

— Sənə nə olub, niyə dinmirsən?

—…

— Küsmüsən məndən?

—…

Gülmirənin heç bir suala cavab vermədiyini görən Əqdəm elə evin ortasındaca donub qalmış, qaşqabağını sallayıb, üzünü yana tutaraq pəncərə ağzında qollarını qoynuna qoyub dayanmış Gülmirəyə mat-mat baxmış, baxmışdı. Sonra köksünü ötürüb pencəyini, papağını çıxartmış, asılqandan asmış, üz-gözünə su çırpıb lal-dinməz gəlib stulda əyləşmiş, yorğun və incik baxışlarını Gülmirəyə zilləyib dayanmışdı.

— Gülü, ay Gülü...

—…

«Dinmir. Deyəsən, möhkəm inciyib. Onda da günah yoxdu. Dörd aydan çoxdu getmişəm. Haqqı var. Ancaq mən neyləyim, neyləyim mən? Deyirəm, çıx işdən, aparım səni özümlə. Buna nə özü

razıdı, nə anası. Yaxşı ki, anası qonşuluqda olur, yoxsa... — Deyə Əqdəm ürəyində götür-qoy eləyirdi: — Düşüb elmin dalıycan. Alim olmaq istəyir. Tərs kimi indi də ikicə günlüyə möhlət veriblər. Birisi gün çıxıb getməliyəm. Gedim, bu vəziyyətlə necə gedim? Getməyim, necə getməyim?.. İşdir də, neyləyə bilərəm?»

— Gülü, ay...

Gülmirə geri çevrildi, bərkdən:

— Gülü yoxdur, Gülü ölüb, — dedi. — Bildin? Ölüb, ölüb!.. — Qız elə bil, bu sözlərə bənd imiş, gözlərindən yaş sel kimi car oldu, ürəkdən, Əqdəmin indiyəcən görmədiyi, təsəvvür belə eləmədiyi bir hönkürtü ilə ağladı.

— Sən nə danışırsan, Gülü?!

— Məni niyə bədbəxt elədin, Əqdəm? Cavab ver, məni niyə bədbəxt elədin?

— Ay qız, bir sakit ol görək...

— İndiyəcən sakit oldum, bəsdi. İndi daha sakit olmayacağam. Olmayacağam!.. Qaytar mənim həyatımı, qaytar!..

Elə bil ağlamaq onun dərdini azca yüngülləşdirdi, ürəyindəki hirs-hikkə azaldı:

— Neçə aydı getmisən?

— Dörd aydı... —Əqdəm günahlarını boynuna alan adam kimi cavab verdi.

— Xeyr, dörd ay beş gündü!..

— Hə.

— Bəs heç demirsən, evdə adam qoymuşam, bəlkə ölüb-itib?! Bəlkə bir dərdi-azarı var?!

— Bilirəm, Gülmirə...ancaq...

— Ancaq nə? Deyəcəksən neyləyim, hə?! Qulluqdur də, hökumət işidir də... həmişə də belə deyirsən.

— Yox, belə olmaz, belə olmaz... — Deyə Əqdəm yaranmış vəziyyətin ciddiliyini dərindən-dərinə dərk edərək ona təsəlli verməyə

çalışdı: — Bu dəfə gedən kimi ərizə verəcəyəm. Qoy azad eləsinlər məni. Gəlib oturacağam evimdə-eşiyimdə. Daha bəsdir!..

— Sən özün fikirləş, Əqdəm. Mən də cavanam, mənim də arzularım var. Mən də istəyirəm başqa cavan qadınlar kimi ərim yanımda olsun. Heç bir dəfə səninlə teatra getmişəm? Yox! Hara getmişəm? Heç yerə! Heç yerə! Amma mənim arzum olub ki, səninlə şəhərə gəzməyə çıxım. Hamı sənin paqonunun ulduzlarına baxsın. Arzumdur da, niyə ürəyimdə qalsın?

— Düzdü, Gülü, düzdü...

Dünən Əqdəm çox böyük çətinliklə Gülmirənin könlünü almış, onu birtəhər sakitləşdirə bilmişdi. Tufan, deyəsən, ancaq zahirən yatmışdı. İçəridə, dərinlərdə baş qaldırıb arabir özünü hiss etdirən bu təlatümün kökü tamam kəsincə, Əqdəmin ürəyi rahat olmayacaqdı...

Gülmirənin, qoltuğunda kitab, ağır-ağır gəldiyini görən Əqdəm ayağa durub qabağına yeridi. Salam verdi, Gülmirə başını yüngülcə tərpətməklə salamını aldı.

Əqdəm onun qolundan tutdu:

— Axşam türk müğənnisinin konserti var, — dedi.

— Hə, bilirəm. Bizim yoldaşlar kollektiv gediş təşkil eləmişdilər. Bilet almışdılar, mən götürmədim. Dedim, eh, nəyimə lazım!..

— Mən götürmüşəm, Gülü! —Əqdəm şad xəbər verməyə tələsirmiş kimi, tez dilləndi. — Axşam gedərik.

Gülmirə cavab vermədi.

— Bu nə kitabdır? — deyə Əqdəm onun qoltuğundakı kitabı qapıdan içəri keçəndə çəkib götürdü.

— Bizim kitabdır, — deyə Gülmirə sakitcə dedi və özünün belə deməsinə təəccüb elədi.

— Necə yəni bizim kitabdır?

— Məni təbrik edə bilərsən, Əqdəm, məqaləm çıxıb.

— Hanı?

—Əlindəki kitabda.

— Kitabda?

Əqdəm göy cildli kitabı tez-tez vərəqləməyə başladı. Səbri çatmadı, mündəricəsinə baxdı. Gülmirənin adı, familiyası yazılmışdı.

Səhifəsini tapıb açdı, Əqdəm sanki bu günü çoxdan gözləyirmiş. Bircə anda ürəyini sonsuz bir sevinc bürüdü, eyni ilə göylərdə uçduğu zamanlarda olan kimi özünü yüngül və xoşbəxt hiss elədi. Nəhayət, Gülmirənin də əsəri çıxdı. Kitabda, alimlər arasında...

— Gəl səni təbrik edim; Gülü! — deyə o, irəli yeriyib Gülmirənin əlini sıxdı. Sonra ehmalca özünə sarı çəkib saçlarından öpdü, — Gün o gün olsun ki, böyük kitabların çıxsın!

— Elə bir şey deyil, — deyə Gülmirə pörtmüş halda cavab verdi. «Sağ ol, Orxan!» — Ürəyindən keçirdi. Onun sifətindəki, baxışındakı dəyişiklik Əqdəmin gözündən yayınmadı.

— Sənə nə olub? Yanaqların qızardı. Yəqin, sevincdəndi, hə?

— Hə, Əqdəm, düzü, yaman sevinirəm.

— Məni də sevindirdin, Gülü! Özün hiss eləməmiş olmazdın ki, mən sənin əsər yazacağına o qədər də inanmırdım.

— Bilirdim. Təkcə sən yox, çoxları inanmırdı.

Əqdəm stul çəkib oturdu. Məqaləni oxumağa başladı. Gülmirə paltarını dəyişdi, şifonerə qoyanda Əqdəmin dünən gələndə gətirdiyi şubaya bir də baxdı. Mətbəxə keçib yemək hazırladı.

— Mütəxəssislər nə deyirlər?

— Tərifləyirlər, Əqdəm, — Gülmirə ona baxmadan cavab verdi.

Kimlər oxuyub?

— Professor oxuyub. Nadirə oxuyub.

— Nadirə nə deyir?

— Dedi ki, yaxşıdır. Təbrik elədi.

— İki ilə, inşallah, müdafiə edərsən. Sənin müdafiə elədiyin gün gərək mənimçün bayram ola. «Dostlquq» restoranında sənə, sənin

yoldaşlarına gərək bir banket verəm ki, illər uzunu dadı damaqdan getməsin.

— Çox sağ ol, Əqdəm!..

— Ancaq çalış, yaxşı alim ol, barmaqnan göstərsinlər səni. Elə deyil?

—Əlbəttə, elədir...

***

Axşam Yaşıl teatrın qabağında adam əlindən tərpənmək olmurdu. Teatrın dörd yanı gömgöy ağaclarla əhatə olunmuşdu; elə bil, teatr meşə içində bir tala idi. İçəri keçənlər yanaşı gəzişir, balaca meydançada dövrə vururdular. Yuxarıdan baxan olsa, adamlardan ibarət bir dairənin təkər kimi fırlandığını görərdi.

Gülmirənin əynindəki paltar elektrik işığı altında alışıb-yanırdı; adama elə gəlirdi ki, göz kimi qızaran o nöqtələr indicə alova çevrilib, hərbi geyimli o cavanın yanınca hərlənən bu gözəl gəlini yandırıb külə döndərəcək. Ancaq yox, o, közərə-közərə gəzirdi.

Birinci zəng vuruldu. Adamlar yavaş-yavaş cərgədən çıxdılar, dairə pozuldu və oturacaqlar dolmağa başladı.

Əqdəm çoxdan Gülmirə ilə nə teatrda, nə də kinoda olmuşdu. Bu axşam onun üçün xüsusilə mənalı və gözəl idi. Onlar öz yerlərini tapıb yenicə oturmuşdular ki, kimsə dedi:

— Gülmirə, salam, sən də buradasan? Gülmirə çevrildi.

— A, Orxan, salam! Cəfər də buradadır ki!.. Orxan soruşdu:

— Bəs sən bayaq bilet götürmədin axı?

—Hə, götürmədim. Əqdəm götürüb. — Gülmirə azca qızardığını özü hiss elədi. Əri ilə Orxanı və Cəfəri tanış eləmək lazım olduğunu az qala yadından çıxarmışdı. Əlini irəli uzadıb: — Tanış ol, Əqdəm, mənim iş yoldaşlarımdır, — dedi, —Orxan tanış ol, mənim...

Əqdəm qalxıb arxa cərgədən əlini ona uzadan Orxanın əlini tutdu. İkisi də bir-birinin əlini möhkəm sıxdı və Orxan düz onun gözlərinin içinə baxdı. Orxan Əqdəmi birinci dəfə görürdü. Onun geyimi, üzünün xoşbəxt və məmnun ifadəsi Orxanın ürəyində qəribə hisslər oyatdı: «Niyə də xoşbəxt olmasın, xoşbəxtlik yanında oturub!»

Orxan Əqdəmin boynunun ardına, poqonlarına, enli kürəyinə baxır, gizli bir duyğu onun sinəsində alışıb-yanan hisslərin əbəs olduğunu dönə-dönə qulağına pıçıldayırdı. Orxan məyuslaşırdı. Ona elə gəlirdi ki, Əqdəmin arxada, boynunun ardında da iki gözü var; o, Orxanın ürəyinə nüfuz edir, ordakı qəribə, anlaşılmaz duyğuları görür, oğlanı məzəmmət eləyirdi: «Eyib olsun, Orxan, özgə səadətinə göz dikmək mərdlik deyil, Orxan!..»

Elə bil, Gülmirə də bu axşam İstanbul müğənnisinin məlahətli səsindən ləzzət ala bilməyəcəyini irəlicədən görüb narahat olmuşdu. O, yerində tez-tez qurdalanır, Əqdəmə sığınıb hərdən qulağına nəsə pıçıldayırdı.

Konsert başlanmışdı. Gözəl, sarışın saçlı bir türk qızı səhnədə həzin və kədərli, məlahətli və oynaq mahnılar oxuyurdu.

Orxan onların ikisinin arasından səhnəyə baxırdı. Gülmirə isə Əqdəmə çox yaxın oturduğundan Orxan tez-tez boylanmalı olurdu.

«Gecə keçmiş yarıdan,
Aman ya-ar...:

— deyə xanəndənin pərdə-pərdə gah enib, gah qalxan səsi Orxana yuxularda eşitdiyi sehrli səsləri xatırladırdı. Bu axşam qəribə axşam idi. Bu axşam nəğməylə, musiqiylə, kədər və sevinclə nəfəs alan bir axşamdı. Orxan bu gecəni çətin unudardı.

## ON İKİNCİ FƏSİL

Şəhərdə görünməmiş istilər başlanmışdı. Günəş dənizdən baş qaldırıb çıxandan ta uzaqlarda gözdən itənəcən yeri-göyü yandırıb-yaxırdı. Qır döşənmiş yollar, səkilər elə yumşalmışdı ki, yeriyəndə adamın ayağının izi qalırdı. Axşam çağları suçiləyən maşınlar küçələri dolaşıb isladanda yerdən buğ qalxırdı.

Damların çardağı altında, navalçalarda, hündür ağaclarda yuva salmış boz sərçələr dalda yerə qonaraq ağızlarını taqətsiz-taqətsiz açıb yumurdular.

Şəhərdən adam xeyli azalmışdı; bəzi ailələr yaylaqlara, Abşeron bağlarına, dəniz kənarına axışıb getmişdilər.

Bu istilər Müseyibin vecinə deyildi, giley-güzarı yox idi, çünki o, yay-qış həmişə yük daşımışdı; camaat soyuqdan donanda o, barmağı ilə alnının tərini silərək yerə tökmüşdü. Onu narahat eləyən isti yox, Salman idi, qızı Nadirə idi.

Salmanın o günkü soyuqluğu, gözlərindəki istehza, dodaqlarındakı ikrah qarışıq təbəssüm vaxt ötüb sovuşduqca ona daha çox yer eləyirdi, yeddi qatından keçirdi.

«Demək, belə... Mənim yükçü olmağım bunun şəninə kəsir imiş. Böyüyüb. Alim olanda nə olar? Ağac bar verəndə başını aşağı dikər. Tfu! Mənim bəxtim belədi. Heç kəsdən yarımadım». Kişi ürəyinin lap dərinliyində kürəkənindən çox-çox incidiyini duyub kədərlənirdi. Əvvəllər belə deyildi. Əvvəllər gələndə Müseyibi ayrı cür qarşılardı. Nərd oynayardı. Qonaq çağırsaydılar, Müseyibi də özləri ilə aparardılar. Onda Müseyibin əlinin bütün qazancı təzəcə uyuşmuş, hələ bərkdən-boşdan çıxmamış bu kiçik ailənin cibində, əynində və süfrəsində idi. Ötən illərdə poçt işçiləri hər ay bir dəfə Salmanın qapısını döyüb pul kağızı gətirəndə o özü də, arvadı da hədsiz dərəcədə sevinirdilər, bu kişinin yaxşılığının əvəzini necə

çıxacaqlarını düşünüb: «Sağlıq olsun, əlimiz bir yerə çatar, biz də adamlığımızı göstərərik» — deyirdilər. Çünki onda Salman adicə bir aspirant idi. Onda Müseyibin vağzalda onun-bunun yükünü daşımasının Salman üçün heç bir eybi-filanı yox idi. Bəli, onda belə idi. Amma indi... indi bu, Salmanın ad-sanına ləkə imiş. Hambal Müseyibin kürəkənidir. Bundan ehtiyat eləyir».

Sorğular-suallar çözələnir, kişi düşündükcə qızının da ona göstərdiyi canıyananlıq, qayğıkeşlik bir saxtakarlıq pərdəsinə bürünüb onun gözlərində əriyir, heç olub gedirdi.

«Al bu pulu, get özünə yaxşı bir kostyum al». İndi başa düşürəm bu nə demək imiş. Bu paltarda qapılarına gələcəyimdən utanırmışlar. Pəh!.. Sənə nə oldu, qızım? Axı sən mənim istəkli qızım idin. Gözümün yağını, əlimin qazancını sənə yedirtdim axı, bala, budumu mənim haqqım? İndi sən də öz doğma atanı bəyənmirsən? Əgər belədirsə, mən sizin qapını açıb girmərəm. Yox, heç vaxt. Axı, bizi bir-birimizdən ayıran nədi, bala, paltardı? Təkcə paltar?»

Saat beşdə Rəhim işdən gəldi, yorğun, halsız-taqətsizdi. Qara köynəyi tərdən islanmışdı. Babası taxtın üstündə balışa dirsəklənib uzanmışdı. Salamlaşdılar. Rəhim yuyundu, sərinləndi. Sədəf ertədən atılama hazırlayıb qoymuşdu. Rəhim süfrə salıb babasını da dəvət elədi. Ancaq kişi əl vurmadı: «İndicə yemişəm!» — dedi.

Rəhim çörəyini yeyib qurtarandan sonra Müseyib kişi damağına bir papiros yandırıb qoydu, sorğu-suala başladı:

— Ceyhunla yaşıdsan, heylədimi, Rəhim?

— Bəli, baba.

— O da bu il doqquzuncunu tamam elədi?

— Bəli, baba.

— Özü necə oğlandı, bala?

— Oğlandı da.

— Mən o gün göz qoydum. Deyəsən, aranız sərindi, heylədimi?

Rəhim dinmədi. Xalası oğlu haqqında giley eləməyi, onun soyuqluğunu, özünü çəkməyini babasına deməyi əskiklik sayıb, kişinin sualının üstündən ötmək istədisə də, mümkün olmadı. Baba israr edəndə dedi:

— Xalam oğlu olsa da, xoşum gəlmir, baba.

— Nə təhər yəni?

— Lovğadır, özünü dartır.

— Lovğalanırsa, heç. Lovğalıq çox yaman mərəzdir, bala. Kimi ki, cəngəlinə çaldı, ondan çətin adam çıxar.

— Bir dəfə mənim ürəyimə elə toxunub ki... — deyə Rəhim incik səslə davam elədi.

— Nə təhər yəni? Nə üstə, bala?

— Onda «Volqa»nı təzə almışdılar. Ceyhun maşında idi. O günəcən elə bilirdim ki, biz qardaşıq, bir evin oğluyuq. Elə bilirdim o maşın mənimdi də. Dedim, qapını aç, mən də minim. Başını pəncərədən çıxarıb ayaqlarıma baxdı: «Ayaqların palçıqlıdı, get o gölməçədə yu, sonra gəl min», — dedi. Bu söz mənə çox toxundu. Ayaqlarımda palçıq-zad yox idi. Olsaydı, əlbəttə, inciməzdim.

«Ağlına-kamalına qurban olum, bala!» —deyə Müseyib kişi heyran-heyran nəvəsinə baxıb susdu. Axşam Sədəf gələndə ikilikdə Nadirədən, Rəhimdən söhbət açdılar.

— Elə o vaxtı, — deyə Sədəf kədərli halda sözə bişladı. — Cahangir rəhmətə gedəndən sonra ev-eşik məni sıxdı, lələ. Otura bilmədim. İş yox, sənət yox.

Uşağı dərsə yola salandan sonra elə bilirdim divarlar üstümə gəlir. Onda Nadirəgilə gedib-gəlməyə başladım. Görürdüm ev-eşiyi tör-töküntü olur. Qonaqlı-qaralı evdi. Gələn var, gedən var... Əl uzatdım, kömək elədim. Yazıqdı bacım, dedim, həm idarədə işləyir, həm də evdə. Beş dəqiqə fürsət tapan kimi yenə kitab, qələm... Bəlkə sən bilmirsən, lələ böyük adamdı. Üç-dörd dənə, bax, bu qalınlıqda, — O, baş barmağı ilə şəhadət barmağını maşa kimi ayırdı, — Kitabı

çıxıb. Hərəsindən birinin də üstünü yazıb mənə bağışlayıb. Deyib, bunlarda sənin də əməyin var, bacı. Demişəm, bıy, mən heç yazı-pozu bilmirəm a, bacın ölsün. Deyib, heylə demə, sən olmasaydın, bunları yaza bilməzdim, ev-eşik, xırım-xırda iş qoymazdı, Sədəf. Mən, düzü, ay lələ, bacımdan yerdən göyə qədər razıyam. O olmasaydı... — Sədəf doluxsunub susdu...

Müseyibin eyni açıq idi. Bu gün təzə işə girmişdi. — Azneftin nəhəng binasının yanındakı dükanda gecələr kişik çəkəcəkdi.

— Xoruzunu qoltuğuna verimmi, balası?

— Verə bilirsən, ver. —Rəhim domino daşlarını qarışdıra-qarışdıra cavab verdi.

— Nədən oynayaq?

— Nədən deyirsən, ondan.

Müseyib bir az fikirləşib dedi:

—Əgər məni udsan, lazım olan bütün kitabları mən alaram. Əgər sən uduzsan, məni dəryada bir kəşti seyrinə çıxardarsan. Oldu?

— Kəşti nədi, baba?

— Kəşti? Bilmirsən kəşti nədi?

— Yox, baba, deyəsən, köhnə sözdür, hə?

— Kəşti, yəni gəmi. Hə, necədir, razısan?

— Razıyam.

Sədəf xəbər aldı:

— Bəs tamaşa eləyənə bir şey düşmür?

— Paho, səni lap yaddan çıxarmışıq, ana. Yaxşı, babam sənə də bir şey alar.

—Ədə, bura bax, sən elə danışırsan ki, elə bil, oyunu udub durubsan.

— Mən aparacağam, ana, buna şübhə eləməyə bilərsən.

Babası əlini Rəhimin çiyninə vurdu:

— Cücəni payızda sayarlar, quzu bala. Daşlar şaqqıltı ilə taxtaya dəyir, düzülürdü. Baba-nəvə deyib-gülürdü. Həyətdən eşidilən

gülüş səsləri, domino daşlarının şaqqıltısı Sədəfin ürəyini dağa döndərir, onu fərəhləndirirdi. Neçə müddətdi ana-bala bu evdə səssiz-küysüz yaşamışdı. Heç kəs — nə yoldan keçənlər, nə də qonum-qonşulardan biri bu evdən gülüş səsi eşitməmişdi. Sanki demək, izah eləmək, soruşmaq üçün heç nə qalmamışdı. Ən zəruri şeylər söylənərdi, o da astaca. Cahangirin ölümündən sonra Sədəf bu çoxcanlı, çoxnəfəsli şəhərdə, ancaq Nadirəyə sığınmışdı. Nadirə mehriban, qayğıkeş bacı təki Sədəfin dərdinə şərik olmuş, onun əlindən tutmuşdu. İllər keçib getmiş, vaxt sovuşduqca Sədəf hiss eləməyə başlamışdı ki, Nadirə nə qədər can yandırsa da o, təkdir, ruhən təkdir. Nadirəni hansı bir sehrli qüvvə isə getdikcə Sədəfdən, onun tanıdığı sevdiyi o sadə, gözəl, unudulmaz aləmdən ayırıb harasa aparır. Nadirə zahirən onun gözünün qabağında idi, yenə onunla danışır, deyir, dərdləşirdi, ancaq əslində o, hey Sədəfdən uzaqlaşır, uzaqlaşırdı. Əvvəllər ötənlərdən, uşaqlıq əyyamından, atalarından, mərhum analarından çox danışırdılar. Ancaq sonralar, elə bil, danışıb qurtardılar. Bir-birinə oxunmuş kitab kimi görünməyə başladılar. Ürək, can-ciyər söhbətləri adi ailə, dolanışıq-güzəran, bazar-dükan söhbətləri ilə əvəz olundu. Sehrli, nazik, adi gözlə çox çətin görünən, soyuqluğu ürək üşüdən bir pərdə onları bir-birindən ayırdı. Bax, o gün atası onu danışdıranda bunları demək lazım idi. Sədəf isə tamam ayrı şeylər danışmışdı, elə bil, bunların heç biri yadına düşməmişdi. Müseyibə isə hər şey gah aydın görünürdü, gah qaranlıq.

***

Nadirə Sədəfgilin darvazasının ağzında ayaq saxladı. Alçaq hasardan həyətə baxdı. Baba ilə nəvə domino oynayırdı. Onlar bir-birinə hərbə-zorba gəldikcə Sədəf şən-şən, şirin-şirin gülürdü. Nadirə onların bəxtiyarlığına həsəd aparıb köksünü ötürdü. Darvazanın balaca

qapısını ehmalca açıb asta və səssiz addımlarla ürəyində «xoşbəxtlər» adlandırdığı bu adamlara sarı yeridi.

Sədəf başını qaldırıb bacısını qol-qanadı sınmış halda görəndə təşvişlə soruşdu:

— Nə olub, bacı?

Nadirə doluxsundu. Onun bu halı Müseyibi də, Rəhimi də şaxta kimi dondurdu.

— Niyə beləsən, qız? — deyə Müseyib ürək ağrısı ilə xəbər aldı. — Nə olub?

Nadirə zorla gülümsədi:

— Heç bir şey, ata! Sizi bir yerdə gördüyüm üçün sevinib qəhərləndim.

Sədəf qabağa keçib döşəkçəni onunçün rahladı. Otur, bacı.

— Yox oturmayacağam. — Nadirənin səsi titrədi. Bayaqdan bu gəlişə diqqət yetirən Müseyib təmkinini pozmadan əlindən daşı yerə ataraq sakit bir səslə:

— Otur, qız, — dedi. Müseyib bu sözləri elə dedi ki, Nadirə beş yaşında uşaq kimi, itaətlə, yanını taxtın qırağına qoyub əyləşdi və atasının səsindəki sakitlik də onu öz təbii halına qaytardı. Hələ arada heç nə yox ikən nahaqdan belə əsib-coşduğuna peşman oldu.

Bəlkə heç inciməyib? Bəlkə heç Salmanın nəyə görə elə dediyini başa düşməyib? Hə, olmazmı? Bəs kostyum? Onu niyə elə elədi? Özü hambal paltarında... «Lələmin ürəyi yumşaqdı. İstəyib Rəhimi sevindirsin». Bütün bu fikirlər bir anın içində beynində hərlənib onun hirs-hikkəsini xeyli azaltdı.

— Nə təhərsiz? — Nəhayət, zorla da olsa gülümsəməyə çalışaraq xəbər alanda Sədəf dedi:

— Yaxşıyıq, bacı. Səni görəndə qorxdum. Dilim-ağzım qurusun, dedim, görəsən, nə olub ki, bacım belə...

— Heç nə yoxdur, elə-belə gəldim. Gözlədim, gözlədim, gördüm daha bizə gəlmirsiniz, — deyə o, bir şey öyrənmək məqsədi ilə araya söz atdı və nəzərlərini döndərib atasının üstünə gətirdi.

Müseyib papirosunu yandırıb kibritin çöpünü havada yelləyərək keçirdi, çallaşmış qaşlarını yuxarı qaldırdı:

— Mən daha sizə gəlməyəcəyəm, bala!— O bu sözləri elə hüznlə dedi ki, Sədəf də, Rəhim də dönüb ona baxdılar.

— Niyə?

— Mətləb uzundur, qızım,

— Axı, nə olub, lələ?

Müseyib sinədolusu ah çəkdi; ağzından çıxan papiros tüstüsü idimi, ya yanan ürəyinin tüstüsü idimi?

— Üstümü unnu görüb elə bilirsiniz dəyirmançıyam? Yox, bala, mən siz deyən qədər də avam deyiləm.

— Ay lələ, qurban olum, yaxşı, heylə sözlər demə, — deyə Sədəf söhbətin hansı səmtə yönəldiyini başa düşüb atasına yalvarmağa başladı, — başına dönüm, ay lələ, ürəyimizi qana döndərmə.

— Mən heç kəsdən incimirəm. Öz bəxtimdən, taleyimdən inciyirəm.

— Axı nə olub sənin bəxtinə, taleyinə?

— Çox şey olub, qızım, Nadirə. İndi mən daha sizə yaraşmıram.

— Kim dedi bunu? — Nadirə səsini qaldırıb xəbər aldı.

— Elə sən. Nə olub mənim bu paltarıma? Cırığı yox, yamağı yox. — O, pencəyinin yaxasından tutub qeyzlə silkələdi. —Amma razı deyildiniz bu paltarda sizin qapını açım, içəri girim. «Get özünə kostyum al», — dedin.

— Axı sən özgə adam deyilsən, lələ. Mənim öz atamsan... Mən deməyəndə bəs kim deyəcək, lələ?

— Mən başa düşürəm. İndi ərin böyük adamdı. Şəninə sığışdırmır ki, arvadının atası hambaldı. Xata elədim o köpəyoğlundan sizə salam göndərdim. Mən ovcumun içini iyləməmişdim ki, onun sizlə

arası yoxdur. Nə bilim? Deyirəm, vağzalda işləyim, deyir, yox. Birdən orda da tanıyarlar mən onun qaynatasıyam. Arxayın olun, mən bir də heç yerdə dilimə gətirməyəcəyəm ki, Salmanın qaynatasıyam, Nadirənin də atası... Yox, heç vaxt! Mən sizdən elə incimişəm ki, çətin bir də ürəyim düzələ... Gedin, böyüyün, daha yuxarılara çıxın. Mən indiyəcən sizlə quruca fəxr eləmişəm. Onu da çox görürsünüz, eybi yoxdur...

Nadirə atasının sözlərinə qulaq asırdı: bu sözlər adi sözlər deyildi, hərəsi bir tikan idi, batırdı, yerindən qan çıxır, göynərtisi göz yaşardırdı və o, doğrudan da dözə bilməyib:

— Siz məni yad hesab eləyirsiniz? — dedi və ağladı.

Sədəf dözə bilmədi:

— Ağlama, bacı. — Belə dedi və o an fikirləşdi ki, Nadirə uzun illər idi, harasa getmişdi; Sədəfin, Müseyibin tanıdığı, sevdiyi Nadirə... Getmişdi. Bax, indicə o ağ mirvarilər kirpiklərindən bir-bir qırılıb üzüaşağı töküləndə qayıdıb gəldi. Bəli, bu o Nadirə idi!

## ON ÜÇÜNCÜ FƏSİL

«Quş qanadla uçar; insan diləklə» deyiblər. Uzun müddət zəifliyin, inamsızlığın əzablı məngənəsində sıxılıb yumağa dönmüş Gülmirənin məqalə çıxandan sonra qırışığı açılmış, şax gəzməyə, şad görünməyə başlamışdı. O özündə olmazın güc-qüvvət hiss eləyir, arabir ürəyinin dərinliklərində oğrun-oğrun baş qaldıran mənfur qorxu, utancaqlıq, gücsüzlük duyğusunu boğur, həvəsə, inama sığına-raq onların qadir qanadlarında havalandıqca havalanırdı.

Orxan da elə adam deyildi ki, elədiyi az-maz yaxşılığı hər dəqiqə xatırladıb baş qaxıncı eləsin. Orxan Gülmirənin qorxduğunu, əzab çəkdiyini duyurdu, nəinki yada salan bir şey demir, hətta son vaxtlar ona baxmağa, uzun-uzadı söhbət eləməyə belə çəkinirdi: «Qoy sıxılmasın, qoy o gözəl çiçək özünü şax tutsun, xırdalanıb

balacalaşmasın!..» — deyən Orxan ürək çırpıntıları ilə onun gözəlliyini təkrar-təkrar yad edir, belə qəşəng bir qadını sevdiyinə görə özünü xoşbəxt sayırdı.

Gülmirə gecəli-gündüzlü öz gücsüz, aciz qələminə sarılıb işləyir, yazıb-pozur, tər tökürdü. Mövzusuna aid əsərləri, məqalələri, materialları dönə-dönə oxuyur, hər adi sözə, cümləyə, təsvirə başqa gözlə baxmağa çalışır, düşündüklərini ağ kağız üzərinə tökürdü. Cümlələri nahamvar çıxırdı, fikir qırıq olurdu, ardıcıllıq az idi. Ancaq bunları o, aydın görə bilmirdi, olsa-olsa tutqun şəkildə hiss eləyirdi. Bəzən yorulur, bezir, ağlamaq dərəcəsinə gəlirdi. Qələmi hirslə stolun üstünə çırpır, qaralmış səhifəni cırıb yerə atırdı. Stola, kağıza, qələmə nifrət eləyən vaxtları da az olmurdu. «Atacağam, yazmayacağam. Yaza bilmirəm, yaza bilmirəm!» — deyə öz-özünə söylənir, taqətsiz halda çarpayıya uzanıb ağlayırdı.

Elə bil, ona başı buludlara toxunan dağa dırmaşmağı əmr etmişdilər. Bu əmri verəndə onun yaxşı yeriyə bilmədiyini, gücsüz olduğunu — şikəstliyini nəzərə almamışdılar. Tək əmri verənlər yox, özü də. İndi isə artıq gec idi, o, yola çıxmışdı, bu ağır səfərə başlamışdı, bunu əri də, yoldaşları da bilirdi. Yarı yoldan geri qayıtmaq istəmirdi, dişi ilə, dırnağı ilə olsa da o dağın sehrli, cazibəli zirvəsinə dırmaşmalı, ölsə də orada, o zirvədə ölməli idi. Ona bu çətin səfərdə əl tutan bir nəfər vardı: Orxan! hardasa, lap yanında dayanmışdı. Gülmirə onun hərarətli hənirtisini duyur, məftun baxışlarını görürdü. Orxan tez-tez ona ürək-dirək verir: «Qorxma, qalx, qalxacaqsan!» — Deyirdi. Atasının dostu, Gülmirəni öz Ceyhunu kimi istəyən professorun da səsi arabir eşidilirdi. Ancaq o, uzaqda idi, zirvədə dayanıb çağırırdı. Çox zaman gözləri qaranlıq gətirən, ümidsizliyin girdabında çapalayan Gülmirə onu görmürdü, qulaqları guruldayır, professorun səsi eşidilməz olurdu.

Neçə gün bundan qabaq, işdən çıxıb evə gedəndə yolunu dəniz qırağından salan professor Gülmirə ilə xeyli söhbət etmiş, Əqdəmi

xəbər almış, dolanışığı ilə maraqlanmışdı. Sonra söz-söhbət dolanıb Gülmirənin elmi işinin üstünə gəlmiş, professor onun məqaləsini təkrarən ağızdolusu tərifləmişdi:

— Çox ağıllı, sanballı məqalədir, qızım! Neçə-neçə yerdən mənə zəng eləyib soruşurlar ki, bəs, ay professor, bu Gülmirə xanım kimdir axı? Deyirlər, əsəri fövqəladə xoşumuza gəlib. Deyirəm, bu həmin qızdı ki, Füzulinin avtoqrafını tapıb nəşr elətdirib. Deyirlər əhsən, əhsən! O gün bölmənin iclasında akademik Aslanzadə də səni xeyli təriflədi. Ancaq bu yağlı sözlərdən qoltuğun qarpızlanmasın, başını sal aşağı, otur, işini yaz!

Gülmirə qızarıb susmaqdan savayı, ayrı çarə görməmişdi.

— Dissertasiyan nə vəziyyətdədir?

Gülmirə bir həftə bundan irəli sıxıla-sıxıla Orxana verdiyi kağız qovluğunu gözü önünə gətirib azca cəsarətlənmişdi:

— İki fəslini qaralamışam, professor.

— Bax, belə. «Qaralamışam». Əhsən! «Yazmışam» yox, məhz «Qaralamışam». Təvazökarlıq yaxşı şeydir.

— Bir də gərək əl gəzdirəm.

— Çox gözəl!.. — Professor sevinclə səslənmişdi. — Bax, varam buna. İndiki cavanlarda bu çox az tapılan keyfiyyətdir: bəziləri deyir ki, mən yazdım, daha onu gərək heç kəs dəyişməsin. Yox, bu, elmin yolu deyil. Gərək əsər dönə-dönə yazılsın, gərək əsər, necə deyərlər, mürəkkəbdə çimsin, yoxsa ayrı cür nə təhər əsər yazmaq olar? Alimin, yazıçının əlini qələm döyənək eləmədi, ondan bir şey çıxmaz. İndi əsrimiz sürət əsridir. Namizədlərə ehtiyacımız çoxdur. Bilirsən, institutumuz cavandır, kadr lazımdır bizə. Bəli, kadr!..

Axşam sərini düşmüşdü. Onlar bulvarın «Venetsiya» hissəsində ayrıldılar. Salman «İnturist»ə — Moskvadan gəlmiş alim dostunun yanına getdi. Gülmirə ağır addımlarla geri qayıtdı.

Alimlər evinin qabağındakı fəvvarə bu gün nədənsə daha gözəl və cazibədardı. Yuxarı qalxan ağ köpüklü su fəvvarəsinin arasında

əzəmətlə ucalan Bəhram-gur öz qılıncını yuxarı qaldırıb əjdahanın başını əzmək istəyirdi. Azca yuxarıda funikulyor görünürdü. Yaşıl ağacların arası ilə Dağüstü parka qalxan yolda qırmızı vaqon lap qırmızı kibrit qutusuna oxşayırdı.

Alimlər evinin Xəzərə baxan pəncərələri açıqdı, balkonlara qoyulmuş gül dibçəkləri, limon ağacları binaya yaraşıq verirdi.

Fəvvarənin suyu güclü yağış şırıltısını xatırladırdı. Gülmirəyə bir anlığa elə gəldi ki, az sonra yalnız bu hovuza — Bəhram-gurun başına yağan «Yağış» artacaq, onu da isladacaq. O, qeyri-iradi yenə alimlər evinin pəncərələrinə nəzər yetirdi. Fəvvarənin yanından uzaqlaşdı. Bir-birinin ucuna bənd olub burula-burula yuxarı qalxan sürahili pillələr onu dördüncü mərtəbəyə qaldırdı. Hündür, ətrəngi qapının üstündə ağ lövhə üzərinə qara hərflərlə yazılmış iki söz —«Orxan Əlizadə» sözləri Gülmirənin bədəninə qəribə bir gizilti, üşütmə saldı. Onu qeyri-adi bir uçunma tutdu. Qılçaları əsməyə başladı. Gəldiyinə peşman oldu: «Mən bura niyə gəldim? Əqdəm bilsə... Yox, qayıdıram!» Ancaq durduğu yerdən tərpənməyə gücü çatmadı. Bu qapı arxasında nəsə sehrli bir qüvvə onu cəlb edir, içəri çağırırdı. Onda bu naməlum hissə, marağa qarşı dura biləcək müqabil qüvvə yox idi. Titrək əli ağır-ağır yuxarı qalxdı, şəhadət barmağını zəngin qara düyməsinin üstünə qoydu.

Qapı açıldı. Orxan, əlində qələm, qapı ağzında görünəndə Gülmirənin ürəyi çırpındı və sanki bədənindəki bütün qanı sifətinə çırpılıb onu qıpqırmızı qızartdı.

— Gülmirə?! — Gözlərinə inanmayan Orxan qızın adından başqa söz bilmirmiş kimi heyrətlə səslənib susdu. Onun gözləri sevinclə parlayırdı.

Orxan geri çəkildi, Gülmirə evə girdi. Qapı sakitcə örtüldü.

— Gözləmirdin, hə? — Gülmirə özünü ələ aldı.

— Düzü, yox... Elə bilirəm, yuxu görürəm.

— Həyatda bəzən möcüzələr olur.

— Ancaq yuxunun həqiqət olacağını mən heç vaxt görməmişdim, Gülmirə. Axşam yuxuda görmüşdüm ki, sən bizə gəlmisən.

Gülmirə dabanı üstə fırlanıb gülümsündü:

— Mən istədim ki, sənin yuxun yalan olmasın.

Həqiqətən, bu gəliş Orxana yuxu kimi görünürdü. Gah çoxlu kitab, kağız yığılmış stolun üstünü yığışdırmaq istəyir, gah Gülmirəyə oturmağı təklif edifdi. Bir sözlə, özünü yamanca itirmişdi. Gülmirə Orxanın mənzilini heç görmədiyindən hər şeyə diqqətlə baxır, otaqları gəzir, balkona çıxırdı.

— Bu balkon nəyə desən dəyər, Orxan.

— Hə, axşamlar xüsusilə gözəl olur. Dənizin hənirtisini burdan duyursan. Oturub düşünürsən. Ləzzəti var, Gülmirə. Mən həmişə işığı yandırmadan burada oturub düşünürəm, dənizin gecə gözəlliyinə tamaşa edirəm.

İçəri qayıtdılar.

— Otur, Gülmirə...

Gülmirə stolun böyründəki stulda əyləşdi. Külqabı papiros kötüyü ilə dolu idi. Azca o yanda, güldanda təravətini itirib solmuş qızılgül vardı. Ürəyində düşündü ki, Orxan gülü çox sevir, bəlkə ondakı təmizlik, xeyirxahlıq, gözəllik bu güllərdəndir.

— Sən işləyirdin, deyəsən, mən mane oldum. — Bunu deyib o, açıq kağızlara baxdı. — Oy, mənim işimi oxuyurdun?..

Orxan öz yerində rahatlanıb:

— Hə, — dedi.

— Belə tez?! Mən tələsdirmirəm səni. İşini-gücünü atıb onunla məşğul olma.

— İşimi qurtarmışam. — O, iri qovluğu Gülmirəyə göstərdi. — Budur, makinada yazdırmışam.

Gülmirə qovluğu götürüb dizinin üstünə qoydu. Bağını açdı.

— Mübarəkdi, Orxan.

— Sağ ol.

— Xeyli çıxıb, a!..

— Hə, on çap vərəqidir.

— Nə qədər vaxta yazmısan, Orxan?

— Düz iki ilə, Gülmirə, həvəsnən, ləzzətnən işləmişəm. Mirzə Cəlil qədər sevdiyim ikinci bir yazıçı yoxdur. Nəhəngdir. Onu dərd danışdırıb, o da tədqiqatçını danışdırır. Hər əsərini demirəm, hər cümləsinin altında neçə böyük mənalar gizlənib, Gülmirə!..

Oxuyursan, heyran olmaya bilmirsən. Deyirəm, bu yaradıcılıq işinin qəribə sehrləri-sirləri var. İnanırsan, mən bu yazını qurtaranda ürəyimi bir sevinc çulğadı ki, elə bildim, doğrudan da, xəzinə tapmışam? Nə qədər qəribə olsa, durdum, bu gen-bol otaqda qol qaldırıb oynadım.

Gülmirə Orxanın dediklərini heç vaxt yaşamamışdı. Bunlar ona maraqsız görünürdü. Ancaq Orxanın təkcə durub oynadığını, (özü də çalğısız-filansız), eşidəndə gülməkdən özünü saxlaya bilmədi.

Gülmirə gülməyinə ara verib:

— Gün o gün olsun ki, kitab şəklində çıxsın, — dedi.

— Görək də... — Orxan gözlərini xəyalpərvərliklə qıyıb, pəncərədən artıq tutqunlaşmaqda olan havaya baxdı. — Bu saat ən böyük arzum bunu çap elətdirməkdir. Sonra ölsəm də, ürəyimdə niskilim qalmaz.

— Ölmək nədir?

—…

Gülmirə qovluğun ağzını bağlayıb, stolun üstünə qoydu. O, bayaqdan danışıb Gülürdüsə də, fikri-zikri öz yazısının yanında idi. Stolun bir tərəfinə səliqə ilə yığılmış yazılı səhifələr, görəsən, nə haldadır? Deyir, işləmişəm. Gülmirə bu düşüncələrdə ikən Orxan onun əsərinin təzədən özü hazırladığı iki fəslini götürüb dedi:

— Oxudum, Gülmirə. — Susdu, sanki haradan, necə başlayacağını hələ fikirləşməmişdi. Kağızları vərəqləməyə başladı. Gözlərini

Orxanın çevirdiyi səhifələrdən çəkməyən Gülmirəni dəhşət bürüdü. Səhifələr oxunmaz hala düşmüşdü.

Az qala hər sətrin üstündən xırda, səliqəli xətlə yeni cümlələr yazılmış, müxtəlif oxlar və işarələrlə sağa, sola xətlər çəkilmiş, səhifənin arxa hissəsi də yazılıb qaralanmışdı. Vərəqlər çox qarışıq bir xəritəni yada salırdı. Nəyin nədən sonra gəldiyini anlamaq üçün xeyli diqqət və səbir lazım idi. Bəlkə Orxan özü də bunu aydınlaşdırmaqda, oxumaqda çətinlik çəkərdi. Gülmirə, görünür, heyrətindən başqa şey tapa bilmədiyinə görə:

— Oy, oy!.. — deyə-deyə qaldı. — Dəniz qırağında professorun dediyi «mürəkkəbdə çimizdirmək» sözlərini xatırlayıb dedi: — Mən lap tərlədim, Orxan.

— Niyə?

— Bu qaralmış kağızlar...

—Əvvəlki yazınla bunlar arasında xeyli təfavüt var, Gülmirə. Ancaq yenə çox, lap çox çalışmaq gərəkdir. Yaxşı, sənin vaxtın haçan qurtarır?

— Gələn il, dekabrda.

— Az qalıb ki...

— Hə, professor da deyirdi, qurtar, əl-ayağını yığ bir yerə.

— Sonuncu fəslin nə haldadı?

— Materiallarım hazırdı, ancaq mənimçün bu, ən ağır fəsildi. Sənətkarlıq məsələləridi... Onu da... bir az qaralamışam...

— Hm, sənətkarlıq məsələləri... Bu, doğrudan da, ən çətin və ən məsuliyyətli fəslindir. Bilirsən, ədəbiyyatşünasın gücü, elmi səviyyəsi bu və ya digər sənətkarın ictimai, siyasi fikirlərini, dərin fəlsəfi-əxlaqi, etik görüşlərini açmaqda, təhlil eləməkdə tam şəkildə zahirə çıxa bilmir; daha doğrusu, bunları bir tarixçi də, filosof da analiz eləyə bilər — ancaq sənətkarın böyüklüyü, bunlardan başqa, bir də öz fikir və duyğularını necə deməsi ilə də ölçülür — onun söz sənəti, ifadə tərzi, dili və üslubu necədir — ondakı yenilik, gözəllik, təkrar-

olunmazlıq nədədir, özünəməxsusluq varmı? — Bax, bütün bunları ədəbiyyatşünas açmalıdır, görməlidir və adi oxucuya çatdırmağı bacarmalıdır.

— Elədir, Orxan.

— Bu mənada bizim Salman Qurbanzadənin Nəsimi haqqındakı kitabı çox qiymətlidir, — mən o kitabdan çox şey öyrənmişəm və başqaları da həmçinin. Misilsiz kitabdı, mən deyərdim ki, Salmanın şah əsəridir, Gülmirə. O, başqa heç bir şey yazmasaydı da, təkcə o kitabla Nəsimi kimi ölməzliyə qovuşa bilər. Yaşaya bilər ədəbi tənqidimiz tarixində. Sən onu oxumusanmı, Gülü?

— Hə, bir dəfə, belə, ötəri.

— Yox, Gülü, o sənin həmişə əlinin altında olmalıdı — orda öyrənməli şey çoxdur. Orada Salman müəllim bir cərrah kimi, Nəsimi poeziyasının ölməzliyinin sirlərini, ecazkar gözəlliyini və rəmzlərlə dolu məna xəzinəsini açıb ortaya çıxarır və şairin böyüklüyünə səndə heyrət doğurur. Mən Salman müəllimə bu əsərinə görə pərəstiş edirəm — neyləsə də, incitsə də məni, bu pərəstiş hissi həmişə mənim ürəyimi sakitləşdirir. Oxu o kitabı, diqqətlə oxu, Gülü.

— Oxuyuram, Orxan... Sonra o fəslə bir də qayıdaram...

—Əldən çıxart, gətir, onu da oxuyum. Sonra yazdır ver müzakirəyə.

Gülmirə kağızları alıb dizinin üstünə qoyaraq vərəqləyə-vərəqləyə xəbər aldı:

— Bunları hazır hesab eləyirsənmi?

— Hə, tamamilə! Müzakirədə bəzi qeydlər ola bilər, onu sonra asanlıqla düzəldə bilərik.

Gülmirə ömründə hələ kimsəyə ürəyində bu qədər böyük minnətdarlıq duymamışdı: onu böyüdüb boya-başa yetirən ata-anasına da, Əqdəmə də. Yox, heç kimə, heç vaxt!.. Bu, elə bir minnətdarlıq idi ki, hər cür yüksək, qanadlı, mənalı söz belə bunu ifadə edə bilməzdi və

sönük görünərdi. Bu duyğu sözə çevrilə bilmirdi, böyük, işıqlı, şairanə bir hiss olaraq qalırdı.

Orxan papiros yandırdı. Gülmirə siqaret qutusunun üstünü oxudu: «Arzu».

— Qəribə papirosdur: «Arzu».

— Hə, — Orxan acı tüstünü ciyərlərinə sümürdü. Külqabının ağzına qədər kötüklə dolduğunu görən Gülmirə:

— Bu qədər papiros çəkərlər?! — dedi.

— Öyrəşmişəm.

— Zərərdir, axı!

— Hm...

Bayaqdan Orxanın gözlərinin içinə baxmamağa çalışan Gülmirə hansısa bir hissin təsiri ilə Orxana fikir verməyə başladı: nazik tüstü dumanı arxasından məftun baxışlar ona zillənmişdi. Yorğunluğu aydın bilinirdi. Gözlərinin ağı qızarmışdı. Ağır yükü çiyinlərindən yenicə yerə qoymuş adama oxşayırdı.

— Bəs istirahətə getmirsən?

— Hələ yox, Gülmirə. Müzakirədən sonra. Kitabı hazırlayım, verim sonra. Yamanca yorulmuşam...

Orxan, Gülmirə qapını açıb içəri girən dəqiqədən, ürəyinin içəridə yarpaq kimi əsdiyini hiss eləyirdi. Ürək üşüyürdü. Elə həyəcanlı idi ki, əlinin titrədiyini sezdirməmək üçün gah gizləyir, gah da kağızları vərəqləyirdi. Bu vaxtacan ancaq yuxularda gördüyü səadət indi gözəl, ahəstə, ləngərlə uçan qu quşu kimi onun qapısını açıb içəri girmişdi. Səadət bu idimi? Səadət nə üçün onun əl-ayağını yerdən üzür, göylərə qaldırırdı? O, paraşütdən atılan bir adam kimi ürəyi gizildəyə-gizildəyə yerə — bu otağa enirdi. Birdən... Orxanın rəngi avazıdı, o, stulda yumağa döndü.

— Nə oldu, Orxan?

—…

— Orxan, Orxan!..

Orxanın gözləri axdı, stulun söykənəcəyinə dəydi, gözləri yumuldu. Gülmirə telefona sarı qaçdı, ancaq nə fikirləşdisə geri qayıtdı, sol əlini Orxanın boynunun ardına salıb başını qaldırdı:

— Orxan, Orxan!..

Cavab gəlmədi.

Gülmirə təlaşla bir də çağırdı:

— Orxan, Orxan!..

Orxan handan-hana göz qapaqlarını ağır-ağır qaldırdı.

— Sənə nə oldu?

— Heç...ü...rə...yim...

— Həkim çağırımmı? — Gülmirə qorxu içində soruşdu.

Orxan «yox» mənasında başını tərpətdi.

— O...valerianı...Pəncərənin qabağından...

Gülmirə pəncərə qarşısındakı göyümtül şüşəni gətirdi, nazik stəkana on damcı damızdırıb Orxana içirtdi. Gülmirə qorxmuşdu. O, Orxanı həmişə ayaq üstə, ciddi, şad görmüşdü. İndi birdən-birə bu boyda cavan az qala... Yox, Gülmirə ürəyinə ayrı şey gətirmək istəmədi. Peşman-peşman Orxana baxdı. Özünü günahkar sayırdı. Gülmirəyə elə gəlirdi ki, onun ürəyinin ağrısına səbəbkar özüdür. Orxan da özlüyündə bu qəfil ağrıdan pərt olmuşdu. Gülmirədən utanırdı.

Səsinin bərk çıxacağından və bununla da təzədən Orxanı narahat edəcəyindən qorxurmuş kimi, Gülmirə astaca, lap astaca dedi:

— Dur uzan, Orxan.

Orxan ağır-ağır dikəlmək istəyəndə Gülmirə onun qolundan tutub qaldırdı. Yataq otağına keçdilər. Bu az məsafəni onlar, demək olar ki, qarış-qarış addımladılar.

Otaqdakı tək çarpayı yığılmamışdı. Güllü yorğanın bir ucu parket döşəməyə düşmüşdü. Gülmirə Orxanı çarpayının qırağında oturdub, onun qolunu buraxdı, balışı çırpdı, mələfəni sahmana salıb Orxana sarı döndü:

— Uzan...

Orxan paltarlı-paltarlı uzandı. Gülmirə yorğanı onun üstünə çəkdi. Otağa sükut çökdü. Elə bil burada adam yox idi. Elə bil heç biri nəfəs belə çəkmirdi. Gülmirə əlini qoynuna qoyub dalğın nəzərlərini Orxanın solğun üzünə dikib durmuşdu. Orxan ağrıdan üz-gözünü qırışdıranda Gülmirə əlini onun işıldayan, ağarmış alnına qoydu, Orxanın üzündəki ağrılı-əzablı ifadələr o an yoxa çıxdı. O, dünyanın, insanların, həyatın gözəlliyi, şirinliyi haqqında xoş xəyallara qapılıb gözlərini yumdu. Azmı keçdi, çoxmu, bunu Orxan bilmirdi. Gözlərini açanda Gülmirənin ona baxdığını gördü:

— Səni közləyərlər Gülmirə...

— …

— Əqdəm nigaran olar.

— Əqdəm yoxdur, gedib.

Yenə araya sükut çökdü.

— Zəhmət olmasa, dəsmalımı islat, ürəyimin üstünə...

Gülmirə stulun söykənəcəyinə keçirilmiş pencəyin cibindən dəsmalı çıxartdı, mətbəxə keçdi. Su şırıltısı gəldi. İki dəqiqə keçməmiş Gülmirə qayıtdı. Orxan köynəyinin yaxasını açdı. Gülmirə ikiqat bükdüyü yaş dəsmalı onun sol döşünün üstünə qoydu. Qadın əllərinin təmasını duyan Orxan bədənində xoş bir gizilti hiss edərək qeyri-ixtiyari Gülmirənin ağ biləyindən yapışdı və ehmal bir hərəkətlə onun əlini dodağına yapışdıraraq öpdü. Sonra öpdüyu əli iki ovcu arasına alaraq sinəsinə sıxıb saxladı. Gülmirə sehrlənmişdimi, ya nə baş verdiyini dərk eləmirdimi, qımıldanmadı. Anlar əriyib gedirdi. Birdən qulaqlarında təyyarə uğultusu səsləndi. Ayılmış kimi, əlini çəkdi, ancaq heç nə demədi.

Onun xəyalında həmişə bir təyyarə uçmuşdu. Təyyarə iki nəfər olardı. Əqdəm sükan arxasında oturardı. Gülmirə də yanında. İndi o təyyarə uçurdu. Sürücü yenə də Əqdəm idi, yanındakı isə daha bu Gülmirə deyildi. Sanki vaxtı ilə onun özü olan, indi isə uzaq, yad bir qadın idi. O Gülmirə göydə idi. Əqdəmin yanında idi, bu isə...

## ON DÖRDÜNCÜ FƏSİL

Saat birdə şöbənin iclası başlandı. Əslində, Orxan üçün bu iclas çoxdan başlanmışdı. Fikrində xəyalında çıxış edənlərin səsini eşidir, hər ağızdan bir avaz gəlir, o da hərəyə bir cavab verirdi. Orxan özünü nə qədər arxayın göstərməyə çalışsa da, bacarmır, papirosu papirosun oduna yandırır, uzun işıqlı dəhlizdə o baş-bu baş var-gəl edir, həyəcanını gizlədə bilmirdi, vaxt isə gəlib çatmırdı.

Nəhayət, professor göründü, keçib stolunun arxasında əyləşdi. Nadirə, Gülmirə, Gülalı, Cəfər, başqa şöbələrdən gəlmiş elmi işçilər, laborantlar da oturdular.

Salman Qurbanzadə məclisə göz gəzdirib:

— Yoldaşlar, şöbəmizin bugünkü iclasının gündəliyində ancaq bircə məsələ var, — dedi. — O da bizim istedadlı, cavan alimimiz Orxan Əlizadənin Mirzə Cəlil barədə yazdığı müzakirəsidir. Gündəliyə əlavə yoxdur ki?

Kimsə yerdən dilləndi:

— Xeyr, yoxdur!

Professor Orxandan xəbər aldı:

— Kimlər oxuyub əsəri, Orxan?

— Hamı oxuyub, professor.

— Çox yaxşı. Onda dur ayağa, əsər haqqında qısaca məlumat ver, sonra müzakirəyə başlayaq.

Orxan ağır-ağır ayağa qalxdı, oturanlara göz gəzdirdi. Udqundu. Sanki haradan başlamaq lazım gəldiyini unutmuşdu. Ani sükutdan sonra fikrini cəmləyib, əsəri necə yazdığından, əsas məqsədindən danışdı.

Professor iclasdakılara üz tutdu:

— Orxana kimin sualı var?

Stolun üstünə, qabağına qoyduğu iri portfelinin arxasından qurdalanan, bayaqdan tez-tez şöbə müdirinə baxıb iclasın istiqamətini — professorun bugünkü meylini müəyyən eləməyə çalışan Gülalının arıq, uzun barmaqlı əli yuxarı qalxdı:

— Mənim.

— Buyur, Gülalı.

Otaqda bir pıçıltı və pıqqapıq gəzdi. Çünki elə bir iclas, yığıncaq olmazdı ki, Gülalı eynən bu qaydada əlini qaldırıb sual verməmiş olsun. Onun bu xasiyyətini hamı bilirdi.

Camaatın güldüyünü görən Gülalı ayağa qalxıb üzünü professora tutdu:

— Mənim bu oturan yoldaşlara da bir sualım var, professor.

Salman təəccüblə soruşdu:

— Oturan yoldaşlara, ya Orxana?

— Orxanınkı öz yerində. Ancaq bu yoldaşlara sualım budur ki, onlar niyə gülürlər? Yoldaşları yenə gülmək tutdu.

— Hə, cavab verin də, nəyə gülürsüz?

Professor qımışıb qələmi qarşısındakı qrafinə vuraraq sakitliyi bərpa eləmək istədi. Gülalı öz sualına özü cavab verməli oldu:

— Bura elmi idarədi, sualsız-zadsız necə keçinmək olar, mən bilmirəm. Yoldaşlar əgər belə fikirləşirlərsə ki, sualsız da keçinərik, onda bir balaca səhvə yol verirlər.

— Gülalı, mətləbə keç. — professor yenə qrafini tıqqıldatdı.

— Keçin, deyirsiz, keçim də. — O, qabağına düzdüyü mil-mil kartoçkalardan birini götürüb baxdıqdan sonra dedi: — Mənim iki sualım var: biri böyükdür, biri balaca. — Boylandı. — Protokol yazan var? Hə, var.

Gülmirə ürəyində dedi: «Bu danışanda adam az qalır çərləsin»

— Gülalı, belə olmaz ki? Nə deyirsən de, qurtar da, — Professor axır dözməyib sərt bir ahənglə dilləndi. Gülalı əlindəki kartoçkaya baxdı:

— Böyük sualımı verirəm.

— Vay atonnan! — kimsə yerindən səbirsizliklə səsləndi.

— Yoldaşlara məlumdu ki, Mirzə Cəlil bütün əsərlərini ərəb əlifbasıynan yazıb. Orxan burada tez-tez onun arxivinə müraciət eləyir. Ayə, Orxan özü ərəb əlifbasını bilir, ya yox? Bunu nöşün soruşuram? Çünki o mənimlə bir sinifdə oxuyub, bilirəm ki, bizə o vaxt ərəb əlifbasını öyrətmədilər.

Orxan qısaca cavab verdi:

— Müəllim tutmuşam, öyrənmişəm, Gülalı.

— Haçan, Orxan?

— Üç il bundan qabaq.

— Hə?

— Hə.

— İndi keçirəm ikinci sualıma. — O əyilib ikinci bir kartoçka götürərək, ani nəzər yetirdikdən sonra sözünü dəbbələdi: — Yox, yox, bu maşınka xətası imiş, elə bildim... hə, mən suallarımı qurtardım.

Yenə üzlərdə kinayəli bir təbəssüm oynadı, yenə cərgələri gülüş, pıqqıltı gəzdi.

— Daha kimin sualı var? Yoxdur? Onda çıxışlara başlayaq. — Professor kağıza nə isə qeyd edib, oturanlara baxdı:

—Kim danışmaq istəyir?

Nadirənin əli qalxdı və bunu professor gözucu da olsa, gördü, ancaq özünü görməzliyə vurdu: «Durub tərifləyəcək. Elə bil, bu arvadda qətiyyən prinsip deyilən şey yoxdur. İndi fikirləşə ki, bu ağzından süd iyi gələn uşaq mən boyda adamı biabır eləyib, fürsətdir, cavabını vermək lazımdır. Yox, belə şeylər onun dəftərində yoxdur. Eh, bir də mən ondan nə umuram ey?! Nadirəni tanımıram?!»

Professor belə düşünə-düşünə üzünü Gülmirəyə tutdu:

— Deyəsən, Gülmirə xanım danışmaq istəyir, hə?

— Xeyr... — Gülmirə özünü itirmiş halda dilləndi: — Məndən böyüklər...

— Elmdə nə böyük, nə kiçik, ay qız? Dur, fikrini de. — Professor bu sözləri elə bir tərzdə dedi ki, Gülmirə ayağa durmaya bilməzdi. Nə danışsın, necə danışsın? Fikirləri qatmaqarışıq, nizamsız idi. Danışa bilməyəcəkdi. O biri yandan da danışmasa, Orxanın xətrinə dəyərdi. Məclisin böyüklüyü, maraqla, diqqətlə üzünə zillənmiş baxışlar və məsuliyyət onu elə vahiməyə salmışdı ki, nitqi qurumuş, nəinki Orxanın əsəri barədə, hətta Mirzə Cəlilin özü haqda bildikləri də yadından çıxmışdı. O, çox böyük çətinliklə:

— Qeydlərim yadımdan çıxıb evdə qalıb, professor, — deyə bildi.

— Bəs bilmirdin bu gün müzakirə olacaq?

— Bilirdim. Bilmirəm nə təhər olub ki... —Gülmirə qırıq-qırıq danışırdı. — Mən qeydlərimi özünə deyərəm.

Professor güldü.

— Mən danışmaq istəyirəm, — deyə Nadirə sağ əlini azca yuxarı qaldıranda ona sarı döndü:

— Mən istəyirdim bizim cavanları sınayım. Daha onları qabağa buraxmaq vaxtı çoxdan çatıb.

Sınaq söhbəti eşidəndə Gülalı yenə yuyulmamış çömçə kimi özünü ortalığa atdı:

— Mən danışmaq istəyirəm, professor.

— Buyur, Gülalı. Bax, Gülalının fəallığı xoşuma gəlir. Elmi müzakirələrdə yaxşı çıxışlar edir. Ancaq, Gülalı, səndən təvəqqəm budur ki, müxtəsər və aydın danış.

Gülalı udqundu, uzun boğazının qoz boyda hülqumu çənəsinin altında qalxıb endi. O, sözə başladı:

— Mənim özümün əlimdə çox işim var. İri bir məqalə yazıram. Gecə-gündüz fikrim onnan məşğuldur.

— Yenə özündən başladı ki... — deyə Cəfər Gülmirəyə sarı dönüb pıçıldadı. Gülmirə başını tərpətməklə Cəfərin dediyini təsdiq elədi. Professor narazılıqla danışdı:

— Gülalı, axı, dedim ki, müxtəsər danış.

— Mən birinci növbədə əsərin dili barədə danışmaq istəyirəm, professor. — Oturanlar yenə bir-birinin üzünə baxıb qımışdı. Gülalı neçə il dil sahəsində «külüng çalmış», dilçi olmaq istəmişdi. Mövzu götürmüş, çoxlu material toplamış, ancaq əsərini yazıb qurtara bilməmiş, günahını da elmi rəhbərinin boynuna atıb: «Dil sahəsində işləməklə bir balaca səhvə yol vermişəm», — deyərək, ədəbiyyat sahəsinə keçmişdi. — Mən niyə dildən başlamaq istəyirəm, yoldaşlar! Ona görə ki, yoldaşlar yaxşı bilirlər ki, dil əsərdə necə böyük əhəmiyyətə malikdir. Dil olmasa, əsər də ola bilməz. Çünki yoldaşlar yaxşı bilirlər, Marks deyib ki, dil təfəkkürün təzahür formasıdır. Əsər hansı mühüm bir məsələyə həsr edilirsə-edilsin, əgər o, yaxşı dilnən yazılmasa, inanmıram ki, yaşasın. Bu məsələnin əhəmiyyətinə, yoldaşlar yaxşı bilirlər ki, atalarımız-babalarımız da böyük fikir veriblər. Heç təsadüfü deyil ki, el arasında deyirlər: filankəs diliynən ilanı yuvasından çıxardır. Bəli, biz indi ilanı yox, oxucunu öz yuvasından çıxarmaq üçün gərəkdir var qüvvəmizi əsirgəməyək. İndi bu tələblər nöqteyi-nəzərindən yanaşaq, görək müzakirə elədiyimiz əsərin dili necədir? Orxanın xətrinə dəyməsin, mən etiraf etməyə məcburam ki, müəllif məqsədinə nail olmayıb. Səbəbi? Əsərin dili elmilikdən çox-çox uzaqdır!..

Gülalının son sözləri oturanları qurcalandırdı; stullar cırıltı ilə səsləndi. Professor gözlərini Gülalıdan çəkmirdi, elə bil, bayaqdan məhz bu sözləri eşitmək üçün çalışıb-vuruşurdu. Nadirə təəccüblə Gülalıya baxır, arabir dəftərinə nəsə qeyd eləyirdi. Orxan qımıldanmadan oturub dinləyirdi. Kənardan baxana elə gələ bilərdi ki, Gülalı onun haqqında yox, tamamilə başqa bir adam haqqında danışır. Amma əslində o, Gülalının bir kəlməsini də ötürmür, mənalandırır və düşünürdü. Gülmirə öz pərtliyini unutmuşdu. O bu dəqiqə Orxanın halına yanırdı. Axı, Gülmirə yaxşı bilirdi ki, Orxan bu əsərini necə

sevə-sevə yazıb, səra-sər iki il can qoyub. İndi belə bir zəhmətin üstündən belə qiymət, belə çıxış?!

— Bəli, — Gülalı boğazını arıdıb fikirlərini izah edirdi, — elə bil, Orxan elmi əsər yox, hekayə yazıb. Sözləri, cümlələri qanadlı, bəzəyi, düzəyi o qədərdi ki, oxumaq mümkün deyil. Sifətsiz bir söz, təyinsiz bir cümlə tapmaq olmur. Bir Şərq şairi deyib ki, (heyf ki, adı yadımda deyil) qadının üzündə xal bir olanda qadını gözəl göstərir. Amma sifəti xalla dolu olsa o, gözəl yox, çirkin görünəcək, çopur-çilə oxşayacaq. Orxanın əsəri də belədir. Yəni demək istəyirəm ki, həddən artıq bədii...

Nadirə onun sözünü kəsdi:

— Bəs Belinskinin Puşkin haqqında yazdıqlarını oxumamısan, Gülalı?

Gülalı duruxdu:

— Oxumuşam.

— Görürsən necə bədii yazıb? Puşkinin əsərləri qədər gözəldir.

— Sizin deməyinizdən elə çıxır ki, Mirzə Cəlil Puşkindir, Orxan da Belinski?

— Xeyr, onları müqayisə etmək, bir-birinə qarşı qoymaq doğru deyil, hərəsinin öz yeri var, Gülalı!..

— Sakit!.. — Professor qrafini taqqıldatdı.

— Xahiş edirəm mətləbdən kənara çıxmayın. Gülalı, buyur.

Gülalı indi Orxanın əsərdə buraxdığı başqa nöqsanları sayır, xüsusilə onun Mirzə Cəlili idealizə elədiyindən, həddindən çox şişirtdiyindən ağızdolusu danışırdı. Nəhayət, o, çıxışına belə yekun vurdu:

— Orxan bu əsər üzərində xeyli zəhmət çəkibsə də, hələ məqsədinə tamam nail ola bilməyib. Monoqrafiya bir də ciddi iş tələb edir. Əgər müəllif qolunu çırmayıb təkrar bu işə girişsə, onda əsər faydalı bir tədqiqat məhsulu ola bilər.

Gülalının çıxışı bərk narazılığa, fikir ixtilafına səbəb oldu. Bayaqdan iclasın gedişinə diqqət yetirən Nadirə söz alıb ayağa qalxdı:

—Yoldaşlar, —deyə o, hər iki əlini stolun qırağına dayayaraq azca irəli. əyildi, — biz bura zarafat eləməyə yığışmamışıq; bu, elmi idarədir və burada olan söz-söhbət də gərək ciddi, məsuliyyətli olsun. Gülalının çıxışı mənim heç xoşuma gəlmədi. Ola bilər ki, Gülalının Orxandan şəxsən acığı gəlir. Ancaq bu gərək haqq verməsin ki, sən vicdanı kənara atıb ağa qara deyəsən. Burda, söhbət Orxandan yox, Mirzə Cəlil haqqında yazılmış bir əsərdən gedir. Mirzə Cəlil isə bizim hamımızın. sevimlisidir. — Nadirənin «Vicdanı kənara atıb ağa qara deyəsən» ifadəsi Gülalını tərpətdi. Onun son sözlərinə acıqla cavab verdi:

— Mən şəxsən Mirzə Cəlili sevmirəm, — dedi, — xahiş edirəm hər kəs öz adından danışsın.

— Amma o, — Nadirə heysiyyətinə toxunulmuş adam kimi yana-yana dedi, — hamımızı, ata-babalarımızı da, bizi də, bizim gələcək nəvə-nəticələrimizi də sevib. Bu torpağı isə hər şeydən çox sevib, haqq söz dediyi üçün başına olmazın müsibətlər gəlib, amma yenə sözündən dönməyib, dəyanətindən əl çəkməyib.

— O bizim xalqı dünya qarşısında gülünc vəziyyətdə qoyub. Tərcümə eləyin onun «Poçt qutusu» - hekayəsidi, dünyanın mədəni xalqlarının qabağına çıxardın, görün sizə necə güləcəklər. Eləyin, buyurun, görün bayraq elədiyiniz Mirzə Cəlil sizi necə rüsvayi-cahan eləyib.

— O, həqiqəti deyib! Həqiqət acı da olsa həqiqətdir, Gülalı!

Professor qələmi qrafinə döyəcləyib yenə sakitliyə çağırdı. Gülalı professora baxıb bu sözlərin, deyəsən, onun xoşuna gəlmədiyini hiss elədikdə özünü yığışdırıb oturdu və ürəyində: «Deyəsən, yenə bir balaca səhv elədim axı!» — dedi.

— Yoldaşlar, Gülalının mövqeyi aydındır. Bu, təkcə Orxana yox, Mirzə Cəlil kimi böyük, pərəstişə layiq bir şəxsiyyətə, elmimizə

düzgün münasibət deyildir. Gəlin, xırda hisslərlə yaşamayaq. Bir oxucu kimi deməliyəm ki, Orxanın əsəri məni tamamilə qane edir. O, vicdanla işləyib. Mirzə Cəlilin özünə, onun adına-sanına, xalq üçün alışıb-yanan ürəyinin oduna layiq bir əsər yazıb. Gülalı əsərin dilinin pisliyindən danışır. Məncə, bu, çox ədalətsiz bir hökmdür. Orxanın dili əsl elmi dildir. Oxucunu arxasınca çəkib aparan, onu inandıran, eyni zamanda ona mənəvi-estetik zövq verən bir dildir. Mən arzu edirəm ki, bizim hamımızın əsərləri bu cür şirin və oxunaqlı dillə yazılaydı. Burada bədiiliyə nahaq etiraz edilir. Başa düşmək lazımdır ki, bizim kitablarımızı ancaq ona görə az oxuyurlar ki, onları çox quru və rəsmi bir dildə yazırıq. Quruluq elmi əsərin ən böyük düşmənidir. Srnra, Gülalı yoldaş deyir ki, Orxan Mirzə Cəlili idealizə eləyib, layiq olduğundan çox-çox yüksək qiymət verib. Bu, yersiz ittihamdır. — Nadirə sözünə ara verib nəfəsini dərdi. — Mən heç də demək istəmirəm ki, Orxanın əsərində nöqsan yoxdur. Var, yoldaşlar. Xüsusən bəzi tarixi hadisələr düzgün işıqlandırılmayıb. Mən onların hamısını haşiyələrdə qeyd eləmişəm.

Sonra əsərdə bəzi təkrarlar var. Lakin bunlar asanlıqla düzələn nöqsanlardır. Buna görə də mən əsərin tezliklə çap olunmasının tərəfdarıyam. Bu, Mirzə Cəlilin xatirəsinə, yubileyinə ən yaxşı hədiyyə olacaqdır.

Salmanın üzü qaralıb tutulmuşdu. Xüsusilə Cəfərin çıxışı Salmanı lap pərt eləmişdi. Onun dediyindən belə çıxır ki, Mirzə Cəlilin ölümündən keçən bu otuz neçə ildə onun haqqında belə dərin məzmunlu və əhatəli, ən başlıcası isə belə böyük məhəbbətlə əsər yazan olmayıb.

— Bunu mən mübaliğəsiz deyə bilərəm, — deyə Cəfər hərarətlə danışmışdı. — Onun haqqında yazılan tədqiqat işlərini mən bircəbircə oxumuşam. O cümlədən bizim möhtərəm professorunkunu da. Bu əsərlərin böyük əksəriyyətində bir sadalama, soyuqluq vardır. Oxuyursan, görürsən ki, böyük sənətkarımızı düşündürən məsələlərin

odu, alovu sönük, soyuq bir mühakimə ilə oxucuya çatdırılır. Halbuki, Mirzə Cəlil haqqında böyük vətəndaş ürəyi ilə danışmaq lazım idi, çünki o özü də bu torpağın böyük ürəkli vətəndaşı idi. Orxanın əsərində məhz vətəndaşlıq qürurundan irəli gələn bir od-alov bizi isindirir.

Salmanın alt dodaqı sallaımışdı, başını qaldırıb oturanların üzünə baxmamaq üçün qabağındakı kağıza tez-tez nəsə yazırdı. Amma, həqiqətdə, Cəfərin sözləri ox olub onun ürəyini dəlib keçir, əl-ayağını yerdən üzürdü.

İki-üç adam da çıxış eləyəndən sonra professor özü iclası yekunlaşdırmaq üçün ayağa qalxdı. O, danışanlrın dediklərini tənqidi surətdə nəzərdən keçirə-keçirə belə bir fikir söylədi ki, istər tərifləyənlər, istər tənqid eləyənlər çox ifrata varırlar. Bunu xüsusilə əlavə etməyi unutmadı —«xüsusilə tərifləyənlər!»

— Mən əsərin ən böyük qüsurunu nədə görürəm? — deyə o, mətləb üstünə gəldi. — Elə bilirəm ki, mən öz sevimli tələbəmin nöqsanlarını desəm, o məndən inciməz.

— Yox, yox. Buyurun, — Orxan astaca dilləndi.

— Bəli, əsərin ən böyük qüsuru onun yubiley üçün yazılmasıdır. Mən neçə ilin təcrübəsindən bilirəm ki, yubiley üçün yazılan əsərlər çox yaşamır, elə o gün, yaxud da səhərisi yaddan çıxıb gedir. Mən indiyəcən yalnız şerin yubiley üçün yazıldığını görmüşdüm.

Ancaq indi görürəm elmi əsəri də, tədqiqat işini də yubiley üçün yazmağa başlayıblar. — O, bir qədər susub nəsə xatırladı. — Müharibədən əvvəl bizim bir şair dostumuz vardı. İndi də sağdır, ancaq ondan şair çıxmadı.O neynəyirdi? Elə bir bayram, elə bir yubiley yox idi ki, ona şer həsr eləməsin. İmzasına ancaq bayramdan-bayrama rast gələrdin. Özü də gündə neçə qəzetdə. Bu neyniyirmiş? Təqvimi qoyurmuş qabağına, bayram günlərini qeyd eləyirmiş dəftərinə. İlin əvvəlindən başlayarmış o bayramlar barədə şerlər yazmağa. Yaz ki, yazasan. Bunu biz nədən bildik? Bir dəfə qəribə hadisə

oldu. İndi yaxşı yadımda deyil, hansı bayramda isə dostumuzun şeri çıxmadı. Sən demə o, təqvimi alıb evə gətirər, uşağın əli dinc durmaz, qırmızı vərəqlərdən birini qopardar, bunun da xəbəri olmaz. Kişi siyahını tutanda o bayram dəftərə düşməz. — Oturanlar güldülər. Professor sözünə davam etdi. — Mən bununla demək istəyirəm ki, yubiley münasibəti ilə elmi əsər yazmağı əsla və qəti düzgün hesab eləmirəm!

— Mən elə yazmamışam, professor! — Orxan pörtmüş halda cavab verdi. — Mən iki il tədqiqat aparmışam. Çoxdan başlamışam.

— Fərqi yoxdur, fikirləşibsən ki, filan vaxt Mirzə Cəlilin yubileyidir.

— Qəribədir.

— Bəli, bəli, təəssüf ki, bizim elmi işimizdə belə qəribəliklər hələ çoxdur. Hələ onu da qeyd etmək lazımdır ki, səni Tiflisə göndərdik elmi ezamiyyətə, gedib əliboş qayıtdın. Halbuki orda yaxşı, təzə materiallar vardı.

— Yox idi! — deyə Orxan dözə bilməyib səsini qaldırdı və ürəyi soyumurmuş kimi, bu sözü bir də təkrar etdi: — Heç bir şey yox idi!

— Var, deyirəm, Orxan! Mən özüm vaxt tapan kimi gedib gətirəcəyəm.

Orxan tutuldu. Ürəyində bir sıxıntı hiss elədn.

Ona bir anlığa elə gəldi ki, professor səssiz və gözəgörünməz bir güllə ilə düz onun ürəyini nişan alıb. «Niyə? Nə üçün?» Qulaqlarında səsləndi: «Mənim sevimli tələbəm...» Orxan özünü toxtatmağa çalışanda professor deyirdi:

—Əsər faydalı əsərdir. Mən Orxanı — həmişə fəxr elədiyim, adını sevinclə çəkdiyim Orxanı belə əsər yazdığına görə təbrik edirəm! Ancaq onu yenidən işləmək, yoldaşları qeyd elədiyi neqsanları düzəltmək üçün təklif edirəm ki, müəllifə üç ay vaxt verilsin. Əgər azdırsa, çox verək. Hə?

— Xeyr, professrr, üç ay da çoxdur. Yubileyə az qalır, çatdıra bilmərik.

— Yenə yubiley? Eybi yoxdur, çatdırarsan.

— Professor... — Orxan yenə nəsə demək istədi, lakin yerindən ox kimi qalxan Cəfərin səsi onu saxladı:

— Professor, olar?

— Yox! — deyə Salman Qurbanzadə qətiyyətlə cavab verdi.

— Bir balaca təklif...

Salman yenə onun sözünü kəsdi:

— Mən istəmirdim burda Cəfərin çıxışı üzərində dayanım. Amma hiss eləyirəm ki, Cəfər öz çıxışına mənim münasibətimi bilmək istədiyi üçün narahatdır.

— Xeyr, professor, sizin münasibətiniz mənə məlumdur. Deməsəniz də olar. Mən ayrı şey...

— Mən qısaca deyim ki, sənin çıxışından kosmopolitizm iyi gəlirdi. İnkarçılıq iyi gəlirdi. Bu, bir.

— Professor...

— Uzatmayaq. İkincisi də, sənə söz verməyəcəyəm, bildin? Sən ara qarışdırmaq siyasəti yürüdən bir adamsan.

Nadirə söhbətin ayrı səmtə yönəldiyini görüb üzünü ərinə tutdu:

— Söz ver, Salman, qoy görək nə deyir.

— Onun nə deyəcəyi mənə indidən məlumdur, — deyə Salman Cəfərin vaxt məsələsinə toxunacağını duydu.

— Hər halda söz ver.

Salman naçar qalıb:

— Yaxşı, de görək nə deyirsən, — dedi. Və bütün vücudu ilə diqqət kəsilərək Cəfərin ağzına baxmağa, dediklərinin birini də buraxmadan eşitməyə başladı.

— Mən təklif edirəm ki, — deyə Cəfər birbaş mətləb üstünə gəldi, — Orxanın bu əsərini bitmiş bir əsər kimi qəbul edib çapa buraxmaq və müəllifinə də, professorun dediyi təki, əsəri düzəltmək

üçün üç ay yox, on, uzaq başı on beş gün vaxt verək. Çünki ona üç ay vaxt təyin etsək, bu, o deməkdi ki, əsəri yubileyə çatdıra bilməyəcəyik. Vəssalam!

— Qurtardın? — Salman açıqaşkar hiss olunan bir rişxəndlə soruşdu.

— Bəli.

— Mən bu təkliflə qətiyyən razı deyiləm. Çünki yoldaş Cəfər əsər düzəltməyin, onun nöqsanlarını aradan qaldırıb çapa hazırlamağın nə demək olduğunu yaxşı bilmir. Bir də onu qınamıram da. Gərək adam özü samballı əsər yazsın ki, elmi əsərin meydana gəlməsi prosesindən də xəbərdar olsun. Yoldaş Cəfər hələlik bu işləri bilmir. — Salmanın hər sözündə zəhər kimi acı kinayə duyulurdu. Ona dözmək, tab gətirmək üçün dərya boyda səbir və dözüm lazım idi. Cəfər nə qədər dözümlü də olsa, özünü saxlaya bilməyib haqlı olduğunu axıra qədər sübuta yetirmək məqsədi ilə dedi:

— Səsə qoyulsun. Təkliflər səsə qoyulsun.

— Sə...sə...qoyul...sun? — Salman uzada-uzada soruşdu.

— Bəli, qayda var, qanun var, demokratiya var!

Səsə qoydular. Bir səs çoxluğu ilə Salmanın təklifi qəbul olundu. O, açıq-açığına fərəh içində üzür, onun təklifinə əl qaldıran adamlara baxıb razılıqla gülümsünürdü...

...İclas çoxdan qurtarmış, adamlar çıxıb getmişdi. Orxan hələ də öz yerində oturmuşdu. Əsərin əlyazması, makina nüsxələri və yoldaşların qeydləri yazılmış vərəqlər stolun üstündə idi. Otaqda indi heç kəs yoxdusa da, Orxanın qulağı gur-gur guruldayırdı: kimsə ağızdolusu danışır, kimsə tərifləyir, kimsə tənqid edirdi. O nə deyildiyini ayırd eləyə bilmirdi, təkcə qatmaqarışıq səslər eşidirdi. Gözünü professorun boş stuluna zilləyib, bir nöqtəyə baxdıqca nəzərinə adamların tutqun simaları gəlirdi.

Kağızlar bir-birinin üstünə yığılıb hündür bir qalaq olmuşdu. Bu onun ömrünün iki ili idi, bu onun ürəyinin ağrısı idi. İki il gecə-

gündüz bu əsərlə yaşamışdı. Alnından axan tər çox zaman onun sözlərini oxunmaz hala salmışdı. Neçə dəfə köhnə, saralmış əlyazmalarının arasından baş qaldıran Mirzə Cəlilin xəyalı onun sakit hücrəsinə qədəm basıb, Orxanla qabaq-qənşər dayanmış, söhbət etmiş, sonra səssizcə də çıxıb getmişdi. Mirzə Cəlilin nurani sifəti, dərin, atəşin və bir qədər də kədərli gözləri Orxanı hər saat, hər dəqiqə müşayiət etmiş, onu yazmağa, axtarmağa, ürək sözlərini deməyə ruhlandırmışdı. Orxan bu əsərini beynində, ürəyində bəsləyib ona pərvəriş vermişdi. Orxana elə gəlmişdi ki, bu onun ən yaxşı əsəri olacaqdır! İndi isə... ürəyindəki yaxşı, şirin arzuların əvəzində stolun üstə yığılmış bir yığın kağız-kuğaz...

Orxan köksünü ötürdü, kağızları şkafa yığıb bağladı və ağır addımlarla şöbəni tərk etdi.

## ON BEŞİNCİ FƏSİL

Nadirə institutun qapısı ağzında dayanmış «Volqa»nın yanından ötüb keçmək istədi, ancaq bərk yorulduğundan və əsəbləşdiyindən maşının qapısını açdı, dal oturacaqda əyləşib, Salmanı gözləməyə başladı. İş vaxtı qurtarırdı, adamlar danışa-danışa iki-bir, üç-bir nəhəng binadan çıxır, bazara, dükana, evə gedirdilər.

Nadirə başını oturacağın söykənəcəyinə dayayıb fikrə getmişdi. Bir azca bundan irəli qurtarmış iclas onun gözləri qabağından çəkilmirdi. Orxanın əsərinin müzakirəsi Nadirəni bir daha Salman haqqında düşünməyə vadar eləyirdi. Orxan, insafən, yaxşı əsər yazmışdı. Onun haqqında Salmanın verdiyi qərar birtərəfli və yanlış idi. Orxana əsəri üzərində əl gəzdirmək üçün ay yox, onca gün vaxt lazım idi. Amma Salman «Böyük səxavətlə» ona üç aydan da çox vaxt verirdi. Orxan tələsir, kitabı Mirzə Cəlilin yubileyinə çatdıra bilməyəcəyindən qorxurdu. Bu yandan da Salman belə eləyirdi. «Yoxsa Salman Orxan

barədə ayrı niyyətdədir? Yoxsa onun üzünə gülə-gülə zəhmətini yerə vurmaq istəyir? O, Orxan haqqında evdə də həmişə yaxşı söz-söhbət eləyirdi». Nadirə ondan Orxan barədə pis heç nə eşitməmişdi. Təkcə Orxanın məqaləsi çıxan günü əsib-coşmuşdu, vəssalam! Bəlkə Nadirədən ehtiyat eləyir, bəlkə ondan çəkinirdi?

Nadirə başını qaldırdı. Salman görünmürdü. Orxan yorğun-yorğun, döyülüb-əzilmiş adam kimi fikirli-düşüncəli halda ötüb keçəndə Nadirənin ona yazığı gəldi: «Salman onu tamam ruhdan sala bilər. Nə isə etmək, nə isə bir tədbir görmək lazımdır. Hər halda belə davam edə bilməz».

Nadirə Orxanı səslədi:

— Orxan!

Orxan eşitmədi. Nadirə başını maşının pəncərəsindən çıxardı:

— Orxan, ay Orxan!..

Orxan səsi eşidib ayaq saxladı, geri baxdı. Dalınca kimsənin gəlmədiyini görəndə yenə yoluna düzəldi. «Qulağım səsə düşüb, nədi?» — deyə düşünən Orxan bir də səs eşidəndə maşına sarı baxdı. Nadirə əl eləyib onu yanına çağırdı.

— Məyus olma, Orxan, — deyə Nadirə ona ürək-dirək verdi. — Yaxşı əsər yazmısan, heç nədən qorxma.

— Yox, Nadirə xanım, nədən qorxacağam. Bir az...

— Hə, bir az yox, lap çox haqsızlıq elədilər. Salman düz eləmədi. Mən kəsilə-kəsilə qaldım. Çünki mən onun iradəsi əleyhinə adam içində bir söz deyəndə düz bir həftə bizim evdə müharibə gedir. Belədir də xasiyyəti, neyləyəsən?

— Yox, sağ olun. Siz əlinizdən gələni elədiniz.

Orxan Nadirənin elminə, biliyinə, əsərlərinə pərəstiş eləyənlərdən idi. Onun özünün şəxsiyyəti Orxanı o qədər valeh eləmişdi ki, Nadirəni az qala müqəddəs bir adam bilirdi: «Necə də gözəl insan, necə də gözəl alimdir!..» Orxan çox az adam tanıyırdı ki, onda

istedadla gözəl insaniyyət birləşsin. Qayğıkeşlik Nadirənin elminin də, özünün də bəzəyi idi.

— İndi hara gedirsən?

Orxan əlini ürəyinin başına qoydu:

— Həkimə gedirəm, Nadirə xanım.

— Ürəyin ağrıyır? — deyə Nadirə həyəcanla xəbər aldı.

— Bəli. Narahat olmayın, ayrı həkimə yox, Xəzər loğmanımın yanına gedirəm.

— Məni lap qorxutdun.

— O mənim ən yaxşı həkimimdir, Nadirə xanım.

Orxan xudahafizləşib getdi. Nadirə onun dalınca baxıb fikirləşdi: «Yaxşı alimdi, ancaq heyif... heyif ki, ürəyi...»

Bir az keçmiş Salman açarı fırlaya-fırlaya gələndə Nadirə darıxmış halda:

— Gəl çıx də... — Dedi.

Salmanın üzü gülürdü, kefi yuxarı idi. Nadirə onun halındakı dəyişikliyi görüb:

— Nə olub, Salman, deyəsən, kefin ala buluddadı? — deyə xəbər aldı.

—Əşi, neynəyəcəyik daha? Onun-bunun dərdini çəkməkdən yorulduq. Filankəs səndən incidi, bunun fikrini çək; filankəs tənqid elədi, bunun fikrini çək. Ömrümüzü çürütdü bu fikirlər.

— Yaxşıya pis deyəndə necə, onun fikrini çəkirsənmi?

İçəri keçib motoru işə salmış Salman qanrılıb geri baxdı:

— O necə olan şeydi yəni?

— Orxanın məsələsini deyirəm. Sən düz eləmədin, Salman.

— Niyə ki?

— Ona görə ki, Orxanın əsəri əvvələn yubiley üçün yazılmayıb, o, beş günə, on günə yazılmış kitab deyil. Yazıq iki il onun üstündə can qoyub. İkincisi də, onu çapa təsdiq etmək olardı, yüngül bir redaktə lazım idi, vəssalam!..

— Ay Nadirə, ay Nadirə, sən yenə çaldığını çalırsan. — Salman maşını tərpətdi və küçə aşağı axışanlara qoşuldu. — Sən bil ki, bu cavanların yazdığını urraynan keçirmək olmaz. Onları gərək həmişə bir balaca sıxasan. Niyə? Ona görə ki, səhər «Dahiyəm» deyib burunlarını yuxarı tutmasınlar. Sənin, mənim yazdığıma dodaq büzüb, üz turşutmasınlar.

— Qəribə fəlsəfədir. Sənin hər işin qəribədir.

— Zəmanə özü qəribədir, Nadirə.

— Eh, zəmanəlik burda bir şey yoxdur, səni inandırıram. Mən səni o qədər yaxşı tanıyıram ki, bu üzündən baxanda o tərəfini yaxşı görürəm. Sən öz qəribəliklərini nə zəmanənin, nə başqa bir şeyin boynuna yıxıb, özünə haqq qazandıra bilməzsən, Salman. Sənin öz təbiətin belədir.

— Ola bilər.

— Məsələn, bax, indi Orxan iclasdan çıxıb ürəyini tuta-tuta dəniz qırağına getdi.

— Ürəyini tuta-tuta?

— Bəli. Axı, onun ürəyi xəstədir.

— Doğrudan? — Professor ayağını qazdan çəkdi. Nadirəyə elə gəldi ki, bu xəbər onu sarsıtdı:

— Düz deyirsən?

— Vallah, hə! O gün fondda işlədiyi yerdə yıxılmışdı. Təcili yardım-filan gəlib iynə vurdu. Birtəhər özünə gəldi. O, çox istedadlıdır. Onu qorumaq lazımdır, Salman.

— Mən onu incitmirəm ki... Elmdir bu, Nadirə. O əsərin üstündə mənim şöbəmin adı var. Səhər çapdan çıxanda yaxşılığı müəllifin adına yazılacaq, pis olsa, arada mən danlanacağam. Bildin? Özün obyektivlikdən dəm vurursan, ancaq...

— Elə bu da obyektivlikdir, Salman. Pisə yaxşı demək vicdansızlıq olduğu kimi, yaxşıya pis demək də elə bir şeydir. Bu ondan da qat-qat artıq vicdansızlıqdır.

Salman maşını burub həyətə saldı:

— Ayə dədə vay, ay dədə vay!... Sən məni qocaltdın, Nadirə! — deyə Salman köksünü ötürüb açarı burdu, motor söndü. — Vay o kişinin halına ki, arvadı ilə həmixtisasdı. Dəhşətdir, cəhənnəm dəhşəti!

— Düz deyirsən, Salman, lap dəhşətdir! Pilləlləri ağır-ağır qalxdılar. Salman qapının zəngini basdı. İçəridən səs-səmir eşidilmədi.

— Ceyhun hələ dərsdən gəlməz, — deyə Nadirə tövşüyə-tövşüyə dilləndi. Salman açarı çıxarıb qapını açdı.

— Ev tör-töküntü idi. Süpürgə, xəkəndaz girəcəkdə ayaq altında idi. Mətbəxdə bulaşıq qab-qacaq üst-üstə yığılmışdı. Səhər yumağa vaxt çatmadı.

Nadirənin ürəyi acından siyrilirdi. Neçə illərdi öyrənmişdilər ki, onlar işdən gələn kimi Sədəf süfrə açırdı, bişirdiyi ləziz, dadlı xörəkdən çəkib ortalığa gətirirdi. Sədəf daha onların evinə gəlmirdi. Bu evdə onun yeri hər gün, hər dəqiqə görünürdü. Nadirə odla su arasında qalmışdı. Evin işi ondan nə qədər vaxt istəyirdi. Bu isə dəhşət idi.

— Acından öldüm, — deyə Salman paltarını dəyişdi, yuyunandan sonra stol başına keçib əyləşdi. — Gör bir nə təşkil eləyirsən.

— Hələ heç nə. Gərək bazara gedib-gələm, sonra.

— Vay dədə, vay!..

— Hə, sənin kimi adama elə bu yaxşıdır.

Salman mətbəxə keçib, bir qırıq yavan çörək götürüb gəvələməyə başladı. Heç nə demədi...

## ON ALTINCI FƏSİL

Havalar yamanca soyumuşdu. Başdan papaq aparan küləklər əsir, arabir selləmə yağış yağır, hərdən də zəif, adamın canını güclə

isindirən qış günəşi sarımtıl üzünü göstərib, tez də buludlar arasında gizlənirdi.

Müzakirədən sonra əsərini bir də diqqətlə nəzərdən keçirib professora təqdim eləmiş Orxan bu qış havası kimi tutulub-açılır, ağır, yorucu zəhmətdən sonra duyduğu yüngüllük, xoş əhvali-ruhiyyə getdikcə narahatlıqla əvəz olunurdu. Bu iki ayda, demək olar ki, Orxan canına, ürəyinə zülm eləmişdi. Vaxt, zaman heç bir şeylə hesablaşmadan keçib gedir, üçüncü ay da tamam olurdu, ancaq professor hələ də Orxanın işini oxuya «bilməmişdi».

Yubiley yaxınlaşırdı. Bu az müddətə kitabın çap olunub ortalığa çıxmağı sual altına düşürdü. Düzdür, kitab itib-batmayacaqdı gec-tez çap olunacaqdı, ancaq bayram günlərində çıxmağının bir özgə hüsnü vardı: «Toydan sonra nağaranın nə gözəlliyi, nə lətafəti olacaqdı? Yoxsa professor öz «Sevimli tələbəsinin» bu sevincinə zəhər qatmaq, onun yuxusuz gecələri bahasına başa gəlmiş bu nəşəsinə soğan doğramaq istəyirdi? Niyə axı? O boyda professor bu qədər kiçik idimi? Bəs Gülalı? O niyə elə danışırdı? Axı, mən kimə neyləmişəm? Öz canıma qəsd etmişəm, gözümün yağını əritmişəm. Bunların gücünə əsər yazmışamsa, daha onlar məndən nə istəyirlər?»

Gecələr yerinə-yatağına od tökülmüş adamlar kimi çalıxıb-çapalayan Orxan beləcə ürəyində hey danışır, düşünüb-daşınır, işin axırını bir yana çıxara bilmirdi. Nəhayət, prrfessorla açıq danışmağı qət elədi...

Professor içəridə təkdi. Qara cildli ensiklopediyanı qabağına qoyub nəsə oxuyurdu. Orxanı görən kimi gümrahlıqla dilləndi:

— Oho, salam, salam!., — Yerindən azca qalxıb ona əl uzatdı. — Necəsən?

Professor ürəyində:

«Nadirə deyir, ürəyi xəstədir. Bunun ürəyi xəstədir? Qırmızılığına baxırsan? Özünü tülkülüyə vurur» — deyə düşündü.

— Yaxşıyam, professor, siz necəsiniz?

— Niyə, siz yoxlayanı pis deyilik, — deyə professor incimiş kimi bir görkəm aldı. — Daha müəlliminizi itirib-axtarmırsınız.

— Professor, vaxtınızı almaq istəmirəm, — deyə Orxan Salmanın üz-gözünə diqqətlə baxmaqda davam etdi. — Sizin işiniz-gücünüz çox olur.

— Bəli, elədir. İnanın ki, son zamanlar heç başımı qaşımağa da vaxtım yoxdur.

— Doğrudur.

Professor Orxanın gəlişinin səbəbini duymuşdu. Qabaqladı:

— İnanın ki, vaxt tapıb hələ sizin əsərinizə baxa bilməmişəm.

— Doğrudan? Baxmamısınız?

— Yox, Orxan, əzizim. Təsəvvür edin ki, baxa bilməmişəm.

Orxan məyus oldu:

— Professor, axı... Bir ay yarım qalır cəmi?

— Nəyə?

— Vaxta, yubileyə.

— Ah, yubiley!.. Neynək, çatdırarıq.

— Çətin, professor. Bunun elmi şuradan, nəşriyyat şurasından keçməyi var, redaktə olunmağı var.

— Darıxma, zəng eləyərəm, tez buraxarlar. Bir də səndən qabaq hələ Gülmirənin iki fəslini müzakirə edəcəyik. Çoxdan növbədədir. Siz oxumusunuz onun əsərini?

— Elə-belə, vərəqləmişəm, — deyə o, sıxıla-sıxıla dilləndi.

— Yox, yox, hökmən oxuyun! Çox maraqlı, çox qəribə bir əsər yazıb.

Professor sözü dəyişib Orxanın öz üstünə gətirdi:

— Vərəqləmişəm, dediniz, yadıma düşdü. Mən də o gün sizin işi bir balaca vərəqlədim, elə-belə, ötəri. Onu deyim ki, narahatlıq yenə ürəyimi bürüdü. Nədənsə mənə elə gəldi ki, siz əsəri yaxşılaşdırmaq əvəzinə bir az da korlamısınız.

— Ola bilməz, professor. Necə deyərlər, yumurtlamadı, yumurtlamadı, bəs falına nə gəldi?

— Bəli, bəli. Məndə elə bir təəssürat oyandı.

— Xahiş edirəm, professor, diqqətlə oxuyun. Mənim əsərim... — Orxan ilk dəfə «Əsərim» dedi, «Yazım» demədi.

— Hə, bax burda korladın, necə yəni «Mənim əsərim»? Bu, nə deməkdir? Bəs hanı təvazökarlığın sənin?

— Professor, mən pis bir söz demədim ki?

— Mənim sənin yaşın qədər stajım var, sən ağırlıqda da əsərlərim. Heç bir yerdə görmüsənmi deyim «Mənim əsərim?» Təvazökarlıq, Orxan, təvazökarlıq!..

— Mən...

— Səni tariflər xarab elədi, deyəsən, Orxan. Heyif səndən, mən ən yaxşı tələbələrimdən birinin gözümün qabağında yavaş-yavaş məhv olduğunu görürəm. Bu mənim üçün çox ağırdır, çox ağır!.. — Salman Qurbanzadə bunları əzizini itirən bir adam kimi dedi. Orxan danışmağa söz tapmadı...

## ON YEDDİNCİ FƏSİL

Kitabı çantasına qoyan Ceyhun asılqanın qabağında dayanıb atasının kabinetinə, anasının iş otağının qapısına baxdı. Səs-səmir yoxdu: ikisi də bayaqdan işləyirdi. Ceyhunun əli atasının mil-mil pencəyinin cibinə uzandı. Soyuq, ilan gözü kimi xırda həlqəli zəncir əlinə toxunanda o sevindiyindən nə edəcəyini bilmədi. Maşının açarını tapmışdı. Çıxartdı, yavaşca şalvar cibinə qoydu. Ürəyi şiddətlə döyünürdü. Əgər atası bir dəqiqə otaqdan çıxsa, ya anası gəlsə, o heç yerə gedə bilməzdi və niyyəti alt-üst olardı. Arakəsmənin qapısını ehmalca örtdü.

Ağ dəstəkli telefona yanaşıb səs salmamağa çalışaraq əzbər bildiyi nömrəni yığdı və demək olar ki, pıçıltı ilə danışmağa başladı:

— Alo, Afa?

Telefonda incə qız səsi eşidildi.

— Kimdir?

— Salam, Afa, mənəm, Ceyhundur. Necəsən?

— Yaxşıyam.

— Təksən evdə?

— Hə, təkəm.

— Geyin, hazırlaş, gəlirəm.

Qızın səsində bir gümrahlıq, sevinc duyuldu:

— Hara gedirik?

— Maşınla gəlirəm! Yağışda maşında gəzməyin ayrı ləzzəti var, Afa.

— Papan verdi maşını?

Ceyhun, özü də fərqinə varmadan, açarı cibindən çıxarıb zəncirini barmağına keçirərək fırladı və sonra adəti üzrə, boynunun ardını qaşıyıb cavab verdi:

— Hə, papam özü dedi, get bir az gəz, maşın yağışın altında yuyulsun... Di yaxşı, hazırlaş...

— Yaxşı... — Telefonda bir marçıltı eşidən Ceyhun gülə-gülə dəstəyi yerinə qoydu və barmaqlarının ucunda bayıra qaçdı. Onun qara-qıvrım başı açıq idi. Yun köynək, üstündən mil-mil kostyum geymişdi. Boynuna alabəzək bir şarf salmışdı. Pillələri taqqıldada-taqqıldada həyətə düşdü.

Maşın çöldə saxlanmışdı. Üstündə yağış damcıları parlayırdı. Ceyhun qanrılıb, balkona baxdı, kimsə yox idi. O, cəld bir hərəkətlə maşının qapısını açıb içəri girdi. Qabağındakı yastı aynada özünə ötəri baxıb motoru işə saldı. Maşın sudan çıxmış qaz kimi silkələnib yerindən tərpəndi.

Maşın həyətdən çıxana kimi, Ceyhun ürəyini yedi. Geniş prospektə burulandan sonra isə rahat nəfəs aldı, maşın yaş asfalt küçədə irəli şütüdü. Ceyhun elə bil, quş olmuşdu, qanad gətirmişdi. Elə sevinirdi ki... Gah fit çalır, gah da: «Ay gilavar, ay gilavar!!..» deyə oxuyurdu. Maşının radioqəbuledicisinin düyməsini burdu. Kimsə kamançada yanıqlı segah çalırdı. «Əh!» — deyib dalğanı dəyişdi. Qatmaqarışıq səslər gələn bir dalğanın üstündə saxladı. Bağırırdılar, adını bilmədiyi çalğı alətlərində bir hay-küy qopartmışdılar ki, az qalırdı adamın qulağının pərdəsi yırtılsın. Elə bilirdin ki, indicə balaca, yaraşıqlı radioqəbuledici bu hay-haraya dözməyib partlayacaq. Səslərin ahənginə uyğun olaraq o, çiyinlərini tərpədir, özü də onlara qoşulur: «Bap-bari, bap-bari,, bap-bari..» —deyirdi.

Fəxri xiyabanın qabağından ötdü. Dağüstü parkın qapısı ağzından üzüaşağı buruldu. Akademiyadan aşağıda dayandı.

Yol açıldı. İki dəqiqə sonra Ceyhun Tarix muzeyinin tinindəki dəmir qapılı dərvazanın yanında durub onun yolunu gözləyən Afanın böyründə maşını əylədi. Bu, arıqsifət, nazik qaşlı, uzun, sarışın bir qız idi. Burulmuş saçları çiyinlərinə tökülmüşdü. Qara, yastı ayaqqabısı işım-işım işıldayırdı. Ağ sumkasının qulpunu qoluna keçirmişdi. Maşını görən kimi sağ əlini havada yelləyərək:

— Hello, — dedi. — Gəldin?

Ceyhun əyilib qabaq qapını açdı. Afa bir uşaq cəldliyi ilə özünü içəri atdı. Ceyhun onun xırda, pambıq kimi yumşaq əlini sıxdı. Maşın tərpəndi.

— Hara sürüm?

— Hara istəyirsən!.. Beləcə dünyanın o başına da getməyə hazıram... Sür, hara istəyirsən, sür!.. — deyə qız oturacaqda yayxanıb xoşbəxtcəsinə güldü.

## ON SƏKKİZİNCİ FƏSİL

Elə bu zaman professor otağından çıxdı. Böyük evdə heç kəs yox idi. Ümumiyyətlə, son vaxtlar onların evi çox sakit və demək olar ki, cansıxıcı olmuşdu. Küsülü kimi gəzib dolanırdılar. Adətən, ən əziz və doğma bir adamı dəfn edəndən sonra evdə belə qərib səssizlik hökm sürür. Yaxşı ki, kitablar varmış, yaxşı ki, yazı-pozu varmış!..

Professor da, Nadirə də elə hey işləyir, yazıb-pozurdular və sanki bununla evdəki boşluğu doldurmaq, ürəklərindəki qüssəni qovmaq, yüngülləşdirmək istəyirdilər. Ancaq onları bu da bezdirirdi, bu da usandırırdı.

«Ceyhun yoxdur, yəqin, oynamağa gedib», — deyə professor fikirləşdi. Onun ürəyi çay istəyirdi. Sədəf Salmanın qabağına həmişə armudu stəkanda yaxşı dəmlənmiş çay gətirərdi. İndi Sədəf də yoxdur, çay da. Nadirə də işləyir. Amma çoxdan işləyir, indi, yəqin, yorulub. Bu doktorluq dissertasiyası onu lap əldən salıb. Gecə-gündüz çalışır.

Salman bu fikirlərlə Nadirənin otağının qapısını üsulluca araladı:

— Nadirə, yorulmadın?

Nadirə ərinin səsində bir qayğı duyub əl saxladı. Ürəyində tutqun, çoxdan gözlədiyi, intizarla gözlədiyi bir sevinc hissi duydu. Yorulmamışdısa da:

— Hə, yorulmuşam, — dedi və ayağa durdu. Ona sarı yeriyib əlini qapının çərçivəsinə söykədi. Salman geri çəkildi, gəlib divanın üstündə oturdu.

— Çayın olsaydı, içərdik, Nadirə.

— Bu saat dəmlərəm.

On beş dəqiqə keçməmiş Nadirə iki stəkana çay töküb gətirdi. Konfet qabını bufetdən çıxarıb ortalığa qoydu.

Çay buğlanır, onlar susurdular. Sanki təzə tanış olmuşdular, halbuki hər ikisinin ürəyi dolu idi. Sinələrini boşaltmaq üçün fürsət, məqam gözləyirdilər.

Nadirə ah çəkdi.

— Niyə ah çəkirsən? — Salman arvadının qəlbini ələ almaq üçün bundan istifadə edib xəbər aldı.

— Niyə də çəkməyim? Az qalır ürəyim partlasın. Elə bil bu evdə heç adam yaşamır, elə bil bir-birinə yad, uzaq olan adamları bir damın altına yığıblar. Elə bil bizə əziyyət vermək üçün belə eləyiblər. Biz nə üçün bir-birimizə getdikcə daha çox yad oluruq, nə üçün?

— Sən bunu özün məndən də yaxşı bilirsən! Bizim aramızda olan o möhkəm körpünün altına sən öz əllərinlə dinamit qoyub partlatdın, indi sən çayın bu tayında qalmısan, mən o tayında. Sən şöhrətpərəstsən, sən insafsızsan, Nadirə! — deyə Salman sakit-sakit davam elədi. — Mən həmişə sənin dəyanətinə güvənərdim, mərdliyinə güvənərdim. Amma, görünür, yanılmışam. İndi budur, evimiz suyu sovulmuş dəyirmana bənzəyir. Kimdir günahkar?

— Mənəm, mən!.. — deyə bayaqdan üzündə kədərli bir ifadə dayanıb ərinin ittihamlarına qulaq asan Nadirə birdən əsəbiliklə qışqırdı. — Mənəm günahkar, yaxşı, mənəm, mən! Bu evin suyu sovulmuş dəyirmana oxşamasına da, atamın, bacımın ayağının burdan kəsilməsinə də, Ceyhunun bildiyini eləməsinə də, mən günahkaram, bildin, mən günahkaram! — O, hönkürtü ilə ağladı.

Bu ara qapıda xışıltı eşidildi. Deyəsən, poçtalyon idi. Salman «Əh» eləyib ayağa duraraq qapıya sarı getdi, poçt qutusunu açıb qəzetləri gətirdi.

Əvvəl nəzərini bir məktub cəlb elədi. Nadirəyə gəlmişdi. İlhamdandı. Salmanın sifətindəki qəm buludları, qəzəb və kin ifadəsi dağıldı: «Əhə, gözünə dönüm. Yəqin İlham məqalədən sonra Nadirəyə bir ultimatum verib. Verər, verər. Çox cəsarətli oğlandı. Buzovnada, qayaların üstündə mənimlə elədiyi söhbət heç yadımdan çıxmır. Özü də lap məqamında gəlib».

— Sənə İlhamdan məktub var.

— İlhamdan? — Nadirə jaketinin qolundan dəsmalını çıxarıb gözünün yaşını sildi.

— Hə, İlham yazıb. Yəqin, onu möhkəm tənqid etdiyin üçün sənə təşəkkür yazır, — deyə professor rişxəndlə, qımışa-qımışa məktubu onun qabağına atdı.

Nadirə bir söz deməyib məktubu açdı, oxumağa başladı. İlham uzun, səmimi bir məktub yazmışdı. Gec cavab verməyinin səbəbini o, əməlli-başlı düşünmək, yüz ölçüb bir biçmək, Nadirə xanımın məqaləsində deyilənləri isti-isti deyil, soyuq mühakimə ilə təkrar-təkrar oxumaq istəməsi ilə izah edirdi. Salman kinayə ilə demişdi, ancaq İlham, doğrudan da, onun kitabçasını çox diqqətlə oxuyub fikir və mülahizələrini heç bir pərdəyə-filana bürümədən, açıq şəkildə, eyni zamanda səmimiyyətlə yazdığı üçün Nadirə xanıma dərin təşəkkür edirdi:

— Mən yazılarım haqqında əsil həqiqəti bilmək istəyirdim. Xəstəliyimi bilmək istəyirdim. Siz ən kamil bir həkim kimi mənim yaralı cəhətlərimi göstərməklə mənə ömrüm boyu unutmayacağım bir yaxşılıq eləmisiniz. Elə bilirəm sizin qətiyyən acığınız gəlməz, əgər desəm ki, professorun məqaləsini oxuyanda elə bilirdim o qanadlı, şirin sözlər mənim haqqımda deyil, başqa birisi haqqında yazılıb.

Məktub bu sözlərlə qurtarırdı:

«Mən indi «Xəstəliyim» üzərində ciddi düşünürəm. Siz mənim diaqnozumu düzgün təyin etmisiniz. Bunun üçün sağ olun, çox sağ olun».

Nadirə məktubu oxuduqca sevinirdi, ancaq bu, gizli bir sevinc idi. Şöhrətpərəstlik damğası ilə damğalanmamış bir adam açıq-aşkar sevinə bilərdimi, özü də Salman kimi bir adamın yanında? Buna baxmayaraq, Nadirənin ürəyində dərin bir vüqar hissi baş qaldırdı və o, məktubu Salmana verdi:

— Al, oxu.

Salman daxili bir əminliklə məktubu alıb oxumağa başladı. Nadirə onun qaraşın sifətinə baxır, sətirləri nəzərdən keçirdikcə sir-sifətinin tutulduğunu görürdü. İndi Nadirənin əlinə yaxşıca məqam

düşmüşdü. Salmana rişxənd edə bilər, ondan heyfini ala bilərdi. Ancaq o bu «İntiqam» hissindən çox-çox uzaq idi.

Salman məktubda özünə aid cümlələri oxuyanda lap tutuldu, boğuq, xırıltılı bir səslə:

— Mən bədbəxt adamam, — dedi, — Çörəyimin duzu yoxdur. Kimə yaxşılıq eləyirəm, qayıdıb özümü çalır.

Telefon zəngi onun sözünü yarımçıq qoydu. Nadirə ayağa durub dəstəyi götürdü:

— Bəli,, — dedi. — Dinləyirəm. Necə, necə? Hə, bizim maşındı... Vay!.. — Arvad bihal divara söykəndi, dəstək əlindən düşüb sallandı.

— Nə oldu, nədi? — Salman ona sarı qaçdı.

— Ceyhun... avariyaya... düşüb!.. Aman Allah! Evim yıxıldı!..

Salmanı elə bil, ildırım vurdu. O, bir an heç nə deyə bilməyərək mat-mat arvadının üzünə baxdı. Salman dəstəkdən gələn səsi eşidirdi. Kimsə ucadan: «Allo, allo!» — deyə qışqırırdı. Salman özünə gəlib dəstəyi götürdü, bircə dəqiqə keçməmiş dəstəyi yerinə çırpıb, balkona qaçdı; maşın qarajın qabağında yox idi. Salmanın rəngi kağız kimi ağardı, dizləri əsməyə başladı...

Bir saatdan sonra hər şey aydın oldu. Maşın Razin qəsəbəsindən keçərkən bir «Maz» markalı yük maşını ilə toqquşmuşdu, daha doğrusu, Ceyhun özü çaşıb «Volqa»nı düz ağır maşının üstünə sürmüşdü. Qızın sağ qıçı, Ceyhunun qabırğası sınmış, alnını şüşə çəpinə kəsmişdi.

İkisini də Sabunçu xəstəxanasına qoymuşdular.

Salman da, Nadirə də ayaq üstə ölmüşdü. Salmanın beyni dumanlı idi, elə bil, hələ fəlakəti tam aydınlığı ilə dərk eləmirdi. Hərəkətlərində, sifətində bir çaşqınlıq duyulsa da, özünü sakit aparırdı. Ancaq Nadirənin göz yaşları dayanmırdı. Şəhərdən Sabunçuya gələnəcən taksidə üç-dörd dəfə ürəyi qısılmışdı. Bayılırdı, ayılandan sonra təkrar-təkrar bu sözləri deyirdi:

— Sən mənim evimi yıxdın, Salman. Sən mənim evimi yıxdın!..

Salman susurdu.

— Uşağım əlimdən getdi, ay aman!.. — deyə ana fəryad qoparır, ağlayır, ağlayır, təzədən bayılırdı.

Xəstəxanada ananı həkim sakitləşdirdi. Yaraları yüngüldü. Ceyhun ölməyəcəkdi, ancaq alnında böyük bir çapıq yeri qalacaqdı. Ömrü boyu qalacaqdı. Afanın qıçı bərk sınmışdı. Axsayacaqdı. O da ömrü boyu...

Xıncım-xıncım olmuş «Volqa»nı iki gün sonra Salman həyətə gətirmişdi. Nadirə balkonda dayanıb maşına baxırdı. Salman evdə yoxdu, usta dalınca getmişdi. Usta gətirəcəkdi, maşının əzilmiş yerlərinə baxdıracaqdı. Elə düzəldəcəkdi ki, qəzaya düşdüyü də bilinməyəcəkdi. Bəs Ceyhun? O sağalacaqdımı? Bəs Ceyhunun sifətindəki çapıq necə?

Nadirə gördü ki, həyətin cavanları yenə o yaşıl oturacağın yanına yığışdılar. Yenə kitaraları vardı, ancaq çalmırdılar. Maşına baxıb, yəqin, Ceyhun haqqında danışırdılar. İndi Ceyhunun başına bu iş gəlməsəydi, o da burda — bu yeniyetmələrin yanında olardı.

Nadirənin ürəyi dözmədi, o, içəri keçdi. Titrək əlini uzadıb kitab şkafından gündəliyini götürdü və yazmağa başladı.

«25 noyabr 196...cı il.

Təkcə maşın yox, bütün qurbanzadələr ailəsi qəzaya uğrayıb. Maşın düzələcək, ancaq varmı elə usta ki, bizim ailəmizdə hökm sürən soyuqluğu yox eləsin, aramızda yaranmış uçurumu məhv etsin, bizi birləşdirən telləri çəkib təzədən, özü də möhkəm-möhkəm bağlasın? Varmı elə bir usta?»

Yaşıl oturacağın üstündə gitara səsləndi, sonra oğlan gözəl, yatımlı səsi ilə Nadirənin xoşladığı mahnını oxumağa başladı.

...ay gilavar, ay gilavar...

O, qələmi yerə qoyub mahnını dinləyir, qəzaya uğramış oğlu, onun istədiyi qız haqqında düşünürdü.

## ON DOQQUZUNCU FƏSİL

Söz verdiyi vaxt çoxdan tamam olmuşdu, ancaq Əqdəm hələ də gəlib çıxmamışdı. Gülmirə nigarançılıq içində çırpınırdı, hər gün işdən gələndə onu evdə görəcəyini, yenə dindirməyəcəyini düşünürdü: «Qoy lap yalvarsın, qoy lap ağlasın!» — deyirdi. Daha səbri tükənmişdi. Əqdəmin yoxluğu fikri onun beyninə, ürəyinə hakim kəsilməyə başlayırdı. Əqdəm hərdən çox gec-gec gəlib tez də çıxıb gedən qonağa bənzəyirdi, halbuki o bu evin kişisi, bu ailənin başçısı idi.

Son vaxtlar Gülmirə işinə möhkəm girişmişdi. Öz təkliyini, qüssəsini ancaq işləməklə, yazıb-pozmaqla, mütaliə etməklə unutmağa çalışırdı. Çalışırdı, ancaq bu ona çox baha başa gəlirdi. Əsəbləri gərilir, fikri çətinliklə bir yerdə qərar tuta bilirdi. Getdiyi yer idarə, anasıgil idi. Anası da axır vaxtlar bir az həlimləşmiş, onu danlayıb-dansamaqdan əl çəkmişdi. Çünki arvad hiss eləyirdi ki, indi onun səhv elədiyini təkrar-təkrar üzünə çəkmək nəinki bir fayda vermir, hətta qızı əsəbiləşdirir. O, göz yaşı axıda-axıda ağlayırdı. Buna isə anası tablaya bilmirdi. Qızı onlara gələndə könlünü açır, darıxmağa qoymurdu.

— Mənə demişdi, gedib, işdən çıxıb gələcəyəm, tamam gələcəyəm. Hanı bəs? Yaman gəldi. Gör neçə ay keçir? — deyə anasının heç bir şey xəbər almadığını görəndə özü söhbəti dolandırıb Əqdəmin üstünə gətirirdi. — Yalançı imiş. — O, köks ötürə-ötürə danışırdı. — Bir evdə ki bir-birini aldatmaq oldu, daha o nə evdi? Dağılsın, xaraba qalsın elə ev, elə ailə!..

— Bəs, Gülü, kinoya-zada niyə getmirsən? — deyirdi. — Başın qarışar heç olmasa...

— Eh, tək ürəyim gəlmir gedəm, ana.

— Tək getmə, rəfiqələrinnən get.

— Mənim rəfiqələrim öz ərləri, öz adamları ilə kinoya gedirlər. Mən onlara necə qoşulum?

— Dur, onda ikimiz gedək.

— Mənim həvəsim yoxdu, ana. — Gülmirə belə deyib evə qayıdır, bir az dincəlib sonra yenə işə girişirdi.

O, miz arxasına keçdimi, Orxanı yanında hiss eləyirdi. Orxanın xəyalı onu tək buraxmırdı. Qətiyyətli səsini eşidirdi: «İşlə, Gülü, qorxma!» Orxanın qaynar, bir az da qüssəli görünən gözlərinə tamaşa edib, o gözlərdə özünə qarşı gizli bir duyğunun alışıb-yandığını düşündükcə Gülmirə həyatındakı, qəlbindəki boşluğun yavaş-yavaş dolduğunu hiss eləyir, bu onun qəmli, tutqun könlünə bir işıq salır, onu isindirirdi. Orxanın gətirdiyi güllər, elədiyi kömək Gülmirənin həyatına yavaş-yavaş rövnəq verir, ürəyinə girirdi. Gülmirə başa düşürdü ki, Orxan onun üçün getdikcə əziz bir adama çevrilməyə başlayır. O bu hissdən yaxa qurtarmaq, qaçmaq istəyirdi, ancaq mümkün deyildi; çünki Orxan hər dəqiqə, hər saniyə fikrən, ruhən onun yanında, ürəyində, düşüncəsində idi.

***

Ceyhunun qəzaya düşməsi xəbəri institutda yayılandan sonra işçilər bir-bir, iki-iki Sabunçuya, xəstəxanaya gedir, uşağa dəyirdilər. Professorun, Nadirənin halı çox pərişan idi. Bunu Orxan da, Gülmirə də yaxşı görürdü. Zarafat deyil, madar övlad, o da elə...

Orxan günortaüstü Gülmirəyə dəhlizdə dedi:

— Gəlsənə gedək Ceyhuna dəyək.

Gülmirə bu təklifi çoxdan gözləyirmiş, yaxud özünə yoldaş axtarırmış təki, tələsik cavab verdi:

— Gedək, Orxan. Yaxşı deyil, yoldaşlar gedib dəyiblər.

Onlar işdən tez çıxdılar, bazardan bir az mer-meyvə alıb vağzala gəldilər, elektrik qatarına minib Sabunçuya yola düşdülər.

Yol uzunu, demək olar ki, heç nə danışmadılar. Orxan Gülmirə ilə üzbəüz oturub məftun baxışlarını qızın yaraşıqlı üzünə, ala gözlərinə zilləyib susurdu. Onun baxışları elə məhzun və mənalı idi ki, Gülmirə həyəcanından içəridə ürəyinin əsdiyini hiss elədi. Gülmirə Orxanın gözlərinin içinə baxa bilməyib başını aşağı saldı. Əllərini dizinin üstünə qoyub donunun ətəyini azca aşağı çəkdi. Yerə baxsa da hiss elədi ki, Orxan yenə gözlərini ondan çəkməyib. Qatar Razin qəsəbəsindən keçəndə o, başını qaldırıb Orxana baxaraq özünü itirmiş halda gülümsündü:

— Niyə elə baxırsan?

— Mən sənin gözlərinə, gözəlliyinə tamaşa edirəm, Gülü!..

— Sus, ayıbdır, eşidən olar — Gülmirə yan-yörəsinə baxındı.

— Heç kəs yoxdur yanımızda. Vaqonun o başında iki qoca oturub. Mən səni həmişə görürəm, sən yanımda olmasan da...

— Bir halda ki həmişə məni görürsən, onda indi mənə elə baxma, Orxan, həyəcanlanıram.

Orxanın üzündə bir şadlıq hiss olundu və o, ürəyində: «Elə bu da mənə kifayətdir!» — deyib pəncərədən bayıra baxdı.

Qatar onları yüngülcə yırğalayır, təkərlər taraqqa-taraqla relsləri döyə-döyə irəliləyirdi.

— Yaman qorxuram, Orxan! — deyə Gülmirə sözü dəyişib sabahkı müzakirənin üstünə gətirdi və imtahan, özü də çox ciddi imtahan verməyə hazırlaşan bir tələbə kimi təşviş və qorxu hissi ilə dilləndi:

— Nədən, Gülü?

— Nəsə... heç özüm də bilmirəm. — Görək yoldaşlar nə deyəcəklər?

— Ürəyini buz kimi elə, Gülü. Susdular. Orxan nə fikirləşdisə:

— Sabah müzakirədə səni təbrik etməyəcəyəm, Gülü, — dedi.

Gülmirə təəccüblə:

— Niyə? — deyə xəbər aldı.

— Səni sabah müzakirədən sonra evimizdə təbrik eləmək istəyirəm, Gülü.

— Evinizdə? Elə niyə?

— Ürəyim belə istəyir, Gülü. Sənə bir dəstə yaxşı nərgiz saxlamışam, suya qoymuşam. Onu sənin üçün gətirtmişəm, şəxsən sənin üçün...

— Çox sağ ol, Orxan!

— Gələrsənmi?

Gülmirə dinmədi.

— Susmaq razılıq əlamətidi, deyirlər.

— Həmişə yox, Orxan.

— Bu dəfə qoy elə olsun.

Gülmirə ala gözlərinin uzun kirpiklərini endirməklə razılıq verdi...

Ceyhuna baş çəkib şəhərə qayıdanda, Nizami kino-teatrının qabağından keçərkən, Gülmirənin divarlara vurulmuş iri afişalara baxdığını görən Orxan dedi:

— Kinoya kedəkmi?

Gülmirə yenə cavab vermədi.

— Dinmirsən?

— Gec olar, Orxan.

— Evdə, səni gözləyən yox, məni gözləyən yox...

Gülmirə afişadan — sarışın saçlarını çiyinlərinə tökmüş, qırçın-qırçın çimmək paltarı geymiş və dənizin mavi sularına tamaşa eləyən qız şəklindən gözlərini çəkmədi:

— Gözləyən olmalı idi, amma yoxdur, — dedi və azca fasilədən sonra: — Gedək, — deyə əlavə elədi.

On beş dəqiqə sonra onlar işıqları sönmüş böyük zalın arxa cərgələrinin birində yanaşı oturmuşdular. Ekranda kadrlar bir-birini əvəz edir, ürəyi titrədən musiqi ilə müşayiət olunan hadisələr getdikcə gərginləşir, afişada Gülmirənin diqqətini cəlb eləyən sarışın saçlı qız haldan-hala, təbdən-təbə düşərək cəngəlliklərdə almanlarla vuruşan dəstənin arasında olan sevdiyi oğlanın yarasını bağlayır, nəhayət, onu öz əlləri ilə qara torpağa tapşırırdı. Sonra onun keçirdiyi həyəcanlar, onun həyatı...

Orxan Gülmirənin əlini ovcunun içinə alıb, dizinin üstünə qoydu. Gülmirə etiraz eləmədi. Bəlkə də o, hadisələrin axınına aludə olub, heç bunu duymadı. Orxan onun əlini yavaş-yavaş sığalladı...

Birdən Gülmirə sanki yuxudan ayıldı, alaqaranlıq zalda dönüb Orxana baxdı və əlini onun əlindən çəkdi. İncidiyini bildirmək üçün başını azca yana əydi.

Orxan Gülmirənin bu hərəkətindən pərt oldu və astadan köks ötürdü, nəsə demək, qızın könlünü almaq istədi, ancaq heç nə deyə bilmədi.

Bu ara ekranda təyyarə səsi eşidildi: ağ buludların arasında şimşək sürəti ilə uçan bir təyyarə zahir olanda Gülmirə səksəndi. Yadına Əqdəm düşdü. Can atdı ki, təyyarənin kabinəsinə baxsın, təyyarəçinin özünü görsün... Ancaq buna imkan tapmamış onu elə buludların arasındaca vurdular: təyyarə alışdı, sürətlə başıaşağı gəldi. Bu dəhşətli mənzərəni görən Gülmirə həyəcanlanmış, qorxmuş, özü də bilmədən Orxana sığındı...

## İYİRMİNCİ FƏSİL

Orxan ev-eşiyə sığışmırdı. Gah çarpayıya uzanır, gah durub oturur, gah da eyvana çıxıb dənizə tamaşa eləmək istəyir, ancaq

bacarmırdı. Papirosu papirosun oduna yandırır, öz-özünə danışır, əsəblərinin möhkəm gərildiyini hiss eləyib, özünü toxtatmaq istəyirdi.

Bu gün qəribə gün idi. O, günün çoxunu sevimli Gülmirə ilə bir yerdə olmuş, Sabunçuya getmişdi, kinoya baxmışdılar. Orxan ondan xoş və şirin arzularla ayrılmışdı. Kaş o, gün əyiləndən sonra dəniz qırağına getməyəydi. Kaş Biləndərə rast gəlməyəydi.

Orxanı indi hövsələdən, haldan çıxaran yaradıcılıq təşkilatının katibi Biləndərlə elədiyi söhbət olmuşdu. Dəniz qırağında adam azdı. Orxan fəvvarənin qabağında oturub Gülmirə haqqında fikirləşirdi. Birdən o, yanında kiminsə oturduğunu hiss eləyib çevriləndə həmişə hörmətini saxladığı və «müəllim» deyə müraciət elədiyi Biləndəri görüb sevinmişdi.

— Salam, Orxan! — deyə Biləndər əlini Orxana sarı uzatmışdı.

— Salam, Biləndər müəllim!

— Deyəsən, istirahət eləyirsən, hə? — Cavab gözləmədən əlavə eləmişdi: — Yaxşı eləyirsən. İstirahət eləmədən, beynin yorğunluğunu almadan nə yaşamaq, nə yaxşı əsər yazmaq mümkündür.

— Düzdür, Biləndər müəllim.

Biləndər Orxanın xətrini çox istəyirdi. Onun məqalələri, əsərləri barədə Biləndər iclaslarda, qəzet və jurnal səhifələrində dəfələrlə aqızdolusu danışmışdı. Orxanın zəhmətsevərliyini, istedadını yüksək qiymətləndirən Biləndər onun gələcəyinə böyük ümid və inamla baxırdı. Az-az görüşərdilər, ancaq səhbətləri yaxşı tutardı.

— Bir ara səni möhkəm axtardım. İstəyirdik bu ötən plenumda dramaturgiya haqqında məruzəni sənə tapşıraq. Ancaq tapa bilmədim. Salmana zəng elədim, dedi ki, çox vacib bir işdən ötrü ezamiyyətə gedirsən.

Orxanın dalağı sancmışdı; çünki o özünün iki daşın arasında qəfil ezamiyyətə göndərilməyindən — professorun xüsusi təkidindən və Tiflisdən əli ətəyindən uzun qayıdıb gəlməyindən hələ də yaxşı baş aça bilmirdi. Ürəyinin dərinliklərindən bəzən zəif bir şübhə baş

qaldırır, o, professorun hərəkətlərinə fikir verir, ancaq az sonra onun qayğıkeşliyini görüb, şirin sözlərini eşidəndə belə fikirləşdiyinə görə xəcalət çəkirdi; həm də təkcə xəcalət yox, vicdan əzabı da.

— Bu, təxminən nə vaxt olub, Biləndər müəllim? — deyə kələfin ucunu tapdığını tutqun şəkildə hiss eləyən Orxan məsələni dəqiqləşdirmək üçün soruşanda Biləndər iri alnını ovuşdura-ovuşdura bir qədər fikirləşib cavab vermişdi:

— Bu... keçən ayın beşində olub.

— Beşində? — Orxanın gözləri təəccübdən böyüdü.

— Hə, beşində... Bu, ona görə dəqiq yadımda qalıb ki, o gün prezidiumun iclası vardı. Biz iclasda bu məsələni həll eləmişdik ki, məruzəçi sən olasan.

— Professor nə dedi sizə, Biləndər müəllim?

— Dedi ki, Orxan ezamiyyətə getməlidir. Dedim ayrı adam göndərin. Dedi, mümkün deyil ki, mümkün deyil.

Orxana hər şey birdən-birə aydın oldu: «Demək, professor məni qəsdən göndərib. Beşində axı, mənim heç ezamiyyət məsələm yox idi. Deməli, Biləndər müəllim zəng eləyib fikrini deyəndən sonra, ezamiyyət çıxıb ortalığa... Qəribədir, çox qəribədir. O, niyə belə eləsin?»

Orxan sonra Biləndərə ayrı söz deməmişdi. Bir az ordan-burdan danışıb ayrılmışdılar.

İndi Orxan fikirləşirdi; «Mən ona nə qədər də dərindən inanmışam. Amma o «mənim istedadlı tələbəm», — deyə-deyə, üzümə gülə-gülə ayağımın altını qazır».

Orxan professorun dilindən çıxan sözləri eşitmişdi, indi onun ürəyinin dedikləri qırıq-qırıq təxminlər şəklində qulağında səslənirdi. Bu qayibanə səs Orxanı ümidsizləşdirir, məyus eləyirdi: «Səndən nə gedir? Plenumda məruzə eləmək nə böyük şeydir ki, ona paxıllıq eləyirsən? Paxıllıq? Hə, paxıllıq, paxıllıq. O, sevinməli ikən, o, fəxr eləməli ikən...»

Orxan dəstəyi götürüb professora zəng eləmək istədi. Deyəcək, hər şeyi deyəcəkdi. Xırda adamsan, paxılsan, deyəcəkdi. Telefon cavab vermədikdə Orxan sevinən kimi oldu: «Axı, o mənim müəllimimdi. Həyat nə qəribədir, nə mürəkkəbdir? İndi mən ona necə deyim ki, sən alçaqsan! Yox, belə demək mənə yaraşmaz! Amma hər halda utandırmaq lazımdır», — deyə gəlib çarpayıya uzandı.

Gecə keçir, Orxanın işığı sönmürdü. Səhər haçan açılacaqdı?

Orxan dikəlib stolun üstündəki güldana qoyulmuş nərgiz dəstəsinə baxdı.

Səhər bu gülləri Gülmirə iyləyəcək. Bu güllər onundur, bax, o burda oturacaq. Sabah bu evdə onun nəfəsinin ətri nərgizin ətrinə qarışıb Orxanı məst eləyəcək. Sabah Gülmirənin həyatında bayram olacaq. Əsəri müzakirə olunacaq. Sabah Orxan gənclik, gözəllik timsalı olan Gülmirə ilə üzbəüz dayanmamışdan qabaq professorla qarşılaşmalı olacaq. Bəli, onunla!

Orxanın bu düşüncələr içərisində ürəyi sıxılırdı. Yata bilmirdi!

***

Professor Orxanı gülərüzlə qarşıladı.

— Hə, gəl görək, — dedi, — əyləş. Bugünkü müzakirəyə hazırsanmı, Orxan?

— Bəli, professor. — Orxan fikirli-fikirli cavab verdi. Onun əlləri əsirdi.

— Mən oxudum o qızın əsərini. Balam, əhsən! Çox gözəl əsər yazıb. İnqilabdır onun üçün. Sevindim. Orxan sözü dəyişdi:

— Mən də sizi sevindirmək istəyirəm, professor.

—Əhə, buyur. Nəynən? Yenə xəlvəti əsər yazmısan? — deyə gülə-gülə qələmini kağızın üstünə atdı.

— Yox, dünən Biləndər müəllimə rast gəldim.

Bunu deyib Orxan düz professorun gözlərinin içinə baxdı.

Professor alındı. Rəngi avazıdısa da, özünü o yerə qoymadı:

— Hə, sonra?

— Biləndər müəllim dedi ki, səni, yəni məni qurultayda məruzəçi təsdiq eləyiblər.

—Hə?

— Bəli. Mən də gəldim sizə deyəm ki, əgər Mirzə Cəlil haqqında başqa yerlərdə də təzə materiallar tapılıbsa, məni yenə təcili ezamiyyətə göndərin.

Professor qıpqırmızı qızardı:

— Bu nə sözdür, Orxan?

— Siz yaxşı bilirsiniz nə sözdür, professor.

Professor Orxanın titrədiyini görüb təşvişə düşdü:

— Sənə nə olub, Orxan?

— Heç nə!

— Bəs niyə belə danışırsan? Bəlkə gedəsən, arxayın və sakit bir vaxtda gələsən danışaq. Orxan dinmədi.

— Hiss eləyirəm, kimsə səni əsəbiləşdirib.

— Mən açıq danışmağı, düşündüyümü deməyi xoşlayıram, professor. Bunu siz də bilirsiniz. Özünüz də bu barədə bizə az möizə oxumamısınız.

— Xahiş edirəm, sakit.

— Sakit ola bilmərəm, professor. Dünəndən özümə gələ bilmirəm.

— Axı, niyə? — Orxana imkan verməmiş əlavə elədi: — Hə, bildim. Yəqin, səni əsəbiləşdirən budu ki, niyə mən indiyəcən deməmişəm ki, Biləndər zəng eləyib səni istəyib, plenumda məruzə eləmək üçün? Hə?..

— Bəli.

— Ay Orxan, ay Orxan, mən səndən heç gözləməzdim. Axı, sən onda Tiflisdə idin, o zəng eləyəndə sən üç-dörd gün idi getmişdin, əzizim...

— Xeyr, professor. Siz düz demirsiniz. O zəng eləyəndə mən burda idim, özü də siz onun zəngindən sonra məni Tiflisə göndərdiniz, adımı da qoydunuz yarıtmaz.

— Bəli, yarıtmaz! — Professor səsini qaldırdı. Orxan qəzəblə ona baxdı:

— Qışqırmaq əvəzinə utanmaq lazım idi, professor!..

Orxan otaqdan çıxdı.

Salman Qurbanzadənin əlləri də əsirdi, dodaqları da.

## İYİRMİ BİRİNCİ FƏSİL

Axşam idi. Orxan telestudiyadan yenicə gəlmişdi — görkəmli ədəbiyyatşünas alim Mirzə Yanarın yetmiş illiyi ilə əlaqədar televizorda çıxış eləmiş, onun həyatından, əsərlərindən ürəkdolusu danışmışdı. Mirzə Yanar — az yaşamışdı, amma bu az ömründə Azərbaycan ədəbiyyatının onlarla nəhəng və naməlum şəxsiyyətini tədqiq edib öyrənmiş, haqqında əsərlər yazmış, xalqa tanıtdırmışdı. Özünü şəxsən görməsə də, Orxan ona güclü, istedadlı bir alim kimi çox pərəstiş eləyirdi, — doğrudan da, Mirzə Yanar öz ürəyini, beyninin işığını əsərlərinə köçürmüşdü, gecə-gündüz bilmədən, bütün diyarı gəzərək klassiklərin əsərlərini toplamış, onları itib-batmaqdan, unudulub ölməkdən xilas eləmişdi. Sonra vaxt gəlmişdi, tufan qopmuşdu, Mirzə Yanarı da köklü-kömənli yerindən qoparıb aparmışdı, qurunun oduna yaş da yanmışdı. Tək özü yox, əsərləri də oxucu üzünə həsrət qalmışdı. İndi bir neçə ildi ki, ədalət yerini tutmuşdu. Özü qayıtmamışdı, amma partiya onun təmiz adını və əsərlərini əsil sahibinə — xalqına qaytarmışdı.

İndi onun altmış illiyini də qeyd edirdi ədəbi ictimaiyyət. Onun şərəfinə həsr edilmiş yığıncaqlar keçirilirdi, sağ qalan yoldaşları Mirzə Yanar haqqında xatirələr də danışırdılar. Üç gün əvvəl institutda elə Salman Qurbanzadə Mirzə Yanar barədə çıxış eləmiş, az qala gözləri

yaşara-yaşara onunla birgə keçən günlərindən, təmizliyindən, xeyirxahlığından, böyüklüyündən xeyli söhbət etmiş, Mirzə Yanarın aramızdan vaxtsız getməsinə dərindən təəssüfləndiyini bildirmişdi. Orxan Mirzə Yanardan ürəklə, həvəslə danışmışdı bu gün televizorda. Televiziya Komitəsinin işçiləri onun çıxışını çox bəyənmişdilər. O, evə qayıdıb gələndən sonra da tanış-biliş, dostlar zəng eləyib Orxanı təbrik eləmişdilər. Zəng çalanlar içində Gülmirə, Cəfər, Nadirə də vardı. Salman isə xüsusi danışmışdı:

— Çox yaxşı danışdın, Orxan, sağ ol, bala. O kişinin ruhu şad oldu yəqin. Əvvəl xahiş eləmişdilər mən danışım. Fikirləşdim ki, mən yaxşı danışa bilməyəcəyəm — qəhər məni boğacaq. Necə olsa, kişi ilə neçə illər dostluq eləmişəm. Adı gələn kimi durur gözlərimin qabağında və lal baxışlarla mənə baxır... Ona görə dedim elə sən yaxşısan, sən danışarsan.

— Sağ olun, professor. Ancaq Mirzə Yanar dərya imiş. Oxuduqca adam valeh olur. Ağlıma gəlib ki, onun bütün əsərlərini toplayım, iki-üç cilddə çap eləyək, professor.

— Mütləq, mütləq, Orxan. Yaxşı ideyadır. Mən sənin üçün hər cür şərait yaradaram, işlərsən.

— Sağ olun.

Orxan divanda oturmuşdu, siqaret çəkirdi. Televizorda konsert verirdilər. Ləzzət ala-ala tamaşa edirdi, ancaq fikri Mirzə Yanarla məşğul idi. Saat ona qalmış qapının zəngi çalındı. Orxana nədənsə elə gəldi ki, bu Gülmirə olacaq. Həyəcanla qapıya sarı getdi, lakin qapı ağzında üzünü heç vaxt görmədiyi ortaboylu, eynəkli bir kişinin dayandığını görüb duruxdu. Eynəkli adamın qoltuğunda bir qovluq da vardı. O, Orxana baxıb Gülümsədi:

— Bağışlayın, səhv eləmirəmsə, siz Orxan Əlizadəsiniz, elə deyilmi?

— Bəli.

— Sizi bir az əvvəl televizorda görmüşəm.

Orxan Gülümsünüb onu içəri dəvət elədi. Eynəkli adam otağa daxil olub evə, stolun üstünə göz gəzdirdi. Orxan ona divanda oturmağı təklif elədi. Kişi əyləşdi. Sonra kişi böyründə oturan Orxana ərklə əl uzadıb:

—Əvvəlcə gəlin tanış olaq, — dedi. — Mənim adım Müslümdür. Mən, bir az əvvəl televizorda haqqında danışdığınız Mirzə Yanarın bacısı oğluyam, — dedi.

Orxan ona sevinclə baxdı:

— A, nə yaxşı, nə yaxşı... Siz xoş gəlmisiniz... Mən çox şadam...

— Bəli, mən də çox şadam sizinlə tanış olmağıma... Sizə evdə qulaq asırdım. Çıxışınız çox xoşuma gəldi, Orxan müəllim. Qərara gəldim ki, sizi tapım. Məlumat bürosundan telefonunuzu, ünvanızı aldım, — dedim elə düz birbaş yanınıza gələcəyəm.

—Əcəb eləmisiniz...

Orxan icazə istəyib çay təşkil eləmək üçün mətbəxə keçdi, az sonra divanın qabağındakı jurnal stolu üstünə iki stakan çay gətirdi, oturdu. Onlar Mirzə Yanardan xeyli söhbət elədilər. Orxan özü üçün qaranlıq olan bəzi məlumatları Müslümdən öyrəndi və Mirzə Yanarın bütün əsərlərini toplayıb nəşr etmək fikrində olduğunu söylədi. Müslüm çox sevindi və çeşməyin altında gözləri parıldaya-parıldaya dedi:

— Mən sizə çox minnətdaram, Orxan müəllim. Bura gəlməkdə iki məqsədim olub: əvvələn sizə öz təşəkkürümü bildirim, ikincisi də, dayımın uzun illərdən bəri gizli bir dəfinə kimi saxladığımız əlyazmasını sizə göstərim...

—Əlyazmasını? — Orxanın gözləri parıldadı.

— Bəli. Bax, bu əlyazmasını. Bunu —ərəb əlifbası ilə yazdığına görə — biz oxuya bilmirik, Orxan müəllim. O vaxt, həbs olunmamışdan qabaq, bu qovluğu dayım özü gətirib bacısına verib, deyib

saxla, sonra götürərəm. Ancaq sonra da... getdi, qayıtmadı. Anam bunu qardaş yadigarı kimi iyirmi beş ildi ki, qoruyub saxlayıb.

Orxan səbirsiz halda əlini qovluğa sarı uzatdı.

Müslüm qovluğu irəli itələdi: Orxan açdı. Və... titul səhifəsini oxuyanda... bədənini gizilti bürüdü, içində elə bil soyuq yel əsdi. Yazılmışdı: «Mirzə Yanar. Nəsiminin sənətkarlığı...» O dəqiqə Orxanın gözlərinin qabağına Salman Qurbanzadənin məlum kitabı gəldi. Bu, həmin kitabın əlyazması olmasın? Orxan fikri çaşqın halda əlyazmasının saralmış səhifələrini vərəqlədi, baxdı, adda-budda cümlələrini oxudu və heyrətə gəldi. Bu, ilk qənaətinə görə, həmin kitab idi, Salman Qurbanzadənin kitabı idi. Ancaq Orxan heyrətini, təəccübünü gizləməyə çalışdı.

— Maraqlıdır, çox maraqlıdır... — deməklə kifayətləndi. Müslüm elə başa düşdü ki, bu söz əlyazmasına aiddi!

Orxan fikrində bu işi qəti yoxlamağı qərara alıb Müslümə söylədi:

— Hə, bu mərhum Mirzə Yanarın öz dəst-xəttidir. Çünki mən onun əlyazmalarına dövlət arxivində də rast gəlmişəm, xətt onundur.

— Bu əlyazması yoxdur ki, arxivdə?

— Yox, məncə, yoxdur.

— Anam deyirdi ki, dayım əsərlərini iki nüsxədə yazırmış. Birini anama gətirib verərmiş, birini özündə saxlayarmış. Çox güman ki, bu əlyazması da iki nüsxə olub... Yəqin biri itib-batıb, ya da hansı arxivdəsə çürüyür.

Orxan fikrində götür-qoy eləyə-eləyə:

— Ola bilər — dedi və ani sükutdan sonra soruşdu: — siz mənə inanırsınız?

— Necə məgər?

— O mənada ki, bu əlyazmasını etibar edib bir neçə günlüyə mənim yanımda qoya bilərsiniz?

— Bilərəm. Ayıb deyilmi?

— Çox sağ olun, Müslüm. Mən yoxlaram, tutuşduraram, sonra oturub əməlli-başlı söhbət eləyərik, olar?

— Olar!

— Sağ olun...

Müslüm gedəndən sonra, çox həyəcanlandığından ürəyinin sancdığını hiss edib dərman atdı, bir az toxtayıb şkafdan Salmanın kitabını çıxartdı və müqayisə eləməyə başladı. Fəsillər eyni, cümlələr eyni, misallar eyni... Dəhşətə gəldi Orxan. Aman Allah. Salman Qurbanzadə gör neyləyib? Öz dostunun, alim yoldaşının əsərini — o tutulandan sonra öz adına£çap elətdirib, elmi ad alıb!. Sonra da arxa-yın-arxayın yaşayıb! Yaşaya bilibmi? Salman Qurbanzadənin müəllim —alim heykəli Orxanın gözlərində əriyib yerə töküldü birdən-birə!!.

...Orxan səhərə yaxın, saat dörddə... ürəyi ağrıya-ağrıya elə divanda uzandı...

***

...Salmanın səsi onu fikirdən ayırdı:

— Hə, mən səni dinləyirəm, Orxan... Yaxşı yadıma düşdü, axşam mən səninlə telefonda danışandan sonra, bilirsən nə qədər adam mənə zəng eləyib? Hamının xoşuna gəlib çıxışın. Doğrudan gözəl çıxış idi, sərbəst, kağızsız-filansız... Ürəyim dağa döndü, Orxan.

— Hm, sağ olun... Mirzə Yanar bizim sovet ədəbiyyatşü-naslığımızın əsasını qoyan görkəmli şəxsiyyət imiş... Özü də deyirlər, gözəl insan imiş...

— Bəli, bəli. Mən onu, o gün dediyim kimi, çox yaxşı tanı-yırdım. Mənim dostum idi, Orxan. Yadımdadı, getməmişdən üç gün qabaq bizə gəlmişdi. Nə isə çox kədərli idi. Bir az fikrini dağıtdım — içdik azca... Gedəndə məni qucaqlayıb öpdü, dedi dünyanın işini bil-

mək olmaz, Salman, bəlkə bir də görüşmədik... Dedim, əşi nə danışırsan... Nə isə, getdi... Elə o gedən getdi, daha görə bilmədim onu...

Bu sözləri deyəndə Salman köks ötürdü və gözləri yol çəkdi. Orxan bilmirdi, ancaq həmin anda Salmanın gözləri qabağında, soyuq payız gecəsində bağda alov saçıb yanan vərəqlərin şöləsi bərq vururdu — o bu alov dillərini özündən kənar etmək üçün əlini havada yellədi və üzünü Orxana tutdu:

— Sən mənə nə isə demək istəyirdin, eləmi? — deyə xəbər alanda Orxan bir anlığa tutuldu və hardan başlamaq lazım olduğunu belə unudub gözlərini döydü. Dizinin üstündəki qovluq qıçlarını yandırdı sanki. Orxan nəhayət özünü ələ alıb;

— Professor, — dedi — Mirzə Yanar sizə gələndə əliboş gəlmişdi?

Salman tələsik:

— Hə, əliboş idi, — dedi — necə məgər? O rəhmətlik bir az xəsis idi, tək bizə yox, hər yerə əliboş gedərdi!

— Mən o mənada demirəm.

—Bəs nə mənada?

— O mənadakı, sizə gələndə əsər, əlyazması — filan gətirməmişdi ki?

Salmanın rəngi ağardı və bu, Orxanın nəzərindən qaçmadı.

— Yox, heç nə... gətirməmişdi!..

— Yaxşı fikirləşin, Salman müəllim...

Salman ayağa qalxdı, üzünü pəncərəyə çevirib küçəyə baxdı, guya nə isə xatırlamaq istəyirdi, amma əslində həyəcanını gizlətmək, vaxt qazanıb özünü ələ almaq istəyirdi. Ona aydın idi ki, Orxan izə düşüb. Yoxsa belə danışmazdı. Kəskin bir hərəkətlə döndü:

— Yox, qətiyyən, heç nə gətirməmişdi. Nə əsər, nə əlyazması!

— Bəs... siz... Bağışlayın, professor — deyə Orxan daha geri qayıtmağın mümkün olmadığını görüb sərt bir ahənglə davam etdi — bəs onda siz «Nəsiminin sənətkarlığı» kitabını hardan köçürmüsünüz?

Salman sarsıntıdan ayaq üstə dayana bilməyib oturdu və əlini gah çeşməyinə, gah saçlarına uzada-uzada:

— Sən nə danışırsan, Orxan? — dedi, — sənin ağlın başındadı?

Orxan kinayə ilə güldü:

— Mənim ağlım başımdadı, professor. Amma siz deyin, dost saydığınız adamın əsərini öz adınıza çap etdirəndə... ağlınız başınızda idimi?

— Mən səni məhkəməyə verərəm. Sən mənə böhtan atırsan...

— Xeyir, mən sizi məhkəməyə verəcəyəm, əlimdə də daşdan keçən sübut var, professor. Bax, budur — deyə o, bayaqdan dizini yandıran papkanı yuxarı qaldırdı və Salmanın gözü qabağında açdı, Budur, Mirzə Yanarın «Nəsiminin sənətkarlığı» əsərinin avtoqrafı... cümləbəcümlə, fəsilbəfəsil köçürmüsünüz öz adınıza çap etdirmisiniz... Siz... nə böyük vicdansız imişsiniz, Salman müəllim. Ömrü boyu bizə — öz tələbələrinə düzlükdən, təmizlikdən danışan adamın belə alçaq iş tuta biləcəyinə mən inanmaq istəməzdim, amma hayıf, bu, həqiqətdi. Buna da heyifsilənirəm ki, sizin tələbəniz olmuşam, çox heyifsilənirəm...

Salmanın sifətində meyid rəngi vardı. O, Orxanın qəzəblə, kinayə və təəssüflə dediyi bu ağır sözlərə sakit-sakit qulaq asır, gözlərini Mirzə Yanarın əlyazmasından, onun tanış xəttindən çəkə bilmirdi. Deməк, əlyazması iki nüsxə imiş. Mirzə Yanar o zaman əsərini Salmana verəndə demişdi: «Mənim ən yaxşı əsərimdi, işdi, başıma bir iş gəlsə, saxlarsan... haçansa... üzə çıxacağına böyük inamım var, Salman.

Salman da saxlamışdı, üç dörd ildən sonra, Mirzə Yanarın ölüm xəbəri gələndə, arxivləri, onun öz şəxsi arxivini axtarıb həmin əsərdən bir iz-əlamət tapmayaraq öz adına çap etdirmişdi... İndi budur, üstündən iyirmi beş il keçəndən sonra... «Aman Allah, hər şey məhv oldu» — deyə düşünən Salman baxışlarını qaldırıb zorla Orxanın üzünə baxdı və zəif, yazıq bir səslə:

— Orxan — dedi — məni məhv etmək istəyirsən? Axı mən sənin müəllimin olmuşam, oğul, mən sənin həmişə havadarın olmuşam, Orxan!.. İndi bir işdi, olub. O zaman elə bir şərait yaranmışdı ki,.. sən də olsaydın...

— Xeyir, professor. Mən heç vaxt öz dostumun əsərini öz adıma çap etdirməzdim. Şəraiti-filanı burda günahlandırmaq lazım deyil. Bunu ancaq namərdlər eləyə bilər, professor...

Salman nə düşündüsə, əlini qovluğa atdı, ancaq Orxan tez çəkib dizinin üstünə qoydu.

— Baxıram, Orxan.

— Üzünü köçürəndə çox baxmısınız, professor.

Salman təzədən süstəldi, kreslosunda yumağa döndü. Araya çökən dəhşətli sükutu Salmanın səsi pozdu:

— Onu ver mənə, Orxan. Neçəyə deyirsən, alıram.

— Alverçiliyiniz də varmış... Mənə pul lazım deyil, professor.

— Səni öz yerimə şöbə müdiri qoyduraram, Orxan, ver onu mənə...

— Yox, professor... Mən vəzifəpərəst deyiləm.

— Bəs nə istəyirsən axı?

— Heç nə, mənə heç nə gərək deyil, professor.

— Yalvarıram, Orxan, onu ver mənə...

— Yox, professor. Bu, Mirzə Yanarın ömrünün bir parçasıdı, bəlkə də yaşaya biləcək ömrüdü.

Salman qəfil bir hərəkətlə ayağa qalxdı və Orxanın önünə gəldi:

— Orxan, mən ömrümdə heç kəsin qarşısında diz çöküb yalvarmamışam, sənin qarşında... diz çöküb yalvarıram, ver onu mənə...

Orxan acı-acı gülümsündü:

— Siz namərd, oğru olmaqdan başqa, deyəsən, həm də rəzil adam imişsiniz, professor...

Dedi və qapını çırpıb çıxdı.

— Orxan, Orxan...

...Orxan on dəqiqə sonra qovluğu Gülmirəyə verib tapşırdı: «Apar evinizə, gizlə, qayıt gəl! Axşam bizdə ətraflı söhbət eləyərik...»

Gülmirə tələsik evə qaçdı...

## İYİRMİ İKİNCİ FƏSİL

Vaxta az qalırdı. Bir azdan camaat geniş otağa yığışacaq, müzakirə başlanacaqdı. Gülmirə bərk həyəcan keçirirdi. İndi ona təsəlli, ürək-dirək vermək lazım idi. Orxan isə bayaqdan öz yerində oturub başını yuxarı qaldırmır, heç kəsin üzünə baxmırdı. Onun bu hərəkəti Gülmirəyə lap qəribə görünürdü. Ancaq dünənki yaxınlıq, vədələşmək yadından çıxmadığına görə o, indi nə üçünsə Orxandan utanır, ona yanaşıb bir şey soruşmurdu. Saat bir olanda professor ucadan danışa-danışa şöbəyə gəldi:

— Hə, camaatı yığ, Gülalı. Başlayaq.

— Bu dəqiqə, professor, — deyə Gülalı ağır portfelini qaldırıb stolun üstünə qoyduqdan sonra dəhlizə çıxdı.

Nadirə yerində oturmuşdu. Qabağındakı kitabı büküb stolun bir qırağına itələyərək əlini üzünə söykəmiş, yorğun, kədərli gözləri ilə bayaqdan bir kəslə kəlmə belə kəsməyən Orxana baxırdı. Gülmirənin də vurnuxduğu, hədsiz həyəcan keçirdiyi onun nəzərindən yayınmırdı:

«Cavandır, hələ bişib bərkiməyib»,— deyə düşünürdü, özünün də neçə illər qabaq ilk yazısını yoldaşlarının müzakirəsinə verəndə düşdüyü halları xatırlayırdı. Cəfər isə küncdə oturub, əlindəki qalın kitabı oxuyurdu.

Salman Qurbanzadə keçib stolun arxasında ayaq üstə dayandı. Akademik Aslanzadə onun sağında əyləşdi.

Gülalı bir neçə adamla içəri qayıdanda professor:

— Hə, oturun, oturun! Vaxt azdır,— dedi,— başqa işlərimiz də var.

Danışığı sakitdi. Elə bil, bir saat bundan qabaq özündən çıxıb, əlini stola çırpan, hirsindən gözləri hədəqədən çıxan adam bu deyildi: «Qəribə adamdır,— deyə Orxan öz-özünə düşünürdü. — O otaqda hirslənir, bu otaqda gülür, artist kimi...»

Professor iclası açdı. Gülmirənin əsərinin iki əsas fəslini müzakirə edəcəklərini bildirib, ən azı yarım saat danışdı, sinəsi qalxa-qalxa təriflədi. Otaqdakılar bu son neçə il ərzində, daha doğrusu, heç bir müzakirədə professorun dilindən belə hərarətli tərif eşitməmişdilər. Çıxışa həftələrlə hazırlaşmış, kəsərli cümlələr, obrazlı ifadələr, sözlərinin təsir qüvvəsini artırmaq üçün təşbihlər seçib əzbərləmiş adamlar kimi çıxış etdi. Onun səlis və rəvan danışığı şer kimi səsləndi.

Orxan başını qaldırıb Gülmirəyə baxdı. Gülmirə tərləmişdi.

«İndi mənə də söz verəcəklər,— deyə Orxan fikirləşdi. — Öz yazdığım haqqında danışmalı olacağam. Riyakarlıqmı etməliyəm? Nə üçün? Bu ki alçaqlıqdır, ikiüzlülükdür, saxtakarlıqdır! Gülmirəyə köməkmi, yaxşılıqmı eləmişəm?

Məhəbbət gözlərimi qapayıb. Axı, mən sənin üçün həmişə əsər yaza bilməyəcəyəm, Gülmirə! Axı, səndən alim olmayacaq. Mən səni də, bu qədər adamı da aldatmışam! Bu adamların çoxu, bəlkə də heç vaxt yalan danışmayıblar. Onlar indi durub bir-bir yalan söyləyəcəklər. Səni, Gülmirə, səni mən də tərifləməli olacağam. Öz yazdığımı tərifləyəcəyəm. Yox, bacarmaram!»

Orxan cibindən papiros qutusunu çıxarıb bir siqaret götürdü, iki barmağı arasında yumşaltdı. Professordan icazə almadan qalxdı, bayıra çıxmaq istədi. Lakin Salman onu saxladı:

— Hara, Orxan?

Orxan siqareti göstərdi.

Professor deyindi:

— Adam icazə alar.

Orxan dillənmədi, duruxdu.

— Yaxşı, get siqarını çək, qayıt, çıxış eləyəcəksən.

Orxan çıxdı. Gülmirə sir-sifətinin tərini sildi, sinədolusu nəfəs aldı. Orxanın yanında o cür qanadlı sözləri eşitmək onun üçün dözülməz idi, ağır idi.

Professorun giriş sözündən sonra hazır fəsilləri oxumuş yoldaşlar söz alıb bir-bir çıxış edir, maraqlı elmi mülahizələr söyləyir. Gülmirənin uzun müddət davam edən durğunluqdan sonra dilinin açıldığından, qələminin kəsərli olmasından, belə getsə gələcəkdə daha samballı əsərlər yaza biləcəyindən danışır, özləri də bilmədən bu tərifli sözlərlə Gülmirəni yumağa döndərirdilər. O, başını gizlətməyə yer axtarırdı. Ancaq bu mümkün idimi?

Nadirə də, Cəfər də, Gülalı da öz çıxışlarında «obyektiv» fikir söylədilər. Xüsusilə Gülalı professorun Gülmirənin ünvanına dediyi «yağlı» fikirləri başqa sözlərlə təkrar edir, bununla da Salmanın dediklərinə qüvvət verir, onun dəyirmanın boğazına su tökürdü.

Akademik Aslanzadə əlini üzünə söykəyib deyilənlərə diqqətlə qulaq asır, arabir qabağındakı cib dəftərçəsinə nəsə qeyd eləyirdi.

Cəfərin fəsillər haqqında söylədikləri tutarlı idi; o özünə xas olan təmkinlə yaxşıya yaxşı, pisə pis deyirdi. Salman yerində qurcuxurdu; ürəyinə qorxu axıb dolmuşdu ki, Cəfər akademikin yanında onu sancsa, daha heç nə — biabırçılıqdı. Aslanzadə növbə ilə şöbələrin iclasında oturar, bu və digər münasibətlə öz mülahizələrini söylər, beləliklə, əgər yolundan sapan bir adam görsə, haqq yoluna dəvət elər, kömək əlini uzadardı.

Şöbədə olan söz-hərəkətdən, çəkişmədən bəlkə də Aslanzadənin xəbəri yox idi. «İndi Cəfər başlasa, akademik arif adamdı, hər şeyi başa düşəcək». Belə düşünən Salman nəfəsini udub Cəfərin dediklərini ölçüb, biçə-biçə götür-qoy eləyirdi.

— Mən burda bir ayrı cəhəti də qeyd eləmək istəyirəm. Əsər yaxşıdır, buna söz ola bilməz! Amma professorun söylədiyi giriş sözü,

mənə elə gəlir ki, birtərəfli idi. Bunu, məncə, burda oturan yoldaşlar da açıq hiss elədilər. Burda ögey-doğmalıq salmaq, birini yandırmaq, birini isə qandırmaq, məncə, nə bizim elmimizə bir xeyir verər, nə də bizim özümüzə.

— Cəfər, vaxtın qurtardı,— deyə professor ayağa qalxdı.

Cəfər saatına baxdı:

—Əgər icazə vermirsinizsə...

Akademik Aslanzadənin təmkinli səsi Salmanı yerində oturtdu:

— Qoy danışsın, Salman,— Akademik sonra üzünü Cəfərə tutdu;— Buyurun, Cəfər. Ancaq açıq danışın. Eyhamlarla, atmacalarla yox, açıq danışın.

— Sözümün canı budu ki, hamımızı bizim möhtərəm professor bir gözlə görsün.

— Məsələn, Cəfər?— Aslanzadə yerindən soruşdu.

— Məsələn, keçən dəfə Orxanın yaxşı bir əsərini müzakirə edirdik. Gülmirə bizdən inciməz, elə bilirəm. Orxanın əsəri bundan qat-qat güclü idi, mükəmməl idi. Amma professor o gözəl əsər barədə elə danışdı ki, danışmasaydı, bundan çox yaxşı idi. İndiki çıxışı hara, o çıxışı hara?— Bunları deyib Cəfər yerində oturdu.

Salman qızarıb pörtmüşdü. Nadirəyə sarı gözucu baxdı, o da başını aşağı salıb qızarmışdı. Salman fikirləşdi: «Evdə deyəcək, sənin işləklərin adamı həmişə utandırır». Akademik isə son vaxtlar şahidi olduğu, eşitdiyi, hiss elədiyi bəzi mətləbləri — boğazdan yuxarı danışmağı, şəxsi münasibətlərdən istifadə edərək bu və ya digər həqiqətin təhrif edilməsi hallarını ümumiləşdirib burda danışmaq, yoldaşları bu xoşagəlməz mərəzdən uzaqlaşmağa çağırmaq zərurəti duydu; ona görə də özünü toplayıb çıxışa hazırlaşmaq istədi.

Salman özünü itirdiyindən iclasa sədrlik etdiyini az qala unutmuşdu. Küt və tutqun nəzərlərlə oturanlara baxırdı. «Daha nə deyə bilərsiniz? Deyin, ürəyinizi boşaldın, yoxsa ürəyiniz partlayar!» — deyə ürəyində düşünən Salmanın yadına düşdü ki, Orxan otaqda

yoxdur. Bundan sevinən kimi oldu. «Yaxşı ki, yoxdu. Yoxsa indi o da...»

Bu ara Aslanzadə dilləndi:

— Gülalı, ordan Orxanı çağır gəlsin.

Salmanın ürəyi düşdü: «İndi Tiflis məsələsi də üzə çıxacaq»

Gülalı tələsik bir hərəkətlə özünü dəhlizə atdı. Gülalı dəhlizdə Orxanı çağırır, səsi içəridən aydın eşidilirdi:

— Orxan!

—?…

— Ay Orxan!

—?…

— Adə, yatıbsan, nədi?

Orxan yenə dinmədi. Dizinin üstünə qoyduğu əlində siqaret tüstülənirdi. Gülalının ürəyinə gəldi ki, bəlkə Orxan ondan incidiyi üçün cavab vermir. «Bu da lap dəymədüşər olub, ha!»

— Adə, akademik Aslanzadə çağırır ey gəlmirsən? Əh, heç də gəlmə!— İstədi qayıdıb içəri girsin və akademikə desin ki, Orxan kresloda oturub, gəlmir. Sonra fikrini dəyişdi. İrəli gəldi və birdən təəccübdən gözləri böyüdü, Orxanın başı sinəsinə əyilmişdi. Gözləri yumulmuşdu: «Lap əməlli-başlı yatıb ki, bu!»— Deyə düşünən Gülalı qorxa-qorxa irəli yeridi, onun çiynindən astaca tutub silkələdi və bir az da bərkdən çağırdı:

— Orxan!

O qımıldanmadı; siqaret daha çox tüstülənirdi. Gülalı əyilib Orxanın dizinin üstündəki əlinə baxdı; şalvarının dizi stəkan ağzı boyda yanmışdı. Əti qızarırdı. Siqaret iki barmağının arasını qızartmışdı.

— Adə, yandın ki!— deyə Gülalı Orxanı bərk-bərk silkələdi. Yenə onda bir tərpəniş görmədi. Beyninə gələn dəhşətli fikirdən sarsılaraq geri çəkildi və sürətlə otağa qaçmaqa başladı. Qapının ağzında, özünü saxlaya bilməyib, vəhşi bir səslə qışqırdı:

— Orxan ölüb!

## İYİRMİ ÜÇÜNCÜ FƏSİL

Şirin arvad həftədə bir dəfə Orxanın evinə gələrdi. İndi yolunu dəyişib, qəbir üstünə gedirdi. Qabaq bazar günləri gələrdi, indi cümə axşamları. Onda oğlu üçün yemək-içmək, cürbəcür ləzzətli xörəklər bişirib gətirərdi, oğlundan xoş xəbər eşitmək ümidi ilə gələrdi. İndi yeməli heç nə gətirmirdi. Dərdli bir ürək, iki ağlar göz... bir də, bir dəstə gül gətirirdi.

Aradan neçə ay keçsə də, ana onun ölümünə inanmaq istəmirdi. İnanmaq istəmirdi bura, bu yaşıl qəbiristanlığa gələnə qədər. Ayağı bura dəyəndə, dəmir hasara alınmış qəbir — o dikəlmiş torpaq ananı inandırırdı.

Orxanın otağına ananın əl vurmağa ürəyi gəlmirdi, necə vardısa, eləcə də qalırdı. Kitabları, yarımçıq vərəqləri, qələmi mizin üstə idi. Adama elə gəlirdi ki, o, harasa gedib, qayıdacaq, yenə mizinin arxasına keçib yarımçıq qalmış yazısını yazacaq.

Ata-ananın tək oğlu, qohum-əqrəbanın yeganə alim övladı Orxanı cah-calalla götürmüşdülər. Ana oğlunun bu qədər hörmətli olduğunu öləndən sonra bilmişdi. Qəzetdə şəklini vermişdilər. Qəzetdə onun şəkli indiyəcən bir neçə dəfə çıxmışdı. Ancaq indikinə bənzəmirdi; indiki qara haşiyə içində idi. Şəklin altında təsirli sözlər yazılmışdı. Ana fikirli-fikirli yeriyə-yeriyə ürəyində danışırdı: «Sağ olsunlar. İş yoldaşlarının hamısı gəlmişdi. Gül gətirmişdilər. Üstü yazılı gül... Onlar da bilirmişlər Orxan gül sevəndi...»

Yaxşı yoldaşlar imişlər, sağ olsunlar. Böyükləri — Orxanın müəllimi, tifilim ev alanda mübarəkbadlığa gələn kişi qəbir üstündə ağlamalı bir nitq söylədi: «Mənim ən kədərli günümdür, — dedi, — elə bilirəm, öz doğma oğlumu basdırıram...» Ömrü uzun olmuş arvadı

da yaxşı danışdı. O, danışanda ağlamayanlar da dəsmal çəkib ağladılar. Hamı, hamı yanırdı. Balam özünü istədən idi. Mənim körpə Orxanım böyük imiş!..»

Qəbiristanın əsas yolundan burulub qəbirlər arası ilə burula-burula uzanan dar cığırla Şirin arvad qara çarşabının altındakı gül dəstəsini sinəsirə bərk-bərk sıxaraq fikirli-fikirli yeriyirdi. Uçub yerlə yeksan olmuş bir qəbrin yanından adlayıb dəmir hasarlı, heykəlli qəbrin arxasına buruldu. Orxanın məzarı buradan beş addım kənarda idi. Arvad irəlidə. ortaboylu, qara paltolu bir qadının üzü o tərəfə dayandığını görəndə ayaqlarının sürətini azaltdı. O, zənlə baxıb qadının harda dayandığını müəyyənləşdirməyə çalışdı: «Deyəsən, Orxanın qəbrinin yanında dayanıb. Kimdi bu, görəsən?» Ana nigarançılıqla düşündü. O, hər ayın axırıncı cümə axşamı bura gələndə qəbrin üstündə bir dəstə təzəcə qoyulmuş gül görərdi. Kim qoyurdu? Ana üçün aydın deyildi. «Kimsə sədaqətli adamdı, balamı yadından çıxarmayıb. Mənim balam yaddan çıxası bala deyil axı...»

Şirin arvad bu fikirlərlə asta-asta irəlilədi. Bəli, qadın Orxanın qəbri üstə dayanmışdı. Arvadın ürəyini içəridən elə bil, sıxdılar, o, çöməlib oturdu. Sanki qəbir daşları yerindən çıxıb yüngül çöp kimi havada fırlandı. Qulağına hıçqırıq səsi gəldi. Bir anlığa əlini alnına qoydu. Dəqiqələr keçəndən sonra, ana kirpiklərindən sallanmış yaşı çarşabının ucu ilə silib, gözlərini geniş açaraq ayaq üstə dayanıb, əlini üzünə söykəyərək fikrə getmiş qıza sarı baxdı. Qız yanakı durmuşdu. Sol çiyni, üzü aydın görünürdü: «Bu kim ola?» Tanış deyildi. Yox, tanıya bilmədi. Xatırlaya bilmədi. Qız əyilib küləyin vurub yerə saldığı solmuş gülləri qəbrin üstündən götürdü, əlindəki təzə nərgiz dəstəsini qoydu.

Arvad qalxıb irəli yeridi. Qız hənirti eşidib qorxmuş halda geri qanrıldı. Baxışları birbirinə zilləndi. Səssiz-səssiz bir neçə an dayandılar.

Qadının nazik dodaqları arasından çıxan qəmli səsi qarı aydın eşitdi:

— Salam, ana...

— Ay bala, sən kimsən?— deyə ana titrək səslə soruşdu. Tanımadığı, bilmədiyi bir adamın kədərli-kədərli gəlib onun oğlunun məzarı üstündə dayanmağı ananı yamanca tərpətmiş, ürəyini çəkib sinəsindən qoparmışdı.

— Mən...

Birdən ürəyinə gələn fikir ananı elə sarsıtdı ki, hər şeyi unudaraq, qıza sözünü bitirməyə də imkan verməyərək ağır bir səslə:

— Yoxsa, sən mənim toy görməmiş Orxanımın toy görməmiş istəklisisən, ay bala?— dedi və qollarını qızın boynuna dolayaraq üzündən öpə-öpə hönkürdü:— Gör bizi sən harda görüşdürürsən, ay bala...

Qız:

— Sakit ol, ana, sakit ol,— dedisə də özünü saxlaya bilməyib anaya qoşuldu.

— Bəs sən indiyəcən niyə üzə çıxmamısan, ay bala? Mənim muradımı niyə gözümdə qoydunuz, ay qurbanın olum? Hər dəfə yanına bu ümidlə gəlirdim ki, mənə xeyir xəbər verib deyəcək: hazırlaşın, filankəsin evinə elçiliyə gedəcəksiniz. Demədi, arzusu gözündə qalanım, arzumu gözümdə qoydu. Hər şeyi hazır idi. Alt paltarından tutmuş, sırğasına, saatına, boyunbağısınacan.

Qadın birtəhər özünü ələ alıb:

— Mən Orxanın iş yoldaşı idim, ana,— deyə bildi.

— İş yoldaşı?

— Hə, ana...

— Bu gülü,— deyə ana bir az əvvəl qadının qəbir üstünə qoyduğu gülə işarə ilə soruşdu,— sən qoyursan bura?

Gülmirə başını hüznlə tərpətdi:

—Mən qoyuram, ana.

Gülmirə hər ay o ölən günü bura gələrdi. Sağlığında Orxan onun üçün gül gətirərdi, indi o, Orxan üçün gül gətirirdi. Hər ay bir dəfə gətirirdi.

Şirin arvad yaşlı gözlərini bu qara paltarlı gözəl gəlinə zillədi. Ağ mərmərdən düzəldilmiş başdaşına həkk edilmiş şəkildə — gülümsər üzlü Orxanın da qara, təbəssümlü gözləri gəlinə baxırdı.

Əqdəm isə dəmir məhəccərli qəbrin yanında, ayaqları yerə yapışmış kimi, donub qalmışdı. Ha istəyirdi özünü ələ alıb irəli yerisin, mümkün olmurdu. Elə bil, yaxın getsəydi, hər şey, hər şey bir anda məhv olacaqdı. Gülmirə bayaq prospektdəki şüşə bazardan gül alıb çıxanda Əqdəm onu uzaqdan görmüşdü. Əvvəl bir az addımlarını yeyinlədərək ona çatmaq, görüşmək, onu sevindirmək istəmişdi. Ancaq ürəyində; «Bu qız üzüyuxarı hayana gedir belə?» — deyə fikirləşmiş, addımlarını yavaşıtmış və Əqdəm sonsuz bir maraq, qorxu və nigarançılıq içində qarabaqara onun dalınca getmişdi. «Qəribədi. Bu yana niyə gedir?», Əqdəm, demək olar ki, hər dəqiqə bu sualı öz-özündən xəbər almışdı. Birdən beyninə gələn dəhşətli fikir onu sarsıtmışdı. «Qəbiristana! Kim ölüb axı?» Sonra bundan da dəhşətli bir fikir onu ildırım kimi vurmuşdu: «Bəlkə o... kiminləsə... görüşə?..»

Əqdəm otuz beş illik həyatında belə vəziyyətə düşməmişdi: belə qarışıq, belə çalpaşıq hisslər əlində darıxıb çapalamamışdı: «Kaş onu görməyəydim... Kaş görməyəydim!..»

Gülmirə qəbiristana burulub bir qəbrin yanında dayananda Əqdəm məhəccərə söykənib alnının tərini sildi. Sonra çarşablı arvad gəldi, qucaqlaşdılar, ağlaşdılar. Nəsə danışdılar. İndi Əqdəmə aydın idi ki, kimsə ölüb. «Kimsə ölüb! Uzaq olmaq belədi, xeyirdən-şərdən xəbərin olmur».

Əqdəm, nəhayət, özündə güc-qüvvə tapıb məhəccərdən ayrıldı, irili-xırdalı qəbir daşlarının arası ilə ağır addımlarla Gülmirəgilə yanaşdı.

Qarı çömbəltmə oturub yerə, Gülmirə isə ayaq üstə dayanıb gülərüz oğlanın başdaşındakı şəklinə baxırdı. Arxasında hənirti duyub qanrıldı. Əqdəmi böyründə görəndə içini heyrətlə çəkib susdu. Sonra elə bil, onun nitqi batdı.

— Ölən kimdi?

—…

— Kimdi ölən?

Demək olar ki, zorla verdiyi suallarının cavabsız qaldığını görən Əqdəm iki addım irəli yeriyib başdaşındakı gülümsər şəklə, altındakı zərlə yazılmış ada, tarixə baxdı: «Orxan». Bu ad onun beynində uğultu qopardı. Bu adı Gülmirənin dilindən iki-üç dəfə eşitmişdi. Türk müğənnisinin konserti yadına düşdü. Elə bil, o gecəki qısaca söhbəti beynində lentə yazmışdılar, kimsə qurdu, lent danışdı:

«— Salam, Gülmirə.»

«— Salam, Orxan. Tanış ol, Əqdəm, Orxan mənim iş yoldaşımdı. Tanış ol, Orxan, bu da mənim...»

Lent burda qurtardı. İndi Əqdəmin yaddaşı danışdı; onlar o zaman bir-birinin əlini sıxmış, bir-birinin gözünün içinə baxmışdılar. Əqdəm indi şəkli görən kimi tanıdı... Əqdəm üçün elə bil, hər şey aydın oldu. Onun bircə anlığa başı fırlandı, sanki o ağır başdaşlarından biri onun başına dəydi, gözlərinə qaranlıq çökdü. Ani sarsıntıdan sonra, o özünü toplayıb Gülmirəyə — kölgə kimi hərəkətsiz dayanıb səssiz-səmirsiz ağlayan arvadına baxdı. Gülmirəyə elə gəldi ki, o, indi sevdiyi sözləri yenə deyəcək, bu dəfə başqa mənada: «Göylər təmizdi...»

Lakin o heç nə demədi. İzahat da istəmədi; çünki ona indi və sonralar veriləcək hər cür izahat mənasız olacaqdı. Lazım deyil, o, indi bütün həqiqəti başa düşürdü.

Şirin arvad hərbi geyimli adamı görəndə başını azca qaldırmış, sonra əhəmiyyət verməmişdi. Əqdəmin Gülmirəyə verdiyi sualı da eşitməmişdi. Arvadın diqqətini Əqdəmin geyimi də cəlb etməmişdi.

Əqdəm səssiz, xəyal təki gəldiyi kimi, səssiz, xəyal kimi də başdaşlarının arası ilə ağır addımlarla geri qayıtdı. Gülmirə «Əqdəm» demək istədi, ancaq səsi çıxmadı. Əqdəm neçə addım gedib dayandı, nəsə fikirləşdi. Bu zaman o da bir başdaşına oxşayırdı.

— O kim idi, ay bala?..

Gülmirə Şirin arvadın sözlərinə cavab vermədi. Bu ara tutqun, boz səmada günəş çıxdı, payız günəşi. Hava aydınlaşdı. Uzaqdan göy gurultusuna bənzər səs eşidildi. Bulud laylarını titrədə-titrədə bir təyyarə uçurdu. Aşağıdan uçurdu. Gəlib Gülmirənin başının üstündən keçəndə nəhəng kölgəsi yerlə sürünə-sürünə ötüb getdi, başdaşlarına toxuna-toxuna.

Gülmirə ilk dəfə idi ki, təyyarə səsini eşitmir, başını qaldırıb təyyarəni görmürdü...

# ÜÇÜNCÜ HİSSƏ

## BİRİNCİ FƏSİL

Payız günəşi daranmış qara yuna bənzəyən buludlar arasında gizləndi. Havadan yağış qoxusu gəlməyə başladı. Yağacaqdı. Bu gün elə bir gün idi ki, səmanın sinəsi göz qamaşdıran qılıncla yarılmalı, göylər hönkürtü ilə ağlamalı idi. Çünki göylər vurğunu Əqdəmin səma kimi təmiz, saf ürəyi yaralanmış, bircə anın içində uzun illər boyu qəlbində əmin-amanlıqla yaşayan səadəti qəfil bombardmandan uçulub xarabazara dönən şəhər kimi korun-korun tüstülənməyə başlamışdı. Adicə bir təsadüfün sükuta qərq olmuş ölülər dünyasına gətirib çıxartdığı təyyarəçi ləngərli addımlarla qəbirlər arasında gözdən itəndən az sonra halsız-hərəkətsiz, heykəl sayağı dayanıb qızarmış gözlərini Orxanın başdaşına həkk olunmuş gülümsər şəklindən çəkməyən Gülmirə harda olduğunu xatırlamağa çalışan adam təki yan-yörəsinə baxındı. Bura haçan və niyə gəlmişdi? Bu günmü, dünənmi? Bir qərinə əvvəlmi? Orxan nə zaman ölmüşdü, niyə ölmüşdü?

Yox, hələ o, anlaşılmazlıq aləmindən ayrılmamışdı. Zaman məfhumu, səbəblər, suallar anlayışı bu dəqiqə Gülmirə üçün öz hökmünü itirmişdi. hər şey ona ilğım dənizində olduğu kimi gah aydın, gah da uzaq, əlçatmaz, xəyali görünürdü.

Bayaq uçub getmiş təyyarə o yanda, dənizin üzərində dövrə vurub geri qayıdanda səsi hava laylarını təlatümə gətirib titrətdi və nəhayət, Gülmirənin fikrindəki qatmaqarışıqlıq, duman tamam çəkilib yox oldu. Bəli, bu Orxandı. Ölüb. Ölməli oğul deyildi, amma ölüb. Heyf səndən, Orxan! Bu, Orxanın anasıdı. Başdaşına sığınıb, dizlərini qucaqlayıb. Bəli, bu gün Orxanın öldüyü gündü. Deyəsən, bir az bundan əvvəl Əqdəm də bura gəlmişdi? Gəlmişdi ya yox? Gəlmişdi.

Ürpəşdi. Elə bil, kimsə iri, caynaqlı əlini sinəsinə salıb ürəyini xışmaladı. Əqdəmin ağarmış sifəti, təəccübdən irilib hədəqəsindən çıxmış gözləri nəzərində canlananda, ilişikli, titrək qorxu dolu səsi qulaqlarında təkrar eşidiləndə Gülmirə olub keçənlərin yuxu yox, həqiqət olduğuna bir daha inandı. İnandı və nagahani, hökümlü bir səs onun qulaqlarına pıçıldadı: «Sən bu gündən təksən, Gülmirə! Kimsəsizsən, kimsəsizsən!»

Bu səs onun əl-qolunu yanına saldı.

— Dur gedək, ana! — deyə Gülmirə taqətsiz halda Şirin arvada müraciət elədisə də, öz-özünə nəsə pıçıldayan ana onun nə dediyini ayırd eləyə bilməyib sual dolu nəzərlərlə Gülmirəyə baxdı.

— Deyirəm, dur gedək.

— Sən get, bala, sağ ol. Ömrün uzun olsun ki, tifilimi yad eləyirsən.

Gülmirə gözlərini göylərə sarı dolandırıb:

— Yağış yağacaq,— dedi — gedək.

— Eh, ay bala, mən hələ gedə bilməyəcəm.

— Onda...mən — sözünü tamamlamadısa da qarı onu başa düşdü.

— Hə, sən get bala, işin-gücün olar.

Gülmirə Orxanın şəklinə nəzər saldı: elə bil ondan getmək üçün icazə istədi. Orxan həmişəki kimi gülümsər nəzərlərlə ona baxırdı. Orxanla ürəyində səssiz-səmirsiz vidalaşan Gülmirə asta addımlarla qəbirdən uzaqlaşdı.

O, uçulub batmış, başdaşı əyilmiş, təzəcə qazılmış, üstündəki güllər hələ də solmamış qəbirlər arasında düşünə-düşünə yeriyirdi.

Ürəyinə gəlirdi ki, «qəbirlər də insana bənzəyir. Uşaqlığı var — torpağın sinəsində qazıldığı-doğulduğu ilk günlər. Gəncliyi var — üstündə ot, gül-çiçək bitən zamanlar. Qocalığı var.— Başdaşları başını aşağı, torpağa sarı əyən dəmlər. Ölümü var — yerlə-yeksan olub itib-batdığı vaxtlar»...

Nəhayət o, asfalt yolla üzüaşağı, prospektə sarı addımladı. Musabəyov qəsəbəsindən gələn dolu avtobus yanından qıjıltı ilə ötüb keçəndən sonra ətrafı səssizlik bürüdü.

Birdən göylər nərə çəkib guruldadı, sanki haradasa güclü dinamitlə nəhəng bir qayanı partlatdılar. Güclü, iri damcılı şıdırğı yağış başladı. Gülmirə islanacağını görüb birinci binaya sarı qaçdı və bzünü balkonun altına verdi. Bunu o nə qədər tez eləsə də, yağış fürsət tapıb onun üz-gözünə çilənib yanan sifətini sərinlətmişdi. Gülmirə bundan xoş bir rahatlıq da duymuş, bircə anlığına özünü unudaraq sevinmişdi də.

«Əqdəm indi, görəsən mənim barəmdə nə düşünür? Ağlına indicə gələn bu sual Gülmirəni üşütdü.— Hardadı görəsən? Evdə olar. İndi bir neçə dəqiqədən sonra, onunla üzbəüz dayanmalı olacam. Sorğular, suallar başlanacaq. Bəli, başlanacaq. Mən ona yalan danışa bilmirəm, Bircə sözü belə düz deməyəndə pul kimi qızarıram. Belə hallarda o, həmişə Gülümsünüb deyərdi: «Yalan danışmağı bacarmırsan, danışma, Gülü. Sözün düzünü demək üçün cəsarətin çatsın. Düz sözə zaval yoxdur». Yox, mən ona hər şeyi açıb deyəcəyəm. Qoy bilsin.— İkicə saniyə keçməmiş özündən xəbər aldı:— «Nəyi deyəcəksən?» Özü də cavab verdi: «Deyəcəyəm, Orxan məni sevirdi. Dəlicəsinə sevirdi. Səndən də çox sevirdi. Mənə kömək əlini uzadırdı. Ürəyi təmiz adam idi. Məni sevdiyinə görə də özünü xoşbəxt sayırdı. Yazıq qəflətən öldü. Onun nakam sevgisinə hörmətən mən ayda bir dəfə qəbrinin üstünə gəlirəm, bugünkü kimi. Sən məni ölüyəmi qısqanırsan?»

Əqdəmin acıqlı-heybətli görkəmi onun gözləri qabağında zühur eləyir, cavab verirdi:

«— Onun diriliyinə qısqanıram, diriliyinə!»

«— Mən ona sevməyi qadağan edə bilməzdim, Əqdəm. Edə bilməzdim, bilirsənmi?»

«— Sən onun sevgisinə cavab vermisən, ağuşuna atılmısan!»

«— Sən məni belə vicdansız bilirsən?»

«— Vicdanı olan adam ərinə xəyanət eləməz!»

«—Xəyanət?!»

Bu sözü Gülmirə ucadan dedi.

«Deyəsən, başıma hava gələcək»,— deyə acı-acı düşündü. Yağış seyrəlmişdi. Asfaltın hər iki tərəfi ilə üzüaşağı bulanıq sel-su axırdı. O hara getsin? Evəmi? Yəqin, bu saat Əqdəm evə sığmayaraq gəzinir, onun yolunu gözləyir. Yox, bu dəqiqə o, Əqdəmlə üz-üzə gəlməkdən qorxur, çəkinirdi.

Aha, tapdı, anasıgilə gedəcək. Uşaq təki anasının sinəsinə sığınıb, başını dizinin üstünə qoyub ağlayacaq, doyunca ağlayacaq ürəyinin qəmi-qübarı, gözlərinin seli-suyu boşalınca ağlayacaq: «Mən nə günah eləmişəm ki, ay ana,— deyəcək,— mənim nəsibim əzab-işgəncə olub dünyada? Kimə neyləmişəm? Mənim rahatlığım necə oldu, hara getdi? Niyə mən üzücü-yorucu düşüncələr içərisində yanıb qovruluram? Ay ana, başına dönüm, yeganə pənahım sənsən, qurtar məni bu cəhənnəm sorğu-suallarından, qurtar! Bəlkə sən mənə bir yol göstərə bildin...»

Gülmirə yerindən qopub sürətli addımlarla anasıgilə üz qoydu. Evə yaxınlaşdıqca yavaş-yavaş fikri dəyişilirdi: «Yox, anama demək olmaz! Heç nə demək olmaz! Dərdimi danışa bilmərəm, ağıllı-başlı başa sala bilmərəm».

Qapını taqqıldatdı:

— Ay mə!

Cavab gəlmədi. Xatın arvad adicə bir xışıltıya — hənirtiyə qapıya çıxırdı. Görünür, evdə yox idi. Gülmirə qapını itələdi, açılmadı.

O bunu pis əlamət kimi başa düşüb darıxdı. Qabağında iki qapı vardı: Biri bax, beləcə— bağlı idi. Bəli bağlı! O biri qapı... Görəsən, o biri qapının arxasında onu nə gözləyirdi? Görəsən nə?

## İKİNCİ FƏSİL

Qırmızı qapı aralı idi. Bunu görən kimi Gülmirənin beynində soyuq bir fikir dolaşıb tüklərini ürpəşdirdi: «Əqdəm evdədir!» Əzgin, yorğun, taqətsiz addımlarla içəri girdi. Onun bu dəqiqə yeganə bir istəyi vardı: özünü çarpayısına yetirsin, paltarlı uzanıb azca rahatlansın, toxtasın, əsəblərinii gərginliyi azalsın. Bu vəziyyətdə onun ayaq üstə dayanmağa da taqəti yoxdu.

Gülmirə ürkək nəzərlərlə otağa göz gəzdirdi; Əqdəm yox idi. Rahat nəfəs alan kimi oldu. Bu ara mizin üstündəki külqabıdan burula-burula yuxarı qalxan tüstü diqtətini cəlb elədi: Qapı açıq idi. Papiros tüstülənirdi. — Bütün bunlar göstərirdi ki, Əqdəm evə gəlib. Bəs hanı? Gülmirə ağzını doldurub Əqdəmi səsləmək istədi, ancaq səsi çıxmadı.

İrəli; yeriyib mizə söykəndi. Kibrit qutusunun altına qoyulmuş yazılı kağız gözünə sataşdı. Neçə saniyə sükut içində dayanıb iri, əsəbi xətlə yazılmış kağıza fikir verdi. Əlini atıb götürməyə, oxumağa ürək eləmədi. Elə bil, orada onun üçün ölüm hökmü yazılmışdı. Sonra bu məktub Gülmirəni qarşısıalınmaz bir qüdrətlə özünə çəkdi. Onu evdə Əqdəm yox, sorğu-suallar yox, tələsik yazılmış bir məktub közləyirmiş. Bəlkə də son məktub, bəlkə də vida məktubu.

*«Mən sənin əzizinin qəbrinin üstündən qayıtmağını gözləmək, səninlə qabaq-qənşər oturub, necə deyərlər, hər şeyi düzüb-üzmək istəyirdim. Amma bacara bilmədim. Ürəyimlə, vicdanımla bacara bilmədim. Bundan sonra fikirləşirəm ki, səninlə üz-üzə gəlməkdən, göz-gözə baxmaqdan dəhşətli əzab olmaz mənim üçün. Biz nə qədər üzbəüz oturmuşuq, göz-gözə dayanmışıq, bir yastığa baş qoymuşuq — bilmədən, şübhələnmədən. İndi məni dəhşət götürür və bütün ömrüm boyu düşünəcəyəm ki, sən mənim gözlərimin içinə necə baxırmışsan, necə? Sevgiyə, inama xəyanət etmək nə qədər böyük cinayətdisə, onu*

*gizləmək, üzdə birilə, ürəkdə başqası ilə olmaq da elə bir cinayətdir. Bu günə qədər mənim ürəyim, ruhum nə qədər rahat idi. Mən nə qədər xoşbəxt idim. Mənim ürəyim də, namusum da öz aləmimdə uçduğum göylər kimi saf və təmiz idi. Amma indi... ürəyimə xal düşdü, namusuma ləkə. Ömrümün göylərini qara bulud layları çulğadı, başıma qar yağdı, dolu yağdı.*

*Sən alim olmaq istəyirdin. Bu sənin də arzun idi, nə danım, mənim də arzum idi. Salman əmin də səni alim görmək istəyirdi; amma heyf!.. Sən alim olmadın, ola bilmədin.*

*Mən sənin xatirinə hər şeyə, hər çətinliyə dözdüm — budur, dünən uzun-uzadı söz-söhbətdən sonra axır ki, iş yerimdən çıxdım, sənin xatirin üçün. Sevimli təyyarəmdən ayrıldım. İndi öz Bakımın göylərində uçacaqdım. Sən isə... Sən isə qırdın qanadlarımı, insafsızcasına qırdın... Sənin cəzan nədi?! Ölüm? Qoy səni öz vicdanın öldürsün! Orxanın barəsində nə deyim? Heyf ki, ölüb...*

*Sənə bu ayrılıq günündə nə deyə bilərəm? Əlvida, deyirəm sənə! Həmişəlik əlvida! Məni axtarma. Mən də səni axtarmayacam. Çünki... qəlb dediyin şüşədir, sən sındırdın, kim yamar? Bu ev, bu da sən...»*

Gülmirənin göz yaşı dodaqlarına süzüləndə səssiz-səmirsiz ağladığını başa düşüb əlinin arxası ilə gözlərini sildi. Lakin elə bil, buna bənd imiş, çiyinləri atlana-atlana hönkürüb ağlamağa başladı. Özünü çarpayının üstünə atıb titrəyə-titrəyə hıçqırdı.

O, həyatında hələ belə sarsılıb sınmamışdı. Ağır dəmləri, ağır günləri olmuşdu, amma belə yox. Sanki Əqdəmin səsi indi də eşidilir, onu ittiham edir, ağladır, tədricən öldürürdü:

*«Qoy səni, öz vicdanın öldürsün!».*

## ÜÇÜNCÜ FƏSİL

Nadirə yataq otağında, taxta çarpayıların arasında qoyulmuş bədənnüma güzgüdə özünə baxanda onsuz da qüssəli olan ürəyində

həlim, yumşaq bir nisgil baş qaldırdı. Gödək vurulmuş saçlarına daraq çəkəndə gözünə dəyən təkəm-seyrək ağ tüklər qübar olub sinəsini yandırdı. Sınıxdığını, həmişə qızartılı, təravətli olan yanaqlarının solğunlaşdığını, qara, işıqlı gözlərinin yanında qırışlar əmələ gəldiyini elə bil, birinci dəfə görürdü — bunlar yəni əvvəldən belə idi, ya bu axır vaxtlar bu cür olmuşdu? Bu suala indi o, cavab verə bilməzdi. Çünki insan birdən-birə qocalmır, hiss edilmədən qocalır. «Adam birdən-birə qocalsaydı, bu dərdin ağırlığına ürək tab edə bilməzdi», deyə ürəyindən keçirən Nadirə üzündə, gözlərində, ağ pambıq kimi yumşaq buxağında, qədd-qamətində, saçlarında yaşayan cavanlıq nişanələrini görüb ürəyində alışan ümid, təsəlli qığılcımlarının oduna isinən kimi oldu. Amma bu hiss o qədər yüngül və ötəri idi ki, tez keçib getdi. Yox, bunu Nadirə bəlkə də özü tam aydınlığı və dərinliyi ilə hiss eləmirdi, amma, həqiqətən, o, son vaxtlar qocalmışdı, daxilən, mənən qocalmış, daha doğrusu, qocalığın ilk zərbələrini dadmışdı. Son aylar ərzində baş vermiş hadisələr məgər əsər-əlamətsiz keçən, özündən sonra bir iz qoyub getməyən hadisələr idi? Sevimlisi, gözü-nün ağı-qarası Ceyhun qəzaya düşmüşdü,— şəkilli-şəmayilli oğlanın üzündəki çapıq ox olub Nadirənin gözünə girir, ürəyini deşib keçirdi. Elə bil, ağ, təmiz bir kağızın üstünə ləkə düşmüşdü — silinməz, pozulmaz ləkə. Nadirə canını verərdi, ömrünün illərini verərdi, təki o çapıq, o ləkə silinə biləydi, izi-tozu belə qalmayaydı. Ancaq bu müm-kün idimi? Afa — Ceyhunla birlikdə qəzaya uğramış o yeniyetmə, gözəl qız da şikəst olmuşdu, yeriyəndə qıçını çəkirdi. Bu yaxınlarda Nadirə onu atasının yanında qıçını çəkə-çəkə yeridiyini görəndə heç də az əzab çəkməmişdi.

Sonra Salmanla aralarında olan elmi ixtilaf, fikir ayrılığı! Kaş, Salman başa düşə biləydi ki, bu fikir ayrılığının onların ailə həyatına heç dəxli yoxdur, o öz ərini sevir, hörmət eləyir, ancaq səhvlərini də göstərməyi unutmur. Burda nə qəbahət iş var? Bəlkə də Salmanın yerinə ayrı bir alim olsaydı, bununla fəxr edər, arvadının tənqidindən,

məsləhətlərindən qaralıb darılmazdı. Ya, məsələn, Salman onun, Nadirənin nöqsanlarını üzünə desəydi, mətbuatda tənqid eləsəydi, nə olardı? Nadirənin acığınamı gələrdi? O bu sualla ürəyinin dərinliklərinə baş vurur: «Yox, inciməzdim!» cavabını alıb rahatlanırdı. Amma Salman... Kaş Salman başa düşəydi. Salmanın Sədəfgildən ayaq kəsməsi, Müseyibin çəkilib yad adam kimi bir qıraqda durması da onu az incitmirdi. «Bizi bir-birimizdən ayırıb uzaqlaşdıran nədir, görəsən? Niyə yad olub gedirik?— deyə öz-özünə soruşur, qəti, aydın bir qənaətə gələ bilmirdi.— Şöhrətmi? Var-dövlətmi?» Kitablar yazıb dərin elmi məsələlər qaldıran, çətin, dolaşıq suallara cavab verən Nadirə həyatın bu sadə sualı qarşısında aciz qalmışdı.

Nadirənin ürəyi Orxanın ölümünə şam kimi yanıb ərimişdi. Onun fikrincə, Orxan ölməli oğlan deyildi, o, yaşamalı, yaratmalı idi. İstedadı, qabiliyyəti, ağır-səngin tərpənişi, mehribanlığı, təvazökarlığı Orxanı Nadirənin gözündə elə qaldırmışdı ki, o, bir qardaş, bir qələm yoldaşı kimi onun xatirini istəməyə başlamışdı. O, Orxanın simasında ədəbiyyatşünaslıq elmimizin ən yaxşı, layiqli bir nümayəndəsinin yetişdiyini görüb fərəhlənir, iclaslarda, yaradıcılıq məsələlərinə həsr olunmuş yığıncaqlarda onun haqqında ürəklə, ağızdolusu danışırdı. Bu da onun üçün müəmma idi ki, Salman onunla niyə düz gəlmirdi? O, Salmanın Orxana olan ikibaşlı münasibətini görür, yeri düşdükcə onu bu yoldan — adamı xırdalaşdıran, cılızlaşdıran bu yoldan döndərməyə çalışırdı. Salman həmişə olduğu kimi, belə hallarda da «sıpıxıb» işin içindən çıxır, «hər şeyi elmin xatirinə, Orxanın öz gələcəyinin xatirinə» elədiyini söyləyib onu sakitləşdirirdi. Orxanın qəflətən öldüyünü eşidəndə isə rəngi ağappaq idi. «Görəsən, bayaq mənim kabinetimdə etdiyimiz söhbəti eşidən olmayıb ki? Eşitsələr, heç, mən batdım. Ya özü çıxandan sonra bir kəsə deyibsə, yenə batdım. Cəfər bilsə, başlayacaq...» — deyə vaysına-vaysına dəhlizdə göstəriş verən Salman adamlara qorxa-qorxa baxırdı. Ona elə gəlirdi ki, bax, indicə kimsə ucadan deyəcək: «Onu sən öldürdün, sən öldürdün! Onun

ürəyini sən partlatdın! Sən qatilsən, qatilsən!» Yaxasından yapışıb ədalət məhkəməsinə çəkəcək. Amma Cəfər susurdu. Nadirə, Gülmirə hönkürməsələr də için-için ağlayırdılar. Gülalı çaşıb qalmışdı. Aslanzadə isə məhəccərə söykənib fikrə getmişdi.

Yox, heç kəsdən səs gəlmirdi.

Az sonra o özünə təskinlik verməyə başlamışdı: «Mən də qəribə adamam, ona neyləmişəm ki, qorxuram da. Tüfəngim yox, tapançam yox. Düşmənim də deyildi, sevimli tələbəm idi. Vəssallam!».

Dəfndən sonra keçən neçə günü idarədə də, evdə də səksəkəli gəzib dolanır, hər oturub-durduğu adama ürək ağrısı ilə: «Bizə, həqiqətən, böyük itki üz verib!— deyirdi.— Bunu hələ hiss eləmirik, onun yeri çox yerdə görünəcək».

Onun belə ah-vay elədiyini görəndə Nadirə istər-istəməz düşünmüşdü: «Ətini yesəydi də, sümüyünü çölə atmazdı. Çox istəyirmiş Orxanı».

Neçə aydı ki, Orxanın şöbədəki stolu boş idi. Heç kəs oturmurdu. O, öləndən sonra bu şöbəyə gül də gətirən olmamışdı. Nadirə Orxanın stoluna baxa bilmirdi. Gözü sataşan kimi, ona elə gəlirdi ki, Orxan indi hardansa gəlib yerində oturacaq. Amma gəlmirdi, gələ bilməzdi.

***

Axşam xəzri başladı. Şəhərin yağışdan islanmış, yuyulub aynalanmış küçələrində, dalanlarında, səkilərində bir şey tapmayan xəzri sanki getdikcə hirslənir, itiyi itmiş kimi vurnuxur, hiddətlənib qapı-pəncərələri silkələyir, cingildədirdi. Gecə keçdikcə yorulub əldən düşür, şəhərdən çıxır və sanki haradasa ağzı üstə torpağa düşüb səssiz-səmirsiz mürgüləyirdi.

Salmanla Ceyhun kino-teatrdan çıxıb özlərini yenicə evə salmışdılar. Adəti üzrə, onlar evə gələndə durub qabaqlarına çay-çörək

qoyan Nadirə bu dəfə nədənsə yerindən tərpənmədi, divanın üstündə çevrilib asta, yorğun səslə mətbəxə keçib, oğluna və ərinə dedi:

— Salman, xörək istidi. Çayı da təzə dəmləmişəm, tökün, yeyin, için.

Yeyib-içəndən sonra Salman böyük zala keçdi. Ceyhuna tapşırdı ki, əgər dərslərindən hazırlamadığı varsa, götürüb hazırlasın. Ceyhun atasının dediyinə əməl elədi.

Salman yalnız indi Nadirəyə diqqətlə baxmağa, nə olub olmadığını aydınlaşdırmağa çalışdı. Doğrudan da, Nadirənin halı özündə deyildi, elə bil, onu kimsə təhqir etmiş və ya köhnə dərdlərini təzələmişdi.

— Sənə nə olub, Nadirə? — Salman xəbər aldı.

— Heç...

— Elə bil, ağlamısan.

—…

Salman səsini azca qaldırdı:

— Nə dərdin var ey sənin, bilmirəm?

— Məgər adam təkcə öz dərdi üçün ağlayar?

— Yox, durub bütün dünya üçün ağlamalıdır adam? Nadirə ona mənalı-mənalı baxdı:

— Eh, Salman, Salman!..

— Qoymur ha, sən öləsən, bu beş günlük dünyada sakit yaşayaq özümüzçün.

— Yaşa, nə deyirəm ki, Salman. Özü üçün yaşayanlar az deyil dünyamızda, biri də sən ol.

Susdu. Salman da cavab vermədi. Və indi elədikləri bu söhbətdən də xoşları gəlmədi. Çünki Ceyhunun yanında bir-biri ilə sərt danışmamağa hər ikisi söz vermişdi. Dəfələrlə. Amma nə edəsən ki, bu vəd tez yaddan çıxırdı.

Salman Ceyhuna dedi:

— Dur keç öz otağına, bala.

Ceyhun ayağa qalxıb ata-anasına baxdı, baxdı, sonra öz otağına keçib qapını örtdü. İşığı yandırdı. Ancaq qapıdan uzaqlaşmadı, başa düşdü ki, onlar indi, nəsə maraqlı bir şey danışacaqlar. Elə belə də oldu.

Salmanın ahəstə səsi eşidildi:

— Axı nə olub ey?

— Müsibət üz verib, Salman! — deyə Nadirə hüznlə dillənəndə Ceyhun qulağını qapıya yaxınlaşdırıb nəfəsini uddu.

Nədi?

— Gülmirə…

Nadirə bu gün içib sərxoş olmuş, özünü-sözünü bilməyən Əqdəmə təsadüfən rast gəldiyini, onun evdən acıq eləyib getdiyini, Gülmirəni Orxanın qəbri üstündə gördüyünü dəli bir adam kimi danışdığını nağıl eləməyə başladı.

Ceyhun anasının dediklərinin bircəciyini də buraxmır, ürək çırpıntısı ilə dinləyirdi. Yaşının elə vaxtı idi ki, belə söhbətlər onun üçün şirin nağıl idi, əfsanə idi. Düzdür, anası da, atası da onu ana uşağı hesab eləmişdi. Nadirə Ceyhunun Afa ilə tanış olduğunu, yaxınlıq elədiyini eşidəndə əli-ayağı yerə yapışmışdı: «Onun nə vaxtıdır ki, indidən belə şeylərə baş qoşur» — demişdi. Ancaq Salman bundan daxili bir qürur duymuş, «Fərli oğul elə... bilinər!»— söyləmişdi.

Ceyhun qapının arxasında dayanıb deyilənləri eşitdikcə düşünürdü: «Demək, belə... Gülmirə Orxanla sevişirmiş, Əqdəm ola-ola... Onların arasında nə isə varmış... Axı, o Əqdəm evdə qalmırdı, göylərdə uçurdu, göylərdə yaşayırdı, Gülmirə isə burda tək-tənha yaşayırdı. Görəsən, Orxanla Gülmirənin arasında nə olub axı? Bu «nə isə» nə imiş, görəsən?» Məsələn, o, Afa ilə gəzirdi; bir-birilərini görməyəndə darıxırdılar.

Nadirəmi, Salmanmı şübhəsini bildirdi: bəlkə onun, Gülmirənin əsərini Orxan yazırmış?

Bu da qəribədi. Bunu kim dedi?

«Kim kimin işini havayı yerə görər?»

Onlar söhbət elədikcə Ceyhun Gülmirəni gözlərinin qabağına gətirirdi: o bu evə çox gəlib-gedib. Gözəl sifəti, yaraşıqlı gözləri, mütənasib bədəni olan Gülmirəyə Ceyhun çox adi və soyuq bir nəzərlə baxıb. O bura professor Salman Qurbanzadənin şöbəsində işləyən elmi işçi kimi gəlib. Ceyhunla da bir uşaq kimi rəftar eləyib. Neçə dəfə əlini başına çəkib, qıvrım tellərini qarışdırıb. Bir kərə Gülmirə onların evində,— indi atası-anası oturub söhbət eləyən otaqda,— Nadirə ilə üzbəüz əyləşmişdi. Nazik, güllü donu dolu, tökmə dizlərindən azca yuxarı dartılmışdı, ağ dizləri görünürdü. Divanda, böyür tərəfdə oturmuş Ceyhun onun açıq dizlərinə baxırdı. Bunu Gülmirə, deyəsən özü də hiss eləyirdi, ancaq dizinin üstünü örtmürdü. Yaraşıqlı, yeniyetmə qız əlinə oxşayan əlini hərdən bir dizinin üstündə gəzdirir, sığallayır və sanki bundan da ləzzət alırdı. Bəli, o, Ceyhunu uşaq hesab eləyirdi, uşaq! Ceyhun isə onu ancaq quruca bir elmi işçi sanırdı, hətta onun qadın olduğunu da ağlına gətirmirdi. İndi isə məlum olur ki, o, Orxanla — qəflətən ölən Orxanla yaxın imiş, onların arasında nə isə gizli və şirin bir əlaqə varmış; Gülmirə Orxan öləndən sonra da onu unuda bilmir, qəbiristanlığa, onun məzarının üstünə gedir.

Nadirə nə dedisə, Salman əsəbiləşdi. Nə dedi? Hə, dedi ki, guya Əqdəm deyirmiş, Salman öz şöbəsindn işçilərindən muğayat olsun, onlar... elmdən başqa...

Ceyhun yenə sözün-söhbətin dönüb elmi işlər üzərinə gəldiyini duyunca gedib çarpayısına uzandı. Kitabını oxumaq istədi, ancaq bacarmadı, gözlərini tavana zillədi. Gülmirə gəlib onun gözləri önündə cilvələnir, onu rahat buraxmırdı, elə bil, Ceyhun onunla təzə tanış olmuşdu xəyalında onun açıq dizlərinə təzədən baxmaq, doyunca tamaşa eləmək, o vaxt duyub-anlamadığı «nə isə»ni hiss etmək istəyirdi.

## DÖRDÜNCÜ FƏSİL

Neçə gün idi ki, Gülmirənin ürəyi gizildəyirdi: bu müddət ərzində bütün olub-keçənlər, tələsik fırlanan lent yazısı kimi gözlərinin önündən keçir, anlar, dəqiqələr ötdükcə son nöqtənin — hər şeyə xitam verən nöqtənin yaxınlaşdığını duyur və dəli olmaq dərəcəsinə gəlir, inləyirdi. Təəssüf ki, onu heç kəs eşitmirdi, hətta divarın o tayında yaşayan Maşa xala da, bir küçə o yanda olan Xatın arvad da onun ürəyindən xəbərsiz idi. Gülmirə həmişə Əqdəmin təyyarəsində uçmuşdu. İndi isə o həmin yüksəklikdən böyük sürətlə başıaşağı gəlirdi. Onu Əqdəm öz yanından, öz təyyarəsinin kabinəsindən itələmiş, rəhmsizcəsinə itələmişdi və nəhayət, onun məhvinə qərar vermişdi. Niyə? O, vəfasız idi! Əqdəmin təmiz, uçduğu göylər kimi saf olan məhəbbətinə özgə nəfəsinin toxunmasına icazə vermişdi. Əqdəmin o böhranlı dəqiqələrdə yazdığı sözlər Gülmirənin qətlinə fərman kimi səslənirdi. «Hər şey bitdi», deyə gecələr səhərəcən yerində çalıxıb-çapalayan, fikir-düşüncə əlində əsir-yesir olan Gülmirə bu dəqiqə qələm-kağızdan, elmi işdən elə qorxurdu ki, bir də miz arxasında oturacağını, zəif də olsa, bir şey qaralayacağını ağlına belə gətirə bilmirdi. Yox, daha bəsdi, daha kifayətdi! Özünü də aldatdı, başqalarını da! Hələ Cəfərii halalca kəşfini vicdan ağrısı çəkmədən öz adına çap etdirdiyini yadına saldıqca tükləri ürpəşirdi: «Salman Qurbanzadə, görəsən, niyə belə etdi?»

Həmin məşum günün səhəri Gülmirə özünü əzgin hesab etdiyi üçün işə getmədi, katibəyə zəng vurub, xəstə olduğunu xəbər verdi. İndi dördüncü gün idi ki, işə çıxmırdı. Xatın arvad yamanca əl-ayağa düşmüşdü. Qızının ürəyindən, başına gələnlərdən xəbəri olmasa da, özünü oda-közə vurub ona gah dərman verir, gah da dəsmalı isladıb alnına qoyurdu. Təbib çağırmağa qızı icazə vermirdi: «heç bir şey yoxdur,— deyirdi,— yorğunam».

Xatın isə Əqdəmin dalınca alıb-verir; «Kişi olan bəndə evində-eşiyində tapılmaz yəni?»— deyib yanıb yaxıla-yaxıla gileylənirdi, xəlvətə salıb ağlayırdı. Maşa onun könlünü almağa çalışanda deyirdi: «Əqdəm xarab, oçen xarab. Gülmirə safsim xarab».

Maşa xala Xatının dilini bilməsə də, arvadın dediyindən dərdini başa düşürdü. Başını bulayıb təəssüfləndiyini bildirməkdən başqa nə eləyə bilərdi?

—Əqdəmə tel vuraq, qoy gəlsin, bala!

— Yox, ana.

— Niyə axı, qız?

— Lazım deyil,— deyib gözünün qorasını sıxan Gülmirə dilinə qıfıl vurub əsil mətləbi açmırdı.

Axşamçağı isə Nadirə onun yanına gəldi. Gülmirənin tanınmalısı qalmamışdı. Ürəyində onun halına acıdı. Onların görüşü Xatının yanında keçdiyindən artıq söz-söhbətə yol verilmədi. Yəni əslində Nadirə özünü elə apardı ki, guya heç nədən xəbəri yox idi.

— Bəlkə bir şey olub, məndən gizləyirsən?— deyə Nadirə Xatın arvadın yanında soruşdu.— Bəlkə, Əqdəmin başına...

Gülmirə utana-utana başını tərpətdi. Xatın isə hövsələsizliklə cavab verdi:

— Kaş elə olaydı, düşəydi təyyarəsiynən bir yerdə torpağa, parça-parça olaydı, tikəsi də tapılmayaydı.

— Elə demə, Xatın xala,— Nadirə etiraz elədi,— yazıqdı.

— Ay onun yazıq arxası yerə gəlsin, biz də vayına oturaq. Belə də kişi olar, belə də ailə başçısı olar?! Nə yeri var, nə yurdu var.

Nadirənin sorğu-sualları cavabsız qaldı.

* * *

İki saatdan çox iclasda oturmağına baxmayaraq, Gülmirə hansı məsələlərin müzakirə olunduğunu, kimlərin nə dediyini dəqiq söyləyə bilməzdi. Çünki fikri elə dağınıq, özü elə pəjmürdə idi ki, heç bir şeyi

dərk eləməyə qadir deyildi. Beyni uğuldayır, gözləri dumanlı-dumanlı baxırdı. O, artıq özünü bu şöbənin işçisi saymırdı: «Bu gün çox güman ki, axırıncı gündü oturmuşam burada. Bax, bu dörd divar arasında mənim ömrümün neçə ili zay olub, hədər gedib. Yox, getsəm yaxşıdır. Nahaq yerə bir elmi işçi yerini niyə tutmuşam? Özümün əlimdən gəlmir, kömək eləyən də yox. Bir də haçanacan kömək eləyəcəklər, mənim cızma-qaramı düzəldib əvəzinə yeni əsər yazacaqlar?» — deyə düşünür, bir-bir çıxış eləyən yoldaşlarının üzünə baxırdı. Adama elə gəlirdi ki, o, çox diqqətlə qulaq asır.

Yuxarı başda oturan Salman Qurbanzadə də hərdən Gülmirəyə qəribə tərzdə nəzər salır, Gülmirə onun indiyəcən adət etmədiyi bu baxışları altında əzilib kiçilir, ürəyinə min bir fikir gəlir və qızarırdı. Salman bu gün onu otağına çağırıb əməli-başlı söhbət eləmiş, işdən çıxmaq haqda nahaq yerə ərizə verdiyinə görə danlamış: «Ağlını başına yığ, otur əsərini yaz. Soyub-soyub quyruğunda qoyma» — deyib məzəmmət etmiş, özünü o yerə qoymayıb səbəbini soruşmuş, ancaq Gülmirə susub dinməmiş, dediyindən dönməyib ipə-sapa yatmamışdı.

— Yaxşı, görək Aslanzadə nə deyəcək? — deyə naçar qalan Salman ərizəni stolun üstünə qoymuşdu. İclasın axırına yaxın akademik qapını açıb içəri girəndə hamı ayağa qalxdı. O, əlilə işarə eləyib:

— Oturun, — dedi. — Bura elmi idarədi, sinif zad deyil, siz də tələbə deyilsiniz.

Aslanzadənin bu sözü oturanların xoşuna gəldisə də, hamının qızarmasına da səbəb oldu. Xüsusilə Aslanzadəni görən kimi hamıdan qabaq ayağa qalxan Salman daha çox pərt oldu.

— Şöbənin illik işlərinin yoxlanmasının nəticəsini müzakirə edirdik, professor!— deyə Salman izahat verdi.

— Çox yaxşı, çox yaxşı. Davam eləyin.

— Düzü, qurtarmışıq, kimin nə sözü vardısa, deyib, ürəyini boşaldıb.

— Hə?

— Bəli.

— Mən kecikdiyim üçün üzr istəyirəm, çünki bölmənin də balaca bir yığıncağı vardı.

Gülmirə Orxanın boş stoluna baxıb fikrə getmişdi. Orda Orxan oturardı. Kitab, kağız-kuğaz əlindən stolunun üstündə yer olmazdı. Başıaşağı, kimdə-kimsədə işi yox idi. Gətirdiyi, birini Gülmirənin, birini də Nadirənin stolunun üstünə qoyduğu güllər də qızarırdı. Var idi Orxan, yoxdur Orxan. Dünyanın işi belədir.

Birdən onu Aslanzadənin səsi xəyaldan ayırdı:

— Bu nə ərizədi, qızım, yazmısan? — O, ərizəni yuxarı qaldırdı.

—Ərizədi də—deyə utana-utana ayağa qalxdı, hamının nəzəri Gülmirəyə çevrildi.

— Axı niyə sən birdən-birə elmi işdən əl götürürsən, qızım?

— Ona görə ki...— ürəyində bu suala mükəmməl cavab hazırlamışdısa da, indi heç nə deyə bilmədi. Elə bil, hamısını unutdu. — Ona görə ki... çətindi... xəstəyəm özüm də...— dedisə də bununla heç kimi inandıra bilməyəcəyinə elə o dəqiqə əmin oldu.

— Yox, bala.— Aslanzadənin həlim səsi onun qətiyyətini heçə-puça döndərdi. — Gəl belə danışmayaq. Dünyada asan peşə yoxdur. Hansı işin qulpundan yapışsan, elə çətindi. Bir də, maşallah, sən neçə ildi burada işləmisən, təcrübən var, neçə məqalən çap olunub, hamı da elə birağızdan sənin yazılarını tərifləyir. Unutmaq da olmaz ki, dövlət sənin yetişməyin üçün ətək-ətək pul töküb. İndi sən məhsul verməyə başlayanda duraq səni işdən azad eləyək? Buna nə deyərlər?

— Düzdü, tamamilə düzdü. — Salman onun sözünə qüvvət verdi.

— Budu, mərhum Orxanın yeri hələ də boş qalıb. Onun yerinə ləyaqətli, püxtə, Orxan kimi məhsuldar bir alimi biz haradan tapa: bilərik? Onun yerinə universiteti təzəcə qurtarmış bir cavanı götürsək,

əlbəttə, onun yetişməsi üçün illər lazımdı, vəsait lazımdı. Hələ onu demirəm ki, bu cavan, Orxan ola biləcək, ya yox?

— Professor, sizdən artıq dərəcədə xahiş edirəm ki, məni azad edin. Ərizənin üstünü yazın ki, mən rahat olum. Beynimə düşüb, daha işləyə bilmərəm.

— Gülmirə, inad eləmə! — Salman ərkyana dilləndi.

— Xahiş edirəm, professor.

—Əgər xəstəsən, putyovkadan-zaddan düzəldək, get dincəl, qızım, güc topla, sağal, yenə gəl işini davam elətdir.

— Yox, professor.

Bu məsələ həll olunmamış Cəfər barmağını qaldırdı:

— Olar, yoldaş Aslanzadə?

— Buyur, nə sözün var, Cəfər — deyə Aslanzadə Gülmirəyə əlilə oturmaq işarəsi verdi. Cəfər ayağa durub boğazını arıtladı.

— Madam ki burada elmi işçinin dəyərindən, onun elm üçün nə qədər qiymətli olduğundan, bir elm adamının ərsəyə gəlməsi üçün külli miqdarda vəsaitin sərf edildiyindən danışıldı, mən də iki kəlmə söz demək istəyirəm. Yoldaş Aslanzadə Gülmirənin ərizəsi ilə əlaqədar olaraq mərhum Orxanın adını çəkdi. O bizim yoldaşımız idi, şöbəmizin gözü idi, həm insanlığı, həm sadəliyi, həm qabiliyyəti onu hamımızın əzizi etmişdi. heyf ki, yazıq öldü.

Salman bu son iki sözü eşidənəcən ürəyini az qala yemişdi. Ona elə gəlirdi ki, bax, indicə Cəfər deyəcək: «Onu öldürdülər. Bax, bu Salman Qurbanzadə öldürdü!» Ancaq «yazıq öldü» sözünü eşidən kimi ürəyi yerinə gəldi. Cəfər sözünə davam etdi:

— Alimliyinə də ki, söz ola bilməzdi. Gecəni gündüzə qatıb işləyərdi rəhmətlik. Nəyin xatirinə? Bu elmi işçilərdi, yazıçılardı, şairlərdi, bunlar nəyin xatirinə həyatı, şirin yuxunu özlərinə haram edirlər? Onlar, bilirsinizmi, öləndən sonra da yaşamaq üçün hər şeydən keçirlər, bəli, öləndən sonra yaşamaq! Bir yazıçının, bir şairin, ya alimin əsəri ondan sonra da yaşayırsa, insanların karına gəlirsə,

onların ürəyini, əqlini isindirirsə, onun müəllifi də, demək ki, yaşayır. Amma, budur, Orxan öldü, getdi. Onun əsərləri qaldı. Qəzetlərdə, jurnallarda, redaksiyalarda, özünün arxivində. Onları biz niyə yığıb çap etməyək?! Niyə nakam olmuş yoldaşlarımızın əsərlərini qoruyub saxlamayaq, gələcək nəsillərə çatdırmayaq?! Axı, yoldaşlar, o özünü ancaq və ancaq elmin xatirinə, öləndən sonra da yaşamağın xatirinə şəhid elədi? Bu bizim – onun yoldaşlarının borcudur. Bunu biz eləməliyik, bizim şöbəmiz eləməlidi.

— Düzdür, tamamilə düzdür, — deyə Aslanzadə minnətdarlıq hissi ilə Cəfərə baxdı. — Bu barədə heç fikirləşmisənmi, Salman?

Salman onun üçün tamamilə gözlənilməz olan bu məsələyə elə bu dəqiqə özünə xas bir çevikliklə cavab hazırlamışdı:

—Bu barədə mən yoldaşların nəzərinə çatdıra bilərəm ki, belə bir planım var. Orxanın əsərlərini toplamaq, gələn ilin nəşriyyat planına onun iki cildlik əsərlərini daxil etmək! Bir cildinə onun məqalələrini, bir cildinə də onun Mirzə Cəlil haqqında monoqrafiyasını salmağı nəzərdə tutmuşam. Bundan başqa öz şəxsi planıma Orxanın həyat və yaradıcılığı haqqında bir çap vərəqi həcmində məqalə yazmağı da daxil eləmişəm.

— Bu ayrı məsələ!— deyə kimsə yerdən söz atdı.

— Bəli, belə də lazımdı. Cəfər yenə də sual verdi:

— Bəs Orxanın Mirzə Cəlil haqqında yazdığı kitab yubileyə qədər çıxmayacaq?

— Yox,— deyə Salman qətiyyətlə bildirdi.— Çatdırmarıq.

Aslanzadə cavab verdi:

— Yubileyə hazırlıq işləri görülüb qurtarmadığına görə altı ay təxirə salınır.— Ona görə elə edərsən ki, Salman, Orxanın kitabı yubiley günlərinədək satışa çıxar, bildin?

— Bildim, yoldaş Aslanzadə.

— Qaldı ki, sənin məsələn, Gülmirə, hələ fikirləşərik.

— Professor...

— Dedim ki, fikirləşərik!

## BEŞİNCİ FƏSİL

Makinaçılar otağının qapısı açıldı, Gülalı arıq, uzun gövdəsilə makinaçının qarşısında zahir olub dişlərini ağartdı:

—Əssəlamün-ələyküm, Elvira xanım — deyə o, sağ çiynini aşağı dartan iri qovluğunu boş stolun üstünə qoyub əllərini övkələdi.— Hə, necəsən?

— Yaxşıyam, Gülalı müəllim.— Elvira fikirdən ayrılıb çayını götürdü.

— Yenə pürrəngi çay içirsən?

— İstəyirsiniz sizin üçün də töküm?

— Yox, sağ ol.

Gülalı yorğun idi. Seyrək kirpikli gözləri qızarmışdı. Bu, Elviranın nəzərindən qaçmadı:

— Gülalı müəllim, gözünüz ağrıyır, nədi?

— Yox, əşi!— dedi,— qızarıb, hə?

— Bəli.

—Əşi, bu qara-quraya baxmaqdandı də.— Özünə ciddi, işgüzar bir görkəm vermək istədi:— Biz də peşə-sənət tapdıq də! Bu sənəti seçməkdə, öz aramızdı, indi başa düşürəm ki, bir balaca səhv eləmişəm. Eh, nə isə. Bikarsan?— deyə o nəsə fikirləşib sözü dəyişdi.

— Bəli, necə məgər, yazınız var?

— Hə, bir balaca... işləmişəm. Deyirdim, onu yazasan.

— Nə olar ki? Elə indi?

— Hə, mümkün olsa. Mürsəl Bəbirzadənin yeni romanı haqqında yazmışam.

— Mürsəl Bəbirzadənin? «Qanlı yaylıq» haqqında?

— Hə, elədir ki, var.

Elvira daxili bir sevinc hissilə Gülalıya baxıb gülümsədi. Nə isə demək istəyirdi ki, Gülalı diktə eləməyə başladı:

— Yaz. «M.Bəbirzadənin yeni romanı haqqında bəzi mülahizələr». Yeni sözünü dırnaq içində yaz.

— Dırnaq içində?— deyə Elvira əl saxlayıb Gülalının üzünə baxdı.— Dırnaq içində niyə?

— Elə lazımdı. Sən oxumusan əsəri?

— Bəli, əvvəldən axıra kimi.

—Əvvəldən axıra kimi? — Gülalı heyrətlə soruşdu.

— Axı, hələ əsər çap olunub qurtarmayıb?

— Mən əlyazmasından oxumuşam.

— Həəə?..

— Yazıçılar İttifaqının makinaçısının vaxtı olmadığına görə əsəri mənim üstümə göndərmişdi. Müəllif özü gətirmişdi. Bir dəfə çap elədim. Apardı. İşlədi. Sonra jurnal nəşr eləməyə başlayanda yenə mənə göndərdi ki, təzədən çap eləyim. İndi üçüncü nömrə üçün nəzərdə tutulan hissə məndədi. Sabah gəlib aparacaq.

— Həəə?..

— Bəli.

— Necə romandı. Xoşuna gəldi bir oxucu kimi?

— Çox gözəl romandır. Gülalı müəllim. Elə gözəl romandı ki, bu saat əgər istəsəniz, fəsillərinin çoxunu sizin üçün əzbər deyərəm. Necə şairanə yazıb, necə gözəl yazıb,— deyə Elvira hər şeyi unudub axır vaxtlar oxuduğu kitablar içində ən çox yadda qalan «Qanlı yaylığı» ağızdolusu tərifləməyə başladı.— Siz təsəvvür eləyin ki, makinada yaza-yaza oxumağa səbrim çatmadı. Makinanı bir kənara atıb əvvəl oxudum, axıra çıxdım, ürəyim sakit olandan sonra oturub yazdım. Belə əsərdi.

Gülalı hiss eləyirdi ki, Elvira əsərdən danışdıqca hər şeyi unudub o aləmdə yaşamağa başlayır. Və bu arıq qızda bədii zövq və məntiq olduğunu ağlına gətirmədiyi üçün özünü danlamağa başladı.

Elvira danışdıqca heç özü də hiss etmədən onun təsiri altına düşür, doğrudan da, əsərin məqalədə qələmə vermək istədiyi kimi pis olmadığını özlüyündə etiraf eləyirdi.

— Bəs sizcə, əsər yaxşı əsər deyil?— Gülalıdan xəbər aldı.

— Yaxşı olmağına yaxşıdı, ancaq müəllifi yaxşı deyil.

— Müəllifi? Məgər müəllifinə görə əsərə qiymət verirsiniz?

Gülalı özünü adi bir oxucu qarşısında itirdiyinə görə qızardı.

— Yox, — dedi,— burada bir balaca səhv elədim. Bilirsən, Elvira, sən hələ cavansan. Sən əsərə adi bir oxucu nöqteyi-nəzərindən yanaşırsan. Amma biz ədəbi tənqid mövqeyindən qiymətləndiririk. Ədəbi tənqidin isə özünün ölçüləri, meyarları var. Biz bu ölçülərdən çıxış eləyirik. Həm də biz oxucu fikrinin səviyyəsinə enməli deyilik. Bəlkə əksinə, oxucuları öz ardımızca aparıb bu və ya digər müsbət, mənfi məziyyətlərini açıb göstərməliyik.

Elvira bir sual da verdi:

— Bəs, axı, əsər hələ tamam çap olunub qurtarmayıb, hələ jurnal yazıb ki, ardı var.

Gülalı lap qızardı. Bilsəydi ki, əsəri makinada o yazıb, məqaləsini yanına gətirməzdi. Nə çoxdu makinaçı. Gözlənilmədən yaranmış bu vəziyyət onu çox nigaran qoydu. Görəsən, bu söhbətin tam mənasını Elvira özü başa düşürmü, ya elə-belə, söz-sözü çəkib gətirdi?

— Bilirsiniz, məsələ burada bir qədər ayrı cürdü. Biz tənqidçilər yazıçıların, şairlərin əsl yaradıcılıq qabiliyyəti ilə yaxşı tanışıq. Bilirik kimin yaradıcılıq imkanı necədir. Bir də sizə belə bir şey deyim. Məsələn, mənim qabağıma bir qab xörək qoyubsan. Mən bir qaşıq götürüb deyirəm ki, duzludur, heç yeməli deyil. Səncə, bunu mən bütün xörəyi yeyəndən sonra deməliyəm, ya əvvəlcə deməliyəm.

—Əlbəttə, əvvəlcə!

— Bəli, əvvəlcə hiss eləməliyəm ki, bu xörək necə xörəkdir. Əsər də belə. Başa düşdün, əzizim? — deyə Gülalı ağlına gələn bu

bənzətmədən sevindi. — Bizim bu elmin belə-belə sirləri var, Elvira xanım.

Elvira bir söz deməyib çiynini çəkdi: «Sizin işlərinizdən məi baş aça bilmirəm».

Elvira zəng səsini eşidən kimi cəld ayağa qalxdı. Bu, Aslanzadənin zəngi idi, Elviranı çağırırdı. O, dəhlizdən keçib direktorun otağının meşin qapısını açaraq içəri girdi.

— Buyurun, professor.

Aslanzadə qəzetlərə baxırdı. Armudu stəkan boş idi.

— Qızım, Gülmirə işə gəlib?

— Yox, professor.

— Onu tap, zəhmət olmasa, denən Aslanzadə səni görmək istəyir.

— Baş üstə, professor. Evlərinə zəng çalaram.— Sonra Elvira boş stəkana işarə ilə: — Çay gətirimmi, professor, — deyə xəbər alanda o:

— Yox, qızım, çox sağ ol, bəsimdi!— deyə cavab verdi.

Elvira kabinetdən çıxdı. Əzbər bildiyi nömrəni yığdı. Birinci dəfə cavab verən olmadı. İkinci dəfə Gülmirənin yuxulu səsi eşidildi. Elvira salam-kalamdan sonra Aslanzadənin onu görmək istədiyini Gülmirəyə xəbər verdi. Gülmirə:

— Yaxşı!— deyib dəstəyi asdı. O, əslində yuxulu deyildi. Çaşqın və pəjmürdə idi. Ərizə verib elmi işçilikdən azad olunmağını xahiş etdiyi bir zamanda Gülmirənin özünün heç gözləmədiyi bir hadisə baş vermişdi. Bu hadisə onsuz da Gülmirəni idarədən buraxmaq istəməyən Aslanzadənin fikrini daha da qətiləşdirəcəkdi və beləliklə, Gülmirə elmi işçilikdən azad ola bilməyəcəkdi. Məsələ burasında idi ki, dünən gənclər qəzetində Gülmirəgilin üç-dörd ay bundan qabaq çapdan çıxmış kitabı haqqında adlı-sanlı tənqidçi-akademik məqalə çap etdirmiş və orada kitabdakı əsərləri yerli-yataqlı təhlil

etmiş, ən çox isə mərhum Orxanla Gülmirənin məqalələri üzərində dayanmış, onların hər ikisini təriflәmişdi.

Axşam məqaləni oxuyanda Gülmirə özündə qeyri-adi bir həyəcan duymuş, ürəyini çalpaşıq hisslər çulğamışdı. Sevinmişdi də, utanmışdı da. Mənəvi cəhətdən tamamilə tərk-silah olduğu dövrdə mərkəzi mətbuatda görkəmli tənqidçinin onun əsərini yüksək və qanadlı ifadələrlə tərifləməsi, əlbəttə, onun üçün balaca məsələ deyildi. Ona dayaq idi, qüvvət idi, güc idi, ən başlıcası isə inam idi.

Ancaq adam heç vaxt özü özündən qaça bilmir. Gülmirə bu dəqiqələrdə özündən qaçmaq uzaqlaşmaq, «o mən deyiləm!» — demək qüdrətinə malik olmaq istəyirdi. «Yox, o, mən deyiləm. O mən deyiləm!» Bu isə onun imkanından xaric idi. Ona elə gəlirdi ki, bu təriflənən məqalənin Orxan tərəfindən yazıldığını təkcə o özü yox, bütün aləm bilir, hətta, deyəsən, qəzetdə məqalə ilə çıxış eləyən tənqidçi də bilir. Çünki o, hər iki əsərin «eyni dərəcədə yüksək mədəni səviyyədə» yazıldığını qətiyyətlə qeyd edir, Gülmirənin yazısının «poetik bir ilhamın məhsulu olduğunu» söyləyirdi.

— Gör necə səhv eləyir?! Aman Allah, onun səhv eləməyinə mən bais oldum. O neyləsin? O, yazıya baxıb qiymət verir. Hardan bilsin ki, onu mən yox, Orxan... Yox, gedib deyəcəyəm, hamısını açıb deyəcəyəm. Deyəcəyəm ki, əziz və hörmətli müəllimim, onu mən yazmamışam. O sözlər ki, mənim ünvanıma deyirsiniz, Orxanın ayağına yazılmalıdı, Orxanın. Yox. Belə demək olmaz, özüm özümü ifşa eləmiş olaram. Bəli, özüm özümü!

Dünəndən fikrində dolanan bu çalpaşıq duyğular, düşüncələr onu əzgin etmişdi.

Elvira Aslanzadənin xahişini ona yetirəndə ürəyinə damdı ki, söhbət ancaq və ancaq onun institutda qalması barədə olacaq. Belə də oldu.

Aslanzadə onu gülərüzlə, mehribancasına qarşıladı. O, həmişə belə idi. Ancaq Gülmirə başa düşürdü ki, bu dəfə Aslanzadənin

mehribanlığı bir az da artıqdır. Gülmirə Aslanzadənin bu xasiyyətini yaxşı bilirdi: o, şöhrətpərəst idi. Ancaq özünün şöhrətpərəstliyini yox, institutun şöhrətpərəstliyini eləyirdi. Qoy hər yerdə institutun adı yüksək tutulsun. Aslanzadə o adamları xoşlayır və bacardıqca hörmət eləyirdi ki, onlar öz ağıllı, kamil əsərlərilə institutun adını yüksəklərə qaldırır. Belələri onun iki gözü idilər.

— Hə, necəsən, qızım!— deyə o, gümrahlıqla Gülmirəyə əl verib oturmağa yer göstərdi.

— Yaxşıyam, professor, sağ olun.

— Yox, gözümə yorğun dəyirsən. Sənə dincəlmək lazımdı.

— Hə, əsəblərim bir az...

— Səndən qabaq yerli komitənin sədrini çağırmışdım. Cəfəri. Danışdım ki, sənə bir putyovka verək, get dincəl.

— Çox sağ olun, professor. Mən xəstə zad deyiləm. — o, əsl məsələni açmaq istədi — mən ümumiyyətlə, elmi işdən uzaqlaşmaq istəyirəm.

— Niyə?

— Ona görə ki, ağırdı mənim üçün. Aslanzadə gülümsündü.

— Bəs dünənki qəzeti oxumamısan, qızım?

— Oxumuşam, ancaq...

— Əvvələn, səni bu münasibətlə təbrik eləyirəm. Halal olsun. Sən o kişini — Qardaşzadəni yaxşı tanıyırsan. Hələm-hələm adamı tərifləyən deyil. Sözünün qədrini-qiymətini biləndi.

— Orası elədi... Ancaq...

— Bu «ancaq»ları qoyduq bir kənara bu gündən, qızım. Səni bizim idarədən heç yana buraxa bilmərəm. Bu, ən azı cinayət olar,— deyə o, qətiyyətlə bildirdi.

— Deyirsiniz məni idarədən buraxmağınız cinayət olar?

— Bəli.

— Bəlkə əksinə, professor, buraxmamağınız cinayət olmazmı?

— Yox, qızım. Mən buna əminəm. Get, başını sal aşağı, işini gör. Hazırlaş, üç gündən sonra istirahətə gedəcəksən.

Gülmirə Aslanzadənin bu qəti sözləri müqabilində susub, ancaq köksünü ötürməklə kifayətləndi.

## ALTINCI FƏSİL

«15 dekabr 196...-cı il.

Güllər, həqiqətən, qəşəng güllərdi. Gözəlliyinə, cazibədarlığına söz ola bilməzdi. Pəncərənin ağzındakı xırda dibçəklərdəki bu güllər küçədən keçənlərin, evimizə gəlib-gedənlərin diqqətini cəlb eləyirdi. Təbiəti az-çox sevən, onun azad və ətirli qoynunda böyümüş hər kəs qeyri-ixtiyari olaraq dibçəklərə yaxın gəlmək, qəddini əyib o güllərin qan daman ləçəklərini qoxulamaq, onların göz oxşayan gözəlliklərindən məst olmaq istəyirdi.

Ancaq, əslində, bunlar güllər dünyasının «bədbəxt» övladları idi. Onların faciəsi böyük idi, çünki ətri yox idi. Çinara, söyüdə oxşayırdı kölgəsi var idi, barı yox. Mənim özümə oxşayırdı — hər şeyim vardı, səadətim yox. Mən də, mənim adım-sanım da, cah-calalım da o güllərin zahiri kimi gözqamaşdırıcı idi, paxıl yandıran idi. Ancaq.. ancaq ki, həyat mənə tamam ayrı gözlə baxırdı. Onun mənə verdiyindən aldığı çox idi. Verdikləri göz qabağında idi, onları hamı görürdü. İstəyən sevinirdi, istəməyən darılırdı. Lakin aldığını təkcə mən özüm bilirdim, bunu nə neçə vaxt bir yerdə yaşadığım ərim bilirdi, nə ayrı bir kəs. Ərim bunu bilə bilməzdi. Çünki o bu dünyada ancaq özünü düşünür, ancaq özünün varlığına, mühakimələrinin düzlüyünə inanırdı. Belə adamlar isə həssaslıq aləmində piyada olurlar. Duymaqdan, deyilməmiş, dilə gətirilməmiş mətləbləri anlamaqdan uzaq olurlar, çox uzaq.

Bəli, həyatın mənə verdiklərindən aldığı çox idi. Aldığı rahatlığım idi, gəncliyim idi, özümə bəs eləyəcək xoşbəxtliyim idi. Verdiyi saçlarımın ağlığı idi, gərgin əsəblərim idi. Mənə xoşbəxtlik də vermiş-

di, ancaq zəhər qatıb vermişdi. O zəhər birdən-birə özünü büruzə vermir: illər keçdikcə o xoşbəxtliyin bal şirinliyini yeyir, udursan, sonra, sonra yavaş-yavaş qana, ürəyə, beyinə işləyir və nəhayət, adamı bir gün diz çökdürür.

Dissertasiyamı qurtarandan sonra duyduğum nəşə və sevinci də Salman mənə çox gördü. Mənə əvvəllər elə gəlirdi ki, heç bir qüvvə mənim bu böyük və uzun illər gözlədiyim sevincimi alt-üst eləmək qüdrətinə malik ola bilməz. Amma görünür, yanılırmışam. Əsəri yazdığım illər ərzində çəkdiyim ağrı, əzab-əziyyət, yuxusuz gecələr hələ unudulmamış Salman öz qəddarlığı ilə rəhmsizcəsinə mənim fərəhimin üstünə su çilədi.

İlk oxucum o idi, öz ərim idi. Gözləyirdim ki, Salman bir elm adamı kimi mənim yazımı oxuyub öz fikrini deyəcək, evimizdə çoxdan bəri yığışdırılıb kənara qoyulmuş elmi-ədəbi mübahisə başlanacaq və biz, həmişəki kimi ər-arvad olduğumuzu belə unudaraq, fikirlərimizin doğruluğunu sübuta yetirməyə çalışacağıq. Mən həqiqətləri meydana çıxaran belə mübahisələri xoşlayıram. Çünki adamın ürəyindəki, beynindəki məhz belə canlı söhbətlər zamanı üzə çıxır. Belə dəqiqələrdə adam bəzən özündə yeni-yeni şeylər kəşf eləyir. Amma neyləyim ki, Salman belə deyil. O, sözünün qabağına söz çıxarılmağını xoşlamır, özündən savadlı, özündən güclü adamı həmişə nəyin bahasına olursa-olsun susmağa məcbur etmək istəyir. Bunu kənardan baxanlar bəlkə o qədər də aydın hiss eləmirlər, amma mən onun ömür yoldaşıyam, Salmanı hər kəsdən yaxşı tanıyıram, bəlkə Salmanın özündən də yaxşı tanıyıram. Mənə bəzən elə gəlir ki, o, elə mürəkkəb və anlaşılmaz varlıqdı ki, öz-özünü dərk etməkdən belə acizdi. Salman mənim yazımı oxuyandan sonra ağzına su alıb susdu. Ümumən, elə bil, kişi danışmaq qabiliyyətini itirmişdi. Əgər institutda adamlarla deyib-danışan görməsəydim, deyərdim, bəlkə kişinin dili tutulub. Evdə Salman kölgəyə dönürdü. İşdən gəlirdi, çörəyini yeyirdi, öz otağına keçib uzanırdı. Bu günlər isə işləyə də bilmirdi. Divana uzanıb fikirləşir, düşünürdü. Neçə

dəfə yanına getdim, dərdini-sərini soruşub öyrənmək istədim, ancaq daşdan səs çıxdı, ondan yox. Mənim yazımı oxuyub-oxumadığını xəbər aldıqda o, kinli-kinli:

— Mənim hər zir-zibili oxumağa vaxtım yoxdur,— dedi,— götür, ordadı.

Bu sözlər məni dirigözlü öldürdü. Otaq, çilçıraq başıma hərləndi. Gözlərimin qabağında qığılcımlar oynadı. «Zir-zibil!» Ürəyimin qanı ilə yazıb hazırladığım əsər zir-zibil imiş. Axı, o özü görürdü mən nə əziyyətlər çəkə-çəkə bu yazını hazırlamışam. Hər kəs də bilməsə, o görürdü axı! Dilindən necə var gəlirdi ki, mənim təqribən on illik zəhmətimi yerə vurur, insafsızcasına yerə vurur, üstündən qələm çəkir? Axı o, elmi işin nə demək olduğunu bilməmiş deyil.

Salman yalan deyirdi, əlbəttə. Oxumuşdu. Məhz oxuduğuna görə də belə dəli olmuşdu. Səbəbi də mənə gün kimi aydın idi: kişi tənqidi eşidə bilmirdi, heç cür eşidə bilmirdi. Başqalarının iradlarına birtəhər dözsə də, mənim kiçicik bir iradımı qəbul eləyə bilmirdi, özünün mənliyinə, şəninə sığışdıra bilmirdi.

Mövzum elə mövzu idi ki, onu ətraflı və mükəmməl işıqlandırmaq üçün təkcə ilk mənbələri — romanları, povestləri oxumaq, təhlil etməklə kifayətlənmək olmazdı. Gərək mən bu barədə yazılmış elmi əsərləri, bu və ya digər münasibətlə nəsrimizdə realizmin yaranması və formalaşması məsələsinə toxunan tənqidi məqalə və rəyləri saf-çürük eləyəydim. Salman da vaxtilə bir neçə məqaləsində bu mövzuya toxunmuşdu, vaxtına görə öz sözünü deməşdi. Mən isə elmi obyektivlik naminə onlara da tənqidin gözü ilə baxmış, köhnəlmiş, səthi fnkirləri ilə razılaşmadığımı bildirmişdim. Onun elmi mülahizələri mənə nədənsə çox adi, kasıb və elmi dildə desək, primitiv görünürdü. Bəzi yerlərdə onun ciddi elmi və metodoloji səhvlər buraxdığını da mən qeyd etmədən keçinə bilməmişdim. O mənim ərim idi, ancaq o, eyni zamanda alim sayılırdı. Mən onun üstündən sükutla keçə

bilməzdim. Əsla keçə bilməzdim! Bunları — öz nöqsanlarını mənim dilimdən eşitmək isə ona ağır gəlirdi, çox ağır!

Bu gün mənim ürəyimdə qəribə hisslər var idi. Bu gün mənim otuz doqquz yaşım tamam olurdu. Ötən illər Salman özü qabağa düşər, hazırlıq görərdi. Anadan olduğum gün yerindən duran kimi əvvəlcə gözlərimdən öpərdi — heç nə deməmiş. Sonra təbrik edərdi. Axşam da süfrəmiz açılardı, yaxud Ceyhunu da götürüb «Drujba» və ya «İnturistə» gedər, yeyib-içər, istirahət edərdik.

Bu gün isə... bu gün isə Salmandan səs çıxmırdı. O, elə bil məni ev dəftərindən silmiş, nəinki anadan olduğum günü, hətta özümü də unutmuşdu.

Xoşagəlməz, daş kimi ağır bir hiss ürəyimi əzirdi. Günortaya yaxın geyinib, heç nə demədən həyətə düşdü, maşını qarajdan çıxarıb minərək harasa getdi. Mən evdə öz dərdlərimlə tək qaldım. Evə sığışmırdım. Hövlümdən tez-tez balkona çıxır, orada da qərar tuta bilməyib otağa girirdim. Nədənsə yadıma tez-tez Gülmirə düşürdü. Görəsən, o neyləyir? Axı o da tək qalıb. Ona mən heç şeydə kömək eləyə bilmədim. Təsəlli verə bilmədim. Çünki utanacağından qorxdum. Qoy elə bilsin ki, onun başına gələni heç kəs bilmir. Yoxsa əzilər, sıxılar.

Mənə nədənsə elə gəlirdi ki, ona «yazıq» deməklə özümə də «yazıq» deyirəm. Bəli, mən özüm də yazığam.

Saat beşəcən gözlədim, Salman evə qayıtmadı. Ceyhun da sinif yoldaşları ilə dərsdən sonra harasa gedəcəkdi, o da gec gələcəkdi.

Makintojumu geyindim. Əsəbi hərəkətlə qapını bağlayıb özümü küçəyə saldım. Hava küləksiz idisə də soyuqdu.

Əvvəlcə fikrim şəhərə enmək, elə-belə, şəhərin küçələrində asta-asta gəzmək, havamı dəyişmək, ürəyimdəki ağır sıxıntıların əlindən xilas olmaq idi. Sonra yadıma atam, Sədəf və Rəhim düşdü. Dərdlərim bir az da çoxaldı. Axı, onlar məndən niyə üz döndəriblər? Mən nə günahın yiyəsiyəm, axı? Ata da, bacı da adamdan üz

döndərərmi?! Gəlmirlər, getmirlər. Bəlkə ölmüşəm, bəlkə başıma bir müsibət gəlib?

Gedəcəyəm. Onlara gedəcəyəm — qərara gəldim. İyirmi dəqiqə sonra Sədəfgilin həyətində idim. Həyət-bacada səssizlik idi. Səliqəli əl gəzdiyini hər addımbaşı hiss eləmək olardı. Söyüd yarpaqlarını çoxdan töküb çılpaq qalmışdı. Divarın dibindəki hinin qabağında üç-dörd toyuq, bir qırmızıpipik xoruz eşələnirdi.

Lələmin səliqəsidir,— düşünürdüm.

Evdən işıq gəlirdi. Otaqlarının günbatan tərəfə tək pəncərəsi olduğu üçün hava azca tutulan kimi işığı yandırırdılar. Qapının böyründəki pəncərədən isə çardağın altında olduğuna görə evə işıq düşməzdi. Pəncərənin ağzında dayandım. İçəri baxdım. Yerə süfrə salınmışdı. Lələm, Sədəf və Rəhim dövrə vurub oturmuşdular. Sədəfin böyründə qəfədan qoyulmuşdu. Qapını döyməmiş içəri girdim. Üçü də əl saxlayıb mənə baxdılar.

Sədəf mənim gözlənilməz gəlişimdən necə sevindisə, özünü itirdi və tez ayağa durub anasının gəlişini uzun müddət gözləmiş uşaq-sayağı qabağıma qaçdı:

— Xoş gəlmisən, ay bacı!— Məni qucaqlayıb öpdü.— Qədəmlərinə qurban olum, səndən nə əcəb, ay bacı?

Sədəf məni elə sevinc və hərarətlə qarşıladı ki, ürəyimdə olan bütün niskillər, giley-güzarlar yox olub getdi. «Bunlar elə həmin adamlardı», — deyə ürəyimdən keçirə-keçirə irəli yeriyib lələmə əl verdim əyilib üzündən öpdüm, Rəhimin mənə sarı uzanan əlini sıxdım.

— Otur, bala!— Lələm loxmasını udub mənə süfrə başında yer göstərdi.

— Necəsiniz?— dedim.

— Biz yaxşıyıq, bacı, — Sədəf dərhal cavab verdi. — Sən yaxşı ol!

Süfrəyə baxdım — pendir, çörək, şirin çay var idi.

Rəhimin qabağındakı yastı boşqabda əriştə qızartması gözümə dəydi.

— Siz çörəyinizi yeyin, — dedim, — mən bu saat yeyib gəlmişəm.

— Otur, sən allah, haçandı bir süfrədə çörək yeməmişik səninlə, — deyə Sədəf əlimdən tutub süfrənin böyrünə çəkdi. Tavada qalmış əriştəni mənim üçün töküb qabağıma qoydu.

Mən yedim. Elə də ləzzətlə yedim ki, çoxdan belə iştahla yediyim yadıma gəlmirdi.

Mən elə bil, tamam ayrı dünyaya düşmüşdüm. O yandan-bu yandan söhbət elədik. Dolanışıqları, iş-gücləri ilə maraqlandım. Yaxşı idilər. Lələm İçərişəhərdəki ikiminarəli məscidin yanındakı mağazanın gecələr keşiyini çəkirdi. Sədəf on üç nömrəli məktəbdə xidmətçi idi, Rəhim də həm oxuyur, həm də işləyirdi.

Lələmgildə elədiyimiz söhbətlərin hamısını buraya köçürməyi, təfərrüata varmağı lüzumsuz sayıram. Ona görə də bir nöqtəni qeyd etməklə kifayətlənəcəyəm. Çünki lələmin dediyi o sözü mən heç vaxt unuda bilməyəcəyəm, unudulası sözlər də deyil!

— Səndən nə əcəb, qızım? — deyə lələm soruşanda məni evdən çıxıb qaçmağa məcbur eləyən o ağır düşüncələr və dərdlər yenidən yadıma düşdü. Əhvalım dəyişdi, əsəblərim gərildi. Ərköyün uşaq kimi:

— Gəldim ki, məni anadan olduğum gün münasibətilə təbrik eləyəsiniz, — dedim;

— A, a...! — deyə Sədəf əlini dodağına aparıb təəccübləndi və gah lələmin, gah da Rəhimin üzünə baxdı.— Görürsən bir, sən allah, necə yadımızdan çıxıb?!.

— Tək anadan olduğum gün yox, mən özüm də sizin yadınız-dan çıxmışam, çoxdan çıxmışam,— dedim və dərhal hiss elədim ki, dilimdən ağır söz qaçırdım. Ortalığa ani sükut çökdü. Lələm əlini gümüşü bığına çəkib:

— Sən bizi yaddan çıxaran kimi,— dedi.

Onun bu sözləri məni qəfil şillə kimi tutdu, hətta qızardığımı da hiss elədim. Üz-gözüm od içində yanmağa başladı. Lələmin adəti idi, sözü başladımı — axıra çatdırmalı idi. O, sözləri, səni öldürəsi olsaydı da, axıra çatdırmalı, ürəyini boşaltmalı idi.

— Siz elə bilirsiniz mən xoşbəxtəm?

— Mən səni başa düşürəm, qızım. Sənin heç nə deməyin lazım deyil. Mən yaxşı bilirəm ki, sən qızıl qəfəsdə yaşayan bülbülə oxşayırsan, bala!

İndi, otuz doqquz yaşım tamam olan gecə, saat üçdə otağımda oturub bu sətirləri yazdığım dəmdə lələmin bu sözləri qulağımda cingildəyir və dönüb öz-özümdən heyrətlə xəbər alıram:

«Qızıl qəfəsdə yaşayan bülbülə?»

## YEDDİNCİ FƏSİL

Öz iş otağına çəkilib Orxanın əlyazmalarını vərəqləyən, ona məlum çap olunmuş əsərlərini və işıq üzü görməmiş məqalələrini açıb bir yana yığan Salman o arıq, çəlimsiz vücudda nə qədər böyük qüvvə, qüdrət, tükənməz həvəs və şövq olduğunu sanki bu günlər başa düşür, möcüzə qarşısında dayanmış adam təki heyrətlənirdi. Elə bil, Orxan illərlə onun tələbəsi olmamışdı, illərlə onun şöbəsində gözünün qabağında işləməmişdi. Sanki Salman Orxanı təzədən — sağlığında yox, öləndən sonra tanımağa başlayırdı. Sağlığında o nə qədər sakit, az deyib, az danışan bir adam idi. Başqalarından nə gülüşü, nə danışığı, nə yerişi ilə seçilən, kölgə kimi gəzib dolanan Orxanın, sən demə, ürəyində od-alov varmış. Elə ona görə də ürəyindən ölmədimi?!

Salman səliqə və səbirlə yazılıb nömrələnmiş, ayrı-ayrı qovluqlara yığılmış məqalələri, əsərləri heç bir çətinlik çəkmədən sahmana salırdı. Düşünə-düşünə, öz-özünə danışa-danışa. Salman etiraf eləyirdi ki, cavan olsa da, Orxanda öyrənməli şeylər çoxdu: hər gün işləmək, əlyazmasına məsuliyyət hissi ilə yanaşmaq, onu dönə-dönə köçürmək,

tamam «bişiriləndən» sonra oxucunun hüzuruna çıxarmaq! Bunlar elə keyfiyyətlərdi ki, təkcə indi elm aləmində çalışan cavanların çoxunda deyil, hətta yaşlı, təcrübəli elm adamlarının da çoxunda yox idi.

Orxan hər gün işləyirmiş. Salman bunu əvvəllər bilmirdi, Orxan özü də heç dilinə gətirməmişdi. Amma budur, əlyazmalarının qırağındakı tarixlər göstərir ki, o, hər gün, demək olar ki, hər gün işləyirmiş. Beləliklə, Salman asanlıqla təyin edə bilərdi ki, Orxan hansı əsərlərini haçan başlayıb, haçan qurtarıb və ümumiyyətlə, neçə günə, neçə aya yazıb. Elə günlər var ki, beş səhifə yazıb, elə günlər var ki, bir səhifə, yarım səhifə yazıb. Bircə sətir yazdığı günlər də az olmayıb.

Kağızlar arasından tapılan gündəlik Salmanın diqqətini daha çox cəlb etmişdi. O, Orxanın gündəliyinin səhifələrini dönə-dönə oxumuşdu. Orxan bunları özündən sonra bir yadigar qoyub getmək üçün yox, bəlkə gələcəkdə, aradan uzun illər ötüb keçəndən sonra, qocalıq əyyamında özünə hesabat vermək üçün yazmışdı. Elədiyini, düşündüyünü, gördüyünü... İnsan yaddaşı hər şeyi hifz eləyib saxlamağa qadir deyil. Bəli, Orxanın beyni, təfəkkürü onun əsərlərində idisə, ürəyi, hissiyyatı bax bu gündəlikdə idi. O əsərlər onun ictimai həyatı idisə, gündəliyin dolu səhifələri də onun şəxsi həyatı idi. Çox zaman isə bunları bir-birindən ayırmaq olmurdu.

Bəli, Orxan bu kağızlarda idi. Atasının hücrəsində divardan nüfuzlu baxışlarını Salmana zilləyən, alimlər evindəki otağında qayibanə səslə onu səksəndirən Orxan indi də bu kağızlarla sanki professorun iş otağına gəlmişdi. Bir vaxt bax, bu stulda otururdu, sakit, utana-utana danışardı. Onda Sədəf, ya Nadirə özü onun qabağına çay gətirib qoyardı. İndi stul boşdu. İndi çay da lazım deyildi. Ancaq Orxan burdadı. Özü də bu dəfə o, professorla — öz müəllimi ilə açıq və bəlkə bir az da sərt danışacaq. Sağlığında hörmət elədiyinə görə, nəzakət xatirinə Salmana demədiyi, demək istəmədiyi sözləri də indi çəkinmədən, uca səslə deyəcək, hətta o, indi utanmadan öz nakam eşqi haqqında da müəllimi ilə söhbət edəcəkdi.

Budur, professorun otağında Orxanla Salman arasında gedən mübahisə başqa mübahisələrə bənzəmir. Deyilən söz birdi, dəyişilməz! Cavablar haqlı da ola bilər, haqsız da. Düzəliş verən yox, etiraz eləyən yox. Cavab verən hirslənə də bilər, əlini stolun üstünə çırpıb qəzəblə qışqıra da bilər. Onun müqabilində nə səksənən yox, nə «bağışla, professor!» deyən yox. Bəli, bu mübahisə başqa mübahisələrə bənzəməz!

Orxanın gündəliyindən:

«Bağçada güllər qönçələndi, bağçada güllər açıldı. Bağçada güllər xəzəl olub töküldü.

Biz də sizin kimiyik, güllər! Lap sizin kimi!»

Professorun ürəyi:

«Köhnədir, min dəfə deyilmiş şeydi, Orxan! «Təkrar biliyin anasıdır» kəlamı sənətin düşmənidir».

Orxanın gündəliyindən:

«Universitetdə oxuduğum illər mənim ömrümün ən əziz və unudulmaz günləridir, — desəm, yanılmaram. Çünki məhz bu günlərdə mən həyatın əsl mənasını dərk elədim. Mənim əziz müəllimlərim mənə öz biliklərini verməkdə xəsislik eləməmişlər. Mən özüm də bu illəri kitabxanalar küncündə başa vurdum. Elm adlanan xəzinənin əsrarına az-çox bələd oldum. Mənim yoldaşlarımın çoxusu buradan diplom və bilikdən başqa özləri üçün gözəl, ağıllı ömür yoldaşı da apardılar. Universitet gözəllər şəhəri olan Bakımızda əsl gözəllər məskəni idi. Bəli, mən o gözəllər arasında özümə ömür-gün yoldaşı tapa bilmədim. Daha doğrusu, axtarmadım buna vaxtım olmadı. Eybi yoxdur, təəssüflənmirəm».

Professorun ürəyi:

«Mən dünyaya gəlib insan kimi yaşayanları daha çox sevirəm. İş vaxtı iş, istirahət vaxtı istirahət. Ad, şöhrət naminə özünü dünya nemətlərindən məhrum eləyənlər mənim nəzərimdə o qədər də ağıllı

adamlar deyillər. Həyat adamı olmaq daha yaxşıdır. İkinci dəfə dünyaya heç kəs gəlmir.

Sən elə tələbəlik illərindən şöhrətpərəstlik azarına tutulmuşdun, Orxan. Nə isə, başqa tələbə yoldaşlarından seçilmək istəyirdin, müəllimindən bircə «sağ ol» kəlməsini eşitmək üçün heç kəsin oxumadığı kitabları belə mütaliə eləyirdin... Şöhrətin, ad-sanın onları yaşadacağına inananlar əsl insan həyatından imtina edib axirətdə yaxşı gün görəcəyinə inanan adamlara bənzəyirlər. Sən də belə idin, Orxan!»

Orxanın gündəliyi:

«İndi dissertasiya müdafiə eləmək dəb düşüb. Kimi görürsən dissertantdır, kimi görürsən aspirantdır. Özünü gecə-gündüz öldürür ki, müdafiə eləsin. Nə üçün? Məgər əsər müdafiə eləməmiş alim olmaq olmazmı? Məncə, olar, özü də yaxşı alim olmaq olar. Necə ki, mənim hörmətli müəllimlərimdən biri uzun illər müdafiə eləmədi. İstəmədi. Amma elmi dərəcəsi olan bəzi yoldaşlardan çox yazıb-yaradırdı. Yəni demək istəyirəm, müdafiə eləmək məsələnin formal tərəfidir. Pulu çox verirlər. Vəssalam. Məsələn, mən kiçik elmi işçi olanda da, indi də eyni qaydada işləyirdim. Onda maaşım az idi, indi maaşım çoxdu. Amma eyni işi görürəm. Çoxlarını tanıyıram ki, müdafiə eləyəndən sonra qələmi yerə qoyub əsl istirahətə çıxır. Çox əziyyət çəkmişik, — deyir, — indi də bir az dincələk. Bütün bu prosesin arxasında məncə, maddi maraq, iqtisadi amil durur və bizim ictimaiyyətimiz, umumiyyətlə, elmi işə axın barədə, onun iqtisadi stimulu barədə düşünməlidir».

Professorun ürəyi:

«Sənin məsələni partiya iclasında müzakirə... Ax, bu indi qətiyyən mümkün deyil».

Orxanın gündəliyi:

«Mən oxumamışam, amma eşitmişəm: deyirlər, akademik Kraçkovskinin belə bir kəlamı var ki, qadın çirkin olmasa, ondan yaxşı elmi işçi çıxmaz. Məncə bu fikir yanlışdır. Gözəl qadın da gözəl və məşhur

alim ola bilər. Məsələn, bizim Nadirə. O, gözəldi, çox gözəldi. Alimliyinə kimin sözü ola bilər?! İstedadlı, coşqun, yorulmaq bilməyən. Mənə elə gəlir ki, o, əri Salman müəllimdən çox qüvvətli və bacarıqlı alimdir. Bunu tək mən yox, çoxları deyir». Professorun dili:

— Kəs, elə buradaca saxla! Yenə başından yekə qələtlər eləyirsən. «Bunu tək mən yox, çoxları deyir».

Salman siqareti götürüb yandırdı. İki-üç, dəqiqə Orxanın gündəliyinə baxmayıb başını əlləri arasına alaraq fikrə getdi. Yersiz hirsləndiyinə görə az sonra özünü danladı. Yenə ürəyində danışmağa başladı:

Professorun ürəyi:

«Heyf, ölüb gedibsən. Yoxsa səninlə ayrı cür danışardım».

Orxanın gündəliyi:

«Sənə bircə sualım var: niyə belə paxılsan, Gülalı?»

Professorun ürəyi:

«Kişiyə qara yaxıb eləmə. Paxıl-zad deyil. Kaş elə sən də onun kimi olaydın. O, çörək itirən deyil».

Orxanın gündəliyi:

«Bu gün şöbəmizə universitet məzunlarından cavan bir qız qəbul elədilər. O qədər gözəldi ki, təsvir eləməyə dil acizdir. Adı Gülmirədir. Başa düşmədim nə sirdi: onunla üz-üzə, göz-gözə gələndə elə bil sinəmdə nəsə qırılıb düşdü — mən sarsıldım».

Professorun ürəyi:

«Hə, bunlardan danış. Öz məhəbbət macəralarından söhbət aç. Demək, Gülmirə bizim şöbəyə gələn kimi sən sarsıldın, hə?»

Orxanın gündəliyi:

«Mən ona vurulmuşam, aman allah! Heç rahat ola bilmirəm. Bu nə iş idi mən düşdüm! Məhəbbət beləmi naqafil gəlirmiş?»

Professorun ürəyi:

«Adam əvvəl baxar, öyrənər, bilər, sonra vurular. Yoxsa korkoranə məhəbbət olar?!»

Orxanın gündəliyi:

«Səi demə, onun əri varmış! Sən demə, o təzə gəlinmiş! Bu gündən ağır günüm olmayıb, olmaz da. Qanadı sınmış quş kimiyəm. Hisslərim çalpaşıq, başım dumanlıdır. Sanki səadət paylananda mən qəflət yuxusunda imişəm!»

Professorun ürəyi:

«Təkcə səadət yox, çox şey paylananda sən qəflət yuxusunda olmusan».

Orxanın gündəliyi:

«Mənim atəşlərə yanan ürəyimdən xəbərsiz olan sən nə şirin-şirin gülürsən, Gülü? Elə ürəklə, elə sevinclə gülürsən ki, bu yaralı ruhum sənin o şən, o qayğısız gülüşlərindən cana gəlir, Gülü! Dünyanın bəlkə də ən bəxtəvər, ən xoşbəxt insanı olan (sən, doğrudan da, xoşbəxtsən, Gülü!) sənin qara, atəşin gözlərin şəfəq saçıb parlayır, qönçə təki zərif dodaqların gül kimi açılır. Sənin gülüşünə mən bədii gülüş deyirəm, Gülü! O mənə ilahi ilhamla yazılmış gözəl şer, bülbüllərin cəhcəhi, çiçəklərin ətri, bulaqların zümzüməsi kimi zövq verir.

Gül, sən allah, gül, Gülü!

«Getmişdi ömrümün gözəl anları,
Gülüşün qaytardı mənə onları».

Professorun ürəyi:

«Aşiq olanda görürsən adam şer də yazır?! Amma kişi kimi, mən heç yazmadım».

Orxanın gündəliyi:

«İyirmi gün heç nə yazmadım, yaza bilmədim. Çünki ruhi müvazinətimi elə bil, itirmişəm. O ötən günlərdən yadigar qala biləcək heç nəyim yoxdur. Vay o adamın halına ki, yaşaya, ömrünün günlərini mənim kimi hədər verə. Vay o adamın halına, vay, vay!!!»

Orxanın gündəliyi:

«Axşam Azərbaycan Dövlət Dram Teatrında «Hind gözəli» tamaşasına baxdım. Əsərin məziyyətləri üzərində dayanmağı lazım bilmirəm, çünki bu əsər özü haqqında hər cür təhlildən daha yaxşı danışır. Təkcə əsərin quruluşu haqqında bunu deyəcəyəm ki, quruluş əladır. Yağış səhnəsi o qədər canlı və təbii idi ki, mən tamaşada oturduğumu unudub qeyri-iradi olaraq fikirləşdim: bu yağışda evə necə gedəcəyəm? Sənət məhz bu nöqtədə əsl sənətdir».

Professorun ürəyi:

«Mən də baxmışam, yaxşı quruluş verib rejissor.

Sən düz deyirsən, Orxan. Ümumiyyətlə, sən həkim xəstəni duyan kimi, əsəri dərindən başa düşə bilirdin. Bu qabiliyyət səndə vardı. Mən, özün bilirsən ki, həqiqəti deyən adamam».

Orxanın gündəliyi:

«Bu gün ikinci kitabım satışa çıxıb. Beş illik yuxusuz gecələrimin, gərgin əməyimin hesabına başa gələn kitab... Qoy bu, ömrü boyu əzab çəkmiş, həqiqəti deyən dodaqları tikilmiş, damarlarına hava yeridilərək vəhşicəsinə öldürülmüş qəhrəman və cəfakeş şairin xatirəsinə məndən kiçik bir yadigar olsun».

Professorun ürəyi:

«Olsun də, Orxan. Nə deyirik ki!»

Orxanın gündəliyi:

«Professor, deyəsən, məndən inciyib. Kişinin tənqiddən xoşu gəlmir də. Mən isə o nöqtəni deməliydim. Ayrı cür ola bilməzdi. O boyda adamın bu boyda xırda ürəkli olduğunu ağlıma belə gətirə bilməzdim».

Professorun ürəyi:

«Yenə yaralarıma toxunur bu gədə!»

Orxanın gündəliyi:

«Bu gün qədim gürcü torpağına qədəm basdım. Mehmanxanada yerimi rahatlayandan sonra şəhərə çıxdım. Şəhər gözəl idi.

Bizim Bakını xatırladırdı. Təptəzə geyinmiş, gözəl, məğrur gürcülər öz ana dillərində danışa-danışa yanımdan keçib gedəndə gürcü dilini bilmədiyimə təəssüf elədim. Darıxıb Kür üstünə gəldim. Kürü görən kimi ürəyim toxtadı. Elə bildim ki, öz ana diyarımdan çıxmamışam. Kür yanımdadı. Kür məmimlə gəlib. Mərhum şairimizin məşhur şeri də yadıma düşdü:

«Kiçik bir damladır yer üzündə Kür,
Baxsan bu dünyanın xəritəsinə.
Bəs niyə qəlbimdə ümman döyünür
Mən qulaq asdıqca Kürün səsinə?»

Professorun ürəyi:

«Bəli, bu da sənin Tiflis səfərin...»

Salman dəsmalını çıxarıb alnında muncuqlanan tər damcılarını sildi.

Orxanın gündəliyi:

«Mən bizim mətbuatda haçandı belə cəsarətlə yazılmış məqalə oxumamışdım. Nadirənin həqiqi alim olmağına bir daha inandım. O, Salmanı — öz ərini elə möhkəm və ciddi tənqid eləyib ki başqa bir adam bəlkə də, buna cəsarət eləməzdi. Aydın, dərin, elmi məntiq və cəsarət bizim bugünkü ədəbi-bədii həyatımızda ən çox ehtiyac hiss olunan məsələlərdəndir. Professorun indi, görəsən, halı necədir?»

Professorun ürəyi:

«Necə olacaqdı, səncə? Çox pis idi halım! Az qala ölmüşdüm. Nadirənin üzü ağ olsun, məni dost-düşmən gülüncü elədi».

Orxanın gündəliyi:

«Taleyim gör necə dolandı yenə,
Dünyanı məhv etdin ahla, ürəyim!
Eşqin üfüqləri büründü çənə,
Qarışdı düzənlər dağla, ürəyim!

Bəxtim necə yatdı, oyanar çətin,
Yoxuşlu yolları var məhəbbətin,

İndi ki, cənginə düşdün həsrətin,
Oğulsan, özünü saxla, ürəyim!

Hər yerdə, hər zaman söyləsin dilin,
Özgənin yarıdır o gözəl gəlin.
Ondan həmişəlik üzüldü əlin.
Ağla, həzin-həzin ağla, ürəyim!»

Professorun ürəyi:

«Gülmirə haqqında yazıbsan bunu, hə? Pis şer yazmırmışsan?!»

Orxanın gündəliyi:

«Bu gün Mirzə Cəlil haqqında iki ildən bəri yazdığım yazının son nöqtəsini qoydum. İndiyə qədərki əsərlərin (əgər belə demək mümkündürsə) hər birini qurtaranda belə sevinməmişdim. Otaqda əl qaldırıb oynadım, toyda-mağarda oynayan kimi. Elə bil, məni narahat eləyən bütün fikirlərimi deyib qurtarmışam, elə bil, ürəyim tamam boşalıb. Mənə elə gəlir ki, bir də heç vaxt mən belə yazı yaza bilməyəcəyəm və bu məşum hiss məni qorxudur».

Professorun ürəyi:

«Axırıncısı idi...»

Orxanın gündəliyi:

«Professor Salman Qurbanzadə — illərlə öz böyüklüyü və əzəmətilə mənim gözümə kül üfürmüş bu adam xırda hisslərlə yaşayan mədəni bir yaramaz imiş!»

Professorun dili:

«Yaramaz özünsən, axmaq! Böyük-kiçik də qanmırsan. Gözündən gəlsin sənə elədiyim yaxşılıqlar. Eh, sağ olaydın, — sənin yanından bir Orxan da çıxarardım. Neynəyim?»

Hirslə gündəliyi vərəqlədi, gözünə sataşan axırıncı səhifədə dayandı:

Orxanın gündəliyi:

«Nə yaxşı ki, sən varmışsan, Gülü! Bir zamanlar sənə rast gəldiyim günə lənətlər yağdırırdım, çünki sən mənim öz məcrası ilə aramla

axan çaya bənzəyən həyatımın ahəngini pozmuş, rahatlığımı əlimdən, şirin yuxumu gözümdən almışdın. Ancaq indi deyirəm ki, sən nə yaxşı ki, varmışsan! Nə yaxşı ki, varmışsan! Sən mənim üçün kitab-xanalardan, kitablardan ibarət olan dünyanı - gözəlləşdirdin, mənalı elədin. Sən məni yeni bir aləmin astanası ağzına gətirib çıxartdın — sən mənə dünyanın ən ləziz neməti olan məhəbbətin nə demək olduğunu anlatdın! Sən anlatdın, mən də tez anladım. İndi bu xoş duyğular, şirin əzablar aləmində yaşayırkən sənə minnətdarlığımı dönə-dönə bildirirəm. Sən məni xoşbəxt edə bilməzdin, çünki sən mənim kimi, bəlkə məndən də yaxşı bir oğlanın istəklisi idin. Mən bunu başa düşürdüm və sənin tərəddüdlərin də mənə hər dəqiqə bunu xatırladırdı.

Çünki sənin yarı canın göylərdə idi, demək olar ki, sən cismən yerdə yaşayırdın, mənən, fikrən sən öz təyyarəçinin ydnında idin. Bəzən mənə elə gəlirdi ki, sən məni çox vaxt onun paltarında təsəvvür edirsən. Mən təkcə bir dəfə sənin o ağ, o hərarətli əlindən öpməyə cəsarət etdim, bir dəfə də sən kino-teatrda yanan təyyarəni görəndə mənə sığındın. Vəssalam! Bunlar da olmamalı idi. Ancaq oldu, sənin, mənim iradəmin əksinə, ürəyimizin hökmüylə oldu. Mən bunu da bilirdim ki, sən mənə biganə deyilsən, sənin ürəyində mənə qarşı məhəbbətmi var idi, ya sənin mənə yazığın gəlirdi — bilmirdim. Mən indi, bu gecə oturub bütün olub-keçənləri düşünərkən deyirəm ki, o iki ani yaxınlıq da mənə bəsdi. Bunun üçün də çox sağ ol. Bunun üçün, mən eyni zamanda, bircə dəfə yaşıl teatrda üzünü gördüyüm o təyyarəçi oğlandan da qaibanə üzr istəyirəm.

Mənə təsəlli verən bircə şeydi: sən mənimlə yanaşısan, mən səni hər gün görmək səadətinə malikəm, mən sənə həftədə bir dəfə gül də verə bilirəm. Nəfəsini duyuram səsini gülüşlərini eşidirəm, sənin yaşadığın bir dünyada yaşayıram, Bu mənə bəsdi. Sənin o xoşbəxt təyyarəçi oğlana bəslədiyin, qoruyub hifz elədiyin sədaqət müqabilində mən baş əyib səcdə eləyirəm.

Həmişə öz-özümə bu yaxınlarda yazdığım bir şeri pıçıldayıram, o şer məni hissiyata qapılmaqdan, pis və alçaq fikirlərə düşməkdən qoruyur, mən ürəyimdə deyirəm ki:

Hər yerdə, hər zaman söyləsin dilin:
Özgənin yarıdır o gözəl gəlin,
Ondan həmişəlik üzüldü əlin,
Ağla həzin-həzin, ağla, ürəyim.

Bəli, ağlasın qoy həzin-həzin ürəyim, Gülü! Sənsiz və səninlə olan ürəyim ağlasın!»

Axırında nöqtə qoyulmuşdu. İri bir nöqtə. Orxanın gündəliyinin son səhifəsi belə bitdi. Burda Orxan dayanmışdı, daha doğrusu, ölmüşdü. O, indiyə qədər dediklərini təzədən təkrar eləyə bilərdi. Professor üçün də, başqaları üçün də. Eləyəcəkdi də. Ancaq bir kəlmə də artırmadan. Eynən belə. Eynən bu cür.

Professor dəftəri qatladı və saata baxdı. Gecə yarıdan keçmişdi. Ceyhun çoxdan yatmışdı. Amma Nadirə, deyəsən, işləyirdi. Salman üç gün idi ki, bu kağız-kuğazlarla, daha doğrusu, Orxanla danışırdı. Nadirə ilə kəlmə də kəsməmişdi. Nadirə də onun əlindən acıqlı, idi. Salman başa düşürdü ki, onun ad günündə çox pis hərəkət elədi, onu təbrik etmədən çıxıb getdi. İndi isə peşman olmuşdu: arvadı ilə danışmağa bəhanə axtarırdı. Bu bəhanə isə tapıldı; Gülmirə məsələsi. Orxanın gündəliyindən hər şeyin doğru-dürüstlüyünü öyrənmək olardı və bu, Nadirəni gərək ki, az maraqlandırmayacaqdı. İndiyə qədər ər-arvad Gülmirəyə birtəhər baxırdı.

Gülmirə Orxanla... Bəli, bu bir hökm kimi, həqiqət kimi onların beyninə batmışdı. İndi isə...

İndi isə Gülmirə şəkk-şübhə altından çıxırdı. Çıxırdı, bəli! İstər-istəməz Salman sevinən kimi oldu və üzündə qiymətli bir əlyazması tapmış alim təbəssümü Nadirənin otağına sarı addımladı.

## SƏKKİZİNCİ FƏSİL

Aradakı incikliyi, giley-güzarı unudan Salman otağa girən kimi təzə xəbəri Nadirəyə birnəfəsə söylədi. Nadirə əlindəki qələmi yerə qoyub qulaqlarına inanmırmış təki Salmanın üzünə baxdı.

— Heç nə başa düşmürəm, — dedi. Salman Orxanın gündəliyini Nadirəyə sarı uzatdı, vərəqləyib son səhifəsini açdı:

— Bunu oxu, hər şeyi başa düşərsən. Orxanın gündəliyidir. Kağız-kuğazın içindən tapmışam.

Nadirə dəftəri aldı. Mizin üstünə qoyub Salmanın göstərdiyi səhifəni oxumağa başladı. .

Nadirə hökm verməyə tələsən adam deyildi: Orxanın gündəliyi ilə yaxından, ətraflı tanış olmağı üstün tutdu və dəftəri başdan-ayağa, ötəri də olsa, nəzərdən keçirdi.

Bu, çox ciddi məsələ idi. Hələ bu, gündəliyin varlığından bixəbər olan Gülmirə üçün, Əqdəmin özü üçün nə qədər maraqlı və necə də əhəmiyyətli məsələ idi.

Nadirə düşündükcə Orxanın solğun və yorğun siması gözü önünə gəlir, gündəlikdəki sözlər sanki səs kəsb edir, Orxan hiylədən-məkrdən uzaq bir səmimiyyətlə, özünə xas bir təmkinlə olub-keçənləri onlara danışır və beləliklə, Gülmirənin üstünə düşən qara ləkəni yuyub safa çıxarırdı. Orxan sanki o dünyadan, məzardan dillənib dağılmaq təhlükəsi qarşısında olan bu günahsız ailəni müdafiə edir, qara-qorxunc şübhələri bu ailənin başı üzərindən uzaqlaşdırmağa çalışırdı.

Nadirə Orxanın gündəliyini nəzərdən keçirdikcə iki cavanın arasında yaranmağa başlayan səmimi münasibəti dərindən hiss edir, bu səmimiyyətin getdikcə atəşin bir məhəbbətə çevrildiyini görürdü. Onlar təkcə hisslərin qanadında uçmayıblar, onları ağıl-idrak da mühakimə və idarə edib özünün qadir, aqil hökmü ilə xəyanət yolundan uzaqlaşdırıb. Onlar uçurumun qırağına gəliblər, ancaq o uçuruma düşməyiblər. Ağıl, idrak hissə qalib gəlib.

Orxana — indi daha heç bir şey söyləmək iqtidarana malik olmayan Orxana kömək eləmək, onun sözünə qüvvət vermək zərurəti çıxırdı meydana. Gülmirəni təmizə çıxarmaq, şübhəni onun adı üzərindən götürmək zərurəti!

— Yaxşı oldu, Salman, bu gündəlik tapıldı,— deyə Nadirə sevincini gizlətmədən söhbətə başladı.— Yoxsa o qız lap gözümdən düşmüşdü. Yazığım da gəlirdi ancaq daha çox qəzəblənirdim, Salman. Əqdəm kimi bir oğlana xəyanət etmək, onun qol-qanadını sındırmaq, ən azı, vicdansızlıq olardı. Mən inanmışdım. İnanmışdım ki, o, Əqdəmə xəyanət eləyib.

— Mən də,— deyə Salman onun sözünə qüvvət verdi.

—Əqdəmi o vəziyyətdə görəndə mən lap varımdan yox oldum. Dəli vəziyyətində idi, Salman. İndi məsələ aydınlaşır. Sevirmiş onu, sadəcə sevirmiş. Aralarında başqa, çirkin heç bir şey olmayıb, demək.

Ər-arvad çox götür-qoy elədi. Yollar-çarələr axtardılar. Gülmirəyə bu dəftəri göstərsinlərmi? Axı indiyəcən ona Salman da, Nadirə də məsələni bildiklərini qandırmayıblar. Qoy utanıb sıxılmasın, gözükölgəli olmasın, — deyiblər. Öz dərdi özünə bəsdi, — deyiblər. İndi necə, desinlərmi? Salman məsləhət bilmədi. «Qoy onun xəbəri olmasın». Nadirə ayrı təklif irəli sürdü: «Bu dəftəri Əqdəmin özünə göndərək, oxusun, hər şeyə özü inansın. Bilsin ki, Orxanla onun arvadı arasında ciddi heç nə olmayıb».

Salman Nadirənin bu fikrini bəyəndi. Ancaq Əqdəmin ünvanını haradan tapmalı?

Gülmirə şəhərdə yox idi. Mərdəkanda istirahət eləyirdi. Əqdəmin ünvanını ondan başqa kim bilirdi?

— Səhər tezdən mən Mərdəkana — Gülmirənin yanına gedərəm. Ünvanını öyrənərəm, — deyə Nadirə qətiyyətlə bildirdi və ayağa durdu: — Yatmaq vaxtındı. Gecdi...

## DOQQUZUNCU FƏSİL

Neçə ay bundan əvvəl Müseyib kişinin Gəncədən üzülüşüb Bakıya gəlməsi Sədəfin sakit, səssiz-küysüz hücrəsində yeni, mənalı bir canlanmaya səbəb olmuşdu. Sükut bu evdə yoxa çıxmışdı. Bunu hamıdan çox Rəhim hiss eləyirdi. O, babasının gəlişiylə sanki canlanmış, gümrahlaşmışdı. Anası ilə danışmağa söz tapmayan, fikrini-zikrini ancaq kitablara verən Rəhimin indi dili açılmışdı. Babası ilə hər barədə söhbətə girişir, daha doğrusu, çoxlu suallar verir, bu və ya digər məsələ haqqında onun fikrini soruşurdu. İlk günlər o fikirləşirdi ki, Müseyib kişi adi bir hambaldı, onunla nə barədə danışmaq olar?! Yanıldığını, mülahizəsinin yanlış olduğunu tezliklə başa düşdü. Müseyib kişi yaşının ötməsinə baxmayaraq, gümrah qalmışdı, sözündə və hərəkətlərində yük altında əyilib düzəlmiş adamdan çox, müdrik adama oxşayırdı. Söhbətləri elə şirin, elə məntiqli olurdu ki, Rəhim bəzən saatlarla qulaq assa da, yoruldum demirdi. Xasiyyətindəki tündlük Rəhimin o qədər xoşuna gəlmirdi. Məsələn, xalasına dediyi sözlər, Rəhimin fikrincə, lazım olduğundan sərt idi. Elə şeylər var ki, onları açıb-ağartmaq, üzə vurmaq lazım deyil. Bir soyuq münasibət sənin bu fikrini dediyin acı və sərt sözlərdən daha yaxşı çatdırmırmı sahibinə? Rəhim belə düşünürdü. Amma Müseyib Rəhim deyildi, o, dünya görmüşdü; o, isti-soyuq dadmışdı. Sərt və ağır günlər yaşamışdı. Bəlkə xasiyyətindəki sərtlik də elə bundandı? Ömrü boyu ürəyindəki dilində olmuşdu. Heç nədən, heç kəsdən qorxmamışdı. Bu dəfə Rəhimlə qabaq-qənşər oturub söhbət eləyəndə Müseyib kişi danışdı:

— Mən sözü adamın düz gözünün içinə deməyi xoşlayıram. Kimdən, kimsədən qorxum yoxdur, balası. Stol, vəzifə, bir də arvad-uşaq adamı qorxaq eləyir. Bu üç şeyi düşünən adam qorxaqlıqdan əlavə, bəzən yaltaqlığı da boynuna götürür, sözün düzün demir, həqiqəti ört-basdır eləyir, arada isə sənin-mənim halalca haqqım tapdanır. Qorxur ki, stolu, vəzifəsi əlindən çıxar, arvad-uşağını ürəyi istəyən kimi dolandıra bilməz. Mənim belə adamlarnan salam-əleykümüm

olmayıb. Bir də, — o susub əlavə eləmişdi, — mən nədən qorxacam ey! Palanımı alacaqdılar əlimdən? Amma sənə deyim ki, elə adamlar olub ki, mənim palanımı da əlimdən almaq istəyib. Elə bilirsən, özü üçün? Yox sözün düzünü dediyimə görə mənim palanımı alıb çaya, qatarın altına atmaq, mənim bir tikə çörəyimə bais olmaq istəyib. Ancaq mən yenə qorxmamışam. Mənim qorxduğum yeganə şey varsa, o da vicdan əzabıdı, bala. Mən belə qocalmazdım, mən ağır gün, ağır yük altında qocalmazdım, əgər vicdan əzabı olmasaydı.

Müseyib kişinin son sözləri Rəhimi düşündürmüşdü.

— Nə olub ki, baba?

Müseyib kişi Rəhimin sualı qarşısında sanki yuxudan ayılmış, hissə qapılıb uşağın yanında artıq-əskik danışdığını anlamışdı.

— Yox, heç, bala.

— Səni vicdan əzabı niyə qocaldıb, baba?— deyə Rəhim israr edəndə baba söz vermişdi ki, bir gün, kefim kök olanda danışaram. Rəhim burada nəsə sirli-sehrli, maraqlı bir hekayət olduğunu başa düşmüşdü. Müseyib kişi isə susmuş, günlər, həftələr, aylar keçsə də, Rəhim neçə dəfə işarə ilə həmin əhvalatı danışmağı ondan xahiş eləsə də, Müseyib kişi müxtəlif bəhanələrlə söhbəti təxirə salmışdı.

Bəli, Müseyib kişi Rəhim üçün kitab şkafından tapılmış, içi maraqlı, şirin hekayələrlə dolu bir kitab olmuşdu. Məktəb-dərs kitabı yox, qanunları, düsturları öyrənən kitab yox, həyat kitabı olmuşdu. Müseyib kişi hardasa, nə zamansa oxuduğu şeyləri nəvəsinə danışmırdı. O öz gördüklərini, özünün həyatdan götürdüklərini, çıxardığı nəticələri Rəhimə danışırdı.

O, üç gün bundan qabaq təzə televizor alıb gətirmişdi. Moskvanın da səsi bu balaca otaqdan gəlməyə başlamışdı. «Televizor yaxşı şeymiş»,— deyə Sədəf gündə iki-üç dəfə onun sığallı qutusunun tozunu silir, verilişlər başlayan kimi televizoru açıb qabağında oturur, axıracan baxırdı. Ömründə ata evindəki, ər evindəki qısa xoşbəxtlikdən başqa bir şey görməyən Sədəf indi dünyaya, insanların həyatına

və dünyanın gözəlliklərinə televizorun ekranında baxırdı. Nadirəgilin televizoru çoxdan vardı və Sədəf onlara gedib-gələndə bir neçə dəfə fürsət tapıb tamaşa eləyə bilmişdi. Nədənsə onda Sədəf ürəyində belə hisslər duymamışdı. İndi onun özünün televizoru vardı — atasının, özünün, oğlunun zəhmət haqqına alınmış televizoru. Televizorla onun arasında nəsə gözəgörünməz bir əlaqə yaranmışdı. Televizorun da ögeyi, doğması olarmış...

Cahangir vəfat eləyəndən, Sədəf Rəhimlə tək qalandan sonra o səsli-küylü, qaynar aləmdən bir növ ayrı düşən bu balaca ev, ailə indi təkcə doğma şəhərlə deyil, sanki bütün dünya ilə qaynayıb-qarışmışdı, daha doğrusu, elə bil, bütün dünya — danışıb-gülən dünya öz sevinci və kədərilə onların evinə gəlmişdi.

Kinolar göstərilirdi — çoxu Vətən müharibəsindəndi. Sədəf onun ağrısını, acı tüstüsünü duymuşdu — uzaqdan-uzağa, indi isə ekranda görürdü. Elə bil, bu filmləri o qanlı-qadalı illəri görməyənlərə, o qanlı-qadalı illərdən sonra dünyaya gələnlərə göstərirdilər. Bəli, qoy görsünlər, bu rahatlığın, aram həyatın necə çətinliklə, hansı qanlar bahasına qazanıldığını anlasınlar.

Həftədə bir dəfə verilən muğamat konsertləri evi toya-mağara döndərirdi. Sədəf, Rəhim, Müseyib kişi hər şeyi unudaraq həvəslə bu konsertlərə qulaq asırdılar, muğamlarda sözə-bəyana sığışmayan bir hikmət vardı. Onu düşündürür, ürəyinə yüngülcə bir kədər səpələyirdi. Hələ Habil kamança çalanda. Gah fəryad qoparıb nalə çəkən, gah gülən, gah da həzin-həzin inildəyən kaman!..

Kaman susub, Habil öz tamaşaçılarına baş endirib ekrandan gedəndən sonra da elə bil, onun ürəyində, ruhunda kaman çalınırdı. Ona elə gəlirdi ki, əvvəllər nə kaman olub, nə kamançalan. Əgər olubsa da, heç kəs onu Habil kimi danışdıra bilməyib. Elə bil, kamanı Habil özü kəşf eləyib, özü yaradıb. Danışdırır, ağladır, güldürür, sehrkar kimi.

Dünən Salman çıxış eləyirdi. Proqramdan onların xəbəri yoxdu. Ekranın qənşərində oturub diqqətlə verilişlərə qulaq asan Rəhim onu görcək səslənmişdi: — Salman əmi danışır.

Sədəf də, Müseyib də dönüb baxdılar. Salman qara kostyum geymişdi, kraxmallı köynəyi qalstukla elə gözəl tuturdu ki...

Professor aramla, sanki düşünə-düşünə, fikirləşə-fikirləşə söhbət eləyirdi. Sözləri, cümlələri bərbəzəkli idi. O kimisə tərifləyir, kimisə tənqid eləyirdi. Onu televizorun ekranında görəndə Sədəf sadəlövhcəsinə sevindi: «Bizim də televizorda danışa bilən adamımız var». Professoru yaxşı tanıyan, az oturub-dursa da adam sərrafı olan Müseyibə elə gəlirdi ki, ekran dəyişilmiş Salmanı bir az da dəyişib. Bu, onların tanıdığı Salmana ancaq zahirən oxşayır. Görkəmcə. Səsi də, danışıq tərzi də dəyişmişdi. Elə bil, dedikləri də adi vaxtlar danışdıqlarından fərqlənirdi. Sanki onların tanıdıqları Salman evdə qalmışdı, ayrı bir adam onun qiyafəsində, şəklində çıxış eləyirdi. Bəs belə məlum olur ki, iki Salman var?

Bir sözlə, indi sanki Sədəfgilin evində iki dünya yaşayırdı — biri öz dünyaları idi, o biri isə televizorun mavi ekranından süzülüb gələn rəngli dünya idi. Ekran bu iki dünya arasında qəribə bir pəncərə olmuşdu. Mən səni görürəm, sənin haqqında düşünürəm, sən isə yox...

Müseyibin fikri təzədən aranı-dağı dolanıb Salmanın televizordakı çıxışının üstünə qayıdır, onun dolu, qarabuğdayı, yaraşıqlı sifəti gözünün önündə canlanır, səsi qulaqlarında səslənir və o öz-özündən xəbər alırdı: «İki Salman var». Təkcə özünün bu daxili sualına cavab vermək, özünü inandırmaq üçün yox, gözlərində bir sorğu gəzən Rəhimə də anlatmaq üçün Müseyib kişi bərkdən danışırdı.

— Salmanı görürsənmi? Mənim kürəkənimdi, sənin də xalanın əridi. Adı-sanı var. Amma, məncə, o, ikiləşib. O, evdə, ailədə bir cür, deyək, idarədə, şəhərdə, adam arasında, televizorda başqa cürdü. Əgər onu bax, bu danışdıqları barədə evdə dindirsən, bunların onda birini

dilinə gətirməz, ya da tamam ayrı şeylər deyər. Niyə belədi? Bax, babanın ağlı burda cavab verə bilmir.

## ONUNCU FƏSİL

...Qapı astaca açıldı, astanada zahir olan Əqdəm ehmal, səssiz addımlarla içəri girdi. Əlindəki çamadanı yerə qoyub iri açılmış gözlərini paltar yuyan Gülmirəyə zilləyib neçə saniyə sükut içində dayandı.

Gülmirə çiynindən üzüaşağı sallanan saçını başının hərəkəti ilə dalına atıb qəddini düzəltdi. Sabunlu əllərini bir-birinə sürtə-sürtə, gözlərinə inanmırmış kimi, Əqdəmi nəzərdən keçirdi.

Əqdəm xəfifcə Gülümsünərək qəfildən, iri əskər addımları ilə irəli yeriyib Gülmirəni bağrına basdı, üzündən, gözlərindən öpməyə başladı. Heç bir şey dərk eləməyən Gülmirə Əqdəmin ancaq bu sözlərini eşidirdi:

— Məni bağışla, Gülü! Məni bağışla!

Qızğın, hərarətli öpüşləri ilə ara vermədən tövşüyə-tövşüyə dediyi bu sözlərdən başqa elə bil, ayrı söz bilmirdi:

— Məni bağışla, Gülü!

— Axırı gəldin, Əqdəm?

— Gəldim, Gülü, sənsiz mənim nə həyatım?!.

— Bilirdim, gec-tez gələcəksən. Səni həmişə gözləyirdim, gecə də, gündüz də. Elə bilirsən, sən gedəndən sonra, daha göylərə baxmaq adətimdən əl çəkmişdim? Yox, Əqdəm! Təyyarə səsi eşidəndə ürəyim uçunurdu. Yuxumda da təyyarə səsi eşidirdim, fikrimdə də təyyarə uçurdu. Mən həyatımı bu səssiz təsəvvür eləyə bilmirəm, Əqdəm. Çox arzulayırdım ki, quş olum, uçum, sənin təyyarənə çatım deyim, Əqdəm, qayıt evimizə, qayıt deyirəm sənə, Əqdəm! Mən günahsızam sənin qarşında, qayıt, Əqdəm!

Gülmirə bu sözləri deyə-deyə gözlərindən yaş axıdırdı. Sevincindən ağlayırdı. Çünki Əqdəm qayıdıb gəlmişdi. Gülmirə daha tək qalmayacaqdı. Təklik, unudulmaq — böyük dərddi. Bunu bu ötən aylar ərzində öz dərdləri ilə yalqız qalanda Gülmirə yaxşıca hiss eləmişdi.

— Ağlama, Gülü! — deyə Əqdəm onun yaşlı gözlərindən öpə-öpə yalvarırdı.— Ağlama!..

Gülmirə bərkdən çırpılan pəncərənin səsinə səksəkəli halda çarpayısından qalxdı. Əvvəl harada olduğunu ayırd edə bilmirmiş təki yan-yörəsinə baxındı. Bəs Əqdəm hanı? O özü də paltar yumurdumu? Yox, yuxu görürmüş, Əqdəm yuxusuna giribmiş. Bayırda bahar küləyi əsirdi. Otağa sərin yel dolur, pəncərə pərdələrini oynadırdı. Dibçəkdəki güllərin yaşıl yarpaqları, əlvan ləçəkləri də asta-asta yırğalanırdı...

... Bu gün istirahət günü idi. Gülmirə səhər çörəyini yeyəndən sonra masanın arxasına keçmiş, yazı-pozusunu qabağına töküb oxumuş, iki-üç səhifə də, çoxdan düşündüyü, fikrində ölçüb-biçdiyi məqaləsindən yazmışdı. Onun işdən çıxmaq arzusu baş tutmamışdı. Aslanzadənin sözünün qabağına söz çıxara bilməmiş, istər-istəməz razılaşmalı olmuşdu. Özündə, daxilində əvvəllər duymadığı bir hiss baş qaldırmışdı: bu yolu axıradək getmək! Bu yolda ya ölmək, ya son nəfəsədək irəliləmək! Akademik Aslanzadə kimi bir adam ona inanır, demək, bu inamı doğrultmaq gərəkdir, nəyin bahasına olursa-olsun! Yox, nəyin bahasına olursa-olsun yox, öz gücünə, öz qüdrətinə arxalanmaq bahasına! Oturmaq, gecə-gündüz çalışmaq, bu işlə fikrən-zikrən yaşamaq hesabına! Zəif olar — yenidən yazarsan! Pis çıxar — ikinci dəfə, üçüncü dəfə yazarsan! Uzun müddətdən bəri onun varlığında yuva salıb qol-budaq atmış süstlük, qorxu, zəiflik sanki Orxanın, Salmanın, onu qəzetdə ağızdolusu tərifləyən müəllifin, Aslanzadənin qüvvət və inam dolu səsi müqabilində əriyib yox olmuş, yerində dönüb-dəyişməz bir inadkarlıq əmələ gəlmişdi. İndi onun qarşısında bircə məqsəd vardı: məcmuədə çıxmış məqalədən zəif

yazmamaq, heç olmasa o səviyyəyə qalxmaq. Artıq istəmir, heç nə istəmir! Ancaq o, həmin məqalədən aşağı səviyyəli əsər yazmamalıdır, qətiyyən yazmamalıdır!

Gülmirəni düşündürən yalnız bu idi. Lakin Əqdəm onun fikrindən çıxmırdı. Təyyarə səsi Gülmirəni gecə-gündüz rahat buraxmırdı. O səsi necə unutmaq olardı? Əqdəm yuxusuna girmişdi. Aşkarda itirdiyi Əqdəmi yuxusunda tapıb təzədən itirmişdi. Kim bilir, bu neçənci dəfə idi?

Gəlmirdi. Görünür, gəlməyəcəkdi.

Gülmirə ertədən bişirib hazırladığı küftə-bozbaşdan bir qaba çəkdi. İştahla yeyə bilmirdi. Gözləri tez-tez yol çəkirdi. Gözləyə-gözləyə yeyirdi. Əqdəm elə bil, bir dəqiqəliyə harasa çıxmışdı, indicə qayıdıb gələcəkdi. Amma gəlmirdi.

Görünür, gəlməyəcəkdi.

Gün əyilmişdi. Küçədəki oturacağın böyründəki akasiya ağacının kölgəsi səkinin üstündən sürüşüb küçənin üzərinə düşmüşdü.

O, xalatda küçəyə çıxdı, oturacaqda oturdu. Darıxırdı, ürəyi sıxılırdı. «Yuxunun təsiridir»,— deyə özünə təskinlik verirdi. Həmişə Əqdəmi yuxuda görəndə belə fikri dağınıq, pəjmürdə olur, uzun müddət diqqətini bir yerə cəmləyə bilmirdi.

Üçkünc bağın böyründən ağ rəngli maşın burulub bu tərəfə irəlilədi; ağır-ağır irəliləyirdi. Sürücü də, onun yanında oturan kişi də kabinənin pəncərələrindən boylanır, elə bil, ünvan axtarırdılar.

«Bizim məhəlləmizdə ölən olmasın gərək», — deyə ürəyində fikirləşən Gülmirə nəzərlərini ağ maşından çəkmir, nigaran-nigaran baxırdı.

Maşın onun tuşuna çatanda dayandı. Sürücü başını içəri çəkib yanındakı kişiyə nə dedisə, o, qapını açıb yerə düşdü. Maşının qabağından fırlananda Gülmirə onun hərbi geyimli adam olduğunu gördü; leytenant idi. Libasından təyyarəçi olduğunu dərhal başa düşən Gülmirənin ürəyinə xoşagəlməz, cansıxıcı bir hiss axıb doldu. Qolunun

qaraya çalan tükləri qabardı, bədənini soyuq bir gizilti gəzib dolandı. Leytenant ucaboylu, enlikürəkli, sarışın adam idi, əlindəki kağıza baxa-baxa qətiyyətsiz addımlarla Gülmirəyə sarı gəlirdi. Tuşuna çatanda ona baxdı, nə isə demək, ya soruşmaq istədi. Bu ara gözləri küçə qapısının üstündəki ünvana sataşanda iti addımlarla Gülmirəgilin qapısına tərəf addımladı. Əlini qətiyyətsizliklə zəngin düyməsinə uzadanda Gülmirə özünü saxlaya bilməyib ayağa qalxdı.

— Sizə... kim... lazımdır?— deyə ağır və dəhşətli bir xəbər eşidəcəyindən qorxa-qorxa soruşdu.

Leytenant diqqətlə Gülmirəyə baxdı və nə üçünsə bu aydın suala birdən-birə cavab verə bilmədi. Neçə saniyə sonra dili topuq çala-çala:

— Siz Əqdəmin yoldaşısınız?— dedi.

— Bəli...

Araya çox da uzun sürməyən, lakin dəhşətli bir süküt çökdü.

Leytenant papağını çıxartdı və başını sinəsinə endirdi. Yalnız bu an Gülmirəyə hər şey aydın oldu. O, alacalanıb böyümüş nəzərlərini fırlayıb ağ maşına baxdı və dönüb leytenanta həzin, qırıq səslə müraciət etdi:

— Yoxsa... Əqdəm...

— Bə...li, Əq...dəmm...— deyə leytenant udqundu. Artıq söz-söhbət gərək deyildi. Bu xəbərdən Gülmirə sarsıldısa da, ah-nalə çəkib küçədə fəryad qoparmadı.

— Yuxum çin oldu, Əqdəm gəldi, — deyə inlədi.

— Vəzifə başında.. təyyarə qəzası nəticəsində... — Leytenant qısaca məlumat verdi.

***

Tabut da maşın kimi ağ idi, kəfənə bürünmüşdü. Evin ortasında qoyulmuşdu. Gülmirə qara paltar geyinib, tabutun baş tərəfində oturub səssiz-səmirsiz ağlayırdı. Otaq adamla dolu idi. Tanışlar, qohumlar,

qonum-qonşular yığılıb gəlmişdi. Xatın arvad, Maşa xala, Nadirə arvadlar arasında xısın-xısın ağlaşırdılar. Salmanla Aslanzadə o tərəfdə fikirli dayanmışdılar. Gülmirənin atası irəli yeriyib:

— Ağlamaqdan bir şey çıxmaz, bala!— dedi.— Öləni ağlamaqla geri qaytarmaq olmur.

Gülmirə ayağa qalxdı:

— Açın tabutu!..

Atası tabutun üstünə əyiləndə qapının ağzında dayanmış leytenant qabağa gəldi və kişinin nə etmək istədiyini başa düşüb, amiranə bir səslə:

— Tabut açılmayacaq!— dedi.

— Necə yəni tabut açılmayacaq?— deyə Gülmirənin atası tərs-tərs leytenanta baxdı.

— Açılmayacaq! — Leytenant təkrar elədi. — Beləcə basdırılacaq!

Yığışanlar bu söhbətin mənasını anlamasalar da, döndərib heç nə soruşmadılar. Araya ağır sükut çökdü. Hamının ürəyində belə bir fikir dolandı: «Görünür, bu cür lazımdır».

Gülmirə bütün varlığını yandırıb-yaxan bir hisslə düşündü: «Yəqin, yazığın tanınası halı qalmayıb».

Əqdəmlə son dəfə necə üz-üzə dayandığını, nə cür ayrıldığını xatırlamağa çalışdı. O, Əqdəmi axırıncı dəfə Orxanın məzarı üstündə görmüşdü. Qəzəbli idi? Yox! Onda Əqdəmin sifətində təəccüb ifadəsi vardı. Gülmirə ərini elə oradaca təşvişlə verdiyi sualları da sanki təzədən eşitdi: «Ö...lən kimdi?.. Kimdi ölən?!.»

Gülmirənin ürəyini bir istək yandırmağa başladı: tabutu açmaq, onun üzünü, yumulu gözlərini son dəfə görmək istədi. Yoxsa o, Əqdəmin ölümünə inana bilməzdi. İnanmaq istəməzdi. Ancaq çox çətinliklə, soyuq bir mühakimə ilə özünü inandırmağa müvəffəq oldu ki, burada heç nə eləmək mümkün deyil. Gedəni geri qaytarmaq, öləni saxlamaq olmaz!

Salman Aslanzadədən ayrıldı, leytenantın qoluna girib onu kənara çəkdi.

— Danış görək, axı, necə olub?— deyə təfsilatı bilmək istədi.

Leytenant -dedi:

— Əqdəm bizim dəstənin ən yaxşı təyyarəçisi idi. Axır vaxtlar fikirli, düşüncəli gəzib dolaşırdı. Söhbət-filan eləyəndə də hiss olunurdu ki, fikri başqa yerdədi.— O bu sözləri deyəndə üç addımlıqda dayanmış Gülmirə də yaxın gəldi, qulaq asmağa başladı.— Bu isə təyyarəçi üçün yaramazdı. Uçuş zamanı təyyarəçinin başında dərd-sər olmamalıdır, o, ancaq uçuş haqda düşünməli, maşının səsinə qulaq kəsilməlidir. İndiki təyyarələrin sürəti də bilirsiniz, necə çoxdur. Uçuş zamanı onun bəzi kənar hərəkətlərə yol verdiyi müşahidə edilmişdi və ona komandanlıq xəbərdarlıq etmişdi. Srağagün gecə biz üç təyyarə aerodramdan qalxdıq. Qırx beş dəqiqədən sonra ikimiz yerə endik, o qayıtmadı. Gözlədik? Radio ilə çağırdıq, ondan cavab çıxmadı. Nəticə məlum idi: təyyarə hardasa qəzaya uğramışdı. Hətta biçarə komanda məntəqəsinə xəbər də verməyə müvəffəq olmamışdı. Səhər axtardıq, dağın ətəyində bir çuxur tapdıq, təyyarənin qırıntılarını on iki metr dərinlikdən çıxartdıq...

Gülmirə çəkilib getdi. Kaş bu söhbəti eşitməyəydi. Bu onun üçün çox ağır, Əqdəmin ölümündən də ağır zərbə idi. «Fikirli gəzib dolanırmış! Demək, mənəm günahkar, sənin qatilin mənəm, Əqdəm!—deyə o, təzədən inildəməyə başladı. — Mən nə bədbəxtəm, ilahi! Mən nə bədbəxtəm».

Leytenant axşam Əqdəmin paltarlarını, sənədlərini, kitablarını, çamadanını Gülmirəyə tapşırdı.

O gecə dünyanın ən ağır və uzun gecəsi idi...

## ON BİRİNCİ FƏSİL

Yeddisi çıxandan sonra gəlib-gedənlərin arası seyrəldi. Gülmirə öz dərdli ürəyi və qəmli taleyi ilə tək-tənha qaldı.

Bir axşam otağa çəkilib leytenantın gətirdiyi şeyləri yerbəyer eləyirdi. Bax, bu onun səliqə ilə ütülənmiş hərbi kostyumu idi. O, ütülü paltar geyməyi çox xoşlardı; həmişə özü ütülərdi. Bu, onun mavi köynəyi, bu onun qalstuku. Bu nişanlar da onundur. Pasportu, hərbi bileti... Qəzet bükülüsü arasında nəsə vardı. Açdı. Pul idi. «Özünə qismət olmadı — deyə fikirləşdi.— Yox, bu pulların bircə qəpiyinə də əl vurmaram. Qəbrini düzəltdirəcəm, Orxanın qəbri kimi, gözəl, yaraşıqlı...»

Bu da onun oxuduğu kitablardı.

Kitabları vərəqlədi. Arasında heç nə yox idi.

Gözünə dəftər dəydi. Vərəqlədi. İlk səhifəsində oxuduğu sözlər onu çaşdırdı: «Orxan Əlizadənin gündəliyi». Bu nə idi? Yuxumu görürdü? Orxanın gündəliyi Əqdəmin əlinə haradan düşübmüş? Belə gündəliyin varlığından Gülmirənin özünün xəbəri yox idi. Odur ki, Gülmirə elə dizlərini yerə vurduğu halda Orxanın gündəliyini oxumağa başladı. Hər sözü, kəlməsi Orxanı onun gözünün qabağında canlandırırdı. Onun həyatının müəyyən anları, bu anlardakı düşüncələri, fikirləri, qəzəbi və məhəbbəti burada öz əksini tapmışdı, xüsusilə Gülmirənin özü ilə bağlı olan səhifələr...

Gülmirə üçün yazılmış şerləri də oxudu. Orxanın təmiz, saf məhəbbətindən bəhs edən səhifələri də. Oxuduqca səssizcə ağlayırdı. Bilmirdi ki, nəyə ağlayır, ərinəmi, Orxanamı, öz taleyinəmi?

Orxan necə də namuslu adam imiş! Onun bu səmimi etirafı — Gülmirənin sədaqəti haqqında yazdığı sətirlər Əqdəmin qara şübhələrini alt-üst edib dağıda bilərdi. Bilərdi? Ya bildi? Heyf ki, indi Əqdəm sağ deyil yoxsa Gülmirə bu gündəliklə onun qabağında dayanar: «İnanmırdın, al, oxu, gör Orxanla mənim aramda nə

olub»,— deyərdi. Amma bu, mümkün deyildi. Görəsən, Əqdəm bunu oxuyanda nə fikirləşib?

Orxan öləndən sonra da Gülmirəni müdafiə edir, əlindən tuturdu, yıxılmağa, ləkələnməyə qoymurdu.

«Orxanın gündəliyi Əqdəmin əlinə haradan keçmişdi».

İki gün sonra sirr açıldı, Nadirə dəftərin sorağına gələndə.

—Əqdəmin şey-şüyünün arasına baxmısan?— deyə xeyli dərdi-dil eləyəndən sonra Nadirə soruşmuşdu.

— Hə.

— Oradan dəftər tapmadın ki?

— Tapdım,— deyə astaca cavab verdi və o dəqiqə solğun üzünə qızartı çökdü. Bədəni isindi. İndiyəcən ona elə gəlirdi ki, Əqdəmlə, Orxanla əlaqədar hadisələri heç kəs bilmir. Lakin indi başa düşdü ki, yanılıb.

— Onu Əqdəmə sən göndərmişdin?— zəif, taqətsiz halda Gülmirə ayağa qalxıb dəftəri gətirərək onun qabağına qoydu.

— Hə... Mən hər şeydən xəbərdar idim, Gülmirə. Əqdəmin sənə yazdığı məktubdan da, çıxıb getməsindən də.

— Haradan bilirdin?

—Əqdəmlə barda rastlaşmışdım, o mənə demişdi.

— Denən mən rüsvay olmuşam də.

— Yox, bunu Salman əmindən və məndən başqa heç kəs bilmir. Bu gündəliyi də Salman əmin Orxanın arxivindən tapıb. Belə fikirləşdik ki, sənə kömək eləyək, Əqdəmi evə qaytaraq, ailənizin dağılmasına yol verməyək. Odur ki, gyndəliyi eynilə Əqdəmə göndərdik, üç ay bundan qabaq. Oxusun, həqiqəti bilsin, şübhələri özündən kənar eləsin. Amma görünür, qayıtmaq istəmədi.

Gülmirə köksünü ötürdü:

— Qayıtdı, ancaq belə qayıtdı, Nadirə xanım. Söz tapmırmış təki başlarını aşağı salıb susdular. Nəhayət, Gülmirə ağır-ağır dilləndi:

— Meyidini gözümlə görmədim deyə, elə bilirəm, heç ölməyib. Elə bilirəm, bu saat haradasa uçur, elə bilirəm günlərin birində qapını açıb içəri girəcək; yuxuda gördüyüm təki...

— Kaş elə olaydı.

***

Ertəsi gün gözlənilməz, ağlasığmaz bir hadisə baş verdi: işdən sonra, Gülmirə çörəyini yenicə yemişdi, süfrəni yığışdırmağa da imkan tapmamışdı ki, telefon səsləndi, Gülmirə könülsüz dəstəyi götürdü.

— Mənəm, Gülmirədi,— dedi.

— Salam, Gülmirə, mənəm, Əqdəməm!

—Əqdəəmm?!. — deyə o qışqırdı. Əqdəm onun qışqırığına, fəryadına əhəmiyyət vermədi. Səsinin ahəngini də dəyişmədən əlavə etdi:

— Necəsən, qadası?.. Mən yaxşıyam, Gülü! Məni bağışla, bağışla! Mayın axırında gələcəyəm. Öpürəm səni... xudahafiz!..

Gülmirənin ürəyi qısıldı və o, tappıltı ilə yerə sərildi. Çoxmu belə qalmışdı, azmı belə qalmışdı, bilmirdi. Ayılanda telefon dəstəyini bərk-bərk əlində sıxdığını gördü. Nə olduğunu birdən-birə dərk eləmədi. Qorxu içərisində düşündü ki, deyəsən, başıma hava gəlir, deyəsən, dəli oluram. Əqdəm sağdı. Əqdəm ölməyib! Ürəyim məni aldatmırdı. Mən bilirdim ki, o tabut boşdu, Əqdəm orda yoxdu. Yoxdu Əqdəm tabutda! Əqdəm ölməyib. Əqdəm indicə zəng eləmişdi, mayın axırında gələcək.

Beynində dolanan bu fikirlərlə o sıçrayıb qalxdı, özünü bayıra atıb «Əqdəm ölməyib» — deyə qışqırmaq istəyirdi ki, telefon yenidən səsləndi.

— Bəli, Əqdəm, sənsən?!.

— Eto ni Aqdam, druq eqo — Valeri, — deyə telefondan tanış olmayan səs cavab verdi. — Evdəsinizmi, mən sizin yanınıza gəlmək istəyirəm.

— Gəlin, — dedi.

On dəqiqədən sonra Əqdəmin təyyarəçi dostu, bir yerdə şəkil çəkdirdikləri Valeri Gülmirəgildə oturmuşdu. Valeri şad idi. Əlindəki balaca qara qutunu stolun üstünə qoyub gülümsünə-gülümsünə danışırdı.

—Əqdəmin yanından gəlmişəm. Kefi kök, damağı çağdı. Bizdə oturmuşduq. Dedi, Bakıya kedəcəksən, bir-iki kəlmə deyim. Gülmirəyə yetirərsən. Səsini telefonda eşitdin? Telefonda yaxşı eşidilməzdi. Elə deyilmi?

O, qutunu açdı, qara, yaraşıqlı bir maqnitofon Gülmirənin gözlərini qamaşdırdı. Düyməsini basdı, Əqdəm danışmağa başladı, Eynilə telefonda dediyi sözlərdi.

— Nə deyir, bilmirəm. Mən sizin dili başa düşmürəm,—deyə Valeri cibini qurdalayıb bir kağız da çıxartdı. Ona lal adamlar təki qulaq asan Gülmirə axırı soruşdu:

— Siz nə vaxt gəlmisiniz Əqdəmin yanından?

— İyirmi gündü. İstirahətə çıxmışdım, getdim bir az ata-anamın yanında qaldım, indi sizin Xəzərin sahilində dincəlmək istəyirəm.

— Siz,— deyə Gülmirə udqundu,— gecikmisiniz, Valeri! Əqdəm bu gün on gündü... artıq yoxdu...

— Nə?! — Valerini heyrət bürüdü. — Nə?! Ayağa qalxanda gözləri divardan asılmış qara çərçivədəki şəklə sataşdı. Sarsılmış halda:

—Əqdəm!.. — deyə bildi. Başı sinəsinə endi.

## ON İKİNCİ FƏSİL

Kitabların da taleyi insanların taleyi kimi müxtəlif olur. Xoşbəxt doğulanı var — ürəklərin, ağılların mənəvi qidası olur, əl-əl gəzir, öləndə də əldə ölür, oxucu əlində. Fərli övlad kimi müəllifinin adını uca eləyir.

Bədbəxt doğulanı var — şikəst olur, uzağa gedə bilmir, kitabxanaların, mağazaların rəflərində toz qalağı altında itib-batır, fərsiz övlad təki müəllifinin başını aşağı, gözünü kölgəli eləyir.

Kitab da var, atasının ölümündən sonra dünyaya gələn uşağa bənzəyir, Orxanın kitabı kimi.

... Dram teatrının geniş, işıqlı foyesnndə Nizami muzeyinin təşkil etdiyi Mirzə Cəlil sərgisinin yaradıcı tərtibatçıları Orxanı da unutmamışdılar. Stendlərin birində sənətkarın qocaman tədqiqatçıları ilə yanaşı Orxanın da şəkli vardı. Mirzə Cəlil haqqında yazdığı dərin mənalı, poetik kəlamlarından biri şəklinin altında yazılmışdı. Orxan burada öz müəllimləri ilə, o cümlədən, Salmanla yanaşı dayanmışdı. Deməк, Orxan Mirzə Cəlilin şanlı təntənəsinə gəlmişdi.

Zəng vuruldu. Camaat yerlərini tutub əyləşdi. Rəyasət heyətinin başı üzərində, geniş alınlı, nurani sifətli Mirzə Cəlilin pərdəyə bərkidilmiş, iri portreti mehriban bir təbəssümlə salonda oturanlara baxırdı. Sanki kişi dil açıb deyəcəkdi: «Xoş gəlmisiniz, övladlarım. Qədir bilənlərim, xoş gəlmisiniz!».

Məmləkətin adlı-sanlı adamlarından başqa, xaricdən də yazıçılar, alimlər gəlmişdi.

Rəyasət heyətinə düşə bilməyən Salman qabaq cərgələrin birində oturmuşdu. Gözü yuxarıda oturanlarda idi. Xarici qonaqların neçəsinin əlində Orxanın kitabını görəndə o, ürəyində qəribə bir sıxıntı duydu. «Orxan öləndən sonra nəinki ölkəmizin hər guşəsinə, hətta xarici ölkələrə də gedib çıxacaq, yaşayacaq demək!».

Elə bu ara giriş sözü deyən məşhur alim sözünün axırında gözlənilmədən Mirzə Cəlilin cavan və istedadlı tədqiqatçısı, vaxtsız aramızdan getmiş Orxan Əlizadənin xatirəsini bir dəqiqə sükutla yad etməyə çağıranda Salman qulaqlarına inanmadı. Bir adam təki ayağa qalxan zal başına dolandı. Nə vaxt ayağa durduğunu da hiss eləmədi. Salmana elə gəldi ki, hamı ona baxır. Bir dəqiqəlik sukut məhkəmə önündə dayanıb ölüm hökmü dinləyən cani kimi ona ağır gəldi, sarsıdıcı gəldi.

Oturdular. O da oturdu. Ancaq gözlərini açıb rəyasət heyətinə baxa bilmədi. Ona elə gəlirdi ki, Orxan da orada oturub, gözlərini

Salmana zilləyib. Qulaqları deyilən, sözləri eşidirdi. Amma heç nə dərk eləyə bilmirdi.

Məşğuliyyət tapdı. Yadına düşdü ki, Orxanın bu gün çapdan çıxmış kitabından bir nüsxə də onun əlindədir.

Açdı. Vərəqlədi. Kitabın çox da böyük olmayan müqəddiməsinin axırında öz adını görüb ürəyini, varlığını məngənə təki sıxan fikirləri unudaraq sevindi.

Salman bu kiçik məqaləni yazanda, həqiqətən, xəsislik eləməmişdi, necə deyərlər, başını açıb Orxan haqqında ən səmimi, ən şirin sözlərini kağıza köçürmüşdü. Məqaləni oxuyan adam Salman Qurbanzadənin Orxana olan məhəbbətini hiss etməyə bilməzdi, burada Salman Orxanın istedadını açaraq tutarlı, yığcam ifadələr işlətmiş, axırda isə gözəl, qabil alimin «yaradıcılığının çiçəkləndiyi vaxt» aramızdan getməyinə bir müəllim, bir elm adamı kimi yana-yana təəssüflənmişdi. İndi budur, Orxan özü burda yoxsa da əsəri burdadır, Mirzə Cəlilin təntənəsinə gəlib. O indi, bax, rəyasət heyətində əyləşmiş, xarici məmləkətlərdən gəlmiş o möhtərəm alimlərlə xaricə gedəcək, tək getməyəcək. Salmanı da özü ilə aparacaq.

## ON ÜÇÜNCÜ FƏSİL

Ceyhun da, Rəhim də on gün bundan qabaq son imtahanı verib orta məktəbi bitirmişdilər. Rəhim Qızıl medalla, Ceyhun eləbelə. Salman həmin gün evdə yaxşı bir süfrə açmış, Ceyhunun sinif yoldaşlarını evə dəvət etmişdi.

Onlar sənədlərini Universitetə vermişdilər.— Rəhim şərq, Ceyhun filologiya fakültəsinə, Rəhim cəmisi bir imtahan verəcəkdi — yoxlama imtahanı, Ceyhun isə hamısını.

Bu günlər Salman oturub fikirləşir, uşağın qəbul olunması üçün yollar arayırdı. Nadirə də oğlunun qabiliyyətinə yaxşı bələd idi. Ümidsiz idi. Güvəndiyi bir şey yox idi.

Sənədlərini verib gələndən sonra Ceyhunu yanına çağıran Salman diqqətlə oğlunun üzünə baxıb xəbər almışdı.

— Hə, girə biləcəksən, ya yox?

Ceyhun çiyinlərini çəkmişdi.

— Gücünə inanmırsan?

— Bu, gücdən asılı deyil ki!

— Bəs nədən asılıdır?

— Adamından. Kimin adamı var, o girəcək.

— Nədən bilirsən, ədə?— deyə Nadirə sözə qarışmışdı və ona cavab verməyə imkan verməmiş, demişdi:

— Kimin başı var, o girəcək.

Ceyhun qeyri-iradi olaraq əlini başına çəkmiş, sanki bununla başının olub-olmadığını yoxlamaq istəmişdi.

— Rəhimcən də olmadın, o, qızıl medalla qurtardı, sən isə...— Onun da adamı vardı? Əgər adamnandırsa, bəs sənə nə üçün medal vermədilər? Atan da alimdi, anan da?

Ceyhun yenə çiyinlərini çəkmişdi.

— Baxım imtahan vərəqinə.— Salman Ceyhunun əlindəki kağızı aldı, orada Ceyhunun xətti ilə belə yazılmışdı: Ceyhun Salman Qurbanzadənin oğlu.

— Bunu sən özün yazmısan? — Hə..

— Bəs belə niyə yazmısan? Eşidirsən, Nadirə? Gör necə yazıb, «Ceyhun Salman Qurbanzadənin oğlu».— Salman gülmüşdü:— Ay fırıldaq. İstəyirsən atanın adından istifadə eləyəsən?

— Belə fırıldaqları fikirləşib tapmağa sərf elədiyin vaxtı oturub oxumağa sərf eləsəydin, bəlkə də özünü bir yana çıxardardın,— deyə Nadirə yanıb yaxıla-yaxıla dillənmişdi.

Salman isə fərəhlə gülümsünə-gülümsünə əlini uzadıb Ceyhunun boynundan tutub silkələmişdi:

— Xoşum gəldi. Bax, buna varam! Zirək olmaq lazımdı. Zəmanə adamı olmaq gərəkdir.

Salman ərki çatan müəllimlərə oğlunu tapşırmışdı. Bu işdə Nadirəni də «səfərbər» eləmək istəmişdisə də, mümkün olmamışdı. «Mənciyəz elə şeyləri bacarmaram. Bacarar — girər, bacarmaz — heç!».

İnşanı hamıdan axırda qurtaran Ceyhun iki gündən sonra suyu süzülə-süzülə evə qayıtmış və gətirdiyi qara xəbərlə Salmanı məyus eləmişdi.

Elə bu arada Sədəf gəlmişdi. Sevinclə gəlmişdi. Şad xəbər gətirmişdi. Rəhim imtahanını müvəffəqiyyətlə vermişdi, sevincindən evdə duruş gətirə bilməyən Sədəf bacısıgilə tələsmişdi.

Amma Nadirənin də, Salmanın da görkəmi onun sevincinin, fərəhinin üstünə su çilədi.

Nadirə bir kəlmə dedi:

— Bədbəxtin balası kəsilib!

Sədəf, əlbəttə, Ceyhunun «kəsildiyindən» pərt oldu.

— Bəs Rəhimin işi necə oldu?—deyə Nadirə fikirli-fikirli soruşanda Sədəf ani sükutdan sonra:

—Hələ bilinmir,— dedi. Ancaq onun fikri bu dəqiqə oğlunun yanında idi... Xəyalında qəlbinin şadlığı, arzuları şəhərə sığışmayan bir yeniyetmə qürurla addımlayırdı.

## ON DÖRDÜNCÜ FƏSİL

Gülmirənin əli işdən soyumuş, fikri dağınıq olmuşdu. Dindirsən dinir, dindirməsən nitqi tutulmuş adam təki lal-dinməz baxır, şəhərdə, institutda kölgə kimi gəzib dolanırdı. Ən gülməli söhbətləri belə təbəssümlə qarşılayırdı.

O, qəbiristanlığa çox getmişdi.— Orxanın məzarı üstünə. İndi də həmin çığırla gedirdi. O cığır Gülmirəni düz Əqdəmin qəbrinin yanına aparıb çıxarırdı, çünki o iki cavan bir-birinin yanında dəfn

olunmuşdu. Qəbirləri də eyni cür idi, hasarları da, başdaşları da. Sən demə, yaşıd imişlər. Sevdikləri adam da bir olub — Gülmirə!

O gəlib iki qəbrin ayaq tərəfində, aralıqda dayanır, gətirdiyi gül dəstəsinin birini Əqdəmin qəbrinin üstünə qoyur, birini də Orxanın. Gül dəstələri də eyni olurdu. Bir srlur, bir saralırdı. Təzələnəndə də bir təzələnirdi.

Şirin arvad hər dəfə gələndə oğlunun da qəbri üstündə təzə gül dəstəsi görür, dəstələrin oxşarlığı, eyni gündə qoyulmağı onun da nəzərindən qaçmırdı. Sonralar Şirin arvad da gül dəstəsini qoşa gətirirdi.

Daxili aləminə qapılıb öz fikirləri ilə tək qaldıqca Gülmirə yorulub əldən düşdüyünü aydınca hiss eləyirdi. Belə vaxtlarda həyat onun üçün öz gözəlliyini, cazibədarlığını itirir və mənasızlaşırdı. Belə hallarda o, heç nə eləmək, hətta yemək belə istəmirdi. Belə sarsıntı keçirdiyi günlərin birində Nadirə Gülmirəyə xatırlatdı ki, daha işə girişmək, Orxanın ona tapşırılmış əsərlərini makinaya vermək, yazdırmaq, sonra təzədən oxuyub təshih eləmək lazımdır. O, işə başladı. Orxanın əlyazmalarını oxudu, diqqətlə, dönə-dönə oxudu, öyrənə-öyrənə oxudu. Professorun seçib hazırladığı əsərlərdən başqa, Gülmirə Orxanın çap olunmamış hekayələrini, şerlərini tapanda əvvəl gözlərinə inanmamışdı, lakin hekayələrin, şerlərin altında yazılmış tarix və Orxan sözü onun şübhələrini aradan qaldırmışdı. Demək belə! Orxan təkcə alim deyilmiş, o, həm də yazıçı imiş, şair imiş!

Bəs niyə o, indiyəcən bir hekayə, bir şer çap etdirməyib? Yoxsa bu onda ötəri bir həvəs imiş ki, gəlib keçib?

Diqqətlə əlyazmalarını mütaliə eləyən Gülmirə bu qənaətə gəlirdi ki, yox, bu ötəri həvəs olmayıb, o həmişə yazıb: şer də yazıb, hekayə də. Gülmirənin öz ağlına və az-çox zövqünə görə bu hekayələr, şerlər heç də çap olunan əsərlərdən geri qalmazdı, nə bədii cəhətdən, nə də fikir və mündəricə nöqteyi-nəzərindən! Şerlərini də «Pərişan sətirlər» adlandırmışdı. Biri belə idi:

Əgər insafın var gəl demə belə—
Arzular üstünə yağan qaram mən.
Xoşbəxtlə xoşbəxtəm, ölləm ölənlə,
Yetimə-yesirə havadaram mən.

Ey könül, qəmxar ol, insan dərdi çək,
Onsuz bu ömür, de, nəyimə gərək.
Birinə arxa ol, birinə kömək, —
Hər vaxt yaxşılığa can ataram mən.

İnsan! Min ehtiram bu böyük ada,
Yolunda ömrümü verərəm bada.
Eşqimi, sevgimi ona dünyada
Öləndən sonra da yaşadaram mən.

Gülmirə Nadirə ilə məsləhətləşəndən sonra, Orxanın çap olunmamış hekayələrindən və şerlərindən bir neçəsini hazırlayıb kiçik müqəddimə ilə qəzetə, jurnala təqdim etdi. Orxanın səsi mətbuat səhifələrindən gəlməyə başladı. Orxan öləndən sonra da əsərləri çap olunurdu. Oxuyurdular, təəssüf hissilə onu yad edirdilər. Gülmirə həmin günlər fikirləşirdi ki, alim, yazıçı, şair — qələm əhli, doğrudan da öləndən sonra da yaşayır. Əsərlərində, yazılarında, fikirlərində və kitablarında yaşayır. Bu ki əbədi yaşamaq deməkdir, bu ki ölməzlik deməkdir!

Gülmirə belə düşünə-düşünə əlində tutduğu qələmə baxırdı və fikrində qələmin sehrinə inam bəsləyirdi, inam isə Gülmirə üçün çox şey demək idi.

## ON BEŞİNCİ FƏSİL

Salman Qurbanzadə ictimai elmlər bölməsinin iclasından çıxanda halı özündə deyildi; ayaq üstə güclə dururdu. Elə pörtmüşdü, elə

qızarmışdı ki, sanki indicə hamamdan çıxmışdı, çırtma vursaydın, qanı damardı. Azca əvvəl, akademiyanın geniş, bu başından baxanda o başı görünməyən salonunda onunla bir yerdə, yanaşı oturmuş və necə çırpılıb döyüldüyünün şahidi olan adamların gözündə özünü nikbin, heç bir şey olmamış kimi göstərməyə çalışırdısa da, buna heç cür müvəffəq ola bilmirdi. Belini şax tutmaq istəyirdisə də bacarmırdı: elə bil, içəridən kimsə gözəgörünməz əlilə Salmanı çəkib əyir, uca boyunu balacalaşdırırdı. Baxışı, gülüşü, təbəssümü saxta və süni təsir bağışlayırdı. Bayaq, bölmənin bəzi üzvləri tərəfindən yaxşı-yaxşı «döyüləndə» ağzına su alıb susanların indi zalın qapısı ağzında yaxınlaşıb: «Əşşi, belə şeylərə fikir vermə, qanını qaraltma,» «Darıxma, Salman.», «Sənin də mənim kimi qədrini bilmədilər, ay Salman.» — deyənlərə, artıq əzik-üzük olmuş, ütüsü bu iki saatın içində pozulmuş dəsmalıyla alnının, üzünün tərini silə-silə cavab verəndə qeyri-iradi olaraq səsi tutulur, ilişikli çıxırdı. Bir çoxlarına heç cavab vermirdi, eləcə, mənalı-mənalı baxıb başını asta-asta tərpətməklə kifayətlənirdi.

Yox, burada daha dayana bilmirdi: sanki bu boyda foyedə hava yox idi, nəfəsi təngiyirdi. Nəsə danışan, gülən alimlərin səsi onun beynini cırmaqlayır, ürəyinin içini ovurdu və ona elə gəlirdi ki, hamı ondan danışır. Od kimi yanan əlini ikinci mərtəbədən burulub birinci mərtəbəyə uzanan, üstünə uzun xalı salınmış mərmər pillənin soyuq sürahisinin üzərində sürüşdürə-sürüşdürə aşağı enərkən ürəyində, beynində bayaq iclasda «qılıncını siyirib üstünə düşənlərə» indi, daldan atılan daş kimi gecikmiş və mənasız olsa da, nifrətlə, acıqla cavab verir, orada camaatın qabağında ehtiyatdanmı, qorxudanmı deyə bilmədiyi sözləri dilinə gətirir, vaxtında ürəyini boşaltmadığına heyifsilənirdi. Ucaboy, enlikürək, çatma qaşları da qar kimi ağappaq ağarmış həyatında belə yığıncaqlarda başının tükü sanı iştirak etmiş Aslanzadənin özünə məxsus təmkin və yumorla, asta-asta Salmana «yedirtdiyi» sözlər beynində təzədən təkrar olunur, rəhmsizcəsinə vurulmuş zərbə kimi canını, ürəyini ağrıdırdı. Ay allah, bu pillələr

niyə qurtarmaq bilmir? Nə uzun imiş bu pillələr? Aha. Şükür, qurtardı, qurtardı. Bu, böyük qapı. Bax, bu da geniş, işıqlı, gəl-gedi çox olan küçə. Ox, hava nə sərinmiş, aman allah. Əl atıb qalstukunu boşaltdı, köynəyinin düyməsini açdı. Və üzü aşağı, Nizami muzeyinə tərəf addımladı. Heç kəsi görmürdü, heç kəsi tanımırdı Salman. Beyni uğuldayırdı, uğuldayırdı: «Demək, belə». Demək Salman Qurbanzadə — ömrünün çoxunu elmi işə sərf eləmiş, onlarla dissertant, aspirant yetirmiş professor Salman Qurbanzadə, indi, yaradıcılığının püxtələşdiyi, kamilləşdiyi bir zamanda, həyatla ayaqlaşa bilmədiyi üçün, cavan elmi kadrların işinə düzgün istiqamət verə bilmədiyinə görə şöbə müdirliyi vəzifəsindən azad edilir.» «Eybi yox, Aslanzadə. Qalsın qırmızı qulluğunda. Vaxt dolanıb gələr, bizim də küçəmizdə bayram olar. Onda o sözlərini içinə bir az da zəhər qatıb sənə elə yedizdirim ki, özün də afərin deyəsən, Aslanzadə.»

Aslanzadənin belə bir iclasda onunla bu cür «zarafatı» Salmanı yaman pərt eləmişdi. Çünki Aslanzadə çox ustalıqla elə buradaca, adamların gözünün qabağında ikibaşlı bir oyuna əl atmış, ömründə çox ütülər altından çıxmış Salmanı çaşdırmışdı: onun məsələsi həll olunub «aşı bişəndən» sonra həmin vəzifəyə kimi qoymaq sualı ortalığa çıxanda akademik Aslanzadə əlini qaldırıb gülümsünə-gülümsünə demişdi:

— Yoldaşlar, mən Salmanı sizdən yaxşı tanıyıram, bir yerdə çox işləmişik. Bir az vəzifəpərəst adamdı, arada Salmanın özünə də göz vurmuşdu bir vəzifə stolunun başına qondumu, daha onu ordan qopartmaq hələm-hələm mümkün olmur, yapışır, kleylənir, stol onun bədəninin ayrılmaz bir parçasına çevrilir, onu stoldan qopartmaq istəyəndə kişinin canı bərk ağrıyır. Biz isə onun «hakimiyyətini» birdən və gözlənilmədən əlindən alırıq. O buna çətin dözər. Məhz buna görə, mən bir direktor kimi, xeyli fikirləşib belə qənaətə gəlmişəm ki, Salmanın ağrılarını bir az da olsa yüngülləşdirmək məqsədilə, onun yerinə başqa adamı yox, Salmanın xanımı Nadirə Qurbanzadəni qoyaq. Nadirə xanım bizim çox

ciddi, samballı alimlərimizdəndi, elə bilirəm ki, o bu vəzifənin öhdəsindən Salmandan da yaxşı gələ bilər. Özüylə danışmışam? Bəli, bəli. Düzdü, bir az fikrə getdi, ehtiyat elədi, Salmanın bu işə necə baxacağından yana nigarançılığını bildirdi, ancaq mən onu başa saldım. Elə bilirəm Nadirə xanım mənim sözümdən çıxmaz, yoldaşlar. Həm institumuzun işi yaxşı gedə bilər, həm də bizim möhtərəm professor öz sevimli vəzifəsinin iyini-ətrini evində arvadından alar.

Aslanzadənin bu sözlərinə salondakılar gülmüşdülər. Salman, Aslanzadənin bu təklifini eşidəndə az qalmışdı ki, yerindən qalxıb dilindən ağır sözlər çıxartsın. Amma direktorun bu sözləri gülə-gülə dediyini, «zarafat» elədiyini başa düşüb boğula-boğula susmuşdu. Nadirəni — onun arvadını Salmanın yerinə qoyurlar? Bu, yaxşımı idi, pismi idi? Əlbəttə, o dəqiqələrdə Salman bunu aydınlaşdıracaq halda deyildi. Fikrində, ürəyində bu suala cavab verməyə macal tapmamış içini başqa — daha kəsərli bir sual zəhər kimi yandırıb pörşələmişdi: «Danışıb Nadirəynən. Əvvəlcədən danışıb. Amma sən arvadın nanəcibliyinə bax ki, bunu mənə deməyi lazım bilməyib. Aslanzadə yaddı, ancaq axı sən mənim... Axx.»

Aslanzadə düz deyirdi: Nadirəyə fikrini demişdi. Ancaq Nadirə bu işə qətiyyətlə «yox» — demişdi və sonra bir daha bu söhbətin üstünə qayıtmamışdılar. Ancaq görünür, Aslanzadə onun qətiyyətini sındıracağına əmin imiş ki, belə bir qərarı bölmənin iclasına çıxartmışdı. Və bu gün də iclasdan əvvəl direktor Nadirəni görmüşdü, nədənsə heç nə deməmişdi: yəqin gözləmirmiş ki, elə həmin iclasda Nadirənin şöbə müdirliyi qalxa bilər.

Nadirənin qarasınca (Aslanzadə və başqa tənqid eləyənlər yadından çıxmışdı) deyinə-deyinə Salman bir də gördü ki, dəniz qırağındadı. Sahildə adam azdı. Daş məhəccərə yaxın gəldi, dirsəklərinə söykənib tutqun sulara, xeyli aralıda dayanıb lövbər salmış, işıqları duman içində güclə görünən tək gəmiyə fikirli-fikirli bir müddət tamaşa etdi, sonra geri döndü. Hardan qayıtdı, hansı küçələrdən keçdi,

kimlərə rast gəldi (və ümumiyyətlə rast gəldimi?), heç nə, heç nə xatırlamadan onda ayıldı ki, evdədi.

Nadirə çox nigaran idi: bayaqdan bir yerdə qərar tutub dayana bilmir, gah balkona çıxır, yola baxır, gah da mətbəxə keçir, orda da tab gətirməyib pəncərənin pərdəsini qaldıraraq küçəyə nəzər salırdı. Bölmənin bu gün iclası olacağını, Salmanın da ora dəvət edildiyini bilirdi. Ancaq məclisin belə uzandığını, Salmanın da bu cür gec döndüyünü xatırlamırdı Nadirə. Bu da qəribə idi ki, heç kəs heç nə deməsə də, bölmədə qoyulacaq məsələlərdən xəbərsiz olsa da, ürəyinə dammışdı ki, bu gün Salmanın ovqatına soğan doğrayacaqlar.

Salmanın qan sağılmış gözlərinə baxan kimi ürəyi uçunan Nadirə ərindən bir söz soruşmağa imkan tapmamış, Ceyhun balkonun qapısını açaraq atasının halının fərqinə varmadan soruşdu:

— Bəs maşın hanı?

— Maşın? — deyən Salman yuxudan ayılmış adam kimi key-key döyükdü, gözlərini geniş açaraq Ceyhunun üzünə baxdı, əlini pencəyinin cibinə salaraq açarları çıxartdı: — Vay, maşını akademiyanın yanında qoyub gəlmişəm.

— Bəs sən... nəynən gəlmisən? — deyə Nadirə təəccüb içində xəbər aldı

— Mən? — Salman nəyisə xatırlamağa çalışırmış kimi gözlərini qıyıb ani sükutdan sonra: — Mən... deyəsən piyada gəlmişəm. — söylədi.

— Sənə nə olub, Salman? — Nadirə soruşduqda o, arvadının sualını cavabsız qoyub üzünü oğluna tutdu:

— Adə, ala açarı, get maşını gətir, qoy qaraja.

Maşın sürmək üçün əldən-ayaqdan gedən, bunun üçün hər gün fürsət axtaran və gözləyən Ceyhun açarı alıb quş kimi qanad açaraq qapıdan çölə şığıdı. Nadirə Salmanın vəziyyətindən, özündə olmadığından, o, hələ heç nə deməsəydi də, işin nə yerdə olduğunu başa düşmüşdü və ürəyində dolandırmışdı ki, gör kişini nə hala salıblar ki,

maşını orda qoyub, nəynən gəldiyi də yadında deyil. Sözsüz-sovsuz hər şeyi anlasa da, yenə özünü saxlaya bilməyib:

— Axı sənə nə olub, Salman? — deyə Nadirə təkrarən xəbər alanda o, baxışlarını qaldırıb qəribə bir kinlə arvadına baxdı və:

— Guya bilmirsən nə olub? — söylədi, səsi xırıldadığından boğazını arıtdı.

— Yoox.

— Yalan deyirsən gözünün içinə qədər, Nadirə.

— Vallah, Salman...

— Yaxşı, yaxşı. Sevinə bilərsən. Məni çıxartdılar. Sevin, sevin... — deyə taqətsiz və hövsələsiz halda divanda oturdu və sınayıcı nəzərlərini Nadirənin üzündə gəzdirdi. Amma gözlədiyinin əksinə olaraq, onun sifətində sevinc əsər-əlaməti yox, bir çaşqınlıq və təəssüf görüb bunu da bir hiylə, məkr, artistlik hesab edərək əsəbiliklə qışqırdı: — Niyə sevinmirsən? Sevin də. Məni çıxartdılar, yerimə səni qoydular. Ürəyin gəlsin yerinə. Dedin, dedin, dilə-ağıza saldın. Sən bir tərəfdən, o gorbagor Orxan bir tərəfdən, Cəfər də o biri yandan. Dediniz, dediniz, axırda başımı yediniz. İndi dincələ bilərsiniz...

—…

## ON ALTINCI FƏSİL

Vəzifədən çıxarılmağından heç kəsin, hətta, Nadirə xanımın da təsəvvürünə gətirə bilməyəcəyi dərəcədə sarsılmış Salman Qurbanzadə elə həmin günün səhəri növbəti məzuniyyətə çıxmağı barədə ərizə yazaraq, incimiş, küsmüş olsa da, arvadını instituta göndərmiş, məzuniyyət pulunu da almağı ona həvalə eləyib bağa getmiş və bir də iki aydan sonra, vaxtı qurtaranda qayıdıb gəlmiş, içəridən əzilə-əzilə, sıxıla-sıxıla təzədən işə başlamışdı. İstirahət zamanı kökəlmək, yaxşılaşmaq əvəzinə, bir az da sınıxmış, hələ lap diqqətlə baxsan, xeyli də qocalmışdı. Bütün bu müddət ərzində Nadirə ilə də ağızucu danışmış,

dindirsə dinmiş, dindirməsə, öz aləminə qapılıb yaşamışdı. Onun yaşına yaraşmayan bu hərəkəti Nadirəni incitsə də, yazıq qadın tənə-təhniz eləməmiş, «Bunu da anası belə doğub də, neyləyə bilərəm?» — deyə dözmüşdü. Salman, Aslanzadədən bərk incimişdi, direktoru olsa da, salam vermir, salamını da almırdı. Dünya görmüş Aslanzadə onun belə eləməyinə gülür, hərdən elə yanında zarafata salıb Nadirəyə deyirdi:

— Ay Nadirə xanım, bu kişini bizimlə barışdırsana. Bir qurutlu xəngəl bişir, yığ bizi bu Salmanın başına, barışdır bizi. Belə xırda-xuruş şeylər üstündə bizim umu-küsü saxlayan vaxtımız çoxdan keçib.

— O, yoldaş Aslanzadə, Salman qurutlu xəngəlnən-zadnan barışan deyil, görünür siz onu hələ yaxşı tanımırsınız: yaman kinli adamdı mənim Salmanım. — deyə Nadirə də yarızarafat, yarıciddi cavab verirdi.

Aslanzadənin uzun minnət-xahişindən, təkidindən sonra şöbə müdirliyini qəbul etməyə razılıq vermiş Nadirə xanım ağıllı bir hərəkət edərək Salmanın həmişə ayrıca oturduğu otağa getməkdən imtina eləmiş, o otağı, yaşlı, hörmətli alim kimi, (əlbəttə, Aslanzadənin məsləhəti ilə) ona vermişdi, özü isə əvvəlki yerində—şöbə əməkdaşlarının yanında oturmağı qərara almışdı. Bu, açığı ki, Salmanın qırışığını xeyli açmış, yumşaltmışdı.

...Nadirə xanım çaşıb qalmışdı: Aslanzadə instituta təzə elmi işçi götürmüşdü və indi onu, onsuz da darısqallıq olan şöbədə yerləşdirmək lazım idi. Təzə işçi İltifatdı. Ancaq əvvəlcə adını bilməyən əməkdaşların bəzisi onu özlüyündə «Dombagöz» adlandırırdı. Gözləri elə həqiqətən də domba idi. Hamı altdan-altdan zahiri görkəmini seyr etsə də, İltifat sakitcə bir qıraqda dayanıb əl-ayağa düşənlərə gözlərini bərəldərək onları qəribə bir tərzdə seyr edirdi. Sifətində qəribə bir məmnunluq vardı. Gülalı sanki özü də bilmədən təzə əməkdaşla yanaşı dayanmışdı və hərdən dodaqaltı nəsə pıçıldayırdı, lakin İltifat ona qulaq asmırdı.

***

...Otağın ortasında dayanıb fikrində hər şeyi ölçüb-biçən Nadirə kədərli-kədərli dedi:

— Orxanın yerində başqa adamı oturtmağa ürəyim heç gəlmir. Ancaq neyləmək olar, boş yerimiz yoxdur. Gülalı, zəhmət olmasa Gülmirə xanımla Orxanın stolunu boşaldın, təmizləyin. Diqqətlə baxın, bəlkə gərəkli kağız-kuğuzu oldu, heyifdi, itməsin.— Sonra üzünü İltifata tutdu:— Sən Orxanın yerində oturarsan..

Nadirə bu sözləri deyərkən heç kəs cınqırını da çıxartmadı. Hamının üstünə elə bil, su çiləndi. Baxışlar dumanlandı, sifətlər kədər buludu ilə örtüldü. «Bəli, dünyanın işinə bax! Orxan kimi oğulun yerində indi gör kim oturacaq!»— deyə duşünən Gülmirə hamıdan çox sarsıldı. Bir anlığa Orxanın bütün həyatı, gözəl, şirin, lakin açılmamış solan böyük məhəbbəti onun xəyalında canlandı. Gülmirənin fikrində, Orxan həmişə bax, bu qırmızı müşəmbəli stolun arxasında otururdu: onun üçün, Gülmirə üçün bu stol boş deyildi, Orxanlı idi bu stol!

Gülmirəni qəhər boğdu, ancaq göz yaşı yanaqlarına yox, ürəyinə axdı və birdən, qeyri-iradi olaraq dərindən bir ah çəkdi Gülmirə. Nadirə xanım onun sinəsindən yox, qəlbindən yox, bütün vücudundan qopub gələn o yanıqlı fəryadı eşidib çevrildi, Gülmirənin qupquru, yaşsız ağlayan gözlərini, məhzun sifətini görəndə elə bil, bədəni alışıb yandı, beyni dumanlandı və bircə anın içində Orxanın Gülmirəyə bəslədiyi o ilahi, o təmənnasız və cavabsız məhəbbəti xatırladı: Orxanın xırda, səliqəli hərflərlə yazdığı gündəliyi vərəqləndi xəyalında, şerləri çırpındı xatirində və o, baxışlarını qaldırıb gözlərini Gülmirəyə hərisliklə zilləmiş İltifata deyil, Gülmirəyə baxıb dedi:

— Yox. Yox. Orxanın yerində sən oturacaqsan, Gülmirə. İltifat da... İltifat da... — Dayandı, elə bil, dili tutuldu: istəyirdi desin: «İltifat da sənin yerində oturar. Ancaq heç özünün də dərk eləmədiyi qəribə

bir qısqanclıq hissi axıb doldu ürəyinə və dodaqlarını kilidlədi Nadirənin. O sözləri deyə bilmədi, əvəzində quru əmrə bənzər bu kəlmələr çıxdı dilindən: — İltifat Gülalının yerində əyləşər, Gülalı da sənin. — Əlavə söz soruşan,—«Bu nə yerdəyişmədi?», «Niyə?», «Nə üçün?» — deyən olmadı.

Sual verən olmasın deyə bir kəlmə də artırdı:

— Vəssalam.

Xoşbəxtlikdən, belə məqamlarda fürsəti fövtə verməyi xoşlamayan Gülalının:

— Siz məndən çox yaşayacaqsınız, Nadirə xanım. Elə mən indicə demək istəyirdim ki, İltifat mənim yerimdə zad eləsin, otursun. Pəncərə ağzıdı, işıqlıdı. Həri. Əntiqə yerdi. — deməsi aradakı çaşbaşlığı ortadan qaldırdı.

— Lap yaxşı. — Bunu Nadirə dedi.

Gülmirənin ürəyi əsdi, yaşla dolmuş gözlərini Nadirə xanıma zilləyib baxdı, baxdı: minnətdarlığını bildirə bilməzdi, çünki burdakılar o minnətdarlığın mənasını anlamaqdan uzaq idilər və bir də, Nadirə xanımın bu həssaslığı hər cür minnətdarlıqdan çox-çox uca idi.

Bu gərgin anda otağın qapısı açıldı, təsərrüfat üzrə müdir müavini içəri girdi. Qoltuğunda ağ mələfəyə bükülmüş nəsə vardı. Nadirə baxışı ilə onun qoltuğundakına işarə edərək:

— O nədir elə, Rahibə?— deyə xəbər alanda Rahibə mələfəni aça-aça:

— Orxanın şəklidi, Nadirə xanım. Aslanzadə tapşırmışdı ki, böyütdürüb şöbədə divardan asaq,— dedi.

Nadirə xanım sevinc içində:

— Afərin!— dedi.— Bu, nə yaxşı oldu, nə yaxşı oldu!..

Şəkil qızılı çərçivəyə salınmışdı. Elə yaxşı, elə canlı çıxmışdı ki, deyirdin bəs bu dəqiqə dil açıb danışacaq, yoldaşlarının kefini-halını soruşacaq. Ancaq o dinmirdi, hamının üzünə baxıb eləcə —

həmişə olduğu kimi, şirin və sirayətedici bir təbəssümlə gülümsəyirdi. Orxan sanki harasa getmişdi, indi qayıdıb gəlib! Həmişəlik gəlib!

Rahibə, şəkli Nadirənin başı üstdən — divara vurulmuş mıxdan asdı. Orxan indi yoldaşlarının hamısından yüksəkdə dayanıb qürurla onlara baxır və gülümsünürdü. Bayaqkı niskil əriyib yox olmuşdu. Otaq sanki daha da işıqlanmışdı. Bu işıq əcil insanın, əsil sənətin və sənətkarın ölməzliyi, əbədiliyi işığına bənzəyirdi.

Gülmirə gözlərini yummuşdu, Orxanın pıçıltılı səsini eşidirdi və özü də ürəyində pıçıldayırdı:

«— Xoş gəlmisən, Orxanım, xoş gəlmisən.»

Nadirə şəklə baxıb fikirləşirdi: «Şöbəmizin əbədi işçisi oldun, Orxan! Səni daha heç kəs o dayandığın ucalıqdan aşağı sala bilməz!»

Gülalı nə vaxtdan ürəyində qaynatdığı, ancaq ehtiyat elədiyindən kimsəyə açıb demədiyi sözləri öz-özünə, dodaqaltı pıçıldadı: «Ölmək zalıma yaman düşdü».

Qapının ağzında, hamıdan arxada dayanan Salman bayaqdan bəri ilk dəfə nəzərlərini qaldırıb Orxanın şəklinə baxdı. Baxışları bir anlığa rastlaşdı. Ancaq professor onun gözünün içinə şax baxa bilmədi, otağı tərk etdi.

Elə bu zaman şəhərin üstündən, alçaqdan bir təyyarə uçub keçdi. Otağın pəncərələri titrədi. Gülmirə başını qaldırıb pəncərədən bayıra baxdı. Sonra ehmalca gözlərini yumdu. Təyyarə uzaqlaşıb getdi, ancaq Gülmirənin fikrində yenə bir təyyarə uçurdu. Bu təyyarə, deyəsən, həmişə, Gülmirənin ömrünün sonuna qədər beləcə uçacaq, uçacaqdı.

*1964-1970*
*Bakı – Kabil*

*Birinci kitabın sonu*

# KİTABIN İÇİNDƏKİLƏR

## POVESTLƏR

İnam ........................................................................................ 8
Həsrət........................................................................................ 72
Meşədə ........................................................................................ 91
Mərdlik ........................................................................................ 102

## ROMAN

Təyyarə kölgəsi ........................................................................ 138

**ƏLİBALA QÜDRƏT OĞLU HACIZADƏ**

# Ə S Ə R L Ə R İ
## X CİLDDƏ

## II CİLD

Bakı – 2004

*Nəşriyyatın direktoru:* **Hafiz Abıyev**
*Nəşriyyat redaktoru:* **Qabil Xeyrullaoğlu**
*Korrektor:* **Ramin Alıyev**
*Operator:* **İradə Həsənli**
*Cildçi:* **İlyas Cəlilov**
*Çapçı:* **Mircəlal Kazımov**

Çapa imzalanmışdır: 10.09.2004. Sifariş № 24. Formatı $84x108^{1/32}$.
Həcmi 31,5 ç.v. Tirajı 1000 nüsxə.

*Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi,*
*Bakı şəh. H.Cavid pr. 29 A. Tel.: 4393972*